AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI BİZNES UNİVERSİTETİ

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş

"*Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri"* mövzusunda

Beynəlxalq elmi-praktiki konfransın materialları

Bakı, 6 may, 2021-ci il

****

Conference Proceedings of the International Scientific-Practical Conference Dedicated to the 98th Birthday Anniversary of Nationwide Leader Heydar Aliyev

"Global Economic Challenges: the Main Socio-Economic Directions of Development in the Liberated from Occupation Territories of Azerbaijan"

Baku, May 6, 2021

****

Материалы международной научно-практической конференции, посвященной 98-ми летию со дня рождения Общенационального Лидера Гейдара Алиева

"Глобальные экономические вызовы: основные направления социально-экономического развития на освобожденных от оккупации территориях Азербайджана"

Баку, 06 мая, 2021

Redaktor: İbad Abbasov, iqtisad elmləri doktoru, professor

Tərtib edənlər: İslam İbrahimov, iqtisad elmləri doktoru, professor
Sabir Əmirxanov, professor
Məleykə Abbasova, hüquq üzrə fəlsəfə doktoru

Editor: Ibad Abbasov, D.Sc. (Econ.), Professor

Compilers: Islam Ibrahimov, D.Sc. (Econ.), Professor
Sabir Amirkhanov, Professor
Maleyka Abbasova, Ph.D. in Law

Редактор: Ибад Аббасов, доктор экономических наук, профессор

Составили: Ислам Ибрагимов, доктор экономических наук, профессор
Сабир Амирханов, профессор
Малейка Аббасова, доктор философии по праву

"*Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri*". - Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2021-ci il, 533 səh.

"*Global Economic Challenges: the Main Socio-Economic Directions of Development in the Liberated from Occupation Territories of Azerbaijan".* - Conference Proceedings of the International Scientific – Practical Conference. Baku, 2021, 533 p.

"*Глобальные экономические вызовы: основные направления социально-экономического развития на освобожденных от оккупации территориях Азербайджана".* – Материалы международной научно-практической конференции. Баку, 2021, 533 стр.

©"Bakı Biznes Universiteti" nəşriyyatı, 2021.
©"Baku Business University" Press, 2021.
© Изд-во "Бакинский Университет Бизнеса", 2021.

Abbasov İbad Musa oğlu,
iqtisad elmləri doktoru, professor,
Bakı Biznes Universitetinin rektoru
Email: rektor@bbu.edu.az

GİRİŞ NİTQİ

QLOBAL İQTİSADİ ÇAĞRIŞLAR: İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

Hörmətli həmkarlar, dəyərli qonaqlar, xanımlar və cənablar! Mən hər birinizi Bakı Biznes Universitetinin professor-müəllim heyəti və çoxsaylı tələbə kontingenti adından salamlayaraq, pandemiyanın dünyanı cənginə alıb getdiyi bir zamanda sizə, hər kəs üçün qiymətli olan sağlam həyat arzulayıram. Əziz dostlar, konfransda 5 xarici ölkənin nümayəndələri, respublikamızın tanınmış ziyalıları və bir sıra ali təhsil məktəblərinin rektorları, habelə digər nüfuzlu təşkilatların səlahiyyətli nümayəndələri iştirak edir. Beynəlxalq konfransımız Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmişdir. Konfransın mövzusu qlobal çağırışlar dövründə dünyada narahatlıq yaradan münaqişələr və bu münaqişələrin həllindən sonrakı, yəni post-konflikt dövründə həmin ərazilərin bərpası və sosial-iqtisadi inkişafla bağlı olan problemlərə həsr edilmişdir. Dünyada hazırda belə konfliktlərin sayı 30-dan çoxdur və onların yarıdan çoxu Afrika ölkələrinin, bir hissəsi yaxın Şərq, bir hissəsi isə Asiya ölkələrində gedən münaqişələrdir. Bunlar müxtəlif xarakterli münaqişələr olsa da, mahiyyətcə böyük əksəriyyəti ərazi iddiası ilə bağlıdır.

Təcrübə göstərir ki, bu tip konfliktlər zamandan asılı olaraq gec-tez öz ədalətli həllini tapır. Buna misal olaraq Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsini göstərmək olar. 30 ildən çox bir dövrdə ərazi münaqişəsi davam etsə də, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin polad iradəsi, cəsur əsgərlərimizin rəşadəti, peşəkar zabitlərimizin müasir-hərbi texnologiyalardan istifadə etmək bacarığı və xalqımızın möhtəşəm birliyi nəticəsində 44 gün ərzində münaqişə öz ədalətli həllini tapmışdır. İndi isə ölkəmizdə yeni bir dövr başlayır – işğaldan azad edilmiş ərazilərin bərpası və sosial-iqtisadi inkişafı problemlərinin həlli. Hörmətli konfrans iştirakçıları, əziz qonaqlar, xanımlar və cənablar, mövzu ətrafında müzakirələrə başlamamışdan öncə yaddaşımızı təzələmək üçün işğaldan azad olunmuş ərazilərimizlə bağlı bir arayış vermək yerinə düşərdi.

Bildiyiniz kimi Ermənistan, dövlət olaraq XX əsrin ikinci on illiyinin sonunda Azərbaycanın əzəli və tarixi ərazisi olan İrəvan xanlığının əsasında 9 min km^2 ərazidə yaradılmışdır. Bu, ayrıca bir tarixi prosesdir. Mən bu prosesin ətrafında müzakirə açmaq niyyətində deyiləm, lakin onu qeyd etmək istəyirəm ki, həmin dövrdən indiyə qədər, yəni ötən bir əsrdə ermənilər hər bir tarixi-siyasi, münbit şəraitdən istifadə edərək Azərbaycandan zaman-zaman torpaq qoparıb öz ərazilərini 30 min km^2 -ə yaxınlaşdırmışlar, yəni Ermənistan bir əsrdə qonşu Azərbaycan dövlətinin hesabına öz ərazisini 3 dəfədən çox artırmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1921-ci ildən başlayaraq 10 il ərzində Moskvanın birbaşa dəstəyilə Zəngəzur qəzasından 4415 km^2, Qazax qəzasından 5833 km^2, Naxçıvan Muxtar Respublikasından 657 km^2 və digər

ərazilərdən kəndləri, qəsəbələri öz ərazilərinə qataraq, Azərbaycan torpaqları hesabına öz ərazilərini hazırki dövrdə 29 min 743 km^2-ə çatdırmışlar. 1980-ci illərin sonlarında SSRİ-nin dağılmasını hiss edərək erməni separatçıları yenidən ərazi iddialarını siyasiləşdirərək Qarabağın dağlıq hissəsində yerləşən və oradakı əhalinin tərkibində 100 minə qədər olmayan ermənilər, yenidən 4400 km^2 Azərbaycan ərazisini müxtəlif vasitələrlə öz ərazilərinə qatmağa çalışmışdılar. Hansı ki, onların orada yerləşməsinin cəmi 150 illik yaşam tarixi vardır. Müharibə ab-havası ilə Dağlıq Qarabağ Muxtar vilayətinin bazasında ikinci erməni dövləti qurmaq arzusu ilə münaqişəyə başlayan ermənilərin əsas məqsədi qeyd etdiyimiz kimi 4400 km^2-ə malik olan Dağlıq Qarabağ ərazisini Ermənistana birləşdirmək idi. Bu saxta əsaslarda 1988-ci ildə ermənilərlə Azərbaycan ərazisində Qarabağın uğrunda müharibə başlanmışdır. Təbii ki, bütün dünya ictimaiyyətinə məlumdur ki, Qarabağ aran və dağlıq hissəsi ilə birlikdə Azərbaycanın əzəli və tarixi ərazisidir. Lakin, buna baxmayaraq hələ o zaman Sovet İttifaqı mövcud olsa da, belə sözü gedən münaqişə açıq silahlı qarşıdurmaya çevrildi. 1991-ci ildə SSRİ dağılsa da, Qarabağ uğrunda münaqişə sözün əsil mənasında qanlı müharibəyə çevrilmişdir. Sonrakı dövrlərdə isə müharibənin əhatə dairəsi genişlənərək, erməni separatçıları qonşu dövlətlərdən hərbi dəstək hesabına Qarabağın dağlıq hissəsi ilə bərabər ona bitişik olan 7 inzibati rayonu da ələ keçirmişlər. Nəticədə Azərbaycan Respublikası ümumi ərazisinin 1/5 hissəsinə qədərini müvəqqəti olaraq itirmişdir, daha doğrusu, qeyd olunan ərazilər 30 ildən çox bir dövrdə erməni işğalı altında qalmışdır. Həmin müharibə dövründə Azərbaycan, ərazisi ilə yanaşı, 10 mindən çox vətəndaşını qurban vermiş, xeyli vətəndaşımız isə bu müharibədən xəsarət almışdır. Erməni separatçı faşizminin apardığı etnik təmizləmə nəticəsində 900 minə yaxın Azərbaycan vətəndaşı öz doğma torpaqlarından qaçqın düşmüşlər.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin vurduğu zərər bununla məhdudlaşmamışdır. Belə ki, bu münaqişə zamanı ona yaxın olan digər ərazilər də, dağıntılara məruz qalmışdır. Tədqiqatçıların apardıqları araşdırmalara görə ümumilikdə götürüldükdə Azərbaycanın işğaldan zərər çəkmiş əraziləri Naxçıvan Muxtar Respublikası da daxil olmaqla Ermənistanla bütün sərhəd boyu uzanan təqribən 35 şəhər, 1765 yaşayış məntəqəsi bu müharibədən ziyan çəkmişdir. Bunlardan 917 yaşayış məntəqəsi birbaşa ziyan çəkən ərazidir. Digər ərazilər isə qismən zərər çəkmişdir. Vurulan maddi və mənəvi zərərin miqyası o dərəcədə böyükdür ki, onu sözlə ifadə etmək mümkün deyil. Fikrimizcə işğaldan azad olunmuş 7 rayonun təkcə sosial obyektlərinin bir qismini diqqətinizə çatdırmaq dəyən ziyanın miqyası haqqında təsəvvür yaratmağa imkan verir. Belə ki, həmin rayonlar üzrə 600-dən çox orta məktəb,200-ə yaxın uşaq bağçası, 270-dən çox mədəniyyət, klub və teatrlar, 420-dən çox kitabxana, 61 mədəniyyət evi, 50-ə yaxın musiqi məktəbi, 1446 mədəni-məişət obyekti yerləyeksan edilmişdir.

Əziz konfrans iştirakçıları, dəyərli qonaqları. Xarici müşahidəçilər, ekspertlər və media nümayəndələri işğaldan azad edilən rayonların infrastrukturlarına və ərazilərinə baxış keçirən zaman onu Xirosima və Naqasaki şəhərləri ilə müqayisə edirlər. Amma mən sizi əmin edirəm, bu, Xirosima və Naqasaki ilə müqayisə edilən deyil. İnanın ki, bəşər tarixində belə vandalizm olmayıb. Ağacları qırmaq bir cinayətdir, təbiəti məhv etmək bir cinayətdir, lakin qırılan ağacların kötükləri üzərində ocaq qalamaq və onun kökünü, torpağını məhv etmək bu tarixin yeni cinayət faktlarıdır.

Səmədzadə Ziyad Əliabbas oğlu, akademik,
AMEA-nın həqiqi üzvü,
Azərbaycan İqtisadçılar İttifaqının sədri
Email: zsamedzade1940@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ POTENSİALI VƏ ONDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ İMKANLARI BARƏDƏ

Qarabağın işğaldan azad olunması sevincini hər zaman yaşayacağıq və bu, tarixi bir sevincdir. Hazırda işğaldan azad olunmuş ərazilərimizin yenidən bərpası və qurulması istiqamətində dövlətimiz tərəfindən çoxşaxəli və sürətli işlər həyata keçirilir. Onu da yaddaşlarımızda saxlamalıyıq ki, erməni faşizmi işğal altında saxladıqları ərazilərdə hər şeyi dağıdıb, tarixi və dini abidələrimizi məhv edib, talançılıq edərək tarixi eksponatları Ermənistana daşıyıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, çaylarımız zibillənib.

Erməni təcavüzü nəticəsində təkcə Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Qarşıdakı dövrün ən vacib vəzifələrindən biri işğaldan azad olunan ərazilərə əhalinin qayıdışıdır. Hazırda müvafiq strukturlar bu prosesin təşkilati, hüquqi əsaslarını möhkəmləndirmək üçün hər bir rayon üzrə köçkün qrupları və icmaları üzrə mövcud demoqrafik göstəricilər və meyllər, əhalinin peşə hazırlığı və s. məlumatları təhlil edir, qaçqın və köçkünlərin öz doğma yurdlarına qaytarılması ilə bağlı kompleks tədbirləri müəyyənləşdirirlər.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, onun beynəlxalq nəqliyyat mərkəzindən biri kimi tanınması imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Ötən ilin oktyabr ayından Tərtər rayonunda Suqovuşana gedən yeni yolun çəkilişi başlanılıb və işlərin böyük qismi artıq yekunlaşıb. Çünki qayıdışın birinci addımı yoldur. Yol həm də inkişaf, yüksəliş və rifah deməkdir. Hazırda Füzulidən Şuşaya, Horadizdən Zəngilana, Göygöl rayonundan Kəlbəcərə doğru yeni yollar çəkilir, Füzuli və Zəngilandan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanları bütün Qarabağ və Zəngəzur zonasını əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun çəkilişi işğaldan azad olunmuş regionun iqtisadi, sosial inkişafını xeyli sürətləndirəcək. Bu yol istifadəyə verildikdən sonra uzun illərdən bəri blokadada qalan Naxçıvan Muxtar Respublikası ilə əlaqələr bərpa olunacaq. Tarixdə ilk dəfə Azərbaycanla Türkiyəni birləşdirəcək bu yol bölgə dövlətlərinin iqtisadi inkişafına, regionda sabitliyin qorunmasına ən önəmli töhfədir. Bütün bunlar bir daha onu göstərir ki, ölkənin yaxın və uzaq gələcəyə hədəflənmiş nəqliyyatın inkişaf strategiyasının reallaşması Qafqazın inkişafında yeni mərhələ olacaq, irimiqyaslı transmilli nəqliyyat layihələrinin həyata keçirilməsində Azərbaycanın rolunu əhəmiyyətli dərəcədə artıracaqdır.

İşğaldan azad olunmuş ərazilərin elektrik enerjisi ilə təminatı ilə bağlı ciddi addımlar atılır. Qısa zaman kəsiyində Azərenerji Səhmdar Cəmiyyəti, “Azər İşıq” tərəfindən bu rayonlarda elektrik yarımstansiyaları inşa edilir və yüksəkgərginlikli xətlər çəkilir. Düşmənin təkcə Laçında dağıtdığı 5, Kəlbəcərdə 12 su elektrik stansiyası yenidən qurulacaq və ümumi güçün həcmi 120 meqavata çatdırılacaq. Ən böyük potensiala malik "Xudafərin" və "Qız qalası" stansiyalarının istismarı isə bölgənin enerjiyə olan təminatını daha da yaxşılaşdıracaq. Bərpa olunan enerji mənbələrindən geniş istifadə edilməsi ilə bağlı mühüm layihələr həyata keçirilir. Bütün bunlar və nəzərdə tutulan müvafiq tədbirlər Azərbaycanın enerji təhlükəsizliyinin daha da möhkəmlənməsinə, elektrik enerjisinin ixrac imkanlarının genişlənməsinə mühüm dəstək olacaqdır.

Aparılan araşdırmalar, mütəxəssislərin fikirləri də sübut edir ki, Qarabağ məkanı aqrar sahənin inkişafı üçün böyük imkanlara malikdir. Amma imkanları reallaşdırmaq üçün ilk növbədə həmin ərazidəki torpaqlar bərpa olunmalı, meliorasiya, irriqasiya sistemləri qurulmalı, sahənin inkişaf istiqamətləri müəyyənləşdirilməlidir, torpaqdan istifadə prinsip və qaydaları dəqiqləşdirilməlidir. Bu xidmətlər regiona sahibkarların, özəl sektorun daha geniş miqyasda cəlb edilməsi üçün lazımdır. Xatırlatmaq istərdim ki, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər və Laçın rayonlarında əkin sahələri ötən əsrin 90-cı illərinin əvvəllərində 143,2 hektar olmuşdu. Bu da respublika üzrə əkin sahəsinin 9 faizini təşkil edirdi. Kənd təsərrüfatının inkişafı üçün əlverişli mühitə malik Qarabağ zonasında aqrar sahənin dirçəlməsi əhalinin ərzaq təhlükəsizliyinin təminatı baxımından daha önəmli olmaqla dövlətin diqqətdə saxladığı əsas prioritetlərdəndir. Qısa müddətdə minalardan təmizlənmiş ərazilərin bir hissəsində əkin işləri aparılmışdır. Təqribi hesablamalara görə, erməni işğalından azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlıda əkin sahələrinin 150 min hektar olacağı proqnozlaşdırılır. Müqayisə üçün onu da qeyd edək ki, bu ərazilərdə xüsusilə də Kəlbəcər-Laçın iqtisadi rayonunda kənd təsərrüfatında heyvandarlığın xüsusi çəkisi 70 faizdən çox idi. Regionda üzümçülüyün inkişaf imkanları böyükdür. Məsələn, 1991-ci ildə təkcə Füzulidə 114 min ton üzüm istehsal edilmişdi. Region bütövlükdə baramaçılıq ənənəsinə malikdir. Vaxtilə gözəl təbiətə, çəmənliklərə malik olan bu regionda - Xankəndidə böyük ipək kombinatı var idi...

Regionda müasir İKT-nin tətbiqi bütün sahələri əhatə edəcəkdir. Artıq burada yüksək texnologiyalara əsaslanan "Ağıllı kənd" layihələrinin həyata keçirilməsi ilə bağlı əməli işlər görülür. İnsanın müasirləşən və yeniləşən həyat tərzini özündə ehtiva edən bu tipli layihələr bilavasitə bir neçə məqsədə - normal, mənalı yaşayışa, müasir, elmi əsaslarla idarə olunan istehsala, nümunəvi sosial xidmətlərə, ağıllı, düşünülmüş kənd təsərrüfatına, alternativ enerji mənbələrindən istifadəyə əsaslanır. Prezident İlham Əliyev tərəfindən "Böyük qayıdışın" təməli adlandırılan"Ağıllı kənd" pilot layihəsi oktyabrın 28-də işğaldan azad edilən Zəngilanın 1, 2, 3-cü Ağalı kəndlərini əhatə edir. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə obyektləri, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı alternativ enerji mənbələri ilə təmin ediləcək. Onu da qeyd edim ki, "Ağıllı kənd"i dəyərləndirən amillərdən biri "ağıllı kənd təsərrüfatı"dır ki, bu da aqrar sektorun

müasir üsullarla idarə olunmasına, inkişafına hesablanıb. Heç şübhəsiz ki, bu nümunəvi, ən müasir standartlara cavab verən kənd olacaq.

Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaq. Fərqləndirici cəhət həm də odur ki, yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər. Bu ərazi "yaşıl enerji" zonasına çevriləcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə iqtisadi həyatın bərpa edilməsi burada məskunlaşacaq kadr potensialının hazırlanması məsələsini ön plana çəkir. XX əsrin sonlarında bu rayonlarda 40 min nəfərdən çox ali və orta təhsilli mütəxəssislər çalışırdı. İdarəetmə sisteminin təkmilləşməsi, İKT-nin tətbiqinin ildən-ilə genişlənməsi ayrı-ayrı ixtisaslara olan tələbata müəyyən dərəcədə təsir etsə də, regionun davamlı və keyfiyyətli inkişafı üçün on minlərlə mütəxəssislər tələb ediləcəkdir. Ona görə də 1 milyona yaxın əhalinin yaşayacağı bu məkanda real sektor və xidmət, təhsil, səhiyyə sahələrinin mütəxəssislərlə təminatı işinin keyfiyyətli həlli məqsədilə işğaldan azad edilmiş rayonlarda məskunlaşacaq əhalinin tərkibində mütəxəssislərin, o cümlədən həkim, tibb bacısı müəllimlərin sayının müəyyən edilməsi, eləcə də bu rayonlardan hazırda təhsil alan gənclərin ixtisaslar üzrə sayı barədə məlumatların toplanması və təhlilinin aparılması məqsədəuyğundur.

Prezident İlham Əliyevin Şuşanın azad olunması ilə əlaqədar xalqa müraciətində dediyi kimi, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır: **«İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!»**

Ali Baş Komandan İlham Əliyev xalqımızın 28 illik həsrətinə son qoydu. Şuşanı düşmən tapdağından azad etməklə İlham Əliyev müstəqilliyimizi və dövlətçiliyimizi şərəfləndirdi. Şuşada Azərbaycan bayrağını ucaltmaqla İlham Əliyev sınmış qururumuzu bərpa etdi.

Şuşa Azərbaycandır, onun əsil sahibləri geri qayıdıb. Şuşa xalqımızın elə bir möhtəşəm mədəni abidəsidir ki, düşmən onu 28 ildə ermənilərdirə bilmədi. Onun hər küçəsi bir tarix, hər daşı bir mənəvi xəzinədir, xalqımızın milli-mədəni sərvətidir. Bu şəhər 28 il yarım davam edən işğal dövründə ermənilər qəbul etmədi. Şuşa onlar üçün əvvəldən yad idi, işğal dövründə də yad olaraq qaldı. İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Artıq Şuşanın inkişafı üçün yeni bir dövr başlayıb. Məqsəd Şuşanın tarixi görkəmini bərpa etmək və bu şəhəri açıq səma altında muzeyə çevirməkdir. Hazırda Şuşa şəhəri gələcək inkişafı baxımından böyük dəyişikliklər ərəfəsindədir. Artıq Şuşada ümumşəhər miqyaslı tarixi bərpa, yenidənqurma və tikinti işlərinə başlanılıb.

2020-ci il noyabrın 8-də xalqa müraciətini Prezident İlham Əliyev bu sözlərlə yekunlaşdırmışdı:

«Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!»

Tezliklə Şuşa özünün həm tarixi görkəmini bərpa edəcək, həm də dünyanın ən gözəl şəhərlərindən biri kimi yerli və xarici turistlərin diqqətini cəlb edəcək. Həmçinin Şuşada bu ildən başlayaraq Xarı Bülbül Festivalı, Vaqif Poeziya Günü və bir sıra festivallar keçiriləcək, beynəlxalq mədəni tədbirlər təşkil ediləcək. İşğal dövründə düşmənə boyun əyməyən Şuşa Prezident İlham Əliyevin xüsusi diqqəti ilə ən qısa zamanda dirçələcək. Qədim yurd yerimiz olan bu şəhər tarixi şöhrətini ən yüksək səviyyədə bərpa edəcək, Azərbaycan xalqının milli mədəniyyətinin məbədi kimi regionun və dünyanın ən möhtəşəm mədəni mərkəzlərindən birinə çevriləcək.

Bu baxımdan "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu müstəsna rol oynayacaqdır. Heç şübhəsiz ki, doğma yurdumuzun incisi hesab edilən Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının hüquqi və təşkilati əsaslarını müəyyən edəcək.

Bir sözlə, ölkəmizin kompleks bərpa, tikinti və quruculuq işlərinin aparılması qarşıda duran ən vacib məsələlərdən biridir. Artıq bununla əlaqədar olaraq dövlət proqramları hazırlanır. Azərbaycanın ayrı-ayrı regionlarının inkişafı üçün qəbul edilən 4 Dövlət Proqramı uğurla həyata keçirilib. Həyata keçirilməsi davam edən sonuncu - 2019-2023-cü illər üçün Dövlət Proqramında işğal altında olan torpaqların azad edilməsindən sonra yeni dövlət proqramının qəbul edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan İqtisadçılar İttifaqı və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə keçirilmiş "Qələbəyə aparan yol: güclü olan dövlət hər şeyə qadirdir" elmi praktik respublika konfransının hökumətə ünvanladığı tövsiyələrdə işğaldan azad olmuş ərazilərin ümumi respublika dövriyyəsinə qoşulmasının bir sıra müsbət nəticələri barədə aşağıdakılar qeyd edilir:

- ölkəmizin iqtisadi qüdrətinin artması milli iqtisadi təhlükəsizliyimizin daha əsaslı şəkildə təmin edilməsini əhəmiyyətli dərəcədə yüksəldəcək;
- ölkə iqtisadiyyatının diversifikasiyası sahə, ərazi quruluşunun təkmilləşdirilməsi imkanlarını genişləndirəcək;
- Azərbaycan regionun dinamik və keyfiyyətli inkişaf edən bir dövlətinə çevriləcək;
- ölkəmizdə işsizlik və yoxsulluq səviyyələri bir qədər də aşağı düşəcək;
- Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə urbanizasiya gərginlikləri xeyli səngiyəcək;
- ekoloji mühit yaxşılaşacaq, ətraf mühitin qorunması tədbirləri genişlənəcək.

Mühüm qida məhsulları idxalı minimuma azalacaq, idxaləvəzləyici sahələr daha da inkişaf edəcək, qabaqcıl texnologiyaların tətbiqinə münbit şərait yaranacaq. İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq. Ağdamın strateji

coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Ərazilərin bərpası, bu məqsədlə hazırlanacaq proqnozlar, proqramlarla əlaqədar bir məsələyə diqqət cəlb etmək istərdim. Söhbət respublikada iqtisadi rayonlaşma sxeminin müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsindən gedir. Xüsusi olaraq qeyd edim ki, inkişaf probleminin həlli sistemli yanaşmalar tələb edir.

Bu barədə bir qədər ətraflı.

Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinin 44 günündə və bu gün də qətiyyətlə, böyük qürurla, böyük sevinclə səsləndirdiyi və xalqımızda böyük qürur hissi oyadan **"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!", "Dağlıq Qarabağ yoxdur",** "status-kvo yoxdur", Qarabağ Azərbaycanın yüksək sürətlə inkişaf edən diyarına çevriləcəkdir" çağırışları iqtisadi rayonlaşma sxeminə də yenidən baxılmasını zəruri edir.

Hal-hazırda respublika ərazisi aşağıdakı iqtisadi rayonlara bölünmüşdür: Bakı şəhəri; Abşeron; Gəncə-Qazax; Şəki-Zaqatala; Lənkəran; Quba-Xaçmaz; Aran; Yuxarı Qarabağ; Kəlbəcər-Laçın; Dağlıq Şirvan; Naxçıvan Muxtar Respublikası.

Qüvvədə olan təsnifata görə Yuxarı-Qarabağ iqtisadi rayonunun tərkibinə Cəbrayıl, Füzuli, Ağdam, Tərtər, Xocalı, Şuşa, Xocavənd rayonları, Xankəndi şəhəri daxildir.

Tarixi coğrafi baxımdan Qarabağ məkanı hesab edilən Ağcabədi və Bərdə rayonları isə respublikanın 11 iqtisadi rayonunun ərazisinin 24,4%-ni tutan 18 inzibati rayonu əhatə edən Aran iqtisadi rayonuna daxil edilmişdir.

Azərbaycan Respublikasının şəhər və rayonlarının ərazisinin və əhalisinin dinamikası 01.01.2020-ci il vəziyyətinə

Şəhər və rayonların adları	Ərazi, yekuna nisbətən %-lə	Əhalinin sayı (yekuna nisbətən %-lə)
Azərbaycan Respublikası	100	100
Bakı şəhəri	2.4	22.7
Abşeron iqtisadi rayonu (3 rayon)	4.3	5.7
Gəncə-Qazax iqtisadi rayonu (11 rayon)	14.2	12.8
Şəki-Zaqatala iqtisadi rayonu (6 rayon)	10.2	6.2
Lənkəran iqtisadi rayonu (6 rayon)	7.0	9.4
Quba-Xaçmaz iqtisadi rayonu (5 rayon)	8.0	5.5
Aran iqtisadi rayonu (18 rayon)	24.4	20.3
Yuxarı Qarabağ iqtisadi rayonu (7 rayon)	8.4	6.8
Kəlbəcər-Laçın iqtisadi rayonu (4 rayon)	7.4	2.5
Dağlıq Şirvan iqtisadi rayonu (4 rayon)	7.0	3.2
Naxçıvan Muxtar Respublikası (8 rayon)	6.3	4.5

Qeyd edim ki, Ağcabədi və Bərdə əvvəlki rayonlaşma sxemlərində - tarixən Qarabağ məkanının tərkib hissəsi kimi Mil-Qarabağ, Düzənlik Qarabağ iqtisadi rayonlarına aid edilmişdir və belə bölgünün təbii, iqtisadi-coğrafi amilləri daha əsaslı və nəticəli hesab edilirdi.

Böyük Üzeyir Hacıbəyovun Vətəni Aran rayonu deyil, Şuşa qəzasının Ağcabədi kəndidir. Onun Ana Vətəni Azərbaycanın Qarabağıdır.

Ulu öndər Heydər Əliyev və Cənab Prezident hər dəfə Ağcabədi, Bərdə rayonlarında olarkən bu rayonları Qarabağ torpağının inkişaf edən əraziləri kimi qeyd etmişlər. 3 iyul 2020-ci ildə Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışındakı çıxışında İlham Əliyev demişdir: "Bu mərkəzin Ağcabədi rayonunda yaradılması təsadüfi deyil. Ağcabədi ərazi baxımından ölkəmizin ən böyük rayonlarından biridir. **Ağcabədi Qarabağ torpağında yerləşir** və son illərdə rayonun inkişafı üçün bir çox işlər görülübdür.

Rayon mərkəzi xəstəxanası tikilib. Ölkəmizin rayonlarında yerləşən ən böyük xəstəxanalarından biridir. Özü də müasir standartlara cavab verən avadanlıqla təmin edilib. Olimpiya İdman Kompleksi, **Qarabağ Muğam Mərkəzi,** "ASAN Həyat" kompleksi - bütün bunlar mənim təşəbbüsümlə və dövlət büdcəsi hesabına görülmüş işlərdir".

12 mart 2015-ci ildə Bərdə regional "ASAN xidmət" mərkəzinin açılışında Prezident İlham Əliyev demişdir: "Bərdə şəhərində "ASAN xidmət"in fəaliyyətə başlaması, əlbəttə ki, xüsusi məna daşıyır. **Qarabağ bölgəsində ilk dəfə olaraq bu gözəl xidmət artıq fəaliyyətə başlayır...**

Şadam ki, artıq Qarabağ torpağında "ASAN xidmət" var və bu xidmət bütün ətraf rayonların sakinlərinə, məcburi köçkünlərə xidmət göstərəcək. Əminəm ki, bərdəliləri də sevindirəcək...

Çox şadam ki, yenidən Bərdədəyəm, **doğma Qarabağ torpağındayam**. Əminəm ki, Azərbaycanın ərazi bütövlüyü də bərpa ediləcək. Bu gün **Qarabağda** da "ASAN xidmət" var".

Kompleks elmi araşdırmalar, tarixi faktlar sübut etmişdir ki, Qarabağ məkanı bütöv təbii-coğrafi region, kompleks ekoloji sistem, vahid çay şəbəkəsi, qarşılıqlı surətdə bağlı iqtisadiyyat və kommunikasiya əmələ gətirir. Qarabağın təbii-coğrafi və iqtisadi birliyi, onun digər regionlarla qarşılıqlı əlaqələrinin təbiiliyi, həyati əhəmiyyəti olan kommunikasiyalar, Ağdam-Xankəndi dəmir yolu xətti, avtomobil yolları, qaz kəməri, elektrik təchizatı sistemi ilə bağlıdır ki, bu da bütövlükdə Qarabağ ərazisinin kompleks tarazlı inkişafı üçün güclü əsaslar yaradır.

Bütün bunları əsas tutaraq vaxtilə süni şəkildə yaradılmış Yuxarı Qarabağ iqtisadi rayonunun əvəzinə respublikanın rayonlaşma sxemində Bərdə və Ağcabədi də daxil edilməklə, Qarabağın tam bir iqtisadi rayon kimi qəbul edilməsi məqsədəuyğun olardı.

Bu gün respublikamızda iqtisad elmini təmsil edən çoxsaylı professional tədqiqatçılar da Qarabağ məkanında aparılan quruculuq işlərinə öz layiqli töhfələrini vermək arzusundadırlar. Hesab edirik ki, müvafiq elmi-tədqiqat institutları, ali təhsil müəssisələrinin kafedraları işğaldan azad olmuş ərazilərdə yaradılacaq iqtisadi potensialın artırılması, regionun inkişaf strategiyasının ayrı-ayrı istiqamətləri, o cümlədən, istehsalın ixtisaslaşması, resurs təminatı, demoqrafik inkişafı, məskunlaşma, ərzaq təhlükəsizliyi və s. məsələlər barədə tədqiqatlarını genişləndirməlidirlər.

Musayev Akif Fərhad oğlu,
iqtisad elmləri doktoru, professor,
AMEA-nin müxbir üzvü,
Post-konflikt Ərazilərin Bərpası
Elmi Mərkəzinin rəhbəri
Email: akif.musayev@gmail.com

POST-KONFLİKT ƏRAZİLƏRİN BƏRPASI, YENİDƏN QURULMASI VƏ MƏSKUNLAŞDIRILMASI

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərmişdir. İşğal olunmuş torpaqların azad olunması Azərbaycan Respublikasının qarşısında duran ən böyük hədəflərdən biri kimi müəyyənləşdirilmişdir. Beləliklə, 2020-ci il sentyabrın 27-də düşmənin indiyədək qeydə alınmış ən böyük təxribatına Azərbaycan ordusu bu dəfə genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamaqla cavab verdi. Ali Baş Komandan İlham Əliyevin çox incə düşünülmüş və peşəkar strategiyası sayəsində bu müqəddəs müharibə 44 gün sonra ordumuzun şanlı qələbəsi ilə başa çatdı.

İkinci Qarabağ müharibəsindən sonra artıq ölkəmizin həyatında yeni mərhələ- quruculuq, inkişaf, işğaldan azad edilmiş torpaqlarımızın bərpası dövrü başlayır. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Hazırkı dövrdə 30 il ərzində erməni vandalları tərəfindən dağıdılmış, torpaqları ekoloji terrora məruz qalmış Qarabağın bərpası, yenidən qurulması və Qarabağdan məcburi köçkün düşmüş 617 min nəfər əhalinin orada məskunlaşdırılmasının təmin olunması növbəti əsas hədəflərdən biridir. Bu hədəfə çatmaq üçün Azərbaycan Hökuməti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çox mürəkkəb, çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlərin görülməsilə bağlı ciddi addımlar atıb.

Azərbaycanın hər bölgəsinin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqlarına, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq onların ixtisaslaşması nəzərdə tutulub. Azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kimi aqrar sektor, kənd təsərrüfatı məhsullarının emalı və turizm sahələri müəyyənləşdirilib. Məlumdur ki, Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli Sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. İşin təşkilini təmin etmək məqsədilə Əlaqələndirmə Qərargahı nəzdində idarələrarası mərkəz, mərkəzin nəzdində 17 işçi qrupu formalaşdırılıb. İşçi qruplarında 55 dövlət qurumunun nümayəndələri iştirak edir.

Bütün işlər planlı və kompleks yanaşma əsasında həyata keçirilir. Belə işçi qruplarından biri olan "Akademik və təhsil məsələləri üzrə" işçi qrupunu misal gətirə bilərik.

Qeyd etmək lazımdır ki, işçi qruplarının əsas fəaliyyət istiqamətlərinə işğaldan azad olmuş ərazilərə qayıdacaq əhalinin (617 min əhali, 159 min ailə) sayının və bu qayıdışın hansı şərtlərlə həyata keçirilməsinin proqnozlaşdırılması aiddir. Bununla bağlı bir çox beyin mərkəzləri, universitetlər, xarici və yerli mütəxəssislərdən ibarət tədqiqat qrupları yaradılmışdır. Onların sırasında ADA Universitetini, UNEC-i, AMEA-nın İqtisadiyyat İnstitutunu, Qafqaz Tədqiqatlar İnstitutunu vurğulaya bilərik.

Qarabağın işğaldan azad olunması ümidi hər bir azərbaycanlının daim ürəyində yaşayıb, bir an belə tükənməyib. Xüsusilə, bir sıra alimlərimiz bu istiqamətdə aparılan tədqiqatları fəaliyyətlərinin tərkib hissəsi kimi müəyyənləşdirmişlər. Belə uzaqgörənlik nümunəsinə Qafqaz Tədqiqatlar İnstitutunun rəhbəri Eldar İsmayılovun və AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanovun tədqiqatlarında rast gəlmək mümkündür. Belə ki, bu alimlər hələ 12 il bundan əvvəl "Post-konflikt ərazilərin bərpası ilə bağlı konseptual əsaslar" adlı monoqrafiya hazırlamış və 10 il bundan əvvəl onu çap etdirmişlər. Bu əsər dünyanın bir çox elm mərkəzlərində, parlamentlərində, Lordlar Palatasında, Avropa İttifaqında və digər tədqiqat mərkəzlərində təqdim olunub və çox yüksək səviyyəli müzakirələrdən keçib. Təsadüfi deyil ki, hazırkı dövrdə sözügedən tədqiqat əsəri öz aktuallığını bir daha təsdiqlədi. İşğaldan azad olunmuş ərazilərdə aparılacaq işlərin mərhələləri demək olar ki, öz əksini bu kitabda tapıb. Fərqli cəhət yalnız ondan ibarətdir ki, həmin monoqrafiyada torpaqlarımızın danışıqlar yolu ilə azad olunacağı fərz edilir. Lakin məlum olduğu kimi, torpaqlarımız müharibə yolu ilə azad olundu və ortaya yeni reallıq çıxdı.

Müstəqil və suveren Azərbaycan dövləti postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Yeni strateji dövrdə dövlətin qarşında duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuşdur. Qəbul edilmiş beş Prioritetin dördüncüsü - işğaldan azad olunmuş ərazilərə böyük qayıdış kimi müəyyən olunub [1]. Qeyd etmək lazımdır ki, dayanıqlı, artan rəqabətli iqtisadiyyatda bu, Azərbaycan dövlətinin 10 illik prioritetlərindən biridir. Həmçinin dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması da çox vacib olan istiqamətlərdir ki, bunlar uzun illər rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı Azərbaycanın prioritet istiqamətləridir. Artıq qeyd edildiyi kimi, bütün görüləcək işlər, tədqiqatlar, elmi proqramlar bu beş istiqamətə yönəlməlidir.

İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir. Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərdə mina risklərinin aradan qaldırılmasına müəyyən zaman lazımdır. Belə ki, araşdırmalar nəticəsində məlum olmuşdur ki, həmin torpaqlarda 300 kilometr uzunluğunda, 5 kilometr dərinliyində minalanmış ərazilər mövcuddur. Sözsüz ki, bu risklərin aradan qaldırılması, bu ərazilərdə yaşayışın bərpa olunması üçün uzun illər tələb olunur. Məhz bu səbəbdən də ilk növbədə birinci mərhələ kimi orada təhlükəsizliyin təmin olunması və mövcud idarəetmə strukturlarının yaradılması nəzərdə tutu-

lur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin ərazilərə xüsusi nümayəndələr və hüquq-mühafizə orqanlarının nümayəndələri təyin olunmuş, müvafiq işlərə start verilmişdir.

Prezident İlham Əliyevin Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında imzaladığı Sərəncama əsasən, yeni yolda layihələndirmə və tikinti işlərini sözügedən istiqamətdə həyata keçirilən işlərə nümunə kimi göstərə bilərik. Bu, təxminən aeroportdan Bakıya uzanan 6 zolaqlı yol kimi müəyyən olunur. Belə ki, 101,5 km-lik yol birinci texniki dərəcəyə uyğun tikilir. Onun eni 40 metr olacaq. Yolda gediş-gəlişli olmaq üçün 4 əsas, 2 isə əlavə, ümumilikdə 6 hərəkət zolağının inşası nəzərdə tutulub. Bütün bunlar bir daha onu təsdiq edir ki, ölkə başçısı bu ərazilərdə yüksək standartlara cavab verən yenidənqurma işlərini müəyyən edib. O da məlumdur ki, Füzulidə beynəlxalq aeroportun tikilməsinin artıq bünövrəsi qoyulmuş, elektrik enerjisi ilə təminat həyata keçirilmişdir. Qeyd edək ki, ermənilər Azərbaycanın işğaldan azad olunan ərazilərində vaxtilə mövcud olan kiçik su elektrik stansiyalarını darmadağın edərək yararlı avadanlıqlarını söküb aparıb, apara bilmədiklərini yandırıb və ya partladıblar. Hazırda həmin elektrik stansiyalarından heç biri, ümumiyyətlə yararlı vəziyyətdə deyil və tamamilə dağıdılıb. Hal-hazırda kiçik su elektrik stansiyalarının tikilməsi və yenidən qurulması prioritet təşkil edir. İşğaldan azad olunmuş ərazilərdə paylayıcı elektrik şəbəkələrinin yaradılması ilə bağlı tədbirlər davam etdirilir və may ayınadək Füzuli rayonundakı Şükürbəyli yarımstansiyası yenidən qurulacaq. Ümumiyyətlə, ilkin olaraq Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının hər birində 110 kilovoltluq sistem əhəmiyyətli 4 yarımstansiyanın tikilməsi və onların arasında 110 kilovoltluq elektrik verilişi xətlərinin çəkil-məsi nəzərdə tutulur.

Bundan başqa, fevral ayında ölkə başçısı cənab İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak etdi. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ odur ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Digər tərəfdən, artıq Tərtər şəhərindən Suqovuşan kəndinə qədər olan 21 km, həmçinin Suqovuşandan Talış kəndinə doğru uzanan 7.5 km-lik hissələri üzrə yeni yol yatağının, həmçinin yol əsasının inşası işləri başa çatıb, eləcə də Murov dağının altından Kəlbəcərə tunel çəkilişi işləri davam etdirilir. Eyni zamanda Cənab Prezident bayram münasibəti ilə Qarabağa səfəri çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu. Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

Bərpa işlərinin növbəti istiqaməti iqtisadi dirçəliş məsələlərilə bağlıdır. Burada iqtisadiyyat, sosial xidmətlər, təhsil, səhiyyə və digər sahələrin yenidən qurulması ilə bağlı işlər nəzərdə tutulur. Təhlükəsizliyin təmin edilməsi, minalardan təmizlənmə işlərinin daha da, gücləndirilməsi əsas fəaliyyət istiqamətləri kimi müəyyən olunub. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) yenidən təşkili istiqamətində işlərin keyfiyyətcə yeni səviyyədə

aparılması baxımından ölkə başçısı müvafiq Sərəncam imzaladı. Bundan başqa, azad edilmiş ərazilərin minalardan təmizlənməsi işlərinə Türkiyənin, Rusiyanın, Macarıstanın və bir çox digər ölkələrin minalardan təmizləmə strukturları cəlb olunub. Qeyd etdiyimiz kimi, burada kifayət qədər mürəkkəb və uzunmüddətli işlər vardır. Belə ki, ANAMA-nın proqnozlarına görə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi iki dövrü əhatə edəcək. Bunlar mina təsirindən tamamilə azad edilmə və infrastrukturun bərpası üçün mina təsirindən azad edilmə dövrləridir. Ən ucqar ərazilərdən minaların götürülməsi uzun müddət tələb edir. Bu, tam prioritet olmadığı üçün mərhələli şəkildə həyata keçiriləcək. Hazırda əsas prioritet sahələr dəhlizlər və insanların yaşayacağı ərazilərdir. Digər ərazilər isə sonrakı mərhələlərdə minalardan təmizlənərək yerli icra orqanları, sakinlər və aidiyyatı üzrə təhvil veriləcək. İşğaldan azad edilmiş ərazilərdə aparılacaq əməliyyat-axtarış tədbirlərinin ikinci istiqaməti humanitar dəhlizlərin yaradılmasıdır. Hansı ki, bu dəhlizlər vasitəsilə elektrik xətlərinin, yolların çəkilişi həyata keçirilir. Bu istiqamətdə əsasən Suqovuşana gedən avtomobil yolunun yenidən bərpası üçün ərazilərin minalardan təmizlənməsi, Ağdam rayonuna gedən avtomobil yolu və onun kənarından keçəcək kommunikasiya xətlərinin, Füzuli-Cəbrayıl istiqamətindəki kommunikasiya xətlərinin gedəcəyi ərazilərin minalardan təmizlənməsidir. Eyni zamanda daha bir istiqamət isə mina maarifləndirilməsidir. Belə ki, düşmən tərəfindən yaşayış məntəqələrinə atılmış mərmilərin götürülməsi və bu istiqamətdə vətəndaşların maarifləndirilməsi vacibdir ki, artıq 80141 nəfər yerli şəxs bu barədə maarifləndirilib [3]. Onu da vurğulamaq lazımdır ki, Füzuli və Cəbrayıl şəhərlərinin kəndləri minalardan təmizləndikdən sonra bu ərazilərdə də ekoloji tədqiqatların aparılması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Araz çayının suyunun tərkibinin daimi olaraq nəzarətdə saxlanılması, zəruri hallarda sutəmizləmə qurğularının istifadəsi bu gün daha da aktualdır.

Sərhədlərimizin bərpa olunması orada xeyli sayda sərhəd qurğularının qurulmasını, həmin ərazilərə lazımi sayda hərbiçilərin cəlb olunmasını şərtləndirir. Sözügedən məsələlərin realizasiyası müvafiq yaşayış infrastrukturunun yenidən yaradılmasını tələb edir. Göstərilən istiqamətdə xeyli addımlar atılmışdır. Mülki hakimiyyət orqanlarının, xüsusilə də mülki məhkəmə orqanlarının bu ərazilərdə baş vermiş cinayətlərin qiymətləndirilməsi və onlarla bağlı gördükləri işlərin də əhəmiyyəti mühüm əhəmiyyət kəsb edir. Onların bərpası məqsədilə ölkə başçısının müvafiq sərəncamı ilə bu ərazilərdə hüquq-mühafizə orqanlarının bütün strukturları yaradılmışdır. Qeyd etdiyimiz kimi, artıq nəqliyyat şəbəkəsinin bərpası ilə bağlı təxminən 200 min kilometrdən çox yol çəkilmişdir. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədi ilə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bundan başqa, iqtisadi dirçəliş problemləri çox vacib məsələlərdəndir [4]. Vacib məsələlərdən biri həmin regionun iqtisadi potensialının qiymətləndirilməsi və müqayisəli üstünlük sahələrinin müəyyən olunmasıdır. Sözsüz ki, bütün sahələrin eyni zamanda bərpa edilməsinə başlamaq mümkün deyildir. İlkin olaraq elmi-tədqiqat işləri aparılmalı, mövcud iqtisadi potensialın qiymətləndirilməsi həyata keçirilməlidir. Res-

publikanın iqtisadi potensialı bu istiqamətdə nə qədər vəsait yönəldə biləcək imkanının, eyni zamanda yerli regionun iqtisadi potensialının qiymətləndirilməsi çox vacib məsələlərdən biridir. Ölkənin sahib olduğu su, torpaq və yeraltı sərvətlərinin qiymətləndirilməsi, həmin potensial imkanların və onlara uyğun müqayisəli üstünlük sahələrinin seçilməsi vacibdir. Bu istiqamətdə aparılacaq işlərin ilk mərhələsi regionların, rayonların arasında müqayisəli üstünlük sahələrinin seçilməsindən ibarətdir. Eyni zamanda Qarabağın bütövlükdə müqayisəli üstünlük sahələri araşdırılmalıdır.

Sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin reabilitasiyası sahəsində aparılacaq işlər iki mərhələli həyata keçiriləcəkdir. Nəzərə almaq lazımdır ki, bu ərazilərdə sovet dönəmindən ənənəvi, tarixi fəaliyyət sahələri hesab edilən kənd təsərrüfatı, heyvandarlıq, taxılçılıq və s. mövcud idi. Nümunə olaraq qeyd edə bilərik ki, Füzuli rayonu tarixi boyu Azərbaycanın "taxıl anbarı" olub. Müharibə illərində Azərbaycanı aclıqdan xilas edən rayon Qaryagin rayonu olmuşdur. Qaryagin rayonu 50-ci illərə, hətta 60-ci illərə qədər "taxıl anbarı" idi. Sonra isə bu rayonda pambıqçılıq geniş inkişaf etdirilərək, onu prioritet sahəyə çevirdi. Bundan sonra üzümçülük çox böyük sahəni əhatə edərək inkişaf mərhələsinə qədəm qoydu.

Ərazilərin bərpası fəaliyyətində dünyanın müasir çağırışları da nəzərə alınmalıdır. Yəni, regionun inkişaf istiqamətləri üzrə müvafiq araşdırılmalar aparılmalıdır. Dövlət başçısının vurğuladığı kimi, azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "smart-city", "smart-village", - yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulmalıdır. Bu işlər icra edilərkən dünyanın ən qabaqcıl texnologiyalarının orada tətbiq olunması nəzərdə tutulub. Qeyd etməliyik ki, Azərbaycanın bütün ərazilərində torpaq islahatı həyata keçirilmişdir, lakin azad olunmuş ərazilərdə bu işlər hələ həyata keçirilməyib və mülkiyyət məsələləri həll olunmayıb. Beləliklə, dövlətin görəcəyi işlərə elmi dəstək vermək məqsədilə müvafiq tədqiqat sahələri mövcuddur. Bu istiqamətdə ölkənin alim və tədqiqatçıları fəaliyyətlərini məqsədyönlü qurmalıdır. Nümunə olaraq qeyd etmək lazımdır ki, Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi və AMEA-nın İqtisadiyyat İnstitutu tədqiqat işlərinin aparılacağı istiqamətlər üzrə dövlətə təkliflər vermişdir. Təqdim edilən altı istiqamətdən ikisi İqtisadi İnkişaf Nazirliyi tərəfindən seçilmişdir.

Bir istiqamət ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərə qayıtmalı olacaq əhalinin, o cümlədən həkim, müəllim, aqronom, uşaq və məktəblilərin sayı müəyyənləşdirilməli, lazımi sayda məktəbin, xəstəxananın və sairənin tikilməsinə dair proqnozların verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu sahəyə dövlət səviyyəsində kifayət qədər diqqət yetirilir ki, bütün qeyd edilən 17 istiqamət üzrə aparılan işlər buradakı proqnozun nəticələrini gözləyir.

Prezident İlham Əliyevin vurğuladığı kimi, azad olunmuş ərazilərə bir milyon əhalinin məskunlaşmasının təmin edilməsi nəzərdə tutulub. Bunlardan 617 min nəfəri məcburi köçkünlərdir. Tədqiqatlar nəticəsində müəyyən olunmalıdır ki, 617 min nəfərdən hansı sayda soydaşımız həmin ərazilərə qayıdacaq.

Qarabağ müharibəsi göstərdi ki, Qarabağ hamı üçün, Azərbaycanın bütün bölgələri üçün Vətəndir. Lakin Qarabağın özünəməxsus bir mədəniyyəti, ruhu vardır ki, elə ilk növbədə bu diyarın öz ruhuna, mədəniyyətinə qovuşması təmin edilməlidir. Şübhəsiz ki, ilk prioritetlərdən biri məhz məcburi köçkün halında olan əhalinin Qarabağa qaytarılmasıdır. Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində

işğal edilmiş ərazilərdə 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib [2].

Xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri də dövlət və özəl münasibətlərin qurulmasıdır. İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Belə ki, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, hər bir bölgənin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqları nəzərə alınaraq, müvafiq iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə ayrı-ayrı sahələr üzrə dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, xüsusi güzəştli iqtisadi rejimin tətbiqi nəzərdə tutulur. Vacib istiqamətlərdən biri kütləvi istifadə resurslarının optimal şəbəkəsinin yaradılmasıdır. Məlumdur ki, xeyli sayda qazpaylayıcı qurğular yerləşdirilməsi və onların harada, hansı şəbəkədə qurulmasına dair araşdırmalar aparılması da xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, həmin ərazilərdə 700-ə qədər yaşayış məntəqəsi olmuşdur və bu yaşayış məntəqələrinin hamısı dağıdılıb. Dövlətin müəyyən etdiyi əsas məsələlərdən biri məhz bu yaşayış məntəqələrinin bərpa olunması, eləcə də, məsələn, Kəlbəcərdə olan dağ kəndlərində yenidən ifrastrukturun yaradılması, yol, işıq və qazın çəkilməsi nəzərdə tutulan prioritetlərdəndir.

Digər vacib məsələlərdən biri də azad olunmuş ərazilərə qayıdacaq əhalinin məşğulluq məsələlərinin təmin edilməsidir. Qeyd etmək lazımdır ki, insanların bu ərazilərə qayıtmasının proqnozlaşdırması vasitəsiylə onların məşğulluğunun təmin edilməsi istiqamətlərini müəyyənləşdirmək mümkündür. Xüsusilə, bu gün aparılan böyük həcmdə bərpa və yenidənqurma layihələrinə, məhz onların icrasına həmin məcburi köçkün əhalinin içərisindən iş qabiliyyəti olan insanları seçib, o ərazilərdə işlə təmin etmək məqsədəuyğun olardı. Bundan başqa, araşdırmalar nəticəsinə müəyyən olunmalıdır ki, həmin məcburi köçkün əhali arasında hansı ixtisas üzrə nə qədər mütəxəssis var. Hal-hazırda icra edilən layihələrin hansı tip işçi qüvvəsinə ehtiyacları olduğunu müəyyən etmək, müvafiq proqnoz və uzlaşdırmaların aparılması zərurəti vardır.

İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Beləliklə, ilk növbədə azad olunmuş ərazilərdəki təhsil ehtiyacları müəyyənləşdirilməli, mövcud təhsil infrastrukturunun vəziyyəti qiymətləndirilməli və fəaliyyətinin təşkili ilə bağlı planlar hazırlanmalıdır. Xatırlatmaq yerinə düşər ki, Sovet imperiyası dağılanda Şərqi Avropa ölkələrinin çoxunda rus dili dərsləri keçirilirdi və birdən-birə rus dilinə ehtiyac qalmadı. Beləliklə də təxminən minlərlə rus dilli müəllim işsiz qaldı. Çıxış yolu olaraq qısamüddətli kurslarda ingilis dili dərsləri təşkil etməklə həmin müəllimləri ingilis dili müəlliminə çevirməklə işsizlik problemi də aradan qal-

dırıldı. Bu təcrübəni qismən hal-hazırkı dövrdə də tətbiq etmək mümkündür. Belə ki, azad olunmuş ərazilərə qayıdacaq əhalinin içərisində çox sayda iş qabiliyyəti olan insanlar var ki, onların da ixtisası müəyyən sahələrə uyğun gəlməsin, lakin qısa müddətli yenidən hazırlıq kurslarının təşkili vasitəsilə peşə hazırlığı aparıb, onların işlə təmin edilməsini həyata keçirmək mümkündür.

Bütün bu deyilənlərə yekun olaraq nəticə çıxarmaq olar ki, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların məhz təhlükəsiz yaşayışının təmin edilməsilə bu region ölkənin ən abad guşələrindən birinə çevriləcəkdir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində bütün sahələrdə quruculuğa nail olmaq, ümumilikdə Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkün olacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər / 02 fevral 2021 [Elektron resurs]. URL: https://president.az/articles/50474

2. Azərbaycan.-2020.- 29 oktyabr / [Elektron resurs].
URL: http://www.anl.az/down/meqale/azerbaycan/2020/oktyabr/726680.htm

3. http://anama.gov.az/

4. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu / [Elektron resurs].
URL: https://www.taxes.gov.az/files/download/DB2021.pdf

Namazova Cəmilə Bayraməli qızı,
iqtisad elmləri doktoru, professor,
Azərbaycan Respublikası Dövlət Gömrük
Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini
Email: c.namazova19@mail.com

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN YARADICISIDIR

Azərbaycan xalqının müdrik oğlu, böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olaraq xalqımızın inkişaf yolunu çox dəqiq müəyyən etmişdir. Ölkəmizin inkişaf yolu, milli ideologiyamızın xarici siyasətin başlıca prinsipləri, sosial-iqtisadi sahədə qarşıda duran vəzifələr, milli-mənəvi dəyərlərimizin qorunması, gənc nəslin tərbiyəsi, elm, mədəniyyət, təhsil və s. cari və strateji vəzifələr Ümummilli Liderimiz tərəfindən müəyyənləşdirilmişdir. Dahi Öndərimizin müəyyən etdiyi strateji yol bu gün müstəqil dövlətimizin hörmətli Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çox böyük uğurla davam edir.

Dövlət quruculuğu sahəsində Müstəqil Azərbaycanın üzləşdiyi çətin və mürəkkəb problemlərin həlli istiqamətində Ulu Öndərin həyata keçirdiyi siyasət xalqımızın bu günü və gələcək nəsillər üçün böyük təcrübə məktəbidir. Ulu Öndərimiz demişdir "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi əbədi olması bundan da çətindir". Azərbaycan üzləşdiyi ağır çətinliklərdən qurtarmaq, ölkədə icti-

mai-siyasi sabitliyi bərpa etmək üçün görülmüş işlər və əldə edilmiş müsbət nəticələr Heydər Əliyev siyasətinin gücünü və qüdrətini bariz şəkildə nümayiş etdirir. Böyük dövlət idarəçiliyi təcrübəsinə malik olan Heydər Əliyev Azərbaycanı məruz qaldığı dərin böhrandan xilas etmək məqsədilə çox mühüm tədbirləri həyata keçirmişdir. Elmi və nəzəri əsaslara, praktiki təcrübəyə və dünyagörüşünə əsaslanan böyük planlar əsasında Azərbaycan dövləti böhrandan qurtula bildi. Ulu Öndərin həyata keçirdiyi uzaqgörən siyasəti sayəsində ölkədə qanunçuluq bərqərar edildi. Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf proqramı böyük uğurla davam etdirilmiş, çox mühüm nəticələr əldə edilmişdir.

Ümummilli lider Heydər Əliyevin dövlət idarəçiliyi ilə əlaqədar keçirdiyi hər bir tədbir, qəbul etdiyi hər bir qərar, söylədiyi hər bir yeni fikirlər müstəqil dövlətimizin inkişafı və gələcəyi üçün çox böyük əhəmiyyət daşımaqdadır. Onun müstəqil dövlətimizlə əlaqədar müəyyənləşdirdiyi bir çox təməl prinsiplər var ki, onlar içərisində azərbaycançılığın yerini qeyd etmək əsasdır. Bu azərbaycançılıq prinsipləri tək Azərbaycan vətəndaşları üçün deyil, dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlını birləşdirir. Ulu Öndərimiz tərəfindən qəbul olunan digər prinsiplər də dövlətimizin inkişafı, ideya-siyası, hərbi vətənpərvərlik tərbiyəsi dövlət idarəçiliyi və quruculuğu üçün əhəmiyyətli olan prinsiplərdir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasi doktrinası və konsepsiyası Heydər Əliyev zəkasının məhsuludur. Azərbaycanın yerləşdiyi mürəkkəb və ziddiyyətli bir bölgədə milli maraqları qorumağa qadir qətiyyətli və cəsarətli xarici siyasət xəttini uğurla və böyük məharətlə reallaşdıran Heydər Əliyev milli diplomatiyamızın ən bariz örnəyini yaratmışdır.

Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirməsi istiqamətində Ulu Öndərimizin yeritdiyi siyasətin uğurları hazırkı mərhələdə özünün müsbət təsirini göstərir. Aparılmış bu siyasətin uğurları nəticəsində Azərbaycan öz sərvətlərinə sahib ola bilmişdir. Azərbaycan Müstəqilliyi bərpa etdikdən sonra ölkəmizin xarici ölkələrlə birbaşa iqtisadi-ticarət əlaqələri yarandı. Belə əlaqələrdən biri Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması idi.

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin sentyabr ayında "Əsrin müqaviləsi" kimi möhtəşəm neft müqaviləsi imzalandı. Bu, Heydər Əliyevin uğurlu neft strategiyasının təntənəsi idi. Bu strategiya növbəti illərdə geniş şəkildə davam etdirilməklə Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə yerinə yetirirlər.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin qarantlarından biri olan ölkədir. Ölkədə gedən iqtisadi, siyasi və demokratik inkişaf prosesləri Azərbaycanın Avropa və digər xarici dövlətlərlə inteqrasiyasını sürətləndirir. Prezident İlham Əliyev bu proseslərə yeni nəfəs, müasir yanaşma gətirərək dünyada Azərbaycanın inkişafına yeni mərhələ gətirdi. Sosial-iqtisadi inkişafın Heydər Əliyev modeli Azərbaycan dövlətinin alternativsiz inkişaf konsepsiyasını özündə əks etdirir. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi, görülən möhtəşəm işlər, siyasi və iqtisadi islahatlar, milli maraqların gerçəkləşməsi üçün qətiyyətli və ardıcıl mübarizə gələcəyinizə böyük inam və etibarlı təminat yaradır. Ölkəmiz tam mənada Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasına uyğun tərəqqi edir, bu kursun davamlılığını və alternativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını tam sübuta yetirir.

Ötən dövrdə Azərbaycanın bütün həyatı əhəmiyyətli sahələrində qazandığı böyük uğurlar, möhkəm təməllərə söykənən sosial-iqtisadi sabitlik, vətəndaşlarımızın seçiminin alternativsizliyi, dəyişməzliyi bir daha təsdiq olundu. Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasət, imzaladığı Fərman və Sərəncamlarda, təsdiq etdiyi Dövlət Proqramlarında insanların mənafelərinin ən ali səviyyədə qorunması, zəruri sosial müdafiə tədbirlərinin həyata keçirilməsi üçün geniş imkanlar yaradılmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən səmərəli iqtisadi islahatlar kursu respublikamızı sürətli inkişaf yoluna çıxarıb. Yeni dövrün tələblərinə uyğun davam etdirilən sosial-iqtisadi siyasət xətti ölkənin dinamik inkişafını təmin etmiş və əhalinin maddi rifah halının yüksəlməsinə gətirib çıxarmışdır. Azərbaycan iqtisadiyyatının bütün sahələrinin sürətli inkişafı, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, təkmil idarəetmə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılması infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Onun rəhbərliyi ilə işğal olunmuş Qarabağ torpaqlarının geri qaytarılması hər zaman gündəmdə olan əsas məsələ kimi dövlət başçısının nəzarətində idi.

Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələr, 44-günlük zəfər yürüşü və cəbhə uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və düşüncələrimizin ruh-yüksəkliyi idi. Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dan 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərq və Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

Azərbaycan artıq dünyada həm iqtisadi, həm siyasi, həm də hərbi inkişaf strategiyasını həyata keçirən, öz torpaqlarını qəhrəmancasına işğaldan azad edib, geri qaytarmış müzəffər qalib bir dövlət kimi özünü təsdiq etdi. Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuş qüdrətli bir dövlətə çevrilmişdir.

30 il düşmən əsarətində qalmış 20% torpaqlarımızın işğaldan azad edilməsi və o torpaqlara insanların qayıtması və yenidən həyat qurması bu gün Azərbaycan Dövləti qarşısında duran əh mühüm məsələlərdəndir. İşğaldan azad olunmuş torpaqlarda dayanıqlı iqtisadi inkişafı təmin etmək üçün ölkə başçısı tərəfindən geniş miqyaslı və uzunmüddətli tədbirlər planı həyata keçirilir.

Bu tədbirlərin həyata keçirilməsi qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Azərbaycanın regional iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-in təsdiq edilməsi haqqında" Sərəncamda 2020-ci ildə ölkəmizin işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji-mərhələyə daxil olmuşdur. Azərbaycanın yeni inkişaf mərhələsində qarşıya qoyulmuş irimiqyaslı inkişaf istiqamətləri məqsədləri ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafın və ona uyğun milli prioritetlərinin müəyyən olunmasını tələb edir.

Bu prioritetlərdən biri işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışdır. Bu milli prioritet işğaldan azad olmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlıdır. Əldə olunan qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır. Böyük Qayıdışın həyata keçirilməsi vətəndaşlarımızın azad olmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması və bu ərazilərin bərpası, inkişaf etdirilməsi və ölkənin iqtisadi fəaliyyətinə qoşulmasına bir təməl olacaq.

İşğaldan azad olmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin olunmalıdır. Bu ərazilər cəmiyyətin ən sağlam, müasir formada qurulmuş, abad, ekoloji cəhətdən təmiz, dünya standartlarına uyğun müasir infrastrukturu olan müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühitinə çevrilməlidir.

Milli prioritetlərdə nəzərdə tutulan tədbirlər mövcud iqtisadi modelin məzmun və strukturunun əsaslı dəyişilməsinə yönəlmişdir.

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik, dayanıqlı iqtisadi inkişaf, qabaqcıl infrastruktur və təminat yüksək həyat səviyyəsinə müsbət təsir göstərir.

İşğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalı da artacaqdır. Bu iqtisadi inkişafa əminlik o torpaqların münbit olması, məhsuldar olması və zəngin təbii ehtiyatlara malik olmasıdır.

İşğaldan azad edilmiş torpaqların zəngin təbii resurslara malik olması o regionda sənayenin müxtəlif sahələrinin kənd təsərrüfatı, tikinti sahələrinin inkişafına böyük imkanlar açacaq. Ərazilərin zəngin su ehtiyatlarına malik olması, müxtəlif minerallarla zəngin müalicəvi su yataqlarının olması gələcəkdə bu rayonların iqtisadi inkişafının

müxtəlif istiqamətlərdə ixtisaslaşmasından xəbər verir.

Regionun müxtəlif enerji resurslarına malik olması orada iqtisadiyyatın bütün sahələrini enerjiyə olan tələbatının öz enerji resursları vasitəsilə ödəniləcəyini göstərir.

Bütün bu faktların olması gələcəkdə işğaldan azad olunmuş torpaqlarımızda sahibkarlığın bütün sahələrinin inkişafı üçün potensialın olduğundan xəbər verir. Qarşımızda duran əsas vəzifə ölkə başçısı cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə qəbul olunmuş sosial-iqtisadi inkişaf proqramlarına uyğun olan istiqamətlərdə mövcud xammal və enerji resurslarından qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir. Ölkə prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti, fitri istedadı və dəstəyi ilə xalqımız bu çətin və olduqca mürəkkəb sosial-iqtisadi problemlərin də öhdəsindən gələcəkdir.

ШАРГУ Лилия Степановна,
кандидат экономических наук, доцент,
декан Факультета Экономики,
Директор Департамента Международных Отношений
Европейского Университета Молдовы
Email: *lsargu@mail.ru*

ПРЕИМУЩЕСТВА И НЕДОСТАТКИ ИНВЕСТИЦИОННОГО ПРОЦЕССА В РЕСПУБЛИКЕ МОЛДОВА

Иностранные инвестиции - положительный фактор в развитии страны, особенно при отсутствии собственных источников инвестиций. Привлечение иностранных инвестиций приносит такую пользу стране, как:

- инновации и новые технологии;
- создание новых рабочих мест;
- развитие отдельных отраслей народного хозяйства;
- развитие экспорта и расширение области внешних рынков;
- и др.

Благоприятные эффекты всегда создают определенные риски. В сфере привлечения иностранных инвестиций это:

- создание конкуренции для местной деловой среды;
- содействие в создании монополии;
- миграции населения;
- валютные риски;
- в приоритет спрос на сырье;
- различия в уровне заработной платы для сотрудников.

Одним из важных факторов для привлечения иностранных инвестиций является правовая база, поэтому в 1992 году был принят закон об иностранных инвестициях. В 2004 году был принят Закон об инвестициях в предпринимательскую деятельность. Но недостаточно принять только правовую базу, она также должна быть функциональной. Семь лет спустя, в 1999 году, была создана Национальная Организация по Продвижению Экспорта, которая больше отве-

чала за продвижение, чем за инвестиции, а позже в 2014 году была реорганизована в Национальную Организацию по Привлечению Инвестиций и Продвижению Экспорта при Министерстве Экономики. В 2018 году оно будет реорганизовано в Инвестиционное агентство - центральный административный орган, подчиненный правительству. Итак, с момента обретения независимости прошло 22 года, прежде чем была осознана важность и необходимость привлечения иностранных инвестиций в Республику Молдова.

За 29 лет независимости Республике Молдова удалось добиться скромных результатов с точки зрения привлечения иностранных инвестиций. Хотя мы страна с геополитическими преимуществами, привлечение иностранных инвесторов для нас является проблемой.

В первые 15 лет после провозглашения независимости Республика Молдова входила в пятерку последних государств бывшего социалистического содружества, привлекающих иностранные инвестиции. К сожалению, в Республике Молдова нет природных ресурсов, которые могли бы привлечь внимание иностранных инвесторов. Еще один фактор - медленный процесс приватизации по сравнению с соседними Румынией и Украиной.

Привлечение иностранных инвестиций стало одним из стратегических приоритетов мировой экономики, в том числе для Республики Молдова. Просто процесс инициирования стратегии по привлечению внешних источников довольно длительный и часто основан на нескольких факторах.

Незначительный объем инвестиций в нашу страну также связан с социально-политическими аспектами, по сколько общество разделено на два полюса притяжения: один на восток, а другой на запад. Политики, при смене правительство, также отдают приоритет определенным партнерам.

Если серьезно, то вопрос о привлечении инвестиций в Республику Молдова начал решаться в 2010-2020 годах, когда был принят ряд мер по привлечению внешних партнеров. В Стратегию правительства внесена проблема привлечения иностранных инвестиций, организованы конференции и встречи с потенциальными инвесторами, разработан справочник инвестора, создание свободных экономических зон, создание индустриальных парков (7 парков), создание коммерческих и Экономические офисы в дипломатических представительствах Румынии, Украины, Российской Федерации, Беларуси, Китая, Швейцарии, Бельгии, Германии, Польши, Италии, Турции, Объединенных Арабских Эмиратов и т. д.

Среди первых инвесторов в Республике Молдова - компания Лукойл (Россия), которая вошла на рынок в 1997 году, за которой также последовали Petrom (Austria Group), Rompetrol (Казахстан) и др. Иностранные инвесторы в сфере энергетики это «МолдоваГаз» (Россия) и «Юнион Феноса» (Испания). Не только эти направления интересны иностранным инвесторам. Так, согласно отчету Минэкономики, среди наиболее привлекательных сфер деятельности рассматриваются финансовая деятельность, производство, торговля и операции с недвижимостью (Таблица 1).

Таблица 1.

Сферы интересов для иностранных инвестиций в Республике Молдова

1.	**Финансовая деятельность**	**25,8**
2.	**Обрабатывающая промышленность**	**22,9**
3.	**Торговля**	**14,3**
4.	**Сделки с недвижимостью**	**11,6**
5.	**Транспорт и связь**	**10,7**
6.	**Электричество, газ и вода**	**7,3**
7.	**Здоровье**	**1,5**
8.	**сельское хозяйство**	**1,3**
9.	**Другие области**	**4,7**

Несмотря на то, что они не очень слабое продвижение и привлечение иностранных инвестиций, тем не менее, финансовая деятельность очень привлекательна для инвесторов. Из 11 функциональных коммерческих банков в Республике Молдова все имеют иностранный капитал, а 2 из них со 100% иностранным капиталом. В обрабатывающей промышленности один из крупнейших инвесторов Draxlmaier (Германия) работает в свободных экономических зонах, созданных для привлечения иностранных инвестиций. В 1998 году немецкий концерн Sudzuker AG Mannheim приобрел акции 5 сахарных заводов.

Опыт иностранных инвесторов в Республике Молдова не является одним из самых эффективных, поскольку они сталкиваются с различными проблемами, такими как:

- нормативно-правовая база;
- конкуренция;
- бюрократия и процессы отчетности;
- фискальная политика;
- участие государства в частной деятельности;
- трудовые отношения.

Эти и другие проблемы, с которыми сталкиваются иностранные инвесторы в Республике Молдова, решаются государственными структурами для обеспечения благоприятного инвестиционного климата.

Подход к вопросу иностранных инвестиций является актуальным для Республики Молдова. В этой области проводятся исследования независимых экспертов, научные исследования молодых исследователей, отчеты о реализации стратегий научно-исследовательскими учреждениями в области экономики и т. д., которые способствовали бы улучшению ситуации.

В этом контексте и принимая во внимание мнения экспертов, докладчиков и исследователей в данной области, мы предлагаем вашему вниманию положительные и отрицательные аспекты инвестиционной деятельности Республики Молдова в период независимости.

Преимущества инвестиционного процесса в Республике Молдова	Недостатки инвестиционного процесса в Республике Молдова
Растущая близость к процессу интеграции в европейское сообщество; Использование современных технологий; Подписание международных двусторонних договоров; Развитие предпринимательской среды; Создание новых рабочих мест; Стимулирование конкуренции и конкурентоспособности; Реализация новых бизнес-идей; Развитие инфраструктуры; Повышение уровня экспорта; Создание свободных экономических зон; Создание индустриальных парков.	Монополизация некоторых сфер; Отсутствие государственно-частного партнерства; Создание зависимости; Недостаточное продвижение и повышение квалификации кадров; Недостаточное сотрудничество с агентствами, ответственными за развитие сектора; Слабая вовлеченность в общественную деятельность; Использование ресурсов по низкой цене; Участие в слаборазвитых секторах; Создание возможностей для развития жилых районов; Развитие малого и среднего бизнеса.

Очевидно, что преимущества и недостатки - очень горячая тема для обсуждения и по-разному интерпретируется сторонами, участвующими в инвестиционном процессе, но гражданское общество и научные круги не имеют никаких интересов и являются одними из независимых лидеров мнений.

Привлечение иностранных инвестиций - прекрасная возможность для любой страны улучшить свой экономический потенциал, но она также рискует потерять свой потенциал человеческого капитала и национальную идентичность. Одним из примеров является развитие внутренних инвестиций в России во время эмбарго. Значит это возможно и без иностранных инвестиций.

Другой пример - Программа получения гражданства Республики Молдова, запущенная в 2017 году, которая предполагает получение гражданства за инвестиции, минимальная сумма невозмещаемого взноса в Государственный инвестиционный фонд в случае одного заявителя эквивалентна 100. тысяч евро. Но прецедентов пока нет. Привлечение иностранных инвестиций - прекрасная возможность для любой страны улучшить свой экономический потенциал, но она также рискует потерять потенциал человеческого капитала и национальной идентичности.

Список использованной литературы:

1. Постановление Правительства № 786 от 4 октября 2017 г. о приобретении гражданства за инвестиции.

2. Закон о финансово-промышленных группах № 1418-XIV от 14.12.2000 г.

3. Закон о свободных экономических зонах № 440-XV от 27.07.2001 // М.О. №108-109 / 834 от 06.09.2001 г.

4. Закон Республики Молдова № 81-XV от 18 марта 2004 г. Об инвестициях в предпринимательскую деятельность.

5. Постановление Правительства № 511 от 25 апреля 2016 г. Национальная стратегия привлечения инвестиций и продвижения экспорта на 2016-2020 годы и План действий по ее реализации.

İbrahimov İslam Hacı oğlu,
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi,
Bakı Biznes Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SAHİBKARLIĞIN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Məlumdur ki, Azərbaycanda aqrar sahənin regional xüsusiyyətləri, mülkiyyət münasibətlərinin inkişaf meylləri nəzərə alınmaqla sistemli tədbirlər həyata keçirilmiş, sahibkarlıq fəaliyyətinin formalaşdırılması üçün torpaq islahatının həyata keçirilməsi, onun xüsusi mülkiyyətə verilməsi, "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunlarının qəbul edilməsi bu sahədə təkmil normativ-hüquqi bazanın yaradılması, sahibkarlığın formalaşması üçün əlverişli şərait yaratmışdır. Hələ 5 noyabr 1994-cü ildə Ümummilli lider Heydər Əliyev Prezident sarayında respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyətinə həsr olunmuş müşavirədə qətiyyətlə göstərdi ki, "Respublikanın sosial-iqtisadi böhran vəziyyətindən çıxarılması ilə əlaqədar biz dəfələrlə danışıqlar aparmışıq, fikirlər söyləmişik və bildirmişik ki, böhrandan xilas olmaq üçün, Azərbaycanın iqtisadi potensialından səmərəli istifadə etmək üçün yolumuz iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid yoludur, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa, sahibkarlığa geniş imkanlar yaratmaq yoludur". Bununla əlaqədar ölkədə iqtisadi islahatların aparılmasının zəruriliyi qərarına gəldikdən sonra Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı ilə sovxoz, kolxoz və digər kənd təsərrüfatı istehsalı müəssisələrində aqrar islahatların aparılması üçün hüquqi baza yaradıldı. Belə ki, 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və 1996-cı ildə "Torpaq islahatı haqqında" Azərbaycan respublikası qanunları və digər normativ-hüquqi sənədlər qəbul edildi. Bununla yanaşı, kənd təsərrüfatında fəaliyyət göstərən xidmət və emal sənayesi müəssisələrinin özəlləşdirilməsi dövlət əmlakının özəlləşdirilməsi üzrə qəbul olunmuş I və II Dövlət Proqramları əsasında həyata keçirildi. 1995-2000-ci illərdə keçmiş kolxoz, sovxoz və kənd təsərrüfatı müəssisələrinə məxsus 550 milyon manat dəyərində əmlak mövcud qanunvericiliyə əsasən payçıların mülkiyyətinə verildi, 1,7 milyon hektar torpaq kənd təsərrüfatı subyektlərinin istifadəsinə verildi. 688 min payçının istifadəsidə orta hesabla 5 hektar torpaq sahəsi ayrıldı. Beləliklə, təsərrüfat subyektlərinin torpaqların əksəriyyəti - 95%-i kiçik həcmli sahəyə malik olması müəyyən problemlərin əmələ gəlməsinə səbəb oldu. Burada kiçik həcmli sahədə texnikanın və növbəli əkin sisteminin tətbiqi məhdudlaşdı, ziyanvericilərə qarşı mübarizə aparmaq və aqrotexniki tədbirlərə əməl etmək faydasız oldu, istehsal xərcləri artdı və s. Ona görə maddi nemətlər bolluğu yaratmağın, istehsalı artırmağın mənbəyi və iqtisadi artımın hərəkətverici qüvvəsi olan sahibkarlıq fəaliyyətinin inkişafı sosial-iqtisadi inkişafın zəruri amili kimi şərtləndirilir. Sahibkarlığın inkişaf etdirilməsində regional xüsusiyyətlər və hər bir ərazidə istehsal, emal və xidmət müəssisələrinin fəaliyyəti ilə əlaqədar təbii şərait və ixtisaslaşma, təşkilati-iqtisadi

və s. amillər nəzərə alınmalıdır. Sahibkarlığın təşkilati-hüquqi forması, yəni ailə təsərrüfatı, fərdi kəndli təsərrüfatı, kiçik müəssisə-kooperativlərin regionlar üzrə formalaşması və inkişafı bir sıra amillərin nəzərə alınmasından asılıdır. Buraya onların normal fəaliyyəti üçün vacib olan istehsal və sosial infrastrukturların olması, sahibkarlıq fəaliyyətinin formalaşması məqsədilə iqtisadi-təşkilati mexanizmlərin (kredit, vergi, sığorta, investisiya, qiymət və s.) mövcudluğu, işçilərin ixtisas səviyyəsi, regionun ehtiyatları və s. zəruri şərtlərdəndir.

Qeyd edək ki, müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə çox böyük çətinliklər meydana gəldi. Apardığımız təhlil və ümumiləşdirmələr göstərir ki, ölkənin iqtisadiyyatında olduğu kimi, aqrar sahənin inkişafına bir çox amillər mənfi təsir göstərmişdir. Biz aqrar sahənin inkişafına daha çox mənfi təsir göstərən amilləri üç qrupa bölməyi məqsədəuyğun hesab edirik: 1) Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etmişdi və uzun müddət formalaşmış, keçmiş ittifaq respublikaları müstəqillik əldə etdikdən sonra iqtisadi əlaqələr pozulmuşdu; 2) 1988-1993-cü illərdə Ermənistanın ərazi iddiaları ilə ərazilərimizin 20 faizi işğal olunmuşdu, nəticədə Azərbaycanda bir milyondan çox soydaşlarımız köçkün və məcburi qaçqın vəziyyətinə düşmüşdü, ölkəmizin rayon və kəndlərində məskunlaşmağa məcbur olmuşdular; 3) 1994-1995-ci illərdə heç bir təcrübə və hüquqi baza olmadan aqrar islahatlar həyata keçirilməyə başlamışdı. Ölkədə 70 il ərzində formalaşmış təsərrüfat formaları ləğv edilərək torpaq və əmlak istehsalçılara paylanmış, müəssisə, fabrik və zavodlar, xidmət təşkilatları özəlləşdirilməyə başlamışdı.

Bütün bunlar müstəqilliyin bərpa edilməsinin ilk illərində baş verən gərgin vəziyyətin əsas səbəbləri idi. Bununla belə, 1990-1993-cü illərdən sonra Azərbaycanın tarixi və əzəli torpaqları ermənilər tərəfindən işğal edildikdən sonra orada mövcud olan potensial ehtiyatlardan və resurslardan 2020-ci il 7 noyabr tarixinə kimi, yəni torpaqlarımızdan işğalçılardan azad edilənə kimi istifadə etmək mümkün olmadı.

Məlum olduğu kimi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağda – öz ərazilərimizdə azərbaycanlılar yaşayış yerlərindən sıxışdırılıb məcburi qovuldu. 1992-1993-cü illərdə Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarının erməni təcavüzkarları tərəfindən 13,5 min km^2 ərazisi, 953 yaşayış məntəqəsi tamamilə zəbt edildi [2].

1988-1993-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ona bitişik olan rayonların ərazisi beynəlxalq təşkilatların susqunluğu və biganəliyi nəticəsində Ermənistan işğalçı qüvvələri tərəfindən zəbt olunmuşdur. Araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublikasının bir kəndi, Ağdam rayonunun 80 kəndi, Füzuli rayonunun 54 kəndi, Tərtər rayonunun 13 kəndi, Qazax rayonunun 6 kəndi 28 il işğal altında saxlanılmışdır. Füzuli rayonunun ərazisinin 81,3 faizi, Ağdam rayonu ərazisinin 77,4 faizi, Cəbrayıl, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Xocalı, Şuşa, Xocavənd, Ağdərə rayonlarının ərazilərinin hamısı Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Hesablamalara görə ölkəmizin 8641,5 min hektar ümumi torpaq fondunun 181,6 min hektarı işğal altında olmuşdur [1, s.276]. Həmin ərazilərin kənd təsərrüfatına yararlı sahələrindən, o cümlədən əkin yeri, çoxillik əkmələr sahəsindən digər kənd təsərrüfatı yerlərindən uzun müddət ölkənin kənd təsərrüfatı məhsulları istehsalı

üçün istifadə edilmədi. İşğal olunmuş rayonların 700 min nəfər məcburi köçkünü daimi yaşayış yerlərindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşmışlar. Həmin köçkünlər 1600-dan çox çadır düşərgələrində, fin tipli qəsəbələrdə, dəmir yolu yük vaqonlarında, ictimai binalarda, yataqxanalarda, təhsil müəssisələrində, tikintisi yarımçıq qalmış binalarda, sanatoriyalarda, pansionat və istirahət evlərində və digər yerlərdə müvəqqəti məskunlaşmışdılar. Məcburi köçkünlər məskunlaşdıqları rayon və kəndlərdə müvəqqəti istifadə üçün əkin yerləri, yaylaq və qışlaq sahələrindən istifadə edirdilər [6, 94-101].

Araşdırmalar göstərir ki, işğaldan əvvəlki dövrdə-1985-1990-cı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın bölgəsi böyük potensiala malik olmuşdur. Ölkə üzrə taxıl əkini sahəsinin 13-15 faizini, pambığın 5-6 faizini, üzüm əkinlərinin 25-26 faizini bu bölgə əkmişdir. Müvafiq olaraq taxıl istehsalının 15-17 faizi, pambığın 4-5 faizi, üzümün 25-27 faizini təşkil etmişdir. Faktlar göstərir ki, Laçın rayonunun 182,6 min hektar, Kəlbəcər rayonunun 199 min hektar, Ağdam rayonunun 109,4 min hektar, Cəbrayıl rayonunun 111,6 min hektar, Füzuli rayonunun 126,6 min hektar, Qubadlı rayonunun 84,2 min hektar, Zəngilan rayonunun 72,6 min hektar torpaq sahəsi (əkin, çoxillik əkmələr, örüşlər, meşələr, kənd təsərrüfatına yararlı torpaqlar) erməni işğalında qalmışdır.

Prezident İlham Əliyevin göstərdiyi kimi "Biz bu qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etmişik" və bu hesabla şəhər və kəndlərimizi gözəlliklər və firavan həyat məskəninə çevirməliyik. Bununla əlaqədar ölkədə və dünyada qazanılmış elm və texnikanın ən yeni nailiyyətlərini işğaldan azad edilmiş ərazilərdə (İAEƏ) tətbiq etməli, gözəl və firavan həyat şəraiti yaratmalıyıq. Fikrimizcə, ərazidə yenidənqurma vaxtı bir sıra məsələlərin nəzərə alınmasını məqsədəuyğun hesab etmək olar.

"Aqrar islahatının əsasları haqqında" Azərbaycan Respublikası Qanununa görə (18 fevral 1995-ci il) İAEƏ-də islahatın məqsədi dövlət proqramı əsasında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar İAEƏ-nin sosial-iqtisadi inkişafına dair 2021-2025 və 2030-cu illəri əhatə edən məqsədli Dövlət Proqramı hazırlanması məqsədəuyğun olardı. Bu proqramla əraziyə qayıdacaq vətəndaşlarımızın yüksək həyat tərzi üçün hər bir rayonu və kəndi əhatə edən sosial-iqtisadi inkişafın dövlət siyasəti və milli təhlükəsizlik istiqamətləri müəyyən edilməlidir.

Ərazilərin 30 ilə yaxın dövr ərzində işğalda olması və 8 noyabr 2020-ci ildə ermənilərin tapdağından azad edilməsi, əhalinin ərazilərdə məskunlaşması bazar münasibətləri prinsiplərinə uyğun yeni təsərrüfat formalarının yaradılması, sahibkarlığın formalaşması ilə müşayət olunmalıdır. Çalışmaq lazımdır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyata keçirdiyi müsbət islahatlar təcrübəsindən bu ərazilərdən düzgün yararlansın. Ərazilərdə əmlak tam dağıdıldığından onun özəlləşdirilməsi və pay kimi verilməsi mümkün olmayacaq. Ancaq torpaqların paylanması prosesini də faydalı hesab etmək olmaz. Hesab edirik ki, hər bir kənddə sahibkarlığın müxtəlif formaları, müvafiq istehsal və xidmət kooperativlərinin yaradılması düzgün olardı. Ərazilərdə əhalinin tarixi vərdişlərindən istifadə edərək ixtisaslaşma aparılmaqla sahələr inkişaf etdirilə bilər. Sahələr bərpa olunduqdan sonra rəqabət qabiliyyəti, yüksək keyfiyyətli məhsul istehsal edən texnika və texnologiya hesabına müasir

istehsal və xidmət müəssisələri – kooperativlər yaradılmalıdır. Vəsait və maliyyə baxımından daxili və xarici investorların ərazilərə cəlb edilərək hazır məhsul istehsal edən müştərək emal müəssisələri yaradılması məqsədəuyğun olar.

Qarabağın bu ərazisindəki rayon və kəndlərinin problemləri təxminən eynidir. Elə etmək lazımdır ki, ərazinin demoqrafik potensialından maksimum və düzgün istifadə edilsin. Müvafiq idarəetmə, sosial-mədəni, təsərrüfat strukturları, sosial infrastrukturları elə təşkil olunmalıdır ki, onlar öz doğma yurdlarına geri qayıdacaq əhalinin məşğulluğunu maksimum təmin etsin. Burada inşa ediləcək binalar, infrastrukturlar müasir olmaqla, tələbatı tam ödəyə bilsin, onların rifahına xidmət etsin. Hesab edirik ki, ərazilərdə məskunlaşacaq əhaliyə müəyyən müddətə güzəştli kreditlər verilməsi, yanacaq enerjidən istifadə simvolik xarakterli olmamalı, ərazilərin şəhər və kəndlərinin iqtisadi həyatının dirçəlməsinə zəmin yaradılmalıdır. Çalışmaq lazımdır ki, sahibkarların bu ərazilərdə yeni texnologiyalardan istifadəsi, innovasiya sisteminin tətbiqi məsələlərinə ciddi diqqət yetirilsin, intellektual mülkiyyətin formalaşmasına şərait yaradılsın. Bununla əlaqədar ərazilərdə milli innovasiya sisteminin yaradılması üçün aşağıdakıların nəzərə alınmasını məqsədəuyğun hesab edirik: yeni texnologiyaların, ideya və biliklərin istehsalçıları olan müəssisələr şəbəkəsinin yaradılması, yeni istehsal və xidmət müəssisələri iştirakçılarının maliyyələşdirilməsi, elmi və elmi-xidmət müəssisələrinin fəaliyyəti və onlar arasında münasibətlərin tənzimlənməsi nəzərdə tutulmalıdır.

Ərazilərdə sosial-iqtisadi inkişafın təmin olunması üçün dövlətin iqtisadi proseslərin idarə olunmasında müdaxiləsi vacibdir. Ona görə də dövlət ərazilərin iqtisadiyyatının dirçəldilməsi üçün mümkün olan optimal variantlardan istifadə etməlidir. Xarici ölkələrin, xüsusən Rusiyanın təcrübəsindən istifadə etmək məqsədəuyğun olardı.

2008-ci ilin iyul ayında kənd təsərrüfatı kooperativlərinin və holdinqlərin yaradılması sahəsində təcrübə ilə tanış olmaq üçün Rusiya Federasiyasının Tatarıstan Respublikasında Kazan şəhərində olmuşuq. Məlum olmuşdur ki, Tatarıstanda kənd təsərrüfatı kooperativləri islahat aparılan kolxoz və sovxozların torpaqlarının əsasında ərazi dağıdılmadan aparılmışdır. Torpaqlar parçalanmamış, torpağın payçıları müəyyən edilməklə kooperativlər yaradılmışdır. Kooperativlərdə paylar bilinir, ondan payçı istədiyi kimi (istifadə hüququ - satmaq, icarəyə vermək və s.) istifadə edə bilər. Hesab edirəm ki, bu təcrübədən, yəni paylar müəyyən edilməklə kooperativlər yaradılması təcrübəsindən istifadə edilməsi mümkündür. Yaxud, sahibkarlığı inkişaf etdirmək üçün kooperativ fəaliyyəti Beyləqan, Ağcabədi rayonlarının yararlı torpaqlarının hesabına dövlət idarəetməsi kimi formalaşan taxılçılıq təsərrüfatları – təcrübəsindən istifadə etməklə yaradıla bilər.

Kəndlərdə yeni yaradılacaq müxtəlif təsərrüfat formaları, onların üzvləri sərbəst olacaqlar. Lakin onların daha çox mütəxəssis məsləhətlərinə, bazar münasibətlərinin əsaslarını öyrədən peşə sahiblərinə ehtiyacları yaranacaqdır. Ciddi bazar münasibətləri, rəqabətlə üzləşən çoxsaylı kiçik və orta müəssisələr yaranacaqdır. Bu baxımdan yeni təsərrüfat formaları iqtisadi və peşə sərbəstliyini qoruyub saxlamaq üçün bazar rəqabətli məhsul növünün seçilməsindən tutmuş, yüksək beynəlxalq texnologiyalarının mənimsənilməsinə, mühasibat uçotuna, büdcənin tərtibinə, vergi, sığorta, bank sistem-

ləri ilə iş, mümkün olan investisiyalar qoyuluşu üçün layihələr hazırlamaqla, marketinq xidməti və kəndin sosial simasının yaxşılaşdırılması yollarınadək çoxsaylı işləri öyrənməli və tətbiq etməlidirlər [3, s. 157]. Bu məqsədlə bazar münasibətlərinin atributlarını öyrədən təhsil və məsləhət sisteminin formalaşmış təcrübəsindən istifadə olunmalıdır. Ərazilərdəki mövcud ehtiyatlardan aşağıdakı istiqamətlərdə istifadə edilməsinə diqqət verilməsi sahibkarlığın formalaşması və inkişafına imkan verə bilər:

Torpaq ehtiyatlarından səmərəli istifadə sahəsində: torpaq ehtiyatları inventarlaşdırılmalı, onun kəmiyyət və keyfiyyət göstəriciləri dəqiqləşdirilməlidir, çirklənmiş və deqradasiyaya uğramış torpaqlar müəyyən edilməli, müvafiq layihələr hazırlanmalıdır. Torpaqların düzgün istifadəsi, onların erroziya və şoranlaşmasına antropogen amillərin təsiri ilə formalaşmasından asılı olması nəzərə alınmalıdır. Burada erroziya və ekoloji amillərin qiymətləndirilməsi torpaqlardan düzgün istifadəyə imkan verdiyini nəzərdən qaçırmaq olmaz. Əhali artımı ilə əlaqədar torpaqların qeyri-kənd təsərrüfatı obyektlərinə və fərdi tikintilər altına ayrılması məhdudlaşdırılmalı, buna ciddi diqqət yetirilməlidir.

Bitkiçilik sahəsində: torpaqların minadan təmizlənməsi, münbitliyinin bərpa edilməsi, yaxşılaşdırılması, toxumçuluq və seleksiya işlərinin bərpa olunması, dağlıq və dağətəyi torpaqların becərilməyə cəlb edilməsi, məhsul istehsalı və emalı sahələrə müvafiq investisiya qoyulmasının təmin olunması, aqrokimyəvi tədbirlərin, növbəli əkin sisteminin tətbiqi, optimal əkin strukturunun müəyyən edilməsi, texnika, təchizat və mexanikləşdirmə, kimyalaşdırma, anbarlarla, laboratoriyalarla təchizi həll edilməlidir. Sahənin yüksək ixtisaslı kadrla və modern istehsal məqsədilə elmi təminatı, qabaqcıl təcrübənin tətbiqi nəzərdə tutulmalıdır. Rayonlarda toxum müfəttişlikləri yaradılmalıdır.

Heyvandarlıq sahəsində: sahənin avadanlıq, müasir tələblərə cavab verən tövlələrlə, xüsusi nəqliyyat vasitələri ilə təmini, quşçuluq təsərrüfatı və fabriklərinin yaradılması, rayonlarda heyvanların cins tərkibi nəzərə alınmalı, heyvandarlıq məhsulları istehsalı, emalı, idxalı müasir tələblər səviyyəsində qurulmalı, baytarlıq nəzarəti təmin olunmalıdır. Heyvandarlığın inkişafı üçün yüksək keyfiyyətli yem bazası yaradılmalıdır.

Meliorasiya və su təsərrüfatı sahəsində: meliorasiya tədbirlərinə ehtiyac olan torpaqlar müəyyən edilməli, su anbarları, hidroqovşaqlar yenidən təşkil olunmalı, su itkilərinin qarşısı alınmalı, ərazilərin suvarma suyu və əhalinin içməli su ilə təminatı müasir tələblərə uyğun qurulmalı, suvarmada mütərəqqi texnologiya tətbiq edilməli, bu sahəyə tələb olunan həcmdə investisiya ayrılması təmin olunmalıdır. İAEƏ-də lizinq xidmətinin təşkili, lizinq qaydasında fiziki və hüquqi şəxslərə güzəştli kənd təsərrüfatı texnikası və avadanlıqları verilməsi, aqrotexniki xidmətlər şəbəkəsinin yaradılması təmin olunmalıdır. Əsas vəzifə kənd təsərrüfatının və kəndin dayanıqlı inkişafının zəruri şərti olaraq aqrar istehsalçıların texniki baza və idarəetmə baxımından modernləşdirilməsi tədbirləri həyata keçirilməlidir [4]. Modern texnologiya proseslərinin istehsala tətbiqi həm kiçik, həm də iri təsərrüfatlar üçün sahələrarası əlaqələrin inkişafı və kooperativ strukturların formlaşmasına imkan verməlidir.

İAEƏ-də aqrar sferanın dayanıqlı inkişafı üçün ərazilərdə sahibkarlığın forma-

laşması və inkişafı məqsədilə aşağıdakı təşkilati-iqtisadi təkliflərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1) Ərazilərdə istehsal və xidmət kooperativləri yaradılmalıdır;

2) Sahibkarlığın normal fəaliyyəti üçün istehsal və sosial infrastrukturlar yaradılmalıdır;

3) Sahibkarlara uzun müddətə güzəştli kreditləri verilməlidir;

4) Aqrar istehsal və xidmət üzrə sahibkarlığın formalaşması və inkişafına şərait yaradılması, aqroparklar, sənaye məhəllələrinin yaradılması dəstəklənməlidir;

5) İdarəetmənin təşkilati strukturunun qurulması, onun səmərəliliyi, onun yeni qurumlara birbaşa əlaqələrin yaradılmasından başlanmalıdır. Torpaqların, bitkilərin, toxumların biokimyəvi analizlərinin aparılması, damazlıq işinin təşkili, bitki mühafizə xidmətlərinin təşkili yerli yeni yaradılacaq qurumlarla əlaqələndirməlidir. Bu məqsədlə hər bir rayonda yeni prinsiplərə cavab verən mərkəzlər yaradılmalıdır;

6) İşğaldan azad edilmiş hər bir rayonda aqrar sahədə sahibkarlığın formalaşması və inkişafı problemlərinin həlli məqsədilə proqramlar işlənməli və onun həyata keçirilməsi mexanizmi hazırlanmalıdır;

7) Ərazidə torpaq mülkiyyətçilərinin, sahibkarların ortaq problemlərinin həlli üçün onların birlikləri, cəmiyyətlərinin yaradılması təmin edilməlidir;

8) Ərazidə sahibkarların aldıqları texnika, gübrə, kimyəvi preparatların dəyəri 5 il müddətinə dövlət büdcəsindən ödənilməsi mexanizmi yaradılmalıdır;

9) Ərazidə sahibkarların aqrotexniki işləri aparmaları üçün özəl servis xidmətləri təşkil edilməli, bunun üçün tələb olunan həcmdə güzəştli vəsait ayrılmalıdır;

10) Ərazidə üzüm, meyvə, zeytun, tut bağlarının salınması, yerli və xarici investorların cəlb edilməsi tədbirləri müəyyənləşdirilməlidir;

11) Özəl toxum istehsalı və tingçiliyin inkişafı üçün dövlət dəstəyi tədbirləri həyata keçirilməlidir;

12) Şuşa, Xankəndi, Füzuli və Ağdamda tez xarab olan kənd təsərrüfatı məhsullarının topdansatış mərkəzləri yaradılmalıdır;

13) Ətlik maldarlıq və damazlıq təsərrüfatlar (müəssisələr), quşçuluq fabrikləri yaradılmalıdır;

14) Ərazidə turizmin sahibkarlığının formalaşması və inkişafı üçün infrastrukturlar yaradılmalıdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Abbasov İ. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı. 2011. 640 s.

2. Həkəri qəzeti. 20.02.2004-cü il, № 2.

3. İbrahimov İ.H.Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı. 2005. 220 s.

4. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı (monoqrafiya). Bakı. 2016. 655 s.

5. İbrahimov Ş.H. Azərbaycanın regionlarındakı aqrar problemlər haqqında. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Bakı 2003. İqtisadi İslahatlar Mərkəzinin elmi əsərlər toplusu. IV buraxılış. 294 s.

6. Rzayev V.R. Torpaq münasibətlərinin təşkilati-iqtisadi mexanizmi. Bakı. 2015. 248 s.

Anna Verbytska,
PhD in Public Administration,
Head of the Department of Marketing,
PR-Technologies and Logistics of
Chernihiv Polytechnic National University, Ukraine
Email: anna.verbytska@stu.cn.ua

SOCIAL ENTREPRENEURSHIP AS AN EFFECTIVE INSTRUMENT OF POST-CONFLICT REGULATION

According to international experts, the most of IDPs in Ukraine, over the years in resettlement has already decided main issues related to temporary residence, education, health care, social adaptation in the host communities, so now it is time to focus on creation new employment opportunities and improving of economic situation of this category of the population. Reasonable solution is to help internally displaced persons in support economic activity through the development of social entrepreneurship as a type of self-employment. Social entrepreneurship promotes the creation of new ones jobs, addresses the quality of life through provision employment, as well as through the production of affordable goods and services capable meet vulnerable populations.

Social entrepreneurs have provided new era of innovations to unmet social needs, using business approach. Such enterprises may create commercial subsidiaries for employment or revenue that serves urgent social purposes. Social enterprises maintain partner relations with the community, closing a gap left behind by authorities, private sector and other organizations. Therefore, social entrepreneurship does not only provide for post conflict support, but also stabilize community and personal resilience [1].

Social entrepreneurship in Ukraine is becoming more widespread due, first of all, to its own ability to solve socio-economic problems, but this activity is still remains quite young, and the social entrepreneurship ecosystem in Ukraine is still not fully formed. Current challenges (crisis of confidence, economic crisis, war, pandemic, unemployment, etc.) created an urgent need for security welfare, psychological, financial and information security of the country.

According to the report of the World Economic Forum, social entrepreneurship is an effective tool for innovation development and innovative responding to conflict situations [2].

Social entrepreneurs are often called innovators as they try to solve the "old" social problems by "new" entrepreneurial approaches. This is primarily because traditional business has taken the most interesting, in terms of profitability, niches, and the peculiarity of social groups in difficult life circumstances. Actually, it is sometimes necessary to "combine the incompatible" to obtain commercial and social effects. For example, the organization "Ashoka" is engaged in search and supporting social entrepreneurs around the world who offer non-standard solutions for social problems. Most researchers link the social entrepreneurship with innovation and even the most social entrepreneurship is called innovation in the social areas, at least in countries

where social entrepreneurship is just beginning to develop [3].

Prerequisites for innovation in social sphere of Ukraine is:

- *Availability of resources that are not interesting to the traditional business.* Representatives of vulnerable groups. As a rule, the employment of such people carries certain risks for companies, or requires additional investment for adaptation of the workplace to the features of such employees. Either such a large number of unused resources encourages themselves or those who are not indifferent to these people create projects for survival in difficult conditions.

- *Availability of ways to create innovations.* It should be noted not only the availability of sources, but and the ease and accessibility of innovations that can be used to start a social enterprise. Among the sources are the following: foreign social enterprises; international organizations promoting social entrepreneurship through training, internships, publication of materials and grant support, specialized centers for support and development of social entrepreneurship, operating around the world and in Ukraine in particular; public or charitable organizations, which are engaged in solving social problems; scientific conferences, round tables, seminars, forums, internships and other events designed to present better experience in solving social problems; specialized literature on the social sphere and entrepreneurship; curricula, courses, trainings, other educational activities offered in various educational institutions to train social entrepreneurs.

Thus, these prerequisites in various combinations make it possible to create unique approaches to solving specific social problems.

Social entrepreneurship is a real mechanism for solving economic, social, cultural and environmental problems of the region. The following elements of social entrepreneurship ecosystem should play a role in this process: the state on the initiative of "top-down", which through incentive mechanisms has determine the institutional framework and strategy for the development of joint ventures in the regions; community as a "customer" services, in which social enterprises should be created to achieve social change bottom-up initiative and promoting the well-being of society; business in the role investor; education as a tool for the formation of entrepreneurial competencies and access to the database knowledge.

EU countries today actively support the development of social entrepreneurship within the national and regional programs. The European ecosystem of social entrepreneurship includes entrepreneurs, social investors, business associations and incubators, accelerators, authorities, donors, higher education institutions, media and society. However, in Ukraine ecosystem participants are still the only ones social enterprises, incubators, accelerators and financial institutions. Potential of institutions higher education, which form competencies in the field of social entrepreneurship, is not fully implemented. In addition, civil society institutions are not sufficiently involved in the processes of social entrepreneurship development. The barrier to the development of this sector of the economy is lack of regulatory framework and state support mechanisms, insufficient access to investment, low level of social participation.

Thus, the development of social entrepreneurship among internally displaced persons, disabled and war veterans, as well as their families is an additional instrument

of state policy of social support of this category population, solving a number of problems, such as: economic development activity of vulnerable persons as well as the communities as a whole, involvement international humanitarian aid, as well as implementation of innovations in solving social problems both locally and on at the state level.

References:

1. Sserwanga, Arthur & Kiconco, Rebecca & Nystrand, Malin & Mindra, Rachel. (2014). Social entrepreneurship and post conflict recovery in Uganda. Journal of Enterprising Communities: People and Places in the Global Economy. 8. 300-317. 10.1108/JEC-02-2014-0001.
2. Agenda in Focus: Social Entrepreneurs. World Economic Forum. https://www.weforum.org.
3. El Ebrashi, Raghda. (2013). Social entrepreneurship theory and sustainable social impact. Social Responsibility Journal. 9. 10.1108/SRJ-07-2011-0013.

Quliyeva Aygün Eldar qızı,
iqtisad elmləri doktoru,
Azərbaycan Kooperasiya Universitetinin prorektoru,
Email: aygun.e.guliyeva@hotmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MALİYYƏ-KREDİT VƏ İNVESTİSİYA TƏMİNATI PRİORİTETLƏRİ

Işğaldan azad olunmuş xüsusilə dağlıq ərazilərin heyvandarlıq potensialı çox yüksəkdir. Dövlətin dəstəyi ilə damazlıq heyvan cinslərinin artırılması üçün yeni təsərrüfatların yaradılması, ailə başçısını itirmiş ailələr, eyni zamanda şəhid ailələri, qazilər üçün heyvandarlıq layihələrinin hazırlanması, qoyunçuluğun inkişafı üçün cins heyvanların verilməsi, arıçılığın inkişafı, otlaq sahələrinə uyğun xırdabuynuzlu heyvandarlıq üzrə kooperativlərin və digər təsərrüfatların yaradılması kimi tədbirlərin reallaşdırılması fikrimizcə daha yaxşı olardı.

Aqrar sahənin inkişafı üçün texniki avadanlıqlarla təminat olduqca vacibdir. Kənd təsərrüfatı texnikalarının güzəştli şərtlərlə satışının maliyyələşdirilməsi, əkin işləri üçün hazırda pambıqçılıqda tətbiq olunan "Müqaviləli istehsal" modelinin tətbiqi (şirkət seçilməsi, xərcləri şirkətin qarşılaması və məhsul yığımında hesablaşma), müasir və ağıllı texnologiyalarından istifadə imkanlarını genişləndirmək (traktor, dron və s.) kimi tədbirlər dövlətin diqqət mərkəzində olmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə xüsusi inkişaf agentliklərinin təşkili (məsələn, Türkiyə, Polşa təcrübəsi əsasında), müxtəlif rayonlarda əldə edilmiş intensiv bağçılıq təcrübəsinin ərazidə geniş tətbiq edilməsi, aqrar sığortanın tətbiq edilməsi, Xüsusi İnkişaf Fondunun yaradılması (kənd təsərrüfatı sektoru da daxil olmaqla) vacib məsələlərdəndir. Bununla yanaşı, işğaldan azad edilən ərazilərə investisiyanın cəlb edilməsi üçün tədbirlər planın hazırlanması, beynəlxalq donorlar tərəfindən ərazilərdə həyata keçiriləcək layihələrin dövlət strategiyalarına uyğunlaşdırılması, əhalinin həssas qrupları və ailə başçını itirmiş ailələr, şəhid və qazi ailələri üçün inkluziv layihələrin həyata keçirilməsi, iş adamlarının investisiya qoymağa təşviq edilməsi və onlar üçün xüsusi imtiyazların verilməsi, suvarma layihələrinin həyata keçirilməsi, ekoloji təmiz kənd təsərrüfatının dəstəklənməsi kimi fəaliyyətlər də işğaldan azad edilmiş ərazilərimizin bərpası zamanı nəzərə alınmalıdır.

Eyni zamanda ərazidə mövcud olan meyvə bağlarının vəziyyətini yaxşılaşdırmaq və əhalinin tələbatını ödəmək üçün aşağıdakı tədbirlər aparılmalıdır:

– bağların becərilməsini vaxtında və keyfiyyətli aparmaq üçün servis xidmətinin yaradılması və onun dəstəklənməsi;

– kimyəvi preparatların satışı, marketinq xidmətinin yaradılması,

– tara-qalatdırıcı xidmətin təşkili və onun dəstəklənməsi;

– meyvənin saxlanması üçün soyuducuların tikilməsi və yeni avadanliqlarla təminatı;

– şəhər mərkəzlərində meyvə satışı mərkəzləri və ticarət şəbəkələrinin yaradılması.

– Avropa standartlarına uyğun rəqabətli və keyfiyyətli məhsul istehsali üçün tədbirlərin müəyyənləşdirilməsi.

Kənd təsərrüfatı baxımından mühüm potensiala malik işğaldan azad edilmiş ərazilərin inkişafı Azərbaycanın regionda iqtisadi baxımdan daha da güclənməsində və iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
2. Azərbaycan Respublikasi regionlarinin 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı, Bakı şəhəri, 29 yanvar 2019-cu il.
3. B.X. Ataşov. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, 2005. 336 s.
4. İ. H.İbrahimov Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı, 2007. 296 s.
5. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Bakı,2016, 655s.
6. E.A. Quliyev. Aqrar iqtisadiyyat. Bakı, 2015, 320 s.

Həsənov İsmayıl Cəfər oğlu,
iqtisad elmləri namizədi, dosent,
Bakı Biznes Universiteti
Email: i_hasanov_65@mail.ru

AZƏRBAYCANIN IŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İNVESTİSİYA TƏMİNATININ XÜSUSİYYƏTLƏRİ

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası qarşıda duran ən mühüm vəzifələrdən biridir. Bu ərazilərdə həyata keçiriləcək quruculuq işlərinin əhatə dairəsi də çox genişdir. Düşmən həmin ərazilərdəki yaşayış məntəqələrini xarabalığa çevirmiş, infrastrukturu tamamilə dağıtmış, yeraltı və yerüstü sərvətləri talan, tarixi-dini abidələri yerlə-yeksan etmişdir.

İşğaldan azad olunan ərazilərimizin mövcud potensialı, xammal və təbii ehtiyatları və məhsuldar torpaq sahələrinin həcmi bərpa mərhələsindən sonra Qarabağ bölgəsində qısa zamanda geniş quruculuq işlərinin gedişatını proqnozlaşdırmağa əsas verir. Bu isə tez bir zamanda həmin ərazilərdə çoxlu sayda yeni iş yerlərinin yaradılmasını və güclü iqtisadi inkişafı şərtləndirir. Bununla yanaşı, bu ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, kiçik və orta sahibkarlığın formalaşdırılması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı zəmin yaradacaq və yekunda idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalı da artacaqdır.

İşğaldan azad edilmiş ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif növ material

və xammallarla zəngindir. Eyni zamanda, bu ərazilər tükənməz su ehtiyatlarına malikdir. Bütün bunlar isə ölkənin sənayesi və kənd təsərrüfatının inkişafı üçün əvəzsizdir. Mütəxəssislərin fikrincə, bölgədə böyük müalicə əhəmiyyəti olan 120-dən yuxarı müxtəlif tərkibli mineral su yataqları mövcuddur. Qeyd olunmalıdır ki, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 40%-i işğaldan azad edilən rayonların payına düşür. Regionun enerji resurslari (hidroenerji, günəş, külək və termal enerji potensialı) bütün iqtisadiyyat sahələrinin, o cümlədən də əhalinin enerjiyə olan gündəlik tələbatının ödənilməsində vacib təminatçı kimi çıxış edəcəkdir. Bütün bu faktlar isə onu göstərir ki, həmin ərazilərdə müxtəlif mülkiyyət formalarında sahibkarlığın geniş şəbəkəsinin yaradılması üçün kifayət qədər xammal və enerji resursları mövcuddur. İndiki və gələcək nəslin qarşısında duran əsas vəzifə həmin resurslardan səmərəli və qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir.

İşğaldan azad edilən rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan kompleks xarakterli hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və həyata keçirilməsi tələb olunur. Başqa sözlə, ərazilərin bərpası üçün konseptual yanaşmaya üstünlük verilməlidir.

İşğaldan azad edilən ərazilərdə tikinti-quraşdırma və abadlaşdırma işlərini fasiləsiz həyata keçirmək üçün yerli daş karxanaları, qum, çınqıl, əhəng, sement və s. hasil edən müəssisələrin işini bərpa etmək məqsədilə rayonları təmsil edən tikinti şirkətləri ərazilərə köçürülməli, onların işçiləri üçün ya konteyner tipli vaqonlar, ya da modul tipli evlər quraşdırılmalıdır. Habelə dövlət, özəl və xarici şirkətlər cəlb edilməklə işğaldan və minalardan azad edilən ərazilərdə respublika və yerli əhəmiyyətli avtomobil və dəmir yolları bərpa olunmalıdır. Həmin şirkətlərin vasitəsi ilə rayonlarda ilk növbədə mobil rabitə sistemi, onun ardınca isə poçt-rabitə şəbəkələri bərpa edilməlidir. Qarşıda böyük həcmdə tikinti-quraşdırma işlərinin aparılmasını nəzərə alaraq mobil asfalt-beton və sement zavodlarının tikintisi, ərazilərin elektrik enerjisi ilə təminatı, su və qaz təchizatının bərpası işləri həyata keçirilməlidir.

Yaradılacaq tikinti təyinatlı sahibkarlıq subyektləri, fərdi qaydada yaradılacaq kiçik müəssisələrin regionda mövcud olan və dağıntıya məruz qalan çoxsaylı yaşayış məntəqəsinin, lazımi sayda xəstəxana və poliklinikanın, məktəb və uşaq bağçalarının, kütləvi kitabxanaların bərpası da qarşıda əsas vəzifə kimi durur. İşğaldan azad olunan şəhər və kəndlərdə kiçik və orta sahibkarlar tərəfindən müasir ticarət obyektləri, məişət və iaşə xidmətləri, bazarlar və digər sosial infrastruktur obyektləri tikilib istifadəyə veriləcəkdir. Nəzərdə tutulur ki, belə sahibkarlıq subyektlərinin təşkili prosesinə güzəştli (vergidən bir neçə il azadetmə) vergi və kredit (aşağı faizli) sistemləri şamil ediləcəkdir.

İşğaldan azad edilən ərazilərdə tikinti-quraşdırma və abadlıq işlərinin reallaşdırılması regionda investisiya siyasətinin müvəffəqiyyətlə aparılmasını zəruri edir. Bu baxımdan bu ərazilərdə investisiyalara təminatın qiymətləndirilməsi ən aktual məsələlərdən biridir. Bu gün ölkənin iqtisadiyyatına investisiyaların cəlb edilməsi idarəetmənin bütün səviyyələrində sosial-iqtisadi problemlərin önündə gedir.

İnvestisiya resursları ilə təminatda məkan müxtəlifliyi, investisiya aktivliyinin

səviyyəsi, investisiya infrastrukturunun inkişafı və investisiya iqliminin vəziyyəti dünya reytinqinin vəziyyətindən asılı olmayaraq bütün ölkələrə, o cümlədən də Azərbaycanın regionlarına praktiki cəhətdən məxsusdur. Ona görə də vahid investisiya sahəsinin formalaşması proseslərində birləşmiş başlanğıc, ölkənin və regionların investisiyalarının cəlb edilməsi və istifadəsində ən uğurlu təcrübənin təhlili və ümumiləşdirmələr üzrə elmi biliklər və yanaşmalar sisteminin müqayisə edilməsi həyata keçiriləcək.

Nəzərə almaq lazımdır ki, Azərbaycanın işğaldan azad edilən bəzi əraziləri güclü investisiya potensialına malikdir, ona görə də qoyulacaq investisiyalara bu ərazilərin uyğunlaşması altında real iqtisadi şərait, qismən investisiya iqliminə iqtisadi sistem kimi regionun qabiliyyəti başa düşülür. İnvestisiyalara regionun passiv uyğunlaşmasını fərqləndirmək olar, nə vaxt ki, region xarici iqtisadi mühitin dəyişilməsinə reaksiya verir və o vaxt aktiv ola bilər ki, xarici iqtisadi mühitdə (investisiya fəaliyyəti nəticəsi vasitəsilə) regionun investisiya təsiri həyata keçirilsin.

İnvestisiyalara uyğunlaşmanın idarə edilməsi mexanizmi investisiya resurslarının istehlakı və istifadəsi, cəlb edilməsi, axtarış proseslərinin tənzimlənməsinə yönəldilən, dövlət, region səviyyəsində inzibati orqanların fəaliyyəti və tədbirlərinin cəmi təsəvvür edilir. Məlumdur ki, uzun müddət investisiya sahəsində siyasət investisiyaların horizontal və vertikal yenidən bölüşdürülməsi haqqında qərarların mərkəzi qəbul edilməsi, hakimiyyətin və dövlət orqanlarının ixtiyarında idi.

Bu gün ölkənin bütün regionları rəqabət münasibətlərinə daxil olublar: öz potensialını faydalı reallaşdıra bilir – investisiyaları qazanır, əgər bacarmırsa – dotasiya alırlar. Regionlar səviyyəsində daxili investisiyalar yenidən bölüşdürülür. Onlar, öz növbəsində, çox halda regional bürokratik üstqurumda qalırlar. İşğaldan azad edilən rayonların investisiya təminatında bu məsələlərin də nəzərə alınması lazım gəlir. Həm də nəzərə almaq lazımdır ki, investisiyaların qeyri-bərabər yerləşdirilməsi nəticəsində nələr baş verə bilər.

İnvestor ilk növbədə idarəetmə mexanizminin nəticəsini qiymətləndirir, əyaniliyi isə investisiya layihələrinin müvəffəqiyyətli reallaşdırılmasındadır. Nəticə yoxdursa - investisiya da yox səviyyəsindədir, çünki investisiyalara uyğunlaşma səviyyəsi aşağıdır, investisiyalar «idarəetmə mexanizmi» vasitəsilə «yeyilə» bilər və əksinə. Əgər reallıqda ciddi və tutumlu investisiya layihələrinin reallaşdırılması faktları vardırsa, investoru inandırmaq lazım deyildir ki, regionun iqtisadiyyatına kapital qoysun. Ona görə də idarəetmə mexanizminin uyğunlaşması çox halda investisiyaların idarə edilməsi sferasında regional hakimiyyətin əsas məhsulu kimi regionun investisiya siyasətinin xarakteri ilə müəyyən edilir.

Aydındır ki, işğaldan azad edilən ərazilərdə investisiya siyasətinin məqsəd və vəzifələri, habelə müxtəlif rayonlarda onların reallaşdırılması formaları və metodları yuxarıda adları çəkilən səbəblərə görə uyğun gəlməyə bilər. Bununla belə, bütün regionlar üçün investisiya siyasətinin ümumi əsas məqsəd və vəzifələri mövcuddur. Bunlara aiddir:

– investisiya mədəniyyətinin və investisiya mühitinin yaradılması və möhkəmləndirilməsi;

– işğaldan azad edilən ərazilərin sosial-iqtisadi inkişaf şəraitinin nisbi bərabərləşdirilməsi;

– işğaldan azad edilən ərazilərdə təbii resurslarla zənginliyin rəqabət üstünlüklərinin maksimum istifadəsi;

– işğaldan azad edilən ərazilərin və bütünlükdə ölkənin iqtisadiyyatı üçün strateji mühüm əhəmiyyəti olan istehsalın prioritet inkişafı.

Azərbaycan şəraitində investisiya siyasəti təsərrüfat dövriyyəsinə bu gün yeni ərazilərin və resursların cəlb edilməsini təmin etməli, şəhər və kənd arasındakı ziddiyyətləri yumşaltmalıdır. Bununla bağlı onun işlənməsi problemlərinə toxunmamaq olmaz. Belə bir fikir yayılır ki, güya investisiya siyasətinin başlıca məqsədlərindən biri həmişə investisiyaların cəlb edilməsi və effektli istifadə edilməsidir. Ancaq qeyd edildiyi kimi, investisiya siyasətinin işlənməsinə böyük siyasi əhəmiyyət verirlər, nəinki sosial-iqtisadi işlənməyə. Bununla əlaqədar olaraq icra hakimiyyətləri investisiyaların axınına ciddi diqqət yetirmirlər və onları faktiki idarə etmirlər.

Beləliklə, işğaldan azad edilən ərazilərdə mövcud şəraitdə icra hakimiyyətlərinin qarşısında maksimum qısa müddətdə investisiya dövriyyəsinin sürətləndirilməsi və regional bazarların investisiya tutumunun yüksəldilməsi məqsədilə investisiya fəaliyyəti sisteminin optimallaşdırılması məqsədinə çatmaq vəzifəsi qoyulur.

Qeyd etmək lazımdır ki, işğaldan azad edilən ərazilərdə investisiya tutumunun yüksəldilməsi ənənəvi inzibati və ya operativ metodlarla mümkün olmaya bilər. İlk növbədə strateji və taktiki idarəetmə metodlarının tətbiqi düzgün olardı, operativ istiqamətlər isə investisiyalara sosial-iqtisadi sistemin uyğunlaşmasının tənzimlənməsinə yönəldilməlidir.

İşğaldan azad edilən ərazilərdə investisiya proqramlarının nəticəsini qiymətləndirəndə, ayrıca layihələrin reallaşdırılması prosesində əmələ gələn, tipik problemlərin və risklərin aşkar edilməsi zəruridir. Aparılan təhlil investisiyaların uyğunlaşmasına təsir edən riskləri və investisiya tutumuna təsir edən riskləri ayırmağa imkan verir. Bu baxımdan mövcud şəraitdə ölkənin bəzi rayonlarında iqtisadi stabilliyin başlıca amillərindən biri investisiyalara uyğunlaşmanın yüksəldilməsidir. Buna əsasən investisiya siyasətinin prioritet istiqamətlərinin seçilməsində icra hakimiyyətləri iqtisadiyyatın o sferasına diqqət yetirməlidirlər ki, hansı ki, uyğunlaşma prosesinin sürətləndirməsinə imkan yaratsın, kiçik biznesin fəaliyyət sferasının ən çevik və mobil formaları həyata keçirilsin. Birincisi, kiçik biznes sferasında fəaliyyət göstərən müəssisələr böyük istehsal müəssisələri ilə müqayisədə iri investisiya qoyuluşları tələb etmir. İkincisi, halhazırda büdcə resurslarının sahələrarası bölüş-dürülməsinin optimallaşdırılması problemləri, onların səfərbərliyi, o cümlədən, əlavə vəsaitlərin borc alınması hesabına aktual olur. Bir sıra hallarda kiçik sahibkarlığın aktivləşdirilməsi hesabına xarici investorların axtarışında irəliləyişlər əldə etmək olar.

Yadda saxlamaq lazımdır ki, ölkədə və ya regionda hər bir konkret iqtisadi vəziyyət investisiyaların müəyyən tipinə müvafiqdir: ya həmin investisiyalar likvidlidir, ya gəlirli. Məlumdur ki, yüksək likvidli investisiyalarda kapital tez dövriyyə edir və qaytarılır, gəlirlilik də investisiyalaşdırma obyektinin uzunmüddətli sabit və effektli inkişafını nəzərdə tutur. Regional investisiya siyasətinin formalaşması prosesində həmçinin üstünlük nəzəriyyəsi (likvidli/gəlirli) nəzərə alına bilər.

İnvestisiyalara uyğunlaşmanın qiymətləndirilməsi uyğunlaşma həddini müəyyən etməyə imkan verir, yəni qoyuluşun maksimum həcmini, hansı ki, region (və ya müəssisə) effektli istifadə edilə bilər. Bütünlükdə investisiyalara uyğunlaşma obyektin

investisiya potensialını ən dəqiq müəyyən etməyə imkan verir. Onun qiymətləndirilməsinin eyni olmaması ya qiymətləndirilməməyə, ya da potensialın yenidən qiymətləndirilməsinə gətirir və obyektin riskliliyinin yüksəldilməsinə səbəb olur.

İnvestisiyalara regionun uyğunlaşması probleminin digər aspekti aşağıdakılarla şərtləndirilir: həmişə praktiki regional investisiya siyasəti xarici investisiyaların cəlb edilməsinə yönəldilir. Bu gözlənilmə, adətən, heç nə ilə möhkəmləndirilməyib. Əgər region öz xüsusi resursları ilə işləyə bilmirsə, onda yüksək mənfəət almağı gözləyən, xarici investora etibar edilməsinə ümid bəsləmək olmaz. Hələlik başa düşmək lazımdır ki, daxili problemlər heç kim üçün maraqlı deyil, heç bir investor zərərlə işləyən müəssisəni qaldırmağa səy göstərməyəcək. O, hər hansı bir zəmanət almalıdır. Bütün ölkə səviyyəsində mədəni investisiya bazarının mövcudluğu haqqında danışmağa dəyməz. Dünya təcrübəsi göstərir ki, onun üçün birincisi, investisiyalar, paylar, pensiya fondları yaratmaq lazımdır, ikincisi, regional investisiya proqramına müxtəlif layihələr daxil edilməlidir, hansı ki, sinergetik effekt alınması nöqteyi-nəzərdən qiymətləndirilməlidir. Həmin effektlər layihələrin kompleks reallaşdırılması nəticəsində alına bilər, bir-birinin effektliyini gücləndirər və artırar. Regional investisiya proqramları sahibkarlar üçün işğaldan azad edilən ərazilərdə investisiya bazarına daxil olmaq üçün «buraxılış bileti» olmalıdır.

Qoyulan problemləri həll etmək üçün regional investisiya proqramının və bütövlükdə siyasətin işlənməsinə layihə yanaşması məqsədyönlüdür. Həmin yanaşma çərçivəsində bu prinsiplər reallaşdırılır:

– sistemlilik – regionun investisiya fəaliyyətinə təsir edən bütün amillərin uçotunun təmin edilməsi;

– dinamiklik və uyğunluq – sosial-iqtisadi inkişafın məqsəd və vəzifələrinin dəyişilməsinə regionun investisiya fəaliyyəti sisteminin uyğunlaşdırılması;

– investisiyalara uyğunlaşmanın idarə edilməsi mexanizminin qənaətliliyi, optimallığı və nəticəliliyi.

Həmin yanaşmaya uyğun regionun investisiya siyasəti çərçivəsində investisiyalaşdırmanın istiqamətlərinin seçilməsi konkret effektin (iqtisadi, büdcə, kommersiya, sosial, ekoloji) alınması mövqeyindən həyata keçirilməlidir. Bütünlükdə investisiya siyasəti ayrıca layihələrin reallaşdırılmasının sosial-iqtisadi nəticələri haqqında proqnozlara, qiymətləndirməyə, ciddi hesablamalara əsasən formalaşmalıdır.

Sonda qeyd etmək lazımdır ki, investisiyalara regionun uyğunlaşmasının qiymətləndirilməsinə əsasən əsaslandırılmış investisiya siyasətini həyata keçirmək olar. İşğaldan azad edilən ərazilərin bərpası istiqamətində həyata keçiriləcək investisiya layihələrilə bağlı bəzi məsələlərin zəruriliyini də diqqətə çatdırmaq istərdim. Belə ki:

– işğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı yerlərdə fermerlərə məsləhət və informasiya xidməti daha düzgün təşkil edilməli, əkin yerlərinin bərpası üçün innovativ üsulların tətbiqinə üstünlük verilməlidir;

– dağ-mədən, metallurgiya, yeyinti, emal sənayesi ilə bərabər, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq kimi istiqamətlərin inkişaf potensialı nəzərə alınaraq, sahibkarlarda bu sahələrə investisiya qoyuluşuna maraq yaradılmalıdır;

– işğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının təşkili xarici investorların dəstəyindən yararlanmaqla əhalinin qaytarılması və iqtisadi-sənaye fəaliyyətinin bər-

pası ilə uzlaşdırılmalı və indiki enerji sistemi ilə inteqrasiya edilməsi diqqətdə saxlanılmalıdır;

– Qarabağın inkişaf strategiyasına uyğun olaraq, dövlət sərmayələri ilə yanaşı, dövlət-özəl əməkdaşlığı, xarici investisiyalar, kreditlər, qrantlar, texniki yardım investisiyalarının cəlbi üçün proqramlar hazırlanmalıdır;

– işğaldan azad edilən torpaqlarda investorları cəlb edə biləcək strateji aktivlər, zəngin resurslar və xarici bazarlara çıxış imkanları yaradılmalıdır;

- Qarabağda çoxsaylı faydalı qazıntı yataqlarının mövcudluğu Kəlbəcər və Zəngilan rayonlarında dağ-mədən və əlvan metal istehsal edən müştərək müəssisələrin yaradılmasına imkan verə bilər;

- Kəlbəcər və Laçında böyük həcmdə mineral su ehtiyatlarının olduğunu nəzərə alaraq, orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verə bilər;

- Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünüməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikro-sahibkarlıq fəaliyyətini təşkil etmək;

- işğaldan azad edilən rayonların dağlıq kənd və qəsəbələrində fərdi, mikro və kiçik sahibkarlıq fəaliyyəti göstərilən obyektlərində, eləcə də fərdi yaşayış evlərində qardaş Türkiyənin mövcud və uğurlu iş təcrübəsindən istifadə etməklə alternativ və bərpa olunan enerji növlərindən istifadəyə üstünlük verilməsi məqsədəuyğundur.

Бурбуля Родика Васильевна,
кандидат экономических наук, доцент,
Email: burbulea2000@mail.ru;
Мовиляну Вероника Васильевна,
кандидат экономических наук, доцент,
Государственный Аграрный Университет
Молдовы, г. Кишинев
Email: vic.movileanu@gmail.com

МАРКЕТИНГОВЫЕ СТРАТЕГИИ В ОПРЕДЕЛЕНИИ НОВЫХ РЫНКОВ И ИНВЕСТОРОВ В ОБЛАСТИ ВИНОГРАДАРСТВА

В современных условиях ускорения материальных, финансовых и информационных потоков в деловой среде стратегическая ориентация маркетинговой деятельности является императивом. Маркетинговая стратегия представляет собой интерфейс между фирмой и деловой средой и намечает определяющие линии отношения и поведения предприятия для достижения основополагающих целей.

Стратегия развития маркетинговой деятельности в виноградарско-винодельческом секторе способствует развитию винодельческого рынка. В процессе изучения стратегий развития, предложенных несколькими авторами, было установлено, что существует четыре стратегии развития предприятия в рамках рынка, которые могут быть успешно реализованы и на виноградарско-винодель-

ческом рынке. Ими являются: стратегия проникновения на рынок, стратегия развития продукта, стратегия развития рынка и стратегия диверсификации.

Стратегия развития рынка представляет собой стратегию экстенсивного роста и предлагает предприятиям-производителям винограда и вин капитализацию новых рынков с помощью существующих товаров, а также путем привлечения новых потребителей продукта. Это так называемая стратегия роста с высочайшим потенциалом. Новые рынки представляют собой новые географические рынки или новые потребительские сегменты. В этих условиях производители виноградарско-винодельческого сектора должны мобилизоваться для интенсивного продвижения своей продукции в целях привлечения новых потребителей.

Рынок вин - это рынок, на который сильно влияют благоприятные или неблагоприятные события, вызванные пищевыми привычками и покупательским поведением потребителей. Даже если доминирующие рынки (европейский и североамериканский) кажутся стабильными, тенденции, похоже, направлены на постоянное снижение спроса и изменение потребительских предпочтений в отношении качественного вина в ущерб столовому вину. В странах-производителях и потребителях традиционных вин потребление столового вина быстро сокращается, в то время как потребление качественного вина медленно растет. Хотя винами торгуют на международном уровне, не существует международного винного рынка в нынешнем понимании. Это связано с тем, что страны-потребители одновременно являются и производителями, обеспечивая на 100% собственное потребление.

Для Республики Молдова вина - это, прежде всего, визитная карточка, которая создала имидж страны через призму большого экспортного потенциала на международном рынке. Винодельческая промышленность играет важную роль в экономике Молдовы, считаясь основой сельскохозяйственного сектора.

Винодельческая промышленность играет ключевую роль в экономике страны, являясь одной из ее стратегических отраслей:

– республика Молдова входит в число 10-ти ведущих стран-производителей и экспортеров вин в мире;

– экспорт вин составляет 6,2% экспортных доходов страны;

– в настоящее время насчитывается более 112 тыс. га виноградников, засаженных более 50 винными сортами винограда (через 2 года войдут в плодоношение еще около 15 тыс. га);

– в области переработки винограда, производства, хранения и оптовой продажи вин действуют 187 предприятий, из которых 22 так же производят дистилляты (крепкие алкогольные напитки);

– годовой объем производства винного сырья составляет примерно 20,0 млн декалитров (дал), за последние 7 лет прирост составил 35%) и около 900 тыс. дал дистиллятов;

– в этой отрасли задействован каждый четвертый житель сельской местности – более 150 тыс. человек;

– экспорт в 68 стран мира – молдавское вино составляет более 2% мирового объема вин.

Благодаря усилиям государственных органов, производителей вин, а также внешних доноров качество молдавского вина за последние годы значительно повысилось. В 2019 году Республика Молдова экспортировала более 133 тысяч тонн вина в 63 страны на сумму более 107 миллионов долларов, что на 10,2 миллиона долларов больше, чем в 2018 году, но на 3,9 миллионов долларов меньше, чем в 2017 году.

Благодаря этим результатам, Республика Молдова вышла на 22-е место в мире по экспорту вин, доля которых составляет 0,3% в мировом экспорте вин. В 2019 году 4 страны ЕС (Чехия, Румыния, Польша и Германия) вошли в десятку крупнейших экспортных партнеров. Так, в 2011 году Молдова экспортировала вина только в 47 государств (63 страны в 2019 году), а доля рынка Европейского Союза в экспорте молдавских вин и коньячных изделий достигла более 32,2% в третьем квартале 2019 года.

На 10 крупнейших потребителей молдавского вина в 2019 году приходилось более 85% стоимости экспорта. По объемам экспорта лидируют страны, не входящие в ЕС, такие как Беларусь, Украина и Российская Федерация, на которые приходится более 57,7% объема экспорта молдавского вина.

Среди важных направлений экспорта молдавского вина в 2020 году наиболее концентрированными рынками винной продукции оказались Беларусь, Китай, Грузия, Румыния и Россия. Наименее сконцентрированными были Польша, Украина, Словакия и Чехия.

Для этих целей экспорт молдавских вин - это продукт, благодаря которому наша страна укрепила бы налаженные экономические отношения. По этой причине для местных производителей очень важно разработать стратегии развития и консолидации виноградарско-винодельческого рынка, которые обеспечили бы стабильность и устойчивость для обеих сторон. Далее мы проанализируем и оценим ряд стратегических целей, сопровождаемых необходимыми действиями для восстановления имиджа молдавских вин, консолидации экспорта и увеличения спроса на международном рынке. Основная цель - создать благоприятное восприятие среди внутренних и внешних потребителей, что должно стимулировать спрос и потребление молдавских вин.

Стратегический план развития винодельческого сектора Республики Молдова состоит из следующих трех приоритетов и восьми стратегических направлений:

1. *Продвижение имиджа виноградарско-винодельческой продукции на внутреннем рынке и экспортных рынках.*

– Стратегическое направление А: Создание имиджа и репутации молдавского вина и в целом виноградарско-винодельческой отрасли.

– Стратегическое направление В: Повышение спроса и расширение рыночных долей для всех категорий виноградарско-винодельческой продукции.

– Стратегическое направление С: Усиление отраслевой экономической интеллигентности и доступа к информации.

2. *Повышение конкурентоспособности винодельческого сектора*.

– Стратегическое направление А: Развитие эффективного и устойчивого виноградарства.

– Стратегическое направление B: Повышение качества и развитие уникальных характеристик молдавского вина.

– Стратегическое направление C: Развитие человеческого потенциала и производительности виноделен.

3.*Укрепление институционального потенциала НБВВ*

– Стратегическое направление A: усиление институционального управления и стратегического планирования.

– Стратегическое направление B: Развитие партнерских отношений и продвижение международного сотрудничества.

Рабочая программа на 2019 год по направлению Приоритета I включила поддержку местных и международных мер и мероприятий, направленных на продвижение имиджа молдавских вин и винного бренда страны «Молдавское вино - живая легенда», в том числе: 22 местных мероприятия с международным резонансом; 32 международных мероприятия, организованных на целевых и других рынках, представляющих интерес; 16 практических семинаров в области винодельческого туризма; проведение восьми маркетинговых исследований; поддержка в организации 43 международных соревнований. В общей сложности около 60 виноделен в стране воспользовались услугами по продвижению, предоставленными Национальным Бюро Винограда и Вина.

В рамках II Приоритета было продолжено продвижение трех проектов с целью развития устойчивого виноградарства и уникальных характеристик молдавского вина, а также улучшения качества винной продукции, развития сети экспериментальных участков для передачи знаний, инноваций и передовых технологий. В целях повышения потенциала человеческого капитала в винодельческом секторе, Национальное Бюро Винограда и Вина организовало 36 семинаров и практических занятий, 6 конференций на национальном и региональном уровне, 3 ознакомительных визита для перенимания передового опыта. Распространение новинок, относящихся к винодельческой области, осуществлялось посредством 16 материалов, в том числе 12 бюллетеней, 2 руководства по передовой практике и 2 дидактических фильма. Бенефициарами проведенных мероприятий стали 1585 специалистов из 52 виноделен.

В поддержку заявленных приоритетов Национальное Бюро Винограда и Вина улучшило свои возможности для неукоснительного и эффективного осуществления государственной политики в винодельческом секторе, выступая в качестве поставщика качественных услуг для нужд бенефициаров, и продолжило укреплять свою роль национального учреждения в области виноделия в качестве эксперта №1.

В 2019 году также отмечен значительный рост объема инвестиций в развитие отрасли. Таким образом, вложения в эту отрасль составили 551 млн. леев, а 19% из этой суммы были покрыты из фонда субсидий. Из этой суммы 242 миллиона леев было выделено на посадку, реструктуризацию и вырубку виноградников, 250 миллионов леев - на модернизацию виноделен, 59 миллионов леев - на развитие рынков, а 12,5 миллиона леев - на инвестиции в различные программы развития виноградарства.

Винодельческий сектор постоянно развивается - чтобы обеспечить устойчивое развитие винодельческого сектора, государство поддерживает производи-

телей винограда и вина посредством субсидий, проектов технической помощи, фонда виноградников и вина, а также продвижения экспорта.

Ежегодно совершенствуются направления и механизм субсидирования, предоставляются субсидии как на посадку и вырубку виноградников, так и на оснащение техникой для виноградарства, современными опорными системами, системами капельного орошения и противоградовыми системами, развитие инфраструктуры при уборке столовых сортов винограда и модернизация виноделен.

За последние 10 лет винодельческая промышленность Республики Молдова претерпела значительные преобразования, пережив несколько серьезных кризисов. Для решения этих задач правительство предприняло и реализовало ряд структурных и институциональных реформ:

(1) - создание Национального бюро винограда и вина, государственного учреждения на основе государственно-частного партнерства, ответственного за реализацию государственной политики в области виноделия и управление Фондом виноградников и вина, 2013 г.;

(2) - внедрение политики качества путем создания системы знаков качества – защищенное наименование мест происхождения (DOP), защищенные географические указания (IGP), национального знака качества «Молдавское вино».

(3) - обеспечение качества и отслеживание винодельческой продукции посредством винодельческого Регистра;

(4) - продвижение качественного вина и диверсификация рынков сбыта;

(5) - развитие услуг по распространению знаний и оказание поддержки винодельческому сектору во внедрении новых технологий и передовых винодельческих практик;

(6) - развитие человеческих ресурсов для винодельческой отрасли.

В настоящее время виноградарско-винодельческий регион Республики Молдова разделен на 4 региона, в которых зарегистрированы и действуют 4 ассоциации производителей винодельческой продукции с географическим указанием: Valul lui Traian (юго-запад), Ștefan-Vodă (юго-восток), Codru (в центре) и DIVIN.

Следовательно, в Республике Молдова есть несколько основных элементов, необходимых для построения успешного винодельческого сектора.

В нашем видении создание эффективного и конкурентоспособного винодельческого сектора в Республике Молдова предполагает поддержку экономических агентов в этом секторе с помощью различных инструментов, а также экономических и финансовых рычагов. Успех данного сектора во многом обусловлен успешной деятельностью большинства производственных предприятий этой отрасли.

В заключение отметим, что необходимость разработки и реализации стратегии развития маркетинговой деятельности на рынке винодельческой продукции в Республике Молдова обусловлена тем, что требуется новый механизм управления этим рынком, который будет более мобильным и будет соответствовать наиболее адекватно социально-экономическим законам, учитывающим природные, климатические, демографические, организационные, технологические фак-

торы и т. д.

Стратегия развития маркетинговой деятельности на винодельческом рынке, в нашем видении, должна охватывать целый комплекс целей, решений и способов их достижения, реализация которых послужит эффективной деятельности отрасли и адаптации деятельности субъектов к непредсказуемым и неконтролируемым условиям окружающей среды.

Список использованной литературы:

1. Закон о винограде и вине № 57-XVI от 10.03.2006: Опубликован: 19.05.2006 в Monitorul Oficial Республики Молдова № 75-78 статья № 314. https://www.legis.md/cautare/getResults?doc_id=23657&lang=ro#
2. Закон об охране географических указаний, наименований мест происхождения и гарантированных традиционных продуктах № 66 от 27.03.2008. Опубликован: 25.07.2008 г. в Monitorul Oficial Республики Молдова № 134-137, статья № 527. http://lex.justice.md/md/365224/
3. База данных Национального Бюро Статистики [Доступ 15.03.2021]. Доступен на: https://statistica.gov.md/#idc=558&
4. Р.Бурбуля., В.Мовиляну., С.Ганган. Географическое указание, наименование мест происхождения – эффективные маркетинговые инструменты для продвижения социально-экономического развития страны. В: Научные работы, материалы Международного Научного Симпозиума „Перспективы долгосрочного развития сельской местности в контексте новых экономических вызовов”, посвященному празднованию 85-и летнему юбилею основания Государственного Аграрного Университета Молдовы. ГАУМ, Кишинев, (Экономический ф-т), т. 50, 2018, с. 136-139, 0,38 с.а. ISBN 978-9975-64-299-6.
5. Р. Бурбуля., В. Мелник. Тенденции развития рыночных стратегий позиционирования агропродовольственных предприятий**.** В: Научные работы, материалы Международного Научного Симпозиума «Перспективы долго-срочного развития сельской местности в контексте новых экономических вызовов», посвященному 85-и летнему юбилею основания Государственного Аграрного Университета Молдовы. ГАУМ, Кишинев, (Экономический ф-т), т. 50, 2018, с. 151-155, 0,36 с.а. ISBN 978-9975-64-299-6.
6. Аурел Киран. Стратегии аграрного маркетинга. Издательство Ион Ионеску из Брад, Яссы, 2015 г, 280 с. ISBN: 9789731471723
7. М. Константин. Маркетинг агропродовольственной продукции. Т. II Бухарест: Изд. Академии Ученых Румынии, 2017 г, 295 с.
8. В. Гуцу., Ф. Матееску., М. Аварварей. Книга виноградника и вина. Учебник виноградарей всех масштабов. Упрощенный справочник для получения здоровых вин. Бухарест: Изд. Mast, 2015 г, 175 с. ISBN: 9786066490580
9. Ф. Колтер., К. Л. Келлер., Маркетинг менеджмент/ Филип Колтер, Кевин Келлер, Теора 2008 г, 584 с.
10. Ежегодный отчет Национального Бюро Винограда и Вина, 2019 г. http://www.wineofmoldova.com/wp-content/uploads/2021/02/RAPORT-ANUAL-2019.pdf
11. Л. Вакарчук., И. Прида. Вино: Другие времена, другие измерения: Энологический компендиум. Кишинев, 2015 г. 608 с. ISBN 978-9975-53-577-9

Talıbov Nəcəf,
Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin
Elmi-metodik
məsələləri üzrə müşaviri,
Email: auditor.nadjaf@rambler.ru;
Əhmədov Qoşqar, magistr,
Azərbaycan Respublikasının Auditorlar Palatasının
Auditin inkişafı və operativ tənzimləmə idarəsinin rəisi,
Email: goshgar.ahmadov@gmail.com;
Əsgərova Fidan,
iqtisad elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət İqtisad Universiteti,
Email: rfidan23@mail.ru

BEYNƏLXALQ MÜHASİBLƏR FEDERASİYASI VƏ ONUN ÜZVLÜK TƏLƏBLƏRİ (AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏT PLANI ƏSASINDA)

Azərbaycan Respublikasının milli iqtisadiyyatının bazar prinsipləri əsasında qurulması, mülkiyyət çoxnövlülüyünün bərqərar edilməsi, azad sahibkarlığın məqsədyönlü şəkildə genişləndirilməsi və elə bu əsasda bazar iqtisadiyyatına xas olan maliyyə-təsərrüfat subyektlərinin təşəkkülü ölkədə maliyyə nəzarəti sisteminin də yeni əsaslar üzrə qurulmasına səbəb olmuş, nəticədə maliyyə nəzarətinin dünya praktikasında geniş yayılmış və mütərəqqi forması olan auditin Azərbaycanda da tətbiqi həyati tələbata və reallığa çevrilmişdir. «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə milli auditin təşəkkülü və formalaşması tarixi başlanmış, ötən müddət ərzində audit respublikanın bazaryönümlü iqtisadi strukturları sistemində möhkəm yer tutmuş, özünü əsl mənada müstəqil, qərəzsiz maliyyə nəzarəti sistemi kimi təsdiqləmişdir.

Bu sahədə tənzimləyici orqan kimi qanunvericiliklə təsbit olunmuş Azərbaycan Respublikasının Auditorlar Palatası auditor xidmətinin dövlət tənzimlənməsini və inkişafını təşkil edən, mülkiyyətçilərin əmlak hüquqlarını, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə edən, öz fəaliyyətində respublikanın qanunvericilik aktlarından irəli gələn tələblərə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən riayət olunmasına nəzarət edən müstəqil maliyyə orqanıdır.

Mövcud qanunvericiliyə əsasən Palata auditin təşkilin və sərbəst auditorların qeydiyyatını aparır, auditin keyfiyyətinə nəzarəti, bu sahədə tədris, araşdırma və nizam tədbirlərini həyata keçirir. Öz səlahiyyətləri çərçivəsində Palatanın həyata keçirdiyi tədbirlər, göstərilən istiqamətlərdə mühasibat və audit üzrə işlərin təşkili səviyyəsi həm beynəlxalq peşə təşkilatlarının, həm də xarici ölkə qurumlarının diqqətin cəlb edir. Təsadüfi deyildir ki, regionda ilk olaraq Beynəlxalq Mühasiblər Federasiyası

(İFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) tam hüquqi üzv qəbul edilmişdir. Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) 130 ölkədəki 180 üzv və assosiasiya təşkilatlarından və 3 milyona yaxın peşəkar mühasibdən ibarət olan mühasibat peşəsi üzrə qlobal bir təşkilatıdır. Məqsədi - üzv təşkilatlarla qlobal mühasibat peşəsinin aktuallığını, nüfuzunu və dəyərini artıraraq ictimai maraqlara xidmət etməkdir. Peşə sahəsində böyük nüfuza malik olan İFAC-a üzvlük ciddi hazırlıq, yüksək reputasiya və mükəmməl təşkilati işlər tələb etməklə bərabər, eyni zamanda bu təşkilat qarşısında ciddi üzvlük öhdəlikləri də yaradır. İFAC-a üzv olan ölkələrin müvafiq qurumlarının və eyni zamanda Azərbaycan Respublikası Auditorlar Palatasının həmin üzvlük tələblərinə əməl etməsi vəziyyəti həmişə İFAC-ın diqqət mərkəzində saxlanılır. Bu tələblərin yerinə yetirilməsi üzv təşkilat barəsində açıq məlumatlar, habelə beynəlxalq təşkilatların (Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və s.) ölkələr üzrə hesabatlarının məlumatlarına əsaslansa da, hər bir üzv təşkilatın İFAC-a təqdim etdiyi Fəaliyyət Planı daha önəmli əhəmiyyətə malikdir.

2008-ci ildən etibarən Palata hər il İFAC-a müvafiq Fəaliyyət Planı təqdim edir. İFAC-ın müvafiq qurumu tərəfindən bu Fəaliyyət Planı diqqətlə yoxlandıqda orada, qeyd olunan görülmüş işlər digər mənbələrdən təsdiqini tapdıqda, habelə perspektiv planlar reallığa müvafiq gəldiyi hallarda həmin sənəd İFAC-ın rəsmi internet səhifəsində yerləşdirilir. Bu, üzv təşkilatın fəaliyyətinin İFAC tərəfindən tanınmasını təsdiq edir.

Palata tərəfindən müvafiq Fəaliyyət Planı müntəzəm olaraq İFAC-a təqdim edilmişdir. Pandemiyanın yaratdığı çətinliklər İFAC-ın işində də özünü büruzə versə də, keçən ilin sonunda Auditorlar Palatasının Fəaliyyət Planına baxılması ilə əlaqədar məlumat daxil olmuş, İFAC-ın Keyfiyyət və inkişaf şöbəsi tərəfindən müvafiq tövsiyələr verilmişdir. Həmin tövsiyələr əsasında nəzərə alınmaqla hazırlanmış Fəaliyyət Planı bu ilin yanvar ayında İFAC-ın internet səhifəsində dərc olunmuşdur.

İFAC-a daxil olmuş məktubda Palatanın Fəaliyyət Planı yetərincə qiymətləndirilmiş, habelə bu mötəbər Beynəlxalq təşkilatın saytında mühasibat və audit sahəsində ölkəmizdəki durum barədə ətraflı məlumat verilməklə Palatanın bu sahədəki fəaliyyətinin beynəlxalq tələblərə uyğunluğu bir daha təsdiqlənmişdir. Eyni zamanda qeyd olunmuşdur ki, bu Fəaliyyət Planı gələcəkdə auditor peşəsi görüləcək işlər sahəsində irəliyə atılan bir addım olmaqla bərabər, bu işlərin həyata keçirilməsi böyük zəhmət və səriştə tələb edir. İFAC həmin işlərin Palata tərəfindən həyata keçiriləcəyinin əminliyini bildirmişdir.

Fəaliyyət Planı aşağıdakı bölmələr üzrə palatanın fəaliyyəti və planları qeyd olunmuşdur:

– **Auditin keyfiyyətinə nəzarət.** Bu sahədə işlər ilk növbədə 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartına əsaslanmaqla şirkətdaxili keyfiyyətə nəzarət işlərini əhatə etmişdir. Digər bir istiqamət, 220 saylı "Maliyyə hesabatlarının auditinin keyfiyyətinə nəzarət" standartına əsasən tənzimləyici orqan tərəfindən həyata keçirilən keyfiyyətə kənar nəzarət barəsindədir. Auditin keyfiyyətinə nəzarət sahəsində Palata

tərəfindən görülən işlər Fəaliyyət Planında ətraflı əks olunmuşdur.

– **Beynəlxalq təhsil standartları.** Məlumdur ki, İFAC-ın beynəlxalq təhsil standartları tərəfindən 8 beynəlxalq təhsil standartı hazırlanmışdır ki, bunlardan 7 standart mühasibat uçotu və maliyyə hesabatlarını, 8-ci standart isə audit üzrə təhsil tələblərini özündə əks etdirir. Auditorlar Palatası Azərbaycanda İFAC-ın yeganə üzvü olduğuna görə peşə təhsili sahəsində təkcə audit üzrə deyil, həm də mühasibat üzrə təhsil sahəsində görülən işlər barəsində ətraflı məlumatı təqdim etmişdir.

– **Beynəlxalq Audit Standartları.** Fəaliyyət Planının bu bölməsində Azərbaycanda 2010-cu ildən etibarən yalnız İFAC-ın Beynəlxalq Audit Standartlarının tətbiqi olunması xüsusi qeyd edilmiş, habelə böyük çap həcmi olan keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmələr və əlaqəli xidmətlər toplusunun 3 dəfə İFAC-ın müvafiq icazəsi əsasında tərcümə və redaktə olunaraq çap edildiyi göstərilmişdir. Eyni zamanda qeyd edilmişdir ki, MDB məkanında və digər ölkələrdə Milli Audit standartları tətbiq olunduğu halda Azərbaycan BAS-ı birbaşa təqdim edən ölkə olmuşdur.

– **Peşəkar Mühasiblərin Etika Məcəlləsi.** Bu bölmədə Palatanın tənzimləmə fəaliyyəti ətraflı göstərilmiş və qeyd olunmuşdur ki, ötən il Palata tərəfindən Peşəkar Mühasiblərin Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tərcümə və nəşr edilmiş, eyni zamanda auditorların Müstəqillik Qaydaları hazırlanmış və çap olunmuşdur.

– **İctimai sektorda Mühasibat Uçotunun Beynəlxalq Standartları və Maliyyə Hesabatının Beynəlxalq Standartları.** Palata tərəfindən ölkəmizin müvafiq qurumlarının bu sahədəki fəaliyyətləri əks olunmuş, habelə qeyd olunan standartın tətbiqi sahəsində və Auditorlar Palatasının və auditorların maksimum səy göstərdiyi açıqlanmışdır.

– **Araşdırma və intizam tədbirləri.** Auditin fəaliyyətində haqlı rəqabətin bərqərar olması, etik tələblərə riayət edilməsi və mövcud ola bilən neqativ halların aradan qaldırılması məqsədilə 2015-ci ildə Palatada araşdırma və intizam tədbirləri sistemi yaradılmış və davamlı olaraq təkmilləşdirilmişdir. Bu barədə Fəaliyyət Planında ətraflı məlumat verilmişdir.

Qeyd olunmalıdır ki, İFAC-ın internet səhifəsində yerləşdirilmiş Fəaliyyət Planının informativliyi və gələcəyə ünvanlanması həmin təşkilat tərəfindən lazımınca qiymətləndirilmiş və göstərilənlərin nəzərə alınaraq yenilənməsi gələn il deyil, 2024-cü ilə nəzərdə tutulmuşdur.

Fəaliyyət Planının mətni və Azərbaycanın auditi barəsində İFAC-ın məlumatı Auditorlar Palatasının internet səhifəsində yerləşdirilmişdir. Əminik ki, əvvəlki illərdə olduğu kimi, növbəti illərdə də Palata öz fəaliyyətini beynəlxalq tələblərə müvafiq təşkili sahəsində tədbirlərini uğurla davam etdirəcəkdir.

Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) 130 ölkədəki 180 üzv və assosiasiya təşkilatlarından və 3 milyona yaxın peşəkar mühasibdən ibarət olan mühasibat peşəsi üzrə qlobal bir təşkilatıq. Məqsədi - üzv təşkilatlarla qlobal mühasibat peşəsinin aktuallığını, nüfuzunu və dəyərini artıraraq ictimai maraqlara xidmət etməkdir.

Колениченко Татьяна Ивановна,
кандидат педагогических наук, доцент,
Национальный Университет
«Черниговская политехника», Украина,
Email: tanyakolenichenko@gmail.com

ОРГАНИЗАЦИЯ СОТРУДНИЧЕСТВА НА УРОВНЕ ОБЩИНЫ ГОРОДА ЧЕРНИГОВА ПО ВОПРОСАМ РЕИНТЕГРАЦИИ ВЕТЕРАНОВ АТО / ООС К УСЛОВИЯМ СОВРЕМЕННОГО СОЦИУМА

Проблема реинтеграции ветеранов является важной для всех государств, которые брали участие в военных конфликтах. Проанализировав зарубежный опыт, мы можем сделать вывод, что процесс реинтеграции рассматривается через призму психологической и физиологической реабилитации. В каждой стране разрабатываются программы адаптации, реинтеграции военнослужащих после возвращения с зоны конфликта. Программы разрабатываются соответственно специфики конфликта и страны, в которой происходит конфликт. Как правило, в каждой стране существуют стратегии возвращение ветеранов на уровне государством и региональном.

Ольга Шабан [3], исследую проблему бывших участников боевых действий, в своих материалах, «Путь домой в разных странах мира: реабилитационные программы для бывших участников боевых действий» проанализировала реинтеграционные мероприятия в разных странах.

В США проблема реинтеграции решается через внедрение в специализированные военные госпитали при Министерстве по делам ветеранов иппотерапии в рамках программы «Horses for Heroes». Данная программа является результатом сотрудничества военных госпиталей с конскими клубами, и она стала механизмом поддержки и помощи ветеранам. Основная задача использование иппотерапии – это влияние на эмоциональное состояние ветеранов, которые находятся в состоянии депрессии; содействие в социализации и реинтеграции в общество [4].

Анализирую формы работы с ветеранами в плоскости реинтеграции в Сьерра-Лионе, мы выделили наиболее эффективную – это проект, который внедрялся при поддержке правительства Сьерра-Лионе и Немецкого сообщества технического сотрудничества. Проект предусматривал программу профессиональной и социальной интеграции ветеранов в общество, получение социальной квартиры, обеспечение профессионального обучения и переквалификации. Важным в программе было то, что кроме работы с ветеранами, она предполагала работу с детьми ветеранов [4].

Проанализировав программы реинтеграции ветеранов в США и Сьерра-Лионе, которые брали участие в военном конфликте, мы можем сделать вывод, что важным в процессе реинтеграции является психологическая поддержка, профессиональная переподготовка и реабилитационные мероприятия.

С 2014 года проблема реинтеграции ветеранов стала актуальной и для Украины. Согласно данных Министерства по делам ветеранов Украины, на 1 июля 2019 года насчитывается почти 369451 человек, которые получили статус участника боевых действий [5]. Перед украинским обществом возник вызов – разработка программы реинтеграции ветеранов в современное общество. На государственном уровне существует программа социальной и профессиональной адаптации, которая направлена на процесс реинтеграции и включает в себя:

- разработанные Памятки Защитникам Украины: права, обязанности и гарантии социальной защиты;
- информацию про льготы на обучение;
- информация про права и гарантии ветеранов;
- перечень льгот, которыми могу пользоваться участники боевых действий соответственно законодательству Украины;
- проект «Норвегия-Украина». Профессиональная адаптация. Интеграция в государственную систему.

Рассмотрим процесс организации сотрудничества на уровне общины города Чернигова по вопросам реинтеграции ветеранов АТО / ООС к условиям современного социума.

Под реинтеграцией ветеранов, мы понимаем взаимосвязь психологических и социальных условий, которые обуславливают функционирование ветерана в социуме после возвращения из зоны конфликта и поиск эффективных способов функционирование ветерана с малыми (семья, друзья) и большими (община) социальными группами [1]. В семантическое поле понятия «реинтеграция» входят такие понятия как «адаптация», «переход».

Важным в процессе реинтеграции является сотрудничество на уровне общины государственных и негосударственных организаций. Успешной практикой такого сотрудничества в процессе реинтеграции ветеранов является реализация в городе Чернигов (Украина) проекта «Норвегия-Украина». Основная цель проекта направлена на адаптацию ветеранов к условиям современного общества через их профессиональную переподготовку, через психологические мероприятия и через содействия в трудоустройстве. Методология проекта позволяет в полной мере реинтегрироваться ветеранам, поскольку создаются условия психологического и социального характера для успешного процесса реинтеграции ветерана [2].

Проект «Норвегия-Украина» в своей основе имеет стейкхолдерский подход, который заключается в привлечении стейкхолдеров к процессу переподготовки ветеранов. На этапе выбору программы переподготовки анализируется рынок труда в регионе, проводятся встречи со стейкхолдерами, которые определяют основные компетенции, которые необходимы сегодня для конкурентного сотрудника. Данные мероприятия являются важными в процессе реинтеграции ветеранов, поскольку программа переподготовки должна быть актуальной на рынке труда региона, где проходит переподготовка. Проект «Норвегия-Украина»

является успешной практикой, которая показывает эффективное взаимодействие государственных и негосударственных институтов. Методология проекта заключается в налаживании эффективного взаимодействия в плоскости «власть-община-бизнес». В рамках проекта, профессиональная переподготовка осуществляется Университетами. В свою очередь, мероприятия по социально-психологической адаптации, содействию в трудоустройстве и открытию своего бизнеса организоваться общественной организацией. Таким образом, мы можем наблюдать эффективное сотрудничество на уровне общины города Чернигова государственного и негосударственного сектора в процессе реинтеграции ветеранов к условиям современного социума.

В рамках реализации проекта «Норвегия-Украина» налажено сотрудничество на уровне общины города Чернигова по вопросам реинтеграции ветеранов АТО / ООС к условиям современного социума с:

1. Общественными организациями (ОО «Чернигов Европейский», ОО «Черниговский центр психолого-социальной помощи пострадавшим в АТО, и личностям, которые пребывают в кризисных состояниях «Ресурс», ОО «Институт инновационного развития», Информационный центр ЭС; ОО «Сообщество участников, ветеранов, инвалидов АТО и боевых действий «СУВИАТО», Координационный совет ветеранов АТО/ООС при Черниговской Областной государственной администрации);

2. Государственными организациями (Министерство по делам ветеранов; Управление образование Черниговского городского совета; Черниговский областной центр занятости; Черниговский городской центр занятости; Черниговский областной молодежный центр; Черниговский областной военный комиссариат; Главное Управление Национальной полиции в Черниговской области; Черниговский приграничный отряд; Управление государственной службы Украины по чрезвычайным ситуациям в Черниговской области; Черниговский 8-ой учебный центр Государственной специальной службы транспорта; Черниговский объединённый городской комиссариат);

3. Бизнесом (общество с ограниченной ответственностью «ТЕХНО+»; общество с ограниченной ответственностью «Черниговбудпроект»; общество с ограниченной ответственностью «Черниговские инсталляционные системы»; частное предприятие «ВИМАЛ-АГРО»; центр предпринимательства и инноваций IHUB Chernihiv; Mister.Am та Anoncer.net).

Проведенный анализ международной научной литературы стал еще одним аргументом в пользу такого взаимодействия, которая приводит к эффективному процессу реинтеграции в современное общество. Зарубежный опыт убеждает, что реинтеграция ветеранов может быть реализована двумя моделями взаимодействия:

1. Усиление внутри - групповой идентификации с собратьями, военными структурами (сообщество воинов-интернационалистов, большое количество общественных организаций ветеранов АТО). Тоесть ветераны образуют сооб-

щество в сообществе в которой они имеют тесные связи, высокую степень доверия, и одновременно они становятся труднодоступными для специалистов в работе с ними, так как не военные воспринимаются ими как «чужие» и соответственно наблюдается низкий уровень доверия к ним.

2. Адаптации к местной общине, возвращение в гражданскую жизнь, обусловливает взаимное привлечение общественности к решению проблем реинтеграции ветеранов к современному обществу.

Успех социальной реинтеграции ветеранов зависит от ряда факторов:

- черт самого экс-комбата, его военного опыта, особенностей семейной и общественной социализации;
- особенностей ситуации после боевого опыта: удовлетворенности семейной жизнью и материальным положением;
- характеристик общины, в которую ветеран возвращается, в частности, социальной сплоченности и культуры участия в обществе.

В общинах с высокой социальной сплоченностью, которым присуща высокая культура участия граждан, ветеран оказывается «включенным» в разные виды общественно-полезной деятельности изначально возвращаясь из зоны боевых действий. Одновременно с этим он чувствует поддержку общины и свою ей полезность.

Таким образом, условием успешной реинтеграции ветеранов является включенность всех без исключения структур общества (формальных и неформальных) в систему психосоциальной поддержки ветеранов, а также при условии сотрудничества на уровне общины власти (государственных учреждений), общественного сектора (общественные организации) и бизнеса.

Список использованной литературы:

1. Колениченко Т.И. Реформирование системы организации социальной и профессиональной адаптации военнослужащих, ветеранов АТО / ООС и членов их семей в Украине / Т.И. Колениченко // Реформирование системы социальных услуг и Украины: проблемы и перспективы: монография / под ред. д-ра психол. н., проф. Н. И. Кривоконь. - Чернигов: ЧНТУ, 2019. - С. 21-4

2. Содействие в трудоустройстве и создании бизнеса как путь к реинтеграции военнослужащих и ветеранов АТО / ООС в условия современного общества: учеб. пособие. / Т. И. Колениченко, А. В. Вербицкая, О. Л. Петрик; под общ. ред. Т. И. Колениченко. - Киев: Гнозис, 2020. - 144 с.

3. Шабан А. Путь домой в разных странах мира: реабилитационные программы для бывших участников боевых действий [электронный ресурс]. – Электрон.дан. https://gurt.org.ua/articles/32330/

4. PTSD and Veterans: Breaking Down the Statistics [электронный ресурс]. – Электрон.дан. https://www.hillandponton.com/veterans-statistics/ptsd/

5. Сколько в Украине ветеранов АТО, и каких ведомств? (инфоргафика) https://texty.org.ua/fragments/97005/Skilky_v_Ukrajini_veteraniv_ATO_j_vid-97005/

Məmmədzadə E.E.,
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
aparıcı elmi işçi,
Azərbaycan Milli Elmlər Akademiyasının
İqtisadiyyat İnstitutu,
Email: e_mamedzade@mail.ru

BİRBAŞA XARİCİ İNVESTİSİYALAR MİLLİ İNNOVASİYA SİSTEMİNIN İQTİSADİ İNKİŞAFININ AMİLİ KİMİ

Birbaşa xarici investisiyaların (BXİ-lərin) düzgün təşkili, stimullaşdırılması və yerləşdirilməsi ölkə iqtisadiyyatında profilləşdirici sahələrin inkişafının sürətlənməsi baş verə bilir. Milli iqtisadiyyata BXİ-ni cəlb etmənin əsas prinsiplərinin formalaşdırılmasını yalnız xarici investorların sahəvi preferensiyaları ilə məhdudlaşdırmaq olmaz, çünki bu, metodoloji baxımdan yanlış olacaq. Bu hadisənin kontekstində resipiyent ölkənin makro, mezo və mikro səviyyələrini nəzərdən keçirməlidir, bu da milli iqtisadiyyata BXİ-ni cəlb etmənin və kapital ixracının əsas amil və prinsiplərinin təhlilinin ayrılmaz tərkib hissəsidir. Bundan başqa, BXİ üçün mezosəviyyə və ya lokal, ərazi üstünlüyünün və cəlbediciliyinin səviyyəsi birbaşa xarici investisiyalaşdırma prosesini formalaşdırmanın mühüm mərhələlərindən biridir.

Birbaşa xarici investisiyalaşdırma prosesinin motiv və üstünlüklərinin dəyişim mərhələlərini Azərbaycanın müasir iqtisadiyyatına və subyektlərinə ekstrapolyasiya edərək qeyd etməliyik ki, onlar cəlbedici investisiya iqlimini formalaşdırmanın və ona uyğun olan BXİ-ni cəlbetmə üzrə milli siyasətin ilk mərhələsindədir.

Bu o faktı təsdiq edir ki, BXİ axınlarının iqtisadi inkişafını izah edən universal nəzəriyyə mövcud deyil, lakin bir çox metodoloji müddəalar ölkəyə BXİ cəlbetmə metodikası işlənib hazırlandığı zaman istifadə oluna bilər. Bir sıra nəzəri və metodoloji müddəalar üzərində aparılmış təhlilə əsaslanaraq BXİ cəlbetmə siyasətinin mühüm prinsiplərini qeyd etmək olar:

- rəqabət qabiliyyətinin nisbətən yüksək səviyyədə olmasına səbəb olan iqtisadi-texnoloji və resurs ixtisaslaşmasının spesifik sahələrini birbaşa xarici investisiyalaşdırma proseslərinin stimullaşdırılması və motivasiyalaşdırılması ilə yerli sosial-iqtisadi maraqların prioritet dəstəyi;
- BXİ-lərin bölgə iqtisadiyyatının büdcəformalaşdırıcı sahələrinə cəlb olunması ilə bağlı olan multiplikativ sahəvi effektin institusional təminatı, bu da tarazlaşdırılmış iqtisadi artımın əsasında ərazinin sosial-iqtisadi inkişafının dayanaqlığını artırmağa imkan verəcək, bölgədaxili və bölgələrarası fərqlərin yumşalmasına kömək edəcək, bu isə yerli özünüidarəetmə sisteminin islahatlaşdırılması və onun gəlir bazasının yaradılması şəraitində xüsusilə aktualdır;
- resipiyent sahələrin sinergetik inkişaf vasitələrinin çeşidinin artırılması, bu da ölkənin gəlirlərinin akkumulyasiyasının səmərəliliyini və vergitutma bazasını artırmağa imkan verəcək.

Tədqiqatımızın göstərdiyi kimi, neft-kimya sahəsinə cəlb edilmiş ölkələr texnoloji transfertin kifayət qədər yüksək səviyyəsi və səmərəliliyi ilə xarakterizə olunur. Bu transfert yalnız xarici texnologiyaların deyil, həmçinin idarəçilik və təşkilati-iqtisadi

yeniliklərin mənimsənilib götürülməsi ilə müşayiət olunur. Buna görə bölgənin institutsional potensialına uyğun olan BXİ-lərin cəlb edilməsi bəraətvericidir. Lakin yüksək texnoloji və təşkilati səviyyəyə malik BXİ-lərin transferti üçün Azərbaycanda hələlik lazımi institusional və infrastruktur müqəddimələri yaradılmayıb və bu texnologiyalar tələbatsız və ya tam həcmdə reallaşdırılmamış qalacaq, bu isə həm respublikanın investisiya iqliminə, həm də xarici investorun özünə ziyan vura bilər. Milli iqtisadiyyatın absorbsiya siyasətinin məzmunu yalnız institusional və investisiya iqliminə uyğun investisiya layihələrini seçmək, uyğunlaşdırmaq, imitasiya etmək və tirajlamaqdan ibarətdir. Yalnız bu məsələlər həll olunduğu zaman BXİ-lər xarici texnologiyaları mənimsəyib götürmə mexanizminin tətbiqi, onların milli şəraitə uyğunlaşdırılması, həmçinin istehsalın və satışın təşkili və idarəçiliyinin yaxşılaşdırılması, dərin marketinq tədqiqatları, sənaye logistikası sxemlərinin və s. tətbiqi sayəsində istehsalın səmərəliliyini artıra və satış bazarlarını genişləndirə bilər.

Tədqiqatlar və qabaqcıl təcrübənin göstərdiyi kimi, innovasiya siyasətinin ən effektiv alətləri və mexanizmləri subyekt səviyyəsində işlənib hazırlanır və reallaşdırılır. Lakin milli və bölgə alətləri xeyli fərqləndiyi üçün onları milli innovasiya sisteminə (MİS-ə) əsaslanan yanaşmalar çərçivəsində həyata keçirməyə olduqca çətindir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, MİS-in formalaşmasında və inkişafında BXİ-lərin rolunu xarakterizə edərkən onlar bölgə iqtisadiyyatının digər texnoloji quruluşa görə yaxın sektorlara permanent diversifikasiyası üçün alət kimi çıxış edə bilər. Bununla belə MİS BXİ-ləri cəlbetmə mexanizmlərindən istifadə etməklə, yerli şirkətləri effektiv innovasiya texnologiyaları məmimsəyib götürmə alətləri ilə təmin etməlidir.

Məlum olduğu kimi, bölgə səviyyəsində innovasiyaların inkişafını təmin edən universal tədbir dəsti mövcud deyil. Lakin bu sahədə səmərəli alətlərdən biri kimi BXİ-ləri cəlb etməklə texnologiyaları mənimsəyib götürmə mexanizmi çıxış edə bilər. Onu da vurğulamaq lazımdır ki, MİS formalaşdırma proseslərinin uyğunlaşdırılmasının məntiqi fikrimizcə, innovasiya fəallığının texnologiya mənimsəyib götürmə mexanizmləri ilə müəyyən ardıcıllıqla qarşılıqlı əlaqəsini nəzərdə tutur. Düşünürük ki, MİS-in formalaşdırılmasında dünya bazarında səmərəliliyi ilə nüfuz qazanmış xarici qabaqcıl texnologiyaların mənimsənilib götürülməsinin səmərəli absorbsiya mexanizmi çıxış nöqtəsi olmalıdır. Və yalnız MİS yaradıldıqdan sonra və o, yeni mənimsənilib götürülmüş texnologiyalarla təmin olunduqca yerli müəssisələrin mütəxəssislərində bilik və vərdiş yaranır, sonuncular isə həmin mütəxəssislərdə innovasiya fəallığının və yeni innovasiya yaratmağa stimulun əmələ gəlməsi və formalaşması üçün təməl qoyacaq.

Yüksək texnologiyanın inkişafı bir millətin iqtisadi rəqabətliliyi və firavanlığı üçün vacibdir. Bu cür dəstək sistemi real iqtisadiyyatın ehtiyaclarını ödəməyə, ETST üçün vergi güzəştlərinə, patentlərin və digər yenilikçi inkişafların effektivliyini artırmağa yönəlmiş qeyri-dövlət tədqiqatlarının stimullaşdırılmasına yönəldilməlidir.

Ənənəvi olaraq, investisiya fəaliyyətinin dövlət tənzimlənməsi iki prinsip əsasında həyata keçirilir, yəni investisiyalarda birbaşa iştirak, eyni zamanda investisiya fəaliyyətində dolayı iştirak çərçivəsində. Öz növbəsində, investisiyalarda birbaşa iştirak aşağıdakı prinsipə əsasən həyata keçirilir: dövlət investisiya fondlarının əsas hissəsi iqtisadi inkişaf üçün əsas vəzifələri müəyyənləşdirən fundamental proqramları

dəstəkləyir. İkinci prinsip, bölgələr üçün investisiya yolu ilə bir sıra alternativlər təmin edən investisiya konsepsiyasının yaradılmasına obyektiv ehtiyacdır. Bölgələrdə hazırlanan bu model bölgənin inkişaf prioritetləri üçün kifayət qədər əsaslandırılmış meyarlara malik olmalıdır. Bundan əlavə, investisiya fəaliyyətinin monitorinqi və təhlili prinsipləri ilə investisiyanın təşkilati mexanizminin formalarını əsaslandırmaq lazımdır. Təcrübədə investisiyaların dövlət tənzimlənməsinin həyata keçirilməsi prinsipi az əhəmiyyət daşımayacaqdır. Dövlət, maliyyə siyasətindəki apardığı islahatlar kimi, digər iqtisadi siyasət tədbirlərinə də müraciət edə bilər. Bu baxımdan, dövlətin investisiya siyasəti və investisiyaların sahə quruluşunun tənzimlənməsi baxımından əsas vəzifəsi müvafiq vergitutmanı təşkil etməkdir, yəni dövlət büdcəsi vasitəsi ilə neft və qaz hasilatında diferensial rentanın emal sənayelərinə, eləcə də sənaye infrastrukturunun inkişafına yönəldilməsidir.

Fikrimizcə, milli innovasiya sisteminin investisiya cəlbediciliyinin qiymətləndirilməsi modeli – milli müəssislərin səmərəlilik səviyyəsini və fəaliyyətlərinin artım dinamikasını, müəssisələrin gəlirlilik (rentabellik) səviyyəsini və onun dinamikasını, fəaliyyətlərinin risk səviyyəsini və onun dinamikasını təsvir edən qarşılı asılılıq sistemi əsasında həyata keçirilməlidir. Belə bir qarşılı asılılıq sisteminin istifadəsi potensial investorlar üçün milli innovasiya sisteminin cəlbedicilik səviyyəsini hərtərəfli qiymətləndirməyə imkan verəcəkdir.

Abdullayev Kamran Nurəddin oğlu,
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
AMEA-nın İqtisadiyyat İnstitutu,
Email: kamran.abdullayev.1978@mail.ru

AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

Müasir dünyada "rəqəmli iqtisadiyyat"ın əsas məqsədi milli iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların sistemli inkişafı və tətbiqini həyata keçirmək hesab olunur. Qeyd edilən sahələrə xüsusilə iqtisadi sahələr, sosial fəaliyyət kimi sahibkarlıq, dövlət idarəetməsi, sosial sfera və şəhər təsərrüfatı aid olunur. Ümumiyyətlə, milli iqtisadiyyatın rəqəmsal iqtisadiyyata keçidi bizim qlobal iqtisadi məkanda rəqabətqabiliyyətli olmağımıza və milli təhlükəsizliyin təmininə imkan verməlidir. Əksər beynəlxalq iqtisadi tədbirlərdə, xüsusən, İsveçrənin Davos şəhərində keçirilən sonuncu Beynəlxalq İqtisadi Forumda dördüncü sənaye inqilabına keçidin zəruriliyi qeyd olunmuşdur. Eyni zamanda onun əsas hədəfinin rəqəmsal iqtisadiyyata keçidin tam təmin edilməsi hesab olunmuşdur. Müasir qloballaşan dünyada milli iqtisadiyyatımız müasir iqtisadi çağırışlara cavab verməlidir. Artıq beynəlxalq rəqabətqabiliyyətlilik göstəricisi ölkələrin innovativ imkanlarını dəyərləndirilməklə, innovativ ölkə kimi müəyyənləşdirilməsinə imkan verir. Azərbaycanda da rəqəmsal bazarların uyğunlaşdırılması prosesi onlayn xidmətlərin daha münasib qiymətə və daha geniş seçimlə genişləndirilməsinə səbəb olacaqdır. Nəticədə yaxın illərdə ölkədə investisiya axınlarının, ticarət əlaqələrinin və məşğulluq səviyyəsinin yüksəlməsinə şərait yarana-

caqdır [1]. Ölkəmizdə beynəlxalq təcrübə nəzərə alınmaqla rəqəmli iqtisadiyyatın formalaşdırılması və inkişafı məqsədilə "rəqəmli bazarların uygunlaşdırılması" istiqamətində aparılan tədbirləri çox səmərəli hesab etmək mümkündür. Qeyd edək ki, Azərbaycan Respublikası Avropa Birliyinin dəstəyi ilə rəqəmsal iqtisadiyyatın genişləndirilməsi məqsədilə həyata keçirilən altı istiqamətin hər birində iştirak edir. Ölkəmiz region dövlətləri arasında "İKT innovasiya və startap ekosistemi" istiqaməti və "e-gömrük" alt istiqaməti üzrə əlaqələndirici ölkə kimi fəaliyyətini davam etdirir.

Son illər ölkəmizdə innovasiyanın sosial-iqtisadi modellərinin təmin olunmasında innovasiya və investisiya fəaliyyətinin yüksəldilməsi əsas prioritet istiqamətlərdən biri kimi qəbul olunur. Azərbaycanda beynəlxalq təcrübə nəzərə alınmaqla innovasiyalı inkişafla bağlı məsələlərin öz əksini son illər qəbul edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nda, eləcə də, "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında tapdığını xüsusi qeyd etmək lazımdır [6]. Nəzərə alaq ki, innovasiyaların tətbiqi yolu ilə inkişaf iqtisadi və sosial sahədə ciddi dəyişikliyə təminat yaradan müasir texnologiyaların tətbiqinin sürətlənməsini özündə ehtiva edir. Nəticədə nanotexnologiyaların, biotexnologiyaların, yeni materialların texnologiyalarının hazırlanmasında informasiya-kommunikasiya texnologiyalarının rolu artır. Azərbaycanın son illər milli innovasiya sisteminin inkişafı daha çox nəzərə çarpmaqdadır. Belə ki, ölkəmizdə idxal məhsullarının ixrac məhsullarının həcmindən yüksək olması, ÜDM-in strukturunda elmtutumlu məhsulların xüsusi çəkisinin təqribən 0.2%-ə yaxın olması, xarici ölkələr üzrə ixrac məhsulları içərisində neft-qaz, neft emalı məhsullarının 90%-dən yuxarı olması, emal sənayesində əsas istehsal fondlarının (ƏİF) yüksək aşınma səviyyəsi və s. problemlər hələ də mövcuddur. Məhz buna görə də bu sahədə yaranmış problemlər tədricən aradan qaldırılmalıdır [1]. Nəzərə almaq lazımdır ki, milli innovasiya sisteminin (MİS) inkişafı onun regional və qlobal sistemlərə inteqrasiyası ilə birbaşa bağlıdır. Məsələn, hal-hazırda Avropa Birliyi ölkələri ayrı-ayrı iqtisadi sahələr üzrə ümumi innovasiyaların inkişaf strategiyası və ilk növbədə innovasiya sistemləri, insan resurslarının inkişafı, İKT və s. istiqamətlərdə fəal iqtisadi siyasət həyata keçirməkdədirlər [2].



Şəkil 1. Son illər Azərbaycan Respublikasının qeyri-neft sektorunun inkişafına yönəldilmiş xarici investisiyalar (mln. ABŞ dolları ilə)

Aparılmış təhlillər onu göstərir ki, Azərbaycan Respublikasının qeyri-neft sektoruna yönəldilmiş xarici investisiyaların həcmində 2005-ci ildən başlayaraq ciddi artım nəzərə çarpmışdır. Məsələn, ölkə üzrə 2005-ci ildə qeyri-neft sektoruna 230,5 mln. ABŞ dolları, 2015-ci ildə 860,4 mln. ABŞ dolları, 2019-cu ildə 930,1 mln. ABŞ dolları yönəldilmişdir. Azərbaycanda davamlı olaraq həyata keçirilən məqsədəuyğun iqtisadi tədbirlər, proseslər nəticəsində ölkəyə xarici investorlar tərəfindən ayrı-ayrı milli iqtisadi sahələr üzrə xarici investisiya qoyuluşu artmışdır. Bu da Azərbaycanın beynəlxalq reytinq təşkilatlarında mövqeyinin yüksəlməsinə səbəb olmuşdur [5].

Aparılmış təhlillər onu göstərir ki, texnoparkların, texnoloji inkubatorların, innovasiya mərkəzlərinin, aqroparkların fəaliyyəti milli innovasiya sisteminin inkişaf istiqamətlərinə əsaslanmalıdır. Məhz bu halda dövlətin innovasiya siyasəti daha da genişlənə bilir. Nəzərə almaq lazımdır ki, innovasiyayönümlü kiçik sahibkarlığın inkişafında mühüm rol oynayan kommersiya qurumları qismində biznes inkubatorlar texnoparkların, demək olar ki, fəaliyyətinin əsası kimi qəbul olunur. Bundan başqa ixtisaslaşma səviyyəsindən asılı olaraq innovasiya fəaliyyəti birbaşa subyektlərinin fəaliyyətinin səmərəliliyini müəyyənləşdirən əsas amildir [3].

İnnovasiya fəaliyyətinin ixtisaslaşdırılmış subyektləri qismində texnoparkların rolu milli iqtisadiyyatda çox böyükdür. Əsasən texnopraklar bir qayda olaraq regionlar üzrə texnoloji zonalarda formalaşdırılır. Texnoloji zonalar, mahiyyət etibarı ilə ölkənin innovativ fəaliyyətyönümlü resurslarının, o cümlədən informasiya-kommunikasiya imkanlarının cəmləşdiyi sahə hesab olunur. Qabaqcıl ölkələrin təcrübəsi onu göstərir ki, texnoparklar elmi laboratoriyaların, innovasiyayönümlü kiçik müəssisələrin, geniş fəaliyyət dairəsinə malik sənaye müəssisələrinin birgə və rəqabətədavamlı fəaliyyətinə daim əlverişli şərait yarada bilir [4].

Ümumiyyətlə, aparılmış araşdırma onu göstərir ki, ölkəmizdə rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- rəqəmsal iqtisadiyyat üzrə inkişafı təmin etmək üçün milli İKT sektorunun fəaliyyət dairəsinin genişləndirməsi, informasiya təhlükəsizliyinin yüksəldilməsi, yeni milli innovativ texnologiyaların yaradılması məqsədilə beynəlxalq səviyyədə əməkdaşlığın gücləndirilməsi;
- regionlarda innovasiya sahibkarlığının genişləndirilməsi üçün bu sahəyə yerli və xarici investisiyaların yönəldilməsinin stimullaşdırılması;
- rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində yaxın perspektiv dövrü əhatə edən yeni dövlət proqramlarının qəbul edilməsi və s.

İstifadə olunmuş ədəbiyyat:

1. Abdullayev K.N. İnnovasiyalı inkişafın ümumi istiqamətləri // Azərbaycan Respublikasında innovasiyayönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları (respublika elmi-praktiki konfransın materialları), Sumqayıt Dövlət Universiteti, Sumqayıt.: SDU-nin nəşr., 2010, səh. 66.
2. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Восток-Запад, 2010, 224 с.
3. Инновационный менеджмент. Под ред. С.Д. Ильиновкой. М., ЮНИТИ, 2014, s.269.
4. Иванова Н.Т. Малый инновационный бизнес в странах развитой рыночной экономики // Рос. экон. журн. - М., 2010. - N 12. - С. 76-81.
5. www.stat.gov.az _ sənaye_innovasiya_2020.
6. https://president.az/search/innovasiya?utf8=%E2%9C%93

Əliyev Şəfa Tiflis oğlu,
iqtisad elmləri doktoru, professor,
Email: shafaaliyev@gmail.com;
Behbudova Könül Elman qızı, magistr,
Sumqayıt Dövlət Universiteti
Email: kbehbudova28@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ SƏMƏRƏLİ İNVESTİSİYA QOYULUŞLARI

Böyük Qarabağ zəfərindən sonra Azərbaycanda yeni və tarixi sosial-iqtisadi prioritetlər və strateji vəzifələr formalaşmışdır. Erməni hərbi təcavüzünün nəticəsində dağıdılmış şəhər və kəndlərin, yaşayış məntəqələrinin sosial-iqtisadi reabilitasiyanın təmin edilməsi ərazilərin inkişafının sürətləndirilməsi və bütövlükdə Qarabağın dirçəldilməsi vəzifələrinin öhdəsindən gəlmək lazımdır. Vəhşi və faşist xislətli düşmən Qarabağda, işğal olunmuş ərazilərdə daşı daş üstündə qoymamışdı. Hər şey yerlə yeksan edilmişdi. Torpaq sahələri vandalcasına istismardan deqradasiyaya uğramış və yararsız hala düşmüşdür [5]. Meşələr məhv edilmiş və son anda isə kütləvi şəkildə yandırılmışdır. 6 mindən çox müəssisə dağıdılmış, 150 min ev və 70 min ictimai bina talan edilmişdir. 160 körpü və 15 min kilometr elektrik xətləri yararsız hala salınmış və dağıdılmışdır. Ərazidə ekoloji terror həyata keçirilmiş və canlı nə varsa, qəddarcasına məhv olunmuşdur.

Ölkəmiz bütün bəşəriyyəti erməni faşizmindən azad etdi və rəşadətli ordumuz Ali Baş Komandanın rəhbərliyi altında düşmənin başını əzdi. Hal-hazırda əsas vəzifəmiz bu ərazilərin inkişafının təmin edilməsi və bu məqsədlə tələb olunan fəaliyyət mexanizmlərinin işlənib hazırlanmasıdır. Qarabağ ərazisində kifayət qədər resurslar vardır, xüsusilə təbii ehtiyatlar, o cümlədən filiz və qeyri-filiz ehtiyatları mövcuddur [6]. Bu qəbildən olan qeyri-filiz ehtiyatlı üzrə yataqların sayı 300-dən çoxdur. Məsələn, regionda qızıl, mis, sink, tikinti materiallarının əksər növlərinin ehtiyatları vardır [2]. Kəlbəcər rayonunda və Murovdağ zonasında dağ-mədən sənayesinin inkişaf etdirilməsi üçün güclü filiz və qeyri-filiz yataqları mövcuddur. Şuşada, Kəlbəcər və Laçın rayonlarında turizm-rekreasiya komplekslərinin yaradılması və dünyanın ən cəlbedici turizm regionlarından birinə çevrilməsi potensialının olduğunu qeyd etmək mümkündür. Maraqlıdır ki, turizmin əksər xidmət növlərinin bütün il boyunca göstərilməsi və təşkili imkanları da burada diqqət çəkir. Zəngilan rayonu ərazisində kalsiumlaşmış soda istehsalının təşkili və yaradılması üçün mühüm xammal ehtiyatları vardır, eyni zamanda Zəngilan yatağında sənaye əhəmiyyətli 130 milyon ton həcmində kimyəvi əhəng ehtiyatlarının mövcudluğu qiymətləndirilmişdir. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında kənd təsərrüfatının, aqrar sektorun və heyvandarlığın kompleks inkişaf etdirilməsi mümkündür. Müasir dövrün texnologiyaları, çağırışları və inkişaf trendləri nəzərə alınmaqla Qarabağı yüksək inkişaf etmiş və investisiya baxımından cəlbedici olan regiona

çevirmək potensialı vardır [4]. Artıq bu istiqamətdə dövlət başçısının təşəbbüsü və tapşırıqları ilə geniş həcmli işlər başlanılmışdır. İşğal olunmuş ərazilər minalardan təmizlənir, infrastruktur şəbəkəsi yaradılır, strateji əhəmiyyət kəsb edən Füzuli-Şuşa yolunun tikintisi sürətlə davam edir. Füzuli rayonunda beynəlxalq aeroportun tikintisinə başlanılması isə regionun investisiya cəlbediciliyini artıran mühüm amillərdəndir. Bundan əlavə Qarabağın nəqliyyat infrastrukturunu müasir dövrün tələbləri səviyyəsinə qaldırmaq üçün dəmir yol xətləri bərpa olunub, yenilərinin çəkilməsi planlaşdırılır, yeni aeroportlar və avtomobil yollarının çəkilməsi layihələri vardır. Şəhər və qəsəbələrin, kəndlərin bərpasında isə ağıllı texnologiya-lardan, smart texnologiyalardan, o cümlədən "ağıllı şəhər" və "ağıllı kənd" modellərindən istifadəyə üstünlük verilməsi prioritetlik təşkil edir..

Bütün dünya azərbaycanlılarının mədəniyyət beşiyi və müqəddəs yer hesab etdiyi Şuşa şəhərinin özəllikləri saxlanılmaqla, Qarabağ regionunun dinamik inkişaf edən müasir və yüksək texnologiyalar əsaslı bölgəyə çevrilməsi hədəfləri müəyyənləşdirilmişdir. Şübhəsiz, bütün bu işlərin ardıcıllıqla və kompleks şəkildə həyata keçirilməsi üçün səmərəli investisiya layihələri və investisiya qoyuluşları tələb olunur. Qeyd edək ki, Azərbaycan Respublikasının 2021-ci il üçün təsdiq olunmuş dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün 2,2 milyard manat vəsait ayrılmışdır və sevindirici haldır ki, artıq bu vəsaitin təyinatı üzrə istifadəsinə başlanılmışdır. İşğaldan azad olunmuş ərazilərdə müasir infrastruktur obyektlərinin tikilməsinə elektrik enerjisi, təbii qaz, su, rabitə, yol və digər istiqamətlərdə tədbirlərin görülməsinə başlanılmışdır.

İşğaldan azad olunmuş ərazilərdə daha da təkmilləşdirilmiş və səmərəli formada investisiya qoyuluşlarının təmin edilməsi mexanizmləri yaradılmalı və bununla əlaqədar kompleks tədbirlərin görülməsi təmin edilməlidir. Əlbəttə qeyd etdiyimiz kimi dövlət tərəfindən bu işlərə start verilmiş və geniş miqyaslı layihələrin icrasına başlanılmışdır. Hesab edirik ki, bu proseslərdə maliyyə mənbələrinin və investisiya resurslarının yatırılması mənbələrinin diversifikasiyalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Yəni, bu proseslərə dövlətlə yanaşı, özəl sektor subyektlərinin, xarici investisiya fondlarının və qurumlarının, maliyyə-kredit holdinq və kompaniyalarının cəlb olunması mümkündür [1]. Xüsusilə, ölkəmizlə strateji əməkdaşlıq və partnyorluq səviyyəsində olan dövlətlərin investorlarına və podratçı tikinti və texnoloji təşkilatlarına üstünlük verilməlidir. Bundan əlavə, şərait imkan verdikcə maliyyə-kredit infrastrukturunun yaradılması və investisiya-innovasiya layihələrinin hazırlanaraq, sahibkarlıq və biznes strukturları, potensial investorlar üçün təqdim olunması tədbirləri həyata keçirilməlidir [3]. Nəzərə almaq lazımdır ki, Qarabağda müxtəlif iqtisadiyyat sahələrinin məhsuldar formada təşkili və inkişaf etdirilməsi imkanları vardır, başqa sözlə, təbii və iqtisadi resurs baxımından investisiyaların formalaşdırılması cəlbi və istifadəsi məsələlərinin uzlaşdırılması, planlaşdırılması və investisiya layihələrinin hazırlanması potensialı yüksək qiymətləndirilir.

Hazırda ölkəmizin Qarabağ regionunda işğaldan azad olunmuş ərazilərdə səmərəli dövlət investisiya siyasətinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamət-

lərində praktiki fəaliyyət mexanizmlərinin daha çevik və optimal müəyyənləşdirilməsi vacib şərtlərdəndir:

– İlk növbədə, işğaldan azad olunmuş ərazilərin bərpası və dirçəldilməsi hədəflərinə cavab verən dövlət investisiya siyasəti hazırlanmalı və gecikdirilmədən həyata keçirilməlidir;

– Qarabağ regionunda investisiya – innovasiya layihələrinin hazırlanması və maliyyə mənbələrinin müəyyənləşdirilməsi, maliyyə təminatı mexanizmlərinin alternativliyi təmin olunmalıdır;

– İşğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın müxtəlif sahələrinin dirçəldilməsi üzrə məqsədli proqramlar və investisiyaların cəlb edilməsi konsepsiyası hazırlanmalıdır;

– Regionda sosial-iqtisadi inkişafın təmin olunması və mövcud resursların təsərrüfat – kommersiya və maliyyə dövriyyəsinə cəlb olunması üçün tələb olunan xarici investisiyaların gətirilməsi məqsədilə bu sahədə beynəlxalq əməkdaşlıq maksimum gücləndirilməlidir;

– Regionda daxili və xarici investisiyaların təşviqi, stimullaşdırılması və motivasiyalaşdırılması üzrə kompleks yanaşma ortaya qoyulmalı və məqsədli tədbirlər həyata keçirilməlidir;

– Regiona daxili və xarici investisiyaların daha fəal cəlb edilməsi üçün çoxfunksiyalı iqtisadi mexanizmlərin, o cümlədən iqtisadi zonaların, klasterlərin, texnoparklar və aqrosənaye parklarının yaradılması imkanları gecikdirilmədən araşdırılmalı, qiymətləndirilməli və zəruri praktiki tədbirlər reallaşdırılmalıdır və s.

İstifadə olunmuş ədəbiyyat:

1. Allahverdi qızı F. Azad edilən ərazilər yerli və xarici investorlar üçün cəlbedici olacaq. 10 Dekabr 2020. https://vergiler.az/news/economy/11072.html.

2. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018. - 376.

3. Əliyev T.N. Azərbaycanın işğaldan azad edilən ərazilərində sahibkarlığın inkişaf istiqamətləri. 28.12.2020. http://economics.com.az/index.php/tedbirler/yeniliklr/item/2030-azaerbaydzan-n-ishzhhaldan-azad-edilaen-aerazilaerindae-sahibkarl-zhhn-inkishaf-istizhamaetlaeri.html.

4. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir?31.10.2021. http://www.iqtisadiislahat.org/news/isgal_olunmus_erazilerin_azad_edilmesi_azerbaycan_iqtisadiyyatina_ne_ved_edir-1059.

5. Musayev A., Zeynalov A. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir. 27.01.2021. http://www.science.gov.az/news/open/15789.

6. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 2010. - 270 s.

Fərhadi Püstə Oruc qızı,
iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universiteti

XXI ƏSRDƏ RƏQƏMSAL KƏND TƏSƏRRÜFATI MODELİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

"Aqrar sahənin iqtisadiyyatı növbəti illərdə də prioritet olaraq qalacaq və kənd təsərrüfatında islahatlar daha da dərinləşəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Dinamik inkişaf edən Azərbaycan iqtisadiyyatında mühüm yeri olan kənd təsərrüfatı sahəsi yeni yüksəliş dövrünü yaşamaqdadır. Kənd təsərrüfatının inkişafının hazırki mərhələsində fermerlərə yaxınlıq, səmərəli idarəçiliyin təmin edilməsi və innovasiyaların geniş yayılmasının dəstəklənməsi aqrar siyasətin əsas prinsipləri kimi qəbul olunmuşdur. Kənd təsərrüfatı Azərbaycanda ərzaq və iqtisadi təhlükəsizliyi, həmçinin ölkənin, xüsusilə kənd yerlərində əmək potensialını təmin edən iqtisadiyyatın əsas sahələrindən biri hesab olunur. Kənd təsərrüfatı sektoru ölkə iqtisadiyyatının ÜDM-in təşkilində mühüm rol oynayır və ölkə əhalisinin, əməkqabiliyyətli əhalinin əksər hissəsi bu sektorda çalışır. Ötən illər baxmayaraq ki, heyvandarlıq, bitkiçilik məhsullarının istehsalında müsbət artım dinamikası müşayət olunsa da, hələ də bu sektor realizə edilməyən artım potensialı sahəsi olaraq qalır. Azərbaycanın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına daxil olması ilə xarici bazarlarda rəqabətqabiliyyətliliyin atmasına olan tələblər də güclənəcəkdir. Odur ki, aqrar sənaye kompleksində ixrac məhsullarının xarici bazarlara çıxışı üçün mütləq şəkildə kənd təsərrüfatı sektoru rəqəmsal transformasiya olunmalıdır.

Ümumiyyətlə Amerika, Kanada və Avstraliya kimi inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, rəqəmsal texnologiyalar bu ənənəvi sahəni kökündən dəyişir. Əşyalar İnterneti də daxil olmaqla müxtəlif mənbələrdən alınan müasir geoinformasiya sistemləri və iri həcmli informasiya (big data) resurslarından rasional istifadə etməklə yüksək məhsuldarlıq almağa imkan verir. Sənaye əşyalar interneti (İİoT) isə məsafədən idarə edilən avtomatlaşdırılmış ferma yaratmağa imkan verir. Aqrar sənaye kompleksinin rəqəmsallaşdırılması artıq zamanın tələbinə çevrilmişdir və bu istiqamətdə dövlət proqramının yaradılması qeyri-neft sektorunun inkişafına, ÜDM-də bu sektorun payının artmasına gətirib çıxaracaqdır. Bu gün nəinki aqrar sektor, iqtisadiyyatın bütün sektorları rəqəmsal transformasiya dövrünə keçməli və bununla bağlı dövlət proqramı hazırlanmalıdır. Bu gün dünyada gələcək inkişaf baxımından prioritet sayılan sahələrə xüsusilə, texnoloji innovasiya sektorunun, texnoloji sahibkarlığın inkişafına üstünlük verilir. Bu gün təbii ki, ağırlıq mərkəzi tədricən qeyri-neft sektoruna yönəlmişdir və bu, bizə zamanın tələbi olan rəqəmsallaşdırmaya keçidi şərtləndirir.

Onu da qeyd edək ki, bu gün bütün dünyada iqtisadiyyatın müxtəlif sektorları

rəqəmsallaşdırılır və bu beynəlxalq tərəfdaşlıq üçün yeni üfüqlər açır. Qeyd edim ki, təkcə Qərb ölkələrində sənaye müəssisələrinin rəqəmsallaşdırmasına və İT infrastrukturunun inkişafına çəkilən xərclər onların büdcələrinin 5%-dən çoxunu təşkil edir. Təkcə bütün Avropada ÜDM-in ortalama 6%-i sənayenin üzərinə düşdüyü halda, təkcə İsveçrədə rəqəmsallaşdırma hesabına sənaye 19% ÜDM gətirmişdir. Bu göstərici Azərbaycan sənaye müəssisələrində nə qədərdir, təbii ki, biz mütəxəssis və alimlər bunun hesabatını aparmalı və sonra strategiyanı müəyyənləşdirməliyik. Sənaye istehsalında innnovativ texnologiyaların tətbiqindən (bulud hesablaması, İİoT, blokçeyn, süni intellekt və s.) geniş istifadə edilməlidir və Azərbaycan sənaye müəssisələri kiber fiziki mühitdən istifadəyə tam funksional olaraq hazırlanmalı, istehsal prosesinin təşkili və onun idarəedilməsi tam mənimsənilməli, robotlaşma məsələləri üzərində işlər aparılmalıdır. Hal-hazırda Respublikada sənaye müəssisələrinə vahid şəbəkədə sənaye avadanlıqlarının qoşulması üçün həllər (solution) və maşınla öyrənmə (Machine Learning) texnologiyası əsasında tövsiyyəverici sistemlər lazımdır. Nəticədə Azərbaycanın müxtəlif rayonlarında sənaye müəssisələri, zavodları rəqəmsallaşdırmadan sonrakı gözləntilərini araşdırmalı və onların texnoloji və təşkilati plana nə dərəcədə hazır olduqlarını müəyyən etməli və sonda bu əsasda Rəqəmsal Azərbaycan, Rəqəmsal iqtisadiyyat dövlət proqramı hazırlanmalı, sistemli rəqəmsallaşdırmaya keçid təmin olunmalıdır. Əlbəttə, bunu zaman tələb edir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətli olması üçün ona keçid qaçılmazdır.

Sürətlə formalaşan rəqəmsal mühitin determinizmi, o cümlədən rəqəmsal xaosdan rəqəmsal qərarın əsaslandırılması və qəbulunu nəzərdə tutan transfermasiyaların alqoritmi aşağıdakı əsas mərhələlərin ardıcıllığı kimi təqdim olunmuşdur:

Transformasiyaların alqoritmi



İndi isə aqrar-sənaye istehsalı üçün qərar qəbulunun rəqəmsal platformasından təcrübi baxımdan gözlənilən nəticələri nəzərdən keçirək. Həmin nəticələr kimi müvafiq mənbələrdə bunlar təqdim olunur: "idarəetmədə qərar qəbulunun sistemləşdirilməsi və optimallaşdırılması; sahəyə dövlət investisiyalarının optimallaşdırılması; kiçik və orta biznesin inkişafı üçün platformaların yaradılması; xarici investisiyaların cəlb edilməsi üçün şəraitin yaxşılaşdırılması" [2]. Aqrar-sənaye istehsalının rəqəmsal platforması - istehsal, emal və digər müəssisələrin texnoloji və innovasiyalı biznes-modellərinin qarşılıqlı əlaqələrinin səmərəliliyini yüksəltmək məqsədlərinə xidmət etməlidir. Bu baxımdan Rusiya Federasiyasında "Aqrar-sənaye kompleksində rəqəmsal platfor-

ma konsepsiyası”na həsr olunmuş geniş məqalədə “aqrar-ərzaq bazarlarına uyğun subplatformaların daxil olduğu rəqəmsal platformaların və müxtəlif təcrübi məsələlərin həlli üçün modul-əlavələrin vəzifələri və strukturu müəyyən edilir.

Rəqəmsal kənd təsərrüfatı tarla məhsulu və heyvandarlıq istehsalını izləmək, bununla da məhsul və heyvandarlıq məhsullarının istehsalını və keyfiyyətini yaxşılaşdırmaq, kənd təsərrüfatının sabitliyini və nəzarət qabiliyyətini artırmaq üçün uzaqdan algılama texnologiyası, coğrafi məlumat sistemi, qlobal mövqeləşdirmə sistemi, kompüter texnologiyası və digər informasiya texnologiyalarının istifadəsi məqsədəuyğun hesab edilir. Ekoloji mühitin qorunmasını maksimum dərəcədə təmin edən və kənd təsərrüfatının davamlı inkişafını təmin edən yeni bir kənd təsərrüfatı modeli yaradılmalıdır. Rəqəmsal kənd təsərrüfatı kənd təsərrüfatının modernləşməsinin ümumi tendensiyasını əks etdirir. Bu məqalədə rəqəmsal kənd təsərrüfatının mənası və xüsusiyyətləri, rəqəmsal kənd təsərrüfatının perspektivinə aparan rəqəmsal kənd təsərrüfatının texniki sistemi və inkişaf istiqamətlərindən bəhs olunur.

Rəqəmsal kənd təsərrüfatına həssas əkinçilik və ya məlumat əkinçiliyi də deyilir. Əsas mənası, uzaqdan algılama texnologiyası, coğrafi məlumat sistemi, qlobal mövqeləşdirmə sistemi, kompüter texnologiyası, rabitə və şəbəkə texnologiyası, avtomatlaşdırma texnologiyası və coğrafiya, kənd təsərrüfatı, ekologiya, bitki fiziologiyası və s. kimi yüksək və yeni texnologiyaları birləşdirməkdir. Əkinçilik, istehsal vəziyyəti, xəstəliklər və böcək zərərvericiləri, su və gübrə ilə əlaqədar müntəzəm məlumat əldə etmək üçün kənd təsərrüfatı istehsalı prosesində əkinlərin və torpağın makrodan mikroya real vaxt monitorinqini həyata keçirmək üçün torpaqşünaslıq və torpaqşünaslıq kimi status və müvafiq mühit, dinamik bir məkan məlumat sistemi yaratmaq lazımdır. Kənd təsərrüfatı mənbələrindən səmərəli istifadə, istehsal xərclərinin azaldılması, ekoloji mühitin yaxşılaşdırılması, bitkiçilik məhsullarının məhsuldarlığı və keyfiyyətinin artırılması və kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi məqsədinə çatmaq üçün kənd təsərrüfatı istehsalındakı fenomeni və prosesi simulyasiya etmək məqsədəuyğun hesab edilir.

Rəqəmsal əkinçilik tarla əkinçiliyinə əsaslanır və əkin sahələri, əkin, suvarma, gübrələmə, tarla idarəsi, tarla idarəedilməsi, bitki qorunması, məhsul proqnozlaşdırma məhsuluna qədər məhsul, qorunma və idarəetmə bütün bunlar uzaqdan istifadə edərək rəqəmsallaşdırma, şəbəkə və zəka ilə həyata keçirilir. Algılama və telemetriya, uzaqdan idarəetmə, kompüter və kənd təsərrüfatı istehsalının məlumat mərkəzli, elmi idarəetmə, bilik idarəçiliyi və ağlabatan işini həyata keçirmək üçün digər qabaqcıl texnologiyalardan istifadə edilməlidir. Son illərdə rəqəmsal əkinçilik, meşə təsərrüfatı, heyvandarlıq, əkin, damazlıq, emal, istehsal, tədarük və marketinq kimi kənd təsərrüfatını (əkinçilik əməliyyatları), incə bağçılıq, incə heyvandarlıq, incə emal, incə idarəetmə və idarəetməni əhatə edir. Rəqəmsal kənd təsərrüfatı aşağıdakı xüsusiyyətlərə malikdir:

Birincisi, rəqəmsal əkinçilik bazasında saxlanılan rəqəmlər çoxmənbəli, çoxölçülü, müvəqqəti və kütləvi xüsusiyyətlərə malikdir. Məlumatların çoxmənbəyi uzaqdan zondlama, qrafika, səs, video və mətn məlumatları ola biləcək müxtəlif məlumat mənbələrinə və fərqli məlumat formatlarına aiddir. Məlumatlar beş ölçüyə qədərdir, bunlar arasında üçölçülü və üçölçülü fəza-zamansal məlumatlar qaçılmaz olaraq verilənlər bazasında geniş və kütləvi məlumatlara səbəb olacaqdır.

İkincisi, bu cür çoxölçülü və kütləvi məlumatların təşkili və idarə olunması üçün, xüsusən də müvəqqəti məlumatların təşkili və idarə olunması üçün mövcud ticarət verilənlər bazası idarəetmə proqramı səriştəli deyil və yeni nəsil müvəqqəti verilənlər bazası idarəetmə sisteminin öyrənilməsi lazımdır. Sonra müvəqqəti bir məkan məlumat sistemi qurulur. Bu müvəqqəti və məkan məlumat sistemi yalnız məkan məlumatlarını effektiv şəkildə saxlaya bilməz, eyni zamanda çoxölçülü məlumatların və məkan-müvəqqəti təhlilin nəticələrini əyani şəkildə göstərə bilər.

Üçüncüsü, rəqəmsal kənd təsərrüfatında müəyyən bir təbii fenomen, istehsal və iqtisadi prosesi əkinçilikdə və virtual gerçəklikdə böyük bir zaman və kosmik məlumatlar əsasında simulyasiya etmək lazımdır. Məsələn, torpaqdakı pestisid qalıqlarının simulyasiyası və məhsul artımının virtual gerçəkliyi, kənd təsərrüfatı təbii fəlakətləri və kənd təsərrüfatı məhsulları bazarının dövriyyəsinin virtual reallığını əks etdirir.

Rəqəmsal kənd təsərrüfatına texniki dəstək sistemi rəqəmsal əkinçilik texnologiyasının tədqiqi və inkişafı üçün hərəkətverici qüvvə bütün əkinçilik əkin sahələrində məhsul artım mühitinin və məhsulun düzgün paylanmasında məkan fərqlərinin vaxtında aşkarlanması və bu fərqlərin vaxtında düzəldilməsidir. “3S” texnologiyası, yəni məsafədən müşahidə etmə, RS, coğrafi məlumat sistemi CİS və qlobal yerləşdirmə sistemi, GPS vasitəsilə bu sahələrdəki sahələr və sahələr arasındakı fərqləri vaxtında aşkar etmək və idarə etmək, beləliklə hədəf investisiyaları həyata keçirmək mümkündür. Optimallaşdırılmış iş hədəflərinə əsaslanaraq sahədəki resurs potensialının balanslı istifadəsinə nail olmaqdan ibarətdir.

Beləliklə, rəqəmsal əkinçilik, əsasən ətraf mühit, istehsal şəraiti, kənd təsərrüfatı istehsalının meteoroloji və bioloji fəlakətlərini təsirli şəkildə proqnozlaşdırmaq və insanları müxtəlif dəyişikliklərə əsaslanaraq real vaxtda müvafiq kənd təsərrüfatı əməliyyatlarını aparmağa istiqamətləndirmək əsasən 3S texnologiyasının tam sisteminə əsaslanır.

Kənd təsərrüfatı əməliyyatlarında təcrübə, kənd təsərrüfatının sabitliyini və idarə olunmasını yüksəltmək üçün ağıllı elmi rəhbərliyi həyata keçirməkdən ibarətdir. Sadə dildə desək, rəqəmsal əkinçilik RS-dən makro nəzarət üçün istifadə edir, yerin vəziyyətini dəqiq tapmaq üçün GPS-dən istifadə edir, torpaq məlumatlarını (topoqrafiya, relyef formaları, məhsul növləri və böyüməsi, torpaq toxuması və qida maddələri və su) saxlamaq, işləmək və çıxarmaq üçün GIS istifadə edir (şərtlər və s.). Və sonra ərazidəki elementlərin məkan dəyişkən məlumatlarına görə yer məlumatlarının çevrilməsi, zamanlama nəzarəti yer üzündə naviqasiya və digər sistemlərlə əməkdaşlıq etmək, ən yaxşı əkinçilik, gübrələmə, toxumlama, suvarma, çiləmə və s. Digər əməliyyatlar, ənənəvi geniş əməliyyatı dəyişdirərək gözəl bir istehsalı təşkil edir. Məsələn, pestisidlər çiləyərkən sensorlar çox kiçik bir ərazidə fərqli sahələrdə müxtəlif səviyyələrdə zərərvericilər və xəstəliklər barədə spesifik məlumatlar əldə edə bilər və çiləmə miqdarını yerindəcə "düzgün dərmanı təyin etmək" üçün tənzimləyə bilər. Bunu edərkən yalnız suya, torpağa, toxumlara, böcək dərmanlarına, gübrələrə və s qənaət edə bilməz, həm də kənd təsərrüfatındakı xərcləri təsirli şəkildə azalda bilər, beləliklə hər qarış torpaqdan optimal şəkildə istifadə oluna bilər və hər bir qaynaq öz rolunu oynaya bilər və ən qənaətcil investisiya ilə əldə oluna bilər. Ən yaxşı məhsul ətraf mühitin çirklənməsini təsirli şəkildə azalda bilər və kənd təsərrüfatı ekoloji mühitini qoruya bilər.

Beləliklə, mövcud iqtisadi vəziyyətdə, rəqəmsallaşma yalnız kənd təsərrüfatı istehsalı dövründəki prosesləri deyil, həm də xammal, marketinq, logistika və nəqliyyat əlaqələrini tədarükçüləri ilə əlaqəli olsaydı, ərzaq məhsullarının maya dəyərinin və son qiymətlərin azalmasını təmin edə bilər. Bununla yanaşı, mövcud əlaqəni yenidən qurmaq və hətta istehlakçı yolunda yerləşən əlavə dəyər zəncirinin ara əlaqələrini xaric etmək mümkündür. Sonda avtomatlaşdırma, biznesdəki ən mürəkkəb təşkilati dəyişikliklərə təsir edən rəqəmsal inteqrasiyanın daha yüksək səviyyəsidir, lakin onların həyata keçirilməsi məhsulların və bütövlükdə şirkətin mənfəətinə və rəqabət qabiliyyətinə ciddi təsir göstərə bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. İslam İbrahimov. "Aqrar sahənin iqtisadiyyatı", Bakı ,"2016, 180-185.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. (http://www.e-qanun.az/framework/41320).
3. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri, Bakı, 2012, səh. 274. 4. Alıyev İ. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, 2006, 380 səh.
4. Balayev Ə.R. Aqrar sahədə rəqəmsal mühitin formalaşmasının əsas amilləri və təcrübi aspektləri Rəsul Ənvər oğlu Balayev, i.e.d., professor.
5. Латушко Н.А.Эволюция моделей региональной политики в контексте теорий региональной экономики. Economics: Yesterday, Today and Tomorrow. 2017, Vol. 7, Is. 11A.
6. Гранберг А. Г. Основы региональной экономики: Учебник для вузов. - М.: Изд. дом ГУ ВШЭ, 2004.

Abbasova Tamilla Cəlal qızı,
iqtisad üzrə fəlsəfə doktoru, b/m,
Email: tamilla_abbasova62@mail.ru;
Gözəlova Solmaz Muxtar qızı, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Email: solmaz.gozalova@mail.ru

İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAFI VƏ İKT-dən SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ YOLLARI

Müasir şəraitdə bazar iqtisadiyyatının suverenliyini yenidən bərpa etmiş ölkələrdə milli iqtisadiyyatın formalaşması və daha da inkişaf etməsi prosesində əsas məqsəd kimi qarşıya çıxan problemlərin uğurla həll olunması, əsasən xarici-iqtisadi və elmi əlaqələri genişləndirməklə ölkənin dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasına nail olunması ən vacib məsələ kimi qarşıya qoyulmuşdur. Bu gün yeni texnoloji proseslərin yaradılması, onların tətbiqi və onlardan geniş istifadə - rəqabətqabiliyyətli məhsulların həcminin, investisiyaların, xarici ticarət dövriyyəsinin artırılmasında, material, əmək və maliyyə resurslarından qənaətlə istifadə olunmasında, is-

tehsalın inkişafının təkmilləşdirilməsində, onun səmərəliliyinin yüksəldilməsində həlledici amilə çevrilmişdir. Ölkəmizin gələcək inkişaf strategiyasının əsas istiqamətləri qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma və tərəqqiyə nail olunması və iqtisadiyyatın şaxələndirilməsi ən ümdə məsələlərdən biridir. Ölkədə rəqabətədavamlı və yüksək ixrac potensiallı, innovativ İnformasiya Kommunikasiya Texnologiya (İKT) sənayesinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya texnologiyalarının inkişafı Dövlət Fondu və yüksək Texnologiyalar Parkı yaradılmışdır. Bu yeni qurumlar Azərbaycan Respublikası iqtisadiyyatının güclənməsinə, yeni yaranan şirkətlərin fəaliyyətinin təşkilinə və innovativ təşəbbüslərə maliyyə dəstəyini və təşkilati dəstəyini təmin edəcəkdir. Cəmiyyətdə İKT-nin inkişafından bəhrələnmə imkanının genişləndirilməsi üçün ilk növbədə əhalinin İKT üzrə biliklərinin artırılması, görülən işlər və mövcud imkanlar barədə vətəndaşların məlumatlandırılması, həmçinin informasiyanın əlçatanlığına şərait yaradan ictimai mərkəzlərin fəaliyyəti və güzəştli şərtlərlə kompüterlərin əldə edilməsi imkanı yaradılmışdır. Ölkəmizdə informasiyanın bütün sahələrini sürətləndirməklə İKT sektorunun inkişafına nail olmaqla mövcud vəziyyətin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- ölkənin davamlı inkişafının təmin edilməsi üçün İKT-nin prioritet sahə kimi inkişafı;
- İKT sahəsində rəqabətqabiliyyətli, ixracyönümlü və innovativ iqtisadi potensialın gücləndirilməsi;
- informasiya təhlükəsizliyi üzrə ümummilli hazırlığın və maariflənmənin səviyyəsinin artırılması;
- dövlət idarəçiliyinin bütün səviyyələrində və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin genişləndirilməsi;
- "elektron hökumət"in müasir dairəsi genişləndirilməli, göstərilən elektron xidmətlərin keyfiyyəti, əhatə dairəsi artırılmalı və onların tam avtomatlaşdırılmış interaktiv xidmətlər şəklində həyata keçirilməsinin təmin edilməsi;
- cəmiyyətin İKT-nin məhsul və xidmətlərinə artan tələbatının təmin olunması;
- iqtisadiyyatın real sektorlarında və bütövlükdə cəmiyyətdə İKT-dən istifadənin genişləndirilməsi;
- əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri, iqtisadiyyatın müxtəlif sahələri arasında İKT-dən istifadə və mövcud fərqliliyin aradan qaldırılması:

Qeyd etmək lazımdır ki, gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti əsasən müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlam həyat tərzidir. Nəzərə alaq ki, bu prioritetlərin uğurla həyata keçməsi bir çox amillərlə şərtlənir:

- yaradıcı və innovativ cəmiyyətin qurulması;
- vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi;
- innovasiyaların son dövr texnoloji, iqtisadi, ekoloji, idarəetmə, hərbi, siyasi, mədəni-sosial, hüquqi və s. növlərindən geniş istifadə etmək üçün təkliflərin hazırlanması;
- elmin informasiya təminatının gücləndirilməsi;
- XXI əsrin tələblərinə uyğun təhsil;

- elmi potensialı davamlı iqtisadi inkişafın əsas resursuna çevirmək;
- Azərbaycanın qabaqcıl texnologiyalarının dünya bazarında rəqabət davamlılığını təmin etmək;
- beynəlxalq elmi əlaqələri genişləndirmək;
- dərc olunmuş elmi işləri, elmi və texnoloji işləmələri, təşkil olunmuş beynəlxalq və milli tədbirləri, elm və innovasiya sahəsində qanunverici və başqa normativ aktları, proqramları, layihələri, ekspertiza qərarlarını əks etdirən, innovasiya sahəsində fəaliyyətin nəticələri haqqında məlumatlar hazırlamaq;
- təhsilin bütün pillələri üçün nəşr olunmuş dərs vəsaitlərini, digər təşkilatlarla birgə həyata keçirilən proqram və layihələri, elm və innovasiya sahəsində birgə yaradılmış qurumların bir-birilə əlaqələrini əks etdirən ölkədaxili təşkilatlarla əməkdaşlıq haqqında məlumat mübadiləsi aparmaq;
- elmi tədqiqatların maliyyələşdirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirmək və beynəlxalq təşkilatların qrant müsabiqələrində fəal iştirakı təmin etmək;
- texnoloji innovasiya əsasında iqtisadiyyatın müasirləşdirilməsini təmin etmək;
- milli innovasiya sisteminin formalaşması haqqında konsepsiya və inkişaf proqramının layihəsinin həyata keçirilməsi üzrə təkliflərin hazırlanması.

Dünyada artan rəqabətə davam gətirmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı, müasir və güclü təhsil, insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı, regionların paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olması, regionların milli gəlirdə payının artırılması, ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi, bütün əhali qrupları üçün səmərəli məşğulluğa nail olunması, ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən, infrastruktur sahələrinə strateji investorların cəlb olunması, xarici investorlara rəqabət mühitinin yaradılması ilə milli maraqların qorunması və həmçinin milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr"in tapılması vacibdir. Ölkəmizdə informasiya cəmiyyəti quruculuğu prosesində, texnoloji, iqtisadi, siyasi, hüquqi və digər problemlərin həll olunmasında kadrların yeni biliklərə yiyələnməsi prioritet məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Prezident İlham Əliyev məhz bu faktoru əsas götürərək "Azərbaycan gənclərinin xaricdə təhsil alması haqqında" Dövlət Proqramını qəbul etmiş və respublikada informasiya cəmiyyətinin kadrlarla təmin olunmasına şərait yaratmışdır. Müvafiq dövlət proqramına uyğun olaraq azərbaycanlı gənclər dünyanın qabaqcıl ali təhsil ocaqlarında müasir İKT sahəsi üzrə yüksək ixtisaslara yiyələnərək yaxın gələcəkdə ölkəmizdəki informasiya cəmiyyəti quruculuğu prosesində fəal iştirak etmək imkanı qazanacaqlar. Hazırda Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində həyata keçirilən dövlət proqramları artıq öz müsbət nəticəsini verməkdədir. Bu tədbirlərin hamısı ölkəmizdə perspektivli İKT kadrlarının hazırlanmasının əsasını təşkil edir. Müvafiq kadrlar yaxın gələcəkdə ölkəmizin sosial-iqtisadi inkişafında, informasiya cəmiyyəti quruculuğunda mühüm rol oynayacaqlar.

Bu gün milli prioritetlərin ən mühüm istiqamətlərindən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi və bu qayıdışa uyğun proqramların hazırlanması və onun icrasıdır. Bu hədəf üzrə tamamilə yeni reallıqlar əsasında Azərbaycanın inkişafında yeni bir mərhələnin başlanması deməkdir. Qarabağ bölgəsi zəngin iqtisadi sərvətlərə, istehsal, ixrac üzrə rəqabətqabiliyyətli istehsal drayverlərinə,

eyni zamanda geoiqtisadi və strateji logistika, nəqliyyat imkanlarına malik bölgədir. İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa ediləcək, bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevriləcək. Ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olacaqdır. Həmçinin bu bölgələrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən cəmiyyətin qurulması da vacib bir məsələ kimi qarşıya qoyulmuşdur. Regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün bu gün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməlidir. Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır. Perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan kapitalı bu gün cəmiyyəti maraqlandıran ən vacib məsələdir. Belə ki, gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. 2 aprel 2014.
3. Müstəqillik illərində Azərbaycanda innovasiyanın inkişafı. Bakı 2011.
4. Qasımov Q.H., Nəcəfov Z.M., Hüseynova A.D. Azərbaycan Milli Elmlər Akademiyası Elmi İnnovasiyalar Mərkəzinin 2010-cu ildəki fəaliyyəti, "Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı" Beynəlxalq elmi-praktiki konfransın materialları. 31 mart 2011. Bakı, Elm, 2011 .

Korinnyi Serhii Oleksandrovych,
Ph.D., Associate Professor,
Email: s.korinnyi@gmail.com;
Kushnir Vadym Valeriyovych, MA student,
Zaporizhzhia National University,
Zaporizhzhia, Ukraine
Email: vadimzack777@gmail.com

ANALYSIS OF THE IMPLEMENTATION OF THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT IN THE AUTOMOTIVE INDUSTRY IN USA, EUROPE AND ASIA

Ever-growing concerns about irreversible environmental changes and harsh natural resources exhaustion, makes sustainable management really essential for car associations. Governments, as well as clients, investors and backers are now pushing car associations to "green" their way of work, culture and products. This will have serious implications for business, which, while making significant progress, must in fact be guided by the concept of sustainable development.

Automotive business is being under the great pressure from the side of

governments and society in order to find optimal development model. Thus, the whole situation reflects the enormous impact on climate.

1. Transport emanates nearly a quarter of global CO_2 emissions in 2016, with 18% by street transport alone [1].

2. Destruction of normal biological systems. E.g., China mines most of the world's graphite used in electric vehicles. Expanding demand, along with a lack of strict environmental principles, has led to crop failures, soil contamination, water pollution, and large-scale environmental degradation [2].

3. Non-biodegradable end-of-life and industrial waste has caused an impressive amount of landfilling, land poisoning, and water pollution. In January and June 2017 alone, the U.S., Europe, and Japan sold 3.1 million tons of plastic waste to non-industrial countries, mostly in Asia [3]. Significant portion of this consists of end-of-life vehicles [4].

4. Automobile manufacturing requires a significant consumption of energy, water, and assets that increase carbon pollution. The automotive industry uses 5.2 billion liters of water and produces 1 million tons of CO2 from vehicle and segment assembly alone in the UK [5].

Naturally, companies are working on fixing many of these problems. For example, somewhere between 2000 and 2015, EU automotive organizations surpassed carbon emission standards, reaching emission levels of CO_2 emissions nearly 120 g/km, compared with a target of 130 g/km [6].

The growing attention to the topic of sustainable development from the political elite, business community and consumers, respectively, presents the automotive industry with new challenges, at least the following three.

Firstly, the regulatory pressure on the auto industry from the authorities around the world is increasing and, above all, in terms of regulatory requirements for the level of emissions of harmful substances from vehicles. If at the beginning of the new millennium in the EU countries there were emission standards corresponding to the Euro-3 environmental standard, then over the past 15 years the requirements have become so stricter that automobile concerns are already prohibited from producing vehicles with emissions below Euro-6. Many megacities (London, Paris, Madrid, Stockholm, Oslo, Copenhagen, Rome, Athens, Seoul, Mexico City, Stuttgart etc.) are taking the path of toughening environmental legislation and undertake obligations to close the entry of cars with internal combustion engines or low environmental classes into central parts of the city, and even completely prohibit the use of such vehicles on their territory. Therefore, many manufacturers of passenger cars and commercial vehicles are actively developing engines that run on alternative fuels. For example, Scania already offers in its product line trucks with engines powered by ethanol, vegetable oil, biodiesel, biogas, natural gas, hybrid cycle. Moreover, other manufacturers (Volvo Trucks, Daimler, DAF, Iveco) develop solutions for hydrogen fuel and electric traction. Thousands of trucks running on alternative fuels are already operating around the world, making a significant contribution to reducing emissions of

carbon dioxide, nitrogen oxide and other harmful substances into the environment, but also improving mobility in mega policies and providing additional profitability to concerns. In addition, in 2019 Scania sold 6631 units of trucks and buses on unconventional fuels, which accounted for 6.6% of the total volume of vehicles sold [7]. Corporations understand that without meeting strict environmental requirements, the opportunities for business their further development is impossible.

Secondly, the investment attractiveness of a multinational corporation is increasingly dependent on the impact of its production facilities and capacities on the environment. From year to year, the demands of local communities for the decarbonization of the production activities of enterprises are increasing, as well as the demands to be responsible for the conservation of biodiversity, both in water and on land, and to use resources sparingly. At the moment, the most optimal solution is to meet the energy needs of production facilities using renewable energy sources (RES), which bring companies closer to carbon neutrality. The automotive industry prefers the use of solar and wind energy, and the corresponding equipment is installed directly at the enterprise itself, without being connected to central grids, which guarantees energy autonomy. Vast majority of automotive concerns have already planned to introduce renewable energy resources in production. Thus, Scania equipped the roofs of its plant in Zwolle (Netherlands) with solar panels with a total capacity of 6 MW and placed two wind turbines with a total capacity of 5 MW in the adjacent area, thereby covering the plant's electricity needs in full [8]. Some automakers, such as Volkswagen and Toyota, have created energy subsidiaries Elli Group GmbH and Toyota Green Energy, which generate green energy for their own industrial facilities and build clean charging stations to power vehicles.

Thirdly, an increasing number of companies from various industries and spheres of activity, being involved in the achievement of the SDGs, purposefully refuse to work with suppliers who are associated with significant environmental pollution. Many brands are committed to minimizing their carbon footprint and achieving zero CO_2 emissions from their operations. Such corporations as Siemens, Unilever or L'Oréal plan to achieve 100% hydrocarbon neutrality by 2030, which poses new challenges for logistics and transport companies that provide them services using vehicles with gasoline or diesel engines. If these companies are unable to expand their fleet of vehicles with zero emissions of harmful substances, then, obviously, they will lose their key, prestigious and most paying customers.

Automotive companies face similar challenges down the chain, which are already forced to invest billions of dollars in the development of efficient and sustainable vehicles to maintain their customer base in the long term. Automotive MNCs themselves are tightening the requirements for their suppliers in a similar way. There are already known practices when corporations, when purchasing goods and services for their own needs, establish requirements for suppliers in terms of compliance of their business with the principles of sustainable development, and also develop various questionnaires and tests that determine the degree of their commitment to the relevant

sustainable development goals. Scania, for example, when purchasing snow removal services from its truck and bus service stations, selects only those suppliers who can guarantee the disposal of the removed snow at snow-melting points so this snow does not end up in forest areas and does not pollute the water environment [8]. Likewise, car manufacturers refuse to work with suppliers of automotive components, assemblies and assemblies if child labor is involved in their production or labor safety and health standards are not properly followed. Such practices have a positive effect on brands' business reputation and increase the degree of loyalty from business partners and customers.

In the context of a steady increase in global turbulence and a permanent expansion of the composition of crisis phenomena of different genesis, there is an increase in the social responsibility of large business and its activation in solving the most acute and pressing problems of mankind, including within the framework of the implementation of the SDGs. The "locomotive" of this process, to a certain extent, is the world's largest automakers. The experience of the overwhelming number of companies in the industry proves that the bet on integrating the principles of sustainable development into the corporate culture and doing business based on these principles is not only not burdensome, but can also provide corporations with additional economic benefits and sustainable commercial success.

Moreover, in the current and difficult circumstances of the development of the international community, public support for the SDGs is becoming both an obligatory part of the company's business reputation and image, and an important factor in the sustainability of its operating activities, and the level of competitiveness in the industry market as a whole.

References:

1. International Energy Agency, CO2 Emissions Statistics: CO2 emissions from fuel combustion 2018 overview, 2018.

2. Washington Post, "in your phone, in their air", October 2016

3. Nikkei, "Waste plastic exports squeezed by Chinese ban", March 2019. 4. European commission, "Annual report the End-of-Life Vehicle sector observatory – 2017 data," February 2019.

4. The society of motor manufacturers and traders, "2019 UK Automotive Sustainability Report," June 2019.

5. International Council on Clean Transport, European Vehicle Market Statistics – 2019/2020 edition, December 2018.

6. Partsvaniya V.R., Sluka N.A. Biznes v kontekste ustojchivogo razvitija: novacii i podhody koncerna Scania [Business in the Context of Sustainable Development: Novation and Approaches of Scania]. Logistika, 2018, No 8, pp. 12-17.

7. Scania Annual and Sustainability Report 2019. Available at: URL: https://www.scania.com/content/dam/group/investor-relations/financial-reports/annual-reports/Scania_AnnualReport_2019-English.pdf (accessed 04.07.2020).

Nəcəfova Vəfa,
iqtisad üzrə fəlsəfə doktoru,
Milli Aviasiya Akademiyasının
"İqtisadiyyat" kafedrası
Email: necefli75@mail.ru

İŞĞALDAN AZAD OLMUŞ ƏRAZİLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏMİNATINDA İNVESTİSİYANIN MAHİYYƏTİ

Hər bir ölkənin iqtisadi inkişafının artırılması üçün ən vacib faktorlardan biri investisiya kapitalının cəlb edilməsidir. Azərbaycan kimi inkişaf etmək yoluna qədəm qoymuş ölkələr investisiya cəlbediciliyini artırmağa daha çox can atırlar. Çünki bildiyimiz kimi, investisiyasız iqtisadi inkişaf mümkün deyil. Azərbaycanın mövcud inkişaf səviyyəsinə gəlib çıxmağına səbəb məhz xarici investisiyalar olub. 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı, yəni neft-qaz sektorunun xarici investisiya axını üçün müvafiq mühit yaradılaraq qapılar açılmasaydı, Azərbaycanın inkişaf səviyyəsi indiki vəziyyətindən ən azı 10-15 il geridə qalmış olacaqdı. Bu gün bizim strateji valyuta ehtiyatlarımızın xarici dövlət borcumuzdan dəfələrlə yüksək olmasının, 2015-ci ilə qədər manatın məzənnəsinin dollardan yüksək mövqedə dayanmasının, hazırda da 1,7 səviyyəsində dayanıqlı vəziyyətdə qalmasının, Azərbaycanın özünün artıq investor ölkəyə çevrilərək Gürcüstana, Türkiyəyə, Rusiyaya və digər ölkələrə sərmayə yatırmasının səbəbi neft-qaz sektorunda investorlar üçün əlverişli şərait yaradılması olub. Son zamanlar qarşımızda duran əsas vəzifələrdən biri odur ki, qeyri-neft sektoruna da xarici investisiyaların cəlb olunmasına şərait yaradaq. Amma burda əsas vacib bir məqam var. Xarici investor bir ölkəyə vəsait yatıranda onu maraqlandıran əsas məsələ daha tez gəlir götürmək olur. Ona görə də xarici investorlar ən çox xammal əldə olunan sahələrə maraq göstərirlər ki, maliyyə vəsaiti yatıraraq xammal əldə etsinlər və onun dərhal satışını həyata keçirsinlər. Onlar hansısa müəssisə yaratmağa, emal sahəsində infrastruktur qurmağa, birgə müəssisələr təşkil etməyə və məhsul istehsal edib yerli ölkənin adı ilə daxili və ya xarici bazarda satmağa bir o qədər maraq göstərmirlər

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2020-ci ilin ilk rübündə ölkəyə 3 mlrd. 77 mln. AZN investisiya yatırılıb. Bu investisiyanın 69%-i, yəni hər 3 manatdan 2-si Bakı və Abşeron yarımadasına yönlənib. Göründüyü kimi, sərmayələrin bölgüsündə regionların payı olduqca aşağıdır. Odur ki, regionlara investisiya qoyuluşunun artırılması ilk növbədə qeyri-neft sektorunun inkişafına təkan verir.

Ölkəmizdə 2020-ci ilin sentyabrın 27 də başlanan və 44 gün davam edən Vətən müharibəsinin nəticəsi olaraq işğal altında olan ərazilərimiz azad olundu.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə Azərbaycanın müzəffər ordusunun qısa zaman ərzində işğal altında olan tarixi torpaqlarımızın düşmən əsarətindən geri qaytarılması bu ərazilərdə post-konflikt bərpa prosesinin başlanmasına şərait yaratdı. Əzəli torpaqlarımızda tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq və bərpa etmək üçün bu ərazilərə mərhələli şəkildə, sektorlar üzrə investisiya qoyuluşlarına və digər sərmayələrin cəlb edilməsi üçün mexanizmlər hazırlanacaq.

Post-konflikt dövrdə münaqişədən yeni çıxan ərazilərə investisiya cəlb etmək kifayət qədər çətin bir prosesdir. İnvestisiya qoyuluşlarında məlumat mövcudluğu dərəcəsi yatırılan investisiya ilə düz mütənasibdir. Bu, o deməkdir ki, ərazi ilə bağlı nə qədər çox məlumat olarsa, investorların marağını bir o qədər çox cəlb edə bilər.

Münaqişə zamanı dəyən zərərin post-konflikt bərpa məsələsi bir çox sahələrin vacibliyini tələb edir. Bu sahələrin münaqişədən sonra müəyyənləşdirilib bərpasına başlanılması prosesi kompleks mexanizmlər tələb edir. Beləliklə, beynəlxalq təcrübə onu göstərir ki, ilkin olaraq dəymiş zərəri müəyyənləşdirdikdən sonra minimum yaşayış səviyyəsinin təminatı vacibdir. Minimum yaşayış səviyyəsinin təminatını nəzərdə tutan əsas amillər aşağıdakılardır:

- işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi;
- elektrik enerjisinin təminatı;
- kritik yol xətlərinin bərpası;
- içməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası;
- ev-mənzil yaşayış sahələrinin bərpası və təminatı.

İlkin mərhələdə bu sahələrə yönələn sərmayə sonrakı dövrdə sosial və iqtisadi canlanmaya dəstək olacaq. Ərazilərin minalardan təmizlənməsi sözü gedən ərazilərə köçürüləcək əhalinin təhlükəsizliyi üçün ən vacib amildir. Bu prosesdən sonra, kritik yol xətlərinin bərpası yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq.

Post-konflikt dövründə sərmayə qoyuluşları üçün sahələr detallı araşdırılmalı və mərhələli olaraq müəyyənləşdirilməlidir. Vətəndaşların ilkin yaşayış səviyyəsini təmin etdikdən sonra onların köçürülməsinə yönələn prosesdə ilkin olaraq sosial və iqtisadi inkişafa dayanan sahələrə əsasən fikir verilməlidir. Əlavə olaraq, uzun müddətdə dayanıqlı iqtisadi inkişaf modeli yaradılmalı və sərmayə qoyuluşlarında davamlı gəlirlər əldə etmək üçün strateji sahələr müəyyənləşməlidir. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, bilavasitə ev təsərrüfatlarının inkişafına təkan verəcək təşəbbüslərin artırılması məqsədəuyğun olacaqdır. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank sektoruna da xüsusi diqqət göstərilməlidir.

İşğaldan azad edilmiş ərazilərimizdə bir çox iqtisadi fəaliyyət sahələrinin inkişaf potensialı vardır. Kənd təsərrüfatı sahələrindən arıçılıq və maldarlıq potensialı Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər və Füzuli rayonlarımızda vardır. Cəbrayıl və Kəlbəcər ərazisində balıqçılıq sahəsini inkişaf etdirmək mümkündür.

İpəkçilik üzrə Cəbrayıl rayonu və Şuşa şəhəri, taxılçılıq üzrə Kəlbəcər, Cəbrayıl, Tərtər, Qubadlı, Füzuli və Xocavənd rayonları böyük potensiala sahibdirlər. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində ət-süd məhsulları emalı üzrə Kəlbəcər, Tərtər və Füzuli, gön-dəri emalı üzrə Ağdam, Cəbrayıl, Laçın və Füzuli rayonlarımız geniş potensiala sahibdirlər.

Dağ-mədən sənayesi üzrə Kəlbəcər və Zəngilan rayonlarımızda qızıl, mis, gümüş, civə və xromit ehtiyatları, Cəbrayıl rayonunda yerləşən "Yəşəm" və "Xalsedon" yataqları zərgərlik sahəsini inkişaf etdirməyə imkan verir.

Onu da qeyd etmək gərəkdir ki, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonasının enerji potensialı çox yüksəkdir. Hidroenerji potensialı baxımından "Xuda-

fərin", "Qız Qalası" su elektrik stansiyaları və "Tərtər" SES-i nümunə göstərmək olar. Həmçinin, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında günəş enerji potensialı, Qarabağın dağlıq hissələri, əsas da Kəlbəcər və Laçın rayonlarında külək enerji potensialı, geotermal enerji resurslarımız isə Kəlbəcər və Şuşada geniş yayılıb.

Bütün bu enerji ehtiyatlarının və digər sənaye sahələrinin inkişaf etdirilməsi üçün bir çox sahələr investisiya qoyuluşları cəlb etmək mümkündür. Beynəlxalq təcrübədə göstərilir ki, risklərin hesablanması sənaye və enerji sahəsində qoyulan birbaşa xarici investisiyalarda öhdəsindən gəlinən məsələ kimi nəzərə alınır. Bu səbəbdən bir çox beynəlxalq şirkətlər post-konflikt dövründə sənaye və enerji sahəsinə investisiya yatırımlarına müsbət baxırlar.

Münaqişədən sonrakı dövrdə ərazilərdə texnologiya sahəsinə cəlb edilməsi düşünülən sərmayələri vençur kapital yolu ilə artırmaq olar. İlkin səviyyədə böyük həcmdə sərmayə qoyuluşu çətin olduğundan, kiçik və orta biznes səviyyəsində sərmayələrin cəlb edilməsi sonrakı dövrdə böyük investisiya qoyuluşlarına dəstək olacaq.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin investisiya imkanları xarici investorlara təqdim olunmalıdır.

İşğaldan azad olunan ərazilərdə əsas diqqət turizm və kənd təsərrüfatının inkişafı məsələlərinə yönəldilməlidir: Bu iqtisadi zonada ən böyük inkişaf potensialı məhz turizm və kənd təsərrüfatındadır. Turizm sahəsinin inkişafına imkan verəcək gözəl guşələrimizdən olan Şuşa, Laçın, Kəlbəcər ərazilərimizdə dağ turizmi, ekoturizm, müalicəvi turizm və mədəni turizm üçün yararlı sayılan digər rayon və şəhərlərimizin potensialından istifadə edərək Qarabağın iqtisadi dirçəlməsinə şərait yarada bilərik.

Turizm sahəsində biz qardaş Türkiyənin, kənd təsərrüfatı sahəsində isə İsrailin təcrübəsini əsasən tətbiq edə bilərik. Bu bölgədə kənd təsərrüfatının inkişafı Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatında mühüm rol oynaya bilər - həm heyvandarlığın, həm də bitkiçiliyin, kənd təsərrüfatı emalının inkişaf potensialı çox yüksəkdir. Buna görə də biz diqqəti qeyd etdiyim iki sahəyə yönəltməliyik. Məsələyə kompleks və konseptual yanaşmamız olmalıdır - heyvandarlığı inkişaf etdirərkən ət, süd məhsulları ilə yanaşı xalça, kilim istehsalını da nəzərə almalıyıq. Bitkiçiliyi inkişaf etdirərkən buğda, pambıqla yanaşı, şərab, şəkər istehsalına şərait yaratmalıyıq. Yəni həyata keçirilən bütün layihələr bir-birinə bağlı, bir-birini tamamlayan olmalıdır. Bu halda bölgəyə xarici investisiyaların cəlbi və sürətli iqtisadi inkişafı təmin etmək çətin olmayacaq.

Azad edilən rayonlar işğaldan əvvəl üzümçülük, pambıqçılıq, taxılçılıq, heyvandarlıq sahəsində xüsusi paya malik idi. Bu ərazilərin aqrar istehsal və ixrac potensialı kifayət qədər böyükdür. Xüsusilə Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan ərazilər böyük turizm potensialına malikdir. Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Füzuli rayonu ərazisində yerləşir. Bu rayonlarda daxili və gəlmə turizm imkanları kifayət qədər böyükdür. İsti su mənbələri ilə zəngin Kəlbəcərdə sağlamlıq turizmi inkişaf etdirilməli, mədəniyyət turizm marşrutları bərpa olunmalıdır. Erməni vandalizminə məruz qalan ərazilərin əvvəlki vəziyyətinə qaytarılması müəyyən müddət və vəsait tələb etsə də, orada əhatəli layihələr reallaşadırması həyata keçirilsə işin öhdəsindən qısa zamanda gəlinəcək.

Bildiyimiz kimi, yaxın vaxtlarda Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" adlı iki su elektrik stansiyasının inşa edilməsi planlaşdırılıb və bununla işğaldan azad

edilən ərazilərin elektrik enerjisi ilə fasiləsiz təminatına imkan yaranacaq. Yerli enerji tələbatının ödənilməsi və ölkənin enerji ixrac potensialının artması baxımından hər iki stansiyanın əhəmiyyətli yeri olacaq.

Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi investisiyaların qoyuluşu baxımından böyük perspektiv vəd edir. Son illərdə Azərbaycanın qeyri- neft ixracında qızıl mühüm yer tutur. Həm dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması onu deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərdə qızıl yataqlarının istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək.

Azərbaycanın ümumi daxili məhsulunda aqrar və turizm sektorunun payı çox olmasa da, bu iki sahə məşğulluğa kifayət qədər təsir göstərən sahələrdir. Bu səbəbdən, əməkqabiliyyətli əhalinin məşğulluğu üçün böyük perspektiv yaranır. Bərpa prosesində innovativ texnologiyaların tətbiqi diqqət mərkəzində olacaq. İşğaldan azad edilən ərazilərimizdə qabaqcıl ölkələrin təcrübəsindən istifadə edilərək iqtisadiyyatımızın yeni başlanğıcı olacaq və əsas prioritet vəzifə kimi qarşıya qoyulmalıdır.

Vəliyev Vəli İsa oğlu,
iqtisad elmləri namizədi, dosent
Milli Aviasiya Akademiyası
Email: v_veliyev58@mail.ru

REGİONLARIN VƏ ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ AZAD İQTİSADİ ZONALARIN ROLU

Azərbaycanda qeyri - neft sektorunun inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının ixracyönümlü inkişafının təmin edilməsi və bununla əlaqədar iqtisadiyyatda struktur dəyişikliklərinin aparılması ölkə rəhbərliyi tərəfindən müəyyən edilmiş prioritet məsələlərdir. Bu məsələlərin tez həll edilməsi ölkənin ayrı – ayrı regionlarının inkişaf dinamikasından və onlar arasında əlaqənin xarakterindən asılıdır. Bu məsələlərin həllində istifadə oluna bilən və iqtisadi aktivliyi stimullaşdıran mühüm mənbələrdən biri kimi azad iqtisadi zonalar çıxış edirlər.

Təsadüfi deyildir ki, son dövrlərdə Azərbaycanda azad iqtisadi zonanın yaradılması və onun normal fəaliyyətinin təmin olunması ilə əlaqədar işlər görülməyə başlamışdır. Belə ki, Ələt qəsəbəsində azad iqtisadi zonanın yaradılması ilə əlaqədar normativ – hüquqi baza yaradılmağa başlamışdır. Ölkə Prezidenti İlham Əliyev 18 may 2018–ci il tarixində Ələt azad iqtisadi zonası haqqında Azərbaycan Respublikasının Qanunu imzalamışdır və qanun qüvvəyə minmişdir. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Ələt azad iqtisadi zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edir. Qeyd olunan qanun azad zonanın idarə edilməsi və inkişafi, azad zona hüquqi şəxslərinin fəaliyyəti və

mübahisələrin həlli kimi mühüm məsələləri tənzimləyir. 30 sentyabr 2019-cu il tarixində qəbul edilmiş Qanunda dəyişiklik edilmişdir və ona əsasən Azad Zona səlahiyyətli qurumu və onun İdarə Heyəti formalaşana qədər Azad Zona səlahiyyətli qurumunun və İdarə Heyətinin hüquqlarını və vəzifələrini müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan müvəqqəti idarəetmə qurumu həyata keçirir. Bu qurum infrastrukturun yaradılması, kadrların hazırlanması, layihələrin həyata keçirilməsi, ətraf mühit problemlərinin həlli və digər zəruri işlərin yerinə yetirilməsində səlahiyyətli olacaqdır. Dəyişiklik Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin daha səmərəli olmasına və daha da sürətləndirilməsinə şərait yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 may 2020–ci il tarixində "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərman imzalamışdır. Fərmana əsasən Ələt azad iqtisadi zonası (Azad Zona) və Azad Zonanın səlahiyyətli qurumu yaradılmışdır. Qaradağ rayonunun inzibati ərazisində yerləşən torpaqlar Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş və Ələt azad iqtisadi zonasının müvəqqəti idarəetmə qurumu ləğv olunmuşdur.

Azad iqtisadi zonaları dövlətin iqtisadi proseslərə müdaxiləsi miqyasının azaldılmasının müəyyənləşdirilmiş istiqaməti kimi təfsir etmək olar. Zonaların ərazisində institusional dəyişikliklərin geniş spektri yer alır. Bu dəyişikliklər təsərrüfatçılığın imtiyazlı rejiminin təsiri ilə əlaqədardır ki, müəyyən milli məkanda mövcud olmayan inkişaf amillərinin kompensasiya mexanizmi kimi deyil, həmin məkanda nisbi üstünlüklərin həyata keçirilməsi vasitəsi kimi çıxış etməlidir.

Azad iqtisadi zonaların yaradılmasının məqsədləri həmin zonaları yaratmaq istəyən ölkələrin iqtisadi inkişaf səviyyəsindən və iqtisadiyyatın inkişafının strateji planından asılıdır. Belə ki, ABŞ, Böyük Britaniya, Fransa kimi sənaye baxımından inkişaf etmiş ölkələrdə azad iqtisadi zonalar daha çox xarici iqtisadi əlaqələrin aktivləşdirilməsi, ölkənin zəif inkişaf etmiş regionlarında kiçik və orta biznesin canlanmasına yönəlmiş regional siyasətin həyata keçirilməsi ilə əlaqədar səbəblərdən yaradılırdı. Bu məqsədlər üçün sahibkarların yuxarıda qeyd olunmuş kateqoriyası üçün digər regionlardan fərqli olaraq daha çox fəaliyyətlə bağlı azadlıq və əhəmiyyətli dərəcədə maliyyə imtiyazları verilirdi. Bu məqsədlər, xüsusi olaraq xarici kapitalın cəlb olunmasına yönəlməmişdi.

Oxşar məqsədlərlə azad iqtisadi zonalar bir sıra inkişaf etməkdə olan ölkələrdə də yaradılırdı. Lakin, sənaye baxımdan inkişaf etmiş ölkələrdən fərqli olaraq bu ölkələrdə azad iqtisadi zonaların yaradılmasında diqqət əsasən xarici kapitalın, yeni texnologiyaların cəlb edilməsinə, sənayenin modernləşdirilməsinə, işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə verilir. Qlobal məsələlərdən başqa konkret məsələlər də müəyyənləşdirilir. Bu məsələləri üç iri hissəyə bölmək olar:

1. İqtisadi;
2. Sosial;
3. Elmi – texniki.

İqtisadi məqsədlər kimi aşağıdakıları göstərmək olar:

- xüsusi imtiyazlı mexanizmlər, sabit qanunvericilik bazası və müxtəlif təşkilati

prosedurların sadələşdirilməsi sayəsində xarici və daxili kapitalın cəlb olunması;

- əməyin beynəlxalq coğrafi bölünməsinin və hazır məhsulun ixracının genişləndirilməsi üçün kapitalın beynəlxalq dövriyyəsinin, əlverişli idxalın və idxal əvəzedici istehsal mexanizminin yaradılmasının üstünlüklərinin istifadəsi;

- azad iqtisadi zonanın bütün müəssisə və təşkilatları üçün xarici iqtisadi fəaliyyətin müxtəlif formalarına girişin təmin olunması yolu ilə Azərbaycan üçün aktual olan xarici ticarət fəaliyyəti sahəsində inhisarçılığın aradan qaldırılması;

- ölkə büdcəsinə valyuta daxilolmalarının artması.

Sosial məqsədlər aşağıdakılardır:

- regionların inkişafının sürətləndirilməsi;

- əhalinin məşğulluğunun yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və işsizliklə mübarizə;

- yüksək ixtisaslı işçi qüvvəsi təbəqəsinin təşkiletmə, idarəetmə, maliyyə sahəsində dünya təcrübəsinin öyrənilməsi və həyata keçirilməsi hesabına yaradılması, dünya tələblərinə və idarəetmə texnologiyalarına yönəlmiş menecment mədəniyyətinin inkişaf etdirilməsi;

- əhalinin yüksək keyfiyyətli istehlak mallarına tələbatının ödənilməsi, daxili bazarın əmtəə və xidmətlərlə tam təmin olunması.

Elmi – texniki məqsədlər aşağıdakılardır:

- elm tutumlu istehsalın və yüksək texnologiyalar sahəsində xidmətlərin inkişaf etdirilməsi, həmçinin elmi – texniki işləmələrin komersiyalaşdırılması;

- yeni xarici və daxili texnologiyaların mənimsənilməsi və istifadəsi;

- istehsalın və idarəetmənin təşkilinin yeni formalarına keçilməsi;

- milli iqtisadiyyatın intellekt və elmtutumluğunun artırılması;

- xarici alimlərin və mütəxəssislərin cəlb olunması;

- istifadədə olan istehsal güclərinin, infrastrukturun məhsuldarlığının və səmərəliliyinin yüksəldilməsi.

Azad iqtisadi zonaların yaradılması prosesindən öncə onların dərin texniki – iqtisadi əsaslandırılması işlənməlidir. Azad iqtisadi zonanın yaradılması zərurəti onun fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi əsasında müəyyən olunmalıdır. AİZ–lərin yaradılması təcrübəsinin və müvafiq sənədlərin qəbul edilməsinin təhlili göstərir ki, davamlı fəaliyyət göstərən AİZ–lərin yaradılması üçün bir sıra ilkin şərtlərin yerinə yetirilməsi zəruridir. Bu şərtləri aşağıda gösrərilənlər kimi təqdim etmək olar:

- dövlət səviyyəsində vergi, bank fəaliyyətinin lisenziyalaşdırılması, əmək münasibətləri və sosial məsələlərin tənzimlənməsi üçün xüsusi qanunvericiliyin işlənib hazırlanması;

- dövlət orqanları tərəfindən AİZ–in inkişaf proqramının təsdiq edilməsi, həll edilməli məsələlərin müəyyənləşdirilməsi. Bundan başqa, proqramda AİZ–in inkişaf etdirilməsi üçün dövlət tərəfindən ayrıla bilən kapital qoyuluşlarının və subsidiyalarının həcmi göstərilməlidir;

- AİZ–in inkişaf etdirilməsi üzrə təsdiq olunmuş proqramın yerinə yetirilməsinin maddi – texniki təminatı ilə bağlı məsuliyyəti öz üzərinə götürən iqtisadi agentin

mövcud olması;

- AİZ–in yaradılması və inkişaf etdirilməsi ilə bağlı investisiyaların cəlb edilməsini təmin edən xüsusi investisiya fondunun mövcud olması;

- AİZ–in büdcəsinin formalaşmasını təmin edən və büdcə və kredit vəsaitlərinin istifadəsinə nəzarət edən kredit təşkilatının mövcud olması.

Azərbaycanda AİZ–in yaradılması imkanının qiymətləndirilməsi ölkəmizə xas olan bir sıra amillərin təhlili əsasında həyata keçirilməlidir. Bu amilləri iki qrupa bölmək olar:

- AİZ–in yaradılmasına müsbət təsir edən amillər;

- AİZ–in yaradılmasına mənfi təsir edən amillər.

Birinci qrup amillərə Azərbaycanın yerləşdiyi regionda onun nisbi üstünlüyə malik olması, ölkəmizin xarici ticarət fəaliyyətinin yaxşı səviyyədə olması, kifayət qədər icra mədəniyyətinə malik olan işçi qüvvəsinin olması, Azərbaycan iqtisadiyyatında sənaye sahəsinin inkişaf etmiş olması, ölkəmizin iqtisadiyyatının daha sürətlə inkişaf etdirilməsi məsələsində hökumətin istəyinin olması, siyasi və iqtisadi sabitliyin hökm sürməsi, investisiya mühitinin yaxşı səviyyədə olması, son üç ildə ölkə iqtisadiyyatının dayanıqlı artıma meylli olması, Azərbaycanda turizm sektorunun inkişafı istiqamətində böyük işlərin görülməsi, kənd təsərrüfatı işlərinin fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün müvafiq iqlim şəraitinin mövcud olması, təbii resurs potensialının güclü olması kimi amilləri aid edə bilərik.

İkinci qrupa aid etdiyimiz amillər aşağıdakılardır:

- Bazar institutlarının arzuolunan səviyyədə inkişaf etməməsi;

- Bürokratizmin səviyyəsinin yüksək olması;

- Azərbaycan reallığına adekvat enerjidaşıyıcılarının qiymətinin nisbi yüksək olması;

- Daxili bazarın tutumunun az olması.

Qeyd olunanlardan göründüyü kimi, sonuncu qrupa daxil olan amillərin təsiri hökumətin istəyi ilə aradan tez qaldırıla bilər.

AIZ–in yaradılması və inkişaf etdirilməsi üçün həmin zonaya cəlb edilə bilən potensial iqtisadi agentlər üçün kifayət qədər imtiyazlar təklif olunmalıdır. Bu imtiyazlara aşağıdakıları aid etmək olar:

1. AİZ–də bütün müəssisələrin gömrük rüsumundan və orada istehsal olunmuş məhsulun ixracı ilə bağlı vergilərindən azad edilməsi;

2. AİZ ərazisinə xammal, materiallar, yarımfabrikatlar, pul vəsaitləri, avadanlıq və digər resursları ixrac təyinatlı və ya idxalı əvəz edən məhsulların istehsalı üçün idxal edən AİZ–də fəaliyyət göstərən sahibkarların gömrük rüsumundan və idxalla bağlı vergilərdən azad edilməsi;

3. AİZ–də emal edilən malların təkrar satışının, həmçinin Azərbaycanın digər regionlarından olan malların AİZ ərazisindən ixraca çıxarılmasının və tranzitinin heç bir gömrük tarif imtiyazları olmadan həyata keçirilməsi;

4. Xarici investorların iştirakı ilə nizamnamə kapitalında xarici kapitalın payı 30% - dən çox olan birgə müəssisələrin və xarici investorlara tam məxsus olan və

gəliri öz istehsal etdiyi məhsulun və ya göstərdiyi xidmətin satışı hesabına formalaşan müəssisələrin 5 illik müddətə əlavə dəyər vergisindən azad edilməsi;

5. Birinci fəaliyyət ili müddətinə AİZ–də fəaliyyət göstərən sahibkarların gəlir vergisindən və mənfəət vergisindən azad edilməsi, növbəti 5 il ərzində zonanın sahibkarlarının mənfəət vergisinə 50% güzəştin tətbiq edilməsi;

6. AİZ–də fəaliyyət göstərən bütün müəssisələr tərəfindən istehsalın, sosial sferanın və infrastrukturun inkişafına mənfəətin yenidən yatırılan hissəsinin vergilərdən tam azad edilməsi.

Dünya təcrübəsi göstərir ki, AİZ–in yaradılmasına və fəaliyyət göstərməsinə bir sıra amillər təsir edir ki, onlara aşağıdakıları misal kimi göstərmək olar:

- siyasi sabitlik;
- investisiyalara zəmanətlər;
- infrastrukturun inkişaf səviyyəsi;
- işçi qüvvəsinin peşəkarlıq səviyyəsi, iş təcrübəsi və əmək intizamı;
- inzibati prosedurların sadələşdirilməsi və s.

AİZ–də imtiyazlı rejimə münasibətdə qeyd etmək lazımdır ki, iqtisadiyyatın dövlət tənzimliyiciləri yaddan çıxarmamalıdır ki, xarici kapital AİZ-ə Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi üçün deyil, üstəlik mənfəət əldə edilməsi üçün yönəldilir. Eyni zamanda, ölkə nə qədər sabit və inkişaf etmiş olarsa, istehsal və maliyyə riskləri və investorlar üçün cəlbedici olan mənfəət norması bir o qədər azalır.

Azad iqtisadi zonaların fəaliyyəti regionun, ölkənin sosial – iqtisadi inkişafına şərait yaradır, sosial infrastruktur yaxşılaşır, əhalinin rifahı və regionda məşğulluq artmağa başlayır və işsizlik səviyyəsi aşağı düşür. Regional və dövlət büdcəsinin gəlir hissəsi artır ki, bunun nəticəsində biznes uğurla inkişaf etməyə başlayır, innovasiyalar stimullaşdırılır və ölkənin rəqabət qabiliyyəti əhəmiyyətli dərəcədə yüksəlir.

Hazırda Azərbaycan yaradılan azad iqtisadi zona ölkəmizin qeyri – neft sektoruna xarici investisiyaların daha çox cəlb edilməsində ən səmərəli alət rolunu oynamağa başlayacaqdır.

Beləliklə, azad iqtisadi zonaların yaradılması ümummilli məsələlərin – xarici investisiyaların istifadəsi ilə iqtisadi inkişafın daha da sürətlənməsi, əhalinin məşğulluq probleminin həlli, ölkənin ixrac potensialının artması, idxalı əvəz edən yüksək keyfiyyətli malların istehsalının və daxili bazara tədarükünün təşkili kimi məsələlərin həllinə yönələcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Филатов Ю.Н. Роль особых экономических зон в социально – экономическом развитии регионов / Ю.Н. Филатов, Е.А. Горчакова // Экономика и управление: новые вызовы и перспективы. 2012. № 3. С. 338–340.
2. http://zhurnal.ape.relarn.ru/articles/2010
3. www.president.az
4. e-qanun.gov.az

Nəsibov Vüqar Nizami oğlu,
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Email: vuqar.nasibov@bk.ru

REKLAMDA İNNOVASİYA FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

Böyük fəxrlə qeyd etmək istəyirəm ki, uzun illər düşmən tərəfindən işğal olunmuş torpaqlarımız azad olunmuşdur!

Yaxın gələcəkdə dövlətimizin və vətəndaşlarımızın qarşısında duran əsas məqsədlərdən biri işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması və bu ərazilərin iqtisadi cəhətdən inkişaf etdirilməsidir.

Işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın və turizmin inkişaf etdirilməsi məqsədilə reklamdan istifadə olunması vacibdir. Bu baxımdan innovativ reklam vasitələrinin tətbiqi və reklamda innovasiya fəaliyyətinin idarə edilməsi zamanı yaranan problemlərin vaxtında həll olunması çox önəmlidir.

Reklam bazarında istənilən iştirakçı ətrafındakı təsərrüfat subyektləri ilə sıx qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərir. Buna görə də reklam bazarının hər bir istirakçısında baş verən innovativ dəyişikliklər birbaşa və ya dolayı yolla xarici mühit-də baş verən qlobal dəyişikliyin nəticəsi hesab olunur. Reklamda innovasiya fəaliyyətinin idarə edilməsindən danışarkən, reklamın uzunmüddətli inkişafına mane olan problemləri də qeyd etməliyik. Bu problemləri daxili və xarici olmaqla iki qrupa ayırmaq olar (cədvəl 1).

Reklamda innovativ fəaliyyətin idarə edilməsinin daxili problemləri dedikdə reklam bazarının bir iştirakçısının öz daxilində yaranan problemlər nəzərdə tutulur. Bu problemləri əksər hallarda müxtəlif innovasiyaları tətbiq etməklə həll etmək olar.

Reklamda innovasiya menecmentinin qarşılaşdığı xarici problemlərə xarici mühitdə baş verən dəyişiklikləri aid etmək olar. Bu problemlərin həll olunması isə istirakçının yeni şərtlərə uyğunlaşmasını təmin edən hər hansı bir dəyişikliyin həyata keçirilməsini tələb edir.

Aşağıdakı cədvələ diqqət etdikdə məlum olur ki, reklamda innovativ fəaliyyətin idarə olunması problemləri dedikdə reklam bazarının hər bir iştirakçısının üzləşə biləcəyi problemlər nəzərdə tutulur. Bura elmi-texniki bazanın potensialının səmərəli reallaşdılmasında, maliyyə vəziyyətində, heyətin yaradıcılıq fəaliyyətində yaranan problemləri aid etmək olar. Gələcəkdə uğur qazanmaq üçün hər bir iştirakçı yaranmış problemləri hökmən vaxtında həll etməlidir. Bəzən isə problemlər bazar şəraitinin pisləşməsi halında peşəkar idarəetmənin olmaması səbəbindən yaranır. Gəlirin azalması və ya bazar payının aşağı düşməsi halında rəhbərlik (innovasiya meneceri) lazımi innovativ tədbirləri vaxtında həyata keçirməlidir. Bu tədbirlərin həyata keçirilməsində zamanın və təşkilatın resurslarının nəzərə alınması çox vacibdir.

Cədvəl 1.

Reklamda innovativ fəaliyyətin idarə olunması problemləri.



Reklamda innovativ fəaliyyətin idarə olunmasında digər vacib bir məsələ xarici idarəetmə problemlərinin xüsusiyyətləridir. Belə ki, milli xüsusiyyətlərdən asılı olmayaraq, qlobal xarici mühiti səciyyələndirən bir sıra ümumi xüsusiyyətlər var. İnnovativ fəaliyyətin idarə edilməsinin xarici problemlərini həll edən zaman bu ümumi xüsusiyyətlərin nəzərə alınması vacibdir. Reklamda innovativ fəaliyyətin idarə olunmasının əsas problemlərinə aşağıdakıları şamil etmək olar.

Birincisi, xarici mühit amilləri arasında sıx qarşılıqlı əlaqə var. Buna görə də müasir dövrdə bir amilin dəyişməsi bütün qlobal iqtisadi sistemin yenidən qurulmasına səbəb ola bilər. Bu cür dəyişikliklərə misal olaraq keçən əsrin 90-cı illərinin əvvəllərində yeni rabitə və məlumat ötürmə vasitələrinin – telekommunikasiya avadanlıqlarının yaranması səbəbilə, belə avadanlıqlara tələbatın artmasını göstərmək olar. Belə avadanlıqlardan istifadə reklam məhsulları istehsalında və reklam xidmətlə-rinin həyata keçirilməsində yeni imkanlar yaratmışdır.

Reklamda innovasiyanın idarə olunmasının xarici mühitinin ikinci problemli xüsusiyyəti xarici mühitin dəyişkənliyidir (hərəkətliliyidir). Müasir dövrdə xarici mühitdə böyük sürətlə dəyişikliklər baş verir. Çünki, reklam sahəsi telekommunikasiya, kimya, elektron sənayesi və kompüter istehsalı kimi digər sahələrlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Nəzərə almaq lazımdır ki, reklam bazarının fərqli bölmələri üçün dəyişikliklərin intensivliyi də fərqli ola bilər. Buna görə də reklam sahəsində çalışan innovasiya meneceri elmi-texniki mühitdə gündəlik baş verən dəyişikliklərdən xəbərdar olmalı, rəqiblərin yeni nailiyyətlərini izləməli və reklam məhsullarının isteh-

salı sahəsində yeni texnoloji standartlara riayət etməyə məcburdur. Əks halda reklam fəaliyyətinin səmərəliliyi aşağı düşəcəkdir.

Reklamda innovativ fəaliyyətin idarə edilməsinin üçüncü xarici problemi reklam və innovasiya prosesinin olduqca mürəkkəb olmasıdır. Reklam bazarında iştirakçının texnoloji səviyyəsi nə qədər yüksəkdirsə, bölmələrin çox olması səbəbindən müəssisənin quruluşu da mürəkkəbdir. Belə müəssisədə əsasən şaxələnmiş reklam məhsullarının istehsalı həyata keçirilir. O cümlədən mürəkkəb xarici mühit şəraitində fəaliyyət göstərdiyi üçün belə müəssisədə effektiv innovasiya menecmentinin tətbiqinin rolu da çox böyükdür.

Reklamda innovativ fəaliyyətin idarə edilməsinin digər problemi bazarda rəqabət üstünlüyünün təmin edilməsidir. Məlumdur ki, innovasiyalar və onları həyata keçirmək bacarığı (innovativ fəaliyyət) reklam bazarının iştirakçısına rəqabətdə müəyyən üstünlüklər qazandıra bilər. Rəqabətin əsas yeri reklam bazarıdır. Buna görə də tətbiq olunan hər bir innovasiya bazarda rəqabət üstünlüyünün qazanılmasına yönəlməlidir. Başqa sözlə desək, rəqabət mübarizəsində qazanılmış hər hansı bir uğur innovasiyanın iqtisadi əhəmiyyətini əks etdirir. Qeyd etmək lazımdır ki, rəqabət prosesi bazarda yalnız meydana çıxır (nəzərə çarpır). Rəqabətin əsasları (kökü) isə əvvəlki mərhələlərdə qoyulur. Yəni, rəqabətin əsası istehsalda, tədqiqat və işləmələrin hazırlanmasında, elmi-texniki həllərin tapılmasında, patentlərin alınmasında, reklam istehsalının səmə-rəliliyinin artırılmasında və digər proseslərdə yaranır.

Müasir dövrdə aparıcı ölkələrdə reklam sahəsində elmi-tədqiqat işlərinin həyata keçirilməsi xeyli dərəcədə intensivləşmişdir. Buna səbəb bazarda reklam məhsullarına tələbin artmasıdır. Reklam sahəsində elmi-tədqiqat işlərinin intensivləşməsinin digər səbəbi isə əldə olunmuş nəticələrin tez bir zamanda istifadə olunmasıdır. Belə ki, yaxın keçmişdə reklam istehsalının əsas texnologiyaları o qədər inkişaf etməmisdi. Müasir dövrün innovativ inkişafı nəticəsində reklam fəaliyyətinin həyata keçirilməsində tətbiq edilən vacib texnologiyalar (mobil rabitə, internet, nanotexnologiyalar) yaradılmışdır. Yeni yaradılmış texnologiyalar bir- biri ilə çox əlaqəlidir. Bunun nəticəsində yeni elmi istiqamətlər yaranır (məsələn, mikroelektronikanın mexanika və ya optikanın nanotexnologiya ilə birləşməsi). Bu yeni istiqamətlər bazar üçün potensial əhəmiyyətli yeniliklərin yaranmasına səbəb ola bilər. Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, reklam fəaliyyətində tətbiq olunan yeni texnologiyaların çoxluğu və yenilərinin yaranması ehtimalının olması reklam bazarındakı rəqabət prosesini günü gündən çətinləşdirir.

Qərbin aparıcı reklam şirkətlərinin apardığı elmi – tədqiqat işlərinin təhlili göstərir ki, əksər hallarda yeni reklam xidmətləri köhnə reklam xidmətlərinin təkmilləşdirilməsi hesabına yaranır. Belə ki, 1950-1980-ci illərdə inkişaf etmiş ölkələrdə qeydə alınan bütün innovasiyaların ¾-ü (75%-i) mövcud reklam xidmətlərinin texniki xüsusiyyətlərinin yaxşılaşdırılması və ya reklam istehsalı texnologiyalarının təkmilləşdirilməsi hesabına yaranmışdır.

Qeyd etmək vacibdir ki, müasir dövrdə istənilən şirkət bazarda mövqeyini qorumaq üçün reklam istehsalı proseslərini mürəkkəbləşdirməli və elmi-tədqiqat işlərinin həcmini artırmalıdır. Yəni, reklam xidmətlərinin həcminin artması səbəbindən bazarda mal satan hər bir iştirakçı fərqli reklam xidmətləri istehsal etməyə çalışmalıdır. Belə fərqli xidmətlər seçilmiş bazar seqmentinə aid olan istehlakçıların konkret tələbatlarına

istiqamətlənməlidir. Müasir dövrdə fərqli reklam xidmətlərinin yaradılması ilə yanaşı, bazara vaxtında daxil olma məsələsi də önəmli rol oynayır. Hər iki məsələnin strategiyada öz əksini tapması böyük əhəmiyyət kəsb edir. Günü gündən artan rəqabət şəraitində yeni ideyanın yaradılması, inkişaf etdirməsi, ideyaya uyğun prototipin yaradılması və yeni ideyanın kommersiya innovasiyası şəklində həyata keçirilməsi çox qısa vaxtda baş verməlidir. Çünki, gecikmiş innovasiyanın səmərəliliyi aşağı düşür.

Buna görə də reklam bazarının hər bir iştirakçısı öz iqtisadi fəaliyyətini genişləndirmək üçün daim yeni reklam xidmətlərini yaratmalı və tətbiq etməlidir. Başqa sözlə desək, reklam fəaliyyətində hökmən innovasiyalardan istifadə etməlidir. Bu mənada innovasiya – reklam istehsalı və xidmətlərinin həyata keçirilməsi prosesində sahibkarlıq gəlirinin formalaşması üçün bazisdir (əsasdır). İnnovasiyaların tətbiqi dedikdə isə reklam bazarının iştirakçının innovasiyanın bazara çatdırılması uğrunda həyata keçirdiyi fasiləsiz fəaliyyəti başa düşülür.

Reklamda innovativ fəaliyyətin idarə edilməsinin əsas problemlərindən biri məhdud resursların lazımi həcmdə əldə edilməsidir. Bu resurslar hesabına reklam kompaniyası bazarda öz mövqeyini möhkəmləndirə və ya inhisarçı (monopol) mövqe tuta bilər. Belə resursların əldə olunması xüsusi elmi tədqiqatların həyata keçirilməsini tələb edir. Tədqiqatlar nəticəsində əldə olunan nəticələr intellektual mülkiyyətin qorunması qanununa müvafiq olaraq həmin kompaniyanın şəxsi mülkiyyəti hesab olunur.

Reklam sahəsində innovativ fəaliyyətin idarə olunmasının digər vacib problemi bazarda rəqabətqabiliyyətliliyinin təmin ediməsidir. Rəqabətqabiliyyətliliyi dedikdə iştirakçının onu rəqiblərdən fərqləndirən və reklam məhsullarına müəyyən bazar üstünlükləri verən strateji uğur amillərini yaratmaq və tətbiq etmək qabiliyyəti başa düşülür. Belə nəticəyə gəlmək olar ki, müasir şəraitdə reklam bazarı iştirakçısının rəqabətqabiliyyətliliyi ilə innovativ fəaliyyətin idarə olunmasında yaranan problemlərin həlli arasında geniş əlaqə vardır. Yəni, innovativ fəaliyyətin idarə olunmasında yaranan problemlərin vaxtında və effektiv həll edilməsi reklam bazarının iştirakçısının rəqabətqabiliyyətliliyini əhəmiyyətli dərəcədə yüksəldir.

Reklam sahəsində innovativ fəaliyyətin idarə edilməsində qarşıya çıxan yeni növ problemlərdən biri də informasiya və telekommunikasiya sahəsi ilə bağlıdır. Belə ki, informasiya və telekommunikasiya sahəsindəki nailiyyətlərdən vaxtında istifadə olunması hesabına reklam bazarında baş verən dəyişikliklərə çevik reaksiya vermək mümkündür. Belə yeniliklərin vaxtında tətbiqi rəqabətdə qələbəni təmin edir.

İnnovasiya və reklam fəaliyyətlərinin beynəlmiləlləşməsi nəticəsində reklam şirkətləri tərəfindən yeni bir konsepsiya – dünyada vahid reklam bazarının yaradılması konsepsiyası qəbul olunmuşdur. Bu konsepsiya əsasında dünya miqyasında bütün reklam bazarının iştirakçılarının rəqabət qabiliyyətlərinin artırılması üçün genişmiqyaslı strategiyalar və planlar işlənib hazırlanmışdır.

Reklamda innovasiyanın idarə olunması problemlərinin həllində vacib məsələlərdən biri də qlobal strategiyanın səbəblərinin və mexanizminin təhlilidir. Bu məsələ bir çox iqtisadçılar tərəfindən tədqiq olunmuşdur və bu sahədə bir çox əsərlər yazılmışdır. Məsələn, reklam bazarı iştirakçılarının qlobal innovasiya siyasətinin nəzəri əsaslarını özündə əks etdirən "OLİ" paradiqmasını qeyd etmək olar. "OLİ" paradiqması reklam və innovasiyanın təşkilində üç növ rəqabət üstünlüklərini özündə birləşdirir:

– mülkiyyət üstünlüyü (O – “ownership” sözünün baş hərfidir və ingilis dilindən mülkiyyət, əmlak mənasını ifadə edir);

– xaricdə yerləşmə üstünlüyü (L – “localization” sözündən götürülmüşdür) ;

– informasiyalaşdırma üstünlüyü (İ – “information” sözündən əmələ gəlmişdir).

Mülkiyyət üstünlüklərinə, reklam istehsalı texnologiyaları üzərində mülkiyyət hüququnun olması, reklam məhsullarının fərqləndirilməsi, ucuz işçi qüvvəsi hesabına qənaət edilməsi, lisenziyaların satılması və beynəlmiləlləşmə təcrübəsi hesabına əldə olunan üstünlüklər aiddir.

İkinci qrupun üstünlüklərinə reklam xidmətlərinin, həmçinin nəqliyyat, rabitə xidmətlərinin qiymətlərinin ucuz olması, bazarların və istehsalın məkan bölgüsü ilə əlaqəli üstünlüklər daxildir. Bu amildən istifadə reklam bazarının iştirakçıları üçün əlavə qazancın yaranmasına səbəb olur.

Üçüncü qrupun üstünlüklərinə müraciət xərclərinin azaldılması, mülkiyyət hüquqlarının qorunması, qeyri-müəyyənliyin azaldılması, təklif və satış bazarlarının kəmiyyət və keyfiyyətinə nəzarət, birliklərin yaradılması və sairə ilə əlaqəli üstünlüklər daxildir.

Məlumdur ki, müasir dövrdə əksər iri reklam şirkətləri yuxarıda qeyd olunan hər üç qrup üstünlüklərə nail olmaq və bütünlükdə reklam fəaliyyətini təkmilləşdirmək üçün böyük investisiyalar qoyurlar.

Qoyulmuş investisiyalar nəticəsində mülkiyyət (birinci qrup) üstünlüklərinə sahib olan şirkətlər lisenziyalar satırlar, ikinci və üçüncü qrup üstünlüklərə malik olan şirkətlər isə reklam xidmətlərinin həcmini genişləndirmək üçün effektiv satış şəbəkəsi yaradırlar.

Dadaşova Jalə Bayram qızı, müəllim
“Azərbaycan Hava Yolları” Qapalı
Səhmdar Cəmiyyəti Milli Aviasiya Akademiyasının
“İqtisadiyyat” kafedrası
Email: j.ala@inbox.ru

AZƏRBAYCANDA BEYNƏLXALQ TURİZMİN MÖVCUD VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

Qloballaşma prosesi beynəlxalq ticarəti şərtləndirməklə ölkələrarası ixtisaslaşma və kooperasıyalaşmanı öz arxasınca aparır, beynəlmilli mübadilə prosesini inkişaf etdirir. Prosesdə alqı-satqıya çıxarılan malların və xidmətlərin istehsal - istehlak xarakteristikasına görə, yəni onların təyinatı, tipləri və müxtəlifliyi üzrə ixtisaslaşma meyarına görə təsnifatı diqqəti cəlb edir. Belə təsnifat eyni zamanda beynəlxalq ticarətin obyektini düzgün müəyyən etməyə, nəyin, hansı mal qrupunun alınıb-satılmasının və göstərilən xidmətin növünün nədən ibarət olmasını qruplaşdırmağa imkan verir. Qəbul olunmuş beynəlxalq təsnifatda beynəlxalq ticarətin beş fərqli növü öz əksini tapmışdır:

- hazır məhsullar, yarımfabrikatlar üzrə beynəlxalq ticarət;
- ərzaq və kənd təsərrüfatı məhsulları üzrə beynəlxalq ticarət;
- maşın və avadanlıqlar üzrə beynəlxalq ticarət;
- xammal və enerji daşıyıcıları üzrə beynəlxalq ticarət;
- xidmətlər üzrə beynəlxalq ticarət.

Məlum olduğu kimi, beynəlxalq ticarət sferasında özünü göstərən turizm sektoru beynəlxalq iqtisadi münasibətlərin önəmli və inkişaf edən sahələrindən biridir. Turizmin inkişafının yüksək sürəti böyük həcmdə valyuta dövriyyəsinə səbəb olduğundan, hər bir ölkənin iqtisadiyyatına əsaslı şəkildə təsir göstərdiyindən zaman ötdükcə bu sahənin genişləndirilməsi xüsusi diqqət halını almışdır. Biz Azərbaycanın iqtisadçı alimlərinin turizmi xidmətlərlə ticarətin əsas qolu olması fikri ilə tam razılaşırıq.

Turizm və xidmət sferası investisiya baxımından çox cəlbedicidir. Bu sahə ölkənin infrastrukturunun inkişaf etdirilməsində və valyuta vəsaitlərinin axını baxımından əhəmiyyətlidir. Digər tərəfdən, turizmin inkişafının iqtisadi imkanları təşkilati-iqtisadi proseslərin inkişafı üçün münbit şəraitin yaradılması deməkdir. Belə bir şərait isə, öz növbəsində bu gəlirli sahənin infrastrukturunun genişləndirilməsi, bu sahə ilə bağlı yaradılan münbit şərait xarici turistlərin respublikamıza səfərlərinin artım tempinə də gətirib çıxarır.

Azərbaycanın coğrafi mövqeyinin güclü olması, beynəlxalq dəhlizləri ilə əlaqələnməsi, özünün tarixi abidələri ilə diqqəti cəlb etməsi nəinki daxili, daha çox beynəlxalq turizmin inkişaf etdirilməsi istiqamətində üstün mövqeyə malikdir. Ölkədə turizmin bütün növlərinin xüsusən səyahət turizminin inkişaf etdirilməsi üçün geniş imkanlar vardir, çünki Azərbaycanın tarixi mədəniyyət abidələri xarici ölkələrin dövlət qurumlarının və onların səyahətə meylli əhalisinin maraq dairəsini genişləndirmişdir. Təsadüfi deyildir ki, “Qız qalası”, “Möminə Xatun türbəsi”, “ Şəki xan sarayı”, “İçəri Şəhər” abidələri Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşdırılmış qurumu olan YUNESKO tərəfindən qeydiyyata alınaraq ümumdünya abidələr siyahısına daxil olunmuşdur. Bu və ya digər hallar göstərir ki, Azərbaycan qədim mədəniyyətə malikdir, özünün müasirliyi və perspektiv inkişafı baxımından dünya ölkələrinin diqqətini cəlb etmişdir.

Fikrimizcə yuxarıda qeyd edilən turizm imkanlarının genişlənməsi üçün çox işlərin görülməsi tələb olunur. İlk növbədə beynəlxalq turizmin prinsiplərinə uyğun Azərbaycanın təbiətinin füsunkarlığı, flora-fauna vəziyyətinin təbliği dünya ictimaiyyətinə təqdim olunmalı, turizm kadrlarının hazırlanmasına, turizm sektorunda çalışan ixtisaslı mütəxəssislərin yenidən hazırlanmasına, maarifləndirmə işlərinin gücləndirilməsinə, elm və təhsil strukturlarının daha geniş dairədə formalaşmasına geniş meydan verilməlidir.

Bu gün Azərbaycan turizminin inkişafı informasiya-kommunikasiya texnologiyalarından istifadəni, elektronlaşmanı, rəqəmsal xidmətlərdən istifadəni daha ciddi tələb edir. Bu mənada Azərbaycanda turizm sektorunun inkişafı üçün müasir texnoloji innovasiyalardan istifadə nə qədər çox tələb olunarsa, bir o qədər də sahədə normativ-hüquqi baza genişləndirilməlidir. Məqsəd Azərbaycanın turizminin beynəlxalq turizm əlaqələrinə qovuşmasını, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsini, ölkədə mövcud olan turizm potensialının dünyada tanınmasını genişləndirməkdir.

Cədvəl1-də 2015-2019-cu illər ərzində Azərbaycana gələn turistlərin sayı göstərilmişdir.



Şəkil 1. 2015-2019-cu illər ərzində Azərbaycana gələn turistlərin sayı

Diaqram məlumatlarından görmək olar ki, ən yüksək göstərici 2019-cu ildə olmuşdur. Ümumiyyətlə, rekord göstərici 3,2 milyon nəfərdir ki, bu da 2019-cu ilə təsadüf edir. İlk sıranı Rusiya və Gürcüstandan gələn turistlər təşkil edir.

Məlum səbəbdən, yəni pandemiya ilə bağlı yaranmış qlobal böhran digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektorundan yan ötməmişdir, məhz mart ayından etibarən bu turizm sahəsi tənəzzülə uğramışdır.

Bildiyimiz kimi Azərbaycan ordusunun Ermənistanın işğalından azad etdiyi ərazilərinin bir qismi turizmin inkişafı baxımından böyük perspektivə malikdir. Qarabağ Azərbaycanın ən qədim tarixi bölgələrindən biridir. Hələ SSRİ dövründən Şuşa, Laçın, Kəlbəcər, Ağdam rayonları turistlər arasında məşhur olmuşdur.

Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, çox zəngin ehtiyatlara, əvəzolunmaz təbii-iqlim xüsusiyyətlərə malik olması, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün açılan yeni həyat deməkdir. Bu ərazilərə investisiya yatırılması bu sahənin iş adamlarına geniş imkanlar yaradacaq və bu yatırımlar nəticə etibari ilə ölkə büdcəsinə kifayət qədər gəlir gətirəcəyi reallıqdır. İşğaldan azad edilmiş torpaqlarımızın mineral və termal su mənbələri ilə zəngin olması da bölgənin turizm imkanlarının artırılmasında mühüm faktordur.

Azərbaycan mədəniyyətinin incisi sayılan Şuşa istər daxili, istərsə də xarici turistlərin axını üçün yetərincə potensiala malikdir. Burada yerləşən tarixi memarlıq abidələri turizm marşrutlarının yaradılmasına imkan verir. Şuşa həmçinin istirahət və müalicə zonası kimi də tanınıb. Təsadüfi deyil ki, Azıx mağarası bəşəriyyət üçün unikal abidədir. Hətta bu mağara dünyada 7 möcüzədən biri hesab olunur. Həmçinin Qarabağ regionunda da UNESCO-nun irs siyahısına düşəcək abidələrimiz var.

Qarabag regionunda turizmin inkişafı, həm də bu istiqamətdə yeni marşrutların açılması, yol infrastrukturunun genişləndirilməsi deməkdir. Xudafərin körpüsü və

başqa tarixi abidələrə də zaman ötdükcə turist marşrutu ola bilər.

Qarabağda turizm potensialını müxtəlif sərgilərdə nümayiş etdirməklə, onun reklamını dünya səviyyəsinə çatdırmaqla həmin sahənin daha da inkişaf etməsinə təkan vermiş olarıq. Təsadüfi deyil ki, Azərbaycan Turizm Bürosu Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən " Gulf Travel Show" sərgisində iştirak edib. Görüşdə iştirak edənlərə işğaldan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda və müvafiq tədbirlərdən sonra bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumat verilib. Həmçinin insan kapitalı faktoru da Qarabağda turizm sahəsinin inkişafında xüsusi rola malikdir.

İnsan kapitalının inkişafı ilə Dağlıq Qarabağın turizm potensialı yenidən hazırlana bilər.

Quliyev Zakir Qəşəm oğlu,
İqtisad üzrə fəlsəfə doktoru,
Bakı Biznes Universitetinin
"Mühasibat uçotu və audit kafedrası"
Email: zakirquliyev@inbox.ru

İŞĞALDAN AZAD EDİLMİŞ TORPAQLARDA AQRAR SAHƏNİN İNKİŞAFI

Prezident İlham Əliyevin tapşırığı ilə aidiyyəti qurumlar, o cümlədən İqtisadiyyat Nazirliyi tərəfindən işğaldan azad olunan ərazilərin bərpası ilə bağlı sosial-iqtisadi konsepsiya hazırlanıb. Müstəqillik dövründə ölkəmizin aqrar sahədə əldə edilən təcrübələrinin işğaldan azad edilmiş rayonlara transfer edilməsi, orada sahibkarlıq fəaliyyətlərinin təşviq edilməsi üçün xüsusi dəstəkləmə proqramlarının həyata keçirilməsi, heyvandarlıq və bitkiçilik sahəsində zəruri infrasturktur qurulması kimi məsələlər prioritet əhəmiyyətə malikdir.

İşğaldan azad olunmuş torpaqlarımızda kənd təsərrüfatının bərpası üçün geniş, əhatəli tədbirlər planı nəzərdə tutulur. İlk növbədə həmin ərazidəki torpaqlar bərpa olunmalı, meliorasiya, irriqasiya sistemləri quraşdırılmalıdır ki, kənd təsərrüfatına yararlı hala gəlsin. Eyni zamanda bu torpaqların təyinatı üzrə uçotu aparılmalıdır, yəni əkin, örüş, biçənək yeri olması müəyyənləşdirilməlidir. Bundan sonra bu torpaqların orada yaşayacaq insanların istifadəsinə verilməsi üçün müvafiq mexanizm əsasında tədbirlər həyata keçiriləcək.

Mütəxəssislərin hesablamalarına görə, işğal kənd təsərrüfatına 20 milyard manata yaxın ziyan vurmuş, aqrar sahənin inkişafını xeyli dərəcədə ləngitmişdir. Ancaq bütün bunlara baxmayaraq, 2003-cü ildən 2020-ci ilə kimi Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, kənd təsərrüfatı isə 2 dəfə artmışdır. 2019-cu ildə əvvəlki ilə müqayisədə 7,2 faiz artım əldə edilmişdir ki, bu da aqrar sahədə ildən - ilə inkişafın göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sektorun inkişafı ilə əlaqədar həyata keçirdiyi çox mühüm tədbirlər, qəbul olunmuş qanunlar, tərtib edilmiş proqramlar, layihələr, yol xəritələri, imzalanmış fərman və sərəncamlar ölkədə kənd təsərrüfatının inkişafına öz töhfələrini vermişdir.

Dövlət başçısı tərəfindən "Aqrar sahədə idarə etmənin təkmilləşdirilməsi ilə bağlı

əlavə tədbirlər haqqında” və “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” keçən il imzalanmış fərmanlar kənd təsərrüfatının inkişafına qayğı və diqqəti əks etdirməklə yeni uğurların qazanılmasına imkan yaradır. Dayanıqlı inkişaf prinsiplərinə arxalanaraq rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və emal sektorunu formalaşdırmaq, islahatları sürətləndirmək, qabaqcıl təcrübəni öyrənib tətbiq etmək, idarəetməni təkmilləşdirmək, vəzifələrin aktuallığını qiymətləndirmək, məsuliyyəti yüksəltmək, sahibkarlığın inkişafına dəstək vermək, qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək qarşıda duran başlıca vəzifədir.

Ölkədə kənd təsərrüfatının inkişafı bilavasitə suvarma və meliorasiya sisteminin təkmilləşdirilməsini tələb edir və bu sahədə mövcud çətinliklərin aradan qaldırılması yüksək məhsul istehsal edilməsi üçün əhəmiyyətlidir. Prezident cənab İlham Əliyev tərəfindən su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirənin keçirilməsi bu baxımdan xarakterikdir. Ölkə rəhbəri müşavirədəki çıxışında demişdir: “Bugünkü müşavirənin əsas məqsədi odur ki, bu sahədə buraxılmış səhvlər və mövcud çatışmamazlıqlar bundan sonra aradan qaldırılsın, vahid idarəetmə mexanizmi yaradılsın, ardıcıl olaraq qısamüddətli, ortamüddətli və uzunmüddətli fəaliyyət planı icra edilsin. Bunun nəticəsində Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100% olmalıdır”. Əlbətdə ki, dövlət başçısının rəhbərliyi, diqqət və qayğısı sayəsində ölkənin meliorasiya və su təsərrüfatı da xeyli inkişaf etdirilmiş, son illər bu sahədə əsaslı tədbirlər görülmüşdür.

2020-ci il xalqımız üçün çətin, məsuliyyətli, həm də şərəfli, uğurlu bir ildir. Azərbaycan xalqı bu il iki mənfur düşmənə - koronavirusa və bu virusdan da amansız olan erməni təcavüzkarlarına qarşı mübarizə aparır. Pandemiya bütün dünyada olduğu kimi, ölkəmizdə də müəyyən problem yaratmış, əvvəlcədən bir çox qabaqlayıcı tədbirlərin görülməsinə baxmayaraq virus insanlardan yan keçməmiş, kənd təsərrüfatında çalışanların işinə ciddi maneələr törətmişdir. Ancaq buna baxmayaraq sahibkarlar, torpaq sahibləri xəstəliklə mübarizə tədbirlərinə əməl etməklə bərabər, öz işlərini də davam etdirmişlər. Taxıl yığımında və tədarükündə elə ciddi bir gerilik olmamışdır. Məhsul vaxtında toplanmışdır. Demək olar ki, nəzərdə tutulan nəticə əldə edilmişdir. Heyvandarlıq məhsulları istehsalı da qənaətləndiricidir. Pambıqçılar pandemiyanın və müharibənin törətdiyi çətinliklərə baxmayaraq bol məhsul yetişdirmişlər və bu gün pambıq yığımı müvəffəqiyyətlə davam edir.

İlham Əliyev onu da vurğulayıb ki, azad edilmiş torpaqlarda bu işlər planlı şəkildə görülməlidir. Birincisi, ərzaq təhlükəsizliyi üçün. İkincisi, ixrac potensialın artırılması üçün: “Biz burada da ixrac potensialımızı şaxələndirməliyik. Çünki bu yaxınlarda Rusiya tərəfindən pomidor ixracına qoyulan qadağa, əlbəttə, bizim üçün çox gözlənilməz olmuşdur. Xatırlayıram, bir neçə il bundan əvvəl Rusiya tərəfi bizə müraciət etmişdi ki, o vaxt sanksiyalar tətbiq olunmuşdu, - Azərbaycan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracını artırsın. Məhz ondan sonra çox ciddi artım oldu”.

İşğaldan azad edilmiş torpaqların iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. İşğaldan azad edilmiş torpaqlar üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Burada qar-ğıdalı, noxud və üzüm regionun xarakterik bitkilərindəndir. Xatırladaq ki, Füzuli, Ağdam rayonları işğaldan əvvəlki dövrlərdə pambıq, taxıl, üzüm istehsalına görə ölkədə

aparıcı rayonlar sırasında idilər. Cəbrayıl, Qubadlı, Zəngilan rayonları da üzümçülükdə fərqlənirdi. Laçın, Kəlbəcər, Qubadlı və Zəngilanda heyvandarlıq çox inkişaf etmişdi. Göründüyü kimi, işğaldan azad edilən ərazilərimizin təbii imkanları, kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yarada bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. 15 dekabr 2017-ci il tarixli "Torpağın münbitliyi haqqında "Azərbaycan Respublikasının Qanunu.
3. İbrahimov İ. H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı, 2016.-655 s.
4. Ataşov B. X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı, 2017. "Kooperasiya" nəşriyyatı.-536 s.
5. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı, "Elm" nəşriyyatı. 2013, 308 s.
6. Тоболич З.А. Экономика предприятий агропромышленного комплекса. Горки: БГСХА, 2017.-221 с.
7. Байчоров М.У. Методы оценки эффективности и инструментарий формирования сбалансированного портфеля инновационно-инвестиционных проектов развития экономики региона. Дисс. канд.экон. наук. Ставрополь, 2016.-216 с.
8. Требугова К. В. Иннвестиционная политика в условиях формирования рыночной экономики в России. Дисс. канд.экон. наук. Москва, 2010.-160 с.

Fidan Abbasali Gurbanova, teacher
Azerbaijan Technical Universtity
Email: qurbanovafidan96@gmail.com

GLOBAL ECONOMIC CHALLENGES: THE MAIN SOCIO-ECONOMIC DIRECTIONS OF DEVELOPMENT IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN FROM OCCUPATION

Introduction:

As a result of the successful counter-offensive launched by the Azerbaijani Army in Karabakh on September 27, 2020, our lands were liberated from occupation and this was one of the most memorable and glorious periods of our history. Our people displaced from the occupied territories will be able to return home after many years of longing. It is necessary to write about the economic potential of these territories, which have been separated from Azerbaijan for at least 27 years and whose names are preserved in the memory of every Azerbaijani.

2020 was a difficult year for all countries of the world, and pandemic conditions caused economic difficulties in many countries. However, in this difficult period, the Azerbaijani state and people, realizing the enemy's nefarious plan, launched a

counterattack to liberate the lands, despite any economic, health and social difficulties, the material damage caused by the war, and numerous and various financial costs.

As we know, our territories occupied by the Armenian state must be restored after liberation. The hated enemy has destroyed the infrastructure of our occupied territories for years, as well as mined our lands. The implementation of economic development projects should begin after the demining of lands, the completion of the restoration of general infrastructures such as new roads, gas, water, electricity, communications and the establishment of basic living conditions. Therefore, there are restrictions on travel to the liberated territories to ensure the safety of citizens.

Opportunities such as industry, water supply, electricity, industrial recreation opportunities, food industry potential, minerals, raw materials, etc. can be assessed in the liberated region. Various rare, valuable plant and animal species are widespread in these areas. It should be noted that the mountainous zone of the Lesser Caucasus is a large forest area of Azerbaijan. Several reserves and sanctuaries may be established in areas rich in liberated forest areas. The kharibulbul, a rare plant, is a symbol of Karabakh and grows only in Shusha. Besides, the nature of the city of Shusha in Nagorno-Karabakh is favourable for tourism. In order to attract tourists and show the cultural heritage of the Azerbaijani state to the world, "Turkvision" will be held in Shusha in 2021.

Special attention is paid to the construction of new hotels and camps in these areas. It is planned to hold horse-racing competitions and horse games to introduce the splendour of Karabakh horses to the world. In recent years, most of the population of Azerbaijan goes to Turkey and Europe for recreation. Soon, tourists from Europe, Turkey and many other parts of the world will come to see the eleven-span Khudafarin Bridge over the Araz River, the fifteen-span bridge restored in the third century, the Alive Mountain, the Dead Mountain in Jabrayil, and the famous 19th-century Haji Badal Bridge, Lalazar Bridge over the Bargushad River in 1867, Azykh Cave in Fizuli, Istisu in Kalbajar region for treatment and recreation, etc.

An investment is the sum of all the actions of investors in connection with the investment and its implementation. Modern research shows that given the limited financial resources of countries, it is very important for foreign and local investors to invest. o facilitate the work of entrepreneurs, e-services are being organized, which has made it easier to obtain licenses for 24 types of activities. More importantly, business loans are issued through an electronic system, which creates some advantages for entrepreneurs.

State support has also been reflected in the mechanism for paying a portion of the wages of contract workers in order to prevent a reduction in the number of jobs in areas affected by the Covid-19 pandemic. In this regard, it is planned to provide financial support in the amount of 215 million manats. The work on automation of information exchange and electronic services between the information systems provided by the Ministry of Economy is commendable and continues.

Conclusion:

The development and growth of the Azerbaijani economy depend significantly on effective investment activities. Enhancing competitiveness and ensuring a high growth rate is determined by the activity of investment activities. To attract foreign

investors, the Azerbaijan Export and Investment Promotion Fund (AZPROMO) was established, which has also had a positive impact on increasing the country's export capacity.

A new mineral geological map of the liberated region needs to be prepared, as the territories have been under occupation for nearly 30 years. Existing fields should be re-evaluated. Following the latest requirements of the time, high technologies must be used so as not to lag behind economic development and achieve the highest benefits in the most efficient way.

Execution of the Order of the President of the Republic of Azerbaijan "On the establishment of the Coordination Headquarters for the centralized settlement of issues in the liberated territories of the Republic of Azerbaijan" for re-evaluation has begun.

References:

1. İnvestisiya proseslərinin tənzimlənməsi, H.B.Allahverdiyev, Bakı, 2003

2. İnvestisiya fəaliyyətinin təşkili, M.C.Atakişiyev, R.N. Nurəliyev, N.H.Abbasova, Bakı, 2012.

3.https://www.economy.gov.az/article/sahibkarlarin-ishguzar-elaqelerin-inkishafi/21390.

4. Dövlət qurumlarında elektron xidmətlərin, informasiya ehtiyatlarının və sistemlərinin qiymətləndirilməsi qaydaları , Bakı, 2021.

Korinnyi Serhii Oleksandrovych,
Ph.D., Associate Professor,
Faculty of Economics
Email: s.korinnyi@gmail.com;
Tsyhanok Karyna, MA student,
Faculty of Economics
Zaporizhzhia National University,
Zaporizhzhia, Ukraine
Email:tzuganok.karina23@gmail.com

WAYS OF DEVELOPING A FOREIGN LANGUAGE IN THE FORMATION OF TOURISM IN THE POST-CONFLICT TERRITORIES. PROSPECTS OF INDUSTRIAL TOURISM OF UKRAINE AS AN INTEGRAL PART OF STABLE SOCIO-ECONOMIC DEVELOPMENT

The essence of industrial tourism is that the travel objects are industrial enterprises, handicraft enterprises, production cycles, industrial processes, technologies, the results of production and the consequences of their impact on the environment of the region [1].

According to the definition of the WTO and the World Tourism and Travel Council (WTTC), “sustainable tourism meets the needs of both tourists visiting tourist centers and their local population; in addition, it involves provision and optimization of future development prospects. The resources are used in such a way that promotes to meet economic, social and aesthetic needs, but at the same time preserve cultural uniqueness, crucial environmental features, biological diversity and vital systems” [2].

Sustainable tourism must satisfy the criteria of social, cultural, environmental and economic compatibility. Sustainable tourism is tourism that in the long run meets the requirements of social justice, furthermore is environmentally friendly, as well as profitable and efficient from an economic point.

Based on the previous definition, it can be noted that industrial tourism is integral component of sustainable development of the country, since except for providing it with additional income, infusing funds and resources into industrial regions, improving the image of the whole country and individual enterprises, this type of tourism almost does not harm the ecological systems of the regions. Usually, industrial tourism takes place along a route during which tourists do not stop at one place for a long time and spend time locally on a limited area of the object. The negative impact is therefore insignificant.

The advantages of this type of tourism are:

a) novelty and relative lack of competition between entities;

b) additional employment in the tourism sector (expansion of tour operators, travel agencies, tour organizations activity);

c) additional employment in the service sector (the increasing of tour flow will lead to the development of service infrastructure near popular industrial routes);

d) profit growth of industrial enterprises, additional advertising and brand promotion both inside the country and in the international arena;

e) improving the image of the administrative center, specific region or city in which the facility is located;

f) additional sales of products produced by the industrial complex.

The following disadvantages can be highlighted in this case:

a) the necessity to adjust the industrial cycle and work process at industrial facilities;

b) the raise of risks related to security and commercial secrecy due to the increase in the number of outsiders on the territory of the enterprise. This factor results in additional expenses for the security system;

c) additional costs for the arrangement of tourist-attractive industrial complexes and infrastructure necessary for the establishment of an appropriate tourism process.

Despite the previously mentioned shortcomings, Ukraine, and especially its eastern and southern parts, have inexhaustible potential in the development of this type of tourism. These regions of our country have priority in visiting objects of heavy industry, while the northern and western part of Ukraine will be able to compete with objects of light industry and small authentic farms (cheese dairies, creamery, apiaries, etc.).

Figure 1.

Goals pursued by industrial enterprises in the development of industrial tourism



The breaking of traditional production and economic ties in the East and South of Ukraine, due to the hostilities during last 7 years, led to the fall of certain sectors of the economy. The plants and heavy industry enterprises were particularly affected, as there was a significant loss of partners and clients from Russia and other CIS countries. While the industries and individual enterprises are restoring their capacity, it would be appropriate to develop tourism in these regions to maintain economic activity.

Both domestic and foreign tourists condition potential demand for domestic industrial tourism. This type of tourism is not significantly expensive, especially for foreign tourists, which makes it accessible to most interested.

The range of target audiences is also wide. From the point of view of inbound tourism, entrepreneurs and ordinary tourists who are interested in this field or just those who are looking for new impressions and knowledge will take precedence. Entrepreneurs, both foreign and domestic, are interested not only in sharing experience, but also in establishing business relationships with colleagues.

Students can be significant target audience as part of the domestic demand. It is advisable to organize school tours for students to the production of cheese, yogurt, chocolate, in order to acquaint graduates with different types of professions. Students of colleges and universities can be given with a detailed view of the work in their chosen sphere, in a manner test themselves in real conditions [3].

The main tourist facilities in the framework of industrial tourism in Ukraine:

1. Chernobyl Exclusion Zone. Currently, it is the main location in terms of industrial tourism for foreign guests, because the Chernobyl accident has become a world-famous tragedy and clearly reflects the consequences of man-made disasters for humanity. In addition to The Chernobyl nuclear power station itself, the ghost town of Pripyat and the Duga radar station, which was built for early detection of inter-continental ballistic missile launches, are also interesting. Until the mid-1980s, a secret object allowed tracking targets at a distance of 900 to 3,000 kilometers.

2. Zaporizhzhya Dnieper Hydroelectric Station. At the time of construction of the

power station, it was the largest in Europe. The first stage of the power station was built in 1927 - 1932, but it was destroyed during World War II. Now excursions are guieded on Dniproges within which it is possible to get acquainted with history of creation of power station, to look at models and operating turbines.

3. Odessa port. Tourists can enjoy the view of port cranes, shipment of cargo and movement of ships. In addition, the resort city of Odessa will stimulate and enhance the flow of tourists.

4. The quarries of Kryvyi Rih. For example, the quarry of the Southern Iron and Ore Mining and Processing Plant, which is considered one of the deepest in Europe. You can see the quarry, which covers an area of 570 hectares.

5. "Artyomsol" is an enterprise for the extraction and sale of table salt, the largest in Central and Eastern Europe, an example of medical tourism in salt mines.

More than three dozen production companies of Ukraine conduct excursions on their territory. Plants such as "Massandra", "Koktebel", "Shabo" are visited by about 10 thousand tourists a year. A special commission of the Council of Europe has chosen Shabo as Ukrainian partner in international wine tourism sphere and has included the Shabo Wine Culture Center in European routes [3].

The following can be added to the list of the most innovative and technological enterprises of Ukraine: Astarta (agricultural business), WOG Retail (sales of oil products), Vodafone Ukraine (telecommunications), DTEK VIE (green energy), Intergal-Bud (futuristic construction), KNESS (full cycle of solar energy production), LimpidArmor (IT-developments for heavy armored vehicles). There are also divisions of the joint-stock company Ukrainian Railways, Ukrhydroenergo (Hydroelectric Power Plant), Energoatom (Hydroelectric Power Plant), Biowatt (bioenergy), Helios Trategia is the leader of the Ukrainian photovoltaic market. Rentechno - a group of companies engaged in the implementation of integrated engineering solutions using energy efficient technologies and renewable energy sources, focused primarily on solar energy and biomass [4].

Thus, industrial facilities are of significant interest to the population and are one of the promising areas of tourism development in Ukraine.

The State Agency of Tourism Development together with the Ministry of Energy of Ukraine and the Ukrainian Union of Industrialists and Entrepreneurs plan to develop a roadmap for the development of industrial tourism. Management of industrial tourism development in the region should be based on the analysis of the possibilities of enterprises in creating excursions and determining their relevance for the target audience of future tourists.

It is important to build sustainable tourism in accordance with all the norms of sustainable development of the country overall.

References:

1. Monograph. Industrial tourism: ecological direction. According to the scientific edition of the Doctor of Economics, Prof. Oliynyk Ya.B. - Ivano-Frankivsk: IFNTUNG, 2011. – 225 p., available at:
https://tourlib.net/books_ukr/pendereckyj5-1.htm .

2. The official website of World Travel&Tourism Council, available at: https://wttc.org/ .
3. Industrial tourism is a new without a competitive niche, available at: https://delo.ua/businessman/promyshlennyj-turizm-novaja-i-beskonkurentnaja-nisha-222036/ .
4. Top 20 most innovative companies in Ukraine, available at: https://www.dsnews.ua/economics/top-20-samyh-innovatsionnyh-kompaniy-ukrainy-30112018230000 .

Rüstəmov Pərviz Hacı oğlu,
iqtisad üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Email: rustamovparviz@yahoo.com

MÜASİR İDARƏETMƏ SİSTEMİNDƏ FAİZİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Müasir idarəetmə sistemində faizsiz maliyyə bazarlarına dünya alimlərinin nəzəri-praktik yanaşmalarını tədqiq edərkən görmək olur ki, bu sahə olduqca vacib və aktuallıq kəsb etməkdədir. Qeyd etmək istərdim ki, faizin mahiyyəti haqda müqəddəs mənbələrdə, özəlliklə Qurani-Kərimdə maraqlı informasiyalar verilmişdir. Belə ki, faizin lüğəti mənası «artma, çoxalma və böyümə» deməkdir. Başqa sözlə dilimimizdə işlənən «sələmçilik» və «faizə pul vermək» anlayışların sinonimidir. Fiqh terminologiyasında riba – pul və ekvivalent malların bir-biri ilə dəyişdirilməsi zamanı tərəflərdən biri üçün şərt qoyulan əvəzsiz əlavəni ifadə etməkdədir. İslam dininin yaranmasından öncə borc verilən pula rəsul-mal (əsas pul), borca görə verilən əlavə pula isə riba (sələm, faiz) deyilirdi.

Sələmçiliyə olan bu cür münasibət bəsləyənlərdən biri də Platonun şagirdi Aristotel (b.e.ə. 384-322) idi. Aristotel isə, faiz səbəbilə zəngin olmağı təbiətə zidd tapmış və pulun şəxsən məhsul meydana gətirməyəcəyini və pulun bir qazanc və ya sərvət vasitəsi olaraq istifadə edilə bilməyəcəyini qarşıya qoymuşdur. O, faizi "yumurta verməyən toyuğa" bənzətmişdir. Onun "Siyasət" adlı kitabında faizə olan münasibəti belədir: "Ən çox iyrənməyi haqq edən faizçilikdir: çünki bundan əldə olunan qazanc birbaşa pulun öz varlığından irəli gəlir və pulun doğuşuna yol açmış olan səbəbə ziddir. Çünki, pul mübadilə üçün yaradılmışdır, halbuki faiz pulun miqdarını çoxaldır və beləliklə də, təbiətə ən zidd olan pul qazanma tərzidir".

İslam maliyyə-iqtisad sisteminin inkişafında ən görkəmli yer tutan, XII əsrdə yaşayıb yaratmış dahi Azərbaycan şairi, filosof və mütəfəkkir şəxsiyyət Nizami Gəncəvidir. Nizami Gəncəvi əsərlərində göstərirdi ki, istehsalda son məqsəd insanın yaşamaq üçün tələbatlarını təmin etməkdən ibarətdir: «hər cür çalışmaqda son məqsəd, yemək və geyməkdən başqa bir şey deyildir». Nizami Gəncəvi əsərlərində dövlətdə sənətə, sənətkarlığa, əkinçi əməyinə qayğı göstərilməsə, hər kəsə öz peşəsinə görə şərait yaradılmasa «hər kəs öz peşəsindən bəhrə götürə bilməz», sərvət azalar, vergilər ödənilməz, xəzinə boş qalar və sosial ədalət pozular.

İbn Xaldun «Müqəddimə» əsərində özünün inkişaf nəzəriyyəsində özündən əvvəlki və öz dövrünün alimlərinin əsərlərindən istifadə etsə də, qoyulan məsələləri

dərindən təhlil etmişdir. İbn Xaldun öz əsərində «Sosial fizika» konsepsiyasında bir sıra məsələləri göstərmişdir ki, bunlar da əsasən aşağıdakılardan ibarətdir:

- əməyə idraklı münasibətin göstərilməsi;
- təsərrüfatsızlıq və xəsisliklə mübarizənin aparılması;
- mülkiyyət və sosial bərabərliyin mümkünsüzlüyünün dərk edilməsi.

Məlum olduğu kimi, Qərb və dünya iqtisadçıları iqtisadi kateqoriya və amil kimi faiz dərəcələrinin səviyyə və dinamikasını müəyyən edən faizin təbiəti və mahiyyəti haqqındakı nəzəri konsepsiyalar irəli sürmüşlər. Belə ki, bu sahədə faiz nəzəriyyələrinin yaradılmasında XIX-XX əsrin görkəmli alimləri olan J. Sey, N. Senior, E. Bem-Baverk, İ. Fişer, F. Nayt, C. Keyns və digərləri əhəmiyyətli rol oynamışdır. Bildiyimiz kimi, J. Sey, B. Roşer, T. Maltus, Q. Ç. Keri, İ. Tyünen tərəfindən irəli sürülən kapitalın məhsuldarlığı nəzəriyyəsi ilkin faiz nəzəriyyəsinə aid edilir. Bu nəzəriyyəyə əsasən kapital öz istifadəsi zamanı xərclərin dəyərindən artıq müəyyən məhsul yaratmaq qabiliyyətinə malikdir, faiz isə bu əlavə artımı ölçür, daha doğrusu, kapitalın xalis artım «göstərici» kimi çıxış edir, bununla da mənfəət göstəricisini əvəz edir. N. Senior faiz nəzəriyyəsinə yeni element - özünü saxlama, çəkinmə amilini aid etmişdir. Bu amil faizin psixoloji nəzəriyyəsinin əsasını təşkil edir. Bu şərhə əsasən faiz mövcud nemətlərin istehlakından onu gələcəkdə artırmaq məqsədilə çəkilən şəxs üçün mükafat rolunu oynayır. Faiz nəzəriyyəsinin inkişafına Avstriya iqtisad məktəbinin nümayəndələri əsaslı töhfələr vermişdir. E. Bem-Baverk faizin psixoloji amilinin, şərhini inkişaf etdirmişdir. Onun fikrincə, faiz cari istehlakdan imtinanın haqqı və kapital yığımının stimulu kimi çıxış edir

Müasir idarəetmə sistemində faiz haqqında Bem-Baverkin təlimi L.Mizesin və F.Xayekin nəzəriyyələri xüsusi əhəmiyyət kəsb etməkdədir. Fişer faizi istehsal resurslarının bir hissəsindən olan gəlirlərlə əlaqələndirmək cəhdindən, mövqeyindən uzaqlaşmışdır. Onun mülahizələrinə, müddəalarına görə faiz mütəmadi mənimsənilən istənilən gəlirin ifadə formasıdır, o gəlirin bir hissəsi deyil, elə gəlirin hamısıdır. Kapital da digər bir şeyi deyil, faiz norması ilə kapitallaşmış gələcək gəlirdir.

İ.Şumpeter öz tədqiqatlarında yeniliklər və risklə bağlı olan sahibkarlığı istehsalın dördüncü amili kimi irəli sürərək, istehsalın mərkəzi kateqoriyası olan mənfəətin bu statusunun yox olması paradoksunu izah etməyə cəhd etmişdir. Onun fikrinə görə sahibkar – yenilikçi istehsal amillərinin yeni kombinasiyalarının tətbiq olunması üçün borc kapitalından istifadə edir. Bu vasitə ilə əmək məhsuldarlığının yüksəldilməsinə nail olur. Onun təşəbbüskarlığı və riski «əlavə gəlirlə» mükafatlandırılır, elə bu da onun mənfəətini təşkil edir. Sadalanan nəzəriyyələrin heç birində faiz pul-kredit amilləri ilə əlaqələndirilmir. Ona görə də onları «qeyri-monetar» və ya «real» faiz nəzəriyyələrinə aid edirlər. Qeyd etmək lazımdır ki, digər qrup faiz nəzəriyyələri vardır ki, faizin mahiyyətini izah etmək üçün monetar sferanın təzahürlərindən istifadə edilir. Bu sahədə Keynsin likvidliyin üstünlük nəzəriyyəsi daha geniş inkişaf tapmışdır. Bu nəzəriyyəyə əsasən faiz sahibkarlıqda mövcud olan qeyri-müəyyənlik və risklə bağlı olan psixoloji fenomendir. Pul sahibi öz kapitalını daha mobil, çevik, likvid formada, pul formasında saxlamağa cəhd edir. Pulu borca verərək, yəni likvidlikdən imtina edərək mükafat alır, gəlir əldə edir. Belə mükafat, gəlir rolu faizə aiddir. Stokholm iqtisad məktəbinin nümayəndəsi Robertsonun yaratdığı «borc fondları» nəzəriyyəsi digər «monetar» faiz nəzəriyyəsidir. Bu nəzəriyyə əsasən faiz fenomeni kredit münasibətləri sferasına aid edilir.

İsmail Mutlunun «Faiz» haqqında kitabında termin olaraq faizlə dəyişik olaraq

təriflərlə ifadə edilmişdir ki, bunlarda əsasən aşağıdakılardan ibarətdir:

- faiz bir yerə yatırdılan və ya borc olaraq verilən pulun qarşılığında müəyyən miqdarda alınması şərt qılınan çoxluqdur. Yəni əməksiz olaraq və hər hansı bir riskə də girmədən sərmayənin qazancıdır;
- faiz- tərəfə keçən borca qarşılıq malda və ya pulda ödənməsi şərt qoyulan çoxluqdur;
- faiz- başqasının zərərindən yaranan qazancdır;
- faiz- zərərə ortaq olunmayan qazancdır.

Mevdudinin «Faiz» haqqında kitabında faizə belə tərif verilmişdir. Belə ki, faiz borclunun borc aldığı adamın əsas pulun üzərinə əvvəldən müəyyən edilən çoxluğa verilən möhlət qarşılığı ödənilən vəsaitdir. Sanki faiz bu üç qismin qarışığından meydana gəlməkdədir:

1. Əsas pula əlavə olunan bir vəsaitin əlavə edilməsi;
2. Bu çoxluğun miqdarının zamana görə təyin edilməsi;
3. Bu çoxluğun əməliyyatın bir şərti olması.

Bu üç şərti olması ehtiva edən bütün əməliyyatlar şübhəsiz faizdir.

Dr. Yahya Abdurrahman faizsiz bankçılıq sistemində vəzifə almış Müslim və ya qeyri-müslim insanlara yeni bankçılar nəslinə xitab olaraq aşağıda göstərilmiş məsələlərə əməl etməyi məqsədəuyğun hesab etmişdir:

- Çox çalışın və Allaha olan inancınız gərəyi əsla ümidsizliyə düşməyin. Hər kəsin «qeyri-mümkün» dediyi şeyə çata bilməniz üçün «mümkün» olan fikir, düşüncə və ideallarınız uğrunda çalışaraq əlinizdən gəldikcə səy göstərin;
- Faizsizlik quruluşuna dair inanc və intizamınızı canlı tutunuz və xalqla olan əlaqələrinizdə səmimi olun və düzgünlükdən ayrılmayın; açıq ürəkliliklə hərəkət etsəniz xalqın ürəyini qazanarsınız;
- Faizsizlik intizamı və hüquq sistemi ilə ölkə qanunlarına qarşı əsla hər hansı bir hiylə və tələ qurmadığınızdan əmin olun.

Bu sahədə elmi araşdırma aparmış türk alimlərinin tədqiqatları çox mühüm yer tutmaqdadır. Belə alimlərdən biri türk iqtisadçısı, iqtisadiyyat sahəsi üzrə professor Sabahattin Zaimdir (1926-2007). Faizsiz maliyyə sistemi ilə əlaqədar «Dünya İslam Ticarət Mərkəzi» (1974), «İslam, insan və iqtisadiyyat» (1992, 1995), «Sabahattin Zaimin bütün məqalələri» (2005) və s. kimi əsərləri bu sahədə yazılmış ən sanballı əsərlərdəndir. O, islam iqtisadiyyatı sahəsində geniş araşdırmalar aparmış və faizsiz maliyyə sistemi nəzəriyyəsinin inkişafına mühüm töhfələr vermişdir.

Professor, doktor Servet Bayındırın «Fıkhi ve İktisadi Açıdan İslami Finans-2» kitabında göstərir ki, Quranda insanın həyat fəaliyyəti onu mənzil və qidadan ibarət iqtisadi fəaliyyətə başlaması ilə əlaqələndirməklə göstərilmişdir. Faiz, qumar, oğurluq, qəsb, rüşvət, saxtakarlıq, dini istismar və s. isə batil yol ilə mal əldə etmənin üsullarındandır. İnsan mal-dövlətə nail olmaq və həyatının sosial-iqtisadi təhlükəsizliyini təmin etmək üçün batil yollar ilə deyil, qanuni yollarla da onu əldə etmək imkanına malikdir.

Müasir idarəetmə sistemində faiz nəzəriyyələrinin nəzəri-metodoloji əsaslarının davamlı və dayanaqlı inkişaf üçün aparılan bütün fəaliyyətlərdə ədalət, sosial ədalət, sosial bərabərlik prinsipləri əsas götürülməli, dünya alimlərinin bu sahədə elmi yanaşmaları nəzərə alınmalıdır. Nəticə dünyada sosial-iqtisadi proseslərin həyata keçirilməsində ədalətli qanun və nizama nail olmaq mümkün olacaqdır.

Həşimova Albina Çingiz qızı, müəllim
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
Email: albina-hesimova@mail.ru

AZƏRBAYCANIN RABİTƏ SAHƏSİNİN 2005-2020-ci İLLƏR ARASI TƏHLİLİ

Bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar ölkədə baş verən dəyişikliklər rabitə sahəsində əsaslı və köklü dəyişikliklərin aparılmasını, səmərəli fəaliyyət göstərən bazar infrastrukturunun təcili və sürətlə yaradılmasını, şəxsi və təsərrüfat təyinatlı informasiyanın kəmiyyət və keyfiyyət aspektlərində qənaətbəxş səviyyəyə çatdırılmasına xidmət edən rabitə sisteminin yaradılması zərurətini ciddi surətdə tələb etdi.

Rabitə sahəsində atılan ən mühüm addımlardan biri kimi Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında 2003-2012-ci illərdə "İnformasiya-Kommunikasiya Texnologiyaları üzrə Milli strategiyanın təsdiq edilməsi haqqında" Sərəncamı xüsusi olaraq qeyd oluna bilər.

2005-2020-cu illərdə rabitə sahəsinin dinamikasında daimi olaraq yüksəliş müşahidə olunmuş, bu isə öz növbəsində rabitə sahəsinin ölkənin ÜDM-in artım tempinə öz töhfəsini verdmişdir.

Həmin dövrdə rabitə sahəsi illik gəlir gətirən sahəyə çevrildi, orta illik gəlirdə artım müşahidə olundu və 9,9% təşkil etdi. 2020-cu ildə rabitə sahəsinin ümumi həcmi 1,4 mlrd. manat olmuşdur, bu isə 2005-ci il ilə müqayisədə 3,1 dəfə çox olmuşdur.

Yerli telefon xidmətinin göstərilməsi ilə bağlı əldə edilən gəlir 2,26 dəfə artmış və 52 mln.manat təşkil etmişdir. Poçt rabitəsi sahəsində də artım müşahidə edilir. 2005-ci il ilə müqayisədə gəlir 5,0 dəfə artmış və 45 mln.manat olmuşdur.

Radiorabitə, radio yayımı, televiziya və peyk rabitəsindən əldə edilən gəlirlər 21,1 dəfə artmış və 63 mln.manat təşkil etmişdir.

Rabitə sahəsinin gəlirlərinin artmasına səbəb xarici və daxili investisiyaların cəlb edilərək burada müəyyən irəliləyişlərin, inkişafın əldə edilməsi ilə bağlıdır. 2019-cu ildə sahə müəssisələrinin əsas kapitalına 526,7 mln.manat ölkədaxili investisiya qoyulmuşdur, bu göstərici 2005-ci il ilə müqayisədə 3,76 dəfə çoxdur.

Təhlil olunan dövr illəri üzrə xarici investisiyaların rəqəmlərində sapmalar müşahidə olunur: 2005-ci ildə 17,8 mln. manat, 2006-cı ildə 80,8 mln. manat, 2015-ci ildə 122,9 mln. manat, 2019 ildə isə bu rəqəm 20,4 olmuşdur.

Hal-hazırda rabitə sahəsində 28,3 min nəfər çalışır, bu göstəricini turizm sahəsində (21,8 min nəfər), elektroenergetika və qaz təchizatı (25,4 min nəfər), inzibati xidmətlərdə (24,7 min nəfər) çalışanlar ilə müqayisə etmək olar.

Qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan Respublikasında rabitə sahəsində çalışanların sayında artım əvvəlki illərlə müqayisədə zəif olmuşdur. Sahənin sürətli inkişafı, qeyri-dövlət mülkiyyət formasındakı operatorların kəmiyyətinin artması rabitə müəssisə və təşkilatlarının yüksək və orta ixtisas hazırlığı səviyyəsindəki mütəxəssislərlə təmin olunmasına öz təsirini göstərdi. Son illərdə yüksək ixtisaslı kadrların dövlət mülkiyyəti formalı müəssisələrdən digər mülkiyyət formalarından olan müəssisələrə axını güclənmişdir (daha yüksək əmək haqqına görə digər operator-

lara keçid).

Azərbaycan Respublikasında 2019-cu ildə bu sahədə ödənilən orta aylıq əmək haqqı 1005,3 manat olmuşdur. Bu rəqəm respublika üzrə orta əmək haqqından çox olmuşdur. Müsbət dinamika mobil və stasionar rabitə operatorları hesabına əldə edilmişdir.

Son illərdə rabitə sahəsində fəal modernləşdirmə prosesi gedir. Yeni avadanlıq və texnologiyaya keçid, yeni telekommunikasiya xidmətlərinin tətbiqi, poçt xidmətində islahatların aparılması rabitə sferasındakı xidmət personalının kəmiyyətinə də öz təsirini göstərir, yeni ixtisaslar üzrə əlavə kadrlara tələb yaranır, əməkdaşların peşə hazırlığı səviyyəsinə olan tələblər daha da yüksəlir.

Sahənin əhəmiyyətli hissəsini xaricdən gətirilən texnika ilə respublikaya daxil olan xarici ölkələrin proqram təminatı təşkil edir. Eyni zamanda ölkədə həmin profil üzrə yüksək ixtisaslı kadrlar fəaliyyət göstərirlər, həmin mütəxəssislər beynəlxalq proqram təminatı bazarında kifayət qədər rəqabətə davamlı məhsullar yarada bilmişlər [1,2].

Cədvəldə son illərdə rəsmi statistikaya əsaslanaraq respublikada rabitə xidmətlərinin strukturu verilmişdir. Cədvəlin araşdırılması belə bir qənaətə gəlməyə əsas verir ki, son illərdə telefon və sənəd rabitəsinin xüsusi çəkisi azalmış, bunun əksinə olaraq mobil rabitə və internetdən, DATA xidmətindən istifadə durmadan artmışdır.

Cədvəl.

2005-2020-cu illərdə rabitə xidmətlərin strukturu yekuna nisbətən, faizlə

	2005	**2010**	**2015**	**2020**
Cəmi	**100,0**	**100,0**	**100,0**	**100,0**
Poçt	2,0	1,9	2,7	3,2
sənədli elektrik rabitəsi	0,1	0,1	0,1	0,1
şəhərlərarası və beynəlxalq telefon rabitəsi	23,8	15,3	8,1	2,4
şəhər-kənd telefon rabitəsi	5,1	4,8	4,7	3,7
radio rabitə, teleradio yayımı və peyk rabitəsi	0,7	0,5	1,1	4,5
mobil telefon rabitəsi	65,1	78,5	61,6	52,6
Internet	2,0	3,8	8,6	9,7
Data xidməti	0,1	0,7	1,2	4,0
digər xidmətlər	1,1	2,1	11,9	19,8

Ölkəmizdə rabitə bazarını iqtisadiyyatın digər sahələrindən fərqləndirən xüsusiyyətləri vardır. Bunlar aşağıdakılardır:

- yüksək artım tempi;
- təklif və təqdim edilən xidmətlərin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksək olması;
- şirkətlərin sayının kəskin surətdə artması və bunun nəticəsi olaraq rəqabətin kəskinləşməsi;
- praktiki olaraq telekommunikasiya xidmətləri təklif edən bütün şirkətlər kapitalın mənsubiyyətinə görə - qarışıq, fəaliyyət dairəsinə görə - milli şirkətlərdir;

- ölkədə iri telekommunikasiya avadanlığı istehsal edən şirkətlərin mövcud olmaması da diqqəti cəlb edir [3].

Beləliklə, təhlil göstərir ki, Azərbaycan telekommunikasiya bazarı indiki dövrdə rəqabət mübarizəsi şəraitində mənfəətli və sürətlə inkişaf edən ən dinamik bazarlardandır.

İstifadə olunmuş ədəbiyyat:

1. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti), 2010 il Bakı: "İqtisad Universiteti" nəşriyyatı – 326 s.

2. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. – 2004 il Bakı: «Gənclik» – 304 s.

3. Rəhmanov F.P. Respublikada sosial siyasətin təkmilləşdirilməsi problemləri. cild 5 (aprel- iyun), 2017 Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi xəbərləri.

Сижажева Светлана Суадиновна,
кандидат экономических наук, доцент,
кафедра Бухгалтерского учета, анализа и аудита
Email: svetlana_bolova@mail.ru;
Гашаева Дарина Алимбековна, ассистент,
ФГБОУ ВО «Кабардино-Балкарский
Государственный Университет им. Х.М. Бербекова»,
Email: darina200115@gmail.com

ВЛИЯНИЕ ЦИФРОВИЗАЦИИ НА ИНВЕСТИЦИОННУЮ ДЕЯТЕЛЬНОСТЬ И ЛУЧШИЕ АКТИВЫ ДЛЯ ИНВЕСТИЦИИ

Инвестиции представляют собой вложения средств в любой форме для получения дохода или же иных выгод. Иногда понятие инвестиций трактуется как отказ от сегодняшнего потребления благ ради более полного удовлетворения потребностей в будущем. Для развития современной экономики наличие высокой инвестиционной активности – необходимое условие, поскольку она укрепляет финансовую состоятельность, дает возможности для развития и улучшает благосостояние. [1]

Главной особенностью инвестиций на сегодняшний день является все большее влияние цифровых технологий на сами инвестиции и инвестиционную деятельность. Технологии упрощают жизнь населения: берут на себя сложные объемные задачи, справляются с многозадачными повторяющимися командами с гораздо большей эффективностью, предоставляют возможности для онлайн связи, работы и бизнеса. Передовые страны соревнуются в разработках и внедрении высокоинтеллектуальных технологий. Так, устанавливается тесная связь между уровнем развития информационно-коммуникационных технологий стран

лидеров по уровню цифровизации и условиями ведения бизнеса. Высокий уровень развития ИКТ повышает инвестиционный потенциал, инвестиционную привлекательность и положительно влияет на уровень ВВП страны.

Под цифровым потенциалом необходимо понимать совокупность нескольких факторов. Прежде всего это инфраструктура ИКТ, куда входят развитие сетей и данных, информационная индустрия и информационная безопасность. Качество и доступность услуг здесь играет ключевую роль. Что касается регионов, то в современных условиях именно развитие цифровых технологий обуславливает динамику привлечения инвестиций в основной капитал. Регионы, развивающие факторы цифровой экономики, имеют более высокую динамику привлечения инвестиций в основной капитал. [2]

Далее рассматривается такой показатель как «цифровое правительство». Это интегральный показатель, который оценивает готовность и возможность государственных структур к внедрению и использованию цифровых технологий. Также он предусматривает использование электронных сетей и услуг населением. Взаимодействие с органами государственной власти в цифровом формате является условием для повышения инвестиционной активности. К примеру, разработка облачных программ обеспечения работает с компаниями и правительствами для массового уведомления, оповещения населения. Такие программы позволяют использовать различные технологии и становятся инструментом, изготовленным для нужд правительства.

Третий фактор «электронный бизнес», который представляет собой новое, растущее направление ведения предпринимательской деятельности. Электронный бизнес включает информационные сайты, порталы, электронные торговые площадки и биржи.

Возможность внесения средств через электронные платежные системы или банковские карты на электронных площадках повышают уровень инвестиционной деятельности. Тенденции цифровой экономики приводят к росту популярности виртуальных валют. Таким образом, эти активы становятся самыми обсуждаемыми торговыми инструментами.

Образуются все новые компании, которые выступают в качестве электронной торговой площадки для кредитных рынков. Они соединяют цифровые инструменты с торговлей акциями, облигациями и другими активами. Цифровизация этого сегмента рынка устраняет издержки на посреднические услуги, которые характерны для традиционной торговли ценными бумагами и иными активами, и открывает двери для выгодных инвестиций.

По рейтингу доходности наиболее известных финансовых инструментов, в которые вкладывались инвесторы в начале 2020 года, первое место занял биткоин по исследованию компании Фин Экспертиза. Доход от вложения 100 тыс. руб. в криптовалюту можно было получить к концу года в 354 тыс. руб. прибыли. Второе же место заняло золото, доходность которого составила к концу года 43 тыс. руб. Чуть меньше принесли прибыль иностранные акции -

около 41 тыс. руб. Хороший доход могли получить и держатели валюты – те, кто в начале года купил евро, к концу года за счет разницы курсов получили 32 тыс. сверху. [3]

Криптовалюту стали называть «новым золотом». В марте 2020 года стоимость биткоина вместе с другими активами упала, но затем постепенно начала расти, несмотря на сложную ситуацию в мире, связанную с пандемией и ограничительными мерами. В декабре цена монеты выросла. Вложенные в начале года средства в биткоин к концу года принесли бы прибыль в 349% с учетом инфляции.

Свою известность криптовалюта начала приобретать еще в 2017 году, однако стоимость монеты обвалилась. И лишь к концу 2020 года, после глобальной пандемии и все более быстрого перехода многих сфер жизни в цифровой формат, стоимость биткоина превзошла прежний максимум. Конечно, криптовалюта остается в числе одних из самых высокорисковых инвестиций, но она продолжает повышать свою финансовую значимость. Все это происходит благодаря развитию цифровых технологий и закреплению онлайн сферы в экономике.

Таким образом, цифровизация не перестает развиваться и трансформировать привычные действия в части активов и инвестиций. Цифровые технологии будут и дальше превращать экономику в экономику услуг. С внедрением технологий будут появляться новые инвест-инструменты, новые методы и способы инвестиций, которые влекут за собой повышение инвестиционного потенциала и инвестиционной деятельности в целом.

Список использованной литературы:

1. Нешитой А.С. Инвестиции: учебник для бакалавров / Нешитой А.С.. — Москва: Дашков и К, 2018. — 352 с.

2. Киселева Е.Г. Влияние цифровизации на инвестиционный потенциал города, http://www.fa.ru/org/div/edition/vestnik/SiteAssets/Pages/now/72-83., 2020.

3. Сеть профессиональных аудиторских, оценочных и консалтинговых компаний «ФинЭкспертиза».

4. Литвинова В.В. Инвестиционная привлекательность и инвестиционный климат региона: к вопросу о дефинициях и оценке. Финансы: теория и практика. 2014.

5. Игонина Л.Л. Финансовый потенциал инвестиционного процесса в российской экономике. Дайджест-Финансы. 2016.

6. Власов М.В. Цифровая экономика как фактор развития инвестиций в основной капитал в региональных социально экономических системах // Вестник Пермского университета. Сер. «Экономика» 2019, том 14.

Həmidova Almas Məmmədağa qızı, baş müəllim,
Dünya iqtisadiyyatı və marketinq kafedrası,
Sumqayıt Dövlət Universiteti,
Email: almashamidova@mail.ru

KLASTERLƏŞMƏ ƏSASINDA REGİONLARIN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI

Ölkənin yüksək səviyyəli rəqabət qabiliyyətinin təmin edilməsi birbaşa regionların rəqabət qabiliyyətindən asılıdır. Hal hazırda Azərbaycanda elmi tədqiqatlarda regionların, xüsusən də işğaldan azad edilmiş ərazilərin rəqabət qabiliyyətinin artırılması məsələlərinə böyük diqqət yetirilir. Regionun rəqabətqabiliyyətliliyi regional təşkilatların biznes mühitinə investisiyalar cəlb edərək iqtisadiyyatın ən perspektivli sahələrini, infrastrukturunu və kiçik sahibkarlığı inkişaf etdirərək əhalinin həyat səviyyəsini yaxşılaşdırma qabiliyyətidir. İqtisadiyyatın rəqabət qabiliyyətini artıran ən vacib amil klasterlərdir. Regionlarda, o cümlədən, işğaldan azad edilmiş ərazilərdə kiçik və orta sahibkarlıq, kənd təsərrüfatı, nəqliyyat sahələri üzrə klasterlər yaratmaqla həmin ərazilərin rəqabətqabiliyyətliliyini yüksək səviyyəyə qaldırmaq olar.

Qeyd edək ki, ən inkişaf etmiş klasterlər beş əsas xüsusiyyətə malikdir ki, bunlar da onların meydana gəlməsi üçün başlanğıc şərt hesab edilə bilər.

1. Rəqabətli müəssisələrin mövcudluğu. Klasterləşmənin inkişafının əsas şərti rəqabət qabiliyyətli müəssisələrin olmasıdır. Rəqabət qabiliyyətinin göstəriciləri kimi nəzərdən keçirilə bilər:

- şirkətlərin və klaster sektorlarının nisbətən yüksək məhsuldarlığı;
- məhsul və xidmətlər ixracının yüksək səviyyəsi;
- şirkətlərin yüksək iqtisadi göstəriciləri.

2. Klasterlərin inkişafı üçün regionda rəqabət üstünlüklərinin olması. Məsələn, əlverişli bir coğrafi yer; xammala giriş; ixtisaslaşmış insan resurslarının və əlaqəli xidmətlərin tədarükçülərinin, ixtisaslaşdırılmış təhsil müəssisələrinin və tədris proqramlarının, elmi-tədqiqat işləri aparan ixtisaslaşdırılmış təşkilatların, zəruri infrastrukturun və digər amillərin mövcudluğu.

3. Coğrafi cəmləşmə və yaxınlıq. Əsas klaster üzvləri coğrafi cəhətdən bir-birlərinə yaxındır və aktiv qarşılıqlı fəaliyyət üçün imkanlara malikdirlər. Coğrafi miqyas klaster tipinə və xüsusiyyətlərinə görə dəyişə bilər. Qeyd edək, işğaldan azad edilmiş ərazilərdə yaxınlıq baxımından Kələbəcər-Laçın, Cəbrayıl-Fuzuli-Zəngilan, Fizuli-Xocavənd-Şuşa istiqamətində müxtəlif tipli klasterlərin yaradılması mümkündür.

4. Geniş bir iştirakçı və kütlənin olması. Klaster, adətən regiondan kənarda ixrac olunan son məhsul və xidmətlər istehsal edən şirkətlərdən, xüsusi xidmətlər və peşə təhsili müəssisələri, tədqiqat institutlarından və digər dəstəkləyici təşkilatlardan ibarət ola bilər.

5. Klaster üzvləri arasında qarşılıqlı əlaqənin olması. Bu əlaqələr fərqli bir xarakterə malik ola bilər, o cümlədən ana şirkətlə təchizatçılar arasında, təchizatçıların özləri arasında, avadanlıq və ixtisaslaşmış xidmətlər göstərən şirkətlərlə tərəfdaşlıq; ortaq elmi-tədqiqat və təhsil proqramlarının həyata keçirilməsində şirkətlər, universitetlər və tədqiqat institutları arasında əməkdaşlıq çərçivəsində əlaqə; kiçik və orta şirkətlər arasındakı əlaqə.

İqtisadiyyatın klasterləşdirilməsi təsərrüfat subyektlərinin əlaqələrinin gücləndirilməsi və regionların inkişafına yeni təkan vermək, onların rəqabət qabiliyyətinin

artırılması şərtlərindən biridir. Klasterlərin yaradılması sənayedə fəaliyyət göstərən müəssisə və təşkilatların sayının artmasına və onların inkişafı üçün investisiyaların cəlb edilməsinə gətirib çıxarır. Klaster üzvlərinin təsirli qarşılıqlı fəaliyyəti müəyyən bir sahədəki işçilərin məşğulluğunun, əhalinin, bütün büdcə səviyyələrində gəlirlərin artmasına səbəb olur [3, s.96]. Bunlar onu deməyə əsas verir ki, regionların rəqabət qabiliyyətinin təmin edilməsinin ən təsirli vasitəsi klasterlərdir. Regional iqtisadiyyat üçün klasterlər həm də daxili bazarın böyüməsinin təşəbbüskarı rolunu oynayır. Müəssisələr üçün klaster gələcəkdə rəqabət qabiliyyətini təmin etmək, yəni 5-10 il və ya daha çox müddətə onların inkişafı üçün uzunmüddətli strategiya yaratmaq baxımından bir imkandır. İstehsalın təşkilində klasterlərin xarakterik xüsusiyyətləri regional iqtisadiyyatın dinamik inkişafına kömək edir. Buna görə regionların klaster prinsipləri əsasında inkişafı aktualdır və böyük təcrübi əhəmiyyətə malikdir.

Regionların rəqabət qabiliyyətini artırmaq üçün bir vasitə olaraq klasterlər:

1. Müsbət təsiri təşviq edər; klasterlərarası münasibətlər yeniliklərin yaranmasına töhfə verən yeni rəqabət metodlarının ortaya çıxmasına səbəb olar.

2. Regional innovasiya sistemlərinin formalaşması üçün şərait yaradar.

3. İqtisadiyyat üçün klasterlər daxili bazarın və beynəlxalq inkişafın "böyümə nöqtələri" rolunu oynayır. Bütöv bir sənaye qrupunun olması texnologiyaların, məlumatın, infrastrukturun və təhsilin inkişafına birgə investisiyalar hesabına rəqabət üstünlüyü amillərinin yaradılması prosesini sürətləndirir.

4. Klaster ixtisaslaşdırılmış maddi-texniki mənbələrə və xidmətlərə tələb yaradır.

5. Klasterdəki istehsalçılar arasındakı rəqabət burada ixtisaslaşmanın dərinləşməsinə və genişlənməsinə səbəb olar, bunun nəticəsində yeni istehsalat subyektləri formalaşar, bu da regional istehsalın gəlirliliyini artırar, məşğulluq problemlərini həll edər və regionun inteqrasiya potensialını artırar.

6. Klasterlər işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafına töhfə verə biləcək ticarət, kənd təsərrüfatı, turizm, nəqliyyat, infrastruktur sahələrində sərhədyanı əməkdaşlığı təmin edən institusional formalardan biri kimi çıxış edə bilər.

Klasterlər həm regionların, o cümlədən işğaldan azad edilmiş ərazilərin, həm də ölkənin iqtisadi inkişafı üçün əsasdır. Həmçinin, klasterlər rəqabət prinsipini pozmadan müxtəlif müəssisələrin davamlı inkişafı üçün yeni imkanları müəyyənləşdirməyə şərait yaradır. Nəticə etibarilə, iqtisadiyyatın klaster quruluşu, xüsusilə üç vacib sahədə rəqabət qabiliyyətinin inkişafına müsbət təsir göstərir:

– müəssisənin və sənayenin məhsuldarlığını artırır;

– innovativ və məhsuldar inkişaf üçün imkanlar yaradır;

– innovasiyanı və klaster yanaşmasını dəstəkləyən yeni müəssisələrin yaradılmasını stimullaşdırır və asanlaşdırır.

Bütün bunlar regionlarda klaster stategiyalarının hazırlanmasını əhəmiyyətini göstərir. Klaster strategiyası mövcud və potensial klasterlərin müəyyənləşdirilməsinə, rəqabət qabiliyyətlilik dərəcəsinin müəyyən edilməsinə, biznes mühitin inyaxşılaşdırılması tədbirlərinə və perspektivli klasterlərdəki investisiya fəaliyyətinə əsaslanır. Mütəxəssislərin fikrincə, inkişaf etmiş ölkələrdə belə bir strategiyanın tətbiqi rəqabət-qabiliyyətinin yüksək reytinqlərinə səbəb olur [2, s.101].

Regionlarda klasterlərin yaradılması və inkişafı yolu ilə onların rəqabət qabiliyyətinin artırılması bir sıra mərhələləri əhatə edir ki, bunu da aşağıdakı cədvəl vasitəsilə əks etdirə bilərik (cədvəl).

Cədvəl.

Regionun rəqabət qabiliyyətinin artırılması mərhələləri.



Cədvəldə göstərilən mərhələlərin hər birini daha ətraflı nəzərdən keçirək. Birinci mərhələ mövcud metodlardan istifadə etməklə regionun rəqabət qabiliyyətinin qiymətləndirilməsini əhatə edir. İkinci mərhələ korrelyasiya və repressiya təhlili metodundan istifadə edərək regionun rəqabət qabiliyyətini ən çox təsir edən amillərin müəyyənləşdirilməsini əhatə edir. Üçüncü mərhələ klasterlər yerləşdirməklə regionun rəqabət qabiliyyətini artırmaq üçün bir mexanizm inkişaf etdirməyi əhatə edir. Bu prosesin həyata keçirilməsində ən böyük rolu, ilk növbədə, regional idarəetmə orqanları oynayır ki, onlar da klaster yaratmaq üçün hansı sənayenin ən sərfəli olduğuna dair qərar qəbul edirlər. Dördüncü mərhələ klasterin işinin nəticələrinin regionun rəqabətqabiliyyətliliyinin artırılmasına təsir dərəcəsinin qiymətləndirilmə-sindən ibarətdir ki, bu da iqtisadi-riyazi modelləşdirmə ilə həyata keçirilir [1, s.29].

Nəticə olaraq deyə bilərik ki, işğaldan azad edilmiş rayonlarda regional klasterlərin formalaşması biznes üçün yeni imkanlar yaradacaq, sahibkarlığın inkişafına, məşğulluğun artırılmasına, eləcə də bu sahədə əməkdaşlığın həyata keçirilməsi yolu ilə həmin ərazilərin və bütövlükdə ölkənin rəqabət qabiliyyətinin artırılmasına kömək edəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Винокурова М.В. Методические подходы к повышению конкурентоспособности региона. Известия ИГЭА. 2006, № 4 (49), с.29-31.

2. Глоова А.В., Зыбин О.С. Кластер как инструмент повышения конкурентоспособности региона. Вестник ЮурГУ, №20, 2010, с.101-106.

3. Савзиханова С.Э. Роль кластера в развитии экономики региона и повышении его конкурентоспособности. Российское предпринимательство, № 15(261), август 2014, с.95-102.

Allahverdiyeva A.U., baş elmi işçi,
AMEA İqtisadiyyat İnstitutunun
"Həyat səviyyəsinin sosial-iqtisadi
problemləri" şöbəsi
Email:allahverdiyevaamaliya@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SAHİBKARLIĞIN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

Azərbaycan xalqı tarixin yadda qalan şərəfli anlarını yaşayır. Ali Baş Komandan, Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti və rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu otuz ilə yaxın bir dövrdə, mənfur qonşumuz tərəfindən işğal edilmiş Qarabağdakı əraziləri düşməndən azad edərək bizə qələbə sevinci bəxş etdi. Məhz bu sevincli məqamda bu ərazilərin iqtisadi potensialı haqqında planlar tərtib edib ondan səmərəli istifadə etməklə sahibkarlığın inkişafı istiqamətlərini müəyyən etmək lazımdır. Bu ərazilərin Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyəti iqtisadi dəyərindən xeyli üstündür. Qeyd etmək lazımdır ki, işğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi maliyyə xərclərini dəfələrlə üstələyəcəkdi

Qeyd etmək lazımdır ki, işğaldan azad edilən zonalarda yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun inkişafına əsaslı təkan verəcəkdir və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artacaq və ixracyönümlü məhsulların istehsalı da artacaqdır. Bu əminliyin maddi bazasını isə işğaldan azad edilmiş ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını öz doğma yurdlarına qayıdan insanlar təşkil edəcəkdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumatlara görə işğaldan azad edilən ərazilərdə 167 müxtəlif təyinatlı faydalı qazıntı yataqları vardır. Onların 5-i sement və soda üçün xammal, 42-si üzlük, mişar və müxtəlif növ tikinti daşları, 14-ü əlvan və bəzək daşları, 19-u gips və gil, 14-ü qum-çınqıl və tikinti qumu, 21-i pemza və vulkan külü yataqlarıdır. Hesablamalara görə, həmin yataqlarda ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl; 37,3 min ton qurğuşun,129,8 milyon kubmetr soda istehsalı üçün əhəngdaşı; 147,1 milyon ton-sement xammalı; 2,1 milyon kubmetr pemza və bir çox faydalı qazıntılar mövcuddur ki, bunlarda ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan xammallardır.

Eyni zamanda azad edilmiş ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif materiallarla, su ehtiyatları ilə zəngindir ki, bu da ölkənin sənaye və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş bölgələrdə müalicə əhəmiyyətli 120-dək müxtəlif tərkibli mineral su yataqları vardir ki, bütünlükdə mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 40%-i işğaldan azad edilən rayonların payına düşür. Regionun enerji resurslarına gəlincə, orada iqtisadiyyatın bütün sahələrinin, eləcə də əhalinin enerjiyə olan tələbatının ödənilməsində təminatçı rolunda çıxış edəcək.

Bütün bu göstəricilər onu göstərir ki, bu ərazilərdə sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş əlaqəsinin yaradılması üçün yetəri qədər xammal və enerji

resursları mövcuddur. Hal-hazırda qarşıda duran başlıca vəzifə bu resurslardan qənaətlə və səmərəli istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir. Qeyd etmək lazımdır ki, erməni vandalları tərəfindən dağıdılan əraziləri, daşınmaz əmlakı, maddi və mənəvi sərvətləri qısa müddətdə bərpa etmək o qədər də asan olmayacaqır. Onu da əminliklə söyləmək lazımdır ki, xalqımız üçün 30 illik həsrətə son qoyan, öz uzaqgörən siyasəti, diplomatik bacarığı və qətiyyəti ilə doğma Qarabağımızın işğaldan azad edilməsi prosesinə uğurla rəhbərlik edən, ən yüksək rütbəyə və Milli Qəhrəman adına layiq olan ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə dəstəyi ilə çətin və olduqca mürəkkəb sosial-iqtisadi problemlər də qısa müddət ərzində öz müsbət həllini tapacaqdır.

Ölkə Prezidentinin 29 oktyabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" imzaladığı Fərmanda işğaldan azad edilən rayonlarda müvəqqəti komendantlıqların yaradılması və onların nəzdində fəaliyyəti zəruri hesab edilən dövlət qurumlarının nümayəndələrinin təmsil edilməsi, vaxt itirmədən ərazilərin qorunması və bərpası, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi, ictimai təhlükəsizliyin qorunması və digər vacib məsələlər öz əksini tapmışdır.

Ölkə Prezidenti 06 noyabr 2020-ci il tarixdə cari ilin sentyabr ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə xüsusi Dövlət Komissiyası yaratmış və ona tapşırılmışdır ki, dəymiş ziyanı qiymətləndirərək onların aradan qaldırılması, zərər dəymiş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitləri haqqında təkliflərini ölkə prezidentinə təqdim etsin və xərclərə aid vahid məlumat bazasının yaradılması təmin olunsun.

Azad edilən rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji xarakterli tədbirlərin işlənməsi və həyata keçirilməsi tələb olunur.

Hələ 2010-cu ildə Qafqaz Strateji Tədqiqatlar İnstitutunun dəstəyi ilə ölkəmizin tanınmış iqtisadçı alimləri Nazim Müzəffərli və Eldar İsmayılov tərəfindən hazırlanıb çap edilən "Azərbaycanın post-konflikt ərazilərinin bərpası (konseptual əsaslar)" adlı fundamental monoqrafiya işğaldan azad edilən ərazilərin bərpası üçün normativ-hüquqi bazanın və müvafiq dövlət proqramlarının işlənməsi üçün təkmil tədqiqatın nəticəsi kimi çıxış edə bilər.

Monoqrafiyanın əhəmiyyətini nəzərə alaraq ölkəmizin iqtisadi fəaliyyət sahələrində sahibkarlığın inkişafına dair son illər qarşıya qoyulan məqsəd və vəzifələrin icrasını rəhbər tutaraq, işğaldan azad edilən bölgələrdə sahibkarlıq fəaliyyətini bərpa və inkişaf etdirmək üçün bəzi təklif və tövsiyələrin nəzərə alınması məqsədəuyğun

olar:

Qeyd etmək lazımdır ki, işğaldan azad edilən rayonlar üçün icra ediləcək tədbirlər nəzərdə tutulmamışdır. Nəzərə alsaq ki, savaş zamanı mənfur qonşumuz digər əraziləri də atəşə tutaraq böyük sayda dağıntılar törətmişdir, onda görülən işlərin miqyasını müəyyən etmək o qədər də çətin deyil.

Bu baxımdan sosial-iqtisadi tədbirlər üç istiqamətdə görülməlidir:

- qismən bərpa ediləcək rayonlar (Ağdam, Tərtər, Bərdə, Ağcabədi, Gəncə, Füzuli);
- nisbətən az bərpa ediləcək rayonlar (Xankəndi şəhəri, Xocalı, Şuşa, Xocavənd);
- tam bərpa ediləcək rayonlar (Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan).

Həyata keçiriləcək tədbirlərin zəruriliyini nəzərə alsaq, onda" İşğaldan azad edilən ərazilər haqqında" Azərbaycan Respublikasının Qanununun, onun tam bərpası və sosial-iqtisadi inkişafı üçün məqsədli dövlət proqramının, eləcə də Strateji Yol Xəritəsinin işlənilməsi və qəbul edilməsi vacibdir.

Azad edilən ərazilərə əhalinin mərhələlərlə qaytarılması və demoqrafik tərkibinin müəyyən edilməsi vacib şərtlərdən biridir. Bu prosesin icrası qaçılmazdır, ən azı ona görə ki, azad edilən rayonlarda bütün yaşayış məntəqələri məhv edilmişdir. Bərpa üçün isə zaman lazımdır.

Əhalinin təhlükəsizliyini təmin etmək üçün sərhəd təhlükəsizliyi sistemi yaradılmalı, ərazilər minalardan təmizlənməli, yararsız hala salınmış torpaqlar istifadə üçün yararlı hala salınmalıdır.

Azad edilən ərazilərin abadlaşdırılması üçün yerli xammal istehsal edən müəssisələrin işini bərpa etmək üçün rayonları təmsil edən 35-ə yaxın tikinti təşkilatları azad olunmuş ərazilərə köçürülməlidir. Eləcə də, dövlət özəl və xarici şirkətlər cəlb etməklə respublika və yerli əhəmiyyətli avtomobil, həm də Horadiz-Naxçıvan və Bərdə-Xankəndi dəmir bərpa olunmalıdır. Bu şirkətlər vasitəsi ilə ilk növbədə mobil rabitə, poçt-rabitə şəbəkələri bərpa olunmalı, eyni zamanda asfalt-beton zavodlarının tikintisi, elektrik enerjisi, su və qaz təchizatının bərpası işləri həyata keçirilməlidir.

Yeni yaradılacaq sahibkarlıq subyektləri, mikro və kiçik müəssisələrin dağıntıya məruz qalan yaşayış məntəqələrinin, o cümlədən 14 şəhər və 46 qəsəbənin bərpasında fəal iştirakı şübhə doğurmur. İşğaldan azad edilən şəhər və kəndlərdə mikro, kiçik və orta sahibkarlar tərəfindən müasir mağazalar, məişət və iaşə xidmətləri, çoxlu sayda xəstəxana və poliklinikalarin, məktəb və uşaq bağçalarının, digər sosial obyektlərin tikilib istifadəyə verilməsi vacib şərtlərdəndir. Sahibkarlıq subyektlərinin təşkili prosesində güzəştli vergi və kredit sistemləri də nəzərə alınacaqdır.

Azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı kimi dövlət büdcəsindən və Dövlət Neft Fondundan ayrılan vəsaitlər, xarici investisiyalar, sığorta təşkilatlarının vəsaiti, birdəfəlik təmənnasız ianələr, aşağı faizli bank kreditləri və əhalinin öz pul vəsaitləri çıxış edə bilər.

Əliyeva Səbinə Təbriz qızı,
iqtisadiyyat üzrə fəlsəfə doktoru,
Azərbaycan Texniki Universiteti

DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNDƏ İNVESTİSİYA-İNNOVASİYA SİYASƏTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Dövlətin iqtisadi siyasəti - ictimai məqsədlərə nail olmaq üçün iqtisadiyyatın idarə edilməsi sahəsində məqsədyönlü tədbirlər sistemidir. İqtisadi siyasət istehsal, bölgü, mübadilə, istehlak, yığım, idxal, ixrac və s. sahələrdə dövlət tərəfindən həyata keçirilən tədbirlər məcmusudur. Dövlətin iqtisadi siyasəti ölkədaxili və beynəlxalq konyunkturadan, bazarın vəziyyətindən, iqtisadi aktivliyin səviyyəsindən, iqtisadi tsiklin mərhələsindən asılıdır. Dövlətin iqtisadi siyasətinin subyektləri kimi dövlət-hakimiyyət strukturları və dövlət üstü qurumlar çıxış edir. Dövlət subyektlərinə qanunverici, icraedici və nəzarətedici qurumlar daxildir və ərazi baxımından onlar mərkəzi, regional və yerli hakimiyyət orqanlarına bölünür. Dövlət üstü qurumlara beynəlxalq dövlətlərarası birliklər, həmkarlar ittifaqları, sahibkarlar ittifaqları və s. daxildir. Bunlardan başqa, dövlətin iqtisadi siyasətinə ictimai təşkilatlar, siyasi partiyalar, müxtəlif lobbilər təsir göstərə bilər. Dövlətin iqtisadi siyasətinin bir çox istiqamətləri var: büdcə-vergi, pul-kredit, antitsiklik, struktur, amortizasiya, investisiya. Dövlətin investisiya-innovasiya siyasəti 6 innovasiya, elmi-texniki, regional, ekoloji, sosial, qiymət, xarici-iqtisadi, antiinflyasiya və sairədən ibarətdir. Adı çəkilən müxtəlif istiqamətlərin mövcudluğu onların bir-biri ilə qarşılıqlı əlaqəli və təsirinin olmasını nəzərə alaraq dövlətin iqtisadi siyasətinin kompleks şəkildə həyata keçirilməsini tələb edir. Məsələn, büdcə və pul-kredit siyasətləri vasitəsi ilə dövlət iqtisadiyyatın bütün sahələrində sahibkarlığı stimullaşdırır, iqtisadi tsiklə, investisiya aktivliyinə təsir edir, regional inkişafı təmin edir, xarici-iqtisadi fəaliyyəti tənzimləyir və s. təsir göstərir. Konkret investisiya siyasətinə gəldikdə, o, iqtisadi artımı təmin edən aparıcı qüvvədir, onun vasitəsi ilə ölkənin struktur siyasəti müəyyən edilir, bu strukturun proqressiv və səmərəli olmasına xidmət edir. İnvestisiya və iqtisadi artım arasında olan əlaqəyə dair 2 yanaşma mövcuddur. Birinci yanaşmaya əsasən investisiyalar iqtisadi artımın əsas şərtidir və ölkədə yığım nə qədər çox olarsa, o qədər iqtisadi artım templəri yüksək olar. İkinci yanaşmaya əsasən yüksək tələb olunan istehsalın artırılmasına və firmaları investisiyalar qoymağa vadar edir, başqa sözlə desək, istehsalın və satışın yüksəlməsinə görə firmaların gəlirləri artdıqca investisiya imkanları da artır. Bu fərqli yanaşmalara müvafiq olaraq dövlətin kapital yığımına dair iki fərqli mövqeyi mövcuddur. Birinci yanaşmaya əsasən dövlətə yığım həvəsləndirmək və istehlakı məhdudlaşdırmaq tövsiyə olunur. İkinci yanaşmaya əsasən tələbi, o cümlədən istehlak tələbini stimullaşdırmaq və onun vasitəsi ilə iqtisadi inkişafa nail olmaq tövsiyə olunur. Bazar iqtisadiyyatı ölkələrində iqtisadiyyatın inkişafı iqtisadi artımda investisiyaların aparıcı rolunu təsdiqləyir. Bu ölkələrdə nə vaxtsa mövcud olmuş "gəlirlərin aşağı səviyyəsi – yoxsulluq – yığımın aşağı səviyyəsi – investisiyaların aşağı səviyyəsi – gəlirlərin artımının aşağı

səviyyəsi" dövranı sonradan yeni daha yüksək dövran səviyyəsinə keçidlə əvəz olundu ki, bu da – "gəlirlərin yüksək səviyyəsi – yüksək həyat səviyyəsi – yüksək yığım səviyyəsini", o da öz növbəsində Dövlətin investisiya-innovasiya siyasəti 7 daha yüksək investisiya səviyyəsi və gələcək iqtisadi artım üçün zəmin yaratdı. Bu model bir sıra ölkələrdə tətbiq olunmuş, insan və maddi kapitalın yığımında vacib katalizator rolunu oynamışdır. İnvestisiya – ÜDM tərkib hissəsidir və ÜDM-in yüksək artımı investisiyaların artımı ilə müşahidə olunur. İqtisadi artım, bir qayda olaraq, investisiya qoyuluşlarının artması, canlanma (bumu) ilə müşahidə olunur. Lakin yığımın artırılması heç də hər zaman iqtisadi artıma zəmanət vermir. Belə ki, Asiyanın Cənub-Şərq ölkələrində baş vermiş "iqtisadi möcüzənin" tədqiqi göstərir ki, onlarda olan inkişaf iqtisadi artımın yalnız bir hissəsinin əsas kapitala yönəldilən investisiyalar hesabına əldə edilirsə, bir o qədəri də insan kapitalı hesabına baş verir. Bu, onu göstərir ki, dayanaqlı artıma nail olmaq üçün yalnız investisiyaların artırılması kifayət deyil. Burada investisiyaların həcmindən başqa onların keyfiyyəti, səmərəliliyi və əlverişli investisiya mühitinin yaradılması daha önəmlidir. İnvestisiyaların səmərəliyini təmin etmək üçün dəqiq məqsədlər, vəzifələr və tələblər qoyan dövlət investisiya siyasəti tərtib olunmalı, uzunmüddətli inkişaf strategiyasının parametrləri və ona müvafiq yığım norması müəyyən edilməlidir. Bu məqsədə nail olmaq üçün növbəti mərhələdə iqtisadiyyatda investisiya resurslarının kifayət olması müəyyən olunur və onlar kifayət olmayan halda əlavə tədbirlər vasitəsi ilə tələb olunan resursları yaratmaq üçün yığım və investisiyaların stimullaşdırmasından istifadə olunur. Bu mərhələdə vergi sistemi və dövlət büdcəsinin kəsirinin səviyyəsi önəmli rol oynayır. Uzun müddətli vəzifələrdən başqa investisiya siyasəti çərçivəsində carı məsələlər öz həllini tapmalıdır. Bu da investisiya səviyyəsinin sabitləşməsi və onun üçün sabit makroiqtisadi mühitinin yaradılması, inflyasiyanın aşağı səviyyəsinə nail olması, tarazlaşdırılmış xarici ticarət və real faiz dərəcəsinin optimal olması zərurətini doğurur. Beləliklə, investisiya siyasəti dövlətin iqtisadi siyasətinin digər istiqamətləri ilə qarşılıqlı əlaqədədir və onunla digər iqtisadi siyasətlərin - Dövlətin investisiya-innovasiya siyasətinin 8 bir-birinə qarşılıqlı təsiri artıq aşkar olunmuşdur. Reallıqda bu əlaqə və qarşılıqlı təsir daha mürəkkəbdir və ölkənin iqtisadi durumu, tsiklin mərhələsi və bir çox amillərdən asılı olaraq güclənib zəifləyə bilər. Ümumən, dövlətin investisiya siyasəti iqtisadiyyatda kı, rolunu tam açıqlamaq üçün onun digər sahələrə, proseslərə təsirini izah etmək lazım gəlir. Bu gün modernləşən və rəqabətqabiliyyətli iqtisadi sistemin davamlı inkişaf etməsi baxımından dövlətin investisiya-innovasiya siyasətini reallaşdırmaq üçün öz qarşısında bir sıra həlli vacib sayılan vəzifələr qoyulur ki, onlar da bu siyasətin rolunu açıqlayır. Həmin vəzifələrə aşağıdakılar şamil edilir:

- iqtisadiyyatın innovasiya əsasında inkişafı üçün ETT nailiyyətlərinin tətbiqinin stimullaşdırmaq;
- rəqabətqabiliyyətli sahələrin inkişafını təmin etmək;
- ölkəni beynəlxalq əmək bölgüsündə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq;
- modern iqtisadi sistemin qurulmasını stimullaşdırmaq;

- ölkə üzrə yüksək məşğulluq səviyyəsinə nail olmaq;
- xarici ixrac və daxili təminat potensialını artırmaq və s.

Onu da qeyd etmək lazımdır ki, bu vəzifələri yerinə yetirmək üçün investisiya və innovasiya anlayışlarının, onların növ və formalarının tətbiqi imkanlarını dəqiqləşdirməyə ehtiyac duyulur.

İnvestisiya siyasəti vasitəsi ilə dövlət maliyyə və pul-kredit mexanizmindən istifadə edərək ictimai istehsalın artımına və tənasübünə təsir göstərir. Əgər investisiya siyasəti innovasiya xarakterlidirsə, buna investisiya-innovasiya siyasəti deyilir. Bu siyasətin əsasını təşkil edən və əsas məqsəd olan investisiya-innovasiya fəaliyyətinin aktivliyinin artırılmasında dövlət aparıcı rol oynayır. Dövlətin investisiya-innovasiya siyasəti iqtisadi proseslərə dövlət müdaxiləsinin vergi, maliyyə-kredit, amortizasiya, lisenziya, qiymət və xarici investisiyaların cəlb edilməsi və digər mexanizmlərinin tətbiqi səviyyəsindən və sahədə həyata keçirilən siyasətlə əlaqəlidir. Bundan başqa, investisiya-innovasiya siyasəti hüquqi və inzibati idarəetmə sistemi ilə sıx əlaqəlidir. Hüquqi bazasından asılı olaraq formallaşdırılmış və qeyri-formallaşdırılmış investisiya siyasəti mövcuddur. Formallaşdırılmış investisiya siyasəti investisiya prosesinin əsas parametrlərini tənzimləyən tamamlanmış hüquqi bazası olan siyasətdir. İnvestisiya prosesinin parametrləri dedikdə, bura vergi, qiymət, gəlir, gömrük-tarif sistemi, avadanlığın amortizasiya müddəti və üsulları, əsas fondların uçot üsulu və s. nəzərdə tutulur. Bir qayda olaraq, formallaşdırılmış investisiya siyasətində dövlətin kapital qoyuluşu səviyyəsi yüksək olur. Qeyri-formallaşdırılmış investisiya siyasətində dövlətin kapital qoyuluşu səviyyəsi az, xüsusi kapital qoyuluşların səviyyəsi isə yüksək olur. Bundan başqa, qeyri-formallaşdırılmış investisiya siyasətində investisiya prosesinin hüquqi bazası sistemləşdirilməyib. İdarə edilmə tipinə görə liberal və mərkəzləşdirilmiş investisiya siyasəti fərqlənir. Liberal tip investisiya siyasətində iqtisadi idarəetmə metodları istifadə olunur, investisiya sistemi isə şaquli xarakter daşıyır və aşağıdakı kimi belə ifadə edilə bilər: dövlət - maliyyə institutları - iri biznes – xırda investorlar. Liberal tip investisiya siyasətində bir çox investisiya mənbələri və inkişaf etmiş maliyyə infrastruktur mövcuddur. Burada dövlətin rolu investor və investisiya obyekti arasında "oyun qaydalarını" müəyyən etməkdən ibarətdir. Belə siyasət nəticəsində iqtisadiyyat özü-özünü tənzimləyir və nisbətən azad inkişaf edir. Mərkəzləşdirilmiş investisiya siyasətinin əsas cəhəti – Dövlətin investisiya-innovasiya siyasəti 13 birbaşa, əsasən də, inzibati üsullardan istifadə edilməsidir. Burada müxtəlif dövlət strukturları tərəfindən investisiya resursları akkumulyasiya olunur, mərkəzləşdirilmiş qaydada uzun müddətli proqnozlaşdırılma aparılır və investisiya prosesləri daha sərt reqlamentləşdirilir. Qeyd etmək lazımdır ki, investisiya prosesinin sırf liberal və ya mərkəzləşdirilmiş inkişafı reallıqda mövcud deyil. Reallıqda investisiya siyasətində həm liberal, həm də mərkəzləşdirilmiş siyasətin elementlərindən istifadə olunur. İqtisadi vəziyyətdən asılı olaraq, siyasətin bu iki elementinin mütənasibi dəyişir. Məsələn, iqtisadiyyatda canlanma müşahidə olunursa, mərkəzləşdirilmiş sistemin elementlərinin istifadəsinə ehtiyac olmur. Əks halda, xüsusən də böhran zamanı investisiya fəaliyyətini stimullaşdırmaq tələb olunur. Dövlətin investisiya siyasəti maliyyə sistemi vasitəsi ilə həyata keçirilir.

Ölkənin maliyyə sistemi iqtisadiyyatın, dövlətin, cəmiyyətin fəaliyyətini və maliyyələşdirilməsini təmin edən maliyyə münasibətləri, maliyyə institutları və fondları məcmusundan ibarətdir. Maliyyə sistemi akkumulyasiya, bölgü və nəzarət funksiyasını həyata keçirir. Maliyyə sisteminə dövlət büdcəsi, bələdiyyə büdcələri, büdcədənkənar fondlar, dövlətin kredit sistemi, sığorta sistemi, müxtəlif mülkiyyət növləri, müəssisələrin öz maliyyə resursları, əhali və sahibkarların şəxsi vəsaiti daxildir.



Şəkil 1. Ölkənin maliyyə sistem.

Dövlət maliyyə sisteminə dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət krediti, sığorta fondları, fond bazarları daxildir. Müəssisə və təşkilatların maliyyə vəsaitinə dövlət, qarışıq, kollektiv, bələdiyyə, fərdi, səhmdar, ictimai müəssisələr daxildir. Bank sisteminin vəsaitlərinə qızıl-valyuta ehtiyatları, pul vəsaiti, kreditlər, depozitlər, qiymətli kağızlar aiddir. Ev təsərrüfatlarının maliyyə vəsaiti əhalinin pulları, banka qoyulan vəsait, qiymətli kağızlar və digər maliyyə aktivlərinə qoyulan vəsait, qiymətli metallara, pensiya və digər fondlara qoyulan vəsaitləri aid etmək olar. Beləliklə, maliyyə sisteminin tərkib hissələri bir-biri ilə qarşılıqlı əlaqədədirlər.

İstifadə olunmuş ədəbiyyat:

1. Abasova S.H. Texnologiyalar və yeniliklərin idarə edilməsi. Bakı, 2008.
2. Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanunu.
3. Azərbaycan Respublikasının "Xarici investisiyaların qorunması haqqında" Qanunu.
4. Əhmədov M.A., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti. Bakı-2011.
5. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı-2011.
6. Hüseynov T. Azərbaycanda bazar sisteminin iqtisadi problemləri. Bakı-2004.
7. Qasımov F.H., Həsənova P.Ə. Azərbaycanda təbii inhisarçılıq sferasında innovasiya fəaliyyəti. Bakı – Elm, 2010, 300 s.
8. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı – Elm.

Əmirova Fəridə Şamil qızı, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Email: f.amirova51@mail.ru

UĞURLU İNKİŞAF YOLU – HEYDƏR ƏLİYEV YOLU

Azərbaycan dövlətinin iqtisadi inkişaf yol xəritəsi 17 ildən çox aramızda olmasa da, Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdış etdiyi dövrdən yeni sistemə müvafiq uğurla düşünülmüş şəkildə formalaşdırıldı. Bu yol, onun dövlətimizin uğurlu gələcək inkişaf istiqamətləri və prioritetləri, ideyaları, yaratdığı dövlətçilik məktəbi, bizə ərməğan etdiyi müstəqil, demokratik Azərbaycan prezidenti, uğurlu davamçı, cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilir, onun apardığı islahatlar nəticəsində dinamik inkişaf edərək uğurlar qazanır.

Hələ 1970-80-ci illərdə Heydər Əliyev cənabları Azərbaycanı keçmiş İttifaqın tərkibində olduğu dövrlərdə də hakimiyyətdə olduğu illərdə dövlətimizin müstəqil gələcəyi üçün hərtərəfli potensialın yaradılmasını təmin edəcək siyasət aparırdı.

1993-cü ildə xalqın iradəsi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev cənabları Azərbaycan dövlətinin uğurlu inkişaf etdirilməsi, onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasını, ölkədə daxili iqtisadi inkişaf tempini, bu istiqamətdə genişmiqyaslı quruculuq işlərini təmin edən islahatları reallaşdıran siyasət yürüdürdü. Ulu Öndərin keçdiyi ömür yoluna nəzər salsaq, bir həqiqətlə rastlaşırıq. Böyük şəxsiyyətləri fərqləndirən ali xüsusiyyətlərdən biri onların bu günlə bərabər, gələcək dövrü düşünmələri, ölkənin, onun iqtisadi inkişafının, bu dövlətdə yaşayan insanların həyatında mühüm rol oynayan strateji qərarlar qəbul etmək bacarıqları, uzaqgörənlikləridir. Təbii qanunauyğunluq kimi qəbul olunan bu qərarlar sonradan xalqın, dövlətin inkişafı, tərəqqisi baxımından xüsusi önəmə malikdir. Bu baxımdan Ümummilli Lider, xalqın sevimlisi Heydər Əliyev Azərbaycan dövləti və xalqı naminə qəbul etdiyi qərarların strateji əhəmiyyətini bu gün də gündəlik həyatımızda hiss edirik.

Bu, ilk növbədə gənc nəslin müasir sistemə müvafiq ideoloji təməl prinsipləri əsasında milli ruhda tərbiyələndirilməsi, milli dövlətçilik ideyasında yetişdirilib, gələcəkdə ölkədə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün real zəminin formalaşdırılması idi.

Ümummilli Lider hələ ötən əsrin 70-80-ci illərində və sonrakı dövrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərini kompleks şəkildə müdrikliklə hazırlayırdı. İqtisadiyyatın bir sahəsinin timsalında bu reallıqları biz konkret olaraq nəzərdən keçirə bilərik. Azərbaycanda dəmiryolu infrastrukturunun inkişaf yoluna nəzər salaq.

Dəmiryolu nəqliyyatının inkişafı ölkəmizdə XIX əsrin sonlarına təsadüf edir. Bu dövrdə neft sənayesinin inkişafı istehsal olunmuş məhsulun daşınmasını zəruri edirdi. Bu baxımdan Azərbaycanda dəmiryolu çəkilişinə başlanması, onun sonrakı inkişafı, neft istehsalı və emalı ilə birbaşa bağlıdır. Həmin dövrdə neftin primitiv üsullarla, dəvə karvanı və arabalarla daşınması çox baha başa gəlirdi. Bu neft sahibkarlarına daha yüksək gəlir əldə edilməsinə şərait yaradacaq dəmir yollarının çəkilməsinə maraq göstərirdilər. Bu, elə neftin daşınması, öncə Bakı şəhərində, daha sonra bütün Azərbaycanda dəmiryolunun inşası və inkişafı üçün zərurət yaratdı. Ölkənin ilk dəmiryolu xətti

1878-ci ildə çəkilmiş 20 km uzunluğu olan Bakı-Suraxanı-Sabunçu dəmir-yoludur. Daha sonra 1883-cü ildə salınmış Bakı-Tbilisi-Batumi, 1890-cı ildə çəkilmiş Biləcəri-Dərbənd dəmiryoludur.

Dəmiryolu ilə yükdaşınmanın maksimum həcmi 1987-ci ilə təsadüf edir. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan dəmiryolunda yük dövriyyəsi 43 milyard ton-kilometr olmuşdur. SSRİ dövründə də qeyd etmək lazımdır ki, 1926-cı ildə ilk elektrikləşdirilmiş dəmiryolu Bakı-Sabunçu xətti olmuşdur.

Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə də bu ölkədə iqtisadiyyatın bu sahəsinə xüsusi diqqət yetirmiş və bu sektorda mühüm işlərin görülməsinə rəhbərlik etmişdir. Ümumiyyətlə, iqtisadiyyatın bu sahəsinin də inkişaf tarixinin böyük bir hissəsi cənab Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qayğı və diqqəti sayəsində Azərbaycan dəmiryolu infrastrukturu özünün ən yüksək inkişaf həddinə çatmışdır. Hələ SSRİ dövründə Şirvan, Yevlax, Balakən, Şəki, Güzdək-Qarabağ dəmiryolu xətləri və digər dəmiryolu stansiyaları istismara verilmişdir.

1975-ci ildə konteynerlərin təmiri üzrə Keşlə vaqon deposu Zaqafqaziyada bu sahədə ixtisaslaşmış yeganə müəssisə olaraq istifadəyə verilir ki, bu gün də Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə inşa olunmuş bu depo bütün konteyner parkının əsaslı və planlı cari təmirini həyata keçirir. Gəncə şəhərində texniki nailiyyətlərin son tələblərinə uyğun yük vaqonlarının təmiri və istismarı, gün ərzində 60 elektrovoza texniki baxış keçirmək güçünə malik Şirvan dövriyyə depoları da bu qəbildəndir.

Azərbaycan 90-cı illərin əvvəllərində dərin tənəzzül keçirirdi. Həmin dövrdə bütün sahələrdə olduğu kimi dəmiryolu sahəsi də bir tənəzzül içində idi. Ümummilli lider Heydər Əliyev iqtisadiyyatın bütün sahələrini, eləcə də respublikanın polad şəbəkəsini diqqət mərkəzində saxladı. Bununla paralel olaraq dəmiryolunun idarəetmə strukturları dəyişdirildi, xidmət və şöbələrin bazasında müstəqil fəaliyyət göstərən istehsalat birlikləri, müəssisələr və təşkilatlar formalaşdırılırdı. Ölkələrarası, respublikadaxili sərnişin daşınması təşkil olundu, qonşu dövlətlərlə dəmiryolları və iqtisadi əlaqələr yenidən quruldu. Tranzit yükdaşımaları bərpa olundu.

1998-ci ildə Dübəndidə terminal və stansiyanın açılışı həyata keçirildi. Heydər Əliyev dəmiryolunun Azərbaycan iqtisadiyyatındakı böyük rolunu bilir və dəyərləndirirdi. Çünki, hər bir ölkənin geosiyasi və geoiqtisadi mövqeyinin gücü həm də onun nəqliyyat sisteminin inkişafından asılıdır. Bu mənada da dəmiryolu nəqliyyatının rolu mühüm önəm daşıyır. Çünki, milli iqtisadiyyatların qarşılıqlı asılılığının getdikcə artdığı, regionlararası, qitələrarası mal dövriyyəsinin yüksəldiyi bir şəraitdə dəmiryolu nəqliyyatı dövlətlərin inkişafının təkanverici elementinə çevrilmişdir. Bu baxımdan ölkəmizdə dəmiryolu sisteminin tərəqqisi daim dövlətin diqqət mərkəzindədir və bu gün iqtisadiyyatın prioritet istiqamətlərindən biridir.

Ulu Öndərin layiqli davamçısı olan dövlət başçısı İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət yetirir. Ölkəmizdə 2005-ci ildən 13 oktyabr tarixi dəmiryolu işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Cənab İlham Əliyevin 2009-cu il 20 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Dəmiryolları" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu gün Azərbaycan dəmiryollarının inkişafı üçün bütün imkanlar vardır.

Beynəlxalq maliyyə qurumları ilə bu gün "Azərbaycan Dəmiryolları" arasında iqtisadi əlaqələr daha da intensivləşib. Azərbaycan dəmir yollarının infrastrukturu

yeniləşmiş, göstərilən xidmətlərin səviyyəsi artırılmışdır. Bakı Dəmiryolu vağzalında əsaslı yenidənqurma işləri həyata keçirilmişdir. Bakı-Sumqayıt sərnişin dəmiryolu yenidən əsaslı təmir olunub istifadəyə verilib. Qonşu İran dövləti ilə gələcək iqtisadi inkişafa təkan verəcək Astara (Azərbaycan) – Astara (İran) dəmiryolu uğurla istifadəyə verilmiş. Avrasiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində önəmli olan layihələrdən biri Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilmişdir.

İkinci Qarabağ-Vətən müharibəsindən sonra da bu sahənin inkişafı diqqət mərkəzində olaraq qalır. Naxçıvandan çəkiləcək dəmiryolu geosiyasi və geoiqtisadi üstünlüklərə malikdir. Bu Avropa ilə Asiyanın unikal nəqliyyat kommunikasiya imkanlarına malik olan bir layihə olmasıdır. Bu layihəyə Türkiyə, İran da qoşulacaq, Ermənistan dövlətinin ərazisindən keçəcək bu beynəlxalq dəmiryolu layihəsinə Ermənistan dövləti hələ də cavab verməyib.

Bu layihələr bütövlükdə Azərbaycan dövlətinin beynəlxalq ticarətdə rolunun əhəmiyyətli dərəcədə artmasına və beynəlxalq aləmdə onun mövqelərinin möhkəmlənməsinə səbəb olacaq.

İstifadə olunmuş ədəbiyyat:

1. 2009-cu il 20 iyul tarixli "Azərbaycan Dəmiryolları" Qapalı Səhmdar Cəmiyyəti haqqında Sərəncam. Bakı, 2009
2. A.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti. Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, 2011.
3. Ş.Əliyev. Azərbaycan iqtisadiyyatı. Dərslik. Sumqayıt, 2018.
4. Maliyyə və uçot. Azərbaycan Respublikası Maliyyə Nazirliyi. 1 SSRN. 2222-5358.

Bədəlov Əlixan Mehman oğlu,
iqtisad elmləri namizədi, dosent,
Bayramov Murad Barat oğlu, müəllim,
Email: bizimmurad@yahoo.com,
Hüseynli Nuran Miraqil oğlu, müəllim,
Lənkəran Dövlət Universiteti

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNİN İNVESTİSİYA POTENSİALI VƏ ONUN TƏHLİLİ

Azərbaycanın işğaldan azad etdiyi tarixi ərazilərin böyük iqtisadi potensialı vardır. Bu tarixi ərazilərimiz həm aqrar üstünlüyü, həm də xammal bazası, emaledici sənaye istehsalı baxımından fərqlənirlər. Əsasən də bu regionun kənd təsərrüfatı potensialı kifayət qədər çoxdur. İşğal olunmuş ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Bu regionun Füzuli, Ağdam rayonları keçmiş dövrdə pambıq, taxıl, üzüm istehsalına görə respublikamızda aparıcı rayonlardan sayılırdı. Ölkəmizdə işğaldan əvvəlki dövrlərdə üzümçülükdə fərqlənən rayonlara Cəbrayıl, Qubadlı, Zəngilanı aid

etmək olar. Kənd təsərrüfatının heyvandarlıq sahəsi isə Laçın, Kəlbəcər, Qubadlı və Zəngilan rayonlarında daha çox inkişafa malik olmuşdur. Ölkənin daxili ət istehsalında həmin dövrlərdə qeyd edilən bu rayonların payı yüksək olmuşdur.

Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə meşə, su və torpaq resursları, aqrar sahə, emal sənayesi və turizmin inkişafı üçün böyük imkanlar yaradır. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir. Xüsusilə su ehtiyatlarının 72,7 faizi ölkə xaricində formalaşan Azərbaycanın işğal altında olan su resurslarına çıxışı əhəmiyyətlidir. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür. İşğal altındakı 2 qoruq, 4 yasaqlıq və tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük potensial var. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının turizm imkanları çox genişdir. Ən əsası azad edilən ərazilərin iqtisadiyyatı yenidən qurulacaq və yeni texnologiyalar tətbiq olunacaq, bu isə iqtisadiyyatı daha məhsuldar edəcək. Böyük xammal bazasına malik olan bu ərazilərimizdə qızıl, mis, civə, dəmir, mərmər və inşaat materialları və s. xüsusilə fərqləndirilə bilər.

Yuxarıda qeyd etdiyimiz bu fikirlərimizə əsaslanıb demək olar ki, azad olan ərazilərimizin həm sənaye, həm kənd təsərrüfatı potensialı vardır və bu rayonlarımızın xammal bazası, təbii resursları kifayət qədərdir. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təminə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozumuza görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla özümüzü təmin edə biləcəyik. Həmçinin Azərbaycanda dənli (çəltik daxil edilmir) bitkilər üzrə özünü təmin etmə səviyyəsi 70 faizə çatır. Torpaqlarımızın işğaldan azad olunması bizə imkan verəcəkdir ki, bu sahədə də vəziyyəti yaxşılaşdıraq.

İşğaldan azad olunan ərazilərdə iki iqtisadi rayonlarımızın – Yuxarı Qarabağ və Kəlbəcər Laçın iqtisadi rayonlarının iqtisadi potensialı və ölkə üzrə ümumi daxili məhsuldakı potensial payının qiymətləndirilməsi göstərir ki, bərpa prosesindən sonra həmin rayonlarımızda iqtisadiyyatın 10 dəfəyə yaxın artması mümkündür. İşğaldan azad edilmiş ərazilərin bərpası ilə yeni iş yerləri açılacaq ki, bu da Azərbaycan vətəndaşlarının işlə təminatına müsbət təsir edər. Artıq Tərtər rayonunun yenicə azad olunan Suqovuşan və Talış kəndlərinə gedən 29 kilometrlik avtomobil yollarının bərpasına başlanılmışdır.

"AzerGold" QSC və Azərbaycan Sənaye Korporasiyası Kəlbəcərdə ehtiyatların hasilatı və emalını həyata keçirə biləcək təcrübə, ixtisaslı kadr, ixrac və investisiya imkanlarına sahibdir. İkinci, işğaldan azad edilmiş Cəbrayılın yenidən tikilməsi üçün əksər tikinti materiallarının ehtiyatları - mişar daşı istehsalına yararlı tulus tuf, çaxmaqçay, tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı, qum-çınqıl, yəşəm, xalsedon və meşə ehtiyatları rayonun özündə vardır. Azərbaycan alimlərinin ilkin hesablamalarına görə qarşıdakı illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında əsas sahələr üzrə məhsulun ümumi buraxılışı milyard manatlarla ölçüləcəkdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində Azərbaycan hökuməti tərəfindən müvafiq addımlar atılır, intensiv fəaliyyət həyata

keçirilir. Qeyd edək ki, dövlət komissiyasının hesablamalarına görə, işğaldan azad olunmuş ərazilərdə ümumi ziyan 12,72 milyard dollardır. Bu rəqəmi hazırkı qiymətlərə keçirəndə 19,2 milyard dollar və ya 32,7 milyard manat təşkil edir. Ən ucuz başa gələn işlər qismində rabitə xətlərinin qurulması (indiki şəraitdə özəl şirkətlər bu işin bir hissəsini öz üzərinə götürüblər) və repatriasiya göstərilib. Ən bahalı işlərə isə evlərin (1,8 milyard), kənd təsərrüfatının (1,2 milyard), səhiyyə infrastrukturu (1,1 milyard) və təhsil obyektlərinin (1,1 milyard) bərpası aid edilib. Düzdür, bu rəqəmlər hər rayon üzrə dəyişir (məsələn, Zəngilan rayonunda yolların bərpası daha çox vəsait tələb edir, Füzuli rayonunda isə səhiyyənin), amma ümumi olaraq 8 661 milyon dollar hesablanıb. Bu rəqəmi indiki qiymətlərə keçirsək, artıq 22,3 milyard manat alınır. Müqayisə üçün, Azərbaycanın illik investisiya xərcləri (yollar, müxtəlif obyektlərin tikintisi və s.) təxminən 5-6 milyard manat təşkil edir. Hətta bütün investisiya xərcləri sabit şəkildə Qarabağın bərpasına yönəlsə belə, bizə ən azı 4-5 il lazım olacaq. Amma bu dövr ərzində digər layihələr də mövcuddur. Həmçinin nəzərə almaq lazımdır ki, 2000-ci ilin sənədinə görə həmin ərazilərdə ən azı, bu və ya digər formada evlər və müxtəlif tikililər qalmışdı. Amma son günlər izlədiyimiz videolardan gördümüyüz kimi, indi bir çox kəndlərdə ümumiyyətlə, heç divar da qalmayıb. Yəni, evlərin bərpası daha çox xərc tələb edə bilər. Beləliklə, ən optimist ssenariyə görə azad olunmuş torpaqların bərpası dövlətə 25 milyard manata, realist ssenariyə görə isə 40 milyard manata başa gələcək. Bundan əlavə, özəl şirkətlərin də kifayət qədər xərcləri olacaq (ticarət, rabitə, nəqliyyat və s.). Başqa sözlə, dövlət büdcəsinin bütün investisiyalarını ora yönəltsək, bərpa işlər ən azı 10 il davam edəcək. Bütün vəsaitlərin eyni istiqamətə yönləndirilməsinin mümkün olmadığını nəzərə alsaq, bu müddətin bir qədər də uzanacağı gözlənilən dir. Hesab edirik ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası üçün bizə ən azı 10 il və 25-30 milyard manat lazımdır.

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Həmin vəsait hesabına bu yerlərdə elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların, eləcə də mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi istiqamətində də zəruri addımlar atılacaqdır.

Dövlət investisiyaları ilə yanaşı, yerli və xarici sərmayələrin cəlb edilməsi ilə işğaldan azad olunan ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlərin həyata keçirilməsi əsas istiqamətlərdən hesab edilir.

Ölkə sahibkarları işğaldan azad edilmiş ərazilərdə qida və ictimai iaşə müəssisələrinin yaradılmasına və bu sektora investisiya qoyuluşuna böyük maraq göstərirlər. Bu istiqamətdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının fəaliyyətinin gücləndirilməsinə ehtiyac vardır.

İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlar KOBİA-ya müraciətlər etməklə istehsal, turizm, tekstil, tikinti, tibb fəaliyyət, eləcə də qida sənayesi üzrə ictimai iaşə və kənd təsərrüfatı sahələrində fəaliyyətini qurmalıdırlar. Hesab edirik ki, KOBİA tərəfindən işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və inves-

tisiya yatırmaq istəyən sahibkarlara lazımi informasiya, əlaqələndirmə və məsləhət xidmətlərinin göstərilməsi ilk növbədə təmin edilməlidir.

Hesab edirik ki, işğaldan azad edilən ərazilər Azərbaycanda iqtisadi inkişafa töhfə verəcək, yaxın gələcəkdə inkişafın lokomotivinə çevrilməklə Azərbaycanda iqtisadi inkişafın yeni coğrafi drayveri – artım mərkəzi olacaq. İşğaldan azad edilən ərazilərdə sərmayə qoyuluşu və quruculuq işləri Azərbaycanda ÜDM-in artımını sürətləndirəcək.

Qəribov Asəf Heydər oğlu,
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Bakı Biznes Universiteti
Email:asafqaribzade@gmail.com

AZƏRBAYCANIN TRANZİT İMKANLARI VƏ BEYNƏLXALQ NƏQLİYYAT-LOQİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ PERSPEKTİVLƏRİ

Müasir dövrümüzdə Azərbaycan xalqı Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti və strateji rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 30 ilə yaxın bir dövrdə həsrət qaldığımız, mənfur qonşumuz tərəfindən işğal edilmiş Qarabağdakı əraziləri düşməndən azaq edərək, bizlərə qələbə sevincli günləri bəxş etdiyi və tarixin ən yaddaqalan, şərəfli günlərini yaşamaqdadır. Belə bir dövrdə bu ərazilərin iqtisadi potensialını, coğrafi mövqeyini, tranzit imkanlarını qiymətləndirmək və ondan səmərəli istifadə edilməsi şərti ilə sahibkarlığın inkişafı, eləcə də ayrı-ayrı təsərrüfat sahələri üzrə ixtisaslaşma istiqamətlərini müəyyən etmək zərurəti yaranmışdır.

Məlumdur ki, bu ərazilərin Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyəti hər hansı iqtisadi dəyərlərindən xeyli dərəcədə üstündür. Qeyd etmək olar ki, işğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. İnamla qeyd etmək olar ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalı, kəmiyyət və keyfiyyət göstəriciləri beynəlxalq standartlara uyğun olaraq artacaqdır.

Azərbaycanın əsas üstünlüklərindən biri onun əlverişli tranzit imkanları və coğrafi mövqeyidir. Şərq və Qərb arasında əsas körpü rolu oynamaqla, Azərbaycan dünyanın əsas nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevrilir və bu proses hələ də davam edir. Böyük İpək Yolu, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərləri, TANAP və TAP layihələri, Bakı-Tbilisi-Qars dəmiryolu xəttində aparıcı rola malik olması Azərbaycanın nəinki regionda, həmçinin dünyada iqtisadi-siyasi cəhətdən mövqeyini və əhəmiyyətini yüksəldir.

Müasir dövrdə beynəlxalq bazarlarda keyfiyyətli ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və beləliklə, yüksək

əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətədavamlılığının artacağı gözlənilir. Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaları və müqayisəli üstünlüyü olan yeni istehsal sahələrini formalaşdırmaları zəruridir. Belə ki, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiyaəsaslı irəliləyişini təmin etməkdir [2, s.35]. Bundan başqa, növbəti dövr dünya iqtisadiyyatının əsas mərkəzləri arasında tarazlığın dəyişməsi və bununla əlaqədar onun strukturca yenidən qurulması, regional iqtisadi birliklərin rolunun güclənməsi ilə səciyyələnəcəkdir.

Azərbaycan üçün bu, həm xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətlərində ümumdünya kontekstini üstün tutmağı, lokal regional dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir. Qeyd edək ki, hər bir ölkənin iqtisadi güçünün və siyasi çəkisinin artmasında bir çox digər amillərlə yanaşı, nəqliyyat-logistika məsələləri də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın Avropa və Asiyanın qovuşduğu məkanda yerləşməsi, məhz bu cür əlverişli tranzit imkanlara malik olması, yüklərin və əmtəələrin daşınmasında ölkəmizə böyük üstünlüklər qazandırır.

Son illər aparılan düzgün və praqmatik siyasət Azərbaycanın bu sahədə mövqelərinin möhkəmlənməsinə gətirib çıxarmışdır. Azərbaycan beynəlxalq logistik mərkəzə çevrilir və bu istiqamətdə işlər genişləndirilir. Bu gün Azərbaycanda region və dünya üçün vacib olan bir sıra transmilli layihələr icra olunur. Bunlardan biri də "Şimal-Cənub nəqliyyat dəhlizi"dir. Bu, Asiyanı Azərbaycan və Rusiya vasitəsilə Avropaya birləşdirən mühüm marşrutdur. Layihənin icrası Asiyanın bir çox ölkələrinin Avropa ilə ticarət əlaqələrini həm genişləndirəcək və həm də sürətləndirəcək. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu layihənin təşəbbüskarı eləcə də qəbul edilən qərarların əsas icraçısı Azərbaycan Respublikasıdır.

Prezident İlham Əliyev Avropa İnkişaf Bankının (AİB) rəhbəri ilə keçirilən videokonfransla onların diqqətini "Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyətinə cəlb edərək demişdir: "Azərbaycan bu dəhlizə artıq böyük həcmdə sərmayə yönəltmişdir. Onun çox böyük potensialı var. Biz artıq Şimaldan – Rusiyadan daxil olan, Azərbaycan ərazisindən keçən Qərb və Cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən Rusiya ilə sərhəddə qədər dəmir yolu xətlərinin vəziyyəti yaxşı deyil. Buna görə də qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq» [4, s.2].

Daha sonra Prezident vurğulamışdır ki, bu gün artıq bizim Rusiya ilə sərhədlərimizdə tıxac var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə "Şimal-Cənub dəhlizi"nin bir hissəsi olaraq müasir dəmir yolu sistemi lazımdır. Gələcək kommunikasiya prosesində ola bilsin digər çağırışlar ortaya çıxsın. Həmin məsələlər də vaxtında və çevik şəkildə həll olunacaqdır. Bu günədək Asiya İnkişaf Bankı (AİB) ilə ölkəmiz arasında mövcud olan əməkdaşlıq deməyə əsas verir ki, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin maliyyələşdirilməsində də AİB yaxından iştirak edəcək. Çünki, həmin bankın ölkəmizə olan marağı və etimadı böyükdür. Bir daha qeyd edək ki, öl-

kəmizdə icra edilən bu kimi nəhəng infrastruktur layihələri beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Həmin qurumlar dəfələrlə Azərbaycanda gorulən işlərin təkcə ölkəmiz üçün deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər.

Azərbaycanda icra edilən layihələr sayəsində ölkəmiz dünyada mühüm nəqliyyat dəhlizləri – Şərq-Qərb, Şimal-Cənub marşrutları üzrə mühüm əhəmiyyətli qovşağa çevrilib. İndi bu istiqamətdə gedən bütün yollar Azərbaycanda birləşir. "Şərq-Qərb nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində dövlətimiz tərəfindən vaxtında atılan addımlar öz bəhrəsini verir. Belə ki, ötən il həmin nəqliyyat dəhlizi üzərindən yük daşınması artıb. Çünki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi bu dəhlizə geniş imkanlar yaradır.

Ən başlıcası isə Azərbaycandan keçən həmin dəhliz üzərindən yüklərin təkcə Şərq istiqamətindən deyil, eyni zamanda, Rusiya üzərindən Türkiyə və Avropaya daşınması müşahidə edilir. Bir sözlə, "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə yanaşı, "Şimal-Cənub nəqliyyat dəhlizi"nin də işlək əmsalı ildən-ilə yüksəlir. Türkmənistan, Əfqanistan və digər ölkələrin də Azərbaycandan keçən nəqliyyat dəhlizindən istifadə etməsi, həm daşınmanın həcmini, həm də bu marşrutun iqtisadi və siyasi əhəmiyyətini artıraraq, nəticədə ölkəmizin iqtisadi inkişafına və beynəlxalq aləmdə nüfuzunun artırılmasına yeni imkanlar açacaq.

Türkmənistan və Azərbaycan bu gün Əfqanistan, Gürcüstan, Türkiyə tərəfdaşları ilə birlikdə Asiya və Avropa arasında ən mühüm kontinental marşrutlara çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli işləməsi üzərində iş aparır. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi – Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarından biridir. Məlum olduğu kimi, bu ilin yanvar ayının 21-də Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və istismarı barədə Anlaşma Memorandumu imzalanmışdır. Bu yatağın birgə işlənməsi hər iki ölkə arasında yeni iqtisadi əlaqələrin yaranmasına imkan verəcəkdir. Bu dəhliz təkcə iki ölkəyə deyil, bütün regiona iqtisadi fayda gətirəcəkdir.

Nəqliyyat və logistika sektorunda həyata keçirilən layihələrin əhəmiyyətindən danışarkən Prezident İlham Əliyev demişdir: "Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsinin imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim rayonda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq" [1, s.3]. Dövlət başçısı, həmçinin qeyd etmişdir ki, Türkmənistanla nəqliyyat-logistika sahəsində əməkdaşlıq təkcə iki ölkəyə deyil, regiona, hətta regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələrə yeni imkanlar açır.

Cənab Prezident İlham Əliyev eyni zamanda Türkmənistanın nəqliyyat-logistika sahəsində həyata keçirdiyi investisiya siyasətini yüksək qiymətləndirmişdir. Belə ki, Lapis-Lazuli Türkmənistanın yaratdığı investisiya sayəsində reallaşıb. Bunun nəticəsində Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və digər ölkələrə çatdırılmasına imkan verən dəmir yolu layihəsinin reallaşması Türkmənistanın ayırdığı inves-

tisiya ilə həyata keçirilib. Bununla yanaşı, ölkəmizin təşəbbüsü ilə regionda bir sıra üçtərəfli tranzit layihələri gerçəkləşdirilir. Hazırda Azərbaycan, Türkmənistan və Türkiyə, həmçinin Azərbaycan, Türkmənistan və Əfqanıstan arasında üçtərəfli əməkdaşlıq formatı mövcuddur. Bu növ əməkdaşlıq region ölkələri arasında yük dövriyyəsinin həcminin ildən-ilə artmasını şərtləndirir.

İşğaldan azad olmuş ərazilərimizdə yeni nəqliyyat-logistika əməkdaşlıq formatının yaradılması respublikamızın bu sahədə önəmini daha da artıracaq. Altılıq formatda əməkdaşlıq nəzərdə tutulan bu layihədə işğalçı Ermənistanın yer alması ən çox onun özünə yarayacaq. İllərlə apardığı işğalçı siyasət nəticəsində blokada şəraitində yaşayan bu ölkənin "qəfəsdən" çıxması üçün Azərbaycanla əməkdaşlıq etməsi ən yaxşı fürsətdir. Qalan region ölkələri – Türkiyə, İran, Rusiya, Gürcüstan ilə yeni əməkdaşlıq formatına keçidlə bağlı heç bir problem yoxdur. Hazırda Naxçıvana dəhlizin açılması ilə bağlı üç dövlətin – Rusiya, Azərbaycan və Ermənistanın baş naziri müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Türkiyə və Azərbaycan arasında bu yaxınlarda energetika, mədən sənayesi və digər sahələr üzrə 11 bənddən ibarət əməkdaşlıq sazişi imzalandı[9]. Yeni imzalanan sənədlərlə qardaş ölkə ilə münasibətləriniz bütün sahələrdə mükəmməl formaya qalxacaq, strateji əməkdaşlıq çərçivəsində nəqliyyat-logistika sahəsində də ciddi irəliləyişlər əldə olunacaq.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan tədricən beynəlxalq nəqliyyat-logistik mərkəzə çevrilməkdədir. Zaman keçdikcə bu zəncirə daxil olan dövlətlərin sayı artacaq, həmin ölkələrin xalqları sülh və barışın yaşandığı bir rifah məkanına qovuşmaqdan faydalanacaqlar. Beləliklə, Azərbaycan üçün qeyd edilən istiqamətlər həm xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətlərində ümumdünya kontekstini üstün tutmağı, lokal regional dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir. Başqa sözlə, artıq ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına", "rəqəmsal iqtisadiyyata" keçid sürətlənməli, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Bu isə iqtisadi modelin formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, həyat boyu təhsil kimi komponentlərin tətbiqinin əhəmiyyətinin artırılmasına gətirib çıxarır, həmçinin İKT və virtual tədrisin, kompüter-şəbəkə biliklərinin rolunun artırılmasına təkan verir. Eyni zamanda, əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyəti də yüksələcəkdir. Artıq bütün dünyada iqtisadi azadlıq, kapital və əmtəələrin hərəkətinə maneələrin aradan qaldırılması, sərbəst ticarət, vətəndaşların iqtisadi və mülkiyyət hüquqlarının qorunması prosesləri çox sürətlə gedir.

Fikrimizcə, Azərbaycan milli iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiyası və dünya iqtisadiyyatında mövqeyinin daha da gücləndirilməsi üçün müxtəlif istiqamətlərdə fəaliyyətin genişləndirilməsi zərurətə çevrilmişdir. Belə ki, iqtisadiyyatda liberallaşmanın davam etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması, qanunların aliliyi, vergi yükünün azaldılması və iqtisadiyyatın inzibati metodlarla tənzim edilməsindən imtina edilməsi, beynəlxalq standartlara uyğun demokratik vətəndaş cəmiyyətinin qurulması Azərbaycan hökuməti və bütünlükdə cəmiyyətin qarşısında duran prioritet vəzifələrdəndir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan qəzeti. Bakı.2021. N 220, Bakı. 2021. N23.
2. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU, 2007, 792 s.
4. Əliyev İ.H. İnkişaf məqsədimizdir. İyirmi altıncı kitab. Avqust 2007- oktyabr 2007. Bakı.2015. 400 səh.
5. Əhmədov N.H. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmləri. Bakı: Sabah, 2011, 194s.
6. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: 2009.416 s.
7. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Bakı: Elm, 2004, 224s.
8. Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629с.
9. www.economy.gov.az

Abdulova Aygun,
Azerbaijan State Economic University
Email: sabah.aygun2015@gmail.com

INNOVATIVE TRENDS USED IN HUMAN RESOURCES MANAGEMENT IN AZERBAIJAN SME'S CASE

Introduction

Overseeing human assets action has gotten to be very troublesome as data foundation must be ceaselessly upgraded, connected to a complex of changing exercises linked to the environment agreeing to industry-specific characteristics, and collectively react to desires of each company. Amid the arrangement of this inquire about, a comprehensive examination of logical writing was done, be that as it may for the purpose of minimizing the length of this paper, only a portion was displayed. Existing e-government logical accomplishments as well as other investigate approaches that are beneath improvement are of incredible significance when looking at the open division. (Davison, 2005; Dawes, Cook, 2007; Millard, 2013; and others)

The organization must learn normally to coordinate data assets for their advancement, to coordinated inside and outside data streams and to combine the unique features of a specific company and its values with data advances. Scientists have pointed out that (Griggs et al., 2015) human resources (HR) education is very important for successful implementation of innovations. Different opinions on research of information technologies application in human resources management are prevailing in the world of science (Analoui, 2007; Kavanagh, Thite, 2009; Bondarouk, Furtmueller, 2012; Altmann, Engberg, 2015; Katou, 2015; and others).

The reason of this paper is to explore application of data advances within the prepare of inventive human assets administration at the service level within the Azerbaijan Republic. Our inquire about goals were to conduct an master assessment

(of staff from the staff offices of the Services of the Azerbaijan Republic) in arrange to decide the inside and outside environment and advancement components based on data innovation, to assess these components and how they influence the start and application of data innovations for human assets administration exercises.

This article has a few viable implications-conclusions and suggestions were arranged as it were for the advancement of data advances application in work force organization workplaces in Services of the Republic of Azerbaijan. This paper presents as it were a portion of the overview comes about. The primary portion of the article presents an investigation of distinctive perspectives of IT application in HRM. The moment portion of article presents an examination of the effectiveness of imaginative strategies of HRM. The third portion of article clarifies the investigate technique. The fourth portion of article presents the inquire about comes about. At long last, we show the conclusions and further improvement of openings of inquire about.

1. Data innovation in setting of human assets management's exercises

European Commission Strategy Paper Europe 2020 "A strategy for smart, sustainable and inclusive growth" states, that: "The targets are representative of the three priorities of smart, sustainable and inclusive growth but they are not exhaustive: a wide range of actions at national, EU and international levels will be necessary to underpin them. The Commission is putting forward seven flagship initiatives to catalyze progress under each priority theme" (European Commission, 2010). There are two key initiatives – "Innovation Union" – to improve framework conditions and access to finance for research and innovation so as to ensure that innovative ideas can be turned into products and services that create growth and jobs and – "A digital agenda for Europe" – to speed up the roll-out of high-speed internet and reap the benefits of a digital single market for households and firms" (European Commission, 2010).

2. Innovative human resource management in the context of efficiency

The logical writing relegates the criteria: viability, productivity and economy. Effectiveness is characterizing as the level of purposes' accomplishment or arranged and real results of a specific movement proportion. Effectiveness may be a top-level basis because it includes outline of effectiveness criteria, to set up for each of the model the impact on comes about of execution, to assess the level of evaluate accomplishment of the goals. (Puškorius, 2004). Effectively to manage people is important for seeking improvement of the quality of the organization's activities. Today, public sector efficiency are often seen not only as an institutional performance improvement, but how the system of elements, including political

Effectively to oversee individuals is vital for looking for change of the quality of the organization's exercises. Nowadays, open division effectiveness is frequently seen not as it were as an institutional execution advancement, but how the framework of components, counting political impact level, political and administrative behavior changes, harmonization the of intrigued bunches choices, guaranteeing of a steady administrative environment and a steady legitimate system, the advancement of usage and assessment techniques and so on (Petrauskiene, Raipa,2012). Subsequently, the effectiveness (additionally the adequacy) can be accomplished by different strategies and strategies: changes in work forms, representative behavioral changes and alter within the administration handle (Altmann, Engberg, 2015).



Figure1. IT application effectiveness context for the innovative analysis of the human resource management.

Source: compiled by the authors according to Ruel et al. (2004); Codagnone, Undheim (2008); Reddington et al. (2011); Šalčius, Šarkiūnaitė (2011); Petrauskienė, Raipa (2012).

Social technology – is the innovation that has changed the social processes and made them more efficient (Altmann, Engberg, 2015; Skaržauskienė *et al.*, 2013; Solberg Soilen, Tontini, 2013). Growth and innovation are possible only if social technology provides creation and further development of new technologies (Leibetseder, 2011; Katou, 2015). Approach to information technologies as the innovation in the organization and identification of place of technology in innovation systems help determine which of the theoretical backgrounds of innovations science rules can be apply to public sector HR management office in research of technology environment. IT implementation is not a terminative process; rather it is every new usage of contextual and non-permanent systems. Each implementation can be a treated as a new IT experience and their complexities could be treat as terminative until users feel more comfortable using a particular IT. The support for the user should be ensure (Ruël *et al*., 2004; Orlikowski, 2000). According to the innovations 'diffusion theory, innovations in essence are implement at two levels: the individual and organizational (Altmann, Engberg, 2015). According to Rogers (2003), most often people will not accept until the organization has implemented it.

Conclusion

Human assets trade processes' mechanization and data administration are getting to be critical organization proficiency variables. Be that as it may, in reality, working at a quick pace on the environment, forms and work substance alter for guaranteeing the quality of the HR data, instructive and client look capabilities due to inefficient organization of data administration is still difficult. The experimental comes about appear that specialists – experts as shoppers are not totally fulfilled with the start and usage of development forms.

References:

1. Altmann, P., Engberg, R. (2015), Managing Human Resources and Technology Innovation: The Impact of Process and Outcome Uncertainties, *International Journal of Innovation Science*, 7(2), pp. 91-106.
2. Analoui, F. (2007), *Strategic Human Resource Management*, Thomson.
3. Bondarouk, T. V., Furtmueller, E. (2012), Electronic Human Resource Management: Four Decades of Empirical Evidence. In *the Best Paper Proceedings of the Academy of Management Meeting 2012,* ACM.

Nadirova Aytən İlham qızı, müəllim,
"İqtisadiyyat" kafedrası,
Mingəçevir Dövlət Universiteti
Email: ayten.nadirova678@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SƏMƏRƏLİ İNVESTİSİYA QOYULUŞLARI

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların Vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır. Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövlət olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Möhkəm təməl üzərində qurulan yaşayışı təmin etməklə bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payını işğaldan öncəki vəziyyətə çatdıra və onu davamlı artıra bilərik. Bu prosesdə zəruri stimullara əsaslanan özəl təşəbbüslərin hərtərəfli təşviqi, eləcə də dövlət-özəl tərəfdaşlığının inkişafı vacibdir.

Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür.

Bu torpaqlarda müasir və yeni texnologiyalar quraşdırılacaq, yaşayış binaları inşa ediləcək, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikiləcək, körpülər salınacaqdır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi dost ölkələri sevindirib.

Bu dövlətlər ərazilərdə həyata keçiriləcək quruculuq işlərində iştirak etməyə maraqlıdırlar.

Əvvəldən də kənd təsərrüfatı bölgələri olan bu torpaqlarda kənd təsərrüfatı fəaliyyəti üçün zəngin imkanlar var. Müvafiq işlərin görülməsi artıq başlanıb və 7 min hektardan çox ərazidə payızlıq buğda əkilib.

30 ilə yaxın torpaqlarından qovulan, çətin şəraitdə yaşayan bu torpaqların sakinləri üçün əlverişli şərait yaradılacaq. Ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin icrasına başlanılıb. Zəngilanın 3 kəndində - birinci, ikinci və üçüncü Ağalı kəndlərində bu layihələr həyata keçiriləcək. Lazım olan infrastruktur yaradıla-caq, əkin sahələri bərpa ediləcəkdir. Burada fərqli pilot layihələrin gerçəkləşməsi də ola bilər. Qarabağın bərpası barədə təklif edilmiş investisiya proqramlarının bir qismi bu il həyata keçiriləcək. Layihələr infrastruktur layihələridir. Bu, elektrik enerjisi, yol-lar, dəmir yolları, minalardan təmizləmə və sairə sahələrdir. Azərbaycanın inkişaf yolu çoxsahəlidir.

Ümumiyyətlə, Azərbaycanın işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər genişdir. Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində geri qaytarılan ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, müvafiq infrastrukturların yaradılması, həmin regionun Azərbaycan iqtisadiyyatına inteqrasiya-sının təmin edilməsi üçün bu ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait nəzərdə tutulub.Məlum olduğu kimi, ordunun təchizatı, respublikamızın sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsi də nəzərə alınmaqla, ümumilikdə bu tədbirlərə 4,6 milyard manat maliyyə təminatı ayrılıb. İşğaldan azad edilən ərazilərin bərpası işləri isə müəyyən ardıcıllıqla həyata keçiriləcək.

Son illərdə Azərbaycan iqtisadiyyatında müşahidə edilən müsbət meyllər beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Bunu nüfuzlu beynəlxalq qurumların, reytinq agentliklərinin yaydıqları hesabatlardan da aydın şəkildə görmək mümkündür. Həmin hesabatlarda Azərbaycanın mövqeyi ilbəil ardıcıl şəkildə yaxşılaşır. Belə ki, Dünya Bankının son hesabatı, həmçinin nüfuzlu Davos İqtisadi Forumunun dəyərləndirmələri təsdiqləyir ki, milli iqtisadiyyatımız 2020-ci ildə də dayanıqlılığını qoruyub saxlayıb.

Bu sosial-iqtisadi inkişaf göstəriciləri ölkəmizdə aparılan məqsədyönlü, düzgün siyasətin nəticəsidir. Son 17 ildə Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında müxtəlif istiqamətlərdə islahatlar aparılıb. Ölkədə aparılan islahatlar sosial-iqtisadi inkişaf üçün möhkəm hüquqi əsaslar yaradıb. Bu gün Azərbaycan dünyada yüksək investisiya cəlbediciliyinə malik ölkə kimi tanınır. Hazırda Azərbaycan iqtisadiyyatının maliyyə təminatı yüksək səviyyədədir. Milli iqtisadiyyatımızın müxtəlif istiqamətlərinə həm daxili, həm də xarici mənbələrdən böyük həcmlərdə investisiyalar yönəldilir. Bütün bunlar iqtisadi gücümüzü, dünyadakı reytinqimizi artıran amillərdir.

Ümumilikdə, Qarabağda dağ-mədən sənayesi və metallurgiyanın inkişafı potensialı böyükdür. Təkcə sənaye ehtiyatları təsdiq edilmiş 132,6 ton qızılın dünya bazar qiyməti 8 milyard ABŞ dolları ətrafındadır. Ərazinin enerji tələbatını ödəməyə də kifayət qədər resursu var. Qarabağın su resurslarından istifadə edərək elektrik enerjisinin istehsalı potensialı yüksəkdir. Bu ərazilərin hidroenerji potensialını da dəyərləndirsək,

bu gün qlobal miqyasda bərpa edilən enerji mənbələrinə keçid etməklə nəhəng yatırımçı şirkətlərdə kütləvi maraq var. Bu cəhətdən bütün bu enerji ehtiyatlarının və digər sənaye sahələrinin inkişaf etdirilməsi üçün bir çox sahələrdən investisiya qoyuluşları cəlb etmək mümkündür. Həmçinin, Qarabağın meşə sənayesinin və turizm industriyasının inkişafı üçün Kiçik Qafqazın dağlıq zonasının iri meşə massivi də böyük əhəmiyyət kəsb edir. Bu ərazilər həm aqrar, həm də sənaye və turizm potensialına malikdir. Həmçinin, tikinti sektoruna yararlı resurslarla da zəngindir.

Maliyyə mənbələrinin çoxşaxəli olması münaqişədən sonra bərpa prosesinə ehtiyac olan sahələrin bir o qədər sürətli canlanması deməkdir. Sahələr üzrə olan araşdırmalarda beynəlxalq təşkilatlar, dövlət orqanları, özəl sektor, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətləri və s. kimi qurumlar münaqişə sonrası dövrdə ərazilərin bərpasında maraqlı tərəflər kimi çıxış edirlər.

İşğaldan azad edilmiş ərazilərimizdə bir çox iqtisadi fəaliyyət sahələrinin inkişaf potensialı vardır. Kənd təsərrüfatı sahələrindən arıçılıq və maldarlıq potensialı Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər, və Füzuli rayonlarımızda vardır. Cəbrayıl və Kəlbəcər ərazisində balıqçılıq sahəsini inkişaf etdirmək mümkündür. İpəkçilik üzrə Cəbrayıl rayonu və Şuşa şəhəri, taxılçılıq üzrə Kəlbəcər, Cəbrayıl, Tərtər, Qubadlı, Füzuli və Xocavənd rayonları böyük potensiala sahibdirlər. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində ət-süd məhsulları emalı üzrə Kəlbəcər, Tərtər və Füzuli, gön-dəri emalı üzrə Ağdam, Cəbrayıl, Laçın və Füzuli rayonlarımız geniş potensiala sahibdirlər. Dağ mədən sənayesi üzrə Kəlbəcər və Zəngilan rayonlarımızda qızıl, mis, gümüş, civə və xromit ehtiyatları, Cəbrayıl rayonunda yerləşən "Yəşəm" və "Xalsedon" yataqları zərgərlik sahəsini inkişaf etdirməyə imkan verir. Əlavə olaraq, turizm sahəsinin inkişafına imkan verəcək gözəl guşələrimizdən olan Şuşa, Laçın, Kəlbəcər ərazilərimizdə dağ turizmi, ekoturizm, müalicəvi turizm və mədəni turizm üçün yararlı sayılan digər rayon və şəhərlərimizin potensialından istifadə edərək Qarabağın iqtisadi dirçəlməsinə töhfə verə bilərik. Onu da qeyd etmək gərəkdir ki, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonasının enerji potensialı çox yüksəkdir. Hidroenerji potensialı baxımından "Xudafərin", "Qız Qalası" su elektrik stansiyaları və "Tərtər" SES-i nümunə göstərmək olar. Həmçinin, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında günəş enerji potensialı, Qarabağın dağlıq hissələri, əsasən də Kəlbəcər və Laçın rayonlarında külək enerji potensialı, geotermal enerji resurslarımız isə Kəlbəcər və Şuşada geniş yayılıb.

Bütün bu enerji ehtiyatlarının və digər sənaye sahələrinin inkişaf etdirilməsi üçün bir çox sahələrdən investisiya qoyuluşları cəlb etmək mümkündür. Beynəlxalq təcrübədə göstərilir ki, risklərin hesablanması sənaye və enerji sahəsində qoyulan birbaşa xarici investisiyalarda öhdəsindən gəlinən təhlükə kimi nəzərə alınır. Bu səbəbdən bir çox beynəlxalq şirkətlər post-konflikt dövründə sənaye və enerji sahəsinə investisiya yatırımlarına müsbət baxırlar. Post-konflikt dövrdə münaqişədən yeni çıxan ərazilərə investisiya cəlb etmək kifayət qədər çətin bir prosesdir. İnvestisiya qoyuluşlarında məlumat mövcudluğu dərəcəsi qoyulacaq investisiya ilə düz mütənasibdir. Bu, o deməkdir ki, ərazi ilə bağlı nə qədər çox məlumat olarsa, investorların marağını bir o qədər çox cəlb edə bilər. Dövlət-özəl tərəfdaşlığı vasitəsi ilə bir çox sahələrə sərmayə cəlb edilə bilər. İnfrastruktur layihələrin dövlət-özəl tərəfdaşlığı vasitəsi ilə həyata keçirilməsi özəl sektorun canlanmasına, səmərəliliyin artmasına və dövlət büdcəsinə

düşəcək yükün azalmasına gətirib çıxarır. Post-konflikt dövründə sərmayə qoyuluşları üçün sahələr detallı araşdırılmalı və mərhələli olaraq prioritetləşdirilməlidir. Vətəndaşların ilkin yaşayış səviyyəsini təmin etdikdən sonra onların köçürülməsinə yönələn prosesdə ilkin olaraq sosial və iqtisadi inkişafa dayanan sahələrə diqqət yetirilməlidir. Əlavə olaraq uzun müddətdə dayanıqlı iqtisadi inkişaf modeli yaradılmalı və sərmayə qoyuluşlarında davamlı gəlirlər əldə etmək üçün strateji sahələr seçilməlidir. Son olaraq qeyd edək ki, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonaların potensiallarından səmərəli istifadə olunmalıdır.

İstifadə olunmuş ədəbiyyat:

1.“Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı.

2. F.Allahverdiyev “Rəqəmsal iqtisadiyyat quruculuğu: Azərbaycan üçün açılan imkanlar” Real-TV. 24 sentyabr 2019-cu il.

3. Azərbaycanın statistik göstəriciləri, Statistik məcmuə, Bakı, Səda, 2015.

4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.

Əhmədov Məhəmməd Ələddin oğlu, baş müəllim
İqtisadiyyat kafedrası,
Sumqayıt Dövlət Universiteti
Email: mehemmed.ehmedov.57@mail.ru

İNVESTİSİYA LAYİHƏLƏRİ VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

İşğaldan azad edilmiş torpaqlarda ən mühüm məsələlərdən biri bu ərazilərdə həyata keçiriləcək investisiya layihələrinin qiymətləndirilməsidir. İnvestisiya fəaliyyətinin tədqiqinin əsas vəzifələrindən biri investisiya layihələrinin təhlil edilməsi və bu layihələrin səmərəlilik səviyyəsinin müəyyən edilməsi əsasında ən optimal variantın seçilməsidir. İnvestisiya layihəsi kapital qoyuluşunun məqsədəuyğunluğunun onun həcm və müddətinin iqtisadi cəhətdən əsaslandırılmasıdır. İnvestisiya layihəsinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun işlənib hazırlanmış və müəyyən olunmuş qaydada təsdiq edilmiş zəruri layihə - smeta sənədləri də daxildir. İnvestisiya layihələri öz forma və məzmununa görə çox müxtəlif ola bilər.

Hər hansı bir investisiya layihəsinə maliyyə vəsaitini yönəltməmişdən əvvəl o, kompleks ekspertiza olunmalıdır. Kompleks ekspertiza nəticəsində layihənin məqsədəuyğunluğu təsdiq edilməli, eləcə də onun texniki, kommersiya, sosial, ekoloji, maliyyə cəhətdən səmərəliliyi qiymətləndirilməlidir [1].

İnvestisiya layihələrinin təhlili zamanı qiymətləndirmə nəticəsində aşağıdakıların müəyyən edilməsi zəruridir:

- birincisi, investisiya layihəsinin həyata keçirilməsinin mümkünlüyü;
- ikincisi, investisiya layihəsinin həyata keçirilməsinin tam məqsədəuyğunluğu, onun mütləq səmərəliliyinin təsdiqlənməsi;

- üçüncüsü, investisiya layihəsinin müqayisəli səmərəliliyinin qiymətləndirilməsi [2].

İnvestisiya layihələrinə maliyyə vəsaitlərinin yönəldilməsi barədə qərarın qəbul edilməsi zamanı inflyasiyanın səviyyəsi, risk və ya mövcud qeyri – müəyyənliklər, eləcə də, maliyyə vəsaitlərinin alternativ şəkildə istifadə edilməsinin mümkünlüyü nəzərə alınmalıdır.

Investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi bir neçə mərhələdə aparılır.

Birinci mərhələdə investisiya layihəsinin rentabellik səviyyəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisə edilir. Belə bir müqayisənin əsas məqsədi maliyyə vəsaitinin daha səmərəli alternativ istifadə variantının axtarılmasıdır. Əgər investisiya layihəsinin rentabellik səviyyəsi bank faiz dərəcəsinin orta səviyyəsi ilə müqayisədə aşağıdırsa, o zaman investisiya layihəsindən imtina edilməlidir, çünki maliyyə vəsaitlərinin sadəcə banka depozitə yönəldilməsi daha səmərəlidir.

İkinci mərhələdə investisiya layihəsinin rentabellik səviyyəsi ölkədə mövcud inflyasiyanın orta səviyyəsi ilə müqayisə olunur. Belə müqayisənin əsas məqsədi inflyasiyanın yarada biləcəyi maliyyə itkilərinin minimumlaşdırılmasıdır. Əgər ölkədəki mövcud inflyasiyanın orta səviyyəsi investisiya layihəsinin rentabellik səviyyəsindən yüksəkdirsə, o zaman investisiya kapitalı getdikcə öz dəyərini itirəcək.

Üçüncü mərhələdə investisiya layihələri tələb olunan investisiyaların həcminə görə müqayisə edilirlər. Belə müqayisənin əsas məqsədi kredit vəsaitlərinə olan tələbatın minimumlaşdırılması və daha az kapitaltutumlu investisiya layihəsinin seçilməsidir.

Dördüncü mərhələdə investisiya layihələrinin seçilmiş səmərəlilik meyarları üzrə qiymətləndirilməsi aparılır. Belə qiymətləndirmənin əsas məqsədi səmərəlilik meyarları üzrə investisiya layihə variantının seçilməsidir.

Beşinci mərhələdə investisiya layihəsinin həyata keçirilməsi nəticəsində qazanılacaq maliyyə gəlirlərinin illik (rüblük) sabitliyinin qiymətləndirilməsi aparılır. Bu mərhələdə istifadə olunan qiymətləndirilmə meyarları çox müxtəlifdir. İnvestoru bir tərəfdən investisiya layihəsindən əldə ediləcək gəlirin illər üzrə bərabər bölüşdürülməsi də maraqlandıra bilər, digər tərəfdən investor üçün gəlirin illər üzrə getdikcə atması da maraqlı ola bilər [5].

İnvestisiya fəaliyyətinin təhlilinin əsas vəzifələrindən biri investisiya qərarlarının səmərəliliyinin qiymətləndirilməsi metodlarının işlənib hazırlanmasıdır. Bu metodları iki əsas qrupa ayırmaq olar: birincisi, uçot qiymətləndirməyə əsaslanan metodlar, və ikincisi, diskontlaşdırılmış qiymətləndirməyə əsaslanan metodlar. Uçot qiymətləndirməyə əsaslanan metodlara daxildir:

- investisiyaların səmərəlilik əmsalının müəyyənləşdirilməsi metodu;
- investisiya xərclərinin ödənilmə müddətinin hesablanması metodu [3].

Diskontlaşdırılmış qiymətləndirməyə əsaslanan metodlara isə aşağıdakılar daxildir: xalis cari dəyər metodu; gəlirlilik metodu; xərclərin ödənilməsinin daxili norma metodu; cari xərclərin ödənilməsi metodu.

Bu metodları göstərilən ardıcıllıqla nəzərdən keçirək. Investisiyaların səmərəlilik əmsalının müəyyənləşdirilməsi metodu ən geniş yayılmış metodlardan biridir. Investisiyaların səmərəlilik əmsalı(ARR) aşağıdakı düsturla hesablanır:

$$ARR = P / 0,5(S – RV)$$

Burada, P – orta illik xalis mənfəət, S – investisiyaların həcmi, RV – layihənin ləğv olunma (qalıq) dəyəridir.

İnvestisiya layihələrinin həyata keçirilməsinin mühüm məsələlərindən biri investisiya xərclərinin ödənilmə müddətinin hesablanmasıdır. Investisiya xərclərinin ödənilmə müddəti investisiya layihəsinə çəkilmiş xərclərin geri qaytarılması üçün tələb olunan müddətdir. Bu zaman əsas tələblərdən biri ödənilmə müddətinin layihənin həyat müddətindən aşağı olmasıdır. Əgər investisiyadan daxilolmalar illər üzrə bərabər bölüşdürülübsə, o zaman ödənilmə müddəti (ÖM) aşağıdakı düsturla müəyyən edilir:

$$ÖM = S / OİD$$

Burada, S – investisiyaların həcmi, OİD – investisiyadan orta illik daxilolmalar.

Əgər investisiyadan daxilolmalar illər üzrə bərabər bölüşdürülməyibsə, o zaman ödəmə müddəti illər üzrə ayrı – ayrılıqda hesablanmış daxilolmaların cəminə görə müəyyən edilir.

İnvestisiya xərclərinin ödənilmə müddəti ilə yanaşı, investisiyanın gəlirlilik səviyyəsini də hesablamaq mümkündür. İnvestisiyanın gəlirlilik səviyyəsi (G) investisiyanın rentabellik göstəricisidir, ödəmə müddətinə əks olan göstəricidir və aşağıdakı düsturla ifadə olunur:

$$G = OİD / S$$

Diskontlaşdırılmış qiymətləndirməyə əsaslanan metodlar, yəni xalis cari dəyər metodu, gəlirlilik metodu, xərcin ödənilməsinin daxili norma metodu və cari xərcin ödənilməsi metodları investisiya fəaliyyəti ilə əlaqədar diskont, diskontlaşdırma, diskont norması, annuitet kimi iqtisadi terminlərin aydınlaşdırılmasını tələb edir.

Diskont – investisiya fəaliyyətinə görə qazanılan illik gəlirdir, diskont norması (və ya diskont dərəcəsi) investisiyanın gəlirlilik səviyyəsini əks etdirir, faizlə ifadə olunur. Diskontlaşdırma bir neçə il ərzində diskont norması əsasında hesablanmış investisiya fəaliyyətinə görə qazanılan ümumi gəlirdir. Annuitet isə illər üzrə bərabər miqdarda maliyyə daxilolmalarıdır.

Göstərilənlərlə əlaqədar belə bir məsələni nəzərdən keçirək. Daşınmaz əmlakın, məsələn, torpaq sahəsinin alınmasına 100 min manat pul xərclənmişdir. İllik gəlir faizi 10 % təşkil edir. Beş ildən sonra həmin torpaq sahəsinin qiymətini hesablamaq tələb olunur. Torpaq sahəsinin qiyməti aşağıdakı düsturla müəyyən edilir:

$$Sn = So(1 + E)n$$

Burada, Sn - torpaq sahəsinin beş ildən sonrakı qiyməti, So - torpaq sahəsinin hazırki qiyməti, E – diskont normasıdır, n isə ilin sayını göstərir.

Bizim məsələdə n = 5 olduğu üçün

$$Sn = 100 \text{ x } (1 + 0,1)5 = 161,5 \text{ min manat olacaqdır [4].}$$

Xalis cari dəyər metodu proqnozlaşdırılan dövrdə maliyyə daxilolmalarının diskontlaşdırılmış dəyəri ilə investisiyaların müqayisə edilməsinə əsaslanır. Gəlirlilik metodu investisiyaların rentabellik indeksinin müəyyənləşməsi ilə yekunlaşır. Xərclərin ödənilməsinin daxili norması və ya mənfəətin daxili norması gəlirlilik səviyyəsini ifadə edir. Cari xərclərin ödənilməsi metodu investisiya xərclərinin ödənilməsi üçün tələb olunan zəruri müddətin müəyyənləşməsi üçün istifadə olunur.

İstifadə olunmuş ədəbiyyat:

1. Əliyev R.R. "İqtisadi təhlilin nəzəriyyəsi", Bakı, 2002.
2. Mahmudov İ.M., Zeynalov T.Ş., Quliyev F.M. "İqtisadi təhlil", Bakı, 2003.
3. Mahmudov İ.M., Zeynalov T.Ş. "Maliyyə vəziyyətinin təhlili", Bakı, "Nasir" nəşriyyatı, 2000.
4. Баканов М.И., Шеремет А.Д. «Теория анализа хозяйственной деятельности предприятия», М., ДИС, 2001.
5. Любишин Н.П.,Лещева В.Б.,Сучков Е.А. Теория экономического анализа Учебно-методический комплекс. Экономист, 2004. 480 с.

Hacıyeva Zülfiyyə Elman qızı, baş müəllim
Biznesin təşkili və menecment kafedrası,
Sumqayıt Dövlət Universiteti
Email: zulfiya.haciyeva.2015@mail.ru

REGİONLARDA AQRAR SƏNAYENİN İNKİŞAFI SAHƏSİNDƏ DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİNİN ROLU

Müasir dövrdə ölkəmizdə aqrar sənaye iqtisadi inkişaf amilidir. Aqrar sənaye iqtisadiyyatın prioritet bir sahəsidir. Əsas məhsulların demək olar ki, 70%-i kənd təsərrüfatı xammalından hazırlanır və əhalinin ərzaq ehtiyacının 90%-dən çoxu kənd təsərrüfatı məhsulları ilə təmin olunur. Ona görə də qarşıya qoyulan ilk vəzifələrdən biri ölkəmizdə və onun regionlarında kənd təsərrüfatının inkişaf etdirilməsidir. Ölkəmizin regionlarında, xüsusilə də işğaldan azad edilmiş bölgələrdə kənd təsərrüfatının inkişafı üçün əsas istiqamətlər aşağıdakılar ola bilər:

1. Əkinçilik sahələrinin səmərəli istifadəsi üçün uyğun şəraitin formalaşdırılması (məsələn, meliorativ inkişaf yolu ilə).
2. Aqrar sənaye müəssisələrinin infrastrukturunun və onu müşayiət edən bazarın inkişafı, istixana komplekslərinin və topdan satış mərkəzlərinin tikintisini dəstəkləmək.
3. Kiçik müəssisələrin və kənd kooperativlərinin fəaliyyətinin dəstəklənməsi və stimullaşdırılması.
4. Kənd təsərrüfatı istehsalının texnoloji və texniki hissəsinin təkmilləşdirilməsi, aqrar sənaye kompleksində innovasiyaların və son biotexnologiyanın inkişafı, yeni seleksiya və toxumçuluq texnologiyalarının yaradılmasına dəstək.

5. Kənd təsərrüfatını yaşıllaşdırmaq üçün real tədbirlərin həyata keçirilməsinə yönəlmiş "yaşıl iqtisadiyyat" konsepsiyasının hazırlanması və təkmilləşdirilməsi.

Aqrar sənayenin uğurlu inkişafı əsasən regionun və bütövlükdə ölkənin iqtisadi rifahını müəyyənləşdirir. Odur ki, bu sahədə innovasiya siyasətinin həyata keçirilməsinin əhəmiyyəti artır.

Regionların aqrar sənaye müəssisələrində innovasiya proseslərinin özünəməxsus xüsusiyyətləri var. Bunlar müxtəlif regional, sahəvi, funksional, texnoloji və təşkilati xüsusiyyətlərinə görə fərqlənir. İnnovasiyaları idarə edərkən yalnız iqtisadi qanunların deyil, həm də təbiət qanunlarının tələblərini nəzərə almaq lazımdır. Aqrar sənaye müəssisələrindəki vəziyyətin qiymətləndirilməsi, tədbirlər sistemi tətbiq edilmədən, ilk növbədə, maliyyə sağlamlığı və istehsalın tədricən bərpası olmadan innovasiya fəaliyyətlərinin aktivləşdirilməsi təcrübi olaraq qeyri-mümkündür.

Aqrar sənaye müəssisələrində innovasiya proseslərinin inkişafını ləngidən əsas amillər vardır ki, bunlara aşağıdakılar daxil edilə bilər:

- kənd təsərrüfatı və sənaye məhsullarının qiymətlərindəki bərabərsizlik;
- ixtisaslı işçi, menecer və mütəxəssis çatışmazlığı;
- elmi-texniki tərəqqinin zəif idarə olunması, dövlət və özəl biznes arasında sıx qarşılıqlı əlaqənin olmaması;
- elmi-texniki nailiyyətlərin istehsalatda və müvafiq innovasiya proqramlarında mənimsənilməsi üçün tədbirlərin maliyyələşdirilməsində kəskin azalma;
- aqrar sənaye kompleksində innovasiya prosesinin inkişafına təkan verən güclü bir sistemin olmaması və s.

Regionlarda aqrar sənaye müəssisələrinin qarşısında duran vəzifələrin həlli daha çox innovativ inkişafın əsasında mümkündür. Bu sahədə innovasiya siyasətinin əsas istiqamətlərinə aşağıdakılar daxildir:

- regional innovativ inkişafın hüquqi tənzimlənməsinin təmin edilməsi və iştirakçılarının maraqlarının qorunması;
- regionlarda innovasiyaların yaradılması və inkişafına birbaşa və dolayı dəstək;
- prioritet inkişafın müəyyənləşdirilməsi və həyata keçirilməsi;
- səmərəli tərəfdaşlıq və əməkdaşlıq formalarının inkişafı, təşkilati və iqtisadi strukturların formalaşdırılması;
- regional aqrar sənaye kompleksi üçün innovasiya sahəsində kadr hazırlığı;
- regional aqrar sənaye kompleksinin maddi-texniki bazasının prioritet inkişafı;
- innovasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı [3, s.297].

Aqrar sənayedə dövlətin innovasiya siyasətinin məqsədi kənd təsərrüfatı elminin və təhsilinin inkişafı üçün şərait yaratmaq, davamlı iqtisadi artım, kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının rəqabət qabiliyyətinin təmin edilməsi, kənd yerlərində həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır ki, bu da nəticədə ölkənin ərzaq təhlükəsizliyinə gətirib çıxarır. İnnovativ proseslərinin inkişafı üçün dövlət innovasiya siyasətinin bir sıra vəzifələri həll edilməlidir.

Dövlətin regionların aqrar sənaye müəssisələrinin innovativ inkişafındakı rolu innovasiya siyasətinin istiqamətləri ilə müəyyən edilir. Aqrar sektorda dövlət innovasiya siyasətinin mahiyyəti, müəssisələrin innovativ fəaliyyətini stimullaşdıran müvafiq qurum və mexanizmlərin yaradılması və dəstəklənməsidir [2, s.127]. Bu məqsədə çatmaq üçün innovasiya layihələrinin idarə olunması məqsədilə kənd təsərrüfatı

elminin bütün sahələrində mütəxəssislərin hazırlanması üçün şərait yaratmaq, ödəmə qabiliyyətini artırmaq üçün kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyini gücləndirmək, innovasiyaların prioritet sahələrində resursların cəmləşdirilməsini təmin etmək, elm, təhsil və istehsalat fəaliyyətlərinin əməkdaşlıq və inteqrasiyasını təmin etmək və innovativ proseslərin hüquqi tənzimlənməsini təkmilləşdirmək lazımdır.

İnnovasiyanın iqtisadi mexanizmində maliyyə mənbələri və maliyyələşdirmə sistemi həlledici rol oynayır. Regionlarda aqrar sənaye müəssisələrinin innovasiya fəaliyyətinə əsas investisiya mənbələri aşağıdakılar ola bilər:

- bələdiyyələrin, regionların və ölkənin büdcələrindən vəsait;
- müəssisələrin öz maliyyə mənbələri;
- geri qaytarıla bilən bank kreditləri;
- lizinq fondunun vəsaitləri;
- xarici investisiyalar;
- investisiya və sığorta şirkətlərinin maliyyə mənbələri;
- əhalinin sərbəst vəsaiti;
- vençur maliyyələşdirmə [1, s.200].

Aqrar sənayenin inkişafının hazırkı mərhələsində daxili iqtisadiyyatı modernləşdirmək üçün xarici investisiyaların və qabaqcıl texnologiyaların cəlb edilməsi üçün dövlət-özəl tərəfdaşlıq əlaqələrindən fəal şəkildə istifadə etmək lazımdır. Bu baxımdan, innovasiyalı inkişafa dövlət dəstəyinin əsas məqsədi məhz innovativ şirkətlərin daxili və xarici bazarlarda rəqabət qabiliyyətini təmin etməkdir. Bu cəhət ölkə iqtisadiyyatının prioritet sahələrinin inkişafı üçün xüsusilə vacibdir.

Aqrar sənaye müəssisələrinin innovasiya fəaliyyətini və kənd təsərrüfatı istehsalının investisiya cəlbediciliyini artırmaq üçün həm dövlət, həm regional orqanlar, həm də kənd təsərrüfatı sahibkarları tərəfindən innovativ infrastruktur yaratmağa yönəlmiş əməkdaşlığı tələb olunur. Bu, aşağıdakı fəaliyyətlərin həyata keçirilməsini əhatə edir:

1. Dövlət və biznes tərəfindən aqrar sənaye müəssisələrində elmi, texniki və innovasiya siyasətini müəyyənləşdirən əhəmiyyətli kapital qoyuluşlarının həyata keçirilməsi.

2. Elmi-tədqiqat və təcrübi konstruktor işlərinin nəticələrinin satın alınması və icarəyə verilməsinin vəsaitlər ayrılmaqla stimullaşdırılması.

3. Aqrar sənaye müəssisələrinin davamlı inkişafına innovativ dəstək üçün tənzimləyici və hüquqi bazanın təkmilləşdirilməsi.

4. Kənd təsərrüfatı məhsulları istehsalçıları ittifaqlarının və birliklərinin inkişaf institutlarının formalaşması və aqrar sənaye sektorunda dövlətin innovasiya siyasətinin həyata keçirilməsinə cəlb edilməsi.

5. Aqrar sənaye müəssisələrində innovasiya idarəetməsi sahəsində mütəxəssislərin hazırlanması. Kənd yerlərində onların cəlb edilməsi üçün tədbirlərin hazırlanması.

Qeyd edə bilərik ki, milli miqyasda uğurlu innovasiya fəaliyyəti üçün dövlət tərəfindən bütün subyektlərinin fəaliyyətinin tənzimlənməsi və dəstəyi, habelə innovasiyaların həyata keçirilməsində, investisiyaların cəlb edilməsində, innovativ inkişafa və elmi nailiyyətlərin tətbiqi üçün əlverişli şəraitin yaradılmasında bütün maraqlı strukturların inteqrasiyası tələb olunur.

Aqrar sahənin innovativ inkişafında dövlətin tərəfdaş kimi iştirakı aşağıdakı hədəfləri güdür:

- innovativ düşüncəli yeni nəsil alimlərin yetişdirilməsi;
- yeni texnologiyaların cəlb edilməsi üçün maliyyə vəsaitlərinin toplanması;
- innovativ məhsulun rəqabət qabiliyyətinin təmin edilməsi;
- innovasiyaların təcrübədə tətbiqində iştirak;
- innovativ resurs mərkəzlərinin yaranmasına dəstək;
- ali peşə təhsili müəssisələrində tədqiqat işinə dəstək.

Bu hədəflərə yalnız dövlət-özəl tərəfdaşlığı çərçivəsində qarşılıqlı əlaqə olduqda nail olmaq mümkündür. Bu tərəfdaşlığın dövlətin maraqlarını təmin etməsi vacibdir və onun əsas funksiyası innovativ inkişaf yolu ilə aqrar iqtisadiyyatın modernləşdirilməsidir.

Hərtərəfli modernləşmə və investisiya qoyuluşu ölkə iqtisadiyyatının aqrar sektorunun innovativ inkişaf səviyyəsinin artırılması üçün əsas rolunu oynaya bilər. Aqrar sektorun innovativ inkişaf səviyyəsinin artırılması üçün əsas kənd təsərrüfatını modernləşdirməkdir. Kənd təsərrüfatını modernləşdirmək üçün aqrar sənaye sahəsində dövlət siyasətini təkmilləşdirmək lazımdır. Bunun üçün:

1) torpaq münasibətlərinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi - bu sənayenin investisiya cəlbediciliyinin artmasına kömək edir;

2) kənd təsərrüfatı istehsalına dövlət dəstəyinin gücləndirilməsi;

3) iqtisadiyyatın strateji cəhətdən zəruri sahələrinə aydın şəkildə diqqət yetirərək kənd təsərrüfatı istehsalçılarını stimullaşdırmaq üçün yeni proqramların yaradılması və köhnə proqramların təkmilləşdirilməsi;

4) infrastrukturun inkişafı - əksər hallarda fermerlərin yerli bazardan və ərazilərindən kənara çıxmaq imkanı yoxdur. Bu fermerlərin istəklərinə uyğun olaraq infrastrukturun formalaşdırılması vacibdir;

5) aqrar sənaye kompleksinə qoyulan investisiyaların həcminin artması - bu həm dövlət səviyyəsində, həm də özəl investorlar tərəfindən dəstəklənmə səviyyəsində baş verməlidir.

Bütün bunlar son nəticədə regionlarda, o cümlədən, işğaldan azad edilmiş bölgələrdə aqrar sənayeni inkişaf etdirməklə, yeni iş yerlərinin açılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına və bütövlükdə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Нечаев В.И., Бирман В.Ф., Санду И.С. Организация инновационной деятельности в АПК. М.: Колос С, 2012, 296 с.

2. Панасенко С.С. Основные направления и проблемы развития инновационной деятельности в аграрном секторе экономики. Вестник РГЭУ, 2014 № 1 (45), с.126-128.

3. Саломатин В.А. Инновационные процессы в АПК: сущность и направления развития теория и практика общественного развития. Теория и практика общественного развития, 2011, № 8, с. 295-299.

Mahmudova İlhamə Məhəmmədnəbi qızı, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Email: a_murad97@mail.ru

AZƏRBAYCAN İQTİSADİYYATI KONTEKSTİNDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycan xalqı tarixinin ən yadda qalan və şanlı dönəmlərindən birini yaşayır. Ali Baş Komandan, Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə Azərbaycan ordusu vaxtilə nağıl kimi görünən həqiqətləri günbəgün bərqərar edir, işğal olunmuş ərazilərdən didərgin düşmüş əhalinin uzun illərin həsrətinə son qoyulur.

Azərbaycanda iqtisadiyyatın qeyri-neft sahəsinin əhəmiyyəti get-gedə artmaqdadır. Sahibkarlıq sektorunda bunlar rəqabətə davamlı məhsullar istehsalı ilə məşğul olan iri və orta müəssisələrdir. Bu sektora ölkə tərəfindən investisiyalar yatırılır. Dövlət tərəfindən innovasiya fəaliyyətinə göstərilən dəstək innovasiya strukturunun və xidmətlərinin lazımi dərəcədə inkişaf etdirilməsinə xidmət edir.

Xarici bazarlarda ölkənin rəqabətə davam gətirməsi məqsədilə ilk olaraq innovasiyalı inkişafın təmin olunması, beynəlxalq səviyyədə münasibətlər obyekti olaraq həyata keçirilməsi onun başlıca şərtləndirici amillərindəndir.

Ümumiyyətlə, innovasiya fəaliyyətlərinin artırılması elə də vacib deyil, onun başlıca prinsipi iqtisadi proseslərin xüsusi hissəsi olmaqla maliyyə, innovasiya, sosial və s. məqsədlər üçün istifadə edilə bilməsidir.

İnnovasiya prosesinin inkişafı innovasiyanın resurs imkanlarından, həmçinin həmin innovativ texnologiyaların effektiv şəkildə təsiri ilə tətbiq olunur. Bu səbəbdən, innovasiya proseslərini 2 hissəyə ayırmaq daha məqsədəuyğun hesab olunur:

- İnnovasiya müddətinin hər mərhələsi üzrə inkişafında innovativ infrastrukturun və resursun mövcud olması.
- İnnovasiya prosesi zamanı yeniliklərin mərhələlər arasında keçidi üçün onların hərəkətetmə sürətinin mövcudluğu.

İnnovasiya sahibkarlığı fəaliyyətini gerçəkləşdirmək məqsədilə ilk olaraq ideya irəli sürülməsi vacibdir. İdeyanın yaranması üçün əsas təkanverici qüvvə rolunu şəxsi təcrübə, bacarıqlar və bilik oynayır. Buna baxımdan da istənilən innovasiya sahibkarlığı fəaliyyəti həmişə hər hansı ideyaya əsaslanır. Lakin, innovasiya sahibkarlığı üçün düzgün, dəqiq bir ideyanın seçimi xüsusi əhəmiyyət daşıyır. Seçilən ideya layihənin gələcək fəaliyyətinin uğurlu olub-olmamasının təminatçısı hesab edilir. Yeni axtarılan ideyalar hər zaman innovasiya biznesinin dövlətin elmi və texnoloji tərəqqisinin başlıca hərəkətverici qüvvəsi qismində çıxış edir.

Ümumilikdə götürdükdə innovasiya proseslərində nəticəyə gəlmək mürəkkəb proses adlanır. Onun da həlli aşağıda göstərilən müddəaları əhatə edir:

1. Əlavə əmək və maddi xərclərin çəkilməsi, innovasiya fəaliyyətinin reallaşdırılmasını vacib edən kapital qoyuluşları.
2. İnnovasiyanın tətbiq edilməsi zamanı innovasiyanın subyektlərindən alınmış

iqtisadi effekt nəticəsində əlavə xərclərin çəkilməsi.

İnnovasiya prosesini şərtləndirən əsas cəhətləri aşağıdakı kimi qeyd etmək olar:

1. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün ilk olaraq qeyri-müəyyən istiqamətlərin və yüksək risk dərəcəsinin mövcudluğu.

2. Dəqiq proqnozların qiymətləndirilməsi mexanizmlərinin mümkün olmaması.

3. İnnovasiya prosesində iştirakçıların mənafeyini qorumaq məcburiyyəti.

4. İqtisadi münasibətlər mühitində yarana biləcək gərginliklərin aradan götürülməsi.

İnnovasiya sahibkarlığına nəzər yetirdiyimiz zaman görərik ki, istehsalçıların istehsal, marketinq, elmi texnoloji fəaliyyətləri, həmçinin bazar tələbatının ödənilməsinə yönəlmiş prosesləri təşkil edir.

İnnovasiya sahibkarlığının həyata keçirilməsi prosesinin müxtəlif yolları vardır. Bu halda konkret bir səmərəli istiqamətin müəyyən olunması iqtisadi şərait, rəhbərin səriştəliliyi, şirkətin potensialı və s. kimi amillərdən asılıdır. Bununla da, daima uğur qazanmaq üçün qarşıdakı maneələrin və müqavimətlərin aradan qaldırılması vacibdir. Buna baxımdan da, innovasiyaları istehsal, insan, sosial, maddi və s. amillər üzrə xərclər sərf etmədən həyata keçirmək qeyri-mümkündür.

Ölkəmizdə Milli İnnovasiya Sisteminin (MİS) inkişafına sistemli şəkildə davam etdirilir.

Yaradılan innovasiya infrastrukturunun digər elementləri və texnoparklar sıx əməkdaşlıq, informasiya mübadiləsini artırmaq vacibdir. İnnovasiya ilə bağlı proseslərin iştirakçıları arasında əlaqələrin genişləndirilməsi, bazarın tələblərinə vaxtında cavab vermək və rəqabətqabiliyyətlilik bütün bu təşkilatların səmərəlilik və effektivlik göstəricilərini artıracaqdır.

Məqsədyönlü siyasi tədbirlər innovasiya ilə bağlı proseslərin inkişafına daha da təkan verəcəkdir. Bu gün sabit iqtisadi artım üçün Azərbaycanın ehtiyat və mövcud imkanlarını birləşdirmək lazımdır. Bu eyni zamanda fundamental və tətbiqi elmlər arasında olan mövcud əlaqələrin inkişaf etdirilməsi, digər tərəfdən baxıldıqda isə innovasiyalı məhsulun istehsalı və bazara yeridilməsi halında mümkündür. Dövlətin innovasiya sisteminin inkişaf etdirilməsinin prioritet istiqamətləri sənaye və əqli mülkiyyət bazarının inkişaf mexanizminin təşkil edilməsidir.

Ölkəmizdə innovasiya ilə əlaqədar proseslərin təmin edilməsi üçün təşkilatlarda innovasiyaların informasiya bazasının yaradılması və innovasiya menecmentinin öyrədilməsi lazımdır.

İnnovasiya sahəsində strateji və taktiki siyasətdə aşağıdakılar nəzərə alınmalıdır:

- normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- innovasiya tətbiqinin üsullarının təkmilləşdirilməsi;
- dövlət tərəfindən maliyyə dəstəyi;
- vençur maliyyələşmə sisteminin inkişaf etdirilməsi;
- innovasiya sahəsində kiçik, orta və iri biznesin subyektlərinin birgə fəaliyyətinə kömək və onun stimullaşdırılması;
- innovasiya infrastrukturunun genişləndirilməsi: texnoparklar, biznes-inkubatorlar, nanotexnologiya mərkəzlərinin daha da inkişafı.

Bütün bunlar ölkəmizdə innovasiya fəaliyyətinin kompleks sisteminin yaradılmasının əhəmiyyətini şərtləndirir. Eyni zamanda, müasir dövrdə elm və elmtutumlu istehsalın genişləndirilməsinin daha yeni formaları araşdırılır. Qeyd edilən məsələlərin həlli üçün texnoparkların yaradılması və inkişafı əsas istiqamətlərdəndir.

Hər gün yeni torpaqların işğaldan azad olunması ilə bağlı xoş müjdələrin gəldiyi bir vaxtda 27 il Azərbaycandan ayrı düşmüş ərazilərin iqtisadi potensialı qat-qat yüksəkdir.

Müstəqillik dövründə ölkəmizin aqrar sahədə əldə edilən təcrübələrinin işğaldan azad edilmiş rayonlara transfer edilməsi, orada sahibkarlıq fəaliyyətlərinin təşviq edilməsi üçün xüsusi dəstəkləmə proqramlarının həyata keçirilməsi, heyvandarlıq və bitkiçilik sahəsində zəruri infrastruktur qurulması kimi məsələlər prioritet əhəmiyyətə malikdir.

İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan əhalinin iri və xırdabuynuzlu heyvanlarla təmin olunması, arıçılıq təsərrüfatlarının yaradılması, rayonlara görə ixtisaslaşmanın yenidən dəqiqləşdirilməsi aqrar sahənin inkişafı baxımından atılacaq addımlardır. Həmin ərazilərdə kənd təsərrüfatının inkişafı, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin, məşğulluğun təminatına töhfə verəcək, yeni investisiyaların cəlb edilməsinə və su ehtiyatlarının istifadəsinə imkan yaradacaq. Bu proses qeyri-neft məhsullarının ixracının artmasına səbəb olacaq, əkin dövriyyəsi artacaq, əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunmasını yaxşılaşdıracaq.

İşğaldan azad olunmuş ərazilərin inkişafı istiqamətində beynəlxalq təcrübənin istifadəsi də əhəmiyyətlidir. BMT-nin FAO təşkilatının İraq və Əfqanıstanda müharibədən sonrakı dövrdə aqrar sahədə iri həcmli layihələr həyata keçirmək təcrübəsi var. Kənd təsərrüfatı sahəsində dayanıqlığın və bərpanın təmin edilməsi, deqradasiya olunmuş torpaqların bərpası və su ehtiyatlarından daha səmərəli istifadə, kiçik fermer təsərrüfatlarının davamlı məhsuldarlığının təmin edilməsi kimi layihələrdən əldə edilmiş təcrübələrin ölkəmizdə də istifadə imkanlarını qiymətləndirmək mümkündür.

İşğaldan azad olunmuş ərazilərin heyvandarlıq potensialı çox yüksəkdir. Dövlətin dəstəyi ilə damazlıq heyvan cinslərinin artırılması üçün təsərrüfatların yaradılması, ailə başçısını itirmiş qadınlar üçün heyvandarlıq layihələrinin hazırlanması, qoyunçuluğun inkişafı üçün cins heyvanların ayrılması, arıçılığın inkişafı, otlaq sahələrinə uyğun xırdabuynuzlu kooperativ və təsərrüfatların yaradılması kimi tədbirlər reallaşdırıla bilər.

Aqrar sahənin inkişafı üçün texniki avadanlıqlar olduqca vacibdir. Kənd təsərrüfatı texnikalarının endirimli satışının maliyyələşdirilməsi, əkin işləri üçün hazırda pambıqçılıqda tətbiq olunan "Müqaviləli istehsal" modelinin tətbiqi (şirkət seçilməsi, xərcləri şirkətin qarşılaması və məhsul yığımında hesablaşma), müasir və ağıllı texnologiyalarından istifadə imkanlarını genişləndirmək (traktor, dron və s.) kimi tədbirlər dövlətin diqqət mərkəzində olacaq.

İşğaldan azad edilmiş ərazilərdə xüsusi inkişaf agentliklərinin təşkili (məsələn, Türkiyə təcrübəsi əsasında), müxtəlif rayonlarda əldə edilmiş intensiv bağçılıq təcrübəsinin ərazidə geniş tətbiqi, münaqişə zonasına yaxın olan ərazilər üzrə risk cədvəlinin (xəritəsinin) hazırlanması, aqrar sığortanın tətbiq edilməsi, Xüsusi İnkişaf Fondu-

nun yaradılması (kənd təsərrüfatı sektoru da daxil olmaqla), ərazilərə investisiyanın cəlb edilməsi üçün tədbirlər planın hazırlanması, beynəlxalq donorlar tərəfindən ərazilərdə həyata keçiriləcək layihələrin dövlət strategiyalarına uyğunlaşdırılması, əhalinin həssas qrupları və ailə başçını itirmiş ailələr üçün inkluziv layihələrin həyata keçirilməsi, iş adamlarının investisiya qoymağa təşviq edilməsi və onlara xüsusi imtiyazların verilməsi, suvarma layihələrinin həyata keçirilməsi, orqanik kənd təsərrüfatının dəstəklənməsi kimi fəaliyyətlər də işğaldan azad edilmiş ərazilərimizin bərpası zamanı nəzərə alına bilər.

Sahibkarlığın inkişafı ölkənin sosial-iqtisadi və siyasi sisteminin yenidən qurulmasının xüsusi amili olaraq çıxış edir. Sahibkarların fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması üçün əsaslı formada islahatların aparılması da məhz dövlətdə reallaşdırılan iqtisadi inkişaf strategiyasının başlıca tələblərindən irəli gəlir.

Azərbaycanda innovativ fəaliyyətin, innovativ sahibkarlığın inkişafı ilə azad olunmuş ərazilərdə əlaqədar aşağıdakı təklifləri verə bilərik:

– azad olunmuş ərazilərdə milli rəqabətə davamlı məhsul istehsal olunmasına yönəldilən innovasiya fəaliyyətinin stimullaşdırılması;

– innovasiya fəaliyyəti ilə əlaqəli büdcə-vergi tənzimlənməsinin azad olunmuş ərazilərdə davamlı olaraq həyata keçirilməsi;

– kiçik innovasiya sahibkarlığının inkişafı üçün güzəştli vergi sisteminin şərtlərinin daha da yüngülləşdirilməsi;

– innovasiya sferasının azad olunmuş ərazilərdə maliyyə təminatının reallaşdırılması;

– Azərbaycanın azad olunmuş ərazilərində müasir iqtisadiyyatlı ölkələrin təcrübəsinə əsaslanaraq iqtisadi inkişafında innovasiya fəaliyyət sahələrinin tətbiq edilməsi;

– azad olunmuş ərazilərdə innovasiya sahibkarlığının təkmilləşdirilməsi mexanizminin stimullaşdırılması.

İnnovasiya fəaliyyəti baxımından mühüm potensiala malik ərazilərin inkişafı Azərbaycanın regionda iqtisadi baxımdan daha da güclənməsində və iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayacaq.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019.
2. Dayanıqlı inkişaf məqsədləri: statistik icmal. Bakı, 2020.
3. Qasımov İ.H., Cəbiyev F. Q., 2017: s.107.
4. Gerguri Sh., Rexhepi G., Ramadani V., 2013: p. 7
5. Hüseynova A.D., 2015: s.140.
6. Atakişiyev M., Süleymanov Q., 2014: s.29.
7. www.preslib.az Prezident kitabxanasının rəsmi elektron səhifəsi.
8. www.president.az

Kərimova Mehriban Allahverən qızı, baş müəllim,
"İqtisadiyyat" kafedrası,
Mingəçevir Dövlət Universiteti
Email: kmehriban9@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASINDA VƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA BÜDCƏNİN ROLU

Ali Baş Komandan, Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri 2020-ci ilin sentyabr-noyabr aylarında, 44 gün davam edən Vətən müharibəsini uğurla başa vurdu və işğala son qoyuldu. Ərazilərin işğaldan azad olunması ilə əlaqədar sosial-iqtisadi inkişaf ilə bağlı bir çox konsepsiyalar işlənib hazırlandı və bu, 2021-ci ilin büdcə zərfinə daxil olaraq "Azərbaycan Respublikasının 2021-ci il və növbəti 3 il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"ndə öz əksini tapdı. Qəbul olunan bu konsepsiyada dövlət investisiyaları ilə yanaşı, xarici və yerli investisiyaların işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial infrastrukturunun yenidən qurulmasına, əraziyə köçürüləcək əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilməsi prioritet məsələlərdən biri hesab olunur.

Azad olunmuş ərazilərin bərpası və regionların davamlı tarazlı inkişafını təmin etmək məqsədilə ortamüddətli dövrdə bir neçə prioritet istiqamətlər nəzərdə tutulur ki, bunlardan ən birincisi azad olunan ərazilərdə iqtisadi və sosial infrastrukturun müasir tələblər səviyyəsində yenidən qurulmasıdır. Sonra həmin işğaldan azad olunmuş inzibati rayon mərkəzlərində və kəndlərində yaşayış binalarının, evlərin tikintisi və əhalinin məskunlaşmasının təmin olunmasıdır. Eyni zamanda həmin ərazilərdə istehsal, xidmət və ticarət sahələrinin yaradılması, məşğulluğun təmin olunması və s. kimi qarşıda duran vacib məsələlər vardır.

Qeyd etdiyimiz bu məsələlər Qarabağın inkişaf strategiyasında öz əksini tapmaqla qısa, orta və uzunmüddətli dövrü əhatə etməklə özündə yerli, regional, milli və beynəlxalq səviyyələrdə olan fəaliyyətləri də əhatə edir. Bu strategiyanın həyata keçirilməsini reallaşdırmaq üçün idarəetmənin təşkili, dövlətin makroiqtisadi vəziyyəti, fiskal, monetar və s. bu kimi siyasi alətlərdən istifadə edilməsi çox önəmlidir. Bunun üçün iri dövlət maliyyələşməsini əsas götürməklə, fiskal dayanıqlıq və beynəlxalq inkişaf partnyorlarının dəstəyini tənzimləyən donor koordinasiyası mexanizminin olması vacibdir. Bununla yanaşı, milli valyutanın real məzənnəsinin tənzimlənməsi üçün pul kütləsinin iqtisadiyyat tərəfindən udulması mərhələlərini nəzərdə saxlamaq lazımdır.

Bilirik ki, dövlət üzərinə düşən funksiyaları yerinə yetirmək üçün maddi maliyyə bazasına malik olmalıdır ki, bu vəsaitlər dövlət büdcəsində milli gəlirin müəyyən hissəsinin dövlətin əlində mərkəzləşməsi ilə həyata keçirilir. Ölkənin sosial-iqtisadi mənzərəsini dövlət büdcəsi özündə əks etdirən bir aynadır. Bu maliyyə sənədində ölkənin iqtisadi imkanları, bu imkanların hansı istiqamətə yönəldiləcəyi, bir sözlə döv-

lətin növbəti il üçün əsas məram və məqsədləri öz əksini tapır. Elə 2021-ci ilin dövlət büdcəsində də Vətən müharibəsinin uğurla başa çatması ilə əlaqədar olaraq bu əsas maliyyə sənədində istisna edilən istiqamətlər nəzərdə tutulub.

Məlumdur ki, gəlirləri 25,4 milyard, xərcləri 28,5 milyard manatdan çox olan 2021-ci ilin dövlət büdcəsi qarşısında duran əsas prioritet məsələlər Vətən müharibəsindən sonra ölkənin müdafiə və təhlükəsizlik qabiliyyətinin daha da artırılması, Qarabağın reinteqrasiyası, iqtisadi artımın bərpası və sosial rifahdır. Bunun üçün büdcə xərclərinin əsas istiqamətləri üzrə iqtisadi fəaliyyət bölməsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına 2,2 milyard manatın ayrılmasını təsadüf adlandırmaq olmaz.

Iqtisadiyyatın və sosial sferanın inkişafının təmin edilməsində dövlət büdcəsinin rolu və əhəmiyyəti olduqca böyükdür. Dövlət büdcəsi vasitəsilə ölkəmizdə məhsuldar qüvvələri hərtərəfli inkişaf etdirmək, pul vəsaiti ilə geniş təkrar istehsalı təmin etmək, həmçinin ölkənin müdafiə qüdrətini möhkəmləndirmək üçün milli gəliri qeyri-istehsal və istehsal sahələri, ölkənin iqtisadi rayonları arasında bölüşdürür və yenidən bölüşdürür. Dövlət büdcəsində milli gəlirin cəmləşdirilməsinin nisbətləri istənilən şəraitdə dövlətin yerinə yetirdiyi vəzifələrdən asılı olur. Azərbaycan Respublikasının maliyyə sistemində mərkəzi yer tutan dövlət büdcəsi, dövlətin məqsəd və vəzifələrini özündə əks etdirir. Ölkənin sosial-iqtisadi inkişafı dövlət büdcəsi ilə qarşılıqlı əlaqədədir. Büdcədə nəzərdə tutulmuş gəlirlərin çox hissəsi sosialyönümlü xarakter daşıyır və əsas üstünlük sosial siyasətin həyata keçirilməsinə yönəldilir. Belə ki, büdcə dedikdə, dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə, dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaların yerinə yetirilməsi üçün lazım olan pul vəsaitlərinin yığılması və istifadəsilə əlaqədar olan əsas maliyyə sənədi başa düşülür. Bu vəzifə və funksiyaların yerinə yetirilməsi üçün mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması zəruridir. Buna görə də büdcə iqtisadi kateqoriya kimi ictimai təkrar isteh-salın tələbatlarının inkişafı mərhələsində milli gəlirin bir hissəsinin yenidən bölgüsü həyata keçirilir ki, bu da dövlət və təkrar istehsalın subyektləri arasında yaranan pul münasibətləri sistemini xarakterizə edir.

Ölkənin maliyyə siyasətinin əsas aparıcı istiqamətləri dövlət büdcəsində əks etdirilir. Büdcədə nəzərdə tutulan gəlirlər Mərkəzi Bankda açılmış xüsusi hesaba daxil olur. Hesaba daxil olan vəsaitlərin xərclənməsinə nəzarəti isə Maliyyə Nazirliyi həyata keçirir. Dövlətin maliyyə vəziyyəti öz əksini büdcədə tapır və ölkədə aparılan vergi siyasətini müəyyən edir. Bilirik ki, büdcə vasitəsilə milli gəlirin, ümumdaxili məhsulun yenidən bölgüsü həyata keçirilir, iqtisadiyyatın dövlət tənzimlənməsini, həmçinin pul vəsaiti fondlarının xərc istiqamətlərini də müəyyənləşdirir. Dövlətin yaranması, inkişafı və formalaşması ilə əlaqədar olaraq maliyyə münasibətlərində meydana gəlmiş və öz əksini büdcədə tapmışdır. Dövlət öz üzərinə düşən funksiyaları həyata keçirmək üçün büdcədən əsas iqtisadi alət kimi istifadə etməklə bərabər, iqtisadi və sosial siyasəti də həyata keçirir. Cəmiyyətin sosial inkişafında, istehsalın stimullaşdırılmasında, həmçinin milli iqtisadiyyatın daima inkişaf etdirilməsində dövlət büdcəsinin

rolu çox böyükdür.

Azərbaycan mürəkkəb tarixi bir dövr yaşasa da, əzmlə, inamla böyük bir təkamül yolu keçərək təhlükəsiz, sabit və müasir həyat səviyyəsini təmin edən bir ölkə kimi dünyada tanındı. Ölkəmizin əhəmiyyətli dərəcədə beynəlxalq nüfuzu artmış, dövlətçilik ənənələri güclənmiş və olduqca müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Maliyyə imkanları iqtisadi inkişafdan qaynaqlanmaqla uzun illərdir ki, makroiqtisadi sabitlik və artıma nail olunmuş, təhlükəsizliyi təmin etmək üçün potensial imkanlar yaratmışdır. Böyük qələbəmiz nəticəsində işğaldan azad olunmuş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, regional və beynəlxalq nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaqla Azərbaycanın inkişafında daha böyük uğurlar əldə etməyə imkan verəcəkdir. Bununla regionda sabitliyin, təhlükəsizliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, o cümlədən ticarət və iqtisadi əlaqələrin inkişafı Cənubi Qafqazın lider dövləti sayılan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da artıracaq və möhkəmləndirəcək.

Milli və multikultural dəyərlər, siyasi və sosial-iqtisadi uğurlu nailiyyətlər qarşıdakı illərdə də Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına inam və əminlik yaradır. 2030-cu ilə qədər olan mərhələdə bu imkanlar respublikamızın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə, eyni zamanda müasir həyat standartlarına əsaslanan, yüksək sosial rifah cəmiyyətinə malik olan qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Bu baxımdan Azərbaycan dövləti əhalinin rifah halının daha da yaxşılaşdırılması və artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Cəmiyyət, biznes və dövlət üçlüyünün möhkəm, uğurlu əlaqəsi ilə ölkəmiz uzunmüddətli davamlı və sürətli inkişafa nail olacaqdır. İşğaldan azad olunmuş ərazilərə əhalinin qayıdışının təmini, inklüziv və dayanıqlı, milli sosial rifah səviyyəsinin davamlı artması Azərbaycanın yeni inkişaf mərhələsinin əsasını təşkil edir.

Qeyd etdiyimiz bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət etmək üçün makroiqtisadi siyasət çərçivəsinin daha effektiv formalaşdırılmasını, yerli məhsulların xarici bazarlara çıxışını artırmaq məqsədilə və biznesə dost dövlət idarəetməsi, ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri hesab ediləcək. Eyni zamanda rəqəmsal iqtisadiyyatı genişləndirməklə, insan kapitalının müasirləşdirilməsilə, iqtisadi inkişafın orta və uzunmüddətli dövr üçün hərəkətverici qüvvələrini möhkəmləndirməklə, iqtisadi suverenliyi tam təmin etməklə məqsədə nail olacağıq.

İstifadə olunmuş ədəbiyyat:

1. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 dekabr 2020-ci il №233-VIQ.

2. D.Bağırov, M.Həsənli “Maliyyə”, Dərs vəsaiti, Bakı, 2011.

3. https://vergiler.az/news/economy/

Mirzəyev F.M.,
Email: f.mirzayev.85@gmail.com;
Ağamirov O.A.,
Email: agamirovorxan@gmail.com
Azərbaycan Milli Aviasiya Akademiyası

AVİAŞİRKƏTLƏRİN DƏYİŞƏN BAZAR TƏLƏBLƏRİNƏ ADAPTASİYA PROBLEMLƏRİ

Müasir şəraitdə aviamüəssisə özünün iqtisadi fəaliyyətinin nəticələri üçün tamamilə cavabdeh olan, azad və hüquqi cəhətdən müstəqil bazar iqtisadiyyatı subyektidir.

Aviaşirkətlərin strateji məqsədləri onun hava gəmisi parkı haqqında qərarlarını müəyyən edir. Hava gəmisi parkının tipinin müəyyənləşdirilməsi üçün ilkin əsas aviaşirkətin nəzərdə tutulan marşrutlar şəbəkəsi və hər bir hava gəmisi üçün daha səmərəli (1 ton.km.-in maya dəyəri minimum olan) uçuş məsafəsidir. Hava gəmisi parkının tipini müəyyən etdikdən sonra, hər bir istiqamət üzrə sərnişin oturacaqlarının sayını və salonun konfiqurasiyasını müəyyənləşdirmək üçün məqsədli seqment seçilir. Daha sonra isə digər amillər, məsələn, hava gəmisinin alınması şərtləri və qiyməti, mühərriklərin səsi və tullantı emissiyası və s. təhlil edilir.

Bir qayda olaraq aviaşirkət minimum maya dəyərilə maksimum xidmət səviyyəsi həyata keçirmək məqsədi daşıyırsa (lowcost), o zaman çoxlu sayda sərnişin oturacaqlarına (oturacaqlar arası məsafə ən azı 70 sm. olmaq şərtilə) malik təyyarələri istismar edəcək. Oturacaqların maksimum sayı uçuşların təhlükəsizliyi tələbləri və ekstremal vəziyyətlərdə sərnişinlərin evakuasiyası imkanları kimi şərtlərlə müəyyən edilir. Yüksək keyfiyyətli xidmət göstərən aviaşirkətlər birinci sinif salonu olan (yataq yerlərinə malik, oturacaqlararası məsafəsi 150 sm. olan) müasir təyyarələri istismar edirlər. Bazarın müxtəlif seqmentlərində fəaliyyət göstərən digər aviaşirkətlər isə aralıq variantları seçirlər. Onlar oturacaqlararası məsafəsi 80 sm. olan ekonom sinifli (məsələn: boeing 747 - hər sırada 9-10 oturacaq) təyyarələrdən istifadə edirlər [1].

Hava gəmisi parkının tipi müəyyən etdikdən sonra aviaşirkətlər hava gəmisinin bortunda müxtəlif xidməti siniflərin salonlarının sayını və salonlararası arakəsmələrin növünü müəyyən etməlidirlər. Arakəsmələr iki cür olur: stasionar və səyyar. Stasionar arakəsmələrdən istifadə daha yüksək səviyyəli xidməti və komfortu təmin edir. Səyyar arakəsmələrdən istifadə isə aviaşirkətə dəyişən tələbə adaptasiya etmək imkanı yaradır. (məsələn, gün və həftə ərzində biznes sinfi ilə uçuşlara tələbin dəyişməsi). Təcrübə göstərir ki, adi günlərin (və ya iş günlərində) səhər və axşam reyslərində tələb ən yüksək həddə çatmış olur. Eyni zamanda günorta vaxtı, istirahət və bayram günlərində isə tələbin azalması müşahidə olunur. Stasionar arakəsmələrdən istifadə etdikdə tələbin ən yüksək olduğu dövrdə biznes sinifdə kifayət qədər yer ayırmaq imkanı yaranmış olur. Bu, həmçinin istirahət və bayram günlərində ekonom sinfin oturacaqlarını artırmaq hesabına bu günlərdə çoxlu sayda boş oturacaqların olması ehtimalını azaltmış olur. Qeyd edilənlər aviaşirkətlərin əksəriyyətinin səyyar arakəsmələrdən istifadə etməsini şərtləndirən amillərdir.

Ölkəmizdə fəaliyyət göstərən sərnişindaşıma üzrə hava şirkəti "Azərbaycan Hava Yolları" QSC-nin hava gəmiləri parkı müasir və texnoloji cəhətdən mükəmməl "Boeing" və "Airbus" təyyarələrindən ibarətdir. Milli aviadaşıyıcının donanmasına həmçinin yeni "Boeing 787 Dreamliner" təyyarələri daxildir. Ən son texnologiya əsasında yaradılan bu laynerlər sərnişinlərə uzaq magistrallı reyslərdə yüksək komfort

təklif edir.

"Azərbaycan Hava Yolları" QSC-nin donanmasına həmçinin iri tutumlu geniş füzelyajlı iki ədəd "Airbus A340-500" təyyarəsi daxildir. Bu rahat avialayner demək olar ki, bütün dünya üzrə istənilən təyinat məntəqəsinə heç bir dayanacaq olmadan uçmağa qadirdir. Geniş salonu isə həm ekonom, həm də biznes sinifdə səyahətin maksimum rahat keçməsinə imkan verir.

"Boeing 757" – Amerikanın "Boeing" şirkəti tərəfindən 1982–2005-ci illərdə istehsal olunmuş və orta uçuş məsafəsi üçün nəzərdə tutulmuş sərnişin təyyarəsidir. Ümumilikdə, 757 "Boeing" şirkətinin ən uğurlu ticarət layihələrindən biri hesab olunur və MDB ölkələrinin daşıyıcıları da daxil olmaqla, bu təyyarə bu vaxtadək çoxlu sayda aviaşirkətlər tərəfindən istifadə olunur. 757-200 seriyası 757-nin ən geniş yayılmış variantıdır. Fərdi konfiqurasiyasından asılı olaraq 180 nəfərdən 28 nəfərədək sərnişin tutur.

Hazırda "Azərbaycan Hava Yolları"nın parkında 2 Boeing 757-200 və başqa müasir tipli təyyarələr var.[2]

Sərnişinlər adətən gün ərzində maksimum uçuş tezliyinə malik birbaşa reyslərə üstünlük verirlər. Müştərilərin bu cür istək və tələbatlarını ödəməyə çalışan aviaşirkətlər bir sıra problemlərlə qarşılaşırlar.

Birincisi, aeroportların iş vaxtı uçuş və eniş vaxtlarının müəyyən edilməsinə mane ola bilər. Belə ki, bəzi aeroportlar ətrafda yaşayan əhalinin tələblərini nəzərə alaraq və gecə növbəsində işə görə verilən əmək haqqına qənaət etmək məqsədilə gecələr fəaliyyət göstərmir.

İkincisi, hava yollarında yüksək tezliklə uçuşların həyata keçirilməsi baha başa gəlir. Bu halda aviaşirkət müxtəlif üsullarla öz xərclərini və maya dəyərini azaltmağa çalışır. Bu üsullara aşağıdakıları aid etmək olar:

– hər hansı bir xətt üzrə intensiv fəaliyyət aeroportun göndərmələrinin sayının artması və maya dəyərinin azalmasını təmin etdiyindən, aviaşirkət uçuşlardan müntəzəm istifadə edən sərnişinlər üçün güzəştlər müəyyən edə bilər;

– yüksək uçuş tezliyi ilə iri hava gəmilərindən istifadə 1 ton.km-ə olan sabit xərclərə qənaət etməyə imkan verir.

Müasir dövrdə sərnişinlər tərəfindən istənilən zaman anında aviaşirkətin reysinə onlayn rejimdə yer bronlaşdırmaq kimi bir tələbi formalaşmışdır. Satışda boş yerlərin və ya rahat onlayn bilet sifariş etmək imkanlarının olmaması aviaşirkətin imicinə mənfi təsir göstərir ki, bu, həmçinin uçuşdan bir neçə gün öncə bilet alan biznes sinif sərnişinlərinin tələbinin azalmasına səbəb olur.

Aviaşirkət bu cür vəziyyətdən sıradakı yollarla çıxa bilər: uçuş qabağı biznes sinif sərnişinlər üçün yüksək tariflə bilet satmaq məqsədilə ehtiyatda yer saxlamalı və istirahət məqsədilə uçan sərnişinlərə biletlərin öncədən aşağı tariflə satılması. Əgər aviaşirkət bütün yerləri öncədən tam olaraq satarsa, o zaman az gəlir əldə etmiş olur. Belə ki, bütün yerləri istirahət məqsədilə uçan sərnişinlər güzəştli tariflərlə əldə etmiş olacaqlar. Eyni zamanda biznes sinif sərnişinlər üçün yerlərin ehtiyatda saxlanması oturacaqların boş qalması və gəlirin azalmasına da səbəb ola bilər. Müasir kompüter bronlaşdırma sistemləri satış üzrə dinamikanın dəqiq statistikasını tam olaraq müəyyən etmək imkanı vermir. Buna görə biznes sinif sərnişinləri üçün ehtiyat yerlərin sayını müəyyən etmək prosesi kifayət qədər çətin prosesdir. Belə bir imkan son illərdə postsovet ölkələrinin aparıcı aviaşirkətləri tərəfindən istifadə olunan «Strategy» İATA sistemi tərəfindən reallaşdırılmışdır. Aviaşirkətlər bu sistem vasitəsilə müəyyən dövr-

də bronlaşdırmanın dinamikasını müəyyən edə bilir və beləcə boş qalan yerlərin sayını minimallaşdırmağa nail olurlar. Məsələn, aviaşirkətlər gözləmə siyahısı (standby fares) üzrə dəqiq müəyyənləşdirilmiş vaxtda uçuşa təminat verməməklə aşağı tariflər tətbiq edə bilər. Əgər sərnişin lazımi reysə bilet əldə edə bilmirsə, o, pulunu geri ala və ya öz bronunu başqa reysə keçirə bilər.

Müntəzəmlik və dəqiqlik aviaşirkətin göstərdiyi xidmətlərin mühüm göstəriciləridir. Xidmətlərin göstərilməsi zamanı xarici mühitdə dəyişikliklər (aeroportun və ya aeronaviqasiya xidməti sistemlərinin tələbləri və s.) baş verə bilər. Aviadaşımaların maya dəyərini azaltmaq üçün siyahı üzrə hər bir təyyarəyə düşən uçuş saatlarını artırmaq gərəkdir. Bu da bəzi reyslərin münasib olmayan vaxta (uçuş və ya eniş vaxtına) təyin olunmasına və müxtəlif səbəblərdən reysin gecikməsinə səbəb olur. Hava gəmilərindən səmərəli istifadə etmək üçün (hava gəmilərinin hərəkət planı minimum vaxt ehtiyatına malik olduğundan) aviaşirkət ehtiyatda təyyarə saxlamalıdır. Belə ki, uçuşların gecikmələr olmadan yerinə yetirilməsi üçün təyinat məntəqəsinə vaxtında çatmaq, uçuşun vaxtında başlanmasından daha vacibdir.

Aviaşirkətin məhsulunun keyfiyyət xarakteristikası kimi sərnişinlərə xidmət bir neçə mərhələdən ibarətdir:

– aviadaşımaların satışı zamanı xidmətin göstərilməsi;
– aeroportda xidmətin göstərilməsi;
– hava gəmisinin bortunda xidmətin göstərilməsi.

Aviadaşımaların satışı zamanı arzu olunan səviyyədə xidmətin göstərilməsi, satış kanallarının müxtəlif və çoxsaylı olması səbəbindən çətinləşir. Belə ki, satılmış daşımaların 70-80%-i aviaşirkətin agentlərinin payına düşür, satışın böyük həcmi digər aviaşirkət tərəfindən interlayn vasitəsilə həyata keçirilir. Yerdə qalan hissə aviaşirkətin şəxsi ofisləri ilə həyata keçirilir (şəxsi satış adlanır). Bu səbəbdən bir çox aviaşirkətlər özləri satış sistemləri formalaşdırılar. Lakin aviaşirkət özünün satış sistemini formalaşdırılarkən bir sıra problemlər yarana bilər:

– sərnişin axını stabil deyil, mövsümi və sutkalıq tərəddüdlərə malikdir;

– ən aşağı tariflə bilet əldə etməyə çalışan sərnişinlər (adətən istirahətə gedənlər) çoxluğu fərqli tarifikasiyanın tətbiq olunması şərtlərini və uçuşdan imtina zamanı məbləğin qaytarılması kimi problemlərin çətinliyini artırırlar;

– hava nəqliyyatında dövlət tənzimlənməsinin azalması nəticəsində daşımaların satışı və bronlaşdırılması proseduraları mürəkkəbləşir. Belə ki, müxtəlif rəqib aviaşirkətlər tərəfindən xüsusi və güzəştli tariflər tətbiq olunur. Bu isə öz növbəsində aviaşirkətin gəlirlərinin azalmasına səbəb ola bilər.

Qeyd olunan problemin həlli üçün host (qovşaq) aviaşirkətə birbaşa çıxışı olan müasir avtomatlaşdırılmış bronlaşdırma sistemlərinin olması vacibdir. Bu tip sistemlər anında aviaşirkəti tarifləri və onların dəyişməsi haqqında aktual informasiya ilə təmin edir.

Avtomatlaşdırılmış bronlaşdırma sistemləri sərnişinlərin istənilən zaman anında boş yerlərin bronlaşdırması və lazımi gündə bilet əldə etməsi üçün istifadə olunur.

İstifadə olunmuş ədəbiyyat:

1. https://m.ru.sputnik.az/economy
2. "https://www.azal.az/ru/article/510"article

Qasımov Murad Tapdıq oğlu, baş müəllim,
"İqtisadiyyat" kafedrası,
"Azərbaycan Hava Yolları"Qapalı
Səhmdar Cəmiyyəti Milli Aviasiya Akademiyası
Email: muradqasimov@mail.ru

MÜLKİ AVİASİYA MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ VƏZİYYƏTİNİN VƏ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Aviamüəssisənin təsərrüfat fəaliyyətində maliyyə xüsusi əhəmiyyət kəsb edir. Maliyyə - pul fondlarının yaranması və istifadə edilməsini ifadə edən pul münasibətləri sistemidir. Aviamüəssisənin maliyyəsi aşağıdakı prinsiplər əsasında təşkil olunur: maliyyə təsərrüfat fəaliyyəti sahəsində müstəqillik, özünümaliyyələşdirmə; işin nəticələrinə görə məsuliyyət, maliyyə ehtiyatlarının yaradılması, büdcə, büdcədənkənar dövlət fondlarına birinci növbəli ayırmalar, aviamüəssisənin fəaliyyətinə maliyyə nəzarəti.

Dövlət maliyyəsinin maddi bazasını - sosial sığorta, dövlət əmlakının və ayrı-ayrı şəxslərin sığortalanması, xalq təsərrüfatı sahələrinin, dövlət müəssisələri və təşkilatlarının maliyyəsi təşkil edir.

Dövlət maliyyə sisteminin əsas funksiyaları aşağıdakılardır.

- təsərrüfat fəaliyyəti prosesində pul vəsaiti fondlarının və pul gəlirinin yaranması;
- istehsalın inkişafı, büdcə gəlirinin formalaşması və müəssisə işçilərinin maddi maraqlandırılması üçün pul vəsaitinin istifadəsi, pul gəlirinin yaradılmasına, bölüşdürülməsinə və istifadəsinə nəzarət.

Mülki Aviasiya müəssisələrinin maliyyəsi dövlət maliyyəsinin tərkib hissəsini təşkil edir və Azərbaycan Respublikası xalq təsərrüfatı maliyyəsinin tərkibinə daxildir. Onlar Mülki Aviasiya müəssisələrinin istehsal-təsərrüfat fəaliyyəti, pul ehtiyatlarının əmələ gəlməsi, bölüşdürülməsi və istifadəsi ilə əlaqədar, həmçinin dövlətlə, banklarla, başqa təşkilatlarla və öz müəssisə və bölmələri ilə pul münasibətlərini ifadə edir.

Mülki Aviasiya müəssisələrinin dövlətlə pul münasibətləri vergi sistemi vasitəsilə həyata keçirilir. Müəssisələrin banklarla pul münasibətləri ssudanın alınması, onların qaytarılması, kreditə görə faizin ödənilməsi və s. əsasında qurulur.

İqtisadi kateqoriya kimi maliyyənin mahiyyəti onların istehsal, bölgü və nəzarət funksiyalarında təzahür edilir.

Maliyyənin istehsal funksiyası - mülki aviasiya müəssisələrində istehsal fondlarının dövriyyəsinin pul resursları ilə təmin olunmasıdır.

Maliyyənin bölgü funksiyası - məqsədli təyinat üzrə zəruri olan pul vəsaitləri fondunun yaradılması ilə ifadə edilir. Bu pul vəsaitləri sərf edilmiş istehsal vasitələrinin (amortizasiya) ödənilməsinə, işçilərin əmək haqqının ödənilməsinə, sosial sığortaya ayırmalara və mənfəətin əmələ gəlməsinə yönəldilir.

Öz növbəsində mənfəət büdcəyə ödənişlərə və bütövlükdə sahənin və mülki aviasiya müəssisələrinin ehtiyaclarının ödənilməsi üçün istifadə edilən mənfəətə bolunür (əsaslı qoyuluşun maliyyələşdirilməsi, mərkəzləşdirilmiş fondların yaradılması və s.).

Maliyyənin nəzarət funksiyası - bu mülki aviasiya müəssisələrinin gəlir və mənfəət, istehsalın inkişaf planının yerinə yetirilməsinə nəzarətin təmin olunmasıdır.

Maliyyə nəzarəti, nəzarətin mühüm formalarından birini təşkil edir.

Mülki aviasiya müəssisələrinin maliyyəsinin təşkili maliyyə planının işlənilməsinə əsaslanır. Bu planda müəssisə fəaliyyətinin bütün tərəfləri mədaxil (gəlirlər) və məxaric (xərclər) balansı şəklində öz əksini tapır.

Gəlir və xərclər balansının mühüm vəzifəsi daxil olan və xərclənən pul vəsaiti arasında uyğunsuzluğa yol vermədən daxil olan və xərclənən vəsaitin sinxronluluğunu təmin etməkdən ibarətdir. Bunlar arasındakı uyğunsuzluq müəssisənin tədiyyə qabiliyyətinin zəifləməsinə səbəb olur.

Maliyyə planında müəssisənin maliyyə resursları ilə istehsal planı arasında, yuxarı təşkilatlarla, dövlət büdcəsi və banklarla qarşılıqlı maliyyə münasibətləri müəyyənləşdirilir.

Maliyyə planı müəssisə kollektivinin sosial inkişafı və aviasiya işlərinin, hava daşıma istehsalının maliyyələşdirilməsi, həmçinin dövlət büdcəsi və banklar qarşısında öhdəliklərin yerinə yetirilməsi üçün pul vəsaitinin tam aşkar olunmasına, onlardan qənaətlə və məqsədyönlü istifadə edilməsinə şərait yaradır. Maliyyə planlaşdırılması istehsal planlaşdırılmasının metod və prinsiplərinə əsaslanır.

Maliyyə planı məhsul istehsalı və reallaşdırılması, istehsalın elmi-texniki inkişafı və onun səmərəliliyinin yüksəldilməsi, maddi-texniki təchizat, mənfəət və rentabellik planları əsasında tərtib edilir.

Maliyyə planı dörd bölmədən ibarətdir:

– xüsusi dövriyyə vəsaitinə tələbatın hesablanması;
– kredit planı üzrə dövriyyə vəsaitinə tələbatın hesablanması;
– məhsulun reallaşdırılması və mənfəətin bölüşdürülməsi planı;
– mədaxil və məxaric balansı.

Birinci və ikinci bölmələrdə mövcud xüsusi dövriyyə vəsaiti, müəssisənin kreditə olan tələbatı və onun alınması mənbələri göstərilir.

Üçüncü bölmədə realizə olunan məhsulun həcmi, mənfəət və onun istifadə istiqamətləri hesablanır, mülki aviasiya müəssisələri üçün mənfəət hava gəmilərinin istismarından alınan gəlirin xərclərdən artıq olması kimi təyin edilir.

Maliyyə planının dördüncü bölməsi - mədaxil və məxaric balansı - aşağıdakı üç hissədən ibarətdir:

– gəlirlər və daxil olan vəsaitlər;
– xərclər və ayrılan vəsaitlər;
– yuxarı təşkilatlarla qarşılıqlı münasibət.

Birinci bölmədə - hava gəmilərinin istismarından alınan mənfəət, amortizasiya ayırmaları (əsas vəsaitin köhnəlməsi), sabit passivin artımı və s. mənbələr üzrə daxil olan pul vəsaiti (büdcədən daxil olan və uzun müddətli kreditlər üzrə daxil olan vəsaitdən başqa)əks etdirilir.

İkinci bölmədə - hava gəmilərinin istismarından plan üzrə itkilər, əsaslı təmir xərcləri, əsaslı qoyuluş, xüsusi dövriyyə vəsaiti normativinin artımı, mədəni-məişət və uşaq bağçalarının saxlanılması xərcləri əks etdirilir.

Üçüncü bölmədə - yuxarı təşkilatlara ödənişlər və habelə yuxarı təşkilatların maliyyələşdirilməsinə yönəldilən vəsaitlər əks etdirilir.

İkinci bölmənin birinci hissəsində mənfəətdən ayırmalar, artıq dövriyyə vəsaiti, istifadə edilməyən amortizasiya ayırmaları və başqa sərbəst vəsait göstərilir.

Mədaxil və məxaric balansının bu bölməsinin ayrı-ayrı maddələri üzrə planlaşdırılan, büdcədən maliyyələşdirmə və büdcəyə ödənişlərin ümumi yekunu haqqında mühakimə yürütmək olar.

Əgər müəssisənin xərci onun gəlirindən çox olarsa, büdcədən maliyyələşmə müəssisənin büdcəyə ödənişindən həmin kəmiyyət qədər artıq olmalıdır.

Maliyyə planında maliyyə resurslarının ümumi həcmi mədaxil və məxaric üzrə balanslaşdırılır, daha doğrusu, istifadə edilən xərclərin cəmi, bu xərclərin mənbələri üzrə ödənilməsinin cəminə müvafiq olmalıdır.

Mədaxil və məxaric balansının sonunda maliyyə planı maddələrinin hesablanması üçün qəbul edilən əsas göstəricilər (qazanc, gəlirlər, xərclər və s.) əks olunur.

Bazar iqtisadiyyatında müəssisənin fəaliyyətinin mühüm şərti onun ziyansız, yəni mənfəətli olmasıdır. Mənfəət müəssisənin istehsal-təsərrüfat fəaliyyətini əks etdirən ümumiləşdirici göstərici olmaqla yanaşı, müəssisənin xalis gəlirinin ən mühüm elementini təşkil edir.

Mənfəət məhsulun (iş, xidmət) realizasiyasından daxil olan pulla istehsal xərclərinin fərqi kimi hesablanır.

Mülki aviasiyada gəlir realizə olunan məhsulun göstəricisidir.

Mülki aviasiya müəssisələrinin gəliri aviakompaniyalarda, agentlikdə, aeroportlarda əsas fəaliyyətlə əlaqədar olan, aviadaşımadan, AXTT üzrə işlərdən və başqa xidmətlərdən alınan gəlirlərin cəmindən ibarətdir.

Hava gəmilərinə malik müəssisələrin aviadaşımadan alınan gəlirləri (nəqliyyat gəlirləri) aşağıdakılardan ibarətdir:

- yerli və respublikalararası hava xətlərində müntəzəm və qeyri-müntəzəm reyslərlə baqajların, yükün, poçtun, sərnişinlərin aviadaşınmasından alınan qazanc;
- müntəzəm və qeyri-müntəzəm reyslərlə baqajların, yüklərin, poçtun, sərnişinlərin beynəlxalq daşınmasından və başqa beynəlxalq fəaliyyətdən alınan qazanc;
- sifarişli reyslərin yerinə yetirilməsindən alınan qazanc;
- başqa müəssisələrin hava gəmilərinə xidmətə görə aeroportların qazancı;
- hava gəmilərinin birgə istismarından, yaxud onların icarəyə verilməsindən alınan qazanclar.

Qazanc –qoyulmuş qiymət və tariflər üzrə işin, xidmətin, ödənişli baqajın, poçtun, yükün və sərnişinlərin aviadaşınmasına görə haqdır.

Hava gəmilərinə xidmətə görə aeroportların qazancı - başqa müəssisələrin, aviakompaniyaların və xüsusi şəxslərin hava gəmilərinə aeronaviqasiya, kommersiya, və texniki xidmətə, enmə-qalxma xidmətinə görə aldıqları rüsumların cəmidir.

Mülki aviasiya müəssisələrinin aviasiyanın xalq təsərrüfatında tətbiqi üzrə işlərdən əldə etdiyi gəlirə sifarişçilər tərəfindən təsdiq edilən, uçuşlar üzrə müqavilələrin yerinə yetirilməsi haqqında akt-hesabatla rəsmiləşdirilmiş, iş həcmi vahidinə müqavilə tarifi ilə hesablanmış aviasiyanın bütün növ tətbiqindən alınan qazanclar daxildir.

Mülki aviasiya müəssisələrinin əsas fəaliyyəti ilə əlaqədar xidmətlərdən alınan gəlirə - mülki aviasiya müəssisələrinin əhaliyə, başqa müəssisə və təşkilatlara, AXTT üzrə işlərlə və aviadaşımalarla əlaqədar göstərdiyi xidmətlərin realizasiyasından alınan qazanc daxildir.

Bazar münasibətləri şəraitində mənfəət aviamüəssisələrin fəaliyyətini xarakterizə edən əsas göstəricilərdən biridir. Aviamüəssisə öz fəaliyyətini mənfəətlə başa çatdırırsa, deməli o, öz xərcini həm ödəyir, həm də əlavə gəlir əldə edə bilir.

Bazar iqtisadiyyatında mənfəəti təhlil edərkən, maya dəyəri xərc maddələri üzrə nəzərdən keçirilməlidir. Bazar iqtisadiyyatı şəraitində mənfəətin təhlili daha çox amilləri əhatə etməlidir. Məsələn, mənfəətin istehsal güçündən asılı olması, rəqabət xarakterli işdən, xidmətdən əldə edilən mənfəət və s. mənfəətin məbləğini artırmaq üçün tədbir hazırlamağa imkan verir.

Gəlirlərlə xərclərin fərqi mənfəəti təşkil edir.

Maddi istehsal sferasında mənfəət bir qayda olaraq üç hissəyə bölünür:

– planlaşdırılmış məhsul, iş, xidmətin realizasiyasından alınan mənfəət;

– istehsalla və məhsulun, işin, xidmətin realizasiyası ilə bilavasitə əlaqədar olmayan köməkçi və xidmətedici istehsallardan əldə edilən mənfəət;

– başqa təsərrüfat əməliyyatlarından əldə edilən mənfəət (alınan və ödənilən cərimələrin cəmindən fərqlər və s. daxil olmaqla).

Mülki aviasiya müəssisələrində balans və istismar mənfəətini fərqləndirirlər.

İstismar mənfəəti - mülki aviasiya müəssisələrinin əsas fəaliyyəti üzrə hava gəmilərinin istismarından alınan gəlir və xərclər arasındakı fərqidir.

Balans mənfəəti - mülki aviasiya müəssisələri üzrə mənfəətin yekunudur.

Balans mənfəəti aşağıdakıların cəmindən ibarətdir:

- istismar mənfəəti;
- başqa təsərrüfatdan (qeyri-əsas fəaliyyət üzrə) alınan itkilər yaxud mənfəət;
- birgə müəssisələrdə işgüzar fəaliyyətdən əldə edilən mənfəət;
- müəssisə əmlakının realizasiyasından alınan gəlir, yaxud realizasiya üzrə xərcləri çıxmaqla, bərpa, qalıq dəyəri ilə satış qiyməti arasındakı fərq;
- realizə olunmayan əməliyyatlardan alınan başqa gəlirlər.

Mənfəət mülki aviasiya müəssisələri fəaliyyətinin qiymətləndirilməsinin əsas maliyyə göstəricisini təşkil edir.

Mənfəətin iqtisadi məzmunu aşağıdakı istiqamətlərdə təzahür edir;

- mənfəət istehsala investisiya qoyuluşlarının və xərclərin səmərəliliyinin maliyyə göstəricisidir;
- mənfəət istehsalın inkişafı üçün əsas vəsait mənbəyidir;
- mənfəət müəssisə fəaliyyətinin ümumiləşdirici göstəricisidir, belə ki, onda müəssisə fəaliyyətinin bütün tərəfləri (kəmiyyət və keyfiyyət), istehsal miqyasının genişləndirilməsi, elmi-texniki tərəqqinin inkişafı, istehsal fondlarından səmərəli istifadə, əmək məhsuldarlığının yüksəldilməsi və aviadaşımaların və aviaişlərin maya dəyərinin aşağı salınması cəmləşdirilir.

Bunlar mənfəətin səviyyəsinə və ölçüsünə birbaşa təsir göstərir.

Mülki aviasiya müəssisələrinin istehsal təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün mənfəətin bölüşdürülməsi mühüm əhəmiyyətə malikdir.

Mənfəətin səmərəli bölüşdürülməsi sistemi aşağıdakı tələblərə cavab verməlidir:

- istehsalın inkişafı üçün müəssisənin maddi maraq prinsipinin həyata keçirilməsində mənfəətin stimullaşdırıcı rolunun təmini;
- xüsusi dövriyyə vəsaitlərinin yaradılması və əsaslı qoyuluşun maliyyələşdirilməsinin mühüm mənbəyi kimi mənfəətin istifadəsi;

- dövlət büdcəsinə mənfəətdən ayırmalar metodu ilə istehsal fondlarından istifadənin səmərəlilik dərəcəsi arasında birbaşa asılılığın müəyyənləşdirilməsi.

Mülki aviasiya müəssisəsinin mənfəəti birinci növbədə mənfəətdən büdcəyə verginin və başqa məcburi ödənişlərin köçürülməsi üçün istifadə edilir, ondan sonra qalan mənfəət xalis gəlir şəklində müəssisənin tam sərəncamına daxil olur.

Həmin məbləğdən plan üzrə itkilərin və xərclərin ödənilməsindən sonra iqtisadi həvəsləndirmə fondları yaradılır ki, bunlar da aşağıdakılardır:

– istehlak fondu;

– yığım fondu.

Mənfəətin yığıma və istehlaka bölünməsi müəssisənin inkişaf perspektivlərini müəyyən edir.

İstehlak fondu, mülki aviasiya müəssisələri işçilərinin maddi maraqlandırılmasına və onların sosial-məişət şəraitinin yaxşılaşdırılmasına istifadə edilir. Buraya istehsal göstəriciləri ilə əlaqədar olmayan (çoxillik əmək, yubiley və s.) mükafatların verilməsi maddi yardımın göstərilməsi və s. daxildir. İstehlak fondundan çəkilən xərclər qaytarılmır. Yığım fondu-istehsal və qeyri-istehsal təyinatlı əsas fondların alınması; digər əsaslı vəsait qoyuluşu üçün istifadə edilir. Eyni zamanda yığım fondu hesabına qaytarılmamaq şərtilə aşağıdakılar maliyyələşdirilir:

- elmi-tədqiqat işlərinin yerinə yetirilməsi;
- təbiəti mühafizə tədbirləri;
- ixtisasın artırılması ezamiyyət xərcləri kredit üçün faizlər və s.;
- qiymətli kağızların buraxılması üçün xərclər;
- mənfəətin gizlədilməsinə görə cərimə sanksiyalarının ödənilməsi və s.

Yığım fondu birinci növbədə mərkəzləşdirilmiş əsaslı qoyuluşun və risk fondunun maliyyələşdirilməsi üçün sahə üzrə istehsalın mərkəzləşdirilmiş inkişaf fondunun yaradılması üçün, sonra isə müəssisə üzrə istehsalın inkişaf fondunun yaradılması üçün istifadə edilir.

Xalis mənfəətdən istehlak fonduna və yığım fonduna ayırmalar və onlardan istifadə qaydası müəssisələrin özləri tərəfindən müəyyənləşdirilir.

İqtisadi göstəricilər sırasında rentabellik göstəricisi xüsusi yer tutur. Rentabellik sintetik göstərici olaraq özündə bir sıra göstəriciləri birləşdirir. Bu göstərici əsas və dövriyyə fondlarından istifadə, məsrəflərin səmərəliliyi və s. bu kimi vacib məsələlər barəsində təsəvvür yaradır.

İstehsalın rentabelliyi mülki aviasiya müəssisələri fəaliyyətinin mühüm keyfiyyət göstəricisidir.

Mülki aviasiya müəssisələrinin işinin rentabelliyi istismar mənfəətinin, istehsalın istismar xərclərinə bölünməsi kimi hesablanır:

$$R_m = \frac{M_{ist}}{X_{ist}} \times 100\%$$

Burada,

M_{ist}- istismar mənfəəti, man.,

X_{ist}- istismar xərcləri, man.;

Lakin bu göstərici müəssisənin işinin səmərəliliyini istənilən dərəcədə tam xarakterizə etmir, belə ki, yalnız işin, xidmətin və aviadaşımanın maya dəyərinə daxil

olanların istifadə səviyyəsini səciyyələndirir.

Bu məqsədlə rentabelliyin səviyyəsi təyin edilir:

$$R_m = \frac{M_{bal}}{F_ə - F_d} \times 100\%$$

Burada,

M_{bal}- balans mənfəəti, man:,

$F_ə$- əsas istehsal fondlarının dəyəri, man:,

F_d - dövriyyə vəsaitinin dəyəri, man.

Mülki aviasiya müəssisələrinin maliyyə vəziyyəti müəssisədə təşkil edilmiş istehsalın və işin səmərəliliyindən birbaşa asılıdır.

Müəssisənin maliyyə vəziyyətinin mühüm əlamətləri aşağıdakılardır:

- tədiyyə qabiliyyəti;
- dövriyyə vəsaitinin vəziyyəti və istifadəsi;
- mənfəət, rentabellik, gəlir, qazanc üzrə tapşırığın yerinə yetirilməsi;
- maliyyə və hesablaşma intizamına riayət.

Əgər müəssisənin hesablaşma hesabında pul vəsaitinin sərbəst qalığı varsa, ödənişlər (büdcəyə, tədarükçülərə, banklara və s.) üzrə vaxtı keçmiş borcları yoxdursa, deməli, müəssisənin maliyyə vəziyyəti yaxşıdır.

Maliyyə vəziyyətinin yaxşılaşdırılması şərtlərindən biri də mənfəət üzrə planın yerinə yetirilməsi və təsdiq edilmiş tapşırıqlara müvafiq qazancın vaxtında daxil olmasıdır.

Maliyyə vəziyyətinin dayanıqlığının mühüm şərtlərindən biri də dövriyyə vəsaitindən daha səmərəli istifadə edilməsidir. Bundan başqa bank kreditlərindən məqsədli istifadə, öhdəliklər üzrə ödənişlərin vaxtında ödənilməsi də maliyyə vəziyyətinə təsir göstərir.

Maliyyə vəziyyətinin yaxşılaşdırılmasında ilk növbədə müəssisə kollektivi daha maraqlı olur, çünki gəlirliyin yüksəldilməsi və mənfəətin artımı iqtisadi həvəsləndirmə fondunun səviyyəsinə təsir göstərir və bu öz əksini istehsalın inkişafında tapır.

Müəssisənin maliyyə vəziyyətinə nəzarət və maliyyə vəziyyətinin təhlili - idarəetmənin, nəzarətin və uçotun mühüm funksiyasıdır.

Şirvani Könül Vaqif qızı, assistent,
Dünya iqtisadiyyatı və marketinq kafedrası,
Sumqayıt Dövlət Universiteti
Email: konul.sirvani.75@mail.ru

REGİONLARDA TURİZMİN DAVAMLI İNKİŞAFI PROBLEMLƏRİ

Bazar münasibətləri əhalinin gəlirlərinin artmasına, xidmət sektorunun, nəqliyyat təminatının və mədəniyyətlərarası əlaqələrin inkişafına təsir edən texniki tərəqqiyə şərait yaradır. Bu, turizm xidmətləri göstərən qurumların infrastrukturunun formalaşmasına, nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına, turist axınının artmasına səbəb olur. Bütün bunlar turizm sənayesinin inkişafına öz töhfəsini verir və xidmət sek-

torunda aparıcı yer tutmasına şərait yaradır. Müasir şəraitdə dünya iqtisadiyyatının vacib və dinamik inkişaf edən sahələrindən biri kimi turizmin sosial-iqtisadi əhəmiyyəti artır. Turizm sektorunun inkişafı ümumi daxili məhsulun formalaşmasında vacibdir və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir. Turizm uzunmüddətli perspektivdə Azərbaycanın innovativ inkişafının vacib bir hissəsi, inkişaf etmiş milli iqtisadiyyatın iqtisadi cəhətdən qazanclı və ekoloji cəhətdən səmərəli sahəsi hesab oluna bilər. Odur ki, istirahət və turizm üçün infrastrukturun inkişafı, habelə turizm xidmətlərinin keyfiyyətinin, əlçatanlığının və rəqabətqabiliyyətliliyinin təmin edilməsinin yaxşılaşdırılması zəruridir. İndiki mərhələdə fərqli turizm növlərinin formalaşması, inteqrasiya prosesləri, turizm infrastrukturunun və innovativ texnologiyaların inkişafı, turistik istiqamətlərin inkişaf nümunələrinin elmi şəkildə öyrənilməsi vacibdir.

Turizm regionunun inkişafı mexanizmlərini formalaşdırarkən davamlı inkişaf prinsiplərinə əsaslanan regional turizm sənayesinin inkişaf etdirilməsi zəruriliyi nəzərə alınmalıdır. Bunun üçün bütün idarəetmə səviyyələrində olan dövlət orqanlarından konkret turizm regionlarının və bütövlükdə ölkənin dayanıqlı inkişafın təməl meyarlarına uyğun strategiya hazırlamaq tələb olunur (Cədvəl 1).

Cədvəl 1.

Turizm regionunun davamlı inkişaf istiqamətləri

Davamlı inkişaf meylləri	Fəaliyyət istiqaməti
Turist ehtiyatlarının qorunması və bərpası	Daha çox istehsal məqsədi ilə regionun turizm ehtiyatlarını qorumaq. Təbii alt sistemin quruluşunun qorunması, yerli sakinlərin maddi və mənəvi ehtiyaclarının ödənilməsi
Ekoloji turizmin planlaşdırılması	İnkişaf prosesində obyektlərin ən uyğun növünü və yerini müəyyənləşdirərkən ətraf mühitin bütün elementlərini diqqətlə izləmək, təhlil etmək və nəzərə almaq
Yerli əhalinin maraqlarının qarşılıqlı əlaqəsi və nəzərə alınması	Yerli əhalinin planlaşdırma və inkişaf prosesinə cəlb edilməsi. Yerli əhaliyə fayda gətirən turizm növlərini inkişaf etdirmək
Keyfiyyətli turizm	Bölgənin ekoloji cəhətdən ona zərər vurmayan turistlərə yönəldilməsi
İqtisadi və sosial faydalar	Adambaşına hər növ (təbii, maddi və maliyyə, insan, sosial) kapitalın artımı

Regional səviyyədə turizmin inkişafı iqtisadiyyatın şaxələndirilməsi və resurs potensialından istifadənin səmərəliliyinin artırılması üçün vacib sahələrdən biridir. Turizm sektorunun sosial-iqtisadi əhəmiyyətinin artması ölkə daxilində və ümumilikdə regional səviyyədə turizmin inkişafı üçün yeni imkanların axtarılmasını zəruri edir [2, s.4].

Turizmin inkişafının müasir mexanizmlərini həmin sahənin uzunmüddətli davamlı inkişafının ümumi prosesinin elementləri kimi nəzərdən keçirməklə müvafiq ölkənin və regionun ümumi siyasətinə, planlarına və inkişaf modellərinə uyğunlaşdırılması lazımdır. Bu, turizm regionunun infrastrukturundan yerli əhalinin və turistlərin ehtiyacları üçün çoxməqsədli istifadəsini təmin edəcəkdir. Turizm məhsulunun tanıdılması ilə bağlı qərarları istiqamətləndirməyə imkan verən müəyyən bir region üçün turizmin inkişafı üzrə siyasət və planların hazırlanmasına və qəbul edilməsinə xüsusi diqqət yetirilir. İnkişaf mexanizmləri çevik olmalı və ekoloji dəyişikliklərə uyğunlaşmalıdır.

Regional turizmin tam səciyyələndirilməsi məqsədilə onun inkişafı üçün şərtləri üç bloka bölmək məqsədəuyğundur (Cədvəl 2).

Cədvəl 2.

Regional turizmin inkişafı üçün əsas şərtlər

Əsas bloklar	Struktur elementləri
Ərazi - resurs	- regionun ərazisi (turist axınının istiqaməti kimi); - təbii-coğrafi, tarixi və mədəni xüsusiyyətlər və ərazinin ehtiyatları.
Sosial-iqtisadi	- turist ehtiyaclarının ödənilməsi; - yerli əmək ehtiyatları ilə təminat; - inkişaf etmiş turizm növləri haqqında məlumatların mövcudluğu.
Təşkilati-idarəetmə	- regionda turizm fəaliyyətinin təşkili və ona maliyyə dəstəyi; - turizm infrastrukturunun inkişafı; - regionun və onun görməli yerlərinin nəqliyyat əlçatanlığı; - regional planlaşdırma və turizmin inkişafının idarə edilməsi; - regionda turistlərin təhlükəsizliyi.

Regionda turizmin davamlı inkişafı üçün şərtlərin xüsusiyyətlərinə diqqət yetirək:

1. Turistləri cəlb etmək üçün lazım olan istirahət və turizm mənbələrinin mövcudluğu. Bu baza regionda turizm infrastrukturunun formalaşması üçün əsasdır. Bu ön şərt olmadan regionda hər hansı bir turizmin inkişafı mümkün deyil.

2. Mülkiyyət formasının və idarəetmə növlərinin mövcudluğu və müxtəlifliyi. Bu baza olduqca əhəmiyyətlidir, çünki rəqabət mühitin və müvafiq olaraq davamlı inkişafın əsasını qoyur. Turizm agentliklərinin rəqabəti onların xidmətlərinin keyfiyyətinə, kadrların peşəkar səviyyəsinin artmasına ciddi təsir göstərir. Hər bir vətəndaşın turist xidmətləri almaq və ya bir neçə variantda istirahət etmək imkanı var: oteldə, istirahət evində, turizm və sağlamlıq mərkəzində və s.

3. Turizm fəaliyyəti növündə hər bir iştirakçının seçim azadlığı. Bu, o deməkdir ki, istənilən turizm kompleksinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və qazanc əldə etmək hüququ var. Sahibkarlıq fəaliyyətinin formaları fərqli ola bilər: xüsusi otellərin və şadlıq evlərinin fəaliyyətindən tutmuş, turizm kompleksləri və istirahət təşkilatlarının səhmdarlıq və digər fəaliyyət formalarına qədər.

4. Bütün turizm təşkilatları və qurumlarının mövcud mənbələrə çıxışı. Məsələ burasındadır ki, bütün sahibkarlıq subyektləri turistik və istirahət amillərindən istifadə edə bilər: avadanlıq və texnologiya almalı, kredit götürməli və işçi qüvvəsi cəlb etməlidirlər.

5. Turizm sahəsində dövlət siyasətinin mövcudluğu, regionda turizmin inkişafı üçün regional hərtərəfli hədəf proqramlarının və konsepsiyalarının formalaşdırılması və həyata keçirilməsi. Bu, regionda turizmin inkişafını əlaqələndirmək və nəzarət etmək üçün dövlət strukturlarının fəaliyyətini nəzərdə tutur.

Ümumiyyətlə, regionda turizmin inkişafı üçün təklif olunan mexanizmlərdən istifadə ərazidə turizm sektorunu sabitləşdirmək və daha da yaxşılaşdırmaq, həmçinin davamlı inkişafını təmin etmək üçün bir sıra tədbirlərin hazırlanmasına imkan verəcəkdir. Regional turizmin inkişafı üçün uyğunlaşdırıcı mexanizmlər onun bütün hissələrini - tələb və tələb amillərini, infrastruktur və institusional elementləri hərtərəfli öyrənməyə yönəldilməli, turizmin regionun və bütövlükdə ölkənin ümumi siya-

sətinə inteqrasiyasını təmin etməlidir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkəmizin dünya ölkələri arasında nüfuzunun daha da yüksəlməsinə, turistlərin sayının ildən-ilə çoxalmasına, bir sözlə, turizm fəaliyyətinin genişlənməsinə şərait yaradacaqdır [1].

Hal-hazırda respublikamızın işğaldan edilmiş ərazilərində turizmin inkişaf etdirilməsi strategiyası hazırlanır. Həmin ərazilərdə turizmin inkişafı üçün əlverişli şərait vardır. Burada turizm klasterlərinin yaradılması məqsədəuyğundur. Belə klasterləri Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı, Kəlbəcər-Laçın və Bərdə-Ağdam istiqamətlərində yaradıla bilər.

İşğaldan azad edilmiş ərazilərdə turizm sisteminin effektiv işləməsi, onun inkişafına cavabdeh olan strukturların hərəkətlərini planlaşdırmadan, tənzimləmədən və əlaqələndirmədən mümkün deyil. Bu, ərazilər səviyyəsində turizm fəaliyyətinin stimullaşdırılması üçün hərtərəfli mexanizmin inkişaf etdirilməsini zəruri edir.

Regionlarda turizmin inkişafı üçün müəyyən edilmiş və qruplaşdırılmış şərtlər stimullaşdırma mexanizminin formalaşmasına təsir göstərən müəyyən hədəf amillərdir ki, bu da iqtisadi, təşkilati və inzibati metodlar sistemini təşkil edən funksional qruplarla əks oluna bilər. Onlardan bəzilərini nəzərdən keçirək:

1. Resurs potensialından istifadənin monitorinqi və qiymətləndirilməsi sisteminin hazırlanması və tətbiqi.

2. Turizmin inkişafını stimullaşdıran effektiv iqtisadi mexanizmin tətbiqi.

3. Aşağıdakı tədbirlərin həyata keçirilməsinə əsaslanan təşkilati mexanizmin inkişafı: turizm prosesində iştirak edənlərin (dövlət orqanları, istirahət müəssisələri, turistlər, yerli əhali) hərəkətlərinin əlaqələndirilməsi; statistik məlumatların toplanmasını, yerli turizm məhsullarının tanıtımını əhatə edən məlumat dəstəyi.

4. Aşağıdakı şərtlər nəzərə alınmaqla regionlarda turizmin inkişafının proqramlı-məqsədli idarəetmə sisteminin formalaşdırılmasına əsaslanan bu fəaliyyət növünün effektiv inzibati idarəetmə mexanizmi: hədəflənmiş regional turizmin inkişafı proqramının hazırlanması; turizm sənayesi müəssisələrinin fəaliyyəti, tənzimlənməsi və nəzarəti üçün şəraitin yaradılması; sosial sistemin inkişafını dəstəkləmək, turizm sistemindəki bütün iştirakçıların maraqlarını qorumaq [3, s.75].

İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafını stimullaşdırmaq üçün göstərilən mexanizm aşağıdakı bir sıra məqsədyönlü tədbirlər vasitəsilə həyata keçirilməlidir:

- rəqabətli turizmin inkişafı proqramının mövcudluğunu təmin etmək;
- turizm və rekreasiya potensialından səmərəli istifadə problemlərinin müəyyənləşdirilməsi;
- sənayeyə investisiya axınının stimullaşdırılması;
- regionun bazarda tanıdılması;
- seçilmiş proqramın icrasına rəhbərlik və regionda turizmin inkişafı.

Qeyd etmək lazımdır ki, regionlarda turizmin inkişafını stimullaşdıran mexanizm yalnız daxili şərtlərə söykənə bilməz. Çünki hər bir region öz turizm məhsulunu yerləşdirərək milli və beynəlxalq turizm bazarlarına daxil olur, potensial istehlakçılar üçün digər regionlarla rəqabətə girir.

İstifadə olunmuş ədəbiyyat:

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 29 yanvar 2019.
2. Богомазова И.В. Формирование и развитие сферы туризма в регионе в современных условиях. Дисс. канд. экон. наук. Москва, 2011, 234 с.
3. Зализняк Е.А. Региональный туризм: Основные признаки и условия развития Вестн. Волгогр. гос. ун-та. Сер. 3, Экон. Экол. 2011, № 2 (19), с.70-76.

Osmanov İlqar Osman oğlu, assistent,
Sumqayıt Dövlət Universiteti
Email: ilqarosmanov1975@mail.ru

REGİONLARDA AQRAR SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Son illərdə regionların sosial-iqtisadi inkişafında prioritet vəzifə əhalinin yüksək səviyyədə yaşamasına nail olmaqdır ki, bu da əsasən ərzaq təhlükəsizliyindən, kənd təsərrüfatı məhsulları istehsalının inkişaf dərəcəsindən asılıdır. Bu baxımdan, aqrar sahibkarlığın səmərəli inkişafı Azərbaycanın iqtisadi fəaliyyətində daim diqqət mərkəzində olmalıdır. Azərbaycanda aqrar sahibkarlığın inkişafı sahəsində islahatlar aparıldığı illər ərzində əhəmiyyətli institusional dəyişikliklər baş vermişdir. Həm kənd təsərrüfatı istehsalının özünün, həm də iqtisadiyyatın bu sektorunun dövlət tənzimləmə mexanizminin konseptual əsasları əhəmiyyətli dərəcədə dəyişdirilmişdir. Milli və regional səviyyədə dövlət tənzimləmə mexanizmləri birbaşa qəbul edilmiş və həyata keçirilmiş iqtisadi siyasətlə əlaqəlidir.

Müasir şəraitdə aqrar sahibkarlığın dövlət tənzimlənməsi bir sıra tədbirlər kompleksi ilə xarakterizə olunur. Aqrar sahibkarlığın inkişafı strategiyasının əsas məqsədi davamlı istehsal üçün şərait yaradılması və məşğulluğun təmin edilməsidir. Aqrar sahibkarlığın resurs potensialından səmərəli istifadə məşğulluğun təmin edilməsi və sosial-mədəni inkişaf yolu ilə kənd yerlərinin davamlı inkişafına yönəldilmiş ölkənin milli iqtisadi kompleksinin sistem təşkil edən hissəsi kimi qəbul edilməlidir. Kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması problemi kənd yerlərinin davamlı inkişafının ümumi probleminin ayrılmaz hissəsi kimi çıxış edir.

Aqrar sahibkarlığın rəqabət qabiliyyətinin təmin edilməsi bir-biri ilə əlaqəli iki mərhələni əhatə edir: müvafiq mexanizmlər vasitəsi ilə nəzərdə tutulan regional inkişaf hədəflərinə nail olmağa imkan verən modellərin yaradılması və rəqabət qabiliyyətlərini aşağı salan və sosial-iqtisadi inkişafa mane olan amillərin müəyyənləşdirilməsi [3, s.37].

Əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və milli ərzaq təhlükəsizliyinin təmin edilməsi tələblərinə cavab verən aqrar sahibkarlıq fəaliyyəti, əsasən potensialın səfərbər edilməsi yolu ilə ölkənin kənd təsərrüfatı məhsullarına, xammala və qidaya olan tələbatının sabit və daha dolğun şəkildə təmin edəcək keyfiyyət, kəmiyyət və sosial-iqtisadi parametrlərlə xarakterizə olunmalıdır. Bunun üçün:

- məqbul bir istehlak səviyyəsinə çatmaq üçün aqrar sənaye kompleksində beynəlxalq əmək bölgüsü və beynəlxalq əməkdaşlıq kooperativlərinin üstünlüklərindən istifadə edərək bərabər və qarşılıqlı faydalı xarici iqtisadi əməkdaşlığı nəzərə alaraq həm normal, həm də ekstremal şəraitdə kənd təsərrüfatının genişləndirilmiş təkrar istehsal rejimində tarazlı şəkildə işləməsini təmin etmək;

- yerli istehsalçılarla və Azərbaycanın ÜTT-yə yaxınlaşması ilə əlaqəli beynəlxalq təcrübədə qəbul edilmiş qoruyucu tədbirlərin istifadəsi nəzərə alınmaqla, ölkənin kənd təsərrüfatı məhsulları, xammal və qida məhsulları ilə xarici ticarətin strukturunu rasionallaşdırmaq, məhsulların idxalı və ixracı şərtlərinin tənzimlənməsi;

- aqrar sahibkarlıqda ərazi və sahə əmək bölgüsünü dərinləşdirmək, müəyyən kənd təsərrüfatı növlərinin istehsalı üçün geniş miqyaslı ixtisaslaşmış zonalar yaratmaq;

- həm normal, həm də ekstremal şəraitdə aqrar bazarın normal fəaliyyətini təmin edə bilən kənd təsərrüfatı məhsullarının, xammalın və ərzağın istehsalı və satışı ilə bağlı iqtisadi proseslərin dövlət tənzimlənməsinin effektivliyini təmin etmək.

Aşağıdakı qrafik vasitəsilə Azərbaycanda 2010-2019-cu illər üzrə kənd təsərrüfatının ümumi məhsulunun artım dinamikasını nəzərdən keçirək:



Qrafik. Azərbaycanda 2013-2019-cu illər üzrə kənd təsərrüfatının ümumi məhsulunun artım dinamikası, min manatla.

Aşağıdakı cədvəldən göründüyü kimi, kənd təsərrüfatının ümumi məhsulunun həcmində ən çox artım 2019-cu ildə olmuşdur. Belə ki, həmin ildə istehsal olunan kənd təsərrüfatı məhsulunun həcmi 615203 min manat təşkil etmişdir ki, bu da 2010-cu illə müqayisədə 427519 min manat və yaxud 3,3 dəfə, 2015-ci illə müqayisədə 240893 min manat və yaxud 64%, 2018-ci illə müqayisədə isə 230255 min manat və yaxud 59,8% artmışdır. 2019-cu ildə ən çox artım 31,6% olmaqla Aran iqtisadi rayonunun, 25,8% olmaqla Quba-Xaçmaz iqtisadi rayonunun, yerdə qalan hissə isə digər iqtisadi rayonların payına düşür.

Cədvəl.

Kənd təsərrüfatının ümumi məhsulunun iqtisadi rayonlar üzrə bölgüsü (müvafiq illərin faktiki qiymətləri ilə), min manat [1,2]

	2015	**2016**	**2017**	**2018**	**2019**
Respublika üzrə	374320	408711	383157	384958	615203
Bakı şəhəri	10732	18851	23283	2463	32070
Abşeron	36497	51842	12355	13672	44947
Gəncə-Qazax	20404	25878	33180	53010	75103
Şəki-Zaqatala	21673	24986	21367	19848	39173
Lənkəran	15534	17402	15258	14896	7868
Quba-Xaçmaz	94647	104749	26597	75830	159021
Aran	155340	139429	226617	177347	194433
Yuxarı Qarabağ	10856	11633	10702	13900	29538
Kəlbəcər-Laçın	284	251	287	183	306
Dağlıq-Şirvan	5370	9299	9078	7437	26331
Naxçıvan Muxtar Respublikası	2983	4391	4435	6372	6413

Ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri regionlar üzrə məhsul istehsalının həcmində balansızlıqları aradan qaldırmaqla məhsul istehsalını artırmaqdır. Kənd təsərrüfatının ümumi məhsulunun həcminin artırılmasında Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları əhəmiyyətli rol oynaya bilər. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının əlverişli təbii mühitinin olması bunu deməyə əsas verir. Bu iqtisadi rayonlardakı torpaqların təsərrüfat dövriyyəsinə cəlb edilməsi dövlətin aktiv aqrar siyasətini tələb edir. Məhz, kənd təsərrüfatının ümumi məhsulunun həcminin artırılmasında dövlətin aqrar siyasəti əhəmiyyətli rol oynaya bilər. Kənd təsərrüfatında ərzaq siyasətinin səmərəli həyata keçirilməsini təmin etmək üçün dövlətin fəaliyyəti aşağıdakı kimi prioritet sahələrə yönəldilməlidir: ölkənin qida tədarükünün sabitliyinin qorunması; daxili aqrar ərzaq bazarının bütövlüyünün təmin edilməsi; struktur və effektiv xarici iqtisadi siyasətin aparılması; kadr siyasətinin aparılması; sənaye və kənd təsərrüfatı məhsullarının qiymət monitorinqi, habelə sahələrarası iqtisadi münasibətlərin tənzimlənməsi; kənd əhalisi üçün vahid sosial təminat standartlarının hazırlanması və həyata keçirilməsi.

Regionlarda aqrar sahibkarlığın inkişafı üçün prioritetlərin seçilməsi onun strategiyasının formalaşmasında mühüm elementdir. Aqrar sahibkarlığın inkişafına nail olmaq üçün aşağıdakı prioritet istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədə-uyğundur.

Birincisi, kənd təsərrüfatının səmərəli işi üçün ümumi şərtlərin yaxşılaşdırılması ilə əlaqələndirilir:

- kənd təsərrüfatının gəlirliliyini və investisiya cəlbediciliyini artırmaq, sənayenin texniki və texnoloji modernləşdirilməsi, torpaqdan və digər təbii sərvətlərdən səmərəli istifadəni təmin etmək məqsədilə dövlət dəstəyi formaları və mexanizmlərinin təkmilləşdirilməsi;
- kredit mənbələrinin artırılması, torpaq ipotekasının inkişafı, kreditləşmə, sığorta sahələrində, lizinq bazarında rəqabət qabiliyyətinin gücləndirilməsi;
- kənd təsərrüfatı üçün ixtisaslı kadrların dəstəklənməsi, hazırlanması və cəlb edilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması;
- kənd yerlərində bütün təsərrüfat növlərinin maliyyə dayanıqlığının artırılması;
- kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsulları üçün səmərəli fəaliyyət göstərən bazarların və bazar infrastrukturunun inkişafı;
- ÜTT qaydaları çərçivəsində yerli istehsalçıları qorumaq üçün lazımi tədbirlərin görülməsi ilə kənd təsərrüfatı məhsulları, xammal və ərzaq məhsulları bazarlarının dövlət tənzimlənməsinin təkmilləşdirilməsi;
- kooperasiyanın inkişafı, kənd təsərrüfatı məhsulları istehsalçıları və xidmət sahələri təşkilatlarının dövlətin aqrar siyasətinin formalaşmasında iştirakının genişləndirilməsi.

İkinci istiqamət kənd yerlərinin davamlı inkişafı üçün ilkin şərtlərin yaradılmasını özündə əks etdirir:

- kənd yerlərində demoqrafik vəziyyətin yaxşılaşdırılması və kənd əhalisinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin yaradılması tədbirlərinin həyata keçirilməsi, kəndin sosial infrastrukturunun inkişaf etdirilməsi;
- kənd əhalisinin mənzil şəraitinin yaxşılaşdırılması, kənd yaşayış məntəqələrinin abadlaşdırılmasının dəstəklənməsi;
- kənd təsərrüfatı əməyinin nüfuzunun artırılması;
- ənənəvi kənd təsərrüfatının qorunması və təkmilləşdirilməsi.

Üçüncü istiqamət torpaq mənbələrindən istifadənin və onların təkrar istehsalının səmərəliliyinin artırılması ilə bağlıdır:

- torpağın münbitliyinin yaxşılaşdırılması, meliorasiya sistemlərinin modernləşdirilməsi və bərpa olunan torpaqların genişləndirilməsi;
- kənd təsərrüfatı torpaqlarının səmərəli dövriyyəsinin inkişafı və kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin genişləndirilməsi üçün şərait yaradılması;

Dördüncü istiqamət kənd təsərrüfatı texnologiyalarının inkişafı və rəqabət qabiliyyətinin artırılması ilə bağlıdır:

- heyvandarlığın inkişafının təmin edilməsi və bu sahədə məhsuldarlığın Avropa

ölkələrinin göstəriciləri ilə müqayisə edilə bilən səviyyəyə çatdırılması;

- bitkiçilikdə intensiv texnologiyaların tətbiqi, elit toxumçuluğun dəstəklənməsi, yüksək məhsuldar sortlar üçün əkin sahələrinin genişləndirilməsi.

Bu istiqamətlərdə tədbirlərin reallaşdırılması aqrar sahibkarlığın inkişafına müsbət təsir göstərməklə, ölkənin ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı, bu sektorun ÜDM-in həcmində payının artırılmasına da gətirib çıxaracaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə, Bakı, 2020, 653 s.
2. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə, Bakı, 2020, 722 s.
3. Алтухов А.И. Стратегия развития АПК главное условие реализации национальной агропродовольственной политики. Экономика региона, № 4, 2011, с.35-44.

Quluzadə Esmira Məmməd qızı
Azərbaycan Dövlət İqtisad Universiteti
Email: esmira_guluzada@unec.edu.az

İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİN BƏRPA VƏ DİRÇƏLİŞ STRATEGİYASININ PRİORİTETLƏRİ

Son 17 il ərzində ölkəmizdə regionların inkişafına, yoxsulluğun azaldılmasına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, habelə iqtisadiyyatın güclənməsinə və sosial həyatımızın yaxşılaşmasına dair bir çox irihəcmli və əhatəli dövlət proqramları qəbul edilib və uğurla icra olunub. Onlardan bəzilərinin icrası hazırda da davam etdirilir. Həyata keçirilən bu və ya digər tədbirlər sayəsində ölkəmizdə uğurlu sosial-iqtisadi nailiyyətlər əldə edilib və Azərbaycanda qüdrətli dövlət və yüksək rifah cəmiyyəti qurulmasına etibarlı zəmin yaradılıb.

Hazırda qarşıda duran əsas vəzifə ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsini bundan sonra da möhkəmləndirmək, biznesə dost dövlət idarəetməsini genişləndirmək, xarici bazarlara yerli məhsulların çıxışını artırmaq və iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin etmək, işğaldan azad olunmuş ərazilərdə mövcud təbii sərvətlərdən səmərəli istifadə etməkdir.

Bu məqsədlərin reallaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 2 fevral tarixli Sərəncam imzalayıb. Sərəncamda növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması nəzərdə tutulur. Bunlara dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir inno-

vasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi aiddir. Qeyd etmək lazımdır ki, Milli prioritetlər sıx qarşılığlı əlaqədə olmaqla, bir-birini tamamlayırlar. Hazırda dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur və bu prioritetlərin müəyyən edilməsi günün tələbidir. Çünki, dünyada gedən siyasi-iqtisadi proseslər iqtisadiyyatın idarə olunmasının təkmilləşdirilməsi vəzifəsini qarşıya qoyur. Bu səbəbdən, sənəddə qeyd edildiyi kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulan məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunu, əsas sosial-iqtisadi inkişaf istiqamətlərini, eləcə də buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir. Milli Prioritetlər proqramı dövlətin inkişafına və cəmiyyətin rifahına xidmət edən təşəbbüs olmaqla yanaşı, milli maraqlar və strateji planlamanın da vəhdətini təşkil edir. Risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edən strateji idarəetmə metodu, eyni zamanda ölkəmizin gələcək inkişaf mənzərəsini də müəyyən edir.

Bu gün işğaldan azad edilən regionların faydalı qazıntılarla zəngin olması, kənd təsərrüfatının və turizmin inkişafı üçün yüksək potensialın, habelə iqtisadiyyatın digər sahələrinin tərəqqisi baxımından münbit şəraitin mövcudluğu nəzərə alınaraq dövlətimizin başçısının tapşırığı ilə həmin ərazilərdə infrastrukturun qurulması, tikinti, abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır.

Hazırda yeni Füzuli-Şuşa magistral avtomobil yolunun inşası sürətlə aparılır. Yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını Hacıqabul- Bəhrəmtəpə-Mincivan Ermənistanla dövlət sərhədi magistral yolunun Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürməklə, işğaldan azad edilmiş Füzuli, Xocavənd və Xocalı rayonlarının ərazisindən keçir. Avtomobil yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edəcək. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Artıq Laçın rayonunda Preziden İlham Əliyevin iştirakı ilə "Güləbird" Su Elektrik Stansiyasının açılışı olmuşdur. Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihədir. Bu stansiya təxminən 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Həmçinin, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyulmuşdur. Prezident İlham Əliyevin təməlini qoyduğu, uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Bu nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad olunmuş torpaqlara gediş-gəlişini asanlaşdıracaq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsini yaradacaq.

Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa vardır. Naxçıvana quru dəhlizin açılması mühüm tarixi nailiy-

yətdir. Məhz Azərbaycan Prezidentinin təkidi ilə əvvəllər nəzərdə tutulmayan Azərbaycanın Qərb rayonları və Naxçıvan MR arasında nəqliyyat əlaqəsi yaradılacaq. Bununla da Naxçıvan həm blokadadan çıxarılır, eyni zamanda, yeni nəqliyyat damarı yaradılır. Azərbaycan özünün ayrılmaz hissəsi olan Naxçıvanla, həmçinin Türkiyə ilə birləşir. Belə bir yeni nəqliyyat dəhlizinin yaradılması regionda mühüm hadisədir və region ölkələrinin əməkdaşlığını daha da gücləndirəcək.

Son illərdə Azərbaycanın liderliyi ilə reallaşdırılan layihələr sayəsində regionun və Avropanın enerji xəritəsi əhəmiyyətli dərəcədə yenilənib. Ölkəmiz özünün zəngin neft və qaz resurslarının istehlakçılara şaxələndirilmiş marşrutlarla çatdırılmasına güclü siyasi iradə göstərir. Bu, həm təchizatçı ölkə kimi Azərbaycanın, həm də istehlakçı dövlətlərin maraqlarına uyğundur. Bu baxımdan, Azərbaycanın zəngin "Şahdəniz" yatağının ehtiyatlarının işlənməsinə və Avropa ölkələrinə çatdırılmasına hesablanan Cənub Qaz Dəhlizi müstəsna əhəmiyyət daşıyır. Yeni dəhliz zaman-zaman enerji amilinin siyasi təzyiq vasitəsinə çevrilməsindən əziyyət çəkən Avropa ölkələri üçün nəql marşrutlarının şaxələndirilməsi deməkdir. Elə bu və digər səbəblərə görə də Cənub Qaz Dəhlizinə maraq kifayət qədər böyükdür.

Azərbaycanın zəngin enerji resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilmiş kəmərlər vasitəsilə Azərbaycan qazı dünya və Avropa bazarlarına nəql olunur, respublikamız qlobal miqyasda qaz ixrac edən ölkəyə çevrilir. Bununla da Azərbaycan regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına töhfə verən ölkələrdən birinə çevrilir. Azərbaycan bu gün öz enerji məsələlərini uğurla həll edir. Cənub Qaz Dəhlizi, eləcə də Azərbaycanın dəstəyi ilə reallaşan digər enerji layihələri regionun təhlükəsizliyinə, iqtisadi inkişafına dəstək olmaqla yanaşı, Azərbaycanın özünün iqtisadi inkişafının artırılması baxımından çox əhəmiyyətlidir.

Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin formalaşdırıldığı bütün seqmentlərdə əsas payçılardan biridir, eyni zamanda, bu layihənin əsas təməlini meydana gətirən TANAP layihəsində ən çox paya sahib olan ölkədir. Bu da ona əsas verir ki, Azərbaycan hasil etdiyi təbii qazını özünün boru kəmərləri vasitəsilə daşıyaraq bu istiqamətdə əlavə dəyərini artıracaq, iqtisadi dividentlər əldə edəcək. Bununla da, Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbə olacaq. Gələcəkdə Türkmənistan və Qazaxıstan kimi ölkələrin təbii qazının nəqlinin həyata keçirilməsi, digər tərəfdən, Şərqi Aralıq dənizindən çıxarılacaq təbii qazın, əsasən də İsrailin təbii qazının gələcəkdə bu boru kəməri ilə daşına bilməsi Azərbaycanın dövlət büdcəsi gəlirlərinin daha da artması, ölkəyə valyutanın davamlı şəkildə daxil olması baxımından olduqca vacibdir.

İstifadə olunmuş ədəbiyyat:

1. www.iqtisadiyyat.org/
2. www.taxes.gov.az/

Bölmə II. İşğaldan azad olunmuş ərazilərdə modelləşdirmə və sosial inkişaf istiqamətləri

Section II. Modeling and Social Development Directions in the Liberated Territories from Occupation

Секция II. Моделирование и направления социального развития на освобожденных от оккупации территориях

Piriyev Əzim Səlim oğlu, dosent,
kafedra müdiri,
Bakı Biznes Universiteti

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏ SOSİAL PROQRAMLAR VƏ XİDMƏTLƏRİN KEYFİYYƏT HƏDƏFLƏRİ

Qarabağın bərpası, "ağıllı şəhər, ağıllı kənd" layihələri əsasında elmin və texnikanın ən son nailiyyətlərinə uyğun həyata keçirilməsi nəzərdə tutulur. Dirçəldilmiş Qarabağda sosial vəzifələrin həllinə uğurlu töhfə verməyə qadir olan sahənin yaradılmış güclü sektoru sosial bərabərsizliyi və ədalətsizliyi aradan qaldırmaq, insanlar arasındakı fərqlənməni tənzimləmək və əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq üçün sosial xidmətlərdən düzgün istifadə edilməlidir.

Bütün bunlara görə sosial sahənin modernləşdirilməsi baxımından əhali üçün sosial sistemdəki xidmətlərin praktiki ehtiyaclarını və mövcud elmi təhlil səviyyəsini araşdırmağa və müxtəlif sosial proqramların işlənib hazırlanmasına ehtiyac vardır.

Sosial layihələrin yerinə yetirilməsi və bərpa işlərinin aparılması üçün xüsusi proqramlar işlənilib hazırlanmalıdır. Fikrimizcə bu proqramlar aşağıdakı sahələri əhatə etməlidir:

1) Ərazilərin minalardan təmizlənməsi;

2) İnfrastrukturun yaradılması (yol, işıq, qaz, elektrik, su və sairə);

3) Sosial obyektlərin və dövlət orqanlarının yaradılması, xüsusilə hüquq-mühafizə fəaliyyəti və təhlükəsizlik məsələlərinə diqqətin artırılması (sərhədlərin qorunması, gömrük nəzarəti, terror, təxribatlara və cinayətkarlığa qarşı mübarizə və s.);

4) Məskunlaşma proqramı və sosial xidmətlərin təşkili.

Əhali arasında sosial sistemdəki xidmətlərin vəziyyətini təhlil edib qiymətləndirmək üçün aşağıdakılara diqqəti artırmaq məqsədə müvafiqdir:

- müxtəlif sosial-demoqrafik qrupların keyfiyyətcə yeni sosial xidmətlərə olan ehtiyaclarının aşkarlanmasını təmin etmək üçün müvafiq tədbirlərin görülməsi;
- proqramların və xidmətlərin optimal strukturunu müəyyənləşdirmək və onların əsaslarını inkişaf etdirmək;
- proqramların və xidmətlərin keyfiyyət hədəflərini qiymətləndirmək üçün rəqəmsal normaların, standartların əsaslandırılması;
- sosial sistemdə xidmətlərin göstərilməsi mexanizmlərinin inkişafı və sosial xidmətlər bazarının yaradılması;
- sosial sahənin yenilikçi modellərin və rəqəmsal texnologiyaların inkişafına nəzəri və metodoloji yanaşmaların formalaşdırılmaşı.

Birinci Qarabağ müharibəsi zamanı qaçqın və köçkün vəziyyətinə düşən insanların əksəriyyətinin öz doğma torpaqlarına qayıdacaqlarına heç kəsin şübhəsi yoxdur. Qayıdan insanların arasında həm birinci, həm də ikinci Qarabağ döyüşlərində şəhid olan insanların valideynləri, ailə üzvləri, qazilərimiz, aztəminatlı ailələr, işsizlər, təqaüdçülər, sağlamlığını müxtəlif səbəblərdən itirən ayrı-ayrı qrup şəxslər, həbsxanalardan qayıdan şəxslər, narkoman kimi qeydiyyatda olanlar, psixi xəstələr, sosial yardıma, sosial köməyə ehtiyacı olan fərdlər, qruplar, ailələr olacaqdır.

Ona görə də həyat fəaliyyətinin müxtəlif sahələrində sosial işin düzgün, məqsəd-

yönlü və keyfiyyətli təşkili çox mühüm əhəmiyyət kəsb edir. Bakı Biznes Universitetinin "Humanitar elmlər" kafedrasında da belə mühüm sosial vəzifəni yerinə yetirmək üçün məqsədyönlü tədbirlər görülür. Səriştəli, bacarıqlı, yüksək intellektə malik səbrli, ünsiyyət qurmağı bacaran, öz vəzifəsinə vicdanla yanaşan kadr potensialının yaradılmasına xüsusi diqqət yetirilir.

Bu ehtiyacları ödəmək üçün "Sosial iş" ixtisası fənlərinin tədrisinin keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilir, sözün əsl mənasında sosial işçi korpusu yaradılması bizim qarşımızda duran ən mühüm vəzifəyə çevrilmişdir.

Tədris edilən peşə fənləri tələbələrdə bilik, bacarıq kompetensiyaların formalaşmasına yönəlməlidir.

Sosial işin təşkilində proqramların düzgün yerinə yetirilməsində bu sahədəki müxtəlif layihələrin əhəmiyyəti böyükdür. O cümlədən, "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması", "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi", Kommersiya banklarının "Özünüməşğulluğa dəstək", "İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü (Coursera)", "Qafqazda Aztəminatlı Məcburi Köçkünlərin və Yerli Əhalinin Sosial və İqtisadı İnkişafı" (EPİC) layihələri hazırda əhəmiyyətliliyi ilə seçilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının birgə həyata keçirdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsinin məqsədi həssas qruplardan olan işsiz və işaxtaran şəxslərin potensialının artırılması və onların əmək bazarında məhsuldar məşğulluğa cəlb edilməsi üçün imkanların yaradılmasıdır.

"Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişafı Proqramı və Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu tərəfindən birgə həyata keçirilir. Layihənin məqsədi əlilliyi olan qadınlar və Dağlıq Qarabağ müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların rifahının artırılması, hüquqlarının müdafiəsi, gəlir əldə etmək imkanlarının genişləndirilməsi və cəmiyyətə inteqrasiyasına dəstək verilməsidir.

"Özünüməşğulluğa dəstək" layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Banklar Assosiasiyası tərəfindən birgə həyata keçirilir. Layihənin məqsədi işsiz kimi qeydiyyata alınan aztəminatlı, əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar və həssas qruplardan olan digər şəxslərin özünüməşğulluq proqramı çərçivəsində bankların dəstəyi ilə kiçik bizneslərin yaradılmasıdır. Layihə 2020-ci ilin yanvar ayından həyata keçirilməyə başlamışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, BMT-nin İnkişaf Proqramı və dünyanın aparıcı onlayn tədris sistemi "Coursera"nın iş birliyi çərçivəsində "İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü" üzrə kurslar təşkil edilib. "İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü" layihəsinin əsas məqsədi işsiz və işaxtaran şəxslərin məşğulluq imkanlarını artırmaq, onların əmək bazarına reinteqrasiyasını təmin etməkdir. Bilik və bacarıqlarını inkişaf etdirmək istəyən hər kəs təşkil edilən

kurslara müraciət edərək ödənişsiz təhsil almaq və sertifikat əldə etmək imkanı qazanır. İşçi Qüvvəsinin Bərpası Təşəbbüsü kurslarına 20149 vətəndaş müraciət etmişdir.

Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) sifarişi əsasında Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) icra etdiyi "Qafqazda Aztəminatlı Məcburi Köçkünlərin və Yerli Əhalinin Sosial və İqtisadı İnkişafı" (EPİC) layihəsi çərçivəsində heyvandarlıq üzrə texniki təlimlər təşkil edilib. GİZ-ın icra etdiyi təlimlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə Ağdam və Bərdə rayonlarında təşkil edilib. Məqsəd bu ərazilərdə məskunlaşan məcburi köçkünlərin, qaçqınların və yerli əhalinin məşğulluğunun artırılması, mövcud təsərrüfatlarının inkişafına dəstək olmaqdır.

Bu gün Azərbaycanın şanlı qələbəsi alqışlanır, Qarabağdakı terrorçuların zərərsizləşdirilməsi zəruri sayılır. Heç şübhəsiz ki, bu cür mövqelərin formalaşmasında Azərbaycan dövlətinin apardığı ağıllı və təmkinli siyasətin böyük rolu olmuşdur. Əvvəllər atəşkəs pozulan kimi "narahatıq" deyə bəyanat verən "mərkəzlər", nəhayət anladılar ki, Azərbaycanın ərazisini nə yolla olursa-olsun azad etmək hüququ var və ona qarşı çıxmaq olmaz.

Təsadüfi deyil ki, keçən ilin iyulunda Ermənistan Tovuz istiqamətində təxribatlar törədərkən ABŞ konqresi Ermənistanı işğalçı dövlət kimi tanıyan qətnamə qəbul etmişdi. 1992-ci ildə Azərbaycana qarşı Azadlığı müdafiə Aktına 907-ci düzəliş qəbul edib, torpaqlarını işğaldan azad etmək istəyən ölkəyə sanksiya tətbiq edən Vaşinqtonun illərdən sonra nəhayət Ermənistanı öz adı ilə çağırması təbii ki, asan olmadı. Azərbaycan dövləti düşmənə qarşı əks hücum aparmazdan əvvəl illər boyunca diplomatik cəbhədə hücum diplomatiyasını çox peşəkarlıqla və məharətlə həyata keçirdi.

İndi bir çoxumuz reallıqları nəzərə almadan "niyə bayrağımız Xankəndidə, Xocalıda dalğalanmır" sualını verirlər. Hər birimiz o günün arzusundayıq, tam əminik ki, Şuşada bayrağımızı dalğalandıran müzəffər ordunun Ali Baş Komandanı bunu hamımızdan çox istəyir. Amma realist olmaqda fayda var. Axı "nəyin nə zaman olacağı" barədə deyilib.

Bu gün Qarabağda alban kilsəsini, "erməni kilsəsi" kimi təqdim edib ermənilərin oranı ziyarətinin dərdini çəkən qüvvələri görmürükmü? Hansı ki, onlar Qarabağda məhv edilmiş, yer üzündən silinmiş 67 məsciddən bir kəlmə danışmırlar. Təsadüfdürmü? Təbii ki, yox, bu düşünülmüş məkrli siyasətin ikili standartların məntiqi nəticəsidir. Ermənilərə vaxt verildi ki, sakitcə evlərimizi tərk etsinlər, lakin onlar evlərə və meşələrə od vurub getdilər. Kim onların xətrinə dəyən bir açıqlama verdi? Ermənilər İrəvanda Şuşadan qənimət kimi aparılmış Azərbaycan xalçalarının sərgisini keçirməyə hazırlaşırlar. Ancaq YUNESKO-dan heç bir etiraz yoxdur. Hansı ki, bu təşkilat neçə müddətdir ki, Azərbaycanı müxtəlif bəhanələrlə günahlandırır. Halbuki, Ermənistandan həmin xalçaların qaytarılmasını tələb etməlidir.

Birinci Qarabağ savaşında Azərbaycanın 4 minə yaxın vətəndaşı əsir və itkin düşüb. Ermənistandan hesab istəməli qrumlar özlərini görməməzliyə vurdu. Qarabağda aşkarlanan kütləvi məzarlıqda məftillə bir-birinə bağlanmış insanların, həm də uşaq-ların da sümükləri tapılmışdır. Ancaq bütün bunlar erməni faşizminə bəraət donu geydirməyə çalışan "paytaxtların" tükünü belə tərpətmədi.

Ancaq 30 ildə işğal altında qalan Qarabağın cəmi 44 gündə azad edilməsini təsəvvür etmək çox çətindir, amma bu reallıqdır! Qədrini bilək, həm qələbəmizin, həm də qələbəyə imza atanların! Həm də güvənirik və inanırıq ki, günün birində üçrəngli bayrağımız Xankəndinin mərkəzində də dalğalanacaq.

Qarabağın 44 gün ərzində azad edilməsində müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ordumuzun cəsarəti və qəhrəmanlığı, habelə qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi ilə yanaşı, neftdən əldə olunan gəlirin də çox ciddi rolu oldu. O baxımdan ki, bu illər ərzində dövlətimizin iqtisadiyyatı gücləndi, ordumuz qüdrətləndi, dünyanın iqtisadi maraqları bizimlə uzlaşdı, aparılan uğurlu siyasi-iqtisadi siyasət nəticəsində də söz, nüfuz sahibinə çevrilə bildik.

Müxalifətin əsas təbliğat metodlarından biri bu idi ki, guya neft Azərbaycan xalqına xoşbəxtlik gətirmir, bizə güclü iqtisadiyyat yox, demokratiya lazımdır.

Belə uydurmaya da cəhd edirdilər ki, guya neft müqavilələrinin şərtinə görə Azərbaycan heç zaman müharibə edə, Qarabağı döyüşlə geri ala bilməz, sadəcə buna imkan verməzlər və sairə. Ancaq sübut edildi ki, necə müharibə apardıq, torpaqlarımızı necə geri aldıq?!

Belə bir eybəcər təbliğata da can atılırdı ki, Azərbaycanda inqilab olmasa, hakimiyyət dəyişməsə, demokratiya olmasa Qarabağı ala bilmərik.

Məlum oldu ki, söhbət Suriyaya, Tunisə, İraqa, Livana, Misirə köçürülən demokratiyadan gedir. Bizə də o cür divan tutmaq istəyirdilər, ancaq şükürlər olsun ki, edə bilmədilər, çünki alınmadı.

Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq dövlətin korrupsiya ilə mübarizəni gücləndirdiyi, böyük islahatlar apardığı, Qarabağa qayıdışla bağlı işğaldan azad olunan torpaqlarımızda bərpa işlərinin sürətləndiyi bir vaxtda ölkədə qarışıqlıq salmaq istəyən ünsürlər nəzərə çarpır. Fəallaşmaq istəyən belə anti-Azərbaycan ünsürlərinə demək istəyirəm ki, Azərbaycan Prezidentinin reytinqi, nüfuzu hazırda zirvələri fəth edir. İlham Əliyev tarixə Şuşanın, Qarabağın fatehi, Azərbaycan ərazi bütövlüyünün bərpacısı kimi daxil oldu. Bu da hər liderə, dövlət başçısına nəsib olmayan müqəddəs bir şərəf, ən uca tarixi bir məqamdır. Ona görə də bu gün Azərbaycanın siyasi səhnəsində bir alternativ ola bilər: o da İlham Əliyevin özüdür. Çünki, Azərbaycan xalqı Qarabağda zəfər çalan İlham Əliyevin dəmir yumruğu ətrafında elə möhkəm birləşibdir ki, bu birliyin də alternativi yoxdur və heç zaman olmayacaqdır.

Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir:

"Bizim gücümüz birliyimizdədir,
"Əziz Şuşa! Sən azadsan
Əziz Şuşa! Biz qayıtmışıq
Əziz Şuşa biz səni dirçəldəcəyik
Qarabağ bizimdir! Qarabağ Azərbaycandır".

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev

Hüseynov İlqar Həsrət oğlu,
kulturologiya elmləri doktoru, professor,
Email: ilqar.huseynov.65@inbox.ru

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏ MƏDƏNİ İRSİMİZ VƏ TARİXİ ABİDƏLƏRİMİZ

Hər il dünyada 18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü böyük təntənə ilə qeyd olunur. Dünya Mirası Günü kimi qeyd olunan 18 aprel 1982-ci ildən etibarən YUNESKO-da yaradılan Abidələrin və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şuranın (ICOMOS) Assambleyası tərəfindən təsis edilmişdir. Bayram 1984-cü ildən etibarən bəşər cəmiyyətinin diqqətini dünya mədəni irsinin qorunmasına cəlb etmək məqsədi daşıyır. Hər bir ölkənin tarixinin qədimliyi onun mədəni irsinin, maddi və mədəniyyət abidələrinin sayı ilə ölçülür. Bu baxımdan qədim Odlar Yurdu Azərbaycan zəngin bir tarixi mədəni irsə malikdir və ölkənin çoxlu sayda maddi və qeyrimaddi mədəniyyət nümunələri elm, təhsil və mədəniyyət üzrə ixtisaslaşmış YUNESKO təşkilatı tərəfindən mühafizə edilməkdədir.

Qarabağ Azərbaycan xalqının zəngin mədəni irsinin cəmləşdiyi tarixi bir məkandır. Qonşu Ermənistanın apardığı işğalçılıq və vandalizm siyasəti nəticəsində Azərbaycan xalqının mədəni irsinə ciddi ziyan dəymiş və çoxlu sayda milli memarlıq və mədəniyyət abidələrimiz amansızlıqla qarət olunaraq məhv edilmişdir. İşğal dövründə Azərbaycan xalqının tarixi mədəniyyəti ilə bağlı olan qiymətli əşyalar, rəsm və sənət əsərləri, dünyaca məşhur olan xalçalarımız və digər dəyərli eksponatlar erməni vandalları tərəfindən talan edilərək saxtalaşdırılmağa başlamışdır.

Hazırda işğaldan yenicə azad olunan ərazilərdə dünyaca məşhur mədəni və tarixi abidələr içərisində xüsusi yer alan dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx, Tağlar və Zar mağaralarının adlarını xüsusi qeyd etmək olar. Xatırladaq ki, bu mağaralarda tapılan maddi mədəniyyət abidələri YUNESKO-nun siyahısına daxil edilmiş və 1981-ci ildə Paris İnsan Muzeyində "Avropanın İlk Sakinləri" sərgisində nümayiş etdirilmişdir. Xalqımız İslam dinini qəbul etdikdən sonra Azərbaycanın məhz Qarabağ bölgəsində çoxlu sayda məscid və minarələr inşa edilmışdir. Qeyd edək ki, Azərbaycanın işğaldan yeni azad olunmuş ərazilərindəki tarixi və dini abidələrin sayı 67 məscid, 144 məbəd, 192 ziyarətgah daxil olmaqla 403-dür.Təəssüf ki, 63 məscid (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8 və Laçında başqa 8 məscid) tamamilə məhv edilmış, daha dörd məscid isə qismən dağıdılmışdır. "İşğal edilmiş torpaqlarımızda keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyi yerlə-yeksan edilmiş və Kəlbəcər, Şuşa, Laçın, Qubadlı, Füzuli, Ağdam, Cəbrayıl tarix-diyarşünaslıq muzeylərinin, Şuşa Tarix muzeyinin, Ü.Hacıbəyovun, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə ev muzeylərinin eksponatlarını ilə yanaşı, maddi-mənəvi xəzinəmiz sayılan neçə-neçə tarixi-memarlıq abidəmiz, mədəniyyət ocaqlarımız, erməni qəsbkarları tərəfindən qarət və talan edilmişdir. Ermənilər 22 muzeydən əldə etdikləri sərvətimizi erməni mədəniyyət nümunələri kimi dünya ictimaiyyətinə təqdim etmişlər" (1, səh. 286). Bütün bu tarixi və dini abidələr Azərbaycan xalqının maddi mədəni irsinin bir hissəsidir. Mədəni irsi qorumaq hər bir azərbaycanlının borcudur. Çünki, bunlar xalqımızın tarixən yaratdığı orijinal əsərlərdir. Təəssüflər olsun ki, işğal nəticəsində tarixi mədəni abiələrimizin böyük bir qismi zərər görmüş,

vandallar tərəfindən dağıdılmışdır. Biz hazırda işğaldan azad olunmuş ərazilərdə bu mədəni dəyərlərimizi bərpa etməli, onları qoruyub saxlamalı və gələcək nəsillərə düzgün və obyektiv şəkildə çatdırmağı bacarmalıyıq.

Ümumilikdə, I Qarabağ müharibəsi dövründə mənfur qonşularımız işğal olunmuş ərazidə 2 mindən çox memarlıq, arxeologiya, dekorativ-tətbiqi sənət və xatirə abidələrini məhv etmişlər. Məlumdur ki, 700-dən çox abidələr dövlət himayəsi altındakı tikililər siyahısına daxil edilmişdir. Dövlət himayəsində olan bu 700-dən çox abidənin 13-ü dünya əhəmiyyətli abidələrə aiddir: Ağdam rayonundakı Qutlu Musa və ya Xaçındərbətli türbəsi (1314), Kəlbəcər rayonundakı Gəncəsar (1238) və Xudavəng (XIII-IX əsrlər) monastırları, Cəbrayıl rayonunda Araz çayı üzərində inşa edilən 11 aşırımlı və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), orta əsr şəhərsalma abidəsi - Şuşa şəhəri, Azıx və Tağlar mağaraları - Füzuli rayonundakı Paleolit dövrünə aid ibtidai bir insanın yaşayış yerləri, Eneolit dövrünün Çalağantəpə və Leylantəpə yaşayış yerləri, Ağdam rayonunda Tunc dövrünə aid Uzərliktəpə abidəsi, Xocalı və Cəbrayıl bölgələrində Tunc dövrünə aid kurqanlar kompleksləri.

"Füzuli bölgəsində Şeyx Yaqubun (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Şeyx İbrahim türbəsi (XVII əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (h.t. 1307), Horadiz kəndindəki Cümə məscidi, Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Cəbrayıl rayonunda "Qız qalası", Cəbrayılın Şıxlar kəndində türbə (1308) və d. türbələr, Ağdam bölgəsində Xaçın - Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Ağdam Cümə məscidi (1870), türbələr, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bərdə", "Axsadan baba" türbələri (XIV əsr) Kərbəlayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli "İmamzadə" məscid kompleksi (1868-ci il), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarası, Culfalar məscidi, Hacı *Dadaşova* məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Soltan sarayı (1761-ci il) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir" (2, səh. 5).

İşğal dövründə qədim Alban kilsələri mənfur qonşularımız tərəfindən erməni kilsələri olaraq tanıdılmağa başladı. 30 il ərzində kilsələrin divarlarındakı alban yazılarını qondarma erməni yazıları ilə əvəz edildi. Hələ 1836-cı ildə Rusiya imperatoru I Nikolayın fərmanı ilə Alban Apostol Kilsəsi ləğv edildi. Alban Kilsəsinin məbədləri və mülklərinin erməni-qriqoryan kilsəsinə verilməsi barədə əmr verildi. Alban Kilsəsinin ləğvi Alban etnomədəni irsinin təcavüzkar mənimsənilməsinin başlanğıcı oldu.

Füzulidən 16 kilometr məsafədə yerləşən Azıx mağarasındakı paleontoloji sahə 1960-cı ildə görkəmli azərbaycanlı arxeoloq Məmmədəli Hüseynov tərəfindən aşkar edilmişdir. 1968-ci ildə Azıx mağarasında aparılan tədqiqatlar zamanı "Azıxantrop" adlanan alt çənə sümüyü aşkar edilmişdir. Bu böyük bir elmi kəşf idi, çünki o dövr dünya arxeologiyası tarixində bu beşinci tapıntı idi. İbtidai insan Azıx mağarasında təxminən 350-400 min il bundan əvvəl yaşamışdır. Azıx mağarasında qədim dövrə aid heyvan sümükləri və ocaq izləri tapıldı ki, bu da qədim daş dövründə insanların oddan

istifadə etdiyini göstərir. Azıx mağarasında oda sitayişin dəlillərinə qayaüstü rəsmlərdə də aid etmək olar. Qeyd edək ki, atəşpərəstlik dini qədim zamanlardan bəri Azərbaycan xalqının mədəniyyətinə və həyat tərzinə təsir göstərmişdir. Azıx mağarasında qanunsuz qazıntılar 2002-ci ildə, ərazinin işğalı altında olduğu dövrdə başladı.

Ermənilər qanunsuz olaraq Böyük Britaniya, İrlandiya, İspaniya və İtaliyadan arxeoloji ekspedisiyaları bura cəlb etdi. Qazıntılar nəticəsində qədim insanların bu yerlərdə məskunlaşdığına dair tapılan dəlillər Qərb ölkələrindəki muzeylərə aparıldı. Xarici ölkənin alimlərinə Azıx mağarası "qədim erməni abidəsi" kimi təqdim edildi. Bu haqsızlıq qarşısında xalqımız susmadı və II Qarabağ müharibəsi zamanı Azıx mağarası düşmən işğalından azad edildi. Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatları zamanı Azərbaycan ərazisini uzunmüddətli erməni işğalından azad etdikdən sonra tarixi abidələrimizin mövcud durumu və talan edilməsinin real şahidi olduq.

Tağlar Mağarası da Azıx Mağarası kimi YUNESKO-nun qorunan əraziləri siyahısına daxil edilmişdir. Təbii bir mağara olan Tağlar mağarası adını mağaranın yaxınlığındakı kənd adından almışdır. Qədim insanların 50-55 min illik yaşayış yeri olan Tağlar Mağarası Xocavənd rayonunun ərazisində yerləşir. Xocavənd rayonu 2 oktyabr 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Tağlar Mağarasında Mustye mədəniyyətinə aid nümunələr aşkar edilmişdir. Paleolit dövrünə aid olan bu arxeoloji sahə Böyük Tağlar kəndinin cənub hissəsində, Quruçay dərəsinin sol sahilində yerləşir. Aparılan araşdırmalara görə 64-24 min il əvvəl burada qədim insanlar yaşayırdı. Mağara 1960-cı ildə arxeoloq Məmmədəli Hüseynovun rəhbərliyi ilə Azərbaycan Elmlər Akademiyasının Paleolitik arxeoloji ekspedisiyası zamanı aşkar edilmişdir.1963-cü ildən başlayaraq mağarada arxeoloji qazıntılar aparılmış və ərazidə 7000-dən çox daş alət, 2000-dən çox faunaya aid qalıqlar və altı mədəni çöküntü qatı aşkar edilmişdir. Üst təbəqənin altından orta əsrlər, tunc dövrü və mis dövrünə aid saxsı qırıntıları tapıldı. Mustye mədəniyyətinə aid nümunələr 2-ci və 6-cı təbəqələr arasında tapıldı. Mağaranın inventarında çox sayda alət istehsalı, qırmızı, qara, qəhvəyi, boz, ağ və digər rəngli parçalar aşkar edilmişdir. 5-ci təbəqədə at, nəcib maral, öküz kimi iri məməlilərin qalıqlarına rast gəlindi. Mağaranın yalnız 120 kvadrat metrlik sahəsi Pleystosen dövrünə aiddir. Digər hissələri isə "Mustye dövrü" və mədəniyyəti ilə əlaqədardır.

İbrahim Xanın hakimiyyəti dövründə Qarabağ xanlığı ən güclü Azərbaycan xanlıqlarından birinə çevrildi.1883-1885-ci illərdə İbrahim xanın qızı Gövhər Ağanın əmri ilə azərbaycanlı memar Kərbəlayi Səfixan Qarabağlı tərəfindən məscidin inşası tamamlandı.1747-ci ildə müstəqillik qazandıqdan sonra Qarabağ Xanlığının qurucusu Pənahəli xan Sarıcalı-Cavanşir etibarlı bir iqamətgah qurmağa qərar verdi. Əvvəllər inşa edilmiş Bayat (1748) və Şahbulaq (1752) qalalarının müasir müdafiənin tələblərinə tam cavab verməməsi səbəbindən Pənah xan yeni bir qala şəhəri inşa etmək qərarına gəldi. Yeni yaşayış üçün tikinti sahəsi olaraq Şuşa yaylası seçildi. Şuşa yaylasının ən yüksək nöqtəsi dəniz səviyyəsindən 1600 metr, ən aşağı 1300 metrdir. Bu yüksək dağlıq yayla, Xələfli və Daşaltı çaylarının kanallarına enən dərin qayalarla əhatə olunmuşdur. Qala divarının inşası yalnız yaylağın təbii olaraq zəif müdafiə olunmuş Şimal-Şərq hissəsinin müdafiəsi üçün lazım idi. Beləliklə, ərazinin uğurlu seçimi nəticəsində o vaxtkı strateji tələblərə daha az xərclə yaxşı qorunan böyük bir şəhər (350 hektar) inşa etmək mümkün oldu. İnşaatın ilk illərində möhkəmləndirilmiş şəhərə qurucunun şərəfinə Pənahabad adı verildi. Lakin qısa müddətdən sonra qala Şuşa

qalası adlandırıldı. Azərbaycan orta əsr şəhərsalma ənənələrinə uyğun olaraq Şuşa qalasının dörd qapısı var idi. Şuşada əsas şəhər qapıları şəhərin Şimal tərəfində yerləşir və Gəncə şəhərinə doğru açılır, buna görə də Gəncə qapıları adlanırdı. İrəvan qapıları Şuşa qalasını Azərbaycanın qərb bölgələri ilə birləşirdi. Digər iki qapı vasitəsilə Şuşa ətrafdakı dağ kəndləri ilə əlaqə yaratmaq mümkün idi. Şuşanıın daxili qalası Gəncə qapısının yaxınlığındakı yüksək bir təpədə yerləşirdi. Şuşanın qala şəhəri olması ilə yanaşı, XVIII-XIX əsrlərdə həm də Azərbaycanın vacib siyasi, iqtisadi və mədəni mərkəzlərindən biri olmuşdur. Şuşa qalasının ilk 9 məhəlləsi şəhərin aşağı hissəsində tikildiyinə görə Aşağı Məhəllələr adlanır. İbrahim Xanın hakimiyyəti dövründə (1759-1806) şəhərin Şərq hissəsində 8 Yuxarı məhəllə meydana gəldi. Daha sərt relyefli şəhərin Qərb hissəsində, əsasən rusların ələ keçirilməsindən (1805) sonra 12 məhəllə tikilir. Şuşadakı evlərin əksəriyyəti ikimərtəbəlidir və bu evlər daşdan tikilmişdir.

1988-ci ildə Şuşa şəhəri Azərbaycan Respublikasının Dövlət Tarix və Memarlıq Qoruğu elan edildi. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal edildi. Düşmən işğal olunmuş torpaqlarda Azərbaycan tarixini silməyə, mədəniyyətimizə aid olan hər şeyi məhv etməyə çalışdı.

8 noyabr 2020-ci ildə Şuşa şəhəri Azərbaycan ordusu tərəfindən azad edildi. Erməni təcavüzkarlarından azad olan Şuşa şəhəri tarixi abidələrinin zənginliyi ilə seçilir. Yuxarı Gövhər Ağa məscidi Şuşanın səkkiz yuxarı məhəlləsindən birində yerləşir. Məscid Qarabağ hökmdarı İbrahim Xəlil Xanın əmri ilə 1763-1769-cu illərdə tikilmişdir. 1992-ci ildə Şuşa şəhərinin işğalından sonra məscid fəaliyyətini dayandırmışdı. 2017-ci ildə Cəbrayıl rayonunun Cocuk Mərcanlı kəndində Şuşa məscidi modelində bir məscid tikildi. 11 noyabr 2020-ci ildə Azərbaycan ordusunun hərbçilərindən biri məscidin minarəsindən azan oxudu.13 noyabrda 28 ildən sonra ilk Yuxarı Gövhər Ağa məscidində cümə namazı qılındı. Şuşa şəhərinin yuxarı hissəsində yerləşən Yuxarı Gövhər Ağa Məscidindən fərqli olaraq, Aşağı Gövhər Ağa Məscidi şəhərin aşağı hissəsində yerləşir. Aşağı Gövhər Ağa Məscidinin inşası Yuxarı Gövhər Ağa Məscidinin tikilməsindən təxminən 8 il əvvəl Qarabağ Xanı İbrahim Xəlil xanın qızı Gövhər Ağanın əmri ilə başa çatdırıldı. Aşağı Gövhər Ağa ilə Yuxarı Gövhər Ağa arasındakı fərq, əvvəlkilərin minarələrinin arxa fasadın künclərində yerləşməsi və Yuxarı Gövhər Ağa məscidinin minarələrinin ön fasadda olmasıdır.

Sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, İbrahimxəlil xanın nəvəsi görkəmli XIX əsr Azərbaycan şairəsi Xurşudbanu Natəvanın evi Şuşa şəhərinin ən mənzərəli guşəsində tikilmişdir. “Xan qızı” kimi tanınan Xurşudbanu Natəvan XIX əsrdə orada yaşayırdı. 1980-ci ildə bu binada Azərbaycan Elmlər Akademiyasının Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Qarabağ filialının açılması təklif edildi. 1987-ci ildə evin əsaslı bərpası ilə bağlı işlərə başlanıldı. Filialın ilk direktoru filologiya elmləri namizədi, SSRİ Yazıçılar Birliyinin üzvü Namiq Babayev gənc istedadlı mütəxəssislər komandası yaratdı. Binanın əsaslı təmiri, Ermənistanın Azərbaycan ərazisindəki iddialarını açıq şəkildə elan etdiyi və Dağlıq Qarabağ münaqişəsinin alovlandığı bir vaxtda başa çatdı. Muzeyi zənginləşdirmək məqsədlə Laçın, Kəlbəcər, Zəngilan, Cəbrayıl, Ağdam, Qubadlı, Beyləqan, Füzuli və digər yaxın bölgələrdə lazımi materialların toplanmasına başlanıldı. Muzeydə geniş ədəbi materiallar, yazıçı və şairlərin şəxsi əşyaları, köhnə kitablar və əlyazmalar toplanmışdı. Daha əvvəlki dövrlərə aid ev əşyaları yığmağa da cəhd edildi. İşğal dövründə şairə Xurşidbanu Natəvanın evi də erməni vandalizminə məruz qaldı.

Erməni faşistlərinin ölkəmizə təcavüzü nəticəsində Ağdam rayonu da böyük zərər görmüş, vandallar tərəfindən mədəni-tarixi abidələrimiz dağıdılmışdır. "Erməni işğalı nəticəsində rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr vəhşicəsinə dağıdılmışdır. Rayonun Xaçındərbənd kəndindəki 1314-cü ildə tikilmiş Qutlu Sarı Musa oğlu Kümbəzi, Kəngərli kəndindəki XIV əsrə aid Türbə və Daş abidələr, Papravənd kəndində XVIII əsrə aid Kümbəz və Məscid, Ağdamda İmarət deyilən yerdə XVIII əsrə aid abidələr, o cümlədən Xan qızı Natəvanın və onun oğlunun Türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və Karvansara vəhşicəsinə dağıdılmışdır. Bundan əlavə, dini ibadətgahlardan rayonun Papravənd kəndində yerləşən Şeyx Nigar, Seyid Miriş ağa, Qara Pirim və digər ziyarətgahlar darmadağın edilmişdir. Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də vəhşicəsinə dağıdılmışdır" (3,səh.40).

Azərbaycanın memarlıq irsinin əhəmiyyətli abidələrindən biri də Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüləridir. Xudafərin körpüləri erməni işğalı altındakı Qumlaq və Xudafərin kəndlərinin yaxınlığında Araz çayı üzərində yerləşir. 27 il ərzində işğal altında qalan bu körpülər baxımsız vəziyyətdə qalmış və yararsız hala düşmüşdür. 15 aşırımlı körpü işlək vəziyyətdədir, lakin 11 aşırımlı ikinci körpü məhv edilmişdir (yalnız üç orta aşırım salamat qalmışdır). Körpü çay daşları və dördbucaqlı kərpicdən istifadə edilərək tikilib. Arran Memarlıq Məktəbinə aid olan 15 aşırımlı körpü XI əsrdə (1027-ci ildə) inşa edilmiş, sonrakı dövrlərdə yenidən qurulmuş və yenilənmişdir. 11 aşırımlı körpü isə XIII əsrdə Elxanilər dövründə inşa edilmişdir. Körpülər bir-birindən təxminən 800 m məsafədə yerləşir. Böyük körpünün uzunluğu təxminən 200 m, eni 4,5 m, körpünün ən yüksək nöqtəsi su səviyyəsindən 10 m yüksəkdir. Kiçik körpünün ümumi uzunluğu 130 m, eni 6 m, maksimum hündürlüyü sudan 12 m. yüksəkdir.

18 oktyabr 2020-ci il tarixində Azərbaycan hərbçiləri Xudafərin körpüsündə Azərbaycan bayrağının dalğalandırdılar. 16 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım, Vitse-Prezident Mehriban Əliyeva Azərbaycan ordusunun nəzarəti altına keçən Xudafərin körpüsünün sol sahilini ziyarət etdilər. Ali Baş Komandan İlham Əliyev Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı.

Laçın rayonunun ərazisində yerləşən Ağoğlan və ya Sisərnəvəng monastırı V-VI əsrlərdə inşa edilmişdir. 1613-cü ildə monastırın möhkəmləndirilmiş divarı təmir edildi və tağlı qapısı inşa edildi. Monastrın əsas binası və onun zəng qülləsi 1779-cu ildə təmir olunmuşdur. Alban Həvari Kilsəsinə aid olan bu ölkə əhəmiyyətli abidə Ağoğlan çayının sahilində yerləşir. "Məbədin daxili divarlarının xarici divarlarla müqayisədə daha kobud daşla inşa edilməsi və pilonlar və arkalardan fərqli olaraq incə yonulmuş daşla üzlənməməsini izah edir. Şimal divarındakı qalıqlara əsasən məbədin daxili divarlarının suvaqla üzlənməsi və freska rəsmləri ilə bəzədilməsini əminliklə demək olar" (4, s. 55). Ağoğlan monastırı 10 noyabr 2020-ci ildəki atəşkəs razılaşması çərçivəsində 1 dekabr 2020-ci ildə Azərbaycana qaytarıldı.

Ağdam şəhərində yerləşən Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmişdir. Bu məscidin Qarabağ bölgəsindəki məscidlərə xas olan daxili məkanın təşkili - daş sütunlarla iki mərtəbəli qalereyalara bölünməsi və günbəz tavanı vardır. Qarabağ müharibəsi zamanı Ağdamın demək olar ki, hamısı məhv edildi. Şəhər binaları arasında məscid binası Ağdamın sağ qalan yeganə bina-

sıdır. Ermənilər Ağdamı işğal etdikdən sonra məscid uzun illər mal-qara və donuzlar üçün tövlə kimi istifadə olunurdu. Məscid Azərbaycanın nəzarəti altına keçənə qədər bu vəziyyətdə qaldı. 20 noyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri Ağdam rayonunun ərazisinə daxil oldu və Azərbaycan Prezidenti İlham Əliyev canlı yayımda bölgənin və Ağdam şəhərinin ərazisinin tamamilə Azərbaycan ordusunun nəzarəti altına keçdiyini bildirdi. 23 noyabrda Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərini və Cümə məscidini ziyarət etdilər. Prezident İlham Əliyev Məkkədən gətirilən "Qurani Kərim"i də məscidə hədiyyə etdi.

Qubadlı rayonunda Məmər kəndində yerləşən Məmər məscidi XVIII əsrdə inşa edilmişdir. Məmər məscidi yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydiyyata alınmışdır. Sovet hakimiyyəti illərində məscidin təyinatı üzrə fəaliyyətini dayandırdı və anbar binası kimi istifadə edildi. 1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra məscid ibadət etmək istəyən insanların üzünə açıldı və yenidən təyinatı üzrə istifadə olunmağa başladı.1993-cü ilin avqust ayında Qarabağ müharibəsi nəticəsində məscidin yerləşdiyi Məmər kəndi erməni faşistləri tərəfindən işğal edildi. 30 oktyabr 2020-ci ildə isə Məmər kəndi işğaldan azad olundu. 6 noyabr 2020-ci ildə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev ermənilərin işğal dövründə tarixi və mədəni abidə olan Məmər məscidində donuz saxladığını bildirdi. Hikmət Hacıyev İslam Əməkdaşlıq Təşkilatını və YUNESKO-nu bu hərəkətləri ifşa etməyə çağırdı. 11 noyabrda İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi, İslam irsinin ayrılmaz hissəsi olan Qarabağ və ətrafındakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirdi. Təşkilatın hesabatında maddi və mənəvi dəyərlərin, xüsusən də bu yaxınlarda azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsinin, tarixin mənimsənilməsinin və saxtalaşdırılmasının təcavüz siyasətinin bariz nümunəsi olduğu bildirildi.

Sevindirici haldır ki, müzəffər ordumuzun 44 gün ərzində apardığı hərbi əməliyyatlar nəticəsində işğalda olan torpaqlarımız azad olundu. Ümid edirik ki, ərazi bütövlüyü ilə bağlı sosial-iqtisadi layihələr gerçəkləşdikdən sonra Qarabağda tarixi, mədəni və dini mərkəzlər bərpa ediləcək və Azərbaycan çiçəklənən bir turizm məkanına çevriləcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Kazımzadə E. Azərbaycan muzeylərinin tarixi inkişafi və kulturoloji mahiyyəti. "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf" mövzusunda beynəlxalq konfrans. Bakı, Təknur, 2012.

2. Hacıyev Q. Azərbaycanın Qarabağ bölgəsinin maddi-mədəniyyət tarixindən. Qarabağ abidələri /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; "Sağlam inkişaf və maarifləndirmə" ictimai birliyi; layihənin rəhbəri. A. Xəlilov; məsləhətçilər. Q. Hacıyev, H. Əliyeva; red. V. Hüseynova; tərc. H. Ağayeva, G. Abbasova, R. Abbaszadə; dizayner. S. Gülalıyev Karabakh monuments Памятники Карабаха Bakı: [s.n.], 2009.-184 s.: portr., fotoşək., xəritə, 29 sm.

3. İnzibati-ərazi vahidləri. Prezident kitabxanası. 2020, səh. 255.

4. Мамедова, Гюльчохра (2004), Зодчество Кавказской Албании, Баку: Чашыоглу.

Balayev Alı Məhəmməd oğlu,
tarix üzrə fəlsəfə doktoru, dosent,
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi,
Email: ali.balayev.66@mail.ru;
İsmayılov Kamran Novruz oğlu,
tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi,
Email: ismayilov-kamran@mail.ru

AZƏRBAYCANIN İŞĞAL EDİLMİŞ ƏRAZİLƏRİNDƏ DAĞIDILMIŞ TARİXİ-MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPA EDİLMƏSİ LAYİHƏSİ

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında möhtəşəm zəfər Prezident, Ali Baş Komandan İlham Əliyevin güclü ordu quruculuğu strategiyasının nəticəsi idi.

Azərbaycan 44 günlük Vətən müharibəsində hərb tarixinə yenilik kimi düşən ən müasir silahlardan istifadə edərək ərazilərimizi işğaldan azad etməklə yanaşı, həm də düşmənin bütün hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. "Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi. Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şüküraz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi" [4].

Prezident İlham Əliyev xalqa müraciətlərinin birində deyib: "Düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur... Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil" [6]. Ona görə də döyüş əməliyyatlarında erməni əsgəri mövqelərini qoyub qaçır, Azərbaycan əsgəri isə öz torpağı uğrunda baş qoyur, canından keçirdi. Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən, deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir.

Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır" [7].

Azərbaycan Prezidentinin Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası və onun işçi orqanı olan Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb. Agentliyin əsas vəzifəsi işğaldan azad olunmuş Azərbaycan ərazilərinin bərpası və yenidən qurulmasını təmin etməkdən ibarətdir. "Əsas məsələlərdən biri maliyyə məsələsidir. Bu qədər nəhəng işə əlbəttə, çox böyük maliyyə vəsaitləri tələb olunacaq.

Azərbaycanın dövlət büdcəsi və daxili fondlarından əlavə, bizim xarici fondlarda 50 milyardlıq strateji rezervlərimiz saxlanılır. Bu ehtiyatlar da məhz bu günlər üçün yığılmışdır. Həmin ehtiyatlardan bir hissəsini cəlb etməklə bu işi görmək olar.

Üstəlik, yerli və xarici investorlar da bölgənin bərpasında da mühüm rol oynayacaq. Bu rayonlar böyük tikinti meydanına çevriləcək, yüz minlərlə iş yerləri yaranacaq.

Bir sözlə, Qarabağın yenidən məskunlaşdırılması üçün hər şey hazırdır və cəmi bir neçə ilə orada yeni müasir şəhərlər, kəndlər yaranacaq. Yeni mədəniyyət sarayları, idman arenaları, sanatoriyalar, təhsil və səhiyyə müəssisələrinin yaradılması bu regionu tezliklə inkişaf etmiş müasir bir diyara çevrləcək" [5].

Qarabağ Azərbaycan mədəniyyətinin beşiyi sayılır. Bu diyar dünya mədəniyyətinə əvəzsiz töhfələr vermiş görkəmli musiqiçilərin, bəstəkarların, rəssamların, incəsənət xadimlərinin, şair və yazıçıların Vətənidir. "Bu torpaqda Azərbaycan xalqının mədəni irsinin bir çox nümunələri-Azıx və Tağlar ilkin yaşayış məskənləri, Gövhər ağa məscidi, səkkizguşəli məqbərə, Sarı Aşığın məqbərəsi, Culfalar və Hacı Yusifin məscidləri, Şuşa qalası, Aldaberd qalası, Şeyx İbrahimin məqbərəsi, Qız qalası (Cəbrayıl rayonu ərazisində) və adlarını çəkmədiyimiz onlarla digər təbiət, tarix və mədəniyyət abidələri yerləşir" [2, 9].

Ermənistanın işğalı nəticəsində Azərbaycana külli miqdarda maddi və mənəvi zərər vurulmuşdur. Azərbaycan ərazilərinin hərbi işğalı ölkədə ağır humanitar böhran vəziyyətin yaranmasına, çoxsaylı sosial-iqtisadi obyektlərin məhv edilməsinə və ölkə iqtisadiyyatına ciddi ziyan vurulmasına, Azərbaycan xalqının tarixi, maddi mədəniyyət abidələrinin məhv edilməsinə gətirib çıxarmışdır. Ölkəmizin əhalisinə, iqtisadiyyatına, maddi-mənəvi mədəniyyətinə, ekologiyasına böyük zərər vurulmuşdur. "İlkin hesablamalara görə işğal nəticəsində Azərbaycana dəymiş zərərin ümumi miqdarı 431,536 milyard (dörd yüz otuz bir milyard, beş yüz otuz altı milyon) ABŞ dolları təşkil edir" [1, 166].

Azərbaycanın tarixi, mədəni sərvətlərinə, ənənəvi dəyərlərinə ermənilərin təcavüzü bir neçə formada həyata keçirilir:

1. Azərbaycan xalqının dini, mədəni və maddi sərvətlərinin dağıdılması və məhv edilməsi.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazisində 547 memarlıq abidəsi, o cümlədən 6 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətli memarlıq abidəsi, 205 arxeoloji abidə, o cümlədən dünya əhəmiyyətli, 403 tarixi-dini abidə, o

cümlədən 67 məscid, 144 məbəd, 192 dini ocaq, 927 kitabxana, 808 klub müəssisəsi, 85 musiqi məktəbi, 12 monument, 15 dekorativ sənəd nümunəsi, 40 mindən artıq əşyanın toplandığı 22 muzey, 4 rəsmi qalereyası, 23 bağ, park, monumental və xatirə abidəsi, 4 dövlət teatrı, 2 konsert müəssisəsi, 85 musiqi məktəbi dağıdılmış, məhv edilmişdir. Azərbaycanın mühüm mədəniyyət mərkəzi olan Şuşanın işğalı nəticəsində mənəviyyatımıza sağalmaz yara vurulmuşdur. Təkcə bu şəhərdə 32 kitabxana, 5 muzey, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. İşğal nəticəsində Azərbaycan Respublikasına dəymiş zərərin ümumi məbləği, dəyərini qiymətləndirilməsi mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələri nəzərə alınmadan, 23 trilyon 680 milyon manat və 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir. (Dəymiş zərər 1994-cü ilin qiymətləndirmə sənədlərinə əsaslanaraq təqribi hesablamalarla müəyyənləşdirilmişdi [8].

2. Azərbaycanın tarixi mədəniyyətini, mənəvi və maddi irsini saxtalaşdırmaq və ermənilərdirməklə mənimsənilməsi.

Ermənilər işğal olunmuş ərazilərimizdə mövcud olmuş Alban dövrü xristian abidələrini saxtalaşdırmaq, onları erməni xalqının memarlıq və dini abidələri kimi qələmə vermək üçün çox ciddi cəhdlər göstərir. Bunun Dağlıq Qarabağda və işğal olunmuş rayonlarda ermənilər tərəfindən yüzlərlə məbəd, kilsə, digər qədim tikililər dəyişdirilmiş, onların üzərində qondarma erməni yazıları, simvolları, ornamentləri həkk edilmişdir. Maddi mədəniyyət abidələrinin dağıdılması və saxtalaşdırılması ilə kifayətlənməyən ermənilər işğal olunmuş ərazilərdə xaricdən dəvət edilmiş yalançı arxeoloqların iştirakı ilə arxeoloji qazıntılar aparmışlar.

3. Azərbaycanın maddi-mədəni irsinin məhv edilməsinin digər istiqamətini işğal olunmuş ərazilərimizdən dekorativ-tətbiqi sənət nümunələrinin, incəsənət əsərlərinin, muzey eksponatlarının talanaraq Ermənistana aparılması təşkil edir.

Bu sırada ərazilərimizdən çıxarılmış dəyəri milyonlarla ölçülən xalçalar, daş sənduqələr, daşdan yonulmuş heyvan fiqurları, qədim silah nümunələri, bəzək əşyaları və digər maddi irs nümunələri, qiymətli əlyazmalar, nadir kitablar Ermənistan muzeylərində nümayiş etdirilərək erməni xalqının mədəniyyət nümunələri kimi dünya ictimaiyyətinə təqdim edilir. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək muzeyinin eksponatları, Şuşa şəhər tarix muzeyinin 5 minə qədər, Azərbaycan xalça və xalq-tətbiqi sənət muzeyinin 1000-ə qədər Qarabağ tarix muzeyinin minə qədər, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən, Ağdam tarix-diyarşünaslıq muzeyinin 2 mindən artıq, Qubadlı tarix-diyarşünaslıq muzeyinin 3 mindən artıq, Zəngilan tarix-diyarşünaslıq muzeyinin 6 mindən artıq qiymətli və nadir eksponatları Ermənistana daşınmışdır [8].

4. Erməni mədəni terrorunun digər formasının Azərbaycan-türk mənşəli toponimlərin kütləvi şəkildə ermənilərdirilməsidir. Toponimlərə qarşı soyqırımı hələ sovet dövründə Ermənistan SSR-də minlərlə coğrafi adın ermənilərdirilməsi ilə başlamış, hazırda da işğal edilmiş ərazilərimizdə də davam etdirilir. Hətta bir erməni ailəsinin yaşamadığı rayonlarda (Cəbrayıl, Fizuli, Ağdam, Zəngilan, Qubadlı) belə yaşayış yerləri və digər toponimlər süni erməni adları ilə əvəzlənmişdir.

Erməni işğalı nəticəsində tarixi, mədəni, dini abidələrin dağıdılması və məhv edilməsi "Silahlı münaqişə zamanı sərvətlərin müdafiəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il Avropa Konvensiya-

sına, eləcə də "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il YUNESKO Konvensiyasına ziddir. Ermənistanın Azərbaycana hərbi təcavüzü, torpaqlarımızın işğalı, dinc insanların qətliamı, mədəniyyət abidələrinin və obyektlərinin vəhşicəsinə məhv edilməsi, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması, ümumbəşəri dəyərlərin ayaq altına salınmasıdır. Ona görə də 44 günlük Vətən müharibəsi ilə Azərbaycan ərazi bütövlüyünü bərpa edərək erməni işğalçılarına amansız zərbə vurmuşdur. Beynəlxalq təcrübə onu göstərir ki, ilkin olaraq dəymiş zərəri müəyyənləşdirdikdən sonra minimum yaşayış səviyyəsinin təminatı prioritetdir. Minimum yaşayış səviyyəsinin təminatını nəzərdə tutan vacib amillər aşağıdakılardır:

1. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi;
2. Elektrik enerjisinin təminatı;
3. Kritik yol xətlərinin bərpası;
4. İçməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası;
5. Ev-mənzil yaşayış sahələrinin bərpası və təminatı;
6. Humanitar yardım məqsədləri üçün hava limanının bərpası.

İlkin mərhələdə bu sahələrə yönələn sərmayə sonrakı dövrdə sosial və iqtisadi canlanmaya dəstək olacaq. Ərazilərin minalardan təmizlənməsi sözü gedən ərazilərə köçürüləcək əhalinin təhlükəsizliyi üçün ən vacib amildir. Bu prosesdən sonra kirtik yol xətlərinin bərpası yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması prosesi isə insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına və sonrakı mərhələlərdə iqtisadi baxımdan ailə-ev təsərrüfatlarının canlanmasına töhfə verəcəkdir. Yekun olaraq bu nəticəyə gəlmək olar ki, minimum yaşayış səviyyəsinin təminatı sonrakı prosesin, yəni ilkin sosial-iqtisadi inkişafın təzahürüdür" [3].

Beləliklə, azad edilmiş torpaqlarımızda tarixi maddi-mədəni abidələrin bərpasına dair hazırlanan strategiyada dağıdılmış abidələrin bir hissəsinin bərpası digər qisminin isə yenidən tikilməsi planlaşdırılmalıdır.

Belə hesab edirik ki, abidələrin bərpası və yenidən tikilməsi layihəsinə Azərbaycanda yaşayan digər xalqların mütəxəssislərində cəlb olunmalı, bərpa olunacaq abidələrdə milli kolorit saxlanılmalıdır.

İstifadə olunmuş ədəbiyyat:

1. İsmayılov F. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Bakı: Elm və təhsil, 2016, 176 s.
2. İsmayılov K., Balayev A. Azərbaycanın tarixi-mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı: Maarif, 2020, 120 s.
3. Ayhan Satıcı. İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi //https://www.google.com/search?q=AyhanSatıcıİşğaldan+azad+olunmupost..69i57.4390j0j7&sourceid=chrome&ie=UTF-8/02/10/2020
4. Bayramov V. Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi //https://xalqqazeti. com/mobile /az/news/63147/11 noyabr 2020
5. Bayramlı E. İşğaldan azad olunan ərazilər necə bərpa ediləcək? //https://sia.az/ az /news/politics/828590.html 28 sentyabr 2020

6. Prezident İlham Əliyev xalqa müraciət edib /https://president.az/articles/ 4171309 oktyabr 2020

7. İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib //https://president.az/ articles/ 39338/25 iyun 2020/

8. Краткая справка о материальном и моральном ущербе, нанесенном Азербайджанской культуре в результате армяно-азербайджанского Нагорно-Карабахского конфликта //https new. Azerbaijan. related-information /127/21 /09/ 2018

Ахундова Нигяр Рашид кызы,
доктор философии по истории, доцент,
Бакинский Бизнес Университет,
Email: niqar-akhundova@yandex.ru

ХУДОЖЕСТВЕННАЯ ИНТЕЛЛИГЕНЦИЯ В БОРЬБЕ С АРМЯНСКИМ ТЕРРОРОМ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ (конец XX – начало XXI века)

Богатая древними историческими, материально-культурными памятниками наша Родина Азербайджан имеет многовековую историю. Карабах – это древнейший центр, где литература, музыка и искусство оказывали влияние на историю азербайджанского народа. Велика роль художественной интеллигенции в данном процессе. Карабах – это родина музыки. Обогатившие сокровищницу мирового музыкального искусства – мугам, народные песни, ашугская музыка занимает почётное место в творчестве художественной интеллигенции Азербайджана.

Изысканные архитектурные памятники – мечети, храмы, дворцы, албанские церкви, древнейшие пещеры образовали своеобразный «генофонд» художественной культуры нашего народа и составляют её богатое наследие.

В Карабахе жили и творили представители художественной интеллигенции – поэты и писатели, представители литературной среды, музыкальной интеллигенции – композиторы, певцы и музыканты; архитекторы, художники, скульпторы. Родившиеся и выросшие в Карабахе деятели художественной интеллигенции Азербайджана в дальнейшем превратились в корифеев культурной жизни всего тюркского мира.

Памятники Карабаха, его история музыки, карабахские ковры являются ведущей и неотделимой частью всей Азербайджанской культуры.

На рубеже XX-XXI века азербайджанский народ пережил две карабахские войны (I-ая: с 1992 год по 12 мая 1994 г. и II-ая: 2020 год с 27 сентября по 10 ноября, окончившая победой азербайджанского народа).

II карабахская война – это яркая страница в нашей истории, памяти. Тысячи шехидов отдали свою жизнь, защищая Отечество. Тридцать лет наши земли были в оккупации, вандальски уничтожались памятники истории и культуры армянскими фашистами.

Культурные ценности оказываются первыми «на линии огня» и падают

жертвами в войнах. Во время I-ой карабахской войны Армения оккупировала 20% нашей территории, разгромив уникальную пещеру Азых, расположенную на юго-западе Карабаха. Пещера относится к эпохе нижнего палеолита и является четвертой находкой в мире, где обнаружены следы очага горевшего 700 тыс. лет назад, а возраст находки – древнего человека неандертальского типа – 350-400 тысяч лет. Именно эта пещера доказывает, что Азербайджан является одним из древнейших очагов цивилизации. И именно поэтому армянские вандалы уничтожили эту уникальную пещеру. На обширной территории, оккупированной армянскими захватчиками, было 22 музея, в которых были собраны десятки тысяч экспонатов и 4 картинные галереи. В них демонстрировались произведения таких известных художников Азербайджана как Саттар Бахлулзаде, Микаил Абдуллаева, Тогрул Нариманбеков, Салам Саламзаде, Марал Рахманзаде, Беюгага Мирзазаде и многих других [3, 175]. Сегодня мы с гордостью говорим, что мы вернули наши земли!

В ходе I-ой карабахской войны на оккупированных землях было разрушено 520 домов культуры и клубов, 735 библиотек, 6 парков культуры и отдыха, 47 музыкальных школ, 3 театра, 4 картинные галереи, 470 исторических памятников [4].

После победы азербайджанского народа во II Карабахской войны представители ЮНЕСКО ознакомились со всеми объектами варварски разрушенными армянскими оккупантами. Среди них: 927 библиотек (4600 000 книг), 700 исторических и культурных памятников, 808 дворцов, домов и клубов культуры, 85 музыкальных и художественных школ, 22 музея и филиалов музеев (100 000 экспонатов), 4 картинные галереи, 4 театра, 2 концертных зала, Худаферинский мост (VII-XII века), гробницы в Хачын-Турбатлы и Агдамском районах (XIV век), Азыхская пещера.

Вандализм – это жестокое разрушение исторических памятников, культурных ценностей. Разрушались, уничтожались, осквернялись предметы искусства и культуры азербайджанского народа. В ходе I карабахской войны погибли 20 тысяч азербайджанцев, уничтожены были материальные и культурные ценности на сотни миллиардов манат, I миллион мирных граждан Азербайджанской Республики стали беженцами.

Города, деревни были разрушены, и сожжены. Азербайджанская республика в течение XX-XXI века неоднократно подвергалась армянскому геноциду, территориальные претензии с каждым годом росли и военная агрессия Армении против Азербайджана усиливалась.

Уничтожились лучшие образцы исторических ценностей, материально-культурные памятники. Тяжёлые последствия этого процесса мы ощущаем и сегодня.

В ходе I карабахской войны ущерб причинённой историческим и культурным памятникам составил 177 миллиардов долларов.

Отметим большую роль исследователя Ф.А.Аслановой, написавшей диссертацию на соискание учёной степени доктора философии по истории на тему: «Армянский вандализм на оккупированных территориях Азербайджанской Республики (1991-2010 гг.)» (Баку, 2014 г.). Автор в работе даёт очень ценный

материал, связанный с материальными ценностями, которые остались на оккупированных территориях. Среди них и памятники архитектуры XI-XIX веков имеющие мировую значимость – Гандзасарский монастырь – шедевр албанского (азербайджанского) зодчества XIII века, находящийся в Кельбаджарском районе, там же находится другой монастырь Худавянт (XIII век), Худаферинский мост в Джабральском районе, город Шуша (XVIII-XIX век).

Отметим важное исследование, связанное с темой нашего доклада – монографию Кямрана Исмаилова, Алы Балаева, изданную в 2020 году на азербайджанском и английским языках (Kamran İsmayılov, Alı Balayev "Azərbaycanın tarixi – mədəniyyət abidələrinə qarşı erməni terroru", Bakı-2020, 120 səh. Kamran İsmayılov, Ali Balayev "Armeniya terror against historical and cultural monuments of Azerbaijan", Baku-2020, 120 p.). Рецензентами книги являлись Гахраман Агаев (д.ф. по истории, доцент) и Ахундова Нигяр (д.ф. по истории, доцент).

Среди археологических памятников, варварски разрушенных и уничтоженных на землях Карабаха отметим – Азыхскую пещеру (период палеолита, Физулинский район), пещера Таглар (период палеолита, Физулинский район), Узерлик-тепе (период бронзы, в районе Агдам-Агджабеди), Ходжалы (период бронзы, раннее железо, город Ходжалы), средневековые Худаферинские мосты (XII в.) (Джебраильский район) [8] и многие другие памятники в Агдамском, Физулинском, Казахском, Ходжавендском, Ходжалинском, Кяльбаджарском, Губадлинском, Лачинском, Шушинском районах [1, 2016, с.33].

Шуша неотъемлемая часть признанной на международном уровне территории Азербайджана сегодня освобождена. За годы оккупации только в одной Шуше было уничтожено свыше 170 зданий архитектурного значения и свыше 160 культурных и исторических памятников, мечети и мавзолеи подвергались вандализму, многочисленные письменные источники уничтожались [7]. Среди них дом великого азербайджанского композитора XIX-XX века Узеирбека-Гаджибекова (XIX век), дом композитора Зульфугар бека Гаджибекова (XIX век), дом писателя Юсиф Везира Чеменземенли (XVIII век), дом писателя, драматурга, публициста Абдуррагимбека Ахвердова (XVIII век), дом певца-ханенде Сеида Шушинского (XIX век), дом поэта Касум бека Закира (XVIII век), дом музыкантов Бехбудовых (XVIII век), мавзолей М.П.Вагифа (XX век), дом Сулейман Сани Ахундова – драматурга, журналиста, детского писателя (XIX век) [1, 2008, с.54].

Только в Шуше были варварски уничтожены шесть музеев, среди которых филиал музея ковра и народно-прикладного искусства, дом-музей Бюль-бюля (филиал Бакинского дома-музея), исторический музей г.Шуши, дом-музей Узеира Гаджибекова, Государственный исторический музей Карабаха, дом-музей М.М.Навваба. потеряны были сотни тысяч экспонатов. Сейчас идёт планомерная работа по восстановлению этих музеев.

С особой жестокостью были уничтожены сами города Карабаха. Во время уничтожения городов пострадали и краеведческие музеи в Агдаме, Кяльбаджарах, в Физулях, в Лачине и других, что является вандализмом, уничтожением культурных и материальных ценностей, культурно-исторических объектов, созданных трудом многих и многих поколений азербайджанцев [2, с.39].

Сегодня мы вернули Карабах!

День победы 8 ноября! Праздник победы Азербайджана в Отечественной войне 2020 года!

Азербайджан потерял 2783 военнослужащих – шехидов, ещё более 100 военных пропали без вести, 1245 человек находятся на лечении [5]. Слава нашим героям, освободившим 4 октября 2020 года Джабраил, 17 октября Физули, 20 октября Зангилан, 25 октября Губадлы, 8 ноября Шушу, 20 ноября Агдам, 25 ноября Кяльбаджар, 1 декабря Лачин. На всей территории, освобождённой от армянской оккупации начнутся восстановительные работы.

Президент Азербайджана Ильхам Алиев объявил Шушу культурной столицей Азербайджана [6].

Президент подчеркнул, что «Мы должны начать реставрацию города Шуши» [6].

Оккупанты уничтожили более 60 мечетей, а в Агдамской мечете (и во многих других) они держали свиней и коров, стены Агдамской мечети они покрыли оскорбительными надписями [6].

«Необходимо восстановить традицию проведение в Шуше Дней поэзии Вагифа и фестиваля «Хары бюльбюль», причём организовать их уже в этом году» [6], (имеется ввиду 2021 год), подчеркнул Президент Азербайджана Ильхам Алиев.

«Уничтожив исторические памятники, оккупанты фактически осуществили «культурный геноцид»» [6], отметил Президент.

Общественная опасность армянского терроризма в том, что причинялся огромный материальный и духовный вред всему азербайджанскому тюркскому миру, стиралось всё то, что веками строилось и возвышалось. Но сегодня мы победители.

Сегодня Азербайджанский народ вернул себе Карабах, его древнюю культуру и историю! Карабах будет восстановлен! Карабах – это Азербайджан!

Список использованной литературы:

1. Архив Министерства культуры и туризма Азербайджанской Республики. Годовые отчёты (1991-2018 годы).

2. Нигяр Алекперова «Культура и политика». Баку, 2000, с.175.

3. Ахундова Нигяр «Армянский вандализм против материальных и культурных ценностей азербайджанского народа в период карабахской войны (90-е годы XX – начало XXI вв.)», в кн. Труды Института НАН Азербайджана. Материалы V международной научной конференции «Геноцид тюрко-мусульманских народов в XX веке». Специальный выпуск, 70, 71, 72 / 2018.

4. Aslanova F.A. Azərbaycan Respublikasının mədəniyyət və Turizm Nazirliyinin arayışı. Bakı, 2009-ci il.

5. www.trt russian.com.>Baku-opredeli …

6. Vestikavkaza.ru>news.>susa-obavi

7. https:ru spufnik.az/karabakh/20170508/shushincy-dolzhny-vernytsja.html.

8. ru.m.wikipedia.orq

Həsənov Ağasəlim Şamil oğlu,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
aparıcı elmi işçisi,
Email:aghasihasanli@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZILƏRDƏ MƏSKUNLAŞMA: PROBLEMLƏR VƏ HƏLL YOLLARI

1988-ci ildə Azərbaycanın Yuxarı Qarabağ bölgəsində növbəti erməni separatizmi baş qaldırdı. Keçmiş SSRİ rəhbərliyinin problemə qeyri-obyektiv yanaşması, separatist çağırışları dəstəkləməsi bölgədə etnik münasibətlərin kəskinləşməsinə səbəb oldu. Nəticədə Qarabağda yeni münaqişə ocağı yaranmış oldu və dərinləşən münaqişə böyük itkilərlə, dağıntılarla nəticələndi. 1992-1993-cü illər ərzində Azərbaycan ərazisinin 20%-i Ermənistan tərəfindən işğal edildi. Etnik təmizləmə nəticəsində həm Ermənistan ərazisindən, həm də Qarabağ bölgəsindən bir milyonadək soydaşımız qovularaq qaçqın və məcburi köçkünə çevrildi. 30 ilə yaxın aparılan sülh və nizamlanma danışıqları heç bir nəticə vermədi. Əksinə Ermənistan rəhbərliyi öz işğalçılıq siyasətini davam etdirərək "Qarabağ Ermənistandır", "Yeni Ərazilər uğrunda müharibə" kimi sərsəm bəyanatlar səsləndirirməkdən belə çəkinmədi. 2020-ci ilin iyul ayında Azərbaycanın Ermənistanla sərhəd olan Tovuz bölgəsinə hücumlar təşkil olundu. Daha sonra isə, 27 sentyabr 2020-ci il tarixində işğal olunmuş Azərbaycan ərazilərində, qoşunların təmas xəttində yenidən gərginlik yaratmağa cəhdlər edən Ermənistan tərəfi bu dəfə Azərbaycan Ordusunun əks-hücum əməliyyatları ilə qarşılaşdı. 44 gün sürən əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın işğal altında qalan ərazilər azad edilib.

İşğaldan azad edilmiş ərazilərdə kiçik istisnalar olmaqla bütün infrastruktur, tarixi mədəniyyət abidələri, məscidlər tamamı ilə dağıdılıb, təbii sərvətlər istismar edilib və ekoloji terror həyata keçirilib. İndi həmin əraziləri erməni vandalizminin əsl mahiyyətini göstərən açıq muzey adlandıra bilərik. Belə bir şəraitdə Qarabağın dirçəldilməsi, orada bərpa-quruculuq işlərinin aparılması, gələcəkdə əhalinin həmin bölgədə dayanıqlı məskunlaşmasını təmin etmək olduqca böyük aktuallıq kəsb edir. Lakin, məcburi köçkünlərin geri dönüşü və bölgədə dayanıqlı məskunlaşmanın reallaşması həllini gözləyən bir sıra problemlərdən əhəmiyyətli dərəcədə asılıdır.

Beynəlxalq hüquqa görə müharibə başa çatdıqdan sonra minalanmış ərazilərin xəritəsi qarşı tərəfə verilməlidir. Lakin II Qarabağ savaşından məğlub ayrılan Ermənistan tərəfi hələ də bu şərtə əməl etməyib. Minalanmış sahələrin xəritəsinin verilməməsi isə hərbi cinayət sayılır. "Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini Azərbaycana təqdim etməlidir. Çünki, tərəflər arasında məlum razılaşma var. 10 noyabr razılaşması münaqişənin dayandırılmasını şərtləndirib. Bu bəyanata müvafiq olaraq minalanmış ərazilərin xəritəsinin təqdim olunması ilə bağlı hər hansı bir məqam mövcud deyil. Amma sənədin mahiyyəti minalı ərazilərin xəritəsinin təqdim olunmasını da özünə ehtiva edir. Tərəflər razılıq əldə edib ki, əhalinin əvvəllər yaşadığı ərazilərə

qayıdışı təmin olunsun. Məhz bu məqam insanların öz evlərinə təhlükəsiz qayıtmasına təminat tələb edir. Təhlükəsizlik üçün də ilkin addım ərazilərin minalardan təmizlənməsidir. Ona görə də Ermənistan tərəfi minalanmış ərazilərin xəritəsini təqdim etməlidir" [1].

İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi infrastruktur tamamilə dağıdılıb. Eyni zamanda, tarixi mədəniyyət abidələri və məscidlər dağıdılıb, təbii sərvətlər qanunsuz şəkildə istismar edilib və təbiətə qarşı ekoloji terror həyata keçirilib. Hazırda məcburi köçkünlərin Qarabağa qayıdışını mümkünsüz edən bir reallıq ortadadır. İşğaldan azad edilmiş ərazilər erməni vandalizminin əsl mahiyyətini göstərən açıq muzeydir. Belə bir şəraitdə Qarabağın dirçəldilməsi, orada bərpa-quruculuq işlərinin aparılması, gələcəkdə əhalinin həmin bölgədə dayanıqlı məskunlaşmasını təmin etmək olduqca böyük aktuallıq kəsb edir. Azərbaycan dövləti Qarabağda sosial-iqtisadi infrastrukturun yenidən qurulması üçün ciddi addımlar atır və məcburi köçkünlərin Qarabağa geri dönüşü dövlət üçün prioritet təşkil edir.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaya dair dövlət tərəfindən çoxçeşidli layihələrin icrasına başlanılıb. İlk növbədə geri dönəcək əhalinin sayının dəqiq müəyyənləşdirilməsinə ehtiyac yaranıb. Çünki, məcburi köçkünlər arasında bəzi obyektiv səbəblərdən geri dönməyəcək əhalinin olacağı təxmin edilir. Elə bu səbəbdən də məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi zərurəti yaranıb. Bu məqsədlə dövlət başçısının Sərəncamı ilə yaradılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" nəzdindəki İdarələrarası Mərkəzin "Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupu" yerli və xarici mütəxəssisləri cəlb etməklə sistemli araşdırmalar aparır. Həmin araşdırmalardan biri də ADA Universitetində aparılan "Azərbaycanın post-konflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" adlı tədqiqat işidir [2]. Qeyd edək ki, artıq 22 fevral 2021-ci il tarixdən bu sorğunun keçirilməsinə ilkin olaraq onlayn formada start verilib.

10 noyabr Bəyannaməsi imzalandıqdan sonra bölgədə sülhün bərqərar olmasına ümidlər artıb. Lakin, Qarabağda separatçı meyllərin baş qaldırması və Ermənistanda verilən revanşist bəyanatlar narahatlıq doğurur. Həmin separatçı hərəkətlərə misal olaraq Erməni dilinin "DQR"-in dövlət dili, Rus dilinin isə ikinci əsas dil kimi qəbul edilməsidir. Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsinin ("Dövlət dili") II hissəsində göstərilir: "I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir. II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir" [3].

Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən, dövlət tərəfindən irqindən, milliyyətindən, dinindən, dilindən, etnik mənşəyindən və digər fərqliliklərdən asılı olmayaraq bütün vətəndaşlara bərabərlik və onların hüquq və azadlıqlarına hörmət ifadə olunur. Vətəndaşların irqi, dini, etnik mənsubiyyəti əsasında hüquq və azadlıqlarının məhdudlaşdırılması ciddi şəkildə qadağan edilmişdir. Konstitusiyanın 44-cü maddəsinə görə "hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq

hüququ vardır; heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz”[4]. Belə bir şəraitdə istənilən Azərbaycan vətəndaşının hər hansı ayrı-seçkiliyə məruz qalması ilə bağlı iddialar əsassızdır və Azərbaycanın dünyada nümunə ola biləcək birgəyaşayış modeli mövcuddur. Əslində Xankəndi, Xocalıdan köçkünlərin geri dönüşünə və onların ermənilərlə birgəyaşayışına mane olan yalnız erməni tərəfidir.

Qeyd edək ki, Azərbaycan çoxmillətli ölkədir və burada yaşayan digər xalqlar ölkənin bərabərhüquqlu vətəndaşlarıdır. Milli azlıqlar və etnik qruplar Azərbaycan əhalisinin 9,4%-ni təşkil edir. Belə ki, respublika əhalisinin 2,2%-ni ləzgilər (178,000 nəfər), 1,34%-ni ruslar (119,300 nəfər), 1,35%-ni ermənilər (120,7 min nəfər), 1,26%-ni talışlar (101,8 min nəfər), 0,10%-ni yəhudilər (8,9 min nəfər), 0,07 %-ni kürdlər (8,1 min nəfər), 0,56 %-ni avarlar (50,9 min nəfər), 0,02 %-ni xınalıqlar (3,2 min nəfər), 0,43 %-ni mesheti türkləri (43,3 min nəfər), 0,25 %-ni tatarlar (30 min nəfər), 0,24%-ni ukraynalılar (29 min nəfər), 0,12%-ni saxurlar (10,9 min nəfər), 0,11%-ni gürcülər (9,5 min nəfər), 0,03 %-ni udinlər (3,1 min nəfər) və digər etnik qruplar təşkil edir [5]. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan türkləri əhalinin 90%-dən çoxunu təşkil edir.

Azərbaycanda milli azlıqların öz milli mədəni mərkəzlərini, assosiasiyalarını və digər təşkilatları yaratmalarına tam təminat verilir. Hazırda Azərbaycanda fəaliyyət göstərən onlarla milli-mədəni mərkəz var. Onlardan "Birlik" cəmiyyəti, rus icması, slavyan mədəni mərkəzi, Azərbaycan-slavyan mədəni mərkəzi, Azərbaycan-İsrail icması, Ukrayna icması, “Ronai” kürd mədəni mərkəzi, “Samur” ləzgi milli mərkəzi, Tat mədəni mərkəzi, Dağ yəhudiləri icması, Avropa yəhudiləri (aşkenazi) icması, gürcü yəhudiləri icması, yəhudi qadınlarının humanitar birliyi, Azərbaycan-tatar icması, “Tuqan tel” tatar mədəni cəmiyyəti, “Yaşlıq” tatar mədəni mərkəzi, Krım tatarlarının “Krım” cəmiyyəti, gürcü icması, Azərbaycan gürcülərinin humanitar cəmiyyəti, ingiloy icması, çeçen mədəni mərkəzi, Ahıska türklərinin “Vətən” cəmiyyəti, ahıska türklərinin “Sona” cəmiyyəti, talış mədəni mərkəzi, avar cəmiyyəti, almanların "Kapelhaus" mədəni cəmiyyəti, udin mədəni mərkəzi, udinlərin "Orain" mədəni mərkəzi, “Poloniya” polyak mədəni mərkəzi, “Mada” talış beynəlxalq assosiasiyası, “Avesta” talış assosiasiyası, “Buduq” mədəni mərkəzi, saxur mədəni mərkəzi və digərlərini göstərmək olar.

Milli azlıqların kompakt yaşadıqları ərazilərdə klub tipli həvəskar cəmiyyətlər, milli və dövlət teatrları, həvəskar assosiasiya və maraq klubları fəaliyyət göstərir. Buna misal olaraq Qusar rayonundakı Ləzgi Dövlət teatrını, Qaxda gürcü milli teatrını, Astara və Lənkəran rayonlarındakı talış folklor qruplarını göstərə bilərik.

Milli azlıqların dilində onlarla qəzet və jurnal çap olunur, radio və televiziya proqramları translyasiya edilir. Respublika radio stansiyasında kürd, talış, gürcü, rus və erməni dillərində dövlət büdcəsindən maliyyələşən verilişlər yayımlanır. Balakəndə yerləşən yerli radio stansiyası avar, Xaçmazda isə ləzgi və tat dillərində verilişlər mütəmadi şəkildə yayımlanır. Eyni zamanda Qusar və Xaçmaz rayonlarında yerli televiziyada ləzgi dilində verilişləri verilir. Bakıda rus, kürd, ləzgi və talış dillərində qəzetlər çap olunur. Onlardan ləzgi və kürd dillərində çap olunan “Samur” və “Dəngi kürd” qəzetlərini, eləcə də yəhudilərin “Soxnut” cəmiyyəti tərəfindən dərc olunan

“Əziz” qəzetini göstərə bilərik.

Azərbaycan Respublikasının dövlət strukturlarında da milli azlıqlar geniş təmsil olunmuşlar. Milli azlıqların kompakt yaşadığı ərazilərdə onların nümayəndələri yerli hakimiyyət orqanlarında və digər dövlət strukturlarında aparıcı rola malikdirlər. Milli azlıqlara mənsub şəxslər Azərbaycan Parlamentində təmsil olunmuşlar, eyni zamanda Nazirlər Kabinetində, Konstitusiya məhkəməsində, Mərkəzi Seçki Komissiyasında, hüquq-mühafizə orqanlarında və digər dövlət strukturlarında da çalışırlar.

Göründüyü kimi, Azərbaycan etnik münasibətləri tənzimləmək üçün multikultural siyasət həyata keçirir və bu öz ifadəsini müxtəlif etnik qruplara dövlət tərəfindən göstərilən mənəvi və maddi dəstəkdə tapır. Dövlət onları etnik, dini, dil və mədəni ayrı-seçkilik olmadan cəmiyyətə inteqrasiya etməyə çalışır.

Bütün bu qeyd olunanlar göstərir ki, Azərbaycanda yaşayan digər xalqların hüquqları dövlət tərəfindən qorunur və onların öz dillərini, mədəniyyətlərini inkişaf etdirməsi üçün lazımi şərait yaradılıb. Həmçinin, etnik qrupların nümayəndələri öz etnik-mədəni dəyərlərini inkişaf etdirməklə yanaşı Azərbaycan vətəndaşı olmalarını da diqqətdə saxlamalı, öz yaşadıqları dövlətin ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşmalıdırlar.

İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və dayanıqlı məskunlaşması istiqamətində aşağıdakı təkliflər məqsədyönlüdür:

- işğaldan azad olmuş əraziyə dönəcək köçkün əhalinin məcburi köçkün statusundan irəli gələn güzəştlərin bir müddət saxlanılması;
- Qarabağa dönüşdən imtina edən məcburi köçkün şəxslərin köçkünlük statusundan irəli gələn güzəştlərinin ləğv edilməsi;
- məcburi köçkünlərin geri dönüşünə mane olan səbəblərin dəqiq müəyyənləşdirilməsi və ona müvafiq fəaliyyət planının hazırlanması;
- məcburi köçkün əhali ilə sosial işin aparılması: məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə dönüşünün əhəmiyyəti və bu dönüşün təhlükəsizlik, mənəvi-psixoloji, iqtisadi aspektlərinə dair təbliğat işlərinin aparılması;
- Qarabağa dönəcək əhalinin yalnız məcburi köçkünlərlə məhdudlaşdırılmaması;
- Qarabağa dönəcək əhaliyə məcburi köçkünlük statusundan irəli gələn güzəştlər istisna olmaqla, yaradılacaq digər imkanların Qarabağda məskunlaşmaq istəyən və məcburi köçkün olmayan hər bir Azərbaycan Respublikası vətəndaşına da şamil edilməsi;
- işğaldan azad olunmuş ərazilərə geri dönən əhalinin mənzil ehtiyaclarının qarşılanması;
- iş yerlərinin açılması, məşğulluğun təmin edilməsi;
- geri dönən əhali arasında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədi ilə güzəştli kreditlərin verilməsi və həmin sahibkarların müəyyən müddət vergidən azad edilməsi;
- məskunlaşmanın effektliliyini artırmaq məqsədi ilə həmin ərazilərdə dövlət işlərində çalışanlara əməkhaqqından əlavə yardımların edilməsi;
- universitet və kolleclərin açılması;
- teatr, mədəniyyət klublarının açılması;

- İdman- sağlamlıq və turizm mərkəzlərinin açılması;
- əhalinin məskunlaşma coğrafiyasına uyğun olaraq ictimai-iaşə obyektlərinin tikilməsi ;
- əhalinin məskunlaşma coğrafiyasına uyğun olaraq məscidlərin tikilməsi və ya bərpası.
- Udi icmasının işğaldan azad olunmuş ərazilərdə yerləşən qədim Alban kilsələrinə mütəmadi olaraq səfərlərinin təşkil edilməsi və dini ritualları yerinə yetirilməsi;
- məcburi köçkün statusu daşıyan və Qarabağda yaşamaq istəyən digər şəxslərin məşğulluğunu təmin etmək məqsədi ilə işğaldan azad edilmiş ərazilərdə kiçik sahibkarlıq, fermer təsərrüfatı kimi fəaliyyətlərin dövlət tərəfindən dəstəklənməsi;
- işğaldan azad edilmiş hər bir rayonun potensialına uyğun kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi; (Məsələn, Laçın-Kəlbəcərdə heyvandarlıq, Füzuli-Cəbrayılda taxılçılıq, üzümçülük və s.).
- işğaldan azad olunmuş ərazilərdə alternativ enerji potensialının düzgün qiymətləndirilməsi və həmin mənbələrdən səmərəli istifadənin təşkil edilməsi;
- Kəlbəcər və Laçın rayonlarında keyfiyyətli İstisu mineral suyunun olduğu ərazidə müalicəvi sanatoriyaların tikilməsini və ya bərpasını gerçəkləşdirmək;
- Laçın rayonu ərazisində dünyada nadir olan Qırmızı Palıd, Zəngilan rayonu ərazisində isə məşhur Çinar meşələrinin hazırkı durumunu əks etdirən Açıq-təbiət Muzeyinin yaradılması;
- işğaldan azad edilmiş hər bir rayonun ərazisində quruculuq-bərpa işlərinin aparılması zamanı erməni vandalizminin əks etdirən kiçik bir ərazinin saxlanılması və oranın Açıq Muzeyə çevrilməsi.
- gələcəkdə Xocalı şəhərində Xocalı Soyqırım Abidəsinin qoyulması;
- təhlükəsizlik məsələləri həll olunduqdan sonra xarici ölkələrdən Qarabağa turist səfərlərinin təşkil edilməsi.

Belliklə, işğaldan azad olunmuş ərazilərdə dayanıqlı məskunlaşmaya dair bəzi təkliflər irəli sürdük. Zənnimizcə, təkliflərimiz həmin ərazilərin dirçəldilməsi, bərpa-quruculuq işlərinin aparılması, gələcəkdə əhalinin həmin bölgədə dayanıqlı məskunlaşmasını təmin etmək baxımından nəzərdən keçirilə bilər. Artıq, Azərbaycanda məcburi köçkünlərin geri dönüşü və gələcəkdə əhalinin orada məskunlaşması ilə bağlı mövcud problemlərin həlli istiqamətində ciddi addımlar atılır və bölgənin dirçəldilməsi dövlət üçün prioritet təşkil edir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://teleqraf.com/news/gundem/279800.html
2. https://apa.az/az/dagliq_qarabag/Mcburi-kockunlr-arasinda-qayidis-haqqinda-onlayn-sorgu-baslayib-630545
3. http://www.azerbaijan.az/portal/General/Constitution/constitution_01_a.html
4. http://www.azerbaijan.az/portal/General/Constitution/constitution_01_a.html
5. https://www.stat.gov.az/

Xəlilov Polad,
tarix üzrə fəlsəfə doktoru,
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
"Azərbaycanın yeni tarixi" şöbəsinin aparıcı elmi işçisi,
Email: polad-xalilov@mail.ru

QARABAĞ MƏDƏNİYYƏT ABİDƏLƏRİNƏ QARŞI ERMƏNİ TERRORU VƏ ONUN NƏTİCƏLƏRİ

Azərbaycan xalqının mədəniyyət abidələri hələ qədim və orta əsrlər çağından başlayaraq bir çox təqiblərə məruz qalmış, xalqımızın yaratdığı mənəvi dəyərlərə ağır zərbələr vurulmuşdur. E.ə. IV əsrdə Zərdüştülüyün kitabı "Avesta"nın bir hissəsinin Makedoniyalı İskəndər tərəfindən yandırılması, 705-ci ildə ərəblərin himayəsi sayəsində Alban kilsəsinin erməni kilsəsinə tabe etdirilməsi, 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahanşahın göstərişi ilə erməni katolikosluğunun mərkəzinin Kilikiyanın Sis şəhərindən (Suriya) İrəvan ətrafındakı Üçmiəzzinə köçürülməsi, 1836-cı ildə Rusiya imperiyası tərəfindən Alban kilsəsinin ləğv edilməsi kimi baş vermiş hadisələr xalqımızın maddi və mənəvi irsinə vurulan ağır zərbələr olmuşdur. Birinci Qarabağ müharibəsi zamanı (1991-1994) və ondan sonrakı dövrdə Qarabağda mövcud olan mədəniyyət abidələrimizə qarşı tətbiq edilmiş erməni terroru da bir çox mədəniyyət xadimlərimizin büstlərinin və vaxtilə yaşadıqları məkanlarının, eləcə də dini abidələrimizin məhvinə gətirib çıxartmışdır.

1991-1994-cü illərdə Ermənistanın Azərbaycana qarşı tətbiq etdiyi hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl) işğal edilməsi ilə 1510 mədəniyyət müəssisəmiz dağıdılaraq, məhv edilmişdir [1, s. 58]. XX əsrin 90-cı illərinin əvvəllərində erməni-rus hərbi birləşmələrinin işğalları nəticəsində Dağlıq Qarabağ və onun ətrafındakı rayonlarda 464 tarixi abidə və muzeylər zəbt edilmiş, yandırılmış və dağıdılmış [2, s. 177], eləcə də bütün məscidlərimiz ermənilər tərəfindən viranə qoyulmuşdur [3, s. 85]. Eləcə də memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi də erməni terrorunun qurbanına çevrilmişdir [4, s. 35].

Xocalı abidələri kompleksi Azərbaycanın əbədi və əzəli tərkib hissəsi olan Qarabağın dağlıq hissəsində, üç dağ çayının qovşağında yerləşirdi. Bu çaylar Qarqarçay, Xocalıçay və İlisu çaylarıdır. Erməni qaniçənləri tərəfindən törədilmiş XX əsrin ən böyük və dəhşətli soyqırımı da məhz burada baş vermişdir [5, s. 125]. E.ə. XIV-VIII əsrlərə aid olan və "Xocalı-Gədəbəy" mədəniyyətini özündə ehtiva edən Xocalı abidələri kompleksi təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqazın həmdövr abidələrinin xronologiyasının, dəfn mərasimlərinin, etnik mənsubiyyətin, sosial-iqtisadi, ictimai-siyasi, mədəni proseslərin araşdırılmasında mühüm rol oynamışdır. Xocalı abidələri müxtəlif tip və ölçülü kurqanlardan, "daş qutular"dan, daş sərdabələrdən, "menqirlərdən", həmçinin möhtəşəm labirintdən ibarət idi [5, s. 126].

Xocalı şəhəri elə bir yaşayış məskəni idi ki, o, Azərbaycan tarixinin qədim döv-

ründən müasir dövrə qədər olan tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Erməni işğalından sonra Xocalının maddi mədəniyyət abidələrinin məhv edilməsi və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığının texnika vasitəsilə darmadağın edilməsi erməni vəhşiliyinin bariz nümunəsi olmaqla yanaşı, dünya mədəniyyətinə qarşı zorakılıq aktıdır [6, s. 327].

Kəlbəcər rayonunda Dəlidağın ətəklərində yerləşən və Kiçik Qafqazın Cənub-Şərq yamacları sayılan, dəniz səviyyəsindən 3 min metrə qədər hündürlükdəki Alagöl, Zalxagöl, Qaragölün sahilləri və Pəriçinqıl, Ayıçınqıl, Lülpər, Gəlinqaya, Yazyurdu, Taxta, Sarımsaqdağ sahələri Azərbaycan ərazisində yerləşən qayaüstü təsvirlərdən hesab olunurlar [7, s. 250].

Şuşadakı 10 salondan ibarət olan Şuşa Rəsm Qalereyasında 200-ə qədər nadir təsviri sənət nümunələri saxlanılırdı. Qalereyanın qızıl fondunu Mir Möhsün Nəvvabın öz kitablarında çəkdiyi illüstrasiyalar təşkil edirdi. Şuşadakı Mehmandarovların yaşayış kompleksində yerləşən Xalça Muzeyində 300-dən çox nadir xalça məmulatı nümayiş etdirilirdi. Bundan başqa, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri fəaliyyət göstərirdi. Bütün bu muzeylər 1992-ci ilin mayında Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılaraq, yerlə-yeksan edilmiş, onların eksponatları qarət edilərək, aparılmışdır. Yalnız Xalça Muzeyində saxlanılan və 300-dən artıq əl işi olan xalçaların 145-ni xilas etmək mümkün olmuşdur [8, s. 107-108].

Erməni işğalına qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-a qədər mədəniyyət və tarixi abidə var idi. Bunların arasında XVIII əsrə aid olan Şuşa qalasının divarları, Gəncə qapısı, Pənahəli xanın sarayı, İbrahimxəlil xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, eləcə də bir sıra elm və mədəniyyət xadimlərimizin evləri və muzeyləri ermənilər tərəfindən vəhşicəsinə dağıdılmış, təhqirlərə məruz qalmış, çoxlu sayda nadir əlyazma nümunələri məhv edilmişdir [9, s. 679].

1993-cü ildə Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmiş, məscidin minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Bu məscid Ağdam rayonu ərazisindəki ən böyük İslam dini abidəsidir və 1868-1870-ci illərdə Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir [1, s. 73].

İşğala məruz qalmayan bəzi bölgələrimiz də erməni vandallarının vəhşiliyinə düçar olmuşdur ki, bunlardan biri də Tərtər bölgəsidir. 1990-2016-cı illər ərzində Ermənistan silahlı birləşmələri tərəfindən Tərtər rayonu ərazisində 13 ölkə əhəmiyyətli daşınmaz tarixi memarlıq abidələri dağıdılmışdır. Belə ki, Talış kəndində XIII əsrə aid olan "Ürək" məbədi, XIII-XIV əsrlərə aid olan Qala, Madagiz kəndində V-XII əsrlərə aid olan Müqəddəs Yelisey kilsəsi, XII-XIII əsrlərə aid olan körpü, Çiləbürt kəndində XII-XIII əsrlərə aid olan Qala, Çardaxlı kəndində XII-XIII əsrlərə aid olan Qala, Kiçik Qarabəy kəndində XVIII əsrə aid olan Məlik Hətəm məbədi, Qasapet kəndində orta əsrlərə aid olan Alban məbədi, Umudlu kəndində orta əsrlərə aid olan 4 tarixi abidə -

Qala, Qədim yaşayış yeri və hamamlar erməni vəhşiliyinə məruz qalmışdır [10, s. 190].

Ermənilər tərəfindən işğal edilmiş Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığındakı Quruçay vadisində 1,5 milyon il yaşı olan mağara, həmçinin qədim tarixə malik olan Tağlar mağarası, Tuğ kəndi ərazisində yerləşən və V-VIII əsrlərə aid olan "Ritiş" qalası, Ərgünəş dağının yamacındakı sıldırım qayalar üzərində yerləşən "Ərgünəş" qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid olan "Rzaqulu Bəy" türbəsi, Xocavənd kəndi yaxınlığındakı "Aşıqlı Qoşa" günbəzi, Böyük Tağlar kəndində yerləşən və 1241-ci ilə aid olan "Alban" məbədi, Tuğ kəndindəki "Qırmızı" məbəd, X əsrə aid olan tarixi memarlıq və incəsənət abidələri, eləcə də digər abidələrimiz dağıdılmışdır. Xocavənd rayonunun Tuğ kəndinin 5 kilometrliyində yerləşən və V əsrə aid olan Alban kilsəsi, I-V əsrlərə aid olan Alban qəbiristanlıqları, Salakətin kəndi ərazisindəki Dəmirov və Dağdağan ocaqları, Xocavənd kəndi ərazisində yerləşən Cicim ocağı, Qarabağlı kəndinin ərazisində qeydə alınan və III-VI əsrlərə aid olan Alban qəbiristanlıqları, Əmirallar kəndi yaxınlığındakı Bəhrəmli piri, Muğanlı kəndində yerləşən Seyid Rza günbəzi, Qarabağlı kəndi ərazisindəki Yel piri və neçə-neçə qiymətli maddi memarlıq abidələri erməni təcavüzü nəticəsində dağıntıya məruz qalmış mədəni və dini abidələrdəndir [11, s. 472].

Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri XXI əsrin əvvəllərində daha da yeniləşmiş və onlar işğal altında qalmış ərazilərdə yanğınlar törədərək, Azərbaycan xalqının mədəni irsinin məhv edilməsi prosesini davam etdirmişlər. Belə ki, 2006-cı ilin iyununda ermənilərin işğal edilmiş Xocavənd ərazisində törətdikləri yanğınlar nəticəsində yaşı 800 il olan XII əsr abidəsi "Qaraca Çoban"ın qəbri yanmışdır. Ermənilərin törətdikləri yanğınlar e.ə. II minilliyə aid olan Nərgiztəpə mədəni abidəsini külə döndərmiş, yanğının yaratdığı yüksək temperatur nəticəsində "Qaraca Çoban"ın qəbri parça-parça olmuşdur. Yanğınlar nəticəsində qədim türk tayfalarına mənsub olan "Əfşarlar qəbiristanlığı" da məhv edilmişdir [12, s. 164].

Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "ermənilləşdirmişlər". Məsələn, Bərdədə, həmçinin işğal edilmiş Şuşada, Ağdamda və digər ərazilərdə bir çox daş heykəllərə süni şəkildə xaç işarəsi əlavə edilmişdir [4, s. 75].

Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi, Füzulidə Şah Abbas karvansarası, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və s. yaşayış məntəqələrində olan mədəni-tarixi abidələrimiz ermənilər tərəfindən tamamilə dağıdılmış, Qarabağ ərazisindəki qədim alban kilsələri silah anbarlarına çevrilərək, yararsız hala salınmışdır [4, s. 91].

Ermənilərin Qarabağın mədəniyyət abidələrinə qarşı tətbiq etdikləri terror siyasəti 44 gün davam etmiş, İkinci Qarabağ müharibəsində də həyata keçirilmiş, bir çox elm və mədəniyyət xadimlərimizin abidələri, məzarlıqlar, yaşayış evləri, məscidlər, xristian kilsələri və digər mədəniyyət abidələrimiz təcavüzə məruz qalmışdır. Təəssüflər olsun ki, XX əsrin 90-cı illərində Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş 4 Bəyannamədə göstərilən şərtlərə riayət edilməmiş və erməni terroru öz

çirkin məqsədlərini həyata keçirməkdə davam etmişdir. Bundan başqa, Qarabağın işğal edilməsi və mədəniyyət abidələrimizin terrora məruz qalmasının dayandırılması barədə ATƏT-in Minsk Qrupu, eləcə də digər beynəlxalq təşkilatların indiyə qədər qəbul etdiyi qərarların icrası da yalnız kağız üzərində qalmışdır. Lakin buna baxmayaraq, 44 günlük Zəfər Yürüşündən sonra prezident və Ali Baş Komandan İlham Əliyevin müvafiq tapşırıqlarına və sərəncamlarına uyğun olaraq işğaldan azad edilmiş bölgələrimizin sosial-iqtisadi inkişafına dair bir çox proqramlar həyata keçirilir, hazırlanmış yeni layihələr əsasında gələcəyə ümid verən islahatlar tətbiq olunur, dağıntıya məruz qalmış bir çox mədəniyyət abidələrimizin yenidən bərpa olunması istiqamətində tədbirlər icra olunmaqdadır.

İstifadə olunmuş ədəbiyyat:

1. İsmayılov K.N., Balayev A.M. Azərbaycanın tarixi mədəniyyət abidələrinə qarşı erməni terroru. Bakı: "Maarif" nəşriyyatı, 2020, 120 s.
2. Dadaşzadə Ə.İ. İki yüz il davam edən soyqırım // "Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir" mövzusunda beynəlxalq elmi konfransın materialları. Sumqayıt Dövlət Universiteti, 21-22 aprel, 2015-ci il, s. 174-177.
3. Quliyeva A. Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin prioritet sahəsi kimi // "Sivilizasiya" (Bakı Avrasiya Universiteti), 2018, cild 7, № 2, s. 82-87.
4. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ (real tarix, faktlar, sənədlər). Bakı: "Təhsil" nəşriyyatı, 2009, 144 s.
5. Cəfərov H. Xocalı kompleksi Qafqazın son tunc dövrünün etalon abidəsidir // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları, I hissə. Gəncə Dövlət Universiteti, 15-16 oktyabr, 2015-ci il, s. 125-128.
6. Xəlilov P.R. Xocalı soyqırımı – Azərbaycan xalqının qan yaddaşıdır // "Ermənilərin soyqırım siyasəti bəşəriyyətə qarşı cinayətdir" mövzusunda beynəlxalq elmi konfransın materialları. Sumqayıt Dövlət Universiteti, 21-22 aprel, 2015-ci il, s. 325-328.
7. Şirinli S.T. Azərbaycanda qayaüstü təsvirlərin yayılma coğrafiyası // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları, II hissə. Gəncə Dövlət Universiteti, 15-16 oktyabr, 2015-ci il, s. 250-252.
8. Mahmudov Y.M., Mustafayev C.M. Şuşa-Pənahabad. Bakı: "Təhsil", 2012, 152 s.
9. Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: "Avropa" nəşriyyatı, 2016, 960 s.
10. Məmmədov N.R. Azərbaycan Respublikası Tərtər rayonunun tarixindən. Bakı: "Avropa" nəşriyyatı, 2017, 402 s.
11. Məmmədov N.R. Azərbaycan Respublikasının Xocavənd rayonunun tarixi. Bakı: "Avropa" nəşriyyatı, 2016, 678 s.
12. Məmmədov N.R. Azərbaycanın Xankəndi şəhərinin tarixi. Bakı: "Təhsil", 2011, 224 s.

Şəfiyev Üzeyir,
sosiologiya üzrə fəlsəfə doktoru, dosent,
BDU-nun Sosial iş kafedrasının müdiri,
Email:uzeyirshafiyev@gmail.com

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞLA BAĞLI DÖVLƏTİN SOSİAL SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən İkinci Qarabağ müharibəsi "Biz birlikdə güçlüyük!" şüarı ilə xalqımızın öz lideri ətrafında sıx birliyi sayəsində Azərbaycanın qələbəsi ilə bitdi. Azərbaycan Respublikasının prezidenti Ali Baş komandan Vətən savaşında öz yüksək intellektual keyfiyyətlərini, diplomatik bacarıqlarını nümayiş etdirərək düşməni mat vəziyyətinə saldı. Təsadüfi deyildir ki, bir sıra ekspertlər bu müharibəni intellektual xarakterli, yeni nəsil müharibə forması kimi səciyyələndirir, Azərbaycan prezidentinin intellektual üstünlüklərindən geniş bəhs edirlər. Bəli, məhz xalqımız öz liderinə inanaraq onun rəhbərliyi altında dəmir yumruğa dönüb erməni faşizmini məğlub etdi. Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişi kimi yadda qaldı. Erməni qəsbkarları tərəfindən otuz ilə yaxın bir müddət ərzində işğal olunmuş ərazilərimizin maddi və mədəni sərvətləri talan edilmiş və dağıdılmışdır. Qarabağda, ümumilikdə 900-dən artıq yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri təcavüzün qurbanı olub. İşğaldan azad olunmuş ərazilərin görüntüləri açıq-aydın göstərir ki, yaşayış məntəqələrinin əksəriyyəti yerlə-yeksan edilib. Ümumilikdə 850 mindən artıq əhali yaşamış 11 şəhər, 20 qəsəbə və 894 kəndin böyük əksəriyyəti tamamilə yerlə-yeksan edilib. İndiyədək bu istiqamətdə aparılan hesablamalar göstərir ki, Ermənistanın Azərbaycana vurduğu ziyan 100 milyard dollarla ölçülür. Belə ki, BMT-nin 2000-ci ildə hazırlanmış İnkişaf Proqramında işğal nəticəsində dəyən ziyan 54 milyard dollara yaxın bir rəqəmlə ifadə olunmuşdu. Bundan əlavə tətbiq edilən metodologiya və yanaşma üsulundan asılı olaraq, dəyən ziyanın məbləği 120 milyard, 200 milyard və hətta 800 milyard dollar səviyyəsində olması barədə mülahizələr də yürüdülür. Odur ki, xarici mütəxəssisləri də cəlb etməklə BMT Baş Assambleyasının beynəlxalq hüquqa zidd əməllərə görə dövlətlərin məsuliyyətinə dair qətnaməyə və digər normalara əsaslanaraq müvafiq sənədlər əsasında beynəlxalq məhkəmələrə çıxarılması, Ermənistandan təzminat tələb edilərək restitusiya, kompensasiya və satisfaksiya formalarında kompleks şəkildə istifadə etməklə, həm də həmin təzminatın pul və ya torpaq, digər əmlaklar şəklində alınmasına nail olmaq mümkündür. Bu istiqamətdə artıq müəyyən addımlar atilmaqdadır.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən həyata qaytarılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biridir. Qeyd edək ki, işğaldan azad edilən ərazilərin bərpası üzrə Azərbaycanın kifayət qədər təcrübəsi var. Artıq ölkəmizdə Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb ki, onun da missiyası aparılan bərpa işlərinin koordinasiyasını və məcburi köçkünlərin doğma

torpaqlarına qaytarılması üçün şəraitin yaradılmasını təmin etməkdir. 2020-ci ildən başlayaraq Azərbaycan Ordusunun düşmən tapdağından azad etdiyi ərazilərin də uyğun qaydada bərpası həyata keçirilməkdədir. 1994-cü ildə uğurlu Horadiz əməliyyatından sonra Füzuli rayonunun 42 yaşayış məntəqəsinə həyat verildi. 2016-cı ilin aprelində hərbi qələbədən sonra Cəbrayıl rayonunun Çocuq Mərcanlı kəndi - "Böyük qayıdışın başlanğıc" nöqtəsi oldu. Dövlətin diqqət və qayğısı nəticəsində Çocuq Mərcanlı kəndi qısa müddətdə müasir və abad bir yaşayış məntəqəsinə çevrilib.

Qeyd edək ki, işğaldan azad edilmiş hər bir rayonumuz zəngin iqtisadi potensiala, həmçinin kənd təsərrüfatı baxımından böyük imkanlara malik olub, işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təminə ciddi töhfə verəcək. Torpaqlarımızın işğaldan azad olunması bizə imkan verəcəkdir ki, bu sahədə də vəziyyəti yaxşılaşdıraq. Bütün bunlar Azərbaycanda emal və ərzaq sənayesinin inkişafına da böyük töhfə verəcək. Ona görə də qarşıda duran mühüm vəzifələrdən biri işğaldan azad olunan həmin rayonların uğurlu reinteqrasiyasına nail olmaqdır ki, həmin ərazilər dövlətimizin güçünə güc qatsın.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin bərpası və dayanıqlı məskunlaşmanın həyata keçirilməsi istiqamətində əsaslı addımlar atılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə Əlaqələndirmə Qərargahı yaradılmışdır.

Bundan başqa, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il Fərmanı əsasında Qarabağ Dirçəliş Fondu publik şəxs yaradılmışdır. Beləliklə, "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs kimi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edir, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirir.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə, işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə so-

sial müdafiə sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə "YAŞAT" Fondu yaradılmışdır.

Bildiyimiz kimi, bərpa və yenidənqurma prosesinin əsas hədəflərindən biri məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmalarıdır. Qayıdışın səmərəli şəkildə təşkil olunmasından ötrü repatriasiya potensialını mümkün qədər dəqiq proqnozlaşdırmaq, bunun üçün isə məcburi köçkünlərin istək, niyyət və təkliflərini öyrənmək olduqca vacibdir. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə çıxışı zamanı bu barədə qeyd etdi: "Mən bu yaxınlarda Prezident Administrasiyasına göstəriş verdim ki, köçkünlər arasında sorğular keçirilməlidir, onların niyyəti öyrənilməlidir. Həm evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, yaxud da uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti bilək. Özümüz-özümüzü aldatmamalıyıq, real vəziyyəti bilməliyik. Xahiş edirəm köçkünlərdən, onlara sual veriləndə səmimi cavab versinlər - öz dədə-baba torpaqlarına getmək fikirləri var, yoxsa yox. Bizə bildirsinlər, biz də bilək və buna görə öz bərpa işlərimizi həyata keçirməliyik. Mən tam əminəm ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti böyük həvəslə öz doğma torpaqlarına qayıdacaqlar. Buna nail olmaq üçün dövlət əlindən gələni əsirgəməyəcək. Ancaq, eyni zamanda bizdə rəsmi məlumat olmalıdır. Ona görə bu sorğunun keçirilməsi hesab edirəm ki, bir çox suallara cavab verəcək. İndi sorğuda hansı suallar olacaq, onu siz fikirləşin. Əlbəttə ki, ailənin tərkibi, ondan sonra harada işləyirlər, işdən razıdırmı, razı deyilmi, o ailələrin maddi vəziyyəti, maaşları, gəlirləri, onların sahibkarlıq fəaliyyəti vardır, yoxdur, onların arasında işsizlər nə qədərdir, bütün bu suallar verilməlidir. Əsas sual onların öz torpaqlarına qayıtmaq istəkləri ilə bağlı olacaqdır".

Göründüyü kimi, Prezident bu çıxışında məskunlaşma və Qarabağa böyük qayıdışla bağlı ictimai rəyə böyük önəm verir, bu istiqamətdə ictimai iştirakçılığı məqsədəuyğun sayır. Elə bu məqsədlə dövlət başçısının Sərəncamına uyğun olaraq müvafiq qurumlar məcburi köçkünlər arasında sosioloji sorğular keçirməkdədir. Belə tədqiqatlardan biri də dövlət başçısının sərəncamına ilə yaradılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" nəzdindəki İdarələrarası Mərkəzin "Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupu" yerli və xarici mütəxəssisləri cəlb etməklə sistemli araşdırmalar aparır. Həmin araşdırmalardan biri də ADA Universitetində aparılan "Azərbaycanın post-konflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" adlı tədqiqat işidir.

Bu tədqiqat çərçivəsində bir neçə sosioloji sorğu keçirilməkdədir. Onların birincisi – internet üzərindən keçirilən onlayn-sorğudur. Bu sorğu dövlət sifarişi əsasında, müstəqil qrup kimi fəaliyyət göstərən və bir neçə elmi-tədqiqat və təhsil müəssisəsinin mütəxəssislərindən ibarət olan alimlər tərəfindən keçirilir. Sorğu fevral ayının 22-dən etibarən açıq elan olundu. Sorğu anketinin doldurulması cəmi 5-6 dəqiqə vaxt aparır. Sorğuda iştirak etmək üçün məcburi köçkünlər https://sorgu.ada.edu.az ünvanına müraciət etdilər. Tədqiqat Qrupu məcburi köçkünləri bu sorğuda fəal iştirak etməyə, suallara səmimi cavab verməyə çağıraraq xüsusi vurğuladı ki, bu sorğu da, buna

bənzər digər araşdırmalar da Qarabağa qayıdacaq həmvətənlərimizin rəy və təkliflərini nəzərə almaq üçündür.

Bununla yanaşı, vurğulamalıyıq ki, azad olunmuş ərazilərin yenidən qurulması bu ərazilər üzrə təkmil və səmərəli idarəetmə sisteminin yaradılmasını da zəruri edir. Prezident İlham Əliyevin 19 yanvar tarixli Fərmanına əsasən işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi də məhz bu məqsədə xidmət edir. Fərmanda da deyildiyi kimi, xüsusi nümayəndəliklərin təsis edilməsində məqsəd azad olunmuş şəhər və rayonların dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılmasıdır.

Xüsusi nümayəndəlik institutunun yaradılması azad edilən ərazilərdə həyata keçirilən idarəetmə islahatlarının ən vacibidir. Xüsusi nümayəndələr işğaldan azad olunmuş ərazilərdə Prezident Administrasiyasının struktur bölməsidir. Sənəddə nümayəndəliklərin statusu, fəaliyyət istiqamətləri, hüquq və vəzifələri müəyyən edilib, onların fəaliyyətinin təşkili məsələləri tənzimlənib, xüsusi nümayəndəliklərə müvafiq inzibati ərazi vahidlərində bir sıra məsələlər, o cümlədən ərazilərin perspektiv inkişafının təmin edilməsi, mülkiyyətin mühafizəsi, dövlət və bələdiyyə əmlakından səmərəli istifadə olunması, sahibkarlıq, şəhərsalma, tikinti fəaliyyətinin təşkili, ətraf mühitin qorunması, nəqliyyat və yol infrastrukturunun inkişafı və digər məsələlər həvalə olunub.

Post-müharibə dövründə qəbul olunan 2021-ci ilin dövlət büdcəsi də tarixi büdcə kimi diqqət çəkdi. Belə ki, biz bu büdcədə qələbə qazanmış dövlətin büdcəsini gördük. Bu büdcə, ilk növbədə, doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın öz torpaqlarına qayıtması üçün şəraitin yaradılması, orada müvafiq infrastrukturun qurulması, iş yerlərinin açılması kimi önəmli vəzifələrin həyata keçirilməsini təmin edəcək. Eyni zamanda, əhalinin sosial müdafiəsinin və yaşayış səviyyəsinin yüksəldilməsi, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi üçün maliyyə təminatı yaradan büdcədir.

2021-ci il dövlət büdcəsinin əsas prioritetləri işğaldan azad olunmuş ərazilərin bərpası, ölkənin müdafiə potensialının gücləndirilməsinin davam etdirilməsi və pandemiyanın mənfi təsirlərinin azaldılması tədbirləridir. Xərclərin əsas istiqamətləri müəyyən edilərkən ən ümdə prioritet kimi qəbul edilən və 2020-ci ildə Azərbaycan xalqının apardığı Vətən müharibəsi nəticəsində 30 ilə yaxın bir müddətdən sonra düşmən işğalından azad olunan ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin görülməsi, pandemiyanın bütün dünyada olduğu kimi, ölkəmizdə də yaratdığı çağırışlar, eləcə də qlobal iqtisadi vəziyyət və tendensiyalar nəzərə alınıb. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, bu ərazilərdə müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

2021-ci il üçün dövlət büdcəsinin sosialyönümlü xərcləri 11,1 milyard manat məbləğində proqnozlaşdırılır. Bu, 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur. 2021-ci ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin

tərkibində xüsusi çəkisinin 39 faizə yaxın təşkil edəcəyi nəzərdə tutulmuşdur.

Dövlət büdcəsi xərclərinin sosial yönümlülüyünün təmin edilməsi, özünüməşğulluq proqramı üzrə maliyyə təminatının yaradılması məqsədilə həyata keçirilən tədbirlərin maliyyələşdirilməsinin davam etdirilməsi büdcə xərclərinin əsas istiqamətlərindən olacaq. 2021-ci ildə əsas diqqət işğaldan azad olunan bölgələrə geri dönəcək vətəndaşlarımızın layiqli məşğulluğunun təmin olunmasına yönəldiləcək. Növbəti illərdə 16 min ailənin özünüməşğulluğu təmin ediləcək. DOST Agentliyinin fəaliyyəti, sosial dəstək tədbirləri, şəhid və qazi ailələrinə diqqət, özünüməşğulluq layihəsinə cəlb edilən ailələrin sayı nəzərəçarpan dərəcədə artacaq. 2021-ci ildə və 3 illik hədəf üzrə yaxın perspektivdə 10 min insanın peşə təhsilinin təmin edilməsi nəzərdə tutulur. Cari ildə 3 min nəfərin peşə təhsili, 1000 nəfərin isə sertifikat alması planlaşdırılır.

Ölkədə və regionda, ümumilikdə qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından dövlət başçısı rəhbəri olduğu komandanın bu çağırışlara hazır olmasını son dərəcə vacib sayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəd ölkənin uzunmüddətli dayanıqlı inkişaf hədəflərinin müəyyənləşdirilməsi və islahatların konkret proqramlar əsasında reallaşdırılması baxımından yeni imkanlar açır.

Sənəd yaxın və orta perspektivdə ölkəmizin qarşısındakı əsas hədəf və vəzifələrin açıq müzakirə və dinləmələr əsasında müəyyənləşdirilməsinə, bu zaman cəmiyyətin sosial gözlənti və istəklərinin nəzərə alınmasına imkan verir. Milli prioritetlər əsasında hökumət qarşısında 5 mühüm istiqamətdə islahat, layihə və tədbirlərin reallaşdırılması vəzifəsi qoyulub: 1) dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5)təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Ümumilikdə sosial rifah səviyyəsinin davamlı artımı məqsədilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətləndirilməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini perspektiv üçün qarşıda duran əsas vəzifələr sırasındadır.

Milli prioritetdə əksini tapmış məsələlərin həlli işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyini bərpa edəcək. Yeni yanaşmaların, müasir innovasiyaların tətbiq edildiyi bu bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevriləcək, ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi-sursatdan (PHS) təmizlənməsini təhlükəsizliyin təminatı, habelə "Böyük Qayıdış" proqramı baxımından prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu zərurət onunla şərtlənir ki, Ermənistan beynəlxalq hüquq normalarını pozaraq 30 ilə yaxın müddətdə işğal altında saxladığı ərazilərdə təkcə təmas xəttinə yaxın əraziləri deyil, ümumilikdə bütün rayon və şəhərləri, yolları, yaşayış binalarını və strateji yüksəklikləri minalayıb.

Azərbaycan dəfələrlə mina basdırılmış ərazilərin xəritəsini tələb etsə də, destruktiv mövqe nümayiş etdirən Ermənistan tərəfi buna məhəl qoymayıb. Bu, təcavüzkar

ölkənin kommunikasiyaların bərpası, qarşılıqlı etimad, sülh və təhlükəsizlik mühitinin formalaşdırılması istiqamətindəki regional təşəbbüslərə qeyri-səmimi yanaşdığını göstərir.

Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması və fəaliyyətə başlaması, ərazilərimizin mina və PHS-lərdən təmizlənməsi sahəsində aparılan işlərin daha keyfiyyətlə həyata keçirilməsi, mülki əhalinin mümkün təhdidlər barədə məlumatlandırılması və maarifləndirilməsi baxımından əhəmiyyətlidir. Dünyanın ən müasir, qabaqcıl minatəmizləyən texnika, maşın, mexanizm və avadanlıqlarının, eləcə də minatəmizləyən robotların ölkəmizə gətirilməsi bu prosesin daha təhlükəsiz və peşəkar səviyyədə reallaşdırılmasına, sonrakı mərhələdə dəymiş ziyanın dəyərləndirilməsinə və bərpa işlərinin başlanmasına imkan verəcək.

Bərpa məsələlərinin bütün tərəflərinin kompleks şəkildə özündə əks etdirən Ümumi "Böyük Qayıdış Proqramı", ondan doğan çoxsaylı məqsədli proqramlar, dəqiqləşdirilmş fəaliyyət planları hazırlanır və məqsədyönlü həyata keçirilməkdədir. İşğaldan azad olunmuş ərazilərdə başlanan bərpa işlərinin gedişi göstərir ki, Postkonflikt Ərazilərin Bərpası üçün "Böyük Qayıdış Proqramı"nın birinci hissəsi təbii olaraq təxirəsalınmaz tədbirləri özündə əks etdirir. İnfrastruktur yenidən qurulmalı və orada normal yaşayış üçün təhlükəsizlik təmin edilməlidr. Bura ərazilərin minalardan və digər hərbi sursatlardan təmizlənməsi, rayondaxili, rayonlararası və digər vacib yolların bərpası, inkişafı və yeni yolların çəkilməsi, su təchizatı, elektrik enerjisi, qaz və istilik təminatı sisteminin bərpası və inkişafı, təhsil, səhiyyə, mədəniyyət və digər sosial obyektlərin bərpası və tikintisi və s. bu kimi məsələlərin həlli daxildir. Azad edilmiş torpaqlarımızda normal həyat üçün yaşayışın modern və səmərəli fəaliyyət göstərə bilmə qabiliyyətində olan bərpa mexanizmi hazırlanıb həyata keçirilməsi istiqamətində iş aparılmaqdadır.

Hazırda işğaldan azad edilən şəhərlərin baş planları hazırlanır. Qarabağda məsələn, Şuşa, Ağdam və ya digər şəhərlərin timsalında "Ağıllı şəhər" (Smart City) layihəsi həyata keçirilməsi istiqamətində də işlər getməkdədir. "Böyük Qayıdış Proqramı"nın ikinci hissəsi işğaldan azad edilmiş ərazilərimizdə yerləşən hər bir şəhər və rayonun spesifik xüsusiyyətləri və potensialını nəzərə almaqla hazırlanan alt proqramlar toplusu üzərində iş gedir. Burada bütövlükdə işğaldan azad olunmuş ərazilərin iqtisadi, coğrafi və tarixi baxımdan inkişaf xüsusiyyətləri, təbii şəraiti və potensialı, təbii sərvətlərinin miqyası və çeşidi, onların Ermənistan tərəfindən talan edilmə səviyyəsi, əhalinin məskunlaşma proqnozları, rayonun müqayisəli üstünlükləri və prioritetləri aiddir. Bütün bu baza xarakterli amilləri nəzərə almaqla sözügedən regionun inkişafının yeni mərhələsini dövlət, özəl sektor, beynəlxalq qurumlarla əməkdaşlığın qurulması və xarici sərmayənin birgə fəaliyyətinin effektiv kombinasiyası əsasında icra etmək nəzərdə tutulur.

Layiqlı əmək haqqı olan yeni iş yerlərinin, xüsusən də gənclərə uyğun iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının hərtərəfli təşviqləndirilməsinin işlək mexanizmi nəzərdə tutulur. Gənclərin sahibkarlıq fəaliyyəti və əmək məşğulluğu ilə bağlı genişmiqyaslı özünüməşğulluq layihələrinin həyata keçirilməsini və bu işdə müvafiq beynəlxalq təşkilatların dəstəyindən, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, onların beynəlxalq proqramlarda, layihələrdə iştirakı-

nın təmin olunması planlaşdırılır.

Məskunlaşma genişləndikcə, hazırda həyata keçirilməyə başlanılan infrastruktur xarakterli tədbirlər, yəni su, işıq, istilik və s. təchizat sahələrində atılan addımlar həmin yerlərdə bağça, orta təhsil, texniki peşə, orta ixtisas və ali məktəblərinin, eləcə də səhiyyə və digər sosial obyektlərin yaradılması və maddi-texniki təchizatı ilə bağlı tədbirlərlə tamamlanacaq.

Sadalanan tədbirlərin vaxtında, sistemli və davamlı şəkildə həyata keçirilməsi həm işğaldan azad edilmiş torpaqlarımızda yaşamaq, işləmək, qurub-yaratmaq üçün normal həyata qayıtmasına gətirib çıxaracaq, dayanıqlı inkişafa təkan verəcək, Azərbaycanın güçünə güc qatacaq, həm də əhalinin güzaranının yaxşılaşmasına müsbət təsir göstərəcək.

Böyük Qayıdışı təmin edəcək layihələrin icrasına isə artıq yuxarıda qeyd etdiyimiz kimi başlanılıb. Söhbət işğaldan azad olunmuş ərazilərdə bütün istiqamətlər üzrə infrastrukturun yenidən qurulmasından gedir. Hələ ötən ilin oktyabr ayından Tərtər rayonunda Suqovuşana gedən yeni yolun çəkilişi başlanılıb və işlərin böyük qismi artıq yekunlaşıb.

Başqa bir yol isə Göygöl rayonunu Toğanalı kəndi istiqamətindən Kəlbəcərə çəkilir. Çətin təbii relyefi olan bu yol Laçın rayonuna qədər davam etdiriləcək. Eyni zamanda Prezident tərəfindən Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yolun çəkilişi ilə bağlı göstəriş verilib və bu istiqamətlərdə hazırlıq işləri başlayıb. Bununla da iki tərəfdən - həm Şimaldan, həm Cənubdan Laçın və Kəlbəcər rayonlarına aparan müasir yol-nəqliyyat infrastrukturu yaradılacaq.

Prezident İlham Əliyevin yol infrastrukturunun yaradılması ilə bağlı başqa bir göstərişi Füzulidən Şuşaya yeni avtomobil yolunun çəkilişi barədədir. Hələ noyabrın 16-da Füzuliyə səfəri zamanı Prezident İlham Əliyev layihə ilə tanış olmuş, bu gözəl hadisə münasibətilə xalqımızı təbrik etmişdi. Yanvarın 14-də isə Şuşaya səfəri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Füzuli-Şuşa yolunun təməli qoyuldu.

İlham Əliyevin və Mehriban Əliyevanın Şuşaya səfəri zamanı Füzuli hava limanının da təməli qoyuldu. Ümumiyyətlə, Füzuli-Şuşa yolunun çəkilişi, işğaldan azad edilən ərazilərdə beynəlxalq aeroportlar da daxil olmaqla, nəqliyyat-kommunikasiya infrastrukturunun formalaşdırılması strateji əhəmiyyətlidir. Hava limanının uçuş-enmə zolağının istifadəyə verilməsi bu ilə planlaşdırılır. Hava limanı işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin reallaşdırılmasında, yüklərin bölgəyə daşınmasında əhəmiyyətli rola malik olacaq. Azad edilmiş torpaqlarda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçında inşa ediləcək.

Dəmir yollarına gəldikdə, artıq bu istiqamətdə də ilkin layihələrin icrasına başlanılıb. Prezident İlham Əliyevin «Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında» 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə ümumi uzunluğu 45 kilometr olan Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün ilkin olaraq 5 milyon manat ayrılıb.

Fevral ayının 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında səfər etdilər. Bu, dövlət başçısının işğaldan azad olunan rayonlara artıq 5-ci səfəri idi. Qısa müddət ərzində Qarabağ bölgəsinə bir neçə səfərin edilməsi göstərir ki, İlham Əliyevin Qarabağın dirçəldilmə-

sinə, yenidən qurulmasına necə böyük diqqətlə və həssaslıqla yanaşır. Ən mühümü odur ki, Prezidentin hər səfəri yeni infrastruktur layihələrinin təməlinin qoyulması ilə əlamətdardır. İlham Əliyevin iştirakı ilə Laçında su elektrik stansiyasının istifadəyə verilməsi Qarabağda icrası başa çatdırılan ilk infrastruktur oldu. Bu isə bir daha təsdiq etdi ki, işğaldan azad olunmuş ərazilərimiz sürətlə bərpa ediləcək, Qarabağa Böyük Qayıdış ən yüksək səviyyədə həyata keçiriləcək.

Dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən biri azad edilmiş torpaqların "yaşıl enerji" zonası olmasıdır. Qarabağ bölgəsində enerjinin ekoloji baxımdan təmiz əldə edilməsi üçün münbit imkanlar var. Bu ərazilərdə həm külək, həm də günəş enerjiləri üçün potensial böyükdür. O cümlədən azad olunmuş ərazilərdəki çaylar ucuz və ekoloji baxımdan təmiz olan su elektrik stansiyalarının da yaradılması üçün əlverişlidir.

Onu da qeyd edək ki, bütün yaşayış məskənlərimiz nəinki yenidən qurulacaq, hətta işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları reallaşdırılacaq. İlk "ağıllı kənd" layihəsi isə vurğulandığı kimi Zəngilan rayonunda həyata keçiriləcək.

Fevralın 14-də Prezidentin iştirakı ilə Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması da mühüm hadisədir. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki, bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq.

Ümidvarıq ki, Böyük Qayıdış prosesi yüksək keyfiyyət göstəriciləri ilə həyata keçəcək, məcburi köçkünlərin şərəfli və layiqli məskunlaşmasının şahidi olacağıq. **Dövlət başçısı** yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə çıxışı zamanı eyni zamanda məskunlaşmanın mümkün istiqamətləri barədə də qeyd edib: "Hər şəhər üzrə vahid konsepsiya olmalıdır. Eyni zamanda, kəndlərin bərpası ilə bağlı vahid yanaşma olmalıdır. Çünki, işğaldan əvvəl bəzi kəndlərdə yaşayan insanların sayı çox az idi, təqribən 20 nəfər, 30 nəfər, 50 nəfər. Əlbəttə, ilk növbədə, biz böyük yaşayış məntəqələrinin bərpası ilə məşğul olmalıyıq. Hesab edirəm ki, aidiyyəti qurumlar, hökumət, Prezident Administrasiyası kəndlərin optimal say tərkibini müəyyən etməlidir. Yəni, bizim üçün bir oriyentir olmalıdır. Əlbəttə ki, bu tarixi yaşayış məntəqələrinin mövcudluğu, torpaq sahələri nəzərə alınmalıdır ki, orada məskunlaşacaq insanlar öz ailə büdcələrini orada işləyərək təmin etsinlər. Yəni, onlar daha dövlət dəstəyinə möhtac qalmasınlar. Onlar üçün elə torpaq sahələri ayrılmalıdır ki, orada rahat əkib-becərə bilsinlər və yaxşı da gəlir götürsünlər. Nəzərə alsaq ki, bu torpaqlarda torpaq islahatı aparılmayıb, bu islahatı aparmaq üçün biz, əlbəttə, yeni meyarlar işləməliyik. Çünki 1990-cı illərdə torpaq islahatı bəzi hallarda natamam aparılmışdır və ondan sonra bəzi problemlər üzə çıxmışdır. Torpaq sahələri düzgün qeydiyyata alınmamışdır. Ona görə biz indi belə bir vəziyyətlə üzləşdik. Peykdən əldə edilən məlumat yerlərdə olan məlumatla uzlaşmır. Ona görə indi Kənd Təsərrüfatı Nazirliyi bu problemin həlli ilə məşğuldur. Amma azad edilmiş torpaqlarda bu səhvlərə əlbəttə ki, yol verilə bilməz. Ona görə dəqiq bilməliyik ki,

hansı torpaqlar dövlət torpaq fonduna veriləcək, hansı torpaqlar meşə fonduna veriləcək. Onu da bildirməliyəm ki, bizim meşələrimizin böyük hissəsi qırılıb. Ümumiyyətlə, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı və turizm sahələri olmalıdır ki, biz bu bölgənin təbiiliyini qoruya bilək".

Məskunlaşma həyata keçirilən zaman şübhəsiz ki, məcburi köçkünlərin istəkləri əsas götürüləcəkdir. Böyük yaşayış məskənləri ilə yanaşı, əhalisi az olan yaşayış məskənlərinin də abadlaşdırılaraq yurd sahiblərinin istifadəsinə verilməsi həyata keçiriləcəkdir. Çünki, hər bir insan öz yurdunda, uşaqlıq, gənclik xatirələrinin, kənd icma həyat tərzinin nostaljisi ilə öz ata-baba yurduna dönmək arzusundadır. Bu motivasiya Böyük Qayıdışda dərin sosial-psixoloji çəkiyə malikdir. Ona görə də məcburi köçkünlər arasında keçirilən sorğularda respondentlərin kifayət qədər böyük hissəsi məhz öz ata-baba yurdlarına qayıtmaq istədiklərini birmənalı şəkildə qeyd edirlər.

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış prosesinə hər bir Azərbaycan vətəndaşının töhfə vermək imkanı vardır. Bu istiqamətdə sosial xidmət, sosial iş sferasında çalışan işçilərlə yanaşı, sosial iş və xidmət üzrə təhsil alan tələbələrin könüllü kimi fəaliyyət göstərmək üçün böyük potensialı vardır. İlk öncə öz yurdlarına qayıdacaq əhali arasında sosial iş aparmaq istiqamətində onların potensialından istifadə etmək məqsədəuyğun olardı. Sosial sahə mütəxəssisləri məskunlaşma ilə bağlı sosial təşəbbüslərlə çıxış etməli, müvafiq sosiomühəndis layihələr təqdim etməlidirlər. İnanırıq ki, işğaldan azd edilmiş ərazilərə böyük qaydış uğurla həyata keçəcəkdir. Çünki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün məsələlərə intellektual yanaşmanı əldə rəhbər tutur, xalqın potensialına həmişə istinad edir, qərarqəbuletmədə ictimai iştirakçılığa önəm verir. Odur ki, Prezident-xalq birliyi sayəsində işğaldan azad edilmiş ərazilərimizə böyük qayıdış uğurla həyata keçəcək, Azərbaycan bir daha "Biz birlikdə güclüyük!" şüarının hikmətinin gücü ilə dünyaya Günəş kimi işıq saçacaq!

Səbzəliyev Mahir Mirzəxan oğlu,
riyaziyyat elmləri doktoru, professor
Bakı Biznes Universiteti;
Səbzəliyeva İlhamə Mahir qızı,
fizika-riyaziyyat elmləri namizədi, dosent,
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

KLASSİK TİPLƏRƏ AİD OLMAYAN İXTİYARİ TƏK TƏRTİBLİ SİNQULYAR HƏYƏCANLANMIŞ DİFERENSİAL TƏNLİK ÜÇÜN SONSUZ ZOLAQDA QOYULMUŞ SƏRHƏD MƏSƏLƏSİNİN HƏLLİNİN ASİMPTOTİKASI

Bir fizika xarakteristikasından digər fiziki xarakteristikalarına keçidləri hamar olmayan bir çox real proseslər sinqulyar həyəcanlanmış diferensial tənliklər üçün sərhəd məsələlərinin tədqiqinə gətirilir. Belə məsələlərə həsr olunmuş işlərin sayı çoxdur. Lakin klassik tiplərə aid olmayan sinqulyar həyəcanlanmış diferensial tənliklərin tədqiqinə həsr olunmuş işlərin sayı çox azdır. [1] işində üç tərtibli bir sinif klassik

tiplərə aid olmayan diferensial tənlik üçün məhdud oblastda qoyulmuş sərhəd məsələsinin həllinin asimptotikasının yalnız ilk hədləri qurulmuşdur. [2]-[6] işləri də klassik tiplərə aid olmayan sinqulyar həyəcanlanmış diferensial tənliklərə həsr olunmuşdur.

Bu işdə $\Pi = \{(t,x) | 0 \le t \le T, -\infty < x < +\infty\}$ sonsuz zolağında aşağıdakı sərhəd məsələsinə baxılır:

$$L_\varepsilon u \equiv (-1)^m \varepsilon^{2m} \frac{\partial^{2m+1} u}{\partial t^{2m+1}} + \varepsilon \frac{\partial^4 u}{\partial x^4} + \frac{\partial u}{\partial t} - \frac{\partial^2 u}{\partial x^2} + au = f(t,x), \tag{1}$$

$$u\big|_{t=0} = \frac{\partial u}{\partial t}\bigg|_{t=0} = \cdots = \frac{\partial^m u}{\partial t^m}\bigg|_{t=0} = 0, \quad (-\infty < x < +\infty), \tag{2}$$

$$\frac{\partial^{m+1} u}{\partial t^{m+1}}\bigg|_{t=T} = \frac{\partial^{m+2} u}{\partial t^{m+2}}\bigg|_{t=T} = \cdots = \frac{\partial^{2m} u}{\partial t^{2m}}\bigg|_{t=T} = 0, \quad (-\infty < x < +\infty), \tag{3}$$

$$\lim_{|x| \to +\infty} u = 0, \quad \lim_{|x| \to +\infty} \frac{\partial u}{\partial x} = 0, \quad (0 \le t \le T). \tag{4}$$

Burada $\varepsilon > 0$, $a = const > 0$, $m -$ ixtiyari natural ədəd, $f(t,x) -$ isə verilmiş funksiyadır. İşdə məqsəd (1)-(4) sərhəd məsələsinin həllinin asimptotikasını qurmaqdır.

(1)-(4) sərhəd məsələsinin həllinin asimptotikasını qurmaq üçün iterasiya prosesləri aparılır. Birinci iterasiya prosesində (1) tənliyinin təqribi həlli

$$W = W_0 + \varepsilon W_1 + \cdots + \varepsilon^n W_n \tag{5}$$

şəklində axtarılır. (1) tənliyində u funksiyası əvəzinə W funksiyasının (5) ifadəsini yazıb, kiçik parametrin eyni üstlü dərəcələrinə nəzərən qruplaşdırma apardıqda naməlum $W_0, W_1, \cdots, W_n$ funksiyalarını təyin etmək üçün aşağıdakı diferensial tənliklər alınır:

$$\frac{\partial W_0}{\partial t} - \frac{\partial^2 W_0}{\partial x^2} + aW_0 = f(t,x), \tag{6}$$

$$\frac{\partial W_i}{\partial t} - \frac{\partial^2 W_i}{\partial x^2} + aW_i = f_i(t,x); \quad i = 1,2,\ldots,n. \tag{7}$$

Burada $f_i(t,x)$ məlum funksiyalar olub, aşağıdakı kimi təyin olunurlar:

$$f_i(t,x) = -\frac{\partial^4 W_{i-1}}{\partial x^4}; \quad i = 1,2,\ldots,2m-1;$$

$$f_i(t,x) = -\frac{\partial^4 W_{i-1}}{\partial x^4} + (-1)^{m+1} \frac{\partial^{2m+1} W_{i-2m}}{\partial t^{2m+1}}; \quad i = 2m, 2m+1, \ldots, n.$$

(6), (7) diferensial tənlikləri t dəyişəninə nəzərən bir tərtiblidirlər. Ona görə bu diferensial tənliklər üçün (2), (3) sərhəd şərtlərindən yalnız birindən istifadə oluna bilər. Biz (2)-dəki birinci sərhəd şərtindən istifadə edəcəyik. Onda birinci iterasiya prosesində $t = 0$ üzərində olan $m+1$ sayda (2) sərhəd şərtlərindən m saydası, $t = T$ üzərində olan m sayda sərhəd şərtlərinin hamısı itəcəkdir. İtən sərhəd şərtlərinin ödənilməsini təmin etmək üçün $t = 0$ və $t = T$ yaxınlığında sərhəd zolaq tipli

funksiyalar qurulmalıdır. $t=0$ yaxınlığında $t=\varepsilon\xi,\ t=T$ yaxınlığında isə $T-t=\varepsilon y$ əvəzləməsi apardıqda L_ε operatorunun aşağıdakı iki yeni ayrılışları alınır:

$$L_{\varepsilon,1}\equiv\varepsilon^{-1}\left\{(-1)^m\frac{\partial^{2m+1}}{\partial\xi^{2m+1}}+\frac{\partial}{\partial\xi}-\varepsilon\left(\frac{\partial^2}{\partial x^2}-a\right)+\varepsilon^2\frac{\partial^4}{\partial x^4}\right\},$$

$$L_{\varepsilon,2}\equiv\varepsilon^{-1}\left\{-\left[(-1)^m\frac{\partial^{2m+1}}{\partial y^{2m+1}}+\frac{\partial}{\partial y}\right]-\varepsilon\left(\frac{\partial^2}{\partial x^2}-a\right)+\varepsilon^2\frac{\partial^4}{\partial x^4}\right\}.$$

$t=0$ yaxınlığında sərhəd zolaq tipli funksiya $L_{\varepsilon,1}\eta=0$ tənliyinin təqribi həlli kimi

$$\eta=\varepsilon\left(\eta_0+\varepsilon\eta_1+\cdots+\varepsilon^{n+m-1}\eta_{n+m-1}\right) \tag{8}$$

şəklində axtarılır.

$t=T$ yaxınlığında sərhəd zolaq tipli funksiya $L_{\varepsilon,2}\psi=0$ tənliyinin təqribi həlli kimi

$$\psi=\varepsilon^{m+1}\left(\psi_0+\varepsilon\psi_1+\cdots+\varepsilon^{n+m-1}\psi_{n+m-1}\right) \tag{9}$$

şəklində axtarılır.

η funksiyasının (8) ayrılışına daxil olan η_j və ψ funksiyasının (9) ayrılışına daxil olan $\psi_j;\ j=0,1,\ldots,n+m-1$ funksiyaları analoji şəkildə təyin edildikləri üçün burada yalnız η_j funksiyalarının qurulması prosesi göstəriləcəkdir.

$\eta_j;\ j=0,1,\ldots,n+m-1$ funksiyaları üçün aşağıdakı diferensial tənliklər alınır:

$$(-1)^m\frac{\partial^{2m+1}\eta_0}{\partial\xi^{2m+1}}+\frac{\partial\eta_0}{\partial\xi}=0, \tag{10}$$

$$(-1)^m\frac{\partial^{2m+1}\eta_s}{\partial\xi^{2m+1}}+\frac{\partial\eta_s}{\partial\xi}=\frac{\partial^2\eta_{s-1}}{\partial x^2}-a\eta_{s-1}-\frac{\partial^4\eta_{s-2}}{\partial x^4};\ s=1,2,\ldots,n+m-1. \tag{11}$$

(6), (7) diferensial tənlikləri üçün x dəyişəninə nəzərən (4)-də yazılmış birinci sərhəd şərtində istifadə ediləcəkdir. t dəyişəninə nəzərən sərhəd şərtləri isə

$$\left(W+\eta\right)\big|_{t=0}=0 \tag{12}$$

bərabərliyindən tapılır və aşağıdakı şəkildədirlər:

$$W_0\big|_{t=0}=0,\ \ W_i\big|_{t=0}=-\eta_{i-1}\big|_{\xi=0};\ i=1,2,\ldots,n. \tag{13}$$

Qeyd edək ki, $W_i;\ i=0,1,\ldots,n$ funksiyaları (13) sərhəd şərtlərini ödədikdə $W+\eta$ cəmi (12) sərhəd şərtinin dəqiq deyil, aşağıdakı mənada təqribi ödəyəcəkdir:

$$\left(W+\eta\right)\big|_{t=0}=\varepsilon^{n+1}\left(\eta_n+\varepsilon\eta_{n+1}+\cdots+\varepsilon^{m-1}\eta_{n+m-1}\right)\big|_{\xi=0}. \tag{14}$$

(10), (11) diferensial tənlikləri üçün sərhəd şərtləri

$$\frac{\partial}{\partial t}(W+\eta)\Big|_{t=0}=\frac{\partial^2}{\partial t^2}(W+\eta)\Big|_{t=0}=\cdots=\frac{\partial^m}{\partial t^m}(W+\eta)\Big|_{t=0}=0 \qquad (15)$$

bərabərliklərindən tapılırlar. Bu şərtlər aşağıdakı kimi yazıla bilərlər:

$$\frac{\partial^k \eta_s}{\partial \xi^k}\Big|_{\xi=0}=-\frac{\partial^k W_{s+1-k}}{\partial t^k}(W+\eta)\Big|_{t=0};\ k=1,2,\ldots,m;\ s=0,1,\ldots,n+m-1. \qquad (16)$$

(16) bərabərliklərində $r<0$ və ya $r>n$ olduqda $W_r\equiv 0$ hesab olunur.

– nəqliyyat vasitələri üzrə qəza-xilasedici xidmətlərinə dil dəstəyinin verilməsi, Təyyarə ekipajının dil hazırlığı və s. daxildir.

İşğaldan azad olmuş şəhər və rayonlarımıza xarici investisiyanı cəlb etmək, sahibkarlığı inkişaf etdirmək məqsədilə əlverişli biznes mühitinin tərkib hissəsi kimi əhali arasında ingilis dilini bilmə səviyyəsinin artırılması da vacibdir. İngilisdilli olmayan ölkələrin bütün transmilli şirkətləri ingilis dilini korporativ dil kimi qəbul ediblər. Alman sosiolinqvisti Florian Kulmas özünün "Dil və iqtisadiyyat" kitabında dil və iqtisadiyyatın qarşılıqlı əlaqələrinin müxtəlif üsullarını, o cümlədən iqtisadi proseslərin dillərin yaranmasına, yayılmasına və ya məhv olmasına təsirini tədqiq edir. Müəllif yazır ki, çoxdillilik və sosial rifah qarşılıqlı əlaqəlidir, dil və pul müasir cəmiyyətlərdə oxşar funksiyaları həyata keçirir. Onun fikrincə, dilin əlyetərliliyi iqtisadi üstünlük qazandırır, çoxdilli cəmiyyətlərdə dillərin qeyri-bərabər yayılması iqtisadi bərabərsizliyə gətirib çıxarır. F.Kulmasa görə, dillərin iqtisadi dəyərini ölçmək mümkündür, çünki dillər daxili iqtisadiyyata malikdir, bu və ya digər dərəcədə xarici iqtisadiyyatın tələblərinə uyğunlaşırlar. O, hesab edir ki, dil öz-özlüyündə biznes üçün kommunikasiya mühiti olsa da, bəzən hansısa dili anlamadıqda, o, ticarət üçün maneəyə də çevrilir. F.Kulmas dövlətin və biznesin dillə bağlı xərclərini analiz edir. Müəllif həmçinin dilin əmtəə kimi xüsusiyyətlərini araşdırır. Çünki dillər iqtisadi sistem kimi çıxış edirlər. Sosial-iqtisadi ekologiya müəyyən dillər üçün əlverişli, digərləri üçün əlverişsizdir.

Dillərin yayılması iqtisadi şərtlərdən çox asılıdır. Linqvistika bazarında müəyyən dilin iqtisadi dəyər qazanması onun siyasi statusunun artması ilə bağlıdır.

İngilis dilini bilmə istər fərdi, istər korporativ, istərsə də dövlət səviyyəsində iqtisadi rəqabətin əsas amillərindən birinə çevrilib. Yüksək dərəcədə ingilis dilini bilmə səviyyəsinə malik olan ölkələrdə gəlirlər, həyat keyfiyyəti, innovasiyaların tətbiqi, biznesin inkişafı da yüksək səviyyədədir. İnsan potensialının inkişaf indeksi kimi həyat keyfiyyətinin göstəricilərinə də ingilis dilini bilmə səviyyəsi müsbət təsir edir.

Musayeva Gülşən Calal qızı, müəllim
Bakı Biznes Universiteti
Email: musayeva-gulshan@mail.ru

AZƏRBAYCANDA TURİZM VƏ XARİCİ DİL MƏSƏLƏLƏRİ

Turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biridir. Hər il minlərlə insan istirahət həvəskarları sırasına qoşulur və bununla da turizm getdikcə daha geniş vüsət alır. Son 15-20 ildə turizm respublikamızda insanların vərdiş etdikləri həyati tələbatına çevrilmişdir. Lakin Azərbaycanda turizmin tarixi göstərilən bu illərlə məhdudlaşmır. Əgər qədim səyahətləri xatırlasaq, aydın olur ki, Azərbaycan ərazisinə müxtəlif məqsədlər üçün səfər edən səyyahlar olmuşlar. Bunu nəzərə alaraq Azərbaycanda turizmin inkişaf mərhələlərinə nəzər salaq.

Hələ keçmiş Sovet məkanında ən çox üz tutulan yerlər həmin bölgələr idi. Belə ki, Şuşada çoxlu sayda sanatoriyalar yerləşirdi. Bununla yanaşı, pioner düşərgələri də var idi. 80-ci illərdə isə Ağdamda turizmin potensialı inkişaf etdirilib. Azərbaycanda son illər turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin ən böyük turizm potensialına malik Qarabağ və ətraf rayonları indiyədək işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar artıq yağı tapdağından azad olunub. Bu gün müzakirə olunan əsas mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Muzey eksponatları ilə birgə işğal altında qalsa da, 2001-ci ildən Ağdam rayonunun Qaradağlı kəndində Ağdam Tarix-diyarşünaslıq muzeyi yaradılıb, muzey Ağdamda fəaliyyətini bərpa etdikdən sonra öz şöhrətini geri qaytaracaq rayona gələcək, turistlərin ən çox ziyarət etdiyi məkan olacaq.

İşğaldan azad edilmiş ərazilərdə dini turların təşkili mənəvi dəyərlərin öyrənilməsi baxımdan turistlər üçün maraqlı olar. Qarabağda olan məscidlərin özəlliyi onların Aran mədəniyyətinin daşıyıcısı olmasıdır. Həmin məscidlərin tikintisində yerli tikinti materiallarından, istifadə edilməklə olduqca gözəl nəqqaşlıq nümunələri yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə yüzlərlə türbə mövcuddur. Qarabağda olan hər bir memarlıq abidəsi təbiətdən qopan ilmələrin daşlara hopmuş palitrasını göz önünə gətirir.

Bundan əlavə, Qarabağda xalça turları da təşkil etmək mümkündür. Qarabağda toxunan xalçalar dünyanın heç bir yerində toxunmur. İşğaldan azad edilmiş ərazilərimizdə müalicəvi turizmin, istirahət turizminin də inkişafı üçün əlverişli şərait var.

İşğaldan əvvəl Turşsu yaylasında böyük sanatoriya kompleksi olub. Şuşanın özündə böyük turizm potensialı var. Zümrüd meşələr, tarixi abidələr, İsa bulağı, istirahət evləri mehmanxana və muzeylər bu məkana vaxtilə gələn qonaqları heyran qoyub. Laçında Sarı Aşığın muzey kompleksi varidi ki, bu, aşıq sənətinə aid ilk muzey idi. Bu abidələrin bərpası bölgədə turizmə böyük töhfə verəcək. İşğaldan azad edilmiş ərazilərimizin turizm potensialı o qədər böyükdür ki, saymaqla bitməz. Bu ərazilərə turların təşkil edilməsi üçün ilk növbədə təhlükəsizlik təmin edilməlidir. Həmçinin bu ərazilərdə infrastruktur quruculuğu həyata keçirilməlidir. Təkcə Azıx mağarasına tur təşkil etməklə xarici turistlərin diqqətini bu ərazilərə cəlb etmək olar.

İşğaldan azad edilmiş ərazilərdə infrastruktur bərpa olunduqdan sonra ilk növbədə Azərbaycan vətəndaşlarının həmin ərazilərə səfərləri gözlənilir. Çünki hamımız illərlə həsrətində qaldığımız yerləri gəzmək, görmək arzusundayıq. İkinci böyük auditoriya potensialı xaricdə yaşayan Azərbaycan diasporu nümayəndələridir. 10 milyondan çox azərbaycanlı üçün Şuşanı görmək çox maraqlıdır.

Azərbaycanda turizmin inkişafı iqtisadiyyatın inkişafı ilə birbaşa əlaqəlidir. Turizm mühiti iqtisadi inkişafla birlikdə formalaşır və böyüyür. Azərbaycanın malik olduğu zəngin tarixi, mədəni və təbii resursların zənginliyi turistləri ölkəyə cəlb edir. Malik olduğu təbii zənginliklər (mineral sular, müalicəvi neft, müalicəvi duz, 11 iqlim qurşağından 9-nun mövcudluğu və. s), zəngin milli mətbəx, mədəniyyət nümunələri və s. ölkədə turizmin bir çox növünün-idman, işgüzar, qastronomik, çimərlik, müalicəvi, mədəni və s. inkişafı üçün şərait yaradır. Turizmin gəlirləri dövlət gəlirlərinin, əhali və sahibkarların gəlirlərinin tərkib hissəsidir. Bu səbəblərdən də ölkədəki turizm onun iqtisadi və sosial potensialının inkişafına və idarə olunmasına təsir edir. Qeyri-neft sektorunun inkişaf etdirilməsində turizm dövlət tərəfindən əsas prioritet sahələrdən biri kimi fərqlənir. Xüsusən də ölkənin regionlarında turizm fəaliyyətinin və bu sahədə məşğul sahibkarların inkişafı üçün mühit yaradır və xüsusi diqqət nəticəsində ölkə bu sahədən böyük gəlir əldə edə bilər. Azərbaycanda turizm sektorunun potensial göstəricisi əhalinin sayı, turizmin maddi-texniki bazası, turizm sektoruna ayrılacaq kapital qoyuluşunun həcmi ilə müəyyləşdirilə bilər.

Azərbaycanı dünya arenasına inteqrasiyasını təmin etmək və xarici iqtisadi əlaqələrini genişləndirmək üçün beynəlxalq dillərin rolu olduqca böyükdür. İqtisadiyyatın müxtəlif sahələri üzrə xarici ölkələrlə bağlanan müqavilələrin əsasında məhz xarici dil bilikləri durur. Azərbaycanın neft sənayesində olan uğurları beynəlxalq dilləri bilən mütəxəssislər sayəsində əldə olunmuşdur. Hər hansı bir dövlətin dünya arenasında tanınması üçün, ilk öncə dil siyasəti düzgün olmalıdır. Öz iqtisadiyyatını dünyada tanıtmaq və inkişaf etmiş ölkələrin texnikada olan yeniliklərini tətbiq etmək üçün xarici dillər çox vacibdir. Beynəlxalq təşkilatlara üzv olmaq birbaşa xarici dillərlə bağlı olan bir məsələdir.

İqtisadiyyatın bir sektoru olan turizm sahəsində də xarici dildə ünsiyyət çox vacibdir. Çünki artıq dünyanın hər yerində, eləcə də Azərbaycanda turizm üçün kifayət qədər iş yerləri mövcuddur. Dil turistlərlə anlaşmaq üçün çox vacibdir. İngilis dili hazırda beynəlmiləl dildir. Buna görə də turist müəssisələrinin əksəriyyətində işçilərin ölkənin yerli dili ilə yanaşı, həm də dünyanın hər yerində insanların istifadə etdikləri bir dilə çevrilmiş olan ingilis dilində də danışmağı işəgötürənlərin əsas tələblərindən biridir. İngilis dili müxtəlif ölkələrdən gələn qonaqlar üçün ən əsas ünsiyyət vasitə-

sidir. Əgər hər hansı bir oteldə və ya bir turizm müəssisəsində işə başlayan işçi ingilis dilində xidmət göstərməyi bacarırsa, onda müştərilər də hiss edəcək ki, həmin işçi hərtərəfli bacarıqlıdır və o, işinin öhdəsindən layiqincə gələcək. Bunun üçün turizm sektoru üçün əsas terminlər, leksik-semantik ifadələr vardır ki, bunlara da müxtəlif dialoqlar, rollu oyunlar və s. vasitəsilə yiyələnmək olar.

Tədqiqatçılar aşkar etmişlər ki, çoxdillilik iqtisadiyyat üçün ən önəmli faktordur. Məsələn, İsveçrə ÜDM-in 10% -ni çoxdilli irslə əlaqələndirir . Ölkədə dörd milli dil var: Alman, Fransız, İtalyan və Roman adlı qədim Latın əsaslı bir dil. Digər tərəfdən, İngiltərənin əhalisinin nisbətən dil biliklərinə görə hər il ÜDM-in 3,5% -ə bərabər olacağı təxmin edilir.

Eyni dildə danışmaq ünsiyyəti asanlaşdırır və əməliyyatları daha asan və şəffaf edir. Bununla dilin təsiri ortaq mədəniyyət, qanun normaları və ya ölçü vahidlərinin təsirinə bənzəyir. Ortaq bir dildə olmayan əməliyyatlara xas olan əlavə mürəkkəblik və anlaşılmazlıqlar kifayət qədər böyük ola biləcək xərclərin artmasını nəzərdə tutur. Nəticə etibarilə xarici dildə danışma qabiliyyəti müsbət fərdi iqtisadi cəhətlərə çevrilməlidir. Hər hansı iki ölkədə kifayət qədər insan eyni dildə danışsa, bir-birləri ilə daha asan ünsiyyət qura biləcəklər. Nəticə etibarilə bu iki ölkə arasında ticarət daha asan, daha ucuz və daha intensiv olacaqdır. Aydındır ki, müəyyən bir dildə ünsiyyət qurma qabiliyyəti, hər iki ölkədə də rəsmi dil statusuna sahib olub-olmamasından asılı olmayaraq, kifayət qədər geniş danışıldığı müddətdə ticarət axınlarına təsir göstərə bilər. Dünyada korporasiyalar öz bazarlarını ölkə hüdudlarından kənarda genişləndirməyə davam edirlər. Buna görə qabaqcıl dil bilikləri satış, marketinq, tədarük zəncirinin idarə edilməsi və ya ticarət əməliyyatının davamlılığını dəstəkləyən hər hansı bir mövqedə dəyərlidir. Hər bir vətəndaşın ölkənin iqtisadi inkişafında iştirak etməsi üçün səlahiyyət vermə vasitəsi olaraq xarici dil öyrənməsi zəruridir.

Gulnar Ferman Huseynova, teacher
Baku Business University
Email: huseynovagulnar1987@gmail.com

THE IMPORTANCE OF A FOREIGN LANGUAGE FOR SPECIALISTS IN THE TOURISM INDUSTRY

Tourism - this is not only a way of human cognition of the world, but also the most promising sphere of the economy, which contributes to the intensification of international contacts and the expansion of intercultural relations. However, not everything is so good on the labor market in this area, since both travel companies and the hospitality industry have a great need for professionally trained, highly qualified tourism managers and other specialists in the hotel and restaurant business, who must have good knowledge not only of management, tourism and economics, but they were fluent in one or even two foreign languages. Language is an integral part of the human mind and, therefore, only the interaction of all mental structures and processes (perception, understanding, memory) ensures its functioning.

A foreign language should become a tool for learning about other world cultures. Studying a foreign language, students gain knowledge about the history, culture, customs and traditions of the country of the target language.

Various aspects of the methodology of teaching a foreign language have always been and remain under the scrutiny of many scientists and researchers. However, the question of the meaning and goals of a foreign language in the professional activities of tourism managers remains insufficiently illuminated.

Today, a foreign language has become a necessary element in all spheres of human activity, from socio-economic, scientific and technical, agricultural and ending with artistic and cultural**. A tourism manager** is, first of all, a leader who not only supervises the work of other employees, but also has a communicative relationship with representatives of foreign companies. Communication for him becomes the main activity.

Taking this into account, a professionally oriented approach in teaching foreign languages is of particular importance, which provides for the development of students' skills in foreign language communication in non-linguistic universities. For specialists in the tourism industry, the necessary conditions for successful professional activity are awareness of the peculiarities of the communication process, possession of verbal and non-verbal communication techniques, communication strategies and communicative competence, which includes the ability to use a foreign language to achieve professionally significant goals. There is no doubt that in the 21st century a highly qualified specialist in any branch of the domestic economy should be able to work with informational Internet resources, and this, in turn, implies compulsory knowledge of a foreign language,

Considering the goals of teaching a foreign language, it is worth noting that this is a pre-planned result of pedagogical activity, which can be achieved with the help of other components of teaching such as: content, methods, conditions, teaching aids, etc., which are formed under the influence of the order of society and affect other training components.

The main goals of the educational process in a foreign language are educational, developmental and practical. **The educational goal** involves the formation of a cultural, tolerant personality, able to communicate freely with foreign partners. **The developmental goal is** aimed at developing attention, memory, logical thinking and business qualities of a future specialist. **The practical goal** is to teach the student to skillfully use in practice the acquired theoretical and practical knowledge of a foreign language and professional terminology during direct or telephone communication with representatives of foreign travel companies and hotel complexes. In other words, teaching a foreign language is not only the assimilation of a certain lexical, grammatical and syntactic material, but the simultaneous combination of language elements with cultural elements in teaching.

It is impossible to ignore the fact that the study of a foreign language has its own characteristics, which consist in a set of phonetic rules, grammatical forms, morphological and lexical units, terminology, in turn, is an integral part of complex skills: speaking, listening, reading and writing. An important feature of a foreign language is that mastering a foreign language follows the opposite path to the development of the native language. A child learns his native language, without

realizing it, by accident, and a foreign language - starting with the awareness and understanding of intent. Therefore, we can say that the development of the native language is bottom-up, while the development of foreign broadcasting skills is top-down.

Another feature is that language is both a means and a goal of learning. That is, learning a language at the initial stage is the goal, and later, the use of the acquired knowledge in more complex language situations turns it into a teaching tool. The next peculiarities of a foreign language is its "pointlessness", since it does not give knowledge about reality and "infinity", which means that you cannot learn the language completely.

From all of the above, we can conclude that tourism is a sphere of human activity in which communication is the most important, therefore, practical knowledge of a foreign language is extremely important in the professional activities of future specialists in the tourism industry.

Hacıyeva Arzu Rasim qızı, müəllim,
Bakı Biznes Universiteti
Email: a.haciyeva@mail.ru

İQTİSADİ İNKİŞAFIN TƏMİNATINDA XARİCİ DİLİN ROLU

İqtisadiyyat və istehsal qüvvələri, təhsil, elm və mədəniyyətin, insanların həyat səviyyəsinin müntəzəm olaraq keyfiyyət və struktur baxımından müsbət istiqamətdə dəyişməsi ilə xarakterizə olunan iqtisadi prosesdir. İqtisadi inkişaf həm də ictimai əlaqələrin inkişafını nəzərdə tutur və buna görə də tarixən formalaşmış texnoloji və maddi nemətlərin bölgüsünün müxtəlif sistemlərində bir-birindən fərqlənir.

Ölkənin iqtisadi inkişafının əsas göstəriciləri - əhalinin həyat səviyyəsi, iqtisadiyyatın rəqabət qabiliyyəti, ölkənin ümumi daxili məhsulu, ümumi milli məhsulu, adambaşına insan kapitalı və iqtisadi azadlıq indeksidir.

İqtisadiyyatın inkişafının əsas hərəkətverici qüvvəsi insan kapitalı və onun yaratdığı yeniliklərdir. İnsan kapitalı deyərkən, insanların təhsil, səhiyyə, elm, əmək şəraiti və həyat səviyyəsinin yüksəldilməsinə çəkilən xərclər nəzərdə tutulur.

XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etməkdədir. Bu mənada Azərbaycan da istisna deyildir. Qlobal, planetar xarakterli amillər ölkə həyatının, demək olar ki, bütün sahələrində - iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərə nüfuz edir. Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional (region ölkələrinə xas olan), yaxud ölkədaxili amillər mövcuddur ki, ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində onların da nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacibdir. Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın "müsbət yüklü" effektidir və getdikcə daha çox

ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Proqnozlara görə, yaxın və nisbətən uzaq gələcəkdə dünya iqtisadiyyatında artım məhz bu amilin təsiri nəticəsində baş verəcəkdir. Növbəti illərdə dünya üzrə ticarətin nisbətən daha yüksək sürətlə artacağı, qloballaşma ilə birlikdə regional inteqrasiyaların da genişlənəcəyi gözlənilir. Beynəlxalq ticarət, rəqabət, əqli mülkiyyət və ətraf mühitlə bağlı yeni standartların müəyyənləşəcəyi və bu istiqamətdə beynəlxalq təşkilatların rolunun güclənəcəyi ehtimal olunur. Beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və beləliklə, yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətə davamlılığının artacağı gözlənilir. Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaları və müqayisəli üstünlüyü olan yeni istehsal sahələrini formalaşdırmaları zəruridir.

Qloballaşan dünyada iqtisadi inkişafı xarici dilsiz təsəvvür etmək qeyri-mümkündür. Digər ölkələrin iqtisadi təcrübələri ilə tanışlıq, onlarla iqtisadi əlaqələrin formalaşdırılması dil faktoru olmadan mümkün deyildir. Xüsusən də, dünyaca qəbul olunmuş ümumdünya dilləri ölkələr arasında ən vacib ünsiyyət vasitəsidir. Bu səbəbdən də xarici dillərin tədrisi və öyrənilməsi öz aktuallığını qorumaqda və ildən-ilə artmaqdadır. Bu gün insanlar daha çox xarici dil öyrənməyə cəhd göstərir, hətta bir xarici dil ilə kifayətlənmirlər. Ölkəmizin iqtisadi və siyasi həyatında rus və ingilis dillərinin rolunu xüsusi qeyd etmək lazımdır ki, bu gün bu dillərin tədrisinə olan tələbat dəfələrlə artmış və artmaqdadır.

Əsədova Aysu Mərdan qızı, müəllim,
Bakı Biznes Universiteti
Email: aysu.celilova@list.ru

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ XARİCİ DİLİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azərbaycan xalqı tarixinin ən şanlı dönəmlərindən birini yaşayır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bütün dünyaya öz qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin canı, qanı bahasına azad olundu. Şanlı qələbəmizlə ərazi bütövlüyümüz təmin edildi.

Yuxarı Qarabağ və işğal edilmiş ətraf rayonlarımız tarixi-mədəni dəyəri, füsunkar təbiəti ilə yanaşı, yeraltı və yerüstü sərvətlərə, zəngin iqtisadi potensiala, geniş turizm imkanlarına malikdir. Həmin ərazilərin iqtisadi potensialının əsas parametrlərinə diqqət yetirsək görərik ki, Ermənistanın talançılığı, istismarı nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilib.

Qarabağda təhlükəsizlik təmin edildikdən, infrastruktur yeniləndikdən və demoqrafik məsələlər həll olunduqdan sonra turizmin təşkili üçün kompleks layihələr həyata keçirilməsi real görünür. Bu platformada dövlət, özəl sektor və alimlərin birgə səyi

sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalı, təbii və antropogen turizm resursları nəzərdən keçirilməlidir. Qarabağ əsasən dağlıq ərazi olduğundan, dağçılıq və alpinizm turizmini xüsusi qeyd etmək istərdim. Düşünürəm ki, Qarabağ təbiətinin zənginliyinə, qədimliyinə və tarixi-mədəni abidələrinə görə ekoturizm, etnoturizm zonası kimi inkişaf edəcək. Bu bölgələrdə turizmin inkişaf etməsi, birbaşa xarici dillərin öyrənilməsi və inkişaf etdirilməsi üçün yeni layihələrin yaradılmasını tələb edir. Şanlı Azərbaycan ordusunun 44 günlük Vətən Müharibəsi dünyanın hər yerində əks–səda doğurdu və insanların diqqətini çəkdi. Bu səbəbdən abadlaşdırma işlərindən sonra turistlərin bu bölgəyə axını gözlənilən prosesdir. Xarici dil biliklərinə malik kadrların və könüllü gənclərin həmin bölgələrə göndərilməsi, dil tədris edən müxtəlif tədris mərkəzlərinin yaradılması, xarici qonaqların dəvət edilməsi və s. bu prosesin bir hissəsi olacaq.

Azad edilən ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, işğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyacları müəyyənləşdirilməli, mövcud təhsil infrastrukturunun vəziyyəti qiymətləndirilməli və fəaliyyətinin təşkili ilə bağlı planlar hazırlanmalıdır. Bugünkü dövrdə xarici dil bilməyin əhəmiyyətini artıq kiçikdən böyüyə hər kəs başa düşür. İstər maliyyə, istərsə də sosial nöqteyi-nəzərdən, xarici dildə ünsiyyət qurmağımız insanlarla "həqiqi" əlaqə yaratmağa kömək edir və dilimizi daha yaxşı başa düşməyə imkan verir.

Uzunmüddətli perspektivdə düşündükdə işğaldan azad edilmiş ərazilərdə xarici dilin inkişaf etdirilməsi üçün imkanların yaradılması ümumi olaraq təhsilin və iqtisadiyyatın inkişafına müsbət təsir edəcək. İlk növbədə, təhsilin keyfiyyətinin artırılması məşğulluq və gəlir imkanlarının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Xarici dil biliyi fərdlərdə özünəinam, liderlik bacarığı və özünüinkişaf üçün lazım olan digər bacarıqları formalaşdırır.

Tədqiqatçılar çoxdilliliyin iqtisadiyyat üçün faydalı olduğunu qeyd edirlər. İşğaldan azad edilən torpaqlarımızda fərqli dilləri fəal şəkildə inkişaf etdirməklə həmin ərazilərdə, daha uğurlu ixracatdan daha yenilikçi işçi qüvvəsinə qədər ölkə iqtisadiyyatı üçün mühüm olan bir sıra uğurlar əldə etmək olar.

Xarici dilin tədrisi və öyrənilməsi artıq dünyada ən geniş yayılan bizneslərdən biridir. Bunun səbəblərindən biri olaraq xarici dilin ölkələr arasında ticarət əlaqələrini, iqtisadiyyatı və mədəni əlaqələri gücləndirməsidir. Məsələn, sübut olunmuşdur ki, dünyada birdən çox dil bilən şəxslərin əmək haqqı digər şəxslərə nisbətən daha yüksəkdir. İşğaldan azad edilmiş ərazilərdə bu meyar əsas götürülərək gənc kadrların dil öyrənmə potensialını artırmaq və motivasiya etmək üçün dəyərləndirilə bilər. Şuşada ən qısa zamanda keçirilməsi planlanan beynəlxalq musiqi festivalında müxtəlif ölkələrdən olan insanlar iştirak edəcəkdir. Bu festival yenicə azad edilmiş ərazilərdə xarici dilin inkişafı üçün təkan rolunu oynayacaq. Şuşa Azərbaycan mədəniyyətinin mərkəzi hesab olunduğuna görə bundan sonra burada beynəlxalq festivalların, digər tədbirlərin tez-tez keçirilməsi gözlənilir. Belə xarici tədbirlər ölkədə dil tədrisinin zəruri olduğunu bir daha göstərir.

İşğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Bu ərazilərin bərpası ilə çoxlu sayda yeni iş yerləri açılacaq. Belə ki, yeni infrastruktur layihələrinin həyata keçirilməsi vətəndaşlarımızın işlə təminatına müsbət təsir göstərəcək. İqtisadiyyatın və təhsilin inkişafı yeni iş yerlərinin açılmasına və xarici dilin inkişafına zəmin yaradacaq.

Safiyya Yasin Gulamova , teacher
Baku Business University
Email: safi4883@gmail.com

THE STUDY ON THE IMPORTANT ROLE OF FOREIGN LANGUAGE ECONOMY FOR THE DEVELOPMENT OF KARABAKH FOREIGN TOURISM INDUSTRY

In recent years, everyone knows that development of the tourism sector of our country. When we talk about the potential of tourism, we often hear the opinion that "if we still had the occupied lands, how many tourists could we attract." Our occupied lands have already been liberated and steps are being taken to develop tourism in all our lands. Karabakh tourism has very rich resources for the region of Azerbaijan. Foreign tourism is a leading industry in the development of tourist industry.

Foreign language economy is an important part of foreign tourism. Karabakh has the rich tourism resources, and the tourism cooperation between Karabakh and other countries is highly correlated, and there are a lot of cooperation and consensus, strong folk impetus, and great potential and space for development. But the vulnerable openness affects the effective cooperation between Karabakh and other countries. Therefore, with the help of economic influence on improving openness and promote the development of Karabakh foreign-related tourism.

Cultivating foreign language talents is related to the internationalization degree and influence of its tourism industry. It is an important part of the strategy of talents developing in Karabakh . There are five targets of oral English and translation ability, interpersonal communication and coordination ability, independent analysis, problem solving ability, cross-cultural communication ability. Market needs international talents to replace the traditional foreign language tool-styled person. Here, the internationalization talents refer to the people who are familiar with national and cultural tourism laws and regulation, familiar with the national tourism market development dynamic, and have international tourism professional skills, know international travel agencies and international hotel, familiar with management knowledge of higher foreign-related tourism. More important they are professional foreign language applied talents. International foreign language professionals can promote development of Karabakh international travel and cooperation effectively. They can create new growth point for Karabakh international travel service and change the short board of internationalization development, and also promote Karabakh foreign tourism market as an omni-directional, multilevel and wide-range pattern. At the same time, it is necessary to train foreign language tourism profess-sionals regularly in our province, and focus on increasing the quality of tourism service consciousness, standard consciousness and brand consciousness. At last, we should advocate wisdom tourism and improve the efficiency of Karabakh foreign-related tourism economy.

Ibrahimli Ulviyya Bakhtiyar, teacher
Baku Business University
Email: ibrahimliulviyye@gmail.com

THE IMPORTANCE OF FOREIGN LANGUAGES IN THE DEVELOPMENT OF TOURISM

In 1989-1993, Armenia occupied Nagorno-Karabakh and the surrounding Lachin, Kalbajar, Gubadli, Zangilan, Jabrayil, Aghdam (most of the regional center and territory) and Fuzuli (most of the regional center and territory) administrative districts belonging to the Republic of Azerbaijan. Looting and ineffective exploitation, carried out from the beginning of the occupation to the present day, has reduced the region's infrastructure to zero. For this reason, first of all, future restoration work should include the creation of general infrastructure (roads, gas, water, electricity, communications) and basic housing conditions, and then it should cover the implementation of economic development projects.

It is not a secret that 2020 was a severe year for all countries in the world. The pandemic and the global economic crisis have had a serious impact on the economic condition of most countries that were forced to postpone their planned large-scale policies and balance their costs. However, despite any economic, social and health difficulties, material damage caused by the war, as well as numerous and varied financial costs, the state and people of Azerbaijan repulsed the aggression and launched a counter-offensive operation to liberate their lands.

We understand the importance of the role of foreign languages in the development of international tourism and cross-cultural communications. We live in the 21st century that is the century of international travel and globalization. Each country has its own history, culture and language. It is importantly to note, that 'culture' is not static. Each community must be researched on an individual basis and as a sovereign entity differing from other First National in land, language, tradition, population, government etc. Each country has its customs in communication. National differences have great importance in communicational process. Participants of international communication have the common rules. Never the less national differences can play a very important role in business relation. Understanding how culture may affect a person or communities' character, will most certainly dive you an edge in business interactions and cross-culture communication.

Foreign languages are one of the most important factors in the development of the international tourism. All the languages mentioned above, except Arabic, are the main languages of Europe and English, French, and Russian are the main languages of the United Nations.

What does the international tourism mean? The international tourism is a system of traveling and tourist exchanges, and tourist movements from one side to another as well. Many people have always travelled to distant parts of the world to see great buildings or other works of art; to learn new languages, or to taste new cuisine. Lots and lots of people who do not want to travel and prefer to stay at home are forced to use a huge number of foreign words in their everyday speech. For example, every time

when we go out, we can hear such foreign words as: internet cafe, fitness club, show, supermarket, department, office, cottage, townhouse, manager, etc. Whenever we open a newspaper or a magazine, we can read these words: summit, congress, business, brand, casting, monitoring, blockbuster, provider, designer; whenever we come to work, we can hear as well summit, computer, fax, scanner, printer, image maker, supervisor, merchandiser, etc. And if you drop in at any hotel in any country in the world, you cannot help but hear many foreign words, especially English and French, for the simple reason - the French model of hospitality is one of the oldest and the most luxurious of all existing hotel business models. That is why, every time you stay in the hotel, you can hear: concierge, receptionist, doorman, restaurant, lobby bar, hall, executive director, general manager and many other words. Today, in the early 21st century, international tourism is the most fast-growing industry in the world. As of 2000, the number of people working only in hotel business exceeded the mark of 200 thousand people, but in ten years, this number will have been at least tripled. Whenever we come to work for a hotel, the first question that we hear is "What languages do you speak?", "How many languages do you speak and what is the level of your foreign languages?"

All these questions you can also hear if you want to apply for a tour company or a prestigious restaurant. If you want to be a waiter in a restaurant, you need to know all the names/titles of all the dishes and drinks served in this restaurant, and what is more many of them have foreign names. Therefore, you should know how they are translated into Russian. Thus, even a waiter in a good restaurant should know one, and preferably two foreign languages at a good level. A foreign language for specialists of any profession is a means of communication with representatives of different cultures. Besides knowing foreign languages, it is necessary to remember about cultural awareness. Increasing cultural awareness means to see both the positive and negative aspects of cultural differences. Cultural diversity could be a source of problems, in particular when the organization needs people to think or act in a similar way. Diversity increases the level of complexity and confusion and makes agreement difficult to reach. On the other hand, cultural diversity becomes an advantage when the organization expands its solutions and its sense of identity, and begins to take different approaches to problem solving. Diversity in this case creates valuable new skills and behaviors. This is very important for specialists in the sphere of tourism and hospitality who daily have to deal with people from different countries of the world. Thus we come to the conclusion that foreign languages and cultural awareness are the most important factors in the developing of international tourism. Nowadays there are lots of languages and dialects (only in Africa there are more than thousand ones), but if you know the basic languages you will be able to travel all over the world and also you will be able to understand local inhabitants of these countries. And they will be able to understand you. As mentioned above international tourism is an industry in which employed millions of people of different nationalities. This is the reason why knowledge of foreign languages and cross-cultural communication is extremely important in the work.

Ahmedova Shabnam Aghasi, teacher
Baku Business University
Email: sebnem.ehmedova.2016@gmail.com

THE ROLE OF LANGUAGE IN SHAPING THE INTERNATIONAL CULTURAL TOURISM SECTOR

Tourism sector in Azerbaijan is developing day by day, becoming one of the most important sectors of the economy. The rich historical, cultural and natural heritage of the country attracts visitors from all over the world. Untouched nature, mineral springs, the world's only oil field treatment – naphthalene, a unique ancient architecture, unique culture, cuisine, and more contribute to the formation in Azerbaijan of all types of tourism: business, sport, medical, cognitive, hunting, exotic, beach and even gastronomic. Azerbaijan is a territory of 9-out of 11 of the world's climatic zones. Climate of our country enables to organize summer and winter holidays. Very common are ecological tours to Azerbaijan, which include visits to nature reservations, trekking and climbing routes.

International tourism as a source of both direct and indirect incomes of the state encourages the development of different sectors not specific to the tourism infrastructure, but through the multiplier effect. The development of tourism in Azerbaijan is constrained by a number of factors. The role of language in shaping tourism sector is the main factor. As we know, language is the communication of thoughts and feelings through a system of arbitrary signals, such as voice sounds, gestures, or written symbols. Tourism is a massive multilingual phenomenon.

Sociolinguistics and discourse analysis, that primarily deal with discourse and communication, have only fairly recently recognized the domain of international tourism as a relevant area of study. The main focus would be on the effect that the difference in the spoken or native language of the tourists and the hosts has on the international (cultural) tourism experience. This knowledge is significant for many reasons. First, language is an intricate part of the culture of a place and is inseparable from it. To experience a place's culture authentically needs an acknowledgment of the differences in different cultures of the world, including their language. Second, in spite of recognizing the relation of language to cultural tourism, researchers have not yet studied the role that language plays in meeting the expectations of the tourists, and thus shaping the tourism experience and influencing tourist satisfaction. Third, the knowledge of how the phenomenon of language and its variability affects tourism experience is important to provide insights for further research. This knowledge can also be used by tourism planners and managers to address problems involving tourist satisfaction. To be able to understand the role that language plays in shaping tourist

experiences, it was felt that these experiences must be recounted by the tourists to enable an insight into the tourist psyche and perception.

In addition, communication skills are an important element of hospitality industry. Understanding of performance expectations are keys to the achievement of tourist satisfaction. Good oral and written communication skills are the top skills important to hospitality practitioners at different position levels. Good English communication during the study will add value to students' education. According to that fact the hospitality program itself will encourage critical thinking and for example tourism problem solving when it is necessary. In the tourism industry supply and demand side must communicate perfectly in order to ensure quality and needed performance standards. In the business tourism practice oral communication is a bit higher than written communication, but both categories are rated high. Foreign languages play an important role in global hospitality management. The rapid development of the tourism and hospitality industry can directly infuence the English language, which is the most widely used in international tourism. Employees who work in the tourism and hospitality industry are aware of its importance and need to have a good command of English in their workplace. For this reason, English for tourism and hospitality has been categorized under English for specifc purposes (ESP), and is an important and dynamic area of specialization within the feld of English language teaching and learning. International research has indicated their participation in the raising of customer lifetime value for the hospitality industry as well as of successful careers for future management personnel. Fluency in more than one foreign languages is a competitive advantage in the global hospitality market taken for granted the underming of other tourism occupational skills by fluency in foreign languages and intercultural competence as proved in the international literature.

From all of the above, we can conclude that Language profciency is essential in all professional felds, perhaps all the more so in the tourism and hospitality industry due to its specifc nature and concepts.

Bölmə III. Gənc tədqiqatçıların elmi araşdırmaları

Section III. Scientific Works of Young Researchers

Секция III. Научные исследования молодых исследователей

Əzizov Əziz Abduli oğlu, dissertant,
Azərbaycan Respublikasının İqtisadiyyat
Nazirliyi yanında Dövlət Vergi Xidməti
Bakı şəhəri, Lokal Gəlirlər Baş İdarəsi
Email: mr.azizov27@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA İKT-nin ROLU

İnformasiya və rabitə sahəsindəki inkişaf ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayır və iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha qabarıq şəkildə nəzərə çarpır. Mövcud İKT sahələrinin intensiv və yüksək səviyyədə inkişafını, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələndirmək olar.

Bu gün Azərbaycan Respublikasında İKT sahəsindəki fəaliyyət Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Onun 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur.

XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra əsas sahə hesab olunan İKT sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir.

Müasir rabitə və informasiya texnologiyaları ölkənin hərtərəfli inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar açır.

2003-cü il dekabrın 10-12-də Cenevrədə BMT və Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən İnformasiya Cəmiyyəti üzrə keçirilən Ümumdünya Sammitində Prezident İlham Əliyev nitq söyləmiş, Azərbaycanda İKT-nin inkişaf etdirilməsi sahəsində dövlət siyasətinin əsas prinsipləri və Milli fəaliyyət Proqramının başlıca istiqamətlərindən bəhs etmişdir.

Son illər ərzində respublikada rabitə və informasiya texnologiyaları sahəsinin inkişafının sürətləndirilməsi, bu sahə üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılması, telekommunikasiya və poçt xidmətləri bazarının daha da təkmilləşdirilməsi və özəl sektorun inkişafı məqsədilə mühüm işlər görülmüşdür. 2004-cü ildə "Poçt rabitəsi haqqında", "Elektron imza və elektron sənəd haqqında", 2005-ci ildə "Telekommunikasiya haqqında", "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Gənclərin yüksək intellektə sahib olması, dünyada baş verən yeniliklərə və elmə malik olması üçün ümumtəhsil məktəblərinin kompüterləşməsi layihəsi həyata keçirilməkdədir.

Mövcud potensialdan səmərəli istifadə edilməsi və onun inkişaf etdirilməsi, rabitə və informasiya texnologiyaları sahəsinin təşkilati, hüquqi, texniki, kadr baxımından

modernləşdirilməsi, İKT sənayesinin formalaşdırılması, bu sahəyə yeni investisiyaların cəlb edilməsi və sahibkarlığın genişləndirilməsi, azad bazar və sağlam rəqabət prinsiplərinin gözlənilməsi, sosial əhəmiyyətli layihələrin həyata keçirilməsi və nəticədə Azərbaycanda informasiya cəmiyyətinə keçidin təmin edilməsinə yönəlmiş mühitin formalaşdırılması İKT sektorunda aparılan fəaliyyətin ana xəttini təşkil etdi.

Ölkəmizdə enerji sahəsindən sonra informasiya texnologiyaları daha çox inkişaf etmiş qeyri-neft sektorudur. Ölkəmizdə İKT sahəsində uğurla həyata keçirilən dövlət siyasəti və xüsusən də bu sahəyə Prezident İlham Əliyevin diqqət göstərməsi dünyanın aparıcı İKT şirkətlərinin Azərbaycana böyük maraq göstərməsinə səbəb olur. Bu şirkətlərin rəhbərlərinin ölkəmizə səfərləri və 2007-2008-ci illərdə Davos İqtisadi Forumunda "Microsoft", "Cisco" və "İntel" kimi dünyamiqyaslı şirkətlərin prezidentlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşləri bir daha göstərir ki, Azərbaycanın İKT sektoru potensial investorların diqqət mərkəzindədir və bu sahədə geniş əməkdaşlıq imkanları mövcuddur.

Regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün İKT sahəsinin genişləndirilməsi üçün böyük imkanlara malikdir. Cəmiyyətimiz bu imkanlardan maksimum bəhrələnərək, dünya birliyinə inteqrasiyanı özünün ən başlıca vəzifəsi kimi görür.

2005-ci ildən Azərbaycan hökuməti ilə Dünya Bankı "Maliyyə xidmətlərinin inkişafı" birgə layihəsini həyata keçirir. Bu layihə müasir informasiya texnologiyalarının tətbiqi ilə poçt sisteminin yenidən qurulmasını və qeyri-ənənəvi, yeni tipli elektron xidmətlərin göstərilməsini nəzərdə tutur.

Ölkəmizdə yüksək texnoloji tutumlu və yüksək rəqabətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunu genişləndirilməsi, infrastrukturun modernləşdirilməsi, sahə üzrə iqtisadi-təşkilati islahatların aparılması, e-imzanın tətbiqi üçün Milli Sertifikat Xidməti Mərkəzinin və Milli Superkompüter Mərkəzinin yaradılması, e-hökumətin formalaşdırılması üçün müxtəlif layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Həmçinin, Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edəcək daha bir neçə perspektiv layihəyə də hazırda baxılmaqdadır. Onların sırasında olan milli süni peyk layihəsi ölkəmizin telekommunikasiya və teleradio yayımı tələbatını ödəməklə yanaşı, region ölkələrinə xidmətlər göstərməyə imkan verməklə, ölkəmizdə kosmik sənayenin inkişafı üçün əlverişli şərait yarada bilər.

Tarixi İpək yolunun keçdiyi Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiya ölkələrini birləşdirən "Qərb-Şərq yüksəksürətli informasiya magistralı"nın texniki-iqtisadi əsaslandırılması layihəsi üzərində də iş aparılır. Bu magistral İKT-nin ən çox inkişaf etdiyi dünyanın iki nəhəng regionunu – Qərbi Avropanı və Şərqi Asiyanı birləşdirərək, magistral üzərində yerləşən, qonşu olan və həmin regionlarla müqayisədə zəif inkişaf etmiş təxminən 20 ölkəni əhatə edəcəkdir. Layihə Azərbaycanın coğrafi mövqeyindən, inkişaf səviyyəsindən və başlıcası, onun regionda aparıcı iqtisadi potensiala malik olmasından asılı olaraq ölkəmizdə beynəlxalq kommutasiya mərkəzinin və qlobal informasiya bankının yaradılmasını nəzərdə tutur. Mütəxəssislərin fikrincə, bu layihənin reallaşması dünya miqyasında informasiya texnologiyalarının genişmiqyaslı tətbiqinə və ümumiyyətlə, regional iqtisadi inkişafa yeni təkan verəcəkdir. İnanırıq ki, Azərbaycanın siyasi və iqtisadi nüfuzunu yüksəldən nəhəng enerji və nəqliyyat layihələrinin sırasına dövlətimizin başçısının təşəbbüsü ilə yeni bir layihə – "Qərb-Şərq yüksəksürətli informasiya magistralı" da daxil olacaqdır.

Dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsi, əhali, biznes qurumları ilə, həmçinin öz aralarında əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsi məqsədi ilə informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi dünya təcrübəsində «elektron hökumət» («e-hökumət») anlayışı ilə adlandırılmışdır.

«E-hökumət» ideyası son 10-15 ildə bütün dünyada geniş vüsət tapmış və özünü təcrübədə tam doğrultmuşdur. Müxtəlif ölkələrdə «e-hökumət» üzrə strategiya, metodika və fəaliyyət planları qəbul edilmiş və icra edilməkdədir, beynəlxalq qurumlar bu prosesə ciddi diqqət yetirir, maliyyə yardımları edir, hətta qlobal xarakter almış bu prosesi bir qədər də sürətləndirmək üçün ümumdünya tədbirləri, o cümlədən reytinqlərin tərtibatını həyata keçirir.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi respublikada İKT-nin inkişafı üzrə dövlət siyasətinin icrasına məsul qurum və Milli Strategiyanın həyata keçirilməsi üzrə görülən işlərin əlaqələndiricisi olaraq, bu istiqamətdə görülən işlərdə şəffaflıq prinsipini həyata keçirməyə, istifadəçiləri informasiya ilə təmin etməyə imkan verən rəsmi informasiya portalı hazırlamış, onu rus və ingilis dillərində istifadəyə vermişdir. Burada təqdim olunan normativ hüquqi aktlar, xidmətlərin qiymətləri, standart sənədlərin elektron nümunələri, fəaliyyət xəbərləri, videoqrafik və digər materiallar hər bir dövlət orqanının internet informasiya resursu üçün əyani misaldır.

Artıq elektron vergi bəyannamələrinin təqdim edilməsi, abituriyentlərin və magistrlərin qəbul imtahanlarına, dövlət qulluğuna qəbul ərizələrinin verilməsi, seçici siyahılarının dəqiqləşdirilməsi, elektron sağlamlıq kartlarının tətbiqi, elektron məktubla müxtəlif dövlət orqanlarına müraciətlərin edilməsi, məlumatların alınması həyatımızın reallığıdır.

Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafı yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələnir. XXI əsrdə Azərbaycanda informasiya cəmiyyətinə keçid və onun qurulması, elektron hökumətin formalaşdırılması və intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi ölkənin sosial-iqtisadi həyatına son illər daha ciddi nüfuz etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılmışdır. Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Hazırda ölkədə 20 sayda "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir.

Respublikada beynəlxalq təcrübə əsasında və yerli şərait nəzərə alınmaqla, "e-hökumət"in fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edən dövlət reyestrləri yaradılmaqdadır. Əhalinin reyestri, daşınmaz və daşınan əmlakın reyestrləri, normativ aktların reyestri, ünvan reyestri, inzibati-ərazi bölgü reyestri, hüquqi şəxslərin reyestri və

digər bir çox vacib olan reyestrlərin formalaşdırılması respublikada dövlət orqanlarının fəaliyyətində keyfiyyət yüksəlişinə səbəb olacaqdır. Bu reyestrlərdə hər bir şəxsə aid olan məlumatların ümumi qaydada qeydiyyatının aparılması gələcəkdə onların fəaliyyətinin əlaqəli təşkilinə, vətəndaşlara xidmət göstərilməsində "bir pəncərə" prinsipinin tətbiqinə, əhalinin dövlət orqanları ilə təmaslarının sadələşdirilməsinə, daha münasib formaya çevrilməsinə və daha çevik həyata keçirilməsinə şərait yaradacaqdır.

Kərimova Şəbnəm Mərdan qızı, müəllim,
Bakı Biznes Universiteti
Email: e.shebnem@mail.ru

DAYANIQLI INKIŞAFI XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏR

Hazırda dünya ölkələri dinamik inkişaf edir və hər bir ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası tədqiqatçılar qarşısında yeni-yeni problemlər qoyur. Bu problemlərdən ən əsası inkişafın dayanıqlılığı, davamlılığı və ya təhlükəsizliyi problemidir. Bu problemin həlli üçün əsas konsepsiyalar və göstəricilər sistemi dəqiqləşdirilir, onların statistikasının təşkili üçün ölkələrin təcrübəsi öyrənilir.

Araşdırmalar göstərir ki, "davamlı inkişaf" termini ilk dəfə BMT-nin Ətraf mühit və inkişafa dair Beynəlxalq Komissiya - Bruntland komissiyası tərəfindən 1987-ci ildən işlədilməyə başlamışdır [1]. Hal-hazırda isə ümumi yanaşmaya görə davamlı inkişaf dedikdə, indiki nəslin tələbatının gələcək nəslin tələbatlarına toxunmadan daha dolğun şəkildə ödənilməsi başa düşülür.

Dövlətimiz Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir[2].

"Azərbaycan Respublikasının Dayanıqlı İnkişafı üzrə Milli Əlaqələndırmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixində Fərmanı olmuşdur. Fərmanda qeyd edilmişdir ki, Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmiz də yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlərin həyata keçirilməsi məqsədi ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" hazırlanaraq təsdiq edilmiş və uğurla icra olunmuşdur. Azərbaycan ötən illər ərzində Minilliyin inkişaf Məqsədləri üzrə bir çox hədəfləri, xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə etmişdir [2].

Dayanıqlı inkişafı xarakterizə edən göstəricilər Avropa İttifaqının Statistika Bürosunun (avrostat) göstəriciləri əsasında hazırlanmışdır. Göstəricilər hər biri altbölmədən ibarət 10 mövzu üzrə qruplaşdırılır: [3].

1. Sosial-iqtisadi inkişaf;

2. Dayanıqlı istehlak və istehsal;
3. Sosial tendensiyalar;
4. Demoqrafik dəyişikliklər;
5. Səhiyyə;
6. İqlim dəyişikliyi və enerji;
7. Nəqliyyatın davamlı inkişafı;
8. Təbii resurslar;
9. Qlobal tərəfdaşlıq;
10. Səmərəli edarəetmə.

Dayanıqlı inkişafı xarakterizə edən iqtisadi, sosial və ekoloji, demoqrafik və s. göstəricilər sistemi aşağıda verilir:

Sosial-iqtisadi göstəricilər: əhalinin bir nəfərinə düşən real ÜDM, bir nəfərə düşən regional ümumi daxili məhsulun paylanması, xalis milli gəlir, ev təsərrüfatlarında yığımın (qənaətin) artım sürəti, tədqiqat və işləmələrə çəkilən xərclər, real effektiv valyuta məzənnəsi, innovasiyaların dövriyyəsi, iqtisadiyyatın enerji tutumu, məşğulluq səviyyəsi, işsizlik səviyyəsi, material xərclərinin tərkibi, məişət tullantıları və onların zərərsizləşdirilməsi, iqtisadi fəaliyyət növləri üzrə təhlükəli tullantıların əmələ gəlməsi və s.

Sosial göstəricilər: yoxsulluq riskində olmanın davamlılığı, sosial transferlər çıxılmaqla əhalinin cinsləri üzrə yoxsulluq, sosial transferlər çıxılmaqla əhalinin yaş qrupları üzrə yoxsulluğu, ev təsərrüfatlarının tipləri üzrə yoxsulluq, yoxsulluq dərinliyi, gəlirlərin paylanması, iqtisadi aktivliyi aşağı olan ev təsərrüfatlarında yaşayan yoxsul əhali, əhalinin cinsləri üzrə uzunmüddətli işsizlik, əmək haqqına görə gender bərabərsizliyi, malik olduğu ən yüksək təhsil səviyyəsi üzrə yoxsulluq, yaş qrupları üzrə təhsili aşağı səviyyəli olan əhali, fasiləsiz təhsil, oxumaq savadı az olan şagirdlər, fiziki şəxslərin kompüterdən istifadə bacarığı, fiziki şəxslərin internetdən istifadə bacarığı, təhsilə çəkilən dövlət xərcləri.

Demoqrafik göstəricilər: 65 yaşda gözlənilən ömür uzunluğu, ümumi nəsilvermə (fertillik) əmsalı, ümumi miqrasiya əmsalı, yaşlı əhalinin məşğulluq səviyyəsi, yeni nəslin əvəzlənmə səviyyəsi, sosial transfertlər çıxılmaqla ahıl əhali üzrə yoxsulluq, əmək qabiliyyətli əhalinin ömür uzunluğu, yaşlıların asılılıq əmsalı, yaşlıların asılılıq əmsalının proqnozu, pensiya xərclərinin proqnozu, qocalara qulluq üzrə xərclər.

Səhiyyə göstəriciləri: əhalinin cinsi üzrə ömür uzunluğu, əhalinin cinsi üzrə xroniki xəstəliklərdən ölüm halları, əhalinin cinsi üzrə 65 və daha yuxarı yaş üçün ömür uzunluğu və s.

İqlim dəyişikliyi göstəriciləri: enerji istehlakından yaranan istixana qazlarının havaya atılma intensivliyi, istixana qazlarının havaya atılması proqnozu, havanın orta temperaturu.

Enerji göstəriciləri: yanacaq növləri üzrə enerji istehlakı, bərpa olunan enerji mənbələrindən elektrik enerjisinin istehsalı, nəqliyyatda istehlak olunan yanacağın tərkibində bərpa olunan enerji növlərinin payı, istilik və elektrik enerjisinin birgə istehsalı, enerjinin mövcudluğu dərəcəsi.

Nəqliyyat göstəriciləri: yükdaşımaların həcminin ÜDM-ə nisbəti, sərnişin daşınmasının həcminin ÜDM-ə nisbəti və s.

Təbii resurslar: biomüxtəliflik, quşların sayının dəyişmə indeksi, yerüstü və yeraltı suların ümumi su ehtiyatlarında payı, şəhərlər üzrə çirkab suların təmizlənmə səviyyəsi və s.

Qlobal tərəfdaşlıq: inkişaf üçün rəsmi yardımların Ümumi Milli Gəlirdə (ÜMG) payı, mal qrupları üzrə inkişaf etmiş ölkələrdən idxal, mal qrupları üzrə inkişaf etmiş ölkələrə ixrac, kənd təsərrüfatına ayrılmış subsudiyaların həcmi, inkişaf etməkdə olan ölkələrə edilmiş yardımların həcmi.

Səmərəli idarəetmə: büdcə kəsiri, fiziki şəxslərin elektron hökumətdən istifadəsi, ekoloji, əmək və sosial ödəmələrin ümumi ödəmələrin həcmində payı, vətəndaşların dövlət idarəetmə institutlarına etimad səviyyəsi.

Aydındır ki, yaranmış ekoloji problemlər iqtisadçıların (istehsalçıların və həmçinin istehlakçıların) qarşısına yeni məsələlər qoyur. Bu məsələlərdən biri də ekoloji məhsullardan səmərəli istifadə, ÜDM–ə ekoloji məhsulun minimumlaşdırılmasıdır. Çünki təbii ehtiyatlara (ekoloji məhsullara) qənaət edilməzsə, yeraltı və yerüstü sərvətlər gələcək nəsillər üçün mühafizə edilməzsə, iqtisadiyyatın davamlı inkişafı mümkün deyildir. Hətta ən mühüm ekoloji məhsul olan ərzaq və enerji daşıyıcıları tükənər. Bazar iqtisadiyyatı şəraitində ekoloji məhsulların təklif və tələb (istehsalı, idxalı, ixracı, aralıq istehlakı, son istehlakı və s.) göstəricilərinin keyfiyyətli statistikası düzgün siyasətin hazırlanması üçün əsas şərtlərdən biridir.

Əhalinin sayı artdıqca dövlət tərəfindən sosial-iqtisadi vəziyyətin sabitliyini saxlamaq üçün ərzaq və enerji daşıyıcılarına subsidiyalar verilir. Lakin bu tədbirlər digər tərəfdən ərzaq və enerji daşıyıcıların israfçılığına və tükənməsinə səbəb olur. Bazar iqtisadiyyatı şəraitində iqtisadi (istehsal və istehlak olunmuş) kapitala, ekoloji və insan kapitalına nisbətən üstünlük verilir. Odur ki, bazar iqtisadiyyatının mənfi təzadlarını da görmək lazımdır. Bu barədə Avropa ekoloji məktəbinin liderlərindən Ernst Fon Bayszekker belə demişdir: "Burokratik sosializm ona görə dağıldı ki, iqtisadi həqiqətləri deyə bilmədi. Bazar iqtisadiyyatı da ekoloji həqiqətləri deyə bilməzsə, özünü və ətraf mühiti məhv edəcəkdir".

Davamlı inkişafın əsas vəzifəsi cəmiyyətin tələbat və istəklərinin fasiləsiz (davamlı) ödənilməsi ilə ifadə olunur. İqtisad elminin də başlıca məqsədi cəmiyyətin sonsuz artan tələbatının məhdud resurslarla dolğun şəkildə təmin edilməsinə nail olmaqdır, onda davamlı iqtisadi inkişafın da əsas vəzifəsini oxşar şəkildə qəbul edə bilərik. Bu isə o deməkdir ki, "davamlı inkişaf" və "davamlı iqtisadi inkişaf"ın əsas məqsədləri də eynidir və hər ikisi cəmiyyətin tələbatının fasiləsiz ödənilməsinə istiqamətlənmişdir. Ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması ilə bərabər, iqtisadiyyatın müxtəlif sahələrində çalışan əhalinin iş şəraitinin yüksəldilməsi bütövlükdə əhalinin ümumi sağlamlığına xidmət edən başlıca amillərdəndir.

İstifadə olunmuş ədəbiyyat:

1. BMT-nin İnkişaf Proqramı. İnsan inkişafı tədris vəsaiti Bakı, 2014.
2. president.az saytı, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
3. ec.europa.eu/eurostat/

Gulnar Vagif Novruzova, Ph.D. student,
Baku Business University
Email: gulnarnovruzova727@gmail.com

NECESSARY CONDITIONS FOR RETARDED AND FREE RIGHT ENDED VARIATIONAL PROBLEMS

We consider the following variational problem:

$$J(x(\cdot)) = \int_{t_0}^{t_1} L(t, x(t), x(t-h), \dot{x}(t), \dot{x}(t-h))dt + F(x(t_1)) \to \min_{x(\cdot)} \tag{1}$$

$$x(t) = \varphi(t), t \in [t_0 - h, t_0], x(t_1) = x^* \in R^n. \tag{2}$$

where R^n is an n-dimensional Euclidean space

$$h = const > 0,\ t_1 - t_0 > h\ ,\ x(t) \in KC^1([t_0 - h, t_1], R^n),$$

$$\varphi(t) \in C^1([t_0 - h, t_0], R^n)$$

and $f(t, x, y, \dot{x}, \dot{y}) : [t_0, t_1] \times R^n \times R^n \times R^n \times R^n \to R := (-\infty, +\infty)$ is a continuous function, also $F(x) : R^n \to R$ is continuously differentiable function . $KC^1(\cdot)$ denotes the space of continuous and piecewise continuously differentiable functions.

Every function $x(\cdot)$ which satisfies the condition (2) and belongs to the space

$$KC^1([t_0 - h, t_1], R^n)$$

is called a admissible function.

History and development of theory of classical variational calculus was set out in monographs [1]-[4], where detailed review of main results obtained for the problem (1)-(2) and its generalizations were given. Let us recall (see [3, p. 107]) some notions of classical variational calculus. The admissible function $\bar{x}(\cdot)$ is called a strong (weak) local minimum in problem (1)-(2), if there exists a number $\bar{\delta} > 0 (\hat{\delta} > 0)$ such that the inequality $J(x(\cdot)) \geq J(\bar{x}(\cdot))$ holds for all admissible functions for which

$$\|x(\cdot) - \bar{x}(\cdot)\|_{C(I,R^n)} \leq \bar{\delta} (\max\{\|x(\cdot) - \bar{x}(\cdot)\|_{C(I,R^n)}, \|\dot{x}(\cdot) - \dot{\bar{x}}(\cdot)\|_{L_\infty(I,R^n)}\} \leq \hat{\delta})$$

In this case, we will say that the admissible function $\bar{x}(\cdot)$ affords a strong (weak) local minimum of problem (1)-(2) with $\bar{\delta}(\hat{\delta})$ neighborhood. It is obvious that every strong local minimum at the same time is weak as well, but the converse is not always true. It is known that the concept of strong local extremum (i.e minimum, maxmimum) to variational calculus was introduced by Weierstrass.

Let the function $\bar{x}(\cdot)$ be some admissible function in the problem (1)-(2) and $I^* \subseteq [t_0, t_1]$ be the set of points where the function $\dot{\bar{x}}(\cdot)$ is continuous. Define the following function corresponding to $L(t, x, y, \dot{x}, \dot{y})$ and $\bar{x}(\cdot)$:

$$Q(t, \lambda, \xi; \bar{x}(\cdot)) = \lambda\left[\Delta_{\dot{x}} \bar{L}(t, \xi) + \Delta_{\dot{y}} \bar{L}(t + h, \xi)\right] +$$

$$+ (1 - \lambda)\left[\Delta_{\dot{x}} \bar{L}(t, \frac{\lambda}{\lambda - 1}\xi) + \Delta_{\dot{y}} \bar{L}(t + h, \frac{\lambda}{\lambda - 1}\xi)\right],$$

$$t \in [t_0, t_1 - h] \cap I^*,$$

$$Q(t,\lambda,\xi;\bar{x}(\cdot)) = \lambda\Delta_{\dot{x}}\bar{L}(t,\xi) + (1-\lambda)\Delta_{\dot{x}}\bar{L}(t,\frac{\lambda}{\lambda-1}\xi),$$
$$t \in [t_1 - h, t_1] \cap I^*. \tag{3}$$

Where $\lambda \in [0,1), \xi \in R^n$,

$$\Delta_{\dot{x}}L(t,\eta) := L(t,\bar{x}(t),\bar{x}(t-h),\dot{\bar{x}}(t)+\eta,\dot{\bar{x}}(t-h)) - \bar{L}(t),$$
$$t \in [t_0, t_1] \cap I^*,$$
$$\Delta_{\dot{y}}\bar{L}(t+h,\eta) := L(t+h,\bar{x}(t+h),\bar{x}(t),\dot{\bar{x}}(t+h),\dot{\bar{x}}(t)+\eta) - \bar{L}(t+h),$$

$$\bar{L}(t) := L(t,\bar{x}(t),x(t-h),\dot{\bar{x}}(t),\dot{x}(t-h)). \tag{4}$$

The following theorem is proved in this work.

Theorem 1. Let the function $L(t,x,y,\dot{x},\dot{y})$ be continuous on the set $I \times R^n \times R^n \times R^n \times R^n$. Then

(i) if the admissible function $\bar{x}(\cdot)$ is a strong local minimum in the problem (1)-(2), then the inequalities

$$Q(t,\lambda,\xi;\bar{x}(\cdot)) \geq 0, \forall (t,\lambda,\xi) \in I^* \times [0,1) \times R^n$$
$$(L(t,\bar{x}(t),\bar{x}(t-h),\dot{\bar{x}}(t)+\xi,\dot{\bar{x}}(t-h)) - \bar{L}(t))\Big|_{t=t_1-0} + F_x^T(\bar{x}(t_1))\xi \geq 0, \forall \xi \in R^n; \tag{5}$$

hold;

(ii) if the admissible function $\bar{x}(\cdot)$ is a weak local minimum in the problem (1)-(2),then there exists a number $\delta > 0$ such that the inequalities

$$Q(t,\lambda,\xi;\bar{x}(\cdot)) \geq 0, \forall (t,\lambda,\xi) \in I^* \times \left[0,\frac{1}{2}\right) \times B_\delta(0)$$
$$(L(t,\bar{x}(t),\bar{x}(t-h),\dot{\bar{x}}(t)+\xi,\dot{\bar{x}}(t-h)) - \bar{L}(t))\Big|_{t=t_1-0} + F_x^T(\bar{x}(t_1))\xi \geq 0, \forall \xi \in B_\delta(0). \tag{6}$$

hold, where the function $Q(\cdot)$ is defined by (3)-(4), and $B_\delta(o)$ is a ball with radius δ centered at the point $0 \in R^n$.

References:

1. Bliss G.A., Lectures on calculus of variations, M: 2nd, 1950, 315 p
2. M.A.Lavrentiev and L.A.Lusternik, A course in the Calculus of Variations, M:2nd,1950, 296 p.
3. Ioffe A.D., Tikhomirov V.M.,Theory of extremal problems, M: 1974, 479 p.
4. V.M.Alekseev, V.M.Tikhomirov, S.V.Fomin, Optimal Control, M: 1975, 430 p.
5. Mardanov M.J., Melikov T.K., Malik S.T. ”On one generalization of Weierstrass necessary condition” Operators, Functions, and Systems of Mathematical Physics Conference, International conference dedicated to Hamlet Isaxanli’s 70th anniversary, 21-24 May 2018, Khazar University, Baku, Azerbaijan pp.139-141.
6. T.K.Melikov, G.V.Hajiyeva. “Necessary conditions for an extremum in nonsmooth variational problems involving retarded argument”, COIA, Baku, 2020, pp 284.

Abayev Yusif Qəşəm oğlu, dissertant
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı),
Email: yusifabayev@mail.ru

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏR TƏRƏFİNDƏN İQTİSADİ SUBYEKTLƏR ÜÇÜN YENİ İMKANLARIN YARADILMASI

30 ilə yaxın müddət ərzində torpaqlarımız düşmən tərifindən vəhşicəsinə istismar olunmuş, beynəlxalq normalara əməl edilmədən yeraltı və yerüstü təbii sərvətlərdən vəhşicəsinə istifadə edilmişdir. Yenicə müstəqillik əldə etmiş bir dövlət üçün 20% torpaqların işğal edilməsi, böyük həcmli ağır, yüngül və yeyinti sənaye obyektlərinin istehsaldan kənarda qalması və talan olunması, bir milyondan çox məcburi köçkünün sosial iqtisadi məsələlərin həlli kimi problemlər yaranmışdı. Qələbə əldə etmək və digər bütün problemlərin həllinə nail olmaq üçün ölkəmiz güclü iqtisadiyyata malik olmalı idi.Çətin bir zaman ərzində ölkəmiz öz müstəqilliyinin qoruyub saxlamağı və regionda yeni bir düzən saxlamaqla, iqtisadi baxımından heç bir dövlətdən asılı olmadan Cənubi Qafqazın güclü iqtisadiyyata malik bir dövlətinə çevrildi. Neft və qaz sənayesinin inkişafı xarici investorların ölkə iqtisadiyyatına investisiya yatırmasına şərait yaratmaqla bərabər, beynəlxalq miqyaslı bir neçə iri regional layihələrin icrasına da əlavə imkanlar yaratdı. 1994-ci ilinin 20 sentyabr tarixində imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın xarici investorlar üçün iqtisadi baxımından təhlükəsiz bir ölkə olduğunu sübut etməklə Cənubi Qafqaz boru kəməri (SCP), trans Anadolu boru kəməri (TANAP), trans adriatik boru kəməri (TAP), Asiya və Avropanı birləşdirən Qədim İpək Yolu və bu kimi beynəlxalq əhəmiyyətli layihələrin icrasının reallaşdırmasına səbəb oldu.

Həm siyası, həm də iqtisadi baxımından regionun əsas söz sahibinə çevrilən Azərbaycan özünün möhkəm iradəsi və həmrəyliyi ilə 44 günlük müharibədə bir daha öz gücünü göstərdi və düşmənə kapitulyasiya müqaviləsi imzalatdıraraq ərazilərimizi işğaldan azad etdi. 44 günlük müharibədə Azərbaycanın qələbəsi, xarici investorların qeyri-neft sektorunun inkişafına maliyyə kapitalının yatırılmasına əlverişli şərait yaratdı. İşğaldan azad olunmuş ərazilərin coğrafi ərazi quruluşu, iqlim şəraiti, təbiəti və relyefi, malik olduğu bütün maddi və iqtisadi resurslardan səmərəli istifadə imkanlarını genişləndirdi. Həmçinin ərazinin malik olduğu münbit kənd təsərrüfatına yararlı torpaq fondu, su ehtiyatı və yeraltı təbii sərvətləri yerli sahibkarlarla bərabər xarici investorlar üçün də cəlbedicidir.

Kiçik Qafqazın dağətəyi və orta dağlıq hissələrinin, düzən ərazilərin yeraltı sərvətləri olan qızıl, mis, qurğuşun, sink, kobalt, civə, sürmə filizləri, dəmir filizləri, alunit və mərmər kimi faydalı qazıntılardan düzgün və səmərəli istifadəsinə əlverişli imkan yaranmışdır. Ərazidə yerləşən təbii şirin su gölləri və mənbəyi daim qarlı dağlardan başlanan bol sulu çayları, su anbarları, torpaq və bitki örtüyü işğaldan azad olunmuş ərazilərdə qeyri-neft sektorunun inkişafını, xüsusən də kənd təsərrüfatını və bölgə turizmini sürətləndirəcək.

İşğaldan azad olunmuş ərazilərin iqtisadi baxımdan səmərəliyinin təmin olunması üçün planlı şəkildə proqramların icrası çox vacibdir. Bildiyimiz kimi, işğaldan azad olunmuş ərazilərdə olan bütün istehsal, xidmət obyektləri və torpaq fondu özəl-

ləşmədən kənarda qalmışdır. Həmçinin də ərazidə olan istehsal obyektlərinin digər ərazilərlə qarşılığlı əlaqəli istehsal prosesi dayanmışdır. Ölkənin iqtisadi yüklülüyünü azaltmaq və dünya ölkələri ilə ayaqlaşa bilən bir iqtisadi sistem qurmaq üçün IV Sənaye İnqilabının gercəkliklərini bölgəyə tətbiq etmək vacibdir. Müasir texnoloji inqilaba əsaslanan yeni iqtisadi zonaların yaradılması hesabına işğaldan azad olunmuş ərazilərin iqtisadi səmərəliyinin bir necə dəfə artacaq və sahibkarların investisiya yatırma maraqları genişlənəcək. Qısa müddət ərzində ərazilərin istehsala cəlb edilməsi və sahibkarların əraziyə təşviqi üçün geniş miqyaslı aşağıdakı işlərin görülməsi vacibdir:

– ərazi üzrə vahid kənd təsərrüfatına yararlı torpaq məlumat elektron Data Bazasını yaratmaq;

– ərazilərdə ölkə üzrə müqayisəli üstünlüyə malik olan kənd təsərrüfatı məhsulların elektron məlumat bazasını yaratmaq;

– faydalı qazıntılar üzrə ayrı-ayrılıqda yerli və xaric bazar üçün tələb meyarlarını müəyyənləşdirmək;

– ərazilərdə salınacaq yeni "ağıllı kənd və qəsəbələrin" iqtisadi əhəmiyyəti nəzərə alınmaqla qurulmalıdır.

İşğaldan azad olunmuş ərazilərdə iqtisadi sistemin düzgün qurulması, sahibkarlığın və istehsalın fəaliyyəti üçün bir-biri ilə bağlı infrastukturun yaradılması çox vacibdir. İnfrastuktur istehsal və xidmət prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrin kompleksi olmaqla işğaldan azad olunmuş ərazilərə investisiyanın cəlb edilməsi və sahibkarlığın inkişafı üçün əsas amildir. Bu baxımdan ərazidə iqtisadi və sosial infrastrukturun qurulması zamanı aşağıda nəzərdə tutulmuş istiqamətlərin düzgün təşkili vacibdir:

– işğaldan azad olunmuş ərazilərdə tikilən "ağıllı qəsəbə və kəndlər" yeni Salınan magistral avtomobil və dəmir yolları üzərində tikilməlidir;

– ərazidə daha çox alternativ enerji mənbələrinə əsaslanan elektrik enerji istehsalı formalaşdırılmalıdır. Su elektrik stansiyaları, külək elektrik stansiyaları, Günəş panelləri və digər alternativ mənbələrə əsaslanaraq bu iş yerinə yetirilməlidir;

– ərazilərdə su və kanalizasiya xətləri planlı şəkildə qurumalıdır ki, sonradan tullantıları çirkab suların təmizlənməsi üçün nəzərdə tutulmuş qurğularda təmizləməklə, yenidən kənd təsərrüfatı təyinatlı torpaqların suvarılmasında istifadə etməklə dövriyyəyə daxil etmək mümkün olsun;

– bütün ərazilərə rabitə qovşaqları yerləşdirilməli, vətəndaşların ucuz, davamlı, mobil və yüksək sürətli internet xətlərinə çıxışı təmin edilməlidir;

– əsas magistral avtomobil və dəmiryol xətləri qovşağında logistika mərkəzləri və saxlanc anbarları tikilməlidir;

– idxaldan asılılığı aradan qaldırmaq məqsədilə ərazilərdə aqrar-emal müəssisələləri və yüngül sənaye klasterləri yaradılmalıdır;

– region üçün əhəmiyyət kəsb edən istehsal sahələri ilə qarışlıqlı əlaqədə olan elmi-tədqiqat-təcrübə institutları və sınaq laboratoriyalı yaradılmalıdır.

Sadaladığımız bu istiqamətlər işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarları izafi xərclərdən azad edəcək, həmin torpaqlarda məskunlaşacaq əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi artacaq. Ölkənin strateji cəhətdən əhəmiyyətli olan qida məhsullarına olan tələbat yerli istehsal hesabına təmin olunacaq və qısa müddətə dayanaqlı, rəqabətə davamlı iqtisadiyyatın formalaşmasına səbəb

olacaq. İşğaldan azad olunmuş ərazilərə xarici və yerli investorların cəlb edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin əraziyə təşviqi üçün yeni mexanizmlər işlənilməlidir:

– dövlət tərəfindən nəzərdə tutulmuş dəstək proqramları bütün növ sahibkarlıq subyektləri üçün əlçatan və sadə qoşulma meyarlarına malik olmalıdır;

– dövlət tərəfindən icra olunması nəzərdə tutulmuş proqramların icra səviyyəsinin yoxlanılmasına və hesabatların hazırlanmasına icmaların və QHT-lərin nümayəndələri cəlb endilməlidir;

– azad rəqabət mühiti yaradılmalı və süni maneələr aradan qaldırılmalıdır;

– dövlətin sahibkarlıq subyektlərinə təsiretmə imkanları sıfıra endirilməli, dolayısı ilə nəzarət etmək imkanları genişləndirilməlidir;

– ərazilərdə ilkin olaraq dəstək məqsədilə istehsalyönümlü startap layihələrin maliyyə xərclərinin dövlət tərindən qarşılanmasına nail olunmalı;

– ərazilərdə sahibkarlar üçün ödənişsiz konsalting xidmətləri üzrə məlumat mərkəzlərin yaradılmalıdır.

Ümumiyyətlə nəzərdə tutulmuş bütün məsələlər və istiqamətlər həm respublika üçün, həm də işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı üçün çox böyük iqtisadi əhəmiyyəti var. Dövlətin son dövrlərdə ən çox diqqət yetirdiyi məsələlər qeyri-neft sektrorunun inkişafı və iqtisadi diversifikasiyadır. İşğaldan azad olunmuş ərazilərin yenidən bərpası, yeni texnologiyalara əsaslanan, müasir standartlara cavab verən infrastrukturun qurulması qeyri-neft sektoru üzrə fəaliyyət göstərən iqtisadi subyektlər üçün yeni prespektivlər vəd edir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://www.economy.gov.az
2. https://www.sgc.az
3. Səfərov Elnur İbiş oğlu. Kiçik Qafqazın faydalı qazıntı yataqları.. Bakı-2012.
4. https://www.agro.gov.az

Haciyev Fuad Oqtay oğlu, doktorant
Azərbaycan Kooperasiya Universiteti
Email: qadjiyev.fuad@gmail.com

XARİCİ KAPİTALIN SAHƏLƏR ARASINDA BÖLÜŞDÜRÜLMƏSİNİN İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Təkcə xammal hasilatı deyil, digər sahələrin də inkişafı (kənd təsərrüfatı, kimya sənayesi, maliyyə sektoru, tibb sənayesi, maşınqayırma və s.) Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılmasına və iqtisadi artımına müsbət təsir göstərir. Lakin davamlı iqtisadi inkişaf xarici investisiyaların axınına təsir edən yeganə amil deyil. Müasir şəraitdə investisiya cəlb edilməsində böyük rol oynayan və xarici sərmayə axınına təsir göstərən ən vacib amillərdən biri - investisiyaların cəlb olunmasının *hüquqi tənzimlənməsidir*.

Ciddi bir problem qanun və digər normativ sənədlər qəbul edilərkən nizamnamələrin dəqiqləşdirilməməsidir. Bu təcrübə birmənalı olaraq qeyri-müəyyənlik ehtimalı yaradaraq bütövlükdə hüquqi mühiti pisləşdirə bilər. Beynəlxalq kapitalın qarşılaşdığı mənfi amillər yüksək inzibati maneələrin olması, qanunların seçmə tətbiqi və köhnəlmiş qaydaların istifadəsidir. Bu amillər məhdudiyyət qoyulmadan əvvəl mövcud idi, lakin sanksiyalar şərtləri daxilində hüquqi tənzimləmə sahəsindəki dəyişikliklər onların təhlükəsizliyini təmin edərək xarici investisiyaların cəlb edilməsinə təkan verir. Xarici investisiyalar üçün təhlükəsizliyin təmin olunmasına və xarici kapitalının sahələr üzrə daha yaxşı bölüşdürülməsinə kömək edə biləcək tədbirlərə, zənnmimizcə, aşağıdakılar daxildir:

1. Bürokratik prosedurları azaltmaqla inzibati yükün azaldılması. Bu sahədə müəyyən təşəbbüslər həyata keçirilir.

2. Hüquq sistemində bütün iştirakçılar üçün bərabər şərait yaratmaqla tənzimləmə bazasının şəffaflığını və səmərəliliyini artırmaq üçün mexanizmlərin tətbiqi.

3. Miqrasiya qanunvericiliyi sahəsində xarici yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsinin sadələşdirilməsi, Azərbaycanda həyata keçirilən layihələrdə beynəlxalq təcrübədən, texnologiyalardan və biliklərdən istifadə etmək lazımdır. Mövcud şərtlər daxilində xarici şirkətlərin vergilərində daha çox kapital axınına səbəb ola biləcək müəyyən tədbirlərin görülməsi vacibdir.

Xarici şirkətlərin fəaliyyətinin vergi tənzimlənməsi aydın və əlçatan olmalıdır, bu prosesdə normaların ikiqat təfsiri imkanlarını istisna etmək və vergitutmanın bütün aspektlərinin ətraflı tənzimlənməsini əhatə etmək lazımdır. Vergi güzəştlərinin tətbiqi xarici investorlar üçün müsbət təsir göstərə bilər, məsələn:

– yeniliklərin, qabaqcıl texnologiya və avadanlıqların tətbiqini təşviq edən xarici şirkətlər üçün müvafiq şəraitin yaradılması;

– innovasiyalı texnologiyalar üçün idxal olunan avadanlıqların ƏDV-dən azad olunması;

– yüksək texnologiyalar sahələrində istehsalı modernləşdirən maşınlar və texnoloji avadanlıqlar üçün daha yüksək amortizasiya dərəcəsinin tətbiqi.

İnvestisiya cəlb etmək üçün yüksək inzibati maneələr onların daxil olmasına da güclü təsir göstərir. Xarici investorların fəaliyyətinə mane olan inzibati maneələri azaltmaq üçün bir müəssisənin qeydiyyatı, lisenziya verilməsi, sertifikatlaşdırma, investisiya layihələrinin icrası üçün tələb olunan sənədlərin verilməsi müddətinin azaldılması və "bir pəncərə" prinsipinin həyata keçirilməsi prosedurunu sadələşdirmək mümkündür.

Beləliklə, inkişaf etmiş ölkələrdə xarici investisiyaların sahələr arasında paylaşmasında vergi güzəştlərindən də geniş istifadə olunur, xüsusən də *sürətləndirilmiş amortizasiya* və *korporativ vergi dərəcələrin azalması*. İnkişaf etməkdə olan ölkələrdə vergi dərəcələrinin azaldılması, vergilərin geri qaytarılması praktikasından daha çox istifadə olunur. Onların dövrü 1-5 ilə, bəzən 10-25 ilə qədər ola bilər. Digər bir təşviq forması - 5-10 il müddətinə və bəzi layihələr üçün isə 15-23 il müddətinə azaldılmış gömrük rüsumlarıdır. İnkişaf etməkdə olan ölkələr, digər ölkələr kimi, milli iqtisadiyyatın müayinə prinsipinə riayət edirlər. Bununla birlikdə, xüsusilə tədiyə balansının vəziyyətinə müsbət təsir göstərən xarici investisiyaları - idxal əvəzedici və ixrac yönümlü sənayelərə, xüsusən turizmə təşviq edə bilərlər.

Xarici investoru sənaye bazarlarına cəlb etmək üçün sahibinin xarici emitentin müəyyən sayda istiqrazına (və ya səhminə) sahibliyini, habelə müəyyən şərtlər daxilində bunların müvafiq sayının alınmasını təsdiqləyən qiymətli kağızların - *milli depozitar qəbzlərinin* (MDQ) geniş yayılmasını təklif edirik. Bu investisiya cəlbetmə vasitəsi, qiymətli kağızların buraxılışının yurisdiksiyası xaricində dövriyyəsini təşkil etməyə imkan verir və xarici depozit qəbzləri üçün tipik bir hüquq dəsti təmin edir.

MDQ-nin həm xarici qiymətli kağızların birbaşa Azərbaycanın fond bazarına daxil olmasına, həm də milli investorların xarici kapital bazarlarında iştirakına alternativ olacağı güman edilir. Eyni zamanda qeyd edirik ki, MDQ-nin istifadəsi əslində ölkədən kapital ixracını nəzərdə tutmur və milli qanunvericiliyə uyğun olaraq investorun hüquqlarının qorunmasını təmin edir. MDQ məsələsinin əsas xüsusiyyətlərini nəzərdən keçirək:

1. MDQ-lərin verilməsi onların yerləşdirilməsi barədə qərar qəbul edilmədən, qeydiyyatdan keçən orqana milli depozitar qəbzlərinin verilməsi və onun dövlət qeydiyyatı nəticələrinə dair hesabat təqdim edilmədən, habelə qeydiyyat orqanına milli depozitar qəbzlərin verilməsinin nəticələri barədə bildiriş təqdim edilmədən həyata keçirilir.

2. MDQ verilməsi qərarının ayrılmaz hissəsi təqdim olunan qiymətli kağızların emitenti ilə MDQ emitenti arasında razılaşmadır.

3. MDQ-nin yerləşdirilməsinin xüsusiyyəti budur ki, yerləşdirmə müddəti MDQ məsələsinin dövlət qeydiyyatına alındığı tarixdən 1 il ilə məhdudlaşmamalıdır. Üstəlik, MDQ-lərin verilməsi qərarı, onların yerləşdirilməsinin məhdudiyyətsiz müddətini təmin edə bilər.

Nəticədə, MDQ emissiyası proseduru digər qiymətli kağızların buraxılışının bəzi mərhələlərini əhatə etmir və bu baxımdan daha sadələşdirilmiş vasitədir. MDQ investisiya aləti kimi bir çox xarici emitent və investor kateqoriyası üçün maraqlıdır. Məsələn, bu alət kapitallaşma səviyyəsini yüksəltmək və paylarını xarici birjalarda, o cümlədən MDQ proqramları vasitəsi ilə Azərbaycan birjalarında yerləşdirməklə xarici maliyyələşdirmə cəlb etmək istəyən MDB ölkələrindən şirkətlər tərəfindən istifadə edilə bilər.

Apardığımız tədqiqat nəticəsində xarici kapitalın və birbaşa investisiyaların iqtisadiyyatın sahələri arasında bölünməsinin müəllif tərəfindən hazırlanmış metodiki yanaşmanı da qeyd etmək istəyərdik. Belə ki, xarici investisiyaların optimal sahələrarası paylaşmasının iki əsas meyarı olur. Biri *milli istehsalın ixrac potensialının artırılması*, digəri isə *daxili bazarın istehlak qabiliyyətinin artırılmasıdır*.

Biz tədqiqatımızda ikinci meyar üzrə araşdırma aparmışıq və xarici investisiyaların sahələrə cəlb olunmasında aşağıdakı metodikanı təklif edirik:

1. Bütün iqtisadi sahələr üzrə carı "əlavə dəyər istehsalı" statistik göstəricisinə görə sıralama aparılır.

2. Sırada ən aşağı göstəriciyə malik olan 3 sahə seçilir.

3. Beynalxalq statistika məlumatlarından "əlavə dəyər istehsalı" göstəricisinə görə ən yüksək göstəricisi olan 10 ölkə seçilir.

4. Həmin ölkələrin sırasında Azərbaycana qeostrateji və qeoiqtisadi baxımdan yaxın ölkələr seçilir.

5. Seçilmiş ölkələrdən seçdiyimiz 3 iqtisadi sahəyə xarici investisiyaların cəlb

olunması üçün xüsusi investisiya planı hazırlanır. Həmin planda investisiyaların həcmi, dövriyyə müddəti və təsir effekti hesablanır.

6. Hazırlanmış investisiya planları arasında ən optimalı seçilir.

Beləliklə də, yuxarıda qeyd etdiyimiz investisiya planı əsasında "əlavə dəyər istehsalı" zəif olan iqtisadi sahələr dünyada aparıcı mövqelərə malik olan ölkələrin təcrübəsindən və maliyyəsindən bəhrələnərək öz göstəricisini artırmaq şansını qazanacaqdır." Əlavə dəyər istehsalı göstəricisinin seçilməsi həmin göstəricidə sahə üzrə "gəlir", "əmək haqqı", "emal xərcləri" nəzərə alındığına görə biz öz seçimimizi məhz bu göstəricinin üzərində saxladıq. "Əlavə dəyər istehsalı" ölkədə nə qədər çox olarsa, bir o qədər onun ÜDM-i və məhsulların rəqabətqabiliyyətliyi də artıq olacaq. Bunu nəzərə alsaq, zənnimizcə təklif etdiyimiz metodikanın göstəricilərini xarici investisiyaların sahələr üzrə paylamasında mühüm meyar kimi qəbul etmək olar.

Bağırzadə Əli Güloğlan, doktorant
Bakı Biznes Universiteti
Email: Bagirzade_ali@mail.ru

İXRAC POTENSİALININ FORMALAŞDIRILMASI VƏ GÜCLƏNDİRİLMƏSİ İSTIQAMƏTİNDƏ DÖVLƏT SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Milli iqtisadiyyatın dünya iqtisadi təsərrüfatına qoşulmasında və bazar münasibətləri şəraitində mühüm məsələlərdən biri də sənaye sahələri məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində ölkəmizin xarici iqtisadi əlaqələri, onun ixrac potensialının məqsədyönlü nizamlanmasıdır. Dünya bazarı ilə münasibətlərin formalaşdırılmasının müasir mərhələsində olan Azərbaycan Respublikasının xarici iqtisadi strategiyası qarşısında ixrac imkanlarının artırılması, nəinki ixracın həmçinin idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, o cümlədən dünya bazarına onun tələb və standartlarına uyğun rəqabətə davamlı məhsulla çıxa bilməsi kimi məqsədlər dayanmışdır. Bu səbəbdən də Azərbaycanda xarici iqtisadi strategiyanın reallaşdırılmasının vacib elementi qismində dövlət dəstəyi və ixracın genişləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemi çərçivəsində ixraca işləyən müəssisə və sahələrə dövlət köməyi çıxış edir. Öz növbəsində ixrac sahələrini dəstəkləyən bu siyasət yeni sənayeləşmə ölkələrində ölkəyə valyuta axınını təmin etmək məqsədilə həyata keçirilmişdir. Müasir dövrdə bu təcrübə ölkəmiz üçün çox mühümdür və ölkəyə valyuta axınını təmin edən başqa alternativ yol mövcud deyil.

İxrac potensialı ölkənin iqtisadi potensialının bir hissəsi olmaqla, xalq təsərrüfatı və onun ayrı-ayrı sahələrinin istehsal vasitələrindən tam şəkildə istifadə edilməsi nəticəsində xarici bazar istehlakçılarının tələblərinə müvafiq miqdarda və keyfiyyətdə müxtəlif növ maddi nemət və xidmət istehsalı və ixrac etmək qabiliyyətidir.

Qeyd etmək lazımdır ki, ixrac edilməsi üçün birinci növbədə onlara tələbat olmalıdır. Ölkənin istehsal edə biləcəyi məhsulun miqdarının dünya bazarındakı məhsulun miqdarı ilə müqayisədə kifayət qədər az olduğu nəzərə alınarsa, ölkənin neft məhsullarına tələbat potensialının həmişə olacağı mümkündür. İxrac potensialını təhlil

edərkən, nəzərə alınmalı digər amillər keyfiyyət, dünya bazarı standartlarına və qiymətlərinə uyğunluqdur. Fikrimizcə, məhsulun daxili bazarda qiyməti bu məhsulun beynəlxalq bazardakı qiymətindən aşağıdırsa, deməli, ixrac potensialı mövcuddur. Başqa sözlə desək, məhsullarını ixrac potensialını qiymətləndirərkən qiymətlər müqayisə edilməli və baxılan məhsulun beynəlxalq qiymətlərə mənfəətlə satıla bilməsi müəyyən edilməlidir.

İxrac potensialının formalaşması və inkişafını müəyyən edən əsas amillərdən biri də ölkədə təbii resursların mövcudluğu və onlardan istifadə səviyyəsidir. Təbii resursların mövcudluğu və onların mənimsənilməsi səviyyəsi ölkənin məhsuldar qüvvələrinin, xüsusilə də, maddi istehsal vasitələrinin və bunun da əsasında ixrac potensialının inkişafını şərtləndirir. Buna görə də, bu və ya digər ölkənin ixrac imkanları bilavasitə həmin ölkənin malik olduğu və kəşf edilib mənimsənilmiş təbii resurslarının həcmi və təbii şəraitdən asılıdır. Beləliklə, demək olar ki, müəyyən dövr ərzində mövcud olan ixrac potensialının əsasında həm istifadə olunan, həm də mənimsənilməmiş məcmu təbii sərvətlər durur.

İxrac potensialının tərkib elementlərindən biri də bir sıra kəmiyyət və keyfiyyət göstəriciləri sistemi ilə şərtlənən əmək resurslarıdır. Buraya elmi kadrlar, sənayenin ayn-ayrı sahələrində çalışan işçilər, məhsulların ixracı və xarici bazarda reallaşdırılması ilə əlaqədar təşkilati və idarəetmə işləri üzrə fəaliyyət göstərən şəxslər aiddir. Son dövrdə Azərbaycan Respublikasının dünyanın bir sıra ölkələri ilə ticarət iqtisadi əlaqələri genişlənmişdir. Bu isə idxal-ixrac əlaqələrinin artmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, hazırda Respublikanın ixrac potensialı strukturunda əsas sahə neftçıxarma və neft məhsulları təşkil edir. Azərbaycanın ixrac potensialında həmçinin kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda ixracın böyük bir qismini neft, neft məhsulları və qazın satışı təşkil etsə də, xarici ticarətdə qeyri-neft sektorunun payı getdikcə artır. Sözügedən sahədə inkişafı daha sürətləndirmək məqsədilə ölkəmizdə dünya bazarlarında rəqabət apara biləcək keyfiyyətli və beynəlxalq standartlara uyğun məhsulların istehsalı, müasir texnologiya əsasında müəssisələrin qurulması və ixracı stimullaşdıracaq tədbirlərin həyata keçirilməsi prosesi uğurla davam etdirilir. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri Nazirlər Kabinetinin 8 fevral 2011-ci il tarixli Qərarı ilə "2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi olmuşdur. Həmin planda qanunvericilik bazasının təkmilləşdirilməsi, ixrac siyasətində koordinasiyanın gücləndirilməsi, ixrac malları istehsalının stimullaşdırılması, ixracın infrastruktur təminatının yaxşılaşdırılması, keyfiyyətə nəzarət sisteminin gücləndirilməsi, ixracın təşviqi və maarifləndirmə kimi vacib məsələlər öz əksini tapmışdır. Bundan başqa, Sumqayıtda Sənaye Parkının yaradılması, Gəncədə isə hazırda bu istiqamətdə işlərin aparılması rəqabətədavamlı və elmtutumlu istehsalın təmin edilməsi, başqa sözlə, qeyri-neft sektorunun inkişafı, o cümlədən qeyri-neft ixracının artırılması məqsədi daşıyır.

Son illər ölkəmizdə rəqabət qabiliyyətli məhsulların istehsalı xeyli artmışdır. Artıq həmin məhsullara dünya bazarlarında maraq getdikcə güclənir. Təsadüfi deyil ki, bu vacib məqama toxunan Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "Ərzaq təhlükəsizliyinin təmin edilməsi" proqramı icra

edilir. Son illərdə bu istiqamətdə böyük addımlar atılmışdır, idxaldan asılılığımız böyük dərəcədə azalmışdır. Bu gün Azərbaycanda bütün əsas ərzaq məhsulları istehsal edilir, bəzi məhsulların istehsalı tələbatımızı tam ödəyir, bəzi sahələrdə hələ ki, idxaldan asılıyıq. Ancaq bildiyiniz kimi, mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bu gün də demək istəyirəm ki, Azərbaycanda bütün əsas ərzaq məhsulları tam şəkildə öz tələbatımızı təmin etməlidir. Yəni bizdə istehsal olunan ərzaq məhsulları tam şəkildə tələbatımızı təmin etməlidir. Biz buna yaxınlaşırıq və çalışmalıyıq ki, növbəti 5 il ərzində, bəlkə də ondan da tez bir müddətdə 3-cü Regional İnkişaf Proqramının icrası başa çatanda artıq ərzaq təhlükəsizliyi ilə bağlı olan bütün məsələlər öz həllini tapsın".

Davamlı inkişafın təmin edilməsi və ölkənin ixrac potensialının inkişaf etdirilməsi, idxalı əvəz edəcək sahələrin inkişafının təmin edilməsi məqsədilə sahibkarlığın inkişafı tədbirləri ölkə iqtisadiyyatının inkişafının hazırkı mərhələsində qarşıda duran aşağıdakı öncül məqsədlərin həyata keçirilməsinə yönəldilməsi məqsədəuyğundur:

- regional inkişafda qeyri-bərabərliyin aradan qaldırılması;
- ölkə iqtisadiyyatının səmərəli sahə strukturunun formalaşması;
- texnoloji inkişafın sürətləndirilməsi;
- ölkənin ixrac potensialının səmərəli reallaşdırılması;
- qeyri-neft sektorunun inkişafı;
- məşğulluğun optimal səviyyəsinin təmin edilməsi;
- orta təbəqənin formalaşması prosesinin sürətləndirilməsi.

Göstərilən öncül məqsədlər üçün müəyyən edilmiş prinsiplər əsasında aşağıdakı siya-sət tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- sahibkarlığın inkişafının normativ-hüquqi bazası mütəmadi aparılacaq təhlil əsasında təkmilləşdirməsi siyasət dövlətin təsərrüfat funksiyalarının məhdudlaşdırılması, tənzimləmənin isə səmərəliliyinin artırılmasına yönəldiləcəkdir;
- sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatını gücləndirmək, bu istiqamətdə məqsədli dövlət maliyyələşməsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühit yaratmaq, bu fəaliyyət stimullaşdırılacaq, start kapitalının formalaşması imkanları genişləndirmək;
- öncül sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsini genişləndirmək, müxtəlif istiqamətdə davamlı və sistemli xidmətlər göstərən təsisatlar yaratmaq.
- ölkənin ixrac potensialının səmərəli reallaşdırılması məqsədilə ixrac qabiliyyətli sahələr üzrə məhsul istehsalı, onun dünya bazarlarına çatdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri ilə dəstəkləyəcək İxracın və İnvestisiyaların Təşviqi Fondunun səmərəli fəaliyyətini təmin etmək;
- istehsal sahibkarlığının dəstəklənməsi üzrə dünya praktikasında müvəffəqiyyətlə tətbiq edilən təşkilati modelləri (sənaye şəhərcikləri, biznes-inkubatorlar və s.) yaratmaq;
- biznes subyektlərinin yaradılmış biznes mühitdən eyni dərəcədə faydalanması imkanlarını təmin edəcək rəqabət mühitinin yaradılması istiqamətində aparılan tədbirləri gücləndirmək, səmərəli antiinhisar tənzimləməni həyata keçirmək;
- iqtisadi tənzimləmə üsullarının tətbiqi sahəsində dövlət (büdcə gəlirlərinin formalaşması, iqtisadi təhlükəsizlik və s.), sahibkar (mənfəətin artırılması) maraqlarının

cəmiyyət maraqları baxımından vahid müstəviyə gətirilməsini təmin edən tarazlı vergi, gömrük, tarif siyasəti həyata keçirmək;

- dövlət-sahibkar dialoqunu genişləndirmək, bu istiqamətdə səmərəli münasibətlərin qurulmasını başa çatdırmaq, sahibkarların ictimai ittifaqlarının yaradılmasını dəstəkləmək;
- mülkiyyətin, o cümlədən xüsusi mülkiyyətin toxunulmazlığına təminatları gücləndirmək, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərini təkmilləşdirmək;
- innovasiya potensialının reallaşması üzrə sistemli tədbirlər həyata keçirmək, bu istiqamətin reallaşmasına ölkənin elmi, kadr potensialı cəlb ediləcəkdir;
- kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı səmərəli əməkdaşlığın genişləndirilməsi üzrə mövcud imkanların reallaşdırılmasını dəstəkləmək;
- əhalinin daha geniş sosial təbəqələrinin, o cümlədən gənclərin, qadınların, əlillərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirmək və s.

Bu gün Azərbaycana dünyanın 100-dən çox ölkəsindən mal idxal olunur. Bu malların əksəriyyəti Azərbaycanda istehsal olunan mallara anoloqu olan mallardır və ya istehlak tələbatı və keyfiyyəti baxımından ona yaxındır. Hətta həmin malların Azərbaycanda istehsalı mümkündür. Bir çox hallarda idxal malları yerli istehsal mallarına rəqabət yaradır. Belə mallara idxal gömrük rüsumları dünya və milli xərclər, qiymətlər nisbəti nəzərə alınmaqla müəyyən edilməlidir. Bu isə mal qrupları və növləri üzrə rüsum dərəcələrini diferensiallaşdırmağa imkan verir. Gömrük-tarif siyasətini ölkədə gedən içtimai-siyasi prosseslərdən və iqtisadi siyasətdən kənarda təsəvvür etmək olmaz. Bu siyasət iqtisadi siyasətin tərkib hissəsidir və gömrük orqanları onun işlənib hazırlanmasında bilavasitə iştirak edir və bu siyasəti həyata keçirir. Düzgün gömrük tarif siysəti ölkədə yeni istehsal potensialı yaradır. Təcrübə göstərir ki, bu cür siyasət Azərbaycanda da öz bəhrəsini verir. Belə ki, ötən son illərdə ərzaq məhsullarına tələbatın əhəmiyyətli bir hissəsi artıq daxili istehsal hesabına ödənilir. Deməli, daxili istehsalda əsas istehsal fondları yeniləşib, ölkəyə yeni avadanlıq, yeni texnologiya gətirilib. Belə hesab etmək olar ki, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi tədbirlərindən başlanmış bu uğurlu siyasət davam etdirilməli, iqtisadiyyatın mühüm sahələri diqqət mərkəzində olmalıdır.

Azərbaycanda dövlət səviyyəsində reallaşdırılan bir sıra zəruri tədbirlər, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının təmin olunması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün qurulması, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. məsələlər, şübhəsiz, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişlənməsinə səbəb olacaqdır. Bundan başqa, 2020-ci ilə qədər Azərbaycanın iqtisadi inkişaf konsepsiyasında qeyri-neft sektorunun həcminin adambaşına 1000 ABŞ dollarına və yaxud ümumilikdə 10 milyard dollara qədər artacağı hədəf olaraq müəyyənləşdirilmişdir. Eyni zamanda, 2020-ci ildə ölkəmizin qeyri-neft ixracının ümumi idxala bərabər olacağı da proqnozlaşdırılır. Bu isə Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində, neft hasilatının tükəndiyi dövrdə ticarət saldosundakı üstünlüyün qorunub saxlanmasında müsbət rol oynayacaqdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında və “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə əsasən ixrac yönümlü iqtisadi model əsas götürüldüyündən, qeyri-neft məhsullarının ixracının genişləndirilməsi və ixrac prosedurlarının daha da sadələşdirilməsi məqsədilə orta müddətli dövrdə ölkədə tətbiq edilən xarici ticarət siyasətinin prioritet istiqamətləri aşağıdakılar olacaqdır:

- xarici ticarətin daha da liberallaşdırılması və ölkənin ixrac potensialından maksimum səviyyədə istifadənin təmin edilməsi və ölkənin milli iqtisadi maraqları təmin edilməklə Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesinin davam etdirilməsi;
- regionların inkişafında böyük rolu olan kənd təsərrüfatı və emalı məhsullarının hədəf bazarlara çıxış imkanlarının araşdırılması və artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- Azərbaycan mənşəli məhsulların xarici bazarlara maneəsiz ixrac edilməsi məqsədilə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi;
- Ümumiləşmiş Preferensiyalar Sistemləri çərçivəsində əldə edilən güzəştlərdən maksimum səviyyədə istifadənin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi;
- ticarətin asanlaşdırılması, o cümlədən ticarət zamanı rəsmiləşdirmə işlərinin müddətinin qısaldılması və bununla bağlı xərclərin aşağı salınması üzrə işlərin davam etdirilməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- tarif dərəcələrinin optimallaşdırılması, qeyri-tarif məhdudiyyətlərinin azaldılması, ölkə daxili istehsalın artımını dəstəkləyəcək və ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək idxalat siyasətinin tətbiq edilməsi;
- müqayisəli üstünlüyə malik olan Azərbaycan mənşəli məhsulların dünya bazarlarına çıxış imkanlarının artırılması məqsədilə ixracatçı müəssisələrin beynəlxalq sərgi və yarmarkalarda iştirakının stimullaşdırılması;
- Azərbaycanın milli maraqlarına uyğun olaraq ticarət sahəsində ikitərəfli və çoxtərəfli sazişlərə qoşulması istiqamətində müvafiq işlərin davam etdirilməsi;
- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- ixracın genişləndirilməsi məqsədilə ixracatçılara dövlət dəstəyi üzrə mexanizmlərin araşdırılması, ixracatçılara maliyyə dəstəyinin göstərilməsi üzrə banklar tərəfindən ixrac kreditlərinin inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi və s.

Ümumilikdə ölkədə ixracının genişləndirilməsi və gücləndirilməsi, həmiçinin ixrac potensialının yüksəldilməsi üçün aşağıdakı tədbirlərin reallaşdırılması vacibdir:

- Azərbaycan mənşəli məhsulların dünya bazarlarına çıxış imkanlarının artırılması məqsədilə ixracatçı müəssisələrin beynəlxalq sərgi və yarmarkalarda iştirakının stimullaşdırılması;
- qeyri-tarif məhdudiyyətlərinin azaldılması, tarif dərəcələrinin optimallaşdırılması ölkə daxili istehsalın artımını dəstəkləyəcək və ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək idxalat siyasətinin tətbiq edilməsi;
- ticarət zamanı rəsmiləşdirmə işlərinin müddətinin qısaldılması və bununla bağlı

xərclərin aşağı salınması üzrə işlərin davam etdirilməsi;

- ixrac edilən və ixrac potensialı olan məhsulların keyfiyyət standartlarının yüksəldilməsi və bu istiqamətdə beynəlxalq standartlara uyğun məhsul istehsal edən müəssisələrin stimullaşdırılması və milli brendlərin yaradılmasının dəstəklənməsi;

- xarici ticarət sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və xarici ticarət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizin milli maraqlarına uyğun, elmi-praktiki üsullara əsaslanan müasir ticarət siyasəti metodlarının tətbiq edilməsi;

- Azərbaycan mənşəli kənd təsərrüfatı məhsullarına xarici bazarlarda tətbiq edilən diskriminasiya tədbirlərinin araşdırılması və zərurət yarandığı təqdirdə müvafiq tədbirlərin həyata keçirilməsi və s.

Beləliklə, Azərbaycan Respublikasında rəqabət qabilliyyətli ixrac potensialının inkişaf etdirilməsi və idxalın strukturunun diversifikasiyası bir tərəfdən yerli ixrac əhəmiyyətli məhsulların dünya bazarına daxil olması üçün əlverişli şərtlər formalaşdırmaqla yanaşı, digər tərəfdən yerli istehsalçıların xarici rəqabətin təsirindən şüurlu müdafiəsini təmin edir, ixracın diversifikasiyası maksimal effektiv və optimal struktura malik ixraca nail olmağa, ölkə ərazisindən çıxarılan məhsulların çeşidinin genişləndirilməsinə və tədricən ixracın struturunda yüksək texnologiyalı məhsulların payının artırılmasına imkan verir.

İstifadə olunmuş ədəbiyyat:

1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. Bakı. 2016. 177 s.
2. “Azərbaycan 2020, Gələcəyə Baxış” inkişaf konsepsiyası. Bakı. 2012. 39 s.
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı ,2016, 655s.
4. Qurbanzadə A.A. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları. Bakı: 2013. 232 s.
5. Alıyev İ.H. Aqrar sahənin modernləşmə və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri. Bakı. 2017. 428 səh.

Шаргу Нику, аспирант,
следователь Государственной Налоговой Инспекции,
Экономическая Академия Молдовы,
Кишинев, Республика Молдова
Email: nicu.sargu@mail.ru

ОСНОВНЫЕ ЗАДАЧИ ФИНАНСОВОГО УПРАВЛЕНИЯ В ДЕЯТЕЛЬНОСТИ ПРАВИТЕЛЬСТВА НА ПЕРИОД 2020-2023 гг.

В сложных условиях, созданных пандемией, постоянной заботой правительства являлось создание специальных мер для введения ограничений, предпринимаемых в период чрезвычайного положения, а именно, защиты и поддержки населения, консолидации системы здравоохранения и предоставления медицинских услуг и меры по обеспечению экономических деятельности в стане

в целом. Государственное вмешательство во все сферы и ограничения вводились постепенно, в зависимости от количества заболеваний и развития пандемии. С одной стороны, были введены ограничения (приостановка школьных занятий, ограничения на поездки, изоляция/карантин, ограничения культурных, религиозных, спортивных, развлекательных мероприятий и т.д.), а с другой стороны, были приняты меры по обеспечению непрерывного и бесперебойного предоставления базовых услуг и меры по защите пострадавших категорий населения.

В экономической сфере были приняты фискальные меры для стимулирования и облегчения доступа к финансам, посредством государственных гарантий, полностью покрываемых правительством. В максимально короткие сроки, были запущены государственные программы по поддержке деловой среды посредством изменения сроков выдачи кредитов и возмещения налога на добавленную стоимость.

В течение 2020 года, усилия Правительства были сосредоточены на полном достижении поставленных целей, изложенных в Рабочей программе Правительства, а именно: обеспечение бюджетно-налоговой стабильности, поддержка оптимального, устойчивого и инклюзивного роста экономики, определение финансовых ресурсов для выполнения обязательств по увеличению заработной платы в бюджетном секторе, обеспечение более эффективного распределения ресурсов, повышение эффективности и действенности государственных расходов, активизация диалога с бизнес-средой и партнерами по развитию.

В налоговом администрировании, в течение 2020 года, произошли следующие изменения:

– Упрощение способа учета и расчета амортизации для фискальных целей, соответственно, оптимизация расходов экономических агентов;

– Утверждение Положения о проведении конкурса «Налоговая лотерея» - инициатива, поощряющая платежи, осуществляемые с помощью банковской карты, что способствует борьбе с уклонением от уплаты налогов;

– Упрощение процедур доступа к налоговым и таможенным льготам для ввоза транспортных средств, предназначенных для перевозки людей с ограниченными возможностями опорно-двигательного аппарата, а именно изменения в той части процедур, которые касаются предоставления документов подтверждающих установленную инвалидность получателя для освобождения от импортных пошлин;

– Утверждение технической концепции SIA «Реестр исполнительных распоряжений», целью которой является улучшение, автоматизация и эффективность действий по исполнению денежной дебиторской задолженности, основанной на положениях публичного права;

– Изменение нормативной базы, регулирующей деятельность службы по сбору местных налогов и пошлин в примэриях, которая предусматривает, в том числе, внедрение автоматизированной системы погашения налоговых обязательств через SCITL;

– Запуск в промышленную эксплуатацию модуля регистрации субъектов в подсистеме «Электронная коммерция-НДС» 62;

– Модификация процедур электронного таможенного оформления товаров, расширение электронного декларирования для таможенного назначения «реэкспорт», регулирование процедуры электронного таможенного оформления товаров в случае международных почтовых отправлений товаров, транспортируемых консолидированными в едином транспортном средстве и регулирование процедуры перевозки с последующими последовательными отправками других товаров, помещенных под таможенную процедуру экспорта, временного вывоза, переработки за границу и реэкспорта;

– Запуск новой версии SI «ASYCUDA World», которая будет способствовать эффективному сбору доходов, предоставлению эффективных услуг бизнес-сообществу, увеличению возможностей мониторинга и предоставлению точных статистических данных о международной торговле;

– Утверждение Дорожной карты по взаимному признанию АЕО между Республикой Молдова и Европейским Союзом.

Вместе с тем, для борьбы с COVID-19, были предприняты следующие действия:

• *Исправления госбюджета на 2020 год предусмотрены:*

- выделение из средств чрезвычайных ситуаций финансовых средств Министерству здравоохранения, труда и социальной защиты на закупку средств защиты в размере 41,4 млн. леев, из которых 36,6 млн. леев было использовано;

- выделение из интервенционного фонда финансовых средств на выплату единовременных пособий работникам медицинской системы, инфицированным COVID-19, в размере 60,2 млн. леев;

- Субсидирование предприятий и некоммерческих организаций, у которых возникла техническая и/или стационарная безработица во время чрезвычайного положения, субсидирование размера обязательных взносов государственного социального страхования в фиксированном размере и субсидирование банковских процентов - в размере 45,3 млн. леев;

- Трансферты из государственного бюджета в другие бюджеты (бюджет государственного социального страхования, фонды обязательного медицинского страхования и местные бюджеты) для обеспечения мер по борьбе с пандемией, включенные в эти бюджеты.

• *Предоставление дополнительных источников финансирования за счет:*

- Внешний государственный заем в размере 172,5 млн DST (примерно 233,9 млн долларов США) от Международного валютного фонда, предоставленный посредством Механизма быстрого кредитования (RCF) (57,5 млн DST) и инструмента быстрого финансирования (RFI) (115,0 млн DST);

- Соглашение о финансировании между Республикой Молдова и Международной ассоциацией развития (МАР) для реализации проекта реагирования на чрезвычайные ситуации в связи с COVID-19 на общую сумму 52,9 миллиона евро. Кредитные фонды МАР финансируют меры по укреплению технического потенциала медицинских учреждений, поддержку увеличения возможностей выявления случаев заболевания, меры по повышению безопасности обслуживающего персонала на всех уровнях, а также поддержку кадрового и технического потенциала отделений интенсивной терапии, управление большим количеством

серьезных случаев. Кроме того, проект поддерживает инициативы по обеспечению социальной помощи для бедных слоев населения, с целью смягчения последствий карантинных мер;

- Рамочное кредитное соглашение между Республикой Молдова и Банком развития Совета Европы для реализации проекта «Экстренное реагирование на COVID-19 и поддержка микро, малых и средних предприятий» на сумму до 70 миллионов евро. Данный документ направлен на получение необходимых финансовых ресурсов для оказания немедленной поддержки системы здравоохранения в Республике Молдова в борьбе со вспышкой COVID-19 с наибольшим акцентом на укрепление ее технического потенциала, а также на поддержку МСП, пострадавших от кризиса;

- Соглашение о финансировании между Правительством Республики Молдова и Европейской Комиссией по реализации проекта «ЕС Молдова: Фонд для поддержки реагирования системы здравоохранения на чрезвычайную ситуацию COVID и осуществление реформ в рамках Соглашения об ассоциации», находящееся на стадии переговоров.

• *В целях поддержки работников и работодателей в условиях негативных экономических последствий, вызванных эпидемиологической ситуацией, утверждены:*

- Меры по поддержке предпринимательства, в том числе:

а) Программа субсидирования процентов;

б) программа возврата НДС;

в) снижение ставки НДС с 20% до 15% для сектора HORECA;

d) предоставление права вычитать любые пожертвования, сделанные в течение 2020 года на борьбу с COVID-19, на банковские счета, открытые Министерством финансов или государственными медицинскими учреждениями;

д) повышение доступности для фермеров возможности выплаты обязательных взносов на социальное страхование, через которые государство субсидирует 6% из 18%;

- Корректировка государственного бюджета с целью финансирования:

а) мер по поддержке сектора здравоохранения - в размере около 1040,4 млн. леев;

б) мер по поддержке населения - в размере около 450,9 млн. леев;

с) мер по поддержке экономики - в размере около 1034 млн. леев;

d) пополнение государственных чрезвычайных фондов - на 488 млн. леев;

е) увеличение отчислений в бюджет государственного социального страхования - на 682,3 млн. леев и в местные бюджеты – на 192,1 млн. леев для частичного покрытия упущенных доходов;

- Выделение финансовых средств в размере 3,6 млн. леев из Резервного фонда Правительства на закупку средств защиты (защитные экраны и респираторы) для предотвращения и контроля заражения COVID-19;

- Выделение финансовых ресурсов из Государственного интервенционного фонда:

а) в размере 5,86 млн. леев на приобретение спецодежды и предоставление уникальных льгот лицам, занятым в медицинской системе, инфицированным COVID-19 на работе;

б) в размере 6,0 млн. леев для обеспечения выплаты единовременных пособий работникам медицинской системы, инфицированным COVID-19.

Государственная налоговая служба хочет внедрить наилучший передовой опыт налогового администрирования, поэтому 2020 год стал одним из 4-х лет, установленных в стратегии развития на 2020-2023 годы. Согласно стратегии развития, которая разработана в соответствии с Программой деятельности Правительства на период 2020-2023 годов, установлены следующие приоритеты развития:

– Консолидация и эффективность организационной структуры;

– Укрепление системы внутреннего управленческого контроля, способной обеспечить реализацию налогово-бюджетной политики;

– Укрепление институциональной культуры за счет эффективного развития человеческих ресурсов;

– Обеспечение оптимальных условий работы должностных лиц консолидированной структуры;

– Укрепление атмосферы институциональной целостности и принятие мер по минимизации деградирующих последствий коррупции;

– Модернизация SFS и укрепление международного сотрудничества;

– Повышение качества услуг для налогоплательщиков, в том числе электронных;

– Укрепление потенциала институционального обслуживания и коммуникации;

– Оптимизация процедур для налогоплательщиков и налоговых поступлений;

– Повышение добровольного соблюдения налогоплательщиками декларирования и полной и своевременной уплаты налоговых обязательств;

– Эффективность системы управления рисками по несоблюдению;

– Усиление процессов и процедур контроля в ГНС;

– Разработка интегрированной информационной системы;

– Приведение технических возможностей и инфраструктуры в соответствие с потребностями информационной системы, организационной структуры и законодательных изменений.

На процесс реализации основных административных и фискальных задач, изложенных в рабочей программе правительства на период 2020-2023 годов, а также на любой процесс могут повлиять некоторые **риски**, а именно:

Внешние риски:

– Политическая нестабильность и вмешательство в проводимую деятельность, отсутствие поддержки в укреплении международных отношений на правительственном уровне.

– Низкий интерес к зарубежному сотрудничеству.

– Неадекватное законодательство, политика и плохое управление в государственной системе.

– Сокращение или прекращение финансирования (бюджетного или проектного).

– Предложения услуг, которые не соответствуют минимальным требованиям метода закупок в соответствии с руководящими принципами Всемирного банка (проект ТАМР).

Внутренние риски:

– Персонал (текучесть кадров, недостаточная мотивация, наличие сегмента налоговых служащих, не желающих реформироваться/склонных к коррупции и т. д.);

– Недостатки связи с технико-технологическим администратором информационной системы ГНС;

– Снижение возможностей для планирования, управления и мониторинга стратегических целей;

– Неадекватное определение областей с более низкой степенью контроля рисков для планирования аудиторских миссий;

– Неадекватное планирование действий по обеспечению выполнения рекомендаций аудита.

Для снижения/минимизации установленных рисков предлагаются следующие меры:

– Внедрение эффективных политик управления человеческими ресурсами с целью снижения явления текучести кадров, а также нефинансового стимулирования сотрудников;

– Выявление возможных альтернативных возможностей финансирования для покрытия расходов, связанных с реализацией действий Стратегии и/или обоснованием приоритетов, выдвинутых в процессе разработки СВТМ;

– Разработка и подписание договора о сотрудничестве/меморандума о взаимопонимании с технико-технологическим администратором СТС;

– Реализация эффективной коммуникационной стратегии, которая будет способствовать снижению институционального/личного сопротивления сотрудников стратегическим изменениям;

– Наращивание потенциала в области управления проектами, что будет способствовать увеличению потенциала для планирования, управления и мониторинга стратегических целей.

Список использованной литературы:

1. Закон № 239 от 13 ноября 2008 г. о прозрачности процесса принятия решений.

2. Закон № 229 от 23 сентября 2010 г. о государственном внутреннем контроле.

3. Постановление Правительства № 966 от 9 августа 2016 г. «Об утверждении Плана мероприятий по модернизации государственной службы на 2017 - 2021 гг.».

4. Постановление Правительства № 1473 от 30 декабря 2016 года «Об утверждении Национальной стратегии занятости на 2017–2021 годы».

5. Постановление Правительства № 56 от 17 января 2018 г. «Об утверждении Положения о финансовом мониторинге самоуправляемых государственных органов, государственных / муниципальных предприятий и компаний с полным или контрольным государственным капиталом».

6. Постановление Правительства №1172 от 28 ноября 2018 г. «Об утверждении Плана действий по открытому правительству на 2019–2020 годы».

7. Постановление Правительства № 636 от 11 декабря 2019 года «Об утверждении Плана действий Правительства на 2020-2023 годы».

8. Постановление Правительства № 290 от 13 мая 2020 года «Об утверждении Национального плана действий на 2020 год по реализации Национальной стратегии занятости на 2017-2021 годы».

9. Постановление Правительства № 681 от 10 сентября 2020 года «Об утверждении Концепции автоматизированной информационной системы« Электронный регистр работников »для бюджетной сферы.

10. Приказ Министра финансов № 189 от 5 ноября 2015 г. «Об утверждении Национальных стандартов внутреннего контроля в государственном секторе».

11. Приказ Министра финансов № 175 от 26 декабря 2019 г. «Об утверждении Плана действий Минфина на 2020–2023 годы».

12. Приказ Министра финансов № 188 от 31 декабря 2019 г. «Об утверждении Стратегии развития Государственной фискальной службы на 2020-202 годы».

Məmmədov Rəşad Habil oğlu, doktorant,
Milli Aviasiya Akademiyası
Email: rashad1313a@gmail.com

İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA BİZNES MÜHİTİNİN KOMMERSİYA BANKLARININ ELEKTRON BANK XİDMƏTLƏRİNİN FORMALAŞMASINDA ROLU

1990-cı illərin əvvəllərində internetin kommersiyalaşdırılması inkişaf etdikcə, ənənəvi "bricks and mortar" bankları əməliyyat xərclərini azaltmaq üçün məhdud onlayn xidmətlərin göstərilməsi üsullarını araşdırmağa başladılar. Bu erkən səylərin müvəffəqiyyəti bir çox bankların yeni hesablar açmaq, formaları yükləmək və kredit ərizələrini idarə etmək kimi imkanları verən inkişaf etmiş veb-saytların köməyi ilə onlayn bankçılığın genişlənməsinə gətirib çıxardı. İnkişafın növbəti mərhələsi filial şəbəkəsi olmadan onlayn bankçılıq və digər maliyyə xidmətləri təklif edən onlayn-bankların yaranması oldu. Sözdə "virtual" və ya "elektron" banklar öz müştərilərinə əmanət hesabları üzrə daha yüksək faiz dərəcələri, kredit xərcləri və xidmət haqlarının azaldılmasını təklif edərək əmək və qaimə xərcləri üzrə qənaət edə biləcəklərini açıq-aydın göstərə bildilər.

Onlayn bankçılıq bir istifadəçiyə internet vasitəsilə maliyyə əməliyyatları aparmağa imkan verir. Onlayn bankçılıq internet bankçılıq və ya veb bankçılıq olaraq

da bilinir. Kommersiya bankları internet bankçılıq xidmətləri vasitəsilə müştərilərə ənənəvi olaraq yerli filial vasitəsilə mövcud olan bütün xidmətləri, o cümlədən depozit əməliyyatları, köçürmələri və hesabların onlayn ödənişlərini təklif edir. Demək olar ki, hər bir bank istər internet bankçılıq, istərsə də mobil proqram vasitəsilə mobil bankçılıq ilə bu və ya digər bütün xidmətləri təklif edir. Onlayn bankçılıq ilə müştərilərdən əsas bank əməliyyatlarının əksəriyyətini başa çatdırmaq üçün bank filiallarına müraciət etmələri tələb olunmur. Bütün qeyd edilən əməliyyatları istədikləri yerdə - evdə, işdə və ya yolda asanlıqla edə bilərlər.

Onlayn bankçılıq xidmətləri qeyd edildiyi kimi, internet bankçılıq və mobil bankçılıq olaraq iki hissəyə ayrılır. Mahiyyətcə eyni olmalarına baxmayaraq, aparıla biləcək əməliyyatların sadəliyinə görə hazırda mobil bankçılıq daha çox istifadəçi kütləsinə malikdir.

Kommersiya banklarının onlayn bankçılıq xidməti aktiv olan müştərilər arasında tədqiqat aparılmışdır. Belə ki, tədqiqatda iştirakçılar arasında internet bankçılıq, yoxsa mobil bankçılıq istifadə etmələri ilə bağlı sorğu keçirilmişdir.(qrafik)1.

Qrafik 1. Onlayn bankçılığın növlərindən istifadə göstəricisi.

Nəticədə istifadə edən və xidmətdən razı qalan kütlə payının çoxunu gənclər təşkil etmişdir. İnternet bankçılığın mənfi cəhətlərindən biri də elə odur ki, yaşlı nəsil bundan istifadə edə bilmədiyindən, ənənəvi metoda üstünlük verirlər.

Təbii ki, onlayn bankçılıq ənənəvi bankçılıqdan bir çox üstünlüklərə malikdir. Hazırda əksər kommersiya bankları müştərilərinə onlayn bankçılıq imkanı təklif etməyə başlayıb. Bu xidmət istənilən vaxt hesablara giriş rahatlığı, həmçinin yerli filiala gəlmədən əməliyyatlar aparmaq imkanı ilə bir çox insanları cəlb edir.

İnternet bağlantısı olan onlayn banklar iş üçün əlçatandır. Onlar günün ildə 365 gün və hər gün 24 saat fəaliyyət göstərirlər.Əgər müştərilərdə internet bankçılıq xidməti mövcud deyilsə, normal olaraq gecə-gündüz telefon bankçılıq xidməti ilə bu əməliyyatları icra edə bilərlər. Real vaxt hesabındakı qalıqlar və məlumatlar bir neçə düyməyə basmaqla əldə edilə bilər, beləliklə internetdən istifadə bank işini daha sürətli, asan və daha effektiv edir. Bundan əlavə, onlayn bankçılıqda hesabın yenilənməsi və aparılması asandır, çünki poçt ünvanını dəyişdirmək, əlavə qəbzlər sifariş etmək və bazar faiz dərəcələri barədə məlumat almaq yalnız bir neçə dəqiqə çəkir.

Onlayn bankçılıqda əlavə xərclərin olmaması banklara əmanət üçün daha yüksək faiz ödəməyə və daha aşağı faizlərlə ipoteka və kreditlərin verilməsinə imkan verir. Həmçinin onlayn bankçılıq vasitəsilə kommersiya bankları müştəri məlumatlarının təsdiqlənməsində, əməliyyatlar üzrə hesabatların əldə edilməsində və s. kimi bu hallarda həm vaxt itkisini, həm də xərcləri minimallaşdırırlar.

Elektron bank xidmətlərinin üstünlükləri ilə yanaşı, bəzi çatışmayan cəhətləri də mövcuddur. Bəzən çətin əməliyyatları başa çatdırmaq və mürəkkəb problemləri həll etmək üçün şəxsi görüş tələb olunur. Ənənəvi bank müəyyən bir problemi həll etmək üçün görüşlər keçirə və mütəxəssisləri dəvət edə bilər.

Ənənəvi banklar bəzən sadiq müştərilərə güzəştli dərəcələri və əlavə ödənişsiz investisiyalar üzrə məsləhətlər kimi xüsusi xidmətlər təklif edirlər. Bundan əlavə, notarial təsdiq və bank imza zəmanəti kimi adi xidmətlər internetdə mövcud deyil. Bu xidmətlər bir çox maliyyə və hüquqi əməliyyatlar üçün vacibdir.

Onlayn bankçılıq xidmətləri də ənənəvi banklarla eyni qanun və qaydalara tabedir və hesablar banklar tərəfindən qorunur. Mürəkkəb şifrələmə proqramı hesab məlumatlarını qorumaq üçün hazırlanmışdır, lakin heç bir sistem mükəmməl deyil. Hesablar fişinq, haker hücumları, zərərli proqram və digər icazəsiz fəaliyyətlərə məruz qala bilər. Artıq əksər banklar, qəbz saxtakarlığının qarşısını almaq və müəyyənləşdirməyə kömək edən təmizlənmiş qəbzlərin skan edilmiş surətlərini onlayn olaraq təqdim edirlər. Bütün qəbzlərin müştəri tərəfindən imzalandığını və dollar və ya avro məbləğinin dəyişdirilmədiyini yoxlamağa imkan verir. Uyğunsuzluqların vaxtında aşkarlanması dərhal bildirilə və bu uyğunsuzluq dərhal araşdırılmaya cəlb oluna bilər.

Hesablar avtomatik olaraq elektron köçürmənin köməyi ilə ənənəvi bank hesabından doldurula bilər. Kommersiya banklarının elektron bank xidmətlərinin əksəriyyəti həm ölkədaxili, həm də xarici maliyyə qurumları üçün nəzərdə tutulmuşdur. Onlar həmçinin müştərinin icazə verdiyi birbaşa depozitlər qəbul edirlər, o cümlədən heç bir xərc olmadan limitsiz pul köçürmələri onlayn bankçılıqda mövcuddur. Həmçinin hüquqi şəxslər üzrə işçilərin əmək haqqlarının köçürülməsi, avtomatik ödənişlərin həyata keçirilməsi də onlayn bankçılıq sistemində mümkündür.

Azərbaycanda gənc təbəqə arasında internet və mobil bankçılıqdan istifadə, razılıq hədləri üzrə sorğu keçirilmişdir. Aydın olur ki, sorğuda iştirak edən şəxslər arasında hazırki an üçün onlayn bankçılıq sistemindən istifadə halları yüksəkdir və bu rəqəmlər demək olar ki, günbəgün artmaqdadır.(qrafik 2).



Qrafik 2. Azərbaycanda onlayn bankçılıqdan istifadə göstəriciləri.

Elektron iqtisadiyyat problemləri Avropa İttifaqının Lissabon strategiyası çərçivəsində həyata keçirdiyi təşəbbüslərin əsas elementinə çevrilib. 2002-ci ilin iyulunda Sevilya şəhərində qəbul edilmiş "Elektron Avropa" təşəbbüsü çərçivəsində Lissabon

strategiyasının əsas məqsədi Avropa iqtisadiyyatını 2010-cu ilə qədər biliklərə əsaslanan ən rəqabətqabiliyyətli dünya iqtisadiyyatına çevirməkdən ibarətdir. Strategiyanın əsas şərtlərindən biri-elektron bankçılığın inkişafını inteqrasiya olunmuş Avropa maliyyə xidmətləri bazarının yaradılmasının daha dinamik fundamental amilinə çevirməkdir. Bu, telekommunikasiya xidmətləri bazarının liberallaşdırılması sayəsində mümkündür ki, bu proses həm sektorun inkişafına, həm də bank sektoru tərəfindən göstərilən elektron xidmətlərin inkişafına əlverişli təsir göstərəcəkdir. Bu səbəbdən Lissabon strategiyası bazarın liberallaşmasına, telekommunikasiya sektoru-nun inkişafına diqqət yetirir və Avropa ittifaqında maliyyə institutlarının və kapital bazarı-nın rolunu və yerini aydın müəyyənləşdirir.

Kommersiya bankları onlayn bank xidmətləri vasitəsilə müştərilərə hərtərəfli imkanlar yaradırlar. Bu xidmətlər xüsusilə bankın hüquqi müştəriləri üçün daha arzuolunandır. Bunlara funksional büdcə və proqnozlaşdırma vasitələri, maliyyə planlaşdırma imkanları, investisiya təhlili alətləri, kredit kalkulyatorları və kapital ticarət platformaları daxildir. Bundan əlavə, pulsuz onlayn faktura ödəmələri, onlayn vergi formaları və vergi hazırlığı da təklif edilən xidmətlər içərisindədir.

Maliyyə sektorunun, o cümlədən bankların fəaliyyəti fiziki məhsulların istehsalı ilə bağlı deyil, lakin telekommunikasiya və informasiya texnologiyalarının nailiyyətlərindən geniş miqyasda istifadə etməklə informasiyaya əsaslanan biznesdir. Maliyyə idarəetməsi kredit qabiliyyəti, alıcılıq qabiliyyəti və şəxslərin, müəssisələrin maliyyə vəziyyəti haqqında məlumatların daha çox idarə edilməsinə çevrilir. Yeni texnologiyalar müştərilərlə münasibətlərin idarə edilməsinə, əvvəlki dövrdə olduğu kimi deyil, sistemlərin və bankların daxili əməliyyatlarının inteqrasiyasının yaxşılaşdırılmasına, paylama kanallarının daxili effektivliyinin artırılmasına və inkişafına yönəlib. Bu amillər bank sektorunun elektron mühitdə fəaliyyət göstərməsini və elektron iqtisadiyyatın inkişafı üçün ən yaxşı şəkildə hazırlanmasını şərtləndirir. İnformasiya kommunikasiya texnologiyaları bank fəaliyyətinin istənilən növündə istifadə oluna bilər və bütün maliyyə xidmətləri sektorunda dəyişikliklərin əsas amilidir. Bu iqtisadi vəziyyətdə yalnız müxtəlif paylama kanallarından və müxtəlif xidmətlərdən istifadə edən banklar uğur qazanacaqlar, müasir texnoloji həllər isə onların uzunmüddətli strategiyasının əsasını təşkil edəcəkdir.

2020-ci ilin Azərbaycan Respublikasının tarixində yaddaqalan olmasının başlıca səbəbi işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi olmuşdur. Azərbaycan artıq azad edilmiş əraziləri tamamilə bərpa etməyi hədəfləyib. Dağıntıların miqyası iqtisadi bərpa prosesini mürəkkəb və vaxtaparan etməsinə baxmayaraq, Azərbaycan azad edilmiş əraziləri yüksək texnoloji inkişaf sahələrinə çevirmək istəyir. Elə bu məqsədlə də müharibədən dərhal sonra azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafı planı hazırlandı və yenidənqurma prosesi başladı. Bərpa prosesinin səmərəli təşkili üçün "Koordinasiya Qərargahı" və müxtəlif sahələr üzrə 17 işçi qrupu yaradıldı. İlkin olaraq bərpa prosesi üçün 2021-ci ilin büdcəsində 2,2 milyard dollar ayrılması planlaşdırılır. Bu vəsait infrastrukturun formalaşdırılmasına və kommunal xidmətlərin mövcudluğunun təmin edilməsinə sərf ediləcəkdir. Növbəti mərhələdə prioritet özəl və xarici investisiyalara veriləcək.

İnternet bankçılığın üstün və çatışmayan cəhətlərinin qeyd olunmasında əsas məqsəd işğaldan azad edilmiş rayonlarda biznes mühitinin qurulması üçün kommersiya banklarının bu xidmətlərini daha da inkişaf etdirərək investorlar üçün daha cəlb-

edici və əlçatan etməli olmasıdır.

Kommersiya banklarının internet bank xidmətlərinin işğaldan azad olunan ərazilərdə biznes mühitnin yaradılmasında nə kimi faydaları ola bilər? Qeyd etmək lazımdır ki, biznes mühitinin formalaşmasında investorların cəlbi ilkin və başlıca məqsəddir. Təbii ki, investor isə daha çox gəlir əldə edə biləcəyi və gəlirini daha rahat idarə edə biləcəyi mühitləri axtarır. Belə ki, işğaldan azad edilən ərazilərin bərpasına yatırılan investisiyaların qazanc gətirmə gözləntisi yüksəkdir. İnvestor bu baxımdan risk hiss etmədən yatırım edə bilər. Eyni zamanda kommersiya banklarımız trəfindən təklif olunan internet bankçılıq xidmətləri daha çox özünü doğruldarsa, investorlar maliyyə vasitələrini daha rahat idarə edə bilərlərsə, bu zaman daha da az risk görər və yatırıma daha çox meyl edə bilərlər.

Əgər internet bankçılıq xidməti xarici investorun qarşısına qoyduğu məqsədləri həyata keçirməsinə imkan verirsə, bu o deməkdir ki, investor maliyyə əməliyyatlarını daha rahat icra edə biləcək və yatırım etməyə daha açıq olacaq. Bu xidmətlərə investisiya vasitəsilə yaradılan biznes mühitdə işçilərin əmək haqqlarının internet bankçılıq xidmətləri vasitəsilə rahat formada ödəyə bilməsi, investisiyadan əldə etdiyi gəliri rahat formada istədiyi istiqamətlər üzrə yenidən yatırım edə bilmə imkanı yaratması və vəsait azlığı yaranan zaman internet bankçılıq üzərindən rahat formada köçürmə vasitəsilə investisiya məbləğinin artırılması və s. bu kimi əməliyyatlar aid edilir.

Hazırda Azərbaycanda kommersiya bankları müştərilərini mobil tətbiqdən və internet bankçılıqdn istifadəyə təşviq etməlidir. Bunun üçün ənənvi formadan daha az xərclərlə onlayn forma təklif edilməlidir mobil və internet bankçılıq xidmətlərinin keyfiyyəti, işləmə sürəti yüksəldilməli, rahatlığı və mobilliyi artırılmalıdır. Eyni zamanda xarici investorların cəlbi üçün isə onlayn bankçılığın digər xarici dillərdə istifadəsinin mümkünlüyü təqdirəlayiq haldır. Xarici investorların cəlbində isə kommersiya banklarının elektron bank xidmətlərinin bilavasitə deyil, birbaşa rolu böyükdür. Bunun üçün də kommersiya bankları bu növ xidmətlərinin artırılmasında və yeniliklərin tətbiq olunmasında daim aktiv olmalıdırlar.

İstifadə olunmuş ədəbiyyat:

1. Tağıyev X., Rüstəmov T. “Rəqəmsal ödənişlər və elektron bankçılıq”, Bakı, 2021.

2. Tağıyev X., Rüstəmov E., Qasımov R. “Bankçılıq və rəqəmsal ödənişlər”, Bakı, 2019.

3. Zandi Mark, Singh Virenda, Irving Justin, The impact of electronic payments on economic growth, Moody's Analytics, 2013.

4. Zandi Mark, Koropeckyj Sophia, Singh Virenda, The impact of electronic payments on economic growth, Moody's Analytics, 2016.

5. www.toughnickel.com/personal-finance/Personal-Online-Banking

6. www.investopedia.com/articles/pf/11/benefits-and-drawbacks-of-internet-banks.asp

7. www.euractiv.com/section/azerbaijan/opinion/azerbaijan-to-re-build-the-liberated-karabakh/

8. www.thebalance.com/what-is-an-online-bank-315204

Əliyev Arif Nail oğlu, doktorant,
Azərbaycan Kooperasiya Universiteti
Email: aliyevv.a07@gmail.com

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ SAHIBKARLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Azərbaycanda müasir neft sektorunun iqtisadiyyatın digər sektorları ilə müqayisədə üstünlüyü son nəticədə onun yüksək inkişafına gətirib çıxarmışdır. Bu mənada neft sektorunda investisiyalar üstünlük təşkil etmiş və iqtisadiyyatda neft amilinin rolu əhəmiyyətli dərəcədə artmışdır. Faktiki olaraq, neft sektoru digər regionlarla müqayisədə xeyli inkişaf etmişdir. Bununla yanaşı, ölkədə neft strategiyasının həyata keçirilməsi qeyri-neft sektorunun inkişafı üçün lazımi resursların yaradılmasına və dövlətin bu sahədə səmərəli tədbirlər görməyə qadir olmasına gətirib çıxarmışdır. Neft gəlirlərinin hesabına qeyri-neft sektorunun inkişafı üçün zəruri resursların yaradılması qeyri-neft sektorunun inkişafının vacibliyini artırır.

Ölkənin davamlı iqtisadi inkişafının təmin edilməsi iqtisadiyyat sektorları arasında tarazlığın qurulmasını işçi qüvvəsindən, təbii və maddi resurslardan səmərəli istifadə olunmasını tələb edir. Son illərdə ölkənin hərtərəfli sosial-iqtisadi inkişafını təmin etmək üçün görülən tədbirlər də qeyri-neft sektorunun inkişafına səbəb olmuşdur. Eyni zamanda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sahibkarlıq sektorunun inkişafı bu ərazilərdə özəl sektorun və biznes mühitinin daha səmərəli təşkilinə xüsusi diqqətin yetirilməsini xüsusi zərurətə çevirməkdədir.

Hazırda dövlət səviyyəsində qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilməkdədir. Xüsusilə də kənd təsərrüfatının inkişafı ölkə üçün iki mühüm amil üzrə strateji əhəmiyyətə malikdir. Birincisi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, ikincisi, biznesin inkişafı yolu ilə regionların əhalisinin rifah halının yaxşılaşdırılması üçün bu daha önəmlidir. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı, bu sahələrin inkişafına diqqətin artırılması da vacib məsələlərdən biridir.

Ali Baş Komandan, möhtərəm prezidentimiz İlham Əliyevin qətiyyəti və igid ordumuzun qəhrəmanlığı nəticəsində torpaqlarımızın 2020-ci ildə işğaldan azad edilməsi biznesin inkişafı üçün yeni imkanlar açmışdır. Azad edilmiş rayonlarda öz biznesini açmaq istəyən sahibkarlardan müvafiq dövlət qurumlarına çoxlu müraciətlər daxil olmaqdadır. Bu müraciətlər əsasən istehsal, turizm, toxuculuq, tikinti, tibb, eləcə də ictimai iaşə, qida sənayesi və kənd təsərrüfatı ilə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olan ərazilərdə yenidənqurma çərçivəsini müəyyənləşdirmişdir ki, bu çərçivədə aşağıdakı istiqamətlər xüsusilə diqqəti cəlb edir:

– xarici tərəfdaşları və sərmayədarları da cəlb etməklə iqtisadi inkişafın təmin edilməsi;

– institusional qərarlar, bərpa-tikinti və humanitar fəaliyyət də daxil olmaqla, postkonflikt dövründə işğaldan azad edilmiş Azərbaycan ərazilərinin inkişafı;

– dövlət ilə özəl sektor arasında əməkdaşlığın daha da genişləndirilməsi;

– qaçqın və köçkünlərin geri qaytarılması;

– sosial kapitalın inkişafı üzrə xüsusi dövlət proqramlarının həyata keçirilməsi.

Postkonfilikt yenidənqurma işləri Azərbaycan Respublikasının ümumi inkişaf

strategiyası çərçivəsində işğaldan azad olunmuş ərazilərin yenidən inteqrasiyası və dəyərin yaradılması zəncirinə qoşulması yolu ilə həyata keçiriləcəkdir. BMT-nin Davamlı İnkişaf Məqsədlərinə və 4-cü sənaye inqilabının prinsiplərinə uyğun olaraq, postkonfilikt ərazilər yerli xüsusiyyətlər, resurslar və perspektivlər nəzərə alınmaqla inkişaf edəcəkdir. Beynəlxalq ekspertlərin cəlb edilməsi ilə Ermənistanın Azərbaycana vurduğu ziyan, o cümlədən torpağa, suya, meşə ehtiyatlarına, faydalı qazıntılara, əmlaka və mədəni resurslara dəyən ziyan hesablanır və mülki şəxslərə qarşı iddialar irəli sürülür.

Qarabağın inkişaf strategiyası yerli, regional, milli və beynəlxalq səviyyələrdə qısa, orta və uzunmüddətli tədbirləri əhatə edə bilər. Strategiyanın həyata keçirilməsi üçün idarəetmənin təşkilini həyata keçirmək və dövlətin makroiqtisadi, fiskal, pul-kredit, sosial və digər siyasət vasitələrindən istifadə etmək çox vacibdir. Eyni zamanda, milli valyutanın real məzənnəsini tənzimləmək üçün pul kütləsinin iqtisadiyyatın udulması mərhələlərinin nəzərə alınması da tələb oluna bilər.

İşğaldan azad olunmuş ərazilərdə dağ-mədən sənayesi, metallurgiya, qida sənayesi, emal sənayesi, turizm və istirahət, kreativ sənaye, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq kimi sahələrin inkişaf imkanları mövcuddur. Bu ərazilərdə həm də tikinti materiallarının istehsalı sahələrini inkişaf etdirmək potensialı vardır. Bu sahələrə qoyulan investisiyalar həm qeyri-neft ixracının və idxalının artması, həm də dəyərin yaradılması zəncirlərinə qoşulmaq üçün vacibdir. Postkonfilikt ərzilərdə aparılan yenidənqurma işləri ərzaq təhlükəsizliyi də daxil olmaqla, iqtisadi təhlükəsizlik baxımından da mühüm rol oynayacaqdır. Sənaye parkları və rayonları, aqro və texno parkları və digər investisiya təşviqi mexanizmləri də daxil olmaqla, bu sahələrə investisiyaların yatırılmasını təşviq etmək üçün müxtəlif mexanizmlər tətbiq oluna bilər. Qarabağda sərmayədarların marağını cəlb edə biləcək resurslar, strateji aktivlər, səmərəlilik və bazarlar mövcuddur. Regionun İranın 80 milyonluq bazarına və Türkiyənin 83 milyonluq bazarına (Naxçıvan vasitəsilə) çıxmaq imkanı ixraca yönələn investisiyalar üçün cəlbedicidir.

İşğaldan azad edilmiş ərazilərin bərpası üzrə işlərə artıq başlanılmışdır. Bu sahədə yeni iqtisadi modelin tətbiqi planlaşdırılır. Bir tərəfdən, yeni iqtisadi model azad edilmiş torpaqlarda müasir infrastrukturun formalaşmasını əhatə edəcəkdir və bu proses artıq başlamışdır. Füzulidə beynəlxalq hava limanının yaradılması, Füzuli-Şuşa yolunun tikintisi, beynəlxalq standartlara uyğun kommunal şəbəkələrin təmin edilməsi və digər infrastrukturun genişləndirilməsi ilə bağlı fəaliyyət bunun sübutudur.

Xüsusilə, müasir dövrdə azad edilmiş ərazilərin bərpası üçün passiv vəsaitlərin cəlb edilməsi üzrə fəaliyyətin genişləndirilməsi prioritetdir. Azad edilmiş ərazilərdə infrastruktur, təsərrüfat idarəçiliyi və biznes mühiti müasir çağırışlara və beynəlxalq standartlara uyğun formalaşdırılacaqdır.

Azad edilmiş ərazilərin yaxın illərdə Azərbaycanın iqtisadi inkişafının əsas istiqamətlərindən biri olacağı gözlənilir. Təcrübə və tədqiqatlar deməyə əsas verir ki, bu ərazilər o cümlədən, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları öz zəngin təbii resursları, əlverişli iqlim şəraiti ilə fərqlənir. Məhz bu kimi resurs və şəraitlər bu ərazilərin bundan sonra da iqtisadi inkişafı üçün əlverişli şərait yaratmaqdadır. Həmçinin, ölkə başçısının qeyd etdiyi kimi, bu ərazilərdə sahibkarlıq sektorunun inkişafı üçün geniş imkanlar mövcuddur və bu da müvafiq sahələrdə investisiya

qoyluşlarının artırılmasında önəmli rol oynayır. İşğaldan azad olunan ərazilərin iqtisadi inkişaf istiqamətlərini müvafiq baxımdan dəyərləndirmək mümkündür:

– Füzuli, Cəbrayıl və Zəngilan rayonları kifayət qədər təbii ehtiyatlarla malik olan zəngin rayonlar hesab edilir. Bu rayonlarda dəmir filizindən, tikinti materiallarından istifadə olunmaqla özəl sektorun inkişafını təmin etmək olar.

– İşğalda azad olunan rayonlarda xeyli sayda material ehtiyyatları vardır. Təbii ki, bunlar məhz həmin ərazilərin iqtisadi baxımdan əhəmiyyətini göstərən vacib amillərdən hesab olunur.

– Həmin ərazilər Azərbaycan üçün kənd təsərrüfatının inkişafı baxımından önəmli hesab olunur. Çünki, işğaldan əvvəlki dövrlərdə məhz həmin rayonlar aqrar sektorun inkişafı baxımından öz xüsusi çəkisi ilə fərqlənmişdir. Belə ki, Füzuli rayonu pampıqçılıq, üzümçülük, taxılçılıqda xüsusi paya malik idi. Xüsusən də taxılçılıq və üzümçülük üzrə Füzuli rayonu respublikada aparıcı rayonlardan hesab edilirdi. Digər rayonlar da südçülük, heyvandarlıq, tütünçülük və digər sahələr üzrə ixtisaslaşmışdı. Bu kimi amillər də deməyə əsas verir ki, müvafiq rayonlarda fermer təsərrüfatının inkişafı üçün geniş imkanlar olacaqdır:

– İşğaldan azad olunan bölgələrdə sənaye, xüsusilə də emal sənaye məhsullarının inkişafını təmin etmək mümkündür. Belə inkişafda sahibkarlıq subyektlərinin rolu daha da fəallaşdırılmalıdır.

– Perspektivdə işğaldan azad olunan ərazilərdə turizmin inkişaf potensialı yüksəkdir. Qeyd etmək lazımdır ki, qədim yaşayış yerlərindən hesab edilən Azıx mağarası Füzuli rayonunda yerləşir, digər rayonlarda da qədim tarixi abidələr mövcuddur. Bu rayonlarda daxili və gəlmə turizm imkanlarını kifayət yüksək qiymətləndirmək mümkündür.

– Xudafərin körpüsü və Araz çayı üzərində inşa olunan su elektrik stansiyaları ölkənin enerji potensialını artırmaqla, onun ixracına da səbəb olacaqdır. Həmçinin, bu körpü İran - Azərbaycan əməkdaşlığının daha da genişləndirilməsinə xidmət edəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.

2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”. Bakı, 2016. http://www.president.az/articles/17670.

3. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016. http://www.president.az/articles/17670.

4. “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016. http://www.president.az/articles/17670.

5. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 2015. http://www.president.az/articles/17670.

6. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Bakı, 2019. http://www.president.az/articles/17670.

Cəlilova Cəmilə Əli qızı, doktorant
Azərbaycan Kooperasiya Universiteti

AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF İMKANLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ

Turizmin inkişafına hər bir ölkənin təbii-ekoloji resursları, tarixi abidələri, mədəniyyəti, əhalinin ünsiyyət əlaqələrinin səviyyəsi, sosial infrastrukturunun vəziyyəti və s. amillər təsir göstərir. Lakin bu amillərin hər birinin turizmin inkişafına təsiri səmərəli xərclənən maliyyə vəsaitlərinin həcmi ilə müəyyən olunur.

Nəzərə almalıyıq ki, turizmin inkişafına qoyulan investisiyalar dünyada yalnız neft sənayesindən və maşınqayırmadan geri qalır. Statistika göstərir ki, xərclərin ödəmə əmsalı neft sənayesində 5-ə bərabərdirsə, bu göstərici turizm sferasında 1,8-ə çatır.

Beynəlxalq turizmə qoyulan xərclərin səmərəsinin yüksək olması bir çox ölkələrdə, o cümlədən Azərbaycanda, Afrika və Cənubi Şərqi Asiya dövlətlərində bu sferaya ayrılan xərclərin artması üçün stimul rolunu oynamışdır. Beynəlxalq Turizm Təşkilatının məlumatına əsasən 2020-ci ildə Liviya, Əlcazair, BƏƏ, Morokko, Xorvatiya və s. dünyada istirahət üçün ən yaxşı şəraiti olan ölkələrin siyahısında lider dövlətlərə çevrilə biləcəklər. Bu fakt əsas verir qeyd edək ki, ənənəvi turizm ölkələri ilə yanaşı, zəif dövlətlər də milli iqtisadiyyatlarını inkişaf etdirmək, daha çox gəlir əldə etmək məqsədilə bu sahəyə böyük maraq göstərir və investisiya qoyuluşunu artırırlar.

Qeyd etmək lazımdır ki, Azərbaycan turizminin dünya turist bazarında xüsusi çəkisi 1%-dən aşağıdır. Buna baxmayaraq, son 5 ildə respublikada turizmin inkişafı üçün dövlət səviyyəsində təsirli tədbirlər görülmüşdür. Turizm sferasının maddi-texniki bazasını, sosial infrastruktur sistemini dünya standartları səviyyəsində təşkil etmək üçün bu sahənin maliyyə təminatı getdikcə yaxşılaşdırılır.

Turizmin investisiya təminatının yaxşılaşdırılması dövlət vəsaiti, sahibkarların kapitalı, birgə müəssisələrinin yaradılması və respublikaya cəlb edilən xarici investisiyalardan istifadə əsasında həyata keçirilir.

Xarici investisiyaların əksər hissəsinin adı çəkilən sahəyə yönəldilməsinə baxmayaraq, bu sahənin ümumidaxili məhsulda və ümumi gəlirlərdə payı 43%-dən çox deyildir. Xarici investisiyalardan istifadəyə bu cür yanaşmaq monosahəvi iqtisadiyyatın inkişafına gətirib çıxara bilər. Beynəlxalq ekspertlərin məlumatlarına əsasən, Azərbaycanda "Əsrin kontraktı" əsasında neft hasilatının "pik" dövrü 2012-ci ilə təsadüf edir.

Respublikada turizm sahəsində elə çevik texnoloji siyasət yeridilməlidir ki, o istehlak dövriyyəsinə yeni resursların cəlb edilməsinə imkan versin. Digər tərəfdən, xarici investisiyaların cəlb edilməsi və iqtisadi dövriyyədə istifadə olunması müddətləri bir-birilə elə razılaşdırılmalıdır ki, cəlb olunmuş vəsait gözlənilən səmərəni versin.

Turizmin xarici investisiya təminatına regionların inkişaf səviyyəsini, onlarda infrastrukturların vəziyyətini nəzərə almaqla yanaşmaq lazımdır. Əksər inkişaf etmiş ölkələrdə bu problemin həllində xarici və birgə sahibkarlığın imkanlarından da geniş istifadə olunur ki, bu da turist mühitinin yaxşılaşdırılması amili kimi çıxış edir.

Hesablamalar göstərir ki, gəlmə turizmin inkişafına yönəldilən daxili və xarici investisiyaların hesabına turizmi iqtisadiyyatın gəlirli sahələrindən birinə çevirmək

üçün böyük imkanlar vardır. ÜTT-nin məlumatlarına əsasən bir turistin səyahət, yaxud istirahət etməsi üçün lazım olan orta maliyyə xərcləri əsasında ildə 5 mln. Turist qəbul edən Azərbaycan Respublikasında 6,0 mlrd. dollar ümumi gəlir əldə etmək mümkündür. Hesab edirik ki, Azərbaycanın malik olduğu rekreasiya ehtiyatları turizmin formalarından səmərəli istifadə etməklə dövlət büdcəsinin gəlirlərinin formalaşmasının mühüm mənbəinə çevrilə bilər. Bunun üçün kənd turizminin, ekoturizm və aqroturizmin investisiya təminatı və hüquqi bazası əsaslı surətdə gücləndirilməlidir.

Kanada, Almaniya, Avstraliya və s. dövlətlərin təcrübəsi göstərir ki, bu ölkələr aqroturizmin inkişafı hesablna on milyardlarla gəlir əldə edirlər. Azərbaycan Respublikasında Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə-Qazax regionlarında aqroturizm, Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara zonalarında isə kənd turizminin inkişafı üçün böyük ehtiyat mənbəələri vardır.

Əsas vəzifə ondan ibarətdir ki, pandemiya şəraitində bu ehtiyatları təsərrüfatçılıq dövriyyəsinə daxil etməklə onlardan səmərəli istifadə olunsun. Qeyd olunan problemin həlli yalnız dövlət vəsaiti hesabına deyil, digər maliyyə mənbəlrindən də istifadəyə əsaslanmalıdır.

Qeyd etdiyimiz turizm formalarının investisiya təminatını yaxşılaşdırmaq üçün sahibkarlığın müxtəlif formalarından istifadə edilməsi iqtisadi cəhətdən məqsədəuyğundur.

Qeyd etmək lazımdır ki, Azərbaycana xarici və birgə müəssisələrin hesabına 2008-ci ildə cəmi 250 mln. dollar həcmdə investisiya qoyulmuşdur. Bu investisiyaların da 90%-i xidmət və marketinq fəaliyyətinə yönəldilmişdir.

Azərbaycanın regionlarında hazırda aqroturizmin xarici investisiya hesabına inkişafı üçün böyük imkanlar vardır. Vaxtı ilə Almaniya, Kanada, Çin və digər dövlətlərdə xarici sahibkarlarla müəyyən torpaq sahələri qanunçuluq əsasında verilməklə aqroturizmdən istifadə sahəsində böyük nailiyyətlər qazanılmışdır. Belə ki, Kanadalı sahibkara rayonların birindən 100-150 hektar torpaq sahəsi ayrılır. Həmin sahibkar tərəfindən öz vəsaiti hesabına böyük həcmdə meliorasiya, irriqasiya işləri həyata keçirilir və torpaq əkin üçün yararlı vəziyyətə gətirilir. Lazım bilinən bitkilər əkilir və istehsal prosesi başlayır. Kanadalı sahibkar ildə 2-3 ay investisiya qoyduğu sahəyə turist kimi dincəlməyə gəlir, istehsal olunan məhsulun reallaşdırılması prosesini həyata keçirməklə daxili bazarda ərzaq bolluğunun yaradılmasına öz töhfəsini verir.

Fikrimizcə, Şirvan, Muğan və digər regionlarda qeyd etdiyimiz kimi aqroturizmin inkişafı üçün böyük imkanlar vardır. Əsas vəzifə bu imkanları təsərrüfatçılıq dövriyyəsinə daxil edib onlardan səmərəli istifadə etməkdən ibarətdir.

Qeyd edək ki, turizm sahəsində müəyyən investisiya çətinliklərinin olmasına baxmayaraq, Azərbaycanda turizm fəaliyyəti respublikada yaradılan kiçik müəssisələr (şirkətlər), Turizm və Mədəniyyət Nazirliyi, dini qurumlar tərəfindən həyata keçirilir.

Bu qurumların investisiya qoyuluşu baxımından imkanları o qədər zəifdir ki, onlar gəlmə və digər turizm formalarının inkişafını təmin etməyə imkan verən maddi-texniki baza, lazımı infrastruktur şəbəkəsini yaratmağa qadir deyillər. Yerli təyinatlı kiçik müəssisələr və şirkətlər əsasən getmə turizmin inkişafına xidmət edir, turist putyovkalarını reallaşdırır və qrup halında səyahət gəzintiləri həyata keçirirlər. Lakin unutmaq lazım deyil ki, turizm iqtisadi cəhətdən gəlirli sahə olmaqdan başqa işsizliyin aradan qaldırılmasına, insanların sosial şəraitinin yaxşılaşdırılmasına kömək edir. Bu

da əsas verir qeyd edək ki, turizm struktur yaradan fəaliyyət sahəsidir.

Malayziya, Sinqapur və digər dövlətlərin təcrübəsi göstərir ki, turizmin inkişafı bu ölkələrdə turizm hədiyyələri istehsalı sənaye sahəsinin, yeni xidmət sahələrinin yaradılmasına səbəb olmuşdur. Əksər turizm ölkələrində qeyd etdiyimiz məşğuliyyət sahələri dövlət büdcəsinin, yaxud ayrı-ayrı turizm şirkətlərinin, ailələrin gəlirlərinin formalaşması mənbəyinə çevrilmişdir. Avstriya kimi turist ölkəsinə 2018-ci ildə 22,4 mln. nəfər turist gəlmişdir. Turistlərin hər biri turist hədiyyələri sənayesi istehsalı sahəsinin hazırladığı bir dollarlıq hədiyyəni alarsa, əldə olunan gəlir 22,4 mln, dollar təşkil edəcəkdir. Həmin hədiyyənin hazırlanması xərcləri məhsulun dəyərinin 60%-ni təşkil etdiyi halda, hər vahid hədiyyəyə görə qazanılan mənfəət 0,40 dollara bərabər olacaqdır. Beləliklə, ölkə miqyasında 8,96 mln. dollarlıq (22,4 mln x 0,40) mənfəət dövlətin, sahənin, yaxud şirkətin büdcəsinə daxil olacaqdır. Bu da sonrakı illərdə dövlətin turizm sferasına daha çox investisiya yönəltməsinə, onun maddi-texniki bazasının komfort vəziyyətində saxlanmasına imkan verəcəkdir. Ölkə iqtisadiyyatının, o cümlədən turizmin inkişafında xarici investisiyanın artan rolunu nəzərə alaraq, onların bölüşdürülməsinə metodoloji yanaşmanın təkmilləşdirilməsinə ehtiyac vardır.

Fikrimizcə, xarici investisiyaların bölüşdürülməsində bu və ya digər sahənin aparıcı sahə faktı ölkəyə daxil olan kapitalın 80-85%-nin bur sahəyə yönəldilməsi üçün məqbul hesab edilməməlidir. Hesab edirik ki, respublikada istehsal olunan ümumidaxili məhsulda sahənin xüsusi çəkisi, çəkilmiş xərclərin hər vahidinə görə nə qədər yeni dəyər yaratması nəzərə alınmaqla və sahənin cəmiyyət üçün faydalılığı əsasında xarici investisiyaya olan tələbat ödənilməlidir.

Hazırda respublikanın ÜDM –də kənd təsərrüfanının xüsusi çəkisi təxminən 6% təşkil edir. Lakin kənd təsərrüfatına yönəldilən xarici investisiyanın ölkə üzrə ÜDM-in strukturunda payı 1%-dən çox deyildir. Bu cür yanaşma kənd təsərrüfatında həyata keçirilən islahatların dərinləşməsinə, sosial infrastruktur sahələrinin inkişafından istənilən səmərənin əldə edilməsinə imkan vermir.

Eyni vəziyyət turizm sahəsində də özünü biruzə verir. Respublikamızın turist bazarında reallaşdırılan turizm məhsulları və göstərilən xidmətlərin dəyərinin ölkə üzrə ÜDM–də payı təxminən 4%-ə çatır. Lakin xarici investisiyaların sahələr arasında bölüşdürülməsində bu ehtiyatların heç 1/5-i nəzərə alınmır. Şübhəsiz ki, bu hal turizmin lazımı səviyyədə inkişafına mənfi təsir göstərir. Biz hesab ediri ki, Azərbaycanda turizmin inkişafına imkan verən rekreasiya ehtiyatlarını təsərrüfat dövriyyəsinə daxil edib onlardan səmərəli istifadə etmək üçün ilk növbədə regionlar üzrə turizmin xarici və sahibkar investisiyasına, həmçinin sığorta şirkətləri tərəfindən qoyulan vəsaitə olan tələbatı müəyyənləşdirilməlidir. Xarici investisiyasız inkişafı mümkün olmayan rek-reasiya ehtiyatlarını təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək üçün onlar beynəlxalq investisiya bazarına çıxarılmalıdır. Işin daha səmərəli qurulması üçün mülkiyyət mən-subiyyətindən asılı olmayaraq respublikada mövcud olan turizm yerlərinin im-kanları beynəlxalq səviyyədə dövlət tərəfindən reklam edilməlidir (Polşada olduğu kimi).

Bu cür yanaşma turizmə xarici investisiya cəlb etmək üçün səmərəli seçim etməyə imkan verəcəkdir. Beləliklə də turizmin inkişafına cəlb edilən xarici investisiyanın hər dolları Azərbaycanda yeni aparıcı sahənin əmələ gəlməsi prosesini sürətləndirəcək ki, bu da iqtisadiyyatın dayanıqlı inkişafına kömək edəcəkdir.

Musayev Ceyhun İskəndər oğlu, doktorant,
Bakı Biznes Universiteti
Email: hedef2023e@gmail.com

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN SÜRƏTLİ İNKİŞAFI VƏ ÖZÜNÜ MALİYYƏLƏŞDİRMƏSİ ÜÇÜN AQROTURİZMİN TƏTBİQİ

Azərbayacanda turizmin inkişafı istiqamətində uzun illərdir böyük işlər görülmüşdür və bu istəqamətdə dövlət marağı da danılmazdır. Lakin ölkəmizin ən böyük turizm potensialına malik olan Qarabağ və ətraf rayonları 1992-ci ildən indiyədək işğal altında olduğu üçün bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar artıq yağı tapdağından azad olunub. Bu gün müzakirə olunan əsas mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir. Çünki işğaldan azad olunmuş Qarabağımızın sürətlə dirçəlməsi, inkişaf etdirilməsi və dünyaya gerçək sahiblərini tanıtdırması üçün turizm mükəmməl bir vasitədir. Dünya təcrübəsində də turizm ölkənin milli-mənəvi sərvətlərini tanıtmaq və bundan gəlir eldə etmək üçün istifadə olunan önəmli bir yoldur. Apardığım tədqiqatlar göstərmişdir ki, işğaldan azad edilmiş Qarabağ və ətraf rayonlarını sürətli inkişafı və özünü maliyyələşdirməsi üçün ən perspektivli turizm növü "Aqroturizm"dir.

Aqroturizm - kənd təsərrüfatı ilə turizm sektorlarının kəsişməsindən meydana gələn turizm növüdür. Aqroturizmin əsas mahiyyəti aktiv təsərrüfat sahələrinə, fermalara və kənd təsərrüfatının digər sahələrinə səyahətlərdir. Müasir dünya bu rekreasiya imkanını artıq uğurlu bir ticari imkana çevirir.

Aqroturizm yeni praktiki kənd təcrübəsini və təəssuratlarını, kənd həyatını ənənəvi istirahətdən üstün tutan turistlər üçün daha maraqlı olur. Bu turistlərin kənd həyatına, kənd heyvanlarına, təbiətə, bitkilərə, yerli əhaliyə, kəndin sakitliyi və hüzuruna olan emosional bağlantıları daha güclü olur və bu faktorlar onların turist məkanını seçmələrinə birbaşa təsir edir. Beləliklə, aqroturizm fəaliyyətlərinə başlayan fermer və ya sahibkarlar təşkil etdikləri fəaliyyətlərin rəngarəngliyi ilə müxtəlif turistləri cəlb edə bilərlər.

Aqroturizm bir çox kənd təsərrüfatı fəaliyyətlərinin mühüm tərkib hissəsinə çevrilə bilər. Bu fəaliyyətlər təsərrüfat gəlirlərini artırmaq və turizm sənayesinin dayanıqlığını qorumaq potensialına malikdir. Ancaq aqroturizm fəaliyyətləri hər bir təsərrüfata və ya fermerə uyğun gəlməyə də bilər. Aqroturizm fəaliyyətinə başlamazdan əvvəl fermerlərə bu fəaliyyətin və yaxud sahənin potensialını qiymətləndirmək, müfəssəl biznes və marketinq planlaması aparmaq tövsiyə olunur.

Azərbaycanın Qərbində Kiçik Qafqaz sıra dağlarının olduğu ərazidə yerləşən Qarabağ və ətraf rayonlar yerləşdiyi iqtisadi-coğrafi mövqeyi ilə, təbiəti və iqlimi ilə hər daim diqqət mərkəzindədir. İşğaldan azad edilmiş ərazilərin ümumi sahəsi təqribən 14,31 min km^2-dir. İşğaldan azad edilmiş ərazilərin tərkibinə daxil olan şəhər və rayonlar aşağıdakı cədvəldə verilmişdir (cədvəl 1):

Cədvəl 1.

İşğaldan azad edilmiş ərazilər və sahəsi

N°	İşğaldan azad edilmiş ərazilər	Sahəsi
1.	Ağdam rayonu;	1154 km²
2.	Tərtər rayonu;	957 km²
3.	Xocavənd rayonu;	1458 km²
4.	Xocalı rayonu;	970 km²
5.	Şuşa rayonu;	289 km²
6.	Cəbrayıl rayonu;	1050 km²
7.	Füzuli rayonu;	1112 km²
8.	Xankəndi şəhəri.	926 km²
9.	Kəlbəcər rayonu;	3050 km²
10.	Laçın rayonu;	1835 km²
11.	Zəngilan rayonu;	707 km²
12.	Qubadlı rayonu.	802 km²

Geniş meşə və əkinə yararlı torpaq sahəsinə malik olan bu ərazilər aqroturizm üçün əvəzolunmaz bir coğrafiyadır. Daxili mədəniyyəti, milli adət-ənənəsi, mətbəxi, qonaqpərvər əhalisi ilə seçilən Qarabağ işğaldan azad olunduqdan sonra sürətli inkişaf üçün yüksək potensiala sahibdir. Bütün dünyada şöhrətə sahib olan "Qarabağ" cinsi atlar da aqroturizm üçün müsbət bir elementdir.

İşğaldan azad edilmiş ərazilərdə aqroturizmin tətbiq edilməsində ən vacib üstünlük ondan ibarətdir ki, o yerli məhsullardan və mövcud imkanlardan istifadə etməklə region gəlirlərini artırır və iqtisadi çətinliyin aradan qaldırılmasına, eyni zamanda yüngülləşməsinə kömək edəcəkdir. Bu isə yerli əhaliyə öz təsərrüfatlarını dirçəltməyə şərait yaracaqdır. Aqroturizm Avstraliya, Kanada, ABŞ və Filippin də daxil olmaq şərtilə dünyanın bir çox yerlərində bir inkişaf sənayesi olaraq düşünülən niş turizmin bir formasıdır. Niş turizmi müəyyən bir konsepsiya və ya mövzuya yönəlmiş xüsusi turizm növüdür və yaxud niş turizmi ixtisaslaşmış turizm növü olaraq daha seqmentlənmiş turizm fəaliyyətlərini nəzərdə tutur. Niş turizminin bir çox növü vardır və buna macəra turizmi, film yeri turizmi, miras turizmi, art (incəsənət) turizmi, şərab turizmi, golf turizmi, təbiət turizmi, treking və s daxildir.

Nəticədə aqroturizm ailə ilə birlikdə işləyərək, Qarabağ adət-ənənələrini və mədəni irsini qoruyub saxlayaraq, həm region, həm də ölkə iqtisadiyyatını dirçəldərək cəmiyyətə və insanlara xeyir verir. Bununla yanaşı, əhali yeniliklərə can atır, şəhər sıxlığından uzaqlaşır, səs-küydən qaçırlar. Aqroturizm və kənd turizmi bir-birlərinə sıx

bağlı olan sahələrdir. Turizm sənayesinin digər sahələri kimi aqroturizmin fermerlər üçün, kəndlər-icmalar və turizm sektoru üçün müəyyən faydaları vardır. Bu faydalardan bəzilərini aşağıdakı kimi vermək olar:

– aqroturizm kəndlərin sosial-iqtisadi inkişafına təkan verir;
– əhalinin yeni iş yerləri ilə təmin olunmasına şərait yaradır;
– ərazilərin təbii-iqtisadi potensialından daha səmərəli istifadə edilməsində əhəmiyyətli rol oynayır;
– sosial-mədəni xidmət sahələrinin inkişafına yol açır;
– kənd təsərrüfatının inkişafına töhfə verir;
– ətraf mühitin qorunmasına şərait yaradır;
– mədəni əlaqələrin yaradılması üçün önəmli rol oynayır;
– ənənəvi istehsal-sənətkarlıq sahələrinin qorunub saxlanmasına dəstək verir;
– yerli kulinariya ənənələrinin qorunub saxlanmasına (slow food) yardımçı olur;
– qeyri-maddi irsin qorunub saxlanılmasına töhfə verir;
– istehlakçi bazarında yeni seqmentin yaranmasına dəstək olur;
– qonaqlar üçün nəzərdə tutulmuş turizm məhsullarının və xidmətlərinin şaxələndirilməsini təmin edir.

Aqroturizm fəaliyyətləri əksər ənənəvi kənd təsərrüfatı və turizm fəaliyyətlərindən seçilir. Təsərrüfata baş çəkən müştərilər müxtəlif kənd təsərrüfatı fəaliyyətləri ilə məşğul olmaq arzusunda olmaq istəyər. Məsələn: məhsul yığımı, ot tayasının yığılması, heyvanların bəslənməsi, atla gəzinti, süd məhsullarının istehsalı və s. Bu müştərilər kənd təsərrüfatına aid bilik və təcrübələrinin az olması və yaxud olmaması səbəbi ilə sizə əhəmiyyətsiz görünə biləcək bir çox suallar verə bilərlər.

Aqroturizmlə məşğul olan fermer, təsərrüfat haqqında məlumat bölüşməyə və müştəriləri məmnun etmək üçün kifayət qədər vaxt sərf etməyə hazır olmalıdır.

Aqroturizm sektorunun işğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsi və inkişaf etdirilməsində dövlətimiz və cəmiyyətimiz aşağıda qeyd olunan müsbət nəticələrə nail ola bilər:

– bu sahənin inkişafı üçün seçilmiş kəndlərdə yeni iş yerləri açmaqla əlavə gəlir mənbəyi yaranır və bu da sosial gərginliyi azaldır;
– yeni ideyalar və yanaşmalar əlavə sərmayə qoyuluşuna gətirib çıxarır ki, bu da, aqroturizmin hərtərəfli inkişafına stimul verir;
– dövlət büdcəsinə daxil olmalar artır;
– insanlarda sahibkar ruhu güclənir;
– əhalinin yaşayış səviyyəsi artır və s.

Mövcud rəqəmsal iqtisadiyyat dövrünün də imkanlarının tətbiq etdirilməsidə bu ərazilərin tez bir zamanda dirçəlməsində və tanınmasında böyük rol oynayacaqdır. Müasir iqtisadiyyat elektronika və telekommunikası üzərində formalaşır və hazırda elektron iqtisadiyyat dövrü yaşayırıq. İstər neft sektorunda istərsə də qeyri-neft sektorunda elektron idarəetmə hakimdir. Qeyri-neft sektorunun köklü və inkişaf etmiş sahəsi olan turizm sahəsində də elektonlaşdırma sürətlə irəliləməkdədir. Belə ki, bir çox mobil tətbiqlər nəticəsində artıq turistlər istədiyi ölkənin istənilən regionunda zövqünə, keyfiyyətinə və büdcəsinə uyğun formada gecələmək üçün otel və ya mehmanxana tipli müəssisələrdən otağı öncədən sifariş verə bilər. Hətta ödənişini də öncədən “online banking” tətbiqi ilə həyata keçirə bilər. Məhs bu formada artıq turistlər

vaxta qənaət etməklə büdcələrini idarə edə bilirlər. Bundan əlavə mütəmadi olaraq onlar güzəştli paketlər barəsində məlumat əldə edə bilirlər. Hazırda dünyada bir çox populiyar turizm mobil tətbiqləri mövcuddur. “Booking.com” və “Trivago” bu kimi mobil tətbiqlərdən biridir.

Dünya təcrübəsini və yerli imkanları da nəzərə alaraq düşünürəm ki, aqroturizmdə rəqəmsallığın tətbiqi və inkişaf etdirilməsi nəticəsində bu istiqamətdə:

- regionlarda yeni biznes fəaliyyəti yaranacaq;
- həmin biznes fəaliyyətlərində yeni iş imkanları yaranacaq;
- kənd təsərrüfatının investisiya cəlbediciliyi artacaq;
- kəndlərdə aparılan infrastruktur islahatları daha da davamlı olacaq;
- turistləri yeni turizm növünə cəlb etməklə əlavə gəliri əldə olunacaq;
- turistlərin rahatlıqla istirahəti üçün aqroturizm obyektini, imkanlarını, qiymətini öyrənə biləcək və online bron edə biləcək;
- fermerlərin kənd təsərrüfatı məhsullarının dünyaya tanıdılması kimi problemləri həll olunacaq və s.

Yuxarıda qeyd edilənlər məhs aqroturizmdə rəqəmsallığın tətbiq edilməsi ilə qazanılacaq rahatlıq və üstünlüklərin məcmusudur. Artıq dünya təcrübəsində də rəqəmsallığın tətbiqi istər biznes sahiblərinə, istərsə də turistlərə bir çox üstünlüklər əldə etmələrinə imkan verir.

Hüseynova Elnurə İlqar qızı, doktorant,
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu
SOCAR Neft Kəmərləri İdarəsinin iqtisadçısı
Email: elnuraziyali@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MÖVCUD REALLIQLAR, İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN TƏHLİLİ VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qarabağ Azərbaycanın qədim tarixi bölgələrindən biridir. Bu bölgə Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Bəzi məlumatlara görə, "Qarabağ" anlayışı VII əsrdən etibarən işlənməyə başlanmış, XII əsrdən etibarən isə geniş yayılmışdı. "Qarabağ" "qara" və "bağ" türk-Azərbaycan sözlərinin birləşməsindən əmələ gəlmişdir ("qara" sözü türk dillərində, o cümlədən Azərbaycan dilində, rəng bildirməklə yanaşı, "böyük", "qalın", "sıx" mənasında da işlənir). Qarabağ təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın ən qədim tarixə malik diyarlarındandır.

Təəssüf ki, 1991-ci ilin sonları və 1992-ci ilin əvvəlindən, yəni SSRİ-nin dağılmasından sonra Ermənistan Azərbaycana qarşı açıq və genişmiqyaslı müharibəyə başladı. Bütün beynəlxalq normaların əksinə olaraq Ermənistanın hərbi qüvvələri Dağlıq Qarabağda təşkilatlandırılmış separatçı dəstələrlə birlikdə Qarabağın dağlıq hissəsini, habelə bu bölgə ilə həmsərhəd olan Azərbaycanın Laçın, Zəngilan, Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocalı, Xocavənd, Ağdərə, Ağdam, Qubadlı rayonlarını işğal etdi. Həmin rayonların əhalisi bütünlüklə etnik təmizləməyə məruz qaldı, işğal edilmiş ərazilərdəki bütün yaşayış məskənləri, ictimai, mədəni obyektlər, tarixi abidələr və

qəbristanlıqlar məhv edildi. Bütünlükdə, 1988-1993-cü illərdə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Qarabağda 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb.

Ermənistan işğal tarixindən 27 sentyabr 2020-ci il tarixinədək Azərbaycan dövlətinə qarşı təhdidlərlə çıxış edirdi. Düşmən ölkənin rəhbərliyi "yeni ərazilər uğrunda yeni müharibə" aparmaq iddiasında idi. Lakin 27 sentyabr 2020-ci il tarixindən davam edən hərbi əməliyyatlarda Azərbaycan ordusu böyük şücaət göstərərək böyük qələbə qazandı. Üçtərəfli bəyannamənin imzalanmasına qədər 44 günlük müharibə ərzində təqribən 300 yaşayış məntəqəsi, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yük-səkliklər düşməndən azad edildi. Düşmən dövlət müharibə gedişində hər cür çirkin əməllərə əl atdı, mülki əhalini atəşə tutdu, Gəncədə, Bərdədə və digər yerlərdə insan tələfatı ilə nəticələnən terror aktı törətdi, yaşayış mənzilləri bombalandı.Əslində baş verən bütün bu hadisələr düşmənin olduqca rəzil, gücsüz durumda olduğunu göstərirdi. Azərbaycan dövləti isə beynəlxalq hüquq normalarına, müharibə qaydalarına riayət edərək, öz torpaqları uğrunda haqq savaşı apardı və qalib gəldi.

Bütün bu hadisələrin fonunda Azərbaycan Respublikası 30 ildən çox həsrətini çəkdiyi qədim Qarabağ torpaqlarında, sülhün bərqərar olunmasından dərhal sonra inkişafın təmini, gələcəyin qurulması məqsədilə dövlət qurumları, güc strukturları, maliyyə orqanları, elm xadimləri və s. nüfuzların timsalında öz tövhələrini, lahiyələrini təklif etməyə başlayıb.

İşğaldan azad olunan ərazilərdə dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, emal sənayesi, turizm-rekreasiya, yaradıcı sənaye, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, tikini materialları kimi sahələr inkişaf potensialına malikdir. Bu sahələrə yatırılan sərmayələr həm qeyri-neft ixracının artması və idxalın əvəzlənməsi, həm də dəyər zəncirlərinə qoşulmaq nöqteyi-nəzərindən əhəmiyyət kəsb edəcək. Aşağıda qeyd edəcəyim bəzi nüanslara öncədən diqqəti cəlb etmək istərdim.

Belə ki, Qarabağın qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. İşğaldan öncə meşə palıd, fıstıq, çinar, qarağac və s. kimi ağac növləri, ayı, canavar, tülkü, dovşan, cüyür, kəklik, turac, göyərçin və s. heyvanlarla zəngin idi. Zəngin floraya malik olan Qarabağ ərazisində 2000-dən çox bitki növünə – meşə gilası, dağdağan, xarıbülbül, palıd, şabalıd, şümşad, armud, şərq fıstığı, vələs, ağcaqayın, ayı fındığı, qoz, şərq çinarına və s. rast gəlinir. Kəlbəcər, Laçın, Zəngilan, Xankəndi, Şuşa, Xocavənd, Ağdərə, Qubadlı, Füzuli, Ağdam, Cəbrayıl, Xocalı qəsbkar ermənilər tərəfindən işğal olunduqdan sonra qiymətli ağac növləri Ermənistan ərazisinə daşınmış, zəhərli və çətin söndürülən maddələrdən istifadə edilməklə qəsdən yanğınlar törədilmiş, nadir meşə örtüyü məhv edilmişdir.

Ermənistan işğalından azad edilmiş Azərbaycan Respublikası ərazilərində işğaldan əvvəlki müddətdə ehtiyatları təsdiq olunmuş 163 müxtəlif növ faydalı qazıntı yatağı, o cümlədən: 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları (obsidian, mərmərləşmiş oniks, yəşəm və s.), 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif

növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı mövcud idi. Metal faydalı qazıntılar xrom, mis, polimetal, qızıl, civə və sürmə yataqları ilə təmsil edilirdi. Filizlərin tərkibində əsas metallarla yanaşı həmçinin gümüş, molibden, nikel, vismut, tellur, selen, kadmium və s. qiymətli metallar müşahidə edilirdi. Adı çəkilən filiz yığımlarından ən çox əhəmiyyət kəsb edən qızıl yataqlarıdır ki, bunlardan da Söyüdlü (Zod), Ağdüzdağ, Ağzabir-Qızılitən, Qızılbulaq və Vejnəli yataqları işğal dövründə xarici şirkətlərlə birlikdə ermənilər tərəfindən qanunsuz olaraq istismar edilmiş, bununla da iqtisadi və ekoloji baxımdan ölkəmizə əhəmiyyətli dərəcədə ziyan vurulmuşdur.

Mövcud filiz və geyri-filiz faydalı qazıntı yataqlarının ehtiyatlarının sənaye əhəmiyyətinin və perspektivliyinin qalıb-qalmamasının qiymətləndirilməsi üçün zənnimcə, işğaldan azad edilmiş ərazilərimizdə yenidən geoloji-kəşfiyyat işlərinin aparılması zəruridir.

Bundan əlavə Qarabağ ərazisində cüyür, çöl donuzu, dələ, dovşan, canavar, çaqqal, qırqovul, kəklik, turac, bildirçin, göyərçin və s. heyvanlara rast gəlinir. Qarabağ həmçinin atları ilə də dünyada tanınır. Onlar Asiya və Qafqazda ən qədim at cinsi hesab olunur. Qarabağ atları bir sıra beynəlxalq sərgi və müsabiqələrdə fəxri yer tutmuş, mükafatlar və medallar qazanmışdır.

Ekspertlərin fikrincə, azad olunmuş bölgələrin ən böyük potensialı əgər doğru təşkil edilərsə, turizmlə bağlı olacaq.Tibbi turizm üçün unikal imkanlar var. Eyni dərəcədə tarixi və istirahət turizmi üçün də. Çəkinmədən deyirəm ki, bu bölgələrin turizm gəlirləri indiyədək bütün Azərbaycanın əldə etdiyi turizm qazanclarından daha çox ola bilər - söhbət ən azı 1.5 milyard dollardan gedir.

İkinci böyük potensialı olan sahə aqrar sektordur. 7 rayonun kənd təsərrüfatına yararlı torpaqlarının ümumi həcmi 535 min hektar təşkil edir. Ağdam, Füzuli və Cəbrayıl əsasən bitkiçilik üçün əlverişlidir. Bu 3 rayonun kənd təsərrüfatına yararlı torpaqlarının ümumi sahəsi 290 min hektar təşkil edir ki, ondan da təxminən üçdə ikisi əkinə yararlıdır. Yerdə qalanı örüş və biçənək torpaqlarıdır.

Zəngilan və Qubadlı həm əkinçilik, həm də heyvandarlığın inkişafı üçün imkanlara malikdir. Bu 2 rayonun kənd təsərrüfatına yararlı torpaqların ümumi həcmi 67 min hektardır ki, ondan təxminən üçdə biri əkinə yararlı, yerdə qalanı örüş və biçənək ərazilərdir. Kəlbəcər və Laçının kənd təsərrüfatına yararlı torpaqlarının ümumi həcmi 180 min hektar təşkil edir ki, ondan ən yaxşı halda 15 faizi əkinə yararlıdır. Bu iki rayonun torpaqları əsasən heyvandarlıq üçün əlverişlidir. 7 rayonun bazasında hesablasaq, kənd təsərrüfatına yararlı torpaqların yarısından çoxu heyvandarlıq üçün əlverişlidir. Deməli, digər potensial sahə kimi aqrar sektora əsaslanan emal sənayesinin qurulması perspektivləri var. Azərbaycan kərə yağının 50 faizini, ət və ət məhsullarının 15 faizə qədərini xaricdən alır. Bu asılılıqdan qurtarmaq mümkündür. Əlavə olraq, ixracyönümlü emal edilmiş (konservləşdirilmiş) ət məhsullarının emalının təşkili perspektivlərini araşdırmaq mümkündür.

Qeyd etdiyim bütün tarixi faktlar və reallıqları nəzərə alaraq işğaldan azad olunmuş ərazilərimizdə yenidən həyatı təmin etmək, istehsal və sosial infrastrukturu bərpa etmək, yeni ağıllı şəhər və kəndlərin yaradılmasını təmin etmək, müasir-nano texnologiyalara əsaslanan üsullardan istifadə edərək Qarabağı çiçəkləndirmək məqsədilə cəlb

olunacaq sərmayələri necə və hansı istiqamətdə formalaşdırmağa imkan yaradır. Bunun üçün aşağıdakı inkişaf istiqamətlərini təklif edirəm:

- turizm və rekreasiya ehtiyatlarının inkişafı;
- əkinçiliyin inkişafı;
- heyvandarliğin inkişafı;
- şərabçiliğin inkişafı;
- filiz və qeyri-filiz yataqlarının, mineral ehtiyatların tədqiqi və inkişafı;
- xalçaçiliğin inkişafı;
- arıçılığın inkişafı;
- mədəni irsin qorunması və inkişafı.

Yuxarıda qeyd etdiyim sahələr üzrə müxtəlif start-up layihələri, xarici sərmayədarların ölkəmizə daha uyğun şərtlərlə cəlb edilməsi, bu sahə üzrə güzəştli dövlət kreditlərinin, subsidiyalarının ayrılması, fərdi sahibkarların cəlbedici təkliflərlə və layihələrlə bu işə daha yaxından qoşulması məqsədilə lazımi şəraitin yaradılması vacib və prioritetimiz olmalıdır. Daxili investorların işğaldan azad olmuş ərazilərə sərmayə qoymaları üçün institusional güzəştlərdən başlamış vergi tətillərinədək rəngarəng həvəsləndirmə mexanizmləri təklif etməliyik. Bu, həm də mühacir kapitalın çeşidli ölkələrə axının qarşısını almış olar. Dövlət-özəl tərəfdaşlığı vasitəsi ilə bir çox sahələrə sərmayə cəlb edilə bilər. İnfrastruktur layihələrin dövlət-özəl tərəfdaşlığı vasitəsi ilə həyata keçirilməsi özəl sektorun canlanmasına, səmərəliliyin artmasına və dövlət büdcəsinə düşəcək yükün azalmasına gətirib çıxarır. Bundan sonrakı dövlət büdcəsində 2 istiqamətli xərclərimizi artırmalı olacağıq: kapital qoyuluşu və müdafiə xərclərimizi. Deməli, ictimai vəsaitlər (dövlət büdcəsi bu kateqoriyaya aiddir) hesabına Qarabağa yönəldə biləcəyimiz sərmayə mənbə hesab oluna bilər.

Dövlət vəsaitləriləri hesabına yaradılmış investisiya infrastruktur xarici sərmayənin cəlbolunması üçün əsas rol oynamalıdır. Yəni, infrastrukturun cəlbediciliyi hesabına ölkəyə xarici sərmayənin axını şərtləndirilməlidir. Əvvəlcə işğaldan azad olunmuş bölgələrimizdə əlverişli iqtisadi rejim formalaşdırmalıyıq. Biznesin yaranması və inkişaf etdirilməsi üçün isə investisiya mühiti yaradılmalıdır. İnvestisiya iqlimini şərtləndirən 4 istiqamətli (siyasi, iqtisadi, hüquqi və sosial) amilləri normal hala gətirməliyik. Xarici investisiyanın prioritetləri dəqiq müəyyənləşdirilməlidir. Dağlıq Qarabağın siyasi və hüquqi tanıtımında aydın mövqeyi olan dövlətləri təmsil edən şirkətlərin bu regionun biznes subyekti olmasına daha çox önəm verməliyik.İnvestorları bu bölgədə yatirim etməyə inandırmalıyıq. Onu motivasiya etməklə, çeşidli təşviq alətlərindən istifadə etməliyik. Bu zaman 3 istiqamətli sərmayələr potensialını hərəkətə gətirməliyik:

- dövlət büdcəsindən kapital qoyuluşu xərclərini artırmalı;
- daxili investisiyaların önünü bu regiona açmalı;
- xarici investorların maraqları bu bölgəyə yönləndirilməlidir.

Məşhur “Qarabağ atları”nın öz yurdundan yenidən dünyaya səs salmasını təmin etmək, “Qarabağ xalçaları”nın, “Qarabağ şərabları”nın öz köhnə nüfuzuna uyğun olaraq, geridönüşünü dünyəvi və möhtəşəm bir brendə çevirmək olar. Dünyada tək olan “Ağdam çörək muzeyi”nin fəaliyyətini bərpa etmək isə daha cazibədar bir təklif kimi görünür. Dağ turizminin inkişafı, qışda sörfinq-xizəkçiliyin yaradılması, kanatlarla möhtəşəm dağ mənzərəsinin seyrinə sərf olunacaq sərmayənin isə tezliklə özünü

müsbət şəkildə doğruldacağını əminliklə qeyd edərdim. Taxılçılıq, tütünçülük, çəltik becərilməsi, bitkiçiliyin inkişafına icazə verən iqlim resurslarının sayəsində bu sahəyə də xüsusi diqqət yetirilməsini vacib hesab edirəm. Yay və qış otlaqları, yaylaqları ilə tanınan əsrarəngiz Qarabağ işğaldan öncə də bu sahə üzrə ənənəvi olaraq təmərküzləşmişdir. Bu təmərküzləşmə öz fonunda heyvandarlığın inkişafına zəmin yaratmışdır. Ətlik-südlük, damazlıq heyvanlara da xüsusi sərmayə axını zənnimcə öz müsbət nəticəsini göstərər. Arıçılığın, bal istehsalının vacibliyini xüsusi qeyd etmək istərdim. Rəngarəng relyefi, füsünkar təbiəti, flora və faunasının zənginliyi dağlıq rayonlarımızda ovçuluğun inkişafına və xarici turistlərin bu sahəyə olan marağına şərait yaradır. Son olaraq qeyd etmək istərdim ki, 30 illik işğalda olan ərazilərimizdə çox təəssüflər olsun ki, düşmən milli-mədəni irsimizi, dini məbədlərimizi, məscidlərimizi darmadağın etmiş və torpaqlarımızın bilərəkdən ermənilərdirilməsi məqsədilə qədim alban kilsələrini də öz mədəni irsləri kimi təqdim etməyə çalışmışlar. Lakin bütün bunların yenidən araşdırılması və tarixi ədalətin bərqərar edilməsi məqsədilə də lazımi addımların atılmasını vacib hesab edirik. Biz elə investisiya strategiyası qurmalıyıq ki, sərmayələr özü ilə bərabər yeni texnologiyaları, süni intellektin tətbiq istiqamətlərini, müasir menecmenti, bilikləri, vərdişləri və s. gətirsin. Məhz bu effektiv sərmayələr bizim uzun illər əsarətdə olan Qarabağımızı dirçəldə bilər.

Şərifli İsmayıl Elman oğlu, doktorant,
Bakı Biznes Universiteti
Email: sherifli1992@mail.ru

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA PROSESLƏRİNİN TƏŞKİLATİ FORMALARI VƏ İNNOVATİV TSİKL

İnnovasiya proses olaraq bir neçə mərhələdən ibarətdir. Bu yanaşmadan çıxış edərək bazarın tədqiqinin mərhələlərini aşağıdakı kimi təsvir etmək olar (şəkil 1) İnnovasiyanın effektiv idarə edilməsi daha çox innovativ tsikldən, onun tərkib hissələri və onların məzmununun sərhədlərinin düzgün müəyyən edilməsindən, həmçinin onların inkişaf qanunauyğunluğundan asılıdır. İnnovativ tsiklin mühüm xarakteristikası onun zamanca həyata keçirilən və məntiqi qarşılıqlı əlaqəli mərhələlərdən ibarət olan ardıcıl və fasiləsiz proses kimi qəbul edilməsidir.

İnnovativ tsikl özündə bir neçə həlqələri birləşdirir: elm-istehsal-istehlak (tədqiqat – istehsal - istehlak). Onlar nisbi müstəqilliyə malikdirlər.

Burada "Elm" həlqəsi dörd mərhələdən (tədqiqat növlərindən) ibarətdir (şəkil 1).

fundamental tədqiqatlar
axtarış
tətbiqi tədqiqatlar
texniki işləmələr – layihə - konstruktor və layihə-texnoloji

Şəkil.1 "Elm" həlqəsinin mərhələləri.

Bu mərhələlərin hər birində yaradıcılıq elementləri, yeni elmi və texniki qərarların axtarışı vardır.

Fundamental tədqiqatlar "xalis" (azad) və "məqsədli" kimi fərqləndirilə bilər. "Xalis" fundamental tədqiqatların əsas məqsədi təbiətin və cəmiyyətin məlum olmayan qanunları və qanunauyğunluqlarını, təzahürlərin yaranma səbəbləri və onlar arasında əlaqələrin aşkarlanması və dərk edilməsi, həmçinin elmi biliklərin həcminin artırılması başa düşülür.

Məqsədli fundamental tədqiqatlar mövcud verilənlər əsasında konkret elmi metodların köməyi ilə müəyyən problemlərin həllinə yönəldilmiş olur. Onlar elmin müəyyən sahəsi ilə məhdudlaşdırılır. Onların məqsədi yalnız təbiətin və cəmiyyətin qanunlarının deyil, həmçinin öyrənilən obyektin tam öyrənilməsi ilə təzahür, proseslərin dərk edilməsi və insan biliklərinin genişləndirilməsidir.

Lakin xalis tədqiqatlarda olduğu kimi, alınan nəticələrin təcrübi istifadəsi bilavasitə vəzifə kimi müəyyən edilmir. Onlar üçün xalis tədqiqatlardan fərqli olaraq iş metodunun seçilməsində sərbəstlik saxlanılır, lakin bununla bərabər tədqiqat obyektinin seçilməsində sərbəstlik verilmir, orientir kimi tədqiqat sahəsi və onun məqsədi verilir. Əsas ehtibarilə onlar Azərbaycan Milli Elmlər Akademiyasında və onun ayrı-ayrı institutlarında, ali təhsil ocaqlarında aparılır. Fundamental tədqiqatların nəticələri – nəzəriyyə, kəşf, hərəkətin yeni prinsiplərinin istifadə ehtimalı 5-10%-ə bərabərdir.

Axtarış tədqiqatları fundamental tədqiqatların nəzəri nəticələrinin praktiki tətbiqi yolları və üsullarının öyrənilməsinə yönəldilən işləri əhatə edir. Onların aparılması problemin variantlı işlənilməsi və daha perspektivli istiqamətin seçilməsi imkanlarını nəzərdə tutur. Onlar məlum fundamental tədqiqatlara söykənir, baxmayaraq ki, axtarış nəticəsində onların vəziyyətinə yenidən baxıla bilər. Axtarış tədqiqatları Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində olan institutlarda, qismən ali təhsil müəssisələrində və sahə elmi təşkilatlarında aparıla bilər. Ayrı-ayrı sənaye institutlarında və iqtisadiyyatın digər sahələrində axtarış işlərinin xüsusi çəkisi 10%-ə qədər ola bilər.

Axtarış tədqiqatlarına metalın emalı və ya bilavasitə tekstil liflərindən ipliyin istehsalı üzrə prinsipcə yeni texnologiyanın yaradılması (məsələn, aerodinamikadan, elektrostatik sahədən və s. istifadə ilə), polimer üzlüklərin formalaşdırılmasının yeni metodlarının axtarılması, texnoloji proseslərin optimallaşdırılmasının elmi əsaslarının öyrəniləməsi və işlənilməsi, yeni dərman preparatlarının axtarışı və s. bu kimi məsələlər üzrə işləri aid etmək olar.

Axtarış tədqiqatları müəyyən növlərə malikdir. Onlar konkret məsələlərin həlli üçün bu və ya digər istehsala xüsusi proqramsız geniş profilə və daristiqamətli xarakterə malikdirlər. Axtarış tədqiqatlarının əsas məqsədi müxtəlif sahələrdə yaxın gələcəkdə praktiki istifadə üçün fundamental tədqiqatların istifadəsindən ibarətdir. Axtarış tədqiqatlarının praktik istifadə ehtimalı 30%-ə qədərdir.

Axtarış tədqiqatların nəticə və tövsiyyələri növbəti daha geniş istifadə olunan elmi-tədqiqat növlərinə, tətbiqi tədqiqatlara keçidə imkan verir. Tətbiqi tədqiqatlar əsasən sahə institutlarında aparılır. Tətbiqi işlərə konkret məsələlərə tətbiq olunan fundamental və axtarış işlərinin əldə olunan nəticələrinin praktiki istifadəsi məqsədilə həyata keçirilən tədqiqatlar aidddir.

Tətbiqi tədqiqatların konkret məqsədi yeni texnologiyanın yaradılması və istifadə olunanların isə təkmilləşdirilməsi, yeni prinsiplərə söykənən maşın və avadanlıqların

konstruksiyalarının yaradılması imkanlarının müəyyən edilməsi, istehsalın və idarəetmənin təşkilinin təkmilləşdirilməsinin konkret yolları və metodlarının axtarılmasından ibarətdir.

Tətbiqi tədqiqatların praktiki istifadə ehtimalı 75%-85%-ə qədərdir. Tətbiqi tədqiqatların nəticələri – yeniliyin yaradılmasının texniki imkanlarını təsdiq edən patentimkanlı sxemlər, elmi tövsiyyələrdir. Bu mərhələdə yüksək ehtimal dərəcəsi ilə bazar məqsədlərini təyin etmək olar.

Elmi-tədqiqatın tətbiqi xarakterli işlərinin davamı texniki işləmələrdir ki, məqsəd tətbiqi tədqiqatların nəticələrinin bilavasitə praktiki istifadəsidir. Bu mərhələdə yeni texnoloji proseslər işlənib hazırlanır, yeni maşın və əşya növlərinin nümunələri yaradılır və mənimsənilir. Sənaye sahə institutlarında texniki işləmələr az xüsusi çəkiyə malik olur. Onlar əsasən layihə və konstruktor təşkilatları tərəfindən həyata keçirilir. Bu mərhələnin maddi nəticəsi çertyojlar, layihələr, standartlar, təlimatlar, təcrübi nümunələrdən ibarətdir. Texniki işləmənin təcrübi istifadə ehtimalı 90-95%-ə bərabərdir.

İnnovasiyanın növlərindən (yeniliyin dərəcəsindən, predmet məzmunundan) və yeniliyin yaradılması üzrə konkret məsələdən asılı olaraq "elm" həlqəsi üç və ya iki mərhələli ola bilər. Məsələn, əgər "Azneftkimyamaş" ASC-nin zavodlarında prinsipcə tam yeniliyinə görə fərqlənən texnika yaradılırsa, o zaman fundamental və axtarış tədqiqatlar innovativ tsiklə qoşulur. Əgər müəyyən texnika növü yaradılırsa, ya modernizə edilirsə və ya ənənəvi texnologiya təkmilləşdirilirsə fundamental tədqiqatlar (daha çox hallarda həmçinin axtarış tədqiqatları) innovativ tsikldə nəzərə alınmır.

"İstehsal" həlqəsi iki mərhələni özündə birləşdirir. Bunlardan birincisi yeniliyin (yeni məhsulun və yeni texnoloji prosesin) mənimsənilməsi və əsl istehsalıdır. Bu mərhələdə istehsalın başlanılması üçün istehsal-texnoloji və təşkilati-texniki şərait yaradılır, əsl istehsal mərhələsində isə yeniliyin kütləvi istehsalına, elmi-texniki işləmənin nəticələrinin tirajlanmasına başlanılır.

Yeniliyin mənimsənilməsi mərhələsi özündə bir neçə mərhələni birləşdirir. Bu mərhələlər texniki mənimsəmə, iqtisadi mənimsəmə, quraşdırılan seriyanın, başqa sözlə partiyanın hazırlanması, ilkin sənaye seriyasının buraxılışından ibarətdir.

Texniki mənimsəmə mərhələsində hazırlama işləri aparılır, sınaqdan keçirilir və təcrübi nümunə səviyyəsinə gətirilir, ayrı-ayrı texnoloji əməliyyatlar işlənilir, real istehsal şəraitinə uyğunlaşma imkanları yoxlanılır. Bütövlükdə bu mərhələdə layihədə nəzərdə tutulmuş ideyanın texniki reallaşdırma imkanları dəqiqləşdirilir və layihə texniki-texnoloji səviyyə, yeniliyin istismar parametrləri əldə edilir.

Bu mərhələlərin əsas funksional təyinatı yenilik göstəricilərinin parametrlərini texniki-texnoloji və istehsal-iqtisadi mənimsəməkdən ibarətdir. Mənimsəmə mərhələsinin başlanğıcı yeniliyin buraxılması, tirajlanması və istehsalın (texniki, təşkilati, maddi) hazırlanması haqqında qərarın qəbul edilməsi hesab edilir. Yeni məhsul növünün ilk sənaye seriyasının buraxılışı və sınağı bu mərhələnin sonudur.

Əsl istehsal mərhələsi yeniliyin (məhsulun) seriyalı və ya kütləvi istehsalı, yaxud texnoloji yeniliyin geniş istifadəsi ilə başlanır. Yeni məhsulun istehsaldan çıxarılması və ya yeni texnologiyanın istifadəsinin dayandırlması ilə bu mərhələ başa çatır. Bu mərhələnin funksional təyinatı ictimai tələbatı (istehsal və xüsusi) ödəmək üçün yeniliklərin buraxılışından ibarətdir.

"İstehlak" həlqəsi iki mərhələdən ibarətdir. Birinci mərhələ yeniliyin paylanması,

reallaşdırılmasından ibarətdir. İkinci mərhələ isə yeniliyin istifadəsidir. İnnovativ tsiklin tərkibinə "istehlak" həlqəsinin daxil edilməsi innovativ prosesin idarə edilməsinin ölkə iqtisadiyyatının və əhalinin tələbatının ödənilməsinə yönəldir.

Yeniliyin paylanması, reallaşdırılması mərhələsi əşyanın istismar mənimsəməsi üçün istehılakçılara təqdim edildiyi andan başlanılır. İctimai tələbat tam ödənildikdən sonra isə mərhələ bitmiş hesab edilir. Yeniliyin istifadə mərhələsinin başlanğıcı istehlakçılar tərəfindən yeni məhsulun istifadəsinə, istismarına başladıqları anı, ilk seriyanın sənaye istehsalına başlanıldığı vaxtı hesab etmək olar. Eyni zamanda texnoloji və təşkilati-idarəetmə yeniliklərinin tətbiqi də yeniliyin istifadə mərhələsinin başlanğıcı hesab edilir. Bu mərhələnin yekununu təyin etmək çətindir, belə ki, istehlakçılar sayca çoxdur və istifadə müddəti müxtəlifdir. Məqsədyönlü olardı ki, mərhələnin yekunu mənəvi köhnəlmə ilə və həmçinin fiziki köhnəlmə müddəti ilə əlaqəli şəkildə müəyyən edilsin, praktiki isə əşyanın daha effektiv modelinin bazarda yaranması ilə birbaşa əlaqələndirməklə təyin edilsin.

İnnovasiya tsiklinin maksimum uzunluğu əsasən əşyanın mənəvi köhnəlmə müddəti ilə müəyyən edilir. Məsələn, maşınqayırma sənayesində əşyanın mənəvi köhnəlmə müddəti 6-7 il, yüngül sənayedə 2-3 il təşkil edir. İnnovasya həlqəsi və mərhələləri məntiqi olaraq aralarında əlaqəli olub bütöv sistemi təşkil edirlər. Onlar üçün əks əlaqə, informasiyanın əks axını xarakterikdir.

Məlumdur ki, innovativ tsiklin daha iki mərhələsi mövcuddur. Bu mərhələlərə yetkinlik və enmə aid edilir. Yetkinlik mərhələsi vaxt baxımından ən uzun fazadır. Yetkinlik mərhələsində yeni məhsulun satış həcmində vaxt keçdikcə azalma baş verir. Həmin məhsul növünün satışından əldə edilən mənfəətin də miqdarı tədricən azalır. İstehsalçı müəssisədə reallaşdırılmamış məhsul ehtiyatı artır. Belə şəraitdə rəqiblər reklama xərclərini artırır, məhsulun qiymətini aşağı salır, məhsulun yaxşılaşdırılmış variantlarının yaradılmasına xərcləri artırır və satışı stimullaşdırırlar.

Enmə fazası müvafiq məhsula tələbin doydurulması, istehlakçıların yeni növ və yeni istehlak xüsusiyyətlərinə malik məhsulların xeyrinə maraqlarının dəyişməsi ilə xarakterizə olunur. Bununla da istehsalçı müəssisə məcburən ilk növbədə istehsalın həcmini azaltmalı, məhsulun bəzi istehlak xüsusiyyətlərində yenilik etməli, qablaşdırma işlərində dəyişikliklər aparmalıdır. Əgər bu kimi dəyişikliklər məhsulun bazarda mövqeyini qoruyb saxlaya bilmirsə, deməli müəssisə onun buraxılışını dayandırmaq məcburiyyətində qalır.

Mənəvi və ya fiziki köhnəlmiş məhsula tələbatın səviyyəsinin aşağı düşməsindən sonra onu yenisi ilə əvəz etmək və innovasiya prosesini təkrarlamaq lazımdır. Yaxşılaşdırıcı innovasiya üçün "tsikl" anlayışından istifadə edilə bilər.

İnnovativ tsikl innovativ məhsulun istehlakçısı ilə onu (məhsulu) təqdim edən, istehsal edən arasında əks əlaqənin qurulmasını nəzərdə tutur.

Marketinq tədqiqatlarının aparılmasına əsaslanan belə qarşılıqlı təsir üzrə uyğun təşkiletmədə əvvəl yaradılmış məhsula yenilik verən bir sıra təkmilləşdirmələr ortaya qoyulur. Buna əsasən nəticəyə gəlmək olar ki, innovasiyanın həyat tsikli əvvəlki məhsulun iqtisadi taleyini təkmilləşdirilmiş məhsul bazara çıxan an həll etmiş olur. Lakin ciddi mənada belə vəziyyət yalnız prinsipcə yeni məhsulun yaradılması ilə baş verir.

Artıq gəlinən nəticələr nəzərə alınmaqla qeyd etmək olar ki, innovativ məhsulun həyat tsiklinin idarə edilməsi dedikdə innovasiya tsikli ilə təyin olunan vaxt intervalında pul (maliyyə) axınlarının hərəkətini idarə etmək başa düşülür. Bununla nəti-

cəyə gəlmək olar ki, vaxt da pul axınlarının kəmiyyəti kimi idarə olunan parametrdir. Bu iki parametrə optimal nisbət təmin olunmalıdır.

İnnovasiya proseslərinin təşkilati formalarını isə şəkil 3-dəki kimi təsvir etmək olar.

Şəkil 3-də qeyd edilənlərə əsasən söyləmək olar ki, innovasiya proseslərinin əsasən "Fərdi elmi kollektivlər", ""Spin-off" firmalar", "Dövlət ümummilli əhəmiyyətli maliyyə elmi-tədqiqat layihələri", "Firmaların elmi-texniki əməkdaşlığı", "İri sənaye korporasiyaları" və"Vençur firmalar" kimi təşkilati formaları mövcuddur.

Beləliklə, yuxarıda qeyd edilənlərə əsaslanaraq nəticə kimi vurğulamaq olar ki, innovasiyanın effektiv idarə edilməsi daha çox innovasiya tsiklindən, onun tərkib hissələrinin sərhədlərinin düzgün müəyyən edilməsindən və onların məzmunundan, həmçinin onların inkişaf qanunauyğunluqlarından asılıdır.

İnnovativ proseslər məhsul və sistemlərin həyat tsikli konsepsiyası əsasında bütün istehsal prosesi və mərhələlərinin müvəqqəti, resurs və təşkilati sinxronlaşdırması sayəsində mümkündür. İnnovasiya proseslərinin mərhələli öyrənilməsinə lokal, zamanca strukturlaşdırlmamış informasiya xarakterikdir. Eyni zamanda həyat tsikli yanaşması yeniliyin yaradılması və mənimsənilməsi prosesinə dinamik sinxronlaşdırılmış sistem kimi baxılır.

Şəkil 3. İnnovasiya proseslərinin təşkilati formaları.

İnnovasiya fəaliyyəti vahid məntiqi zəncirdə birləşdirilmiş bir sıra tədbirlərdən ibarətdir. Bu zəncirin hər bir həlqəsi (innovasiya tsiklinin hər mərhələsi) öz inkişaf məntiqinə tabe edilmişdir, özünün qanunauyğunluğu və xüsusiyyəti vardır. Elmi araşdırmalar, təcrübi-konstruktor və texnoloji işləmələr, investisiya-maliyyə, marketinq tədbirləri, istehsal gücü və təşkilati strukturlar vahid bir məqsədə - yeniliyin yaradılmasına tabe edilmişlər.

Marketinq tədqiqatlarının dərinliklərində yaranan əmtəənin həyat tsikli, tələb və texnologiyanın qısa müddətdə iqtisadi obyektlərinin, proses və sistemlərin öyrənilməsində dominant vəziyyət tuturlar. Beləliklə, müəssisənin, sənaye istehsalı sahələrinin, tikinti konstruksiyaları, maşın və mexanizmlərin həyat tsikli konsepsiyası əhəmiyyətli inkişafa nail olur.

İnnovasiya fəaliyyətini öyrənmək üçün yeni məhsulun, yeni texnikanın texnologiyanın və innovativ təşkilatın həyat tsikli açıq sistem kimi daha mühüm əhəmiyyət kəsb edir.

Bağırov Qəfər Müşfiq oğlu, doktorant,
Bakı Biznes Universiteti
Email: bagirov.qafar@hotmail.com

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHİBKARLIĞIN FORMALAŞDIRILMASI

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadiyyatın inkişafında yeni mərhələnin əsasını qoymuş, genişmiqyaslı islahatlar həyata keçirməklə yeni mülkiyyət münasibətləri formalaşdırmışdır. 1995–ci ildən başlayaraq torpaqların xüsusi mülkiyyətə verilməsi, əmlakın özəlləşdirilməsi tədbirləri həyata keçirilmişdir. Kənd təsərrüfatı qlobal miqyasda ölkələrin iqtisadiyyatında çox vacib bir rola malikdir və ölkə əhalisi üçün əsas qida, gəlir və məşğulluq mənbəyi hesab olunur. Kənd təsərrüfatı davamlı olaraq inkişaf edərək iqtisadiyyatın bütün sektorlarına təbii və sosial-iqtisadi münasibətlər çərçivəsində əlavə dəyər yaradır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı fəaliyyətləri cəmiyyət üçün zəruri olan əsas qida maddələrinin istehsalı, qida ehtiyaclarının ödənilməsi, kənd təsərrüfatına əsaslanan sahələrdən resursların ötürülməsi, kənd təsərrüfatından asılı olan sahələrə xammal ehtiyatlarının verilməsi, milli gəlirə və tədiyyə balansına töhfə verməsi və digər sektorlara işçi qüvvəsinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Aqrar sektorun iqtisadiyyata verdiyi bütün bu töhfələrin davamlı və dayanıqlılığını təmin etmək məqsədi ilə kənd təsərrüfatının əsas hərəkətverici qüvvəsi hesab olunan işçi qüvvəsinin kəmiyyət və keyfiyyət baxımından planlaşdırılmasına ehtiyac vardır.Aqrar bölmədə həyata keçirilən kompleks tədbirlər nəticəsində iqtisadiyyatın mühüm tərkib hissəsi olan kənd təsərrüfatında bazar münasibətlərinin və sahibkarlığın formalaşması üçün əlverişli şərait yaradılmışdır. Əmək qabiliyyətli əhalinin 36,7 faizi kənd təsərrüfatında cəmlənmiş, ümumi daxili məhsulun 5,3 faizi kənd təsərrüfatının payına düşür. Ona görə də kənd təsərrüfatının inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olmudur. Müstəqilliyin yenidən bərpa edən Azərbaycan Respublikasının mənfur qonşu Ermənistanın işğalçı ordusu tərəfindən ərazilərimizin 20 faizindən çoxu zəbt edilmiş, bir milyondan çox vətəndaşlarımız öz doğma yurdlarından didərgin salınmışlar. 1988–ci ildən başlayan Ermənistan – Azərbaycan münaqişəsi ölkəmizin nail olduğu daxili sabitliyi pozdu, bir çox sahələr məhv edildi, Qarabağ və ətraf rayonların 1992-1993–cü illərdə işğalı nəticəsində əhali respublikanın 62 rayonuna səpələndı. İşğal nəticəsində ölkənin iri kənd təsərrüfatı ərazisi olan Yuxarı Qarabağda fəaliyyət göstərən müəssisələr, kolxozlar, sovxozlar, təsərrüfat birlikləri, aqrofirmalar, üzümçülük, şərabçılıq müəssisələri, texnika dağıdıldı, fəaliyyətlərini dayandırdılar. 1990–cı il göstəricilərinə görə ölkədə istehsal olunan taxılın 14,3 faizini, üzümün 31,5 faizini, pambığın 3,3 faizini, kartofun 6,3 faizini, ətin 14,5 faizini, südün 17,1 faizini, baramanın 17 faizini, yumurtanın 3,6 faizini işğal edilmiş ərazilərin təsərrüfatları verirdi. Erməni təcavüzü nəticəsində 311 kənd təsərrüfatı müəssisəsi, 145 yeni yaradılmış üzümçülük və şərabçılıq sovxozları, 135 kolxoz, 31 təsərrüfatlararası müəssisələr tamamilə dağıdıldı. Bundan başqa 1365 avtonəqliyyat, 7296 hidroqurğu, 62 su nasosu və suvarma aqreqatları, 3425 əkin qoşqu traktorları, taxıl və pambıq yığan kombaynlar və s. ərazilərdən çıxarıla bilinmədiyindən işğal ərazilərində qaldılar.

Ermənistanın təcavüzçü qoşunlarının işğalçılıq siyasəti nəticəsində heyvandarlıq sahəsinə çox böyük ziyan vuruldu. İşğal olunmuş rayonlarda 1990–cı ilə iribuynuzlu qaramalın 313,1 min başı yaxud ölkədəki qaramalın 15,8 faizi, o cümlədən inək və camışların 111,2 min başı yaxud 14,9 faizi, qoyun və keçilərin 1098,9 min başı yaxud 19,2 faizi tələf oldu. Qarabağ və ətraf rayonlarda (Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğal nəticəsində heyvandarlıqla məşğul olan təsərrüfatlar və kəndlilər sürülərini xilas edə bilmədilər. Çox az miqdarda çıxarılan heyvanlar isə imkansızlıq və və şərait olmadığına görə tələf olmuşlar.

Bütün bunlara baxmayaraq, ölkəmizdə xalqın gələcəyə böyük inamı, müharibə şəraitində olmasına baxmayaraq, intensiv quruculuq işləri həyata keçirildi. Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin apardıqları ardıcıl və məqsədyönlü daxili və xarici siyasəti nəticəsində iqtisadiyyatın davamlı inkişafına, köklü sosial-iqtisadi dəyişikliklərə nail olundu. Bir çox normativ-hüquqi sənədlərin qəbul edilməsi, 4 Dövlət Proqramının hazırlanması və qəbulu aqrar sahədə sahibkarlığın inkişafına, onların formalaşmasına, təminat mexanizminin yaradılmasına imkan verdi.

Azərbaycan Respublikası müstəqillik dövrünün ən unudulmaz və əzəmətli dövrünü yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin başçılığı ilə müzəffər ordumuz zamanında hər kəsə nağıl kimi görünən əslində isə bütöv Azərbaycanın tərkib hissəsi olmuş Qarabağın Ermənistan tərəfindən işğalına son qoyaraq ərazi bütövlüyümüzü bərpa etmişdir.

İşğaldan azad edilən ərazilərdə (İAEƏ) kənd təsərrüfatının gələcək inkişafının əsas istiqamətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında öz əksini tapmışdır. Bunun üçün Ermənistanın Azərbaycana qarşı on illərdir yürütdüyü ekoloji terror siyasətinin nəticələri aradan qaldırılmalı, su anbarlarındakı su təbii arxlara yönləndirməklə əkin sahələri təsərrüfat suyu ilə təmin olunmalı, torpaqlar yenidən həyata qaytarılmalı, yəni uzun illərdir əkilməyən xam torpaqlarda yerli təbii-iqlim şəraitinə uyğun əkin aparılmalıdır.

2020-ci il sentyabrın 27-də ölkəmiz Ermənistanın işğalcılıq siyasətinə 44 günlük Vətən Müharibəsində son qoydu. Zəfər qələbəsi işğaldan azad edilmiş ərazilərimizdə bir çox tədbirlərin görülməsini, həmin ərazilərdə beynəlxalq təcrübəyə əsaslanan idarəetmə, istehsal strukturu və bazar münasibətləri prinsiplərini təmin etməyi tələb edir. Aqrar sahədə respublikamızda müəyyən edilmiş strateji xətt ölkə prezidentinin rəhbərliyi və gündəlik qayğısı ilə qətiyyətlə, ardıcıl və sistemli formada həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə çətinlik və mürəkkəblik olsa da, bu ərazilərdə müxtəlif istiqamətli təsərrüfat formaları yaradılmalı, iqtisadi artımın əası kimi formalaşdırılmasına şərait olmalıdır. Konkret ərazidə istehsal xüsusiyyətləri və müvafiq amillər (sosial, iqtisadi, torpaq və s.) nəzərə alınmaqla təsərrüfat formasının təşkilat quruluşu və parametrləri elmi cəhətdən əsaslandırılmalıdır. Həm də təsərrüfatların ölçüləri konkret şəraitə, bazarın tələb və təklifinə uyğun müəyyənləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, ölkədə yeni təsərrüfat formalarının yaradılması təcrübəsi göstərir ki, təsərrüfat rəhbəri (sahibkar) səriştəsiz olarsa, planlaşdırma və idarəetməni düzgün qura bilmirlər. Ona görə də sahibkarın fəaliyyət sahəsi üzrə geniş biliyə və informasiyaya, həmçinin müasir təsərrüfatçılıq texnologiyalarına malik olması əsas

şərtlərdən olmalıdır. Sahibkarın səmərəli fəaliyyəti üçün xidmət sahələrinin və müvafiq infrastrukturların olması və ərazidə yeni formalaşacaq sahibkarların dövlət dəstəklənməsi vacib amil hesab edilir. İAEƏ-də sahibkarlığın inkişafının dəstəklənməsi çevik iqtisadi mexanizmdə əhatə olunmaldır. Aqrar sahədə kredit, vergi, sığorta, idarəetmə siyasəti yeni prinsiplərə uyğunlaşdırılmalıdır. Burada bitki mühafizəsi, baytarlıq, damazlıq, toxumçuluq, meliorasiya tədbirləri, əhalinin məşğulluqu, xidmətlərin təşkili və s. nəzərdə tutulmalıdır. Sahibkarların müstəqil fəaliyyətinə şərait yaradılması üçün onların informasiya və məsləhət xidmətləri ilə əhatə olunması zəruri hesab edilir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. "Regionların sosial-iqtisadi inkişafı" Statistik məcmuə/2014 – yanvar.
2. Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2005.
3. Əliyev B.H., Əliyev İ.N. «Azərbaycanda kənd təsərrüfatının bəzi problemləri və onların həlli yolları». Bakı, «Ziya-Nurlan», 2004, 572 s.
4. Quliyev E.A. "Aqrar iqtisadiyyat". Bakı-2015, "Kooperasiya" nəşriyyatı, 320 səh.
5. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. "Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsi". Bakı, 2007, 491 s.
6. İbrahimov İ.H. "Aqrar sahənin iqtisadiyyatı". Bakı, 2016, 655 s.
7. İbrahimov İ.H. "Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri". «Sada» nəşriyyat, Bakı, 2007, 296 səh.
8. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, 2005. 360 səh.

Alıyev Səddam Qüdrət oğlu, doktorant,
Bakı Dövlət Universiteti,
Dövlət Gömrük Komitəsi
Email: seddamaliyev03@gmail.com

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ GÖMRÜK NƏZARƏTİ PROSESİNDƏ RISKLƏRİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN TƏTBİQİ VƏ POST-GÖMRÜK NƏZARƏT SİSTEMİNİN İSTİFADƏSİNƏ KEÇİD

Gömrük nəzarəti üzrə Kyoto Konvensiyasının rəsmi sənədləri gömrük xidməti tərəfindən aparılan tədbirlər toplusuna aiddir. Gömrük nəzarətinin obyektini müəyyənləşdirən həmin Konvensiya, gömrük rüsumlarına və vergilərinə tabe olub-olmamasından asılı olmayaraq, gömrük ərazisinə gətirilən və ya ondan ixrac olunan nəqliyyat vasitələri də daxil olmaqla bütün malların gömrük nəzarətinə məruz qaldığını nəzərdə tutur.

Kyoto Konvensiyasının fəlsəfəsinə uyğun olaraq gömrük nəzarəti beynəlxalq ticarət üçün şəraitin maksimum asanlaşdırılması ilə həyata keçirilməlidir. Buna görə gömrük nəzarəti əsas məqsədlərə çatmaq üçün lazım olan minimum səviyyədə məhdud

olmalıdır və risklərin idarə edilməsi metodlarının maksimum tətbiqi əsasında aparılmalıdır. Belə bir gömrük nəzarət fəlsəfəsi hər prosesin yoxlanılması və gömrük orqanlarının verdiyi məlumatların tam dəqiqliyini təmin etməyinin mümkün olmadığı müddəasına əsaslanır. Buna görə gömrük orqanlarının məhdud resurslarının böyük səmərəliyi və artan vergi daxilomasının təmin edilməsi baxımından ən həssas əməliyyatlar və prosedurlara diqqət yetirilməlidir. Digər tərəfdən, qanunvericiliyin pozulması ilə bağlı risklərin olmadığı təqdirdə və ya risklərdən əmələ gələ bilən mümkün pozuntuların minimal səviyyədə olduğu yerlərdə ən sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi texnologiyalarının işlərini tətbiq etmək lazımdır ki, sahibkarların malların daşınması, gömrük terminalı saxlanması ilə əlaqəli lazımsız xərclərin ixtisar olunmasına şərait yaradılsın. Beləliklə, əgər Azərbaycanda davamlı gömrük nəzarəti həyata keçirilirsə və yük axınının təxminən 80%-i hərtərəfli yoxlanılırsa, tətbiq olunmalı yeni qaydalara görə isə yoxlamalara ancaq saxta bəyyannamə verilməsi riski yüksək olan yüklər məruz qalacaq. Kyoto Konvensiyasının standartlarına uyğun olaraq, Gömrük Xidmətində risklərin idarə edilməsi gömrük orqanlarının effektivliyini azaltmadan, gömrük orqanlarının imkanlarını optimal istifadə etməyə şərait yaradan müasir gömrük idarəetmə metodlarının əsas prinsipi kimi çıxış edir.

Hal-hazırda aşağıdakı risk profilinin göstəriciləri vardır: saxta olan və qaçaqmalçılığa məruz qalan mallar (lüks sinif əmtəələr, dizayner və tanınmış ticarət nişanları); etibarsiz bəyannamə, ölkə mənşəsi; sənədlərin icrasının keyfiyyəti; malların daşınması və nəqliyyat vasitələri (hüquq məişəsi bəlli olmayan daşınma kanalları); malların dəyəri (malların çox yüksək və ya aşağı dəyəri və ya qeyri-adi dərəcədə aşağı qiymətə sığortalanmışdır); mal partiyasın həcmi (mallar mal növündən asılı olaraq anormal yüksək və ya az miqdarda nəql olunur); qablaşdırmanın xarici görünüşü (məsələn, korlanmış və ya cırılmış qablaşdırma); məhsul etiketləri və məhsul işarəsi (məsələn, onların umumiyyətlə olmaması).

Risklərin idarə edilməsi sistemi metodlarına əsaslanaraq, gömrük nəzarətinə yeni yanaşmanın tətbiq edilməsi gömrük xidmətinə imkan verəcək ki: artan risk sahələrinə diqqət yetirilsin və bununla da onların resurslarından daha səmərəli istifadə olunsun; ölkə qanunvericiliyinin, habelə gömrük qanunvericiliyinin tələblərinə əməl etməyən xarici ticarət iştirakçılarının və sərnişinlərin müəyyənləşdirməsi daha səmərəli və çevik aparılsın; qanuna xüsusi riayət edən xarici ticarət iştirakçılarının və sərnişinlərin daha əlverişli şəraitdə gömrük fəaliyyətləri təmin edilsin və s. RİS xarici ticarətin maraqlarını təhlükə altına almadan, gömrük xidmətlərinin səmərəliliyinin yaxşılaşdırılmasını təmin edən, bir sıra yeni gömrük alətləri və texnologiyalarını birləşdirir.

Ümumiyyətlə, gömrükdə risklərin idarə edilməsi - risklərin qarşısını almaq və onları minimuma endirməyi ilə bağlı tədbirlərin səmərəliliyinin qiymətləndirilməsinin və gömrük qaydaları və prosedurlarının icra olunmasına nəzarətin cəmidir.

Bu baxımdan gömrükdə mal axınları müxtəlif aspektlərin: gömrük rejiminin, məhsul kodunun, gömrük dəyərinin, nəqliyyat növünün, qeydiyyat yerinin təhlilinin, gömrük orqanların yeni vahid fəaliyyətinin yaradılması zəruri olacaq.

Azərbaycanın ÜTT-yə daxil olunması astanasında Kyoto Konvensiyasına qoşulma prosesi qaçılmazdır. Bunun üçün hazırlıq mərhələsi, risklərin idarə edilməsi sistemi (RİS) əsasında gömrük nəzarətinin qanunvericiliyi konsolidasiyası hesab edilə bilər. RİS tətbiqinin məqsədləri aşağıdakılardır:

– gömrük ehtiyatlarından istifadənin optimallaşdırılması;

– qanunvericiliyə riayət edən xarici iqtisadi münasibətlərin iştirakçılarına inzibati təsirin azalması və eyni zamanda carı qanunvericiliyin pozulmasında riski böyük olan ayrı-ayrı şəxlərə qarşı gömrük nəzarətinin gücləndirilməsi.

Beləliklə, RİS-ın tətbiqi gömrük qanunvericiliyinin pozulmasının qarşısını almaq üçün gömrük orqanlarının resurslarını aşağıdakı qanunpozuntularının qarşısın almağa imkan verəcəkdir:

– əhəmiyyətli ölçülərdə gömrük rüsumu və vergilərin ödənilməsindən yayılma;

– yerli istehsalçıların rəqabət qabiliyyətinin pozulması (adələtsiz rəqabət nəticəsində);

– dövlət maraqlarına təsir göstərən gömrük orqanlarının digər tənzimedici funksiyaların pozulması.

Sənədlərin və məlumatların təhlili nəticəsində müəyyən edilmiş potensial risklərin aşkar edildiyi təqdirdə, gömrük məcəlləsində müvafiq maddələr konkret riskə qarşı tədbirlər kompleksinin tətbiqi üçün hüquqi əsas olaraq xidmət edə bilər. Yəni, müəyyən mal və ya şəxslərə münasibətdə təsdiq edilmiş gömrük nəzarətinin müəyyən formalarının tətbiqi üçün əsas kimi çıxış edən müvafiq risk profili təsdiqlənə bilər.

Dünyanın əksər ölkələrində gömrük nəzarətinin "ağırlığı" postgömrük nəzarəti sisteminə köçürülüb və bu gömrükdə əmtəədövriyyəsinin sürətləndirilməyə, həmçinin gömrük xidmətinin resurslarının optimallaşdırılmasına imkan verir. Üstəlik, hazırkı postgömrük nəzarəti sistemi olmadan, gömrük rəsmiləşdirilməsinin əhəmiyyətli dərəcədə sürətləndirilməsinə və prosedurların asanlaşdırılmasına nail olmaq mümkün deyil. Tərifə görə, postgömrük nəzarətinə - sənədlərin tərtibatı və ya ilkin əməliyyatlar mərhələsində deyil, malların buraxılmasından (əsas gömrük rəsmiləşdirilməsinin sonunda) sonra qanunvericiliklə müəyyən edilmiş gömrük nəzarətinin bütün formalarının tətbiq olunmasıdır. Yəni, postgömrük nəzarəti yükü gömrükdə saxlamadan onun kameral yoxlanışını – yalnız təqdim olunan sənədlərin yoxlanışını - həyata keçirtməkdən ibarətdir. Postgömrük nazarəti zxamanı tətbiq olunan əsas sənədlərə gömrük bəyyanaməsi, bəyyanaməyə məxsus şəxslərin rəsmi sənədləri, malların və nəqliyyat vasitələrinin uçot sisteminə dair hesabatlar və sənədlər və s. aiddir.

Məmmədova Ayşən Viladdin qızı, doktorant
Email: a.nesibova@uteca.edu.az;
Məmmədov Seymur Ceyhun oğlu, doktorant
Email: s.memmedov@uteca.edu.az;
Azərbaycan Texnologiya Universiteti

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KİÇİK SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qarabağ ərazisi zəngin təbii və faydalı resurslara malikdir. Regionun turizm, kənd təsərrüfatı, aqrar-emal, xalq sənətkarlığı və s. kimi ənənəvi iqtisadi sektorlarının yenidən canlandırılması və xarici bazarlara çıxarılması böyük perspektivlər vəd edir. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan arasında Qarabağdan

keçməklə quru nəqliyyat dəhlizinin yaradılması təkcə Azərbaycan üçün deyil, bütövlükdə regionun iqtisadi konyukturası üçün mühüm dəyişiklik və yenilik olacaqdır.

Sahibkarlığın, o cümlədən kiçik və orta biznesin inkişafı dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının həmişə mərkəzində olmuş və ötən illər ərzində bu sahədə qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində sistemli tədbirlər həyata keçirilmişdir.

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və onun mərkəzində durur. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir.

Azərbaycan Ordusunun zəbt edilmiş ərazilərin azad olunması və ərazi bütövlüyümüzün bərpası uğrunda gedən döyüşlərdə qazandığı qələbə dünya tarixində qızıl hərflərlə yazılan bir qələbə oldu. Hal-hazırda qarşıda duran ən önəmli vəzifə işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialını və onlardan səmərəli istifadə edilməsi şərti ilə sahibkarlığın inkişafı istiqamətlərini müəyyən etməkdir. İşğaldan azad edilmiş ərazilərin bərpası və həmin ərazilərin dirçəlməsinə nail olmaq istiqamətində bir çox tədbir və proqramlara artıq start verilmişdir. Böyük əminliklə deyə bilərik ki, işğaldan azad edilən ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.

Bu ərazilərdə sahibkarlığın inkişafının təmin edilməsi Azərbaycan iqtisadiyyatının daha da güclənməsinə böyük təkan verəcəkdir. Mövcud və yeni proqramlar çərçivəsində Sahibkarlığın İnkişafı Fondu Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sahibkarlığı dəstəkləmək və maliyyələşdirmək istiqamətində böyük işlər görmək iqtidarındadır.

Sahibkarlığın İnkişafı Fondu nəzdində kiçik sahibkarlığın dəstəklənməsi istiqamətində bir çox tədbirlər həyata keçirilir. Fond çərçivəsində sahibkarlığın subsidiyalaşdırılmasının bir neçə növü həyata keçirilir [1].

İşğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan verəcək və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixrac yönümlü məhsulların istehsalı da artacaqdır.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqlamalarına görə, işğaldan azad edilən ərazilərdə 167 müxtəlif təyinatlı faydalı-qazıntı yataqları mövcuddur. İşğaldan azad edilmiş ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif növ materiallarla zəngindir. Eyni zamanda ərazilər zəngin su ehtiyatlarına malikdir ki, bu da ölkəmizin sənayesi və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir. Bölgədə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Bütünlükdə Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 40%-i işğaldan azad edilən rayonların payına düşür. Regionun enerji

resurslari orada iqtisadiyyatın bütün sahələrinin, eləcə də əhalinin enerjiyə olan gündəlik tələbatının ödənilməsində vacib təminatçı rolunda çıxış edəcəkdir.

Bütün bu faktlar onu göstərir ki, həmin ərazilərdə sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkəsinin yaradılması üçün kifayət qədər xammal və enerji resursları mövcuddur. İndiki və gələcək nəslin qarşısında duran başlıca vəzifə həmin resurslardan qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir.

İşğaldan azad edilən rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan kompleks xarakterli hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və həyata keçirilməsi tələb olunur. Başqa sözlə ərazilərin bərpası üçün konseptual yanaşmaya üstünlük verilməlidir [2].

İşğaldan azad edilən rayonlarda müasir texnika və texnologiya ilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və digər resurslardan səmərəli istifadə etməyə imkanı olan aşağıdakı fəaliyyət sahələri üzrə fərdi, mikro, kiçik və ortaölçülü sahibkarlıq subyektlərinin yaradılması regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaratmış olacaqdır:

- Ağdam, Cəbrayıl və Qubadlı rayonlarında "Azərxalça" ASC-nin filiallarının yaradılması, həmin və digər əlverişli şəraiti olan rayonlarda baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına təkan verə bilər;
- Kəlbəcər, Laçın və Şuşada böyük həcmdə mineral su ehtiyatının olduğunu nəzərə alaraq orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verə bilər;
- Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünəməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikro-sahibkarlıq fəaliyyətinin təşkili və fərdi, mikro və kiçik statuslu sahibkarlar tərəfindən dünyada məşhur olan Qarabağ atlarının sayının çoxaldılması kiçik sahibkarlığın inkişafına güclü təkan vermiş olacaq;
- Rayonların dağlıq kənd və qəsəbələrində fərdi, mikro və kiçik sahibkarlıq fəaliyyəti göstərilən obyektlərində, eləcə də fərdi yaşayış evlərində Türkiyənin mövcud və uğurlu iş təcrübəsindən istifadə etməklə alternativ və bərpa olunan enerji növlərindən istifadəyə üstünlük verilməsi faydalı olardı.

İşğaldan azad edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı qismində - dövlət büdcəsindən və Dövlət Neft Fondundan birbaşa ayrılan vəsaitlər, xarici investisiyalar, beynəlxalq təşkilatların birdəfəlik təmənnasız ianələri, aşağı faizli bank kreditləri, sığorta təşkilatlarının vəsaiti, əhalinin öz pul vəsaitləri və qanunvericilikdə qadağan edilməyən digər mənbələr çıxış edə bilər.

Ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Sərhəd və cəbhə bölgəsində vətəndaşların sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılması, onlara dövlətin güzəştli kreditlərinin verilməsi Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətində əsas prioritetlərdəndir.

Sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsinə 116,4 milyon mana-

tadək güzəştli kredit verilmişdir, bu kreditlərdən yararlanmaqla investisiya layihələrinin reallaşdırılmasının 3800-dən çox yeni iş yerinin açılmasına imkan yaradılmışdır. Verilən kreditlər də daxil olmaqla indiyədək Yuxarı Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 1300-dək investisiya layihəsinin maliyyələşdirilməsinə ümumilikdə 44,6 milyon manat güzəştli kredit vermişdir.

Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilmişdir. Bu strateji xəttin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir.

İşğaldan azad edilmiş ərazilərdə gənclərə uyğun iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının hərtərəfli təşviqləndirilməsinin işlək mexanizmi hazırlanmalı və tətbiq edilməlidir. Gənclərin sahibkarlıq fəaliyyəti və əmək məşğulluğu ilə bağlı genişmiqyaslı özünüməşğulluq layihələrinin həyata keçirilməsini və bu işdə müvafiq beynəlxalq təşkilatların dəstəyindən, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, onların beynəlxalq proqramlarda, layihələrdə iştirakının təmin olunması vacibdir.

İşğaldan azad edilən ərazilərin yenidən qurulmasının və bərpa edilməsinin, həmçinin bu ərazilərdə normal məskunlaşmanın və təhlükəsizliyin, səmərəli iqtisadi fəaliyyətin və yüksək rifahın təmin edilməsinin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu fond publik hüquqi şəxs olaraq, işğaldan azad edilən ərazilərdə həyata keçirilən digər işlərlə yanaşı, sosial-iqtisadi tədbirlərə də maliyyə dəstəyi göstərəcəkdir [1].

"Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi"nin 4.9.13-cü "Fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadiyyatın sahələri və iqtisadi rayonlar üzrə prioritet istiqamətləri müəyyənləşdirmək" bəndindən irəli gələn vəzifələrin icrası ilə əlaqədar iqtisadi rayonlar üzrə aşağıdakı prioritet istiqamətlər müəyyən olunmuşdur:

1.Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə qeyri-neft sektorunda sosial-iqtisadi inkişafa xidmət edən biznes layihələrin dəstəklənməsi.

2.Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə qeyri-neft sektorunda sosial-iqtisadi inkişafa xidmət edən biznes layihələrin dəstəklənməsi.

Yuxarı Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən 21 sahibkara 1,9 mln. manatdan çox güzəştli kredit verilib. Verilən kreditlər əsasən heyvandarlıq, pambıqçılıq, bağçılıq, çörək istehsalı və s. sahələrin inkişafına yönəldiləcək, 50-dək yeni iş yerinin açılmasına imkan yaranacaq. [3]

Ölkə Prezidentinin 29 oktyabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" imzaladığı Fərmanda – işğaldan azad edilən rayonlarda müvəqqəti komendantlıqların yaradılması və onların nəzdində fəaliyyəti zəruri hesab edilən dövlət orqanlarının nümayəndələrinin təmsil edilməsi, vaxt itirmədən ərazilərin qorunması və bərpası, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi, ictimai təhlükəsizliyin qorunması və digər vacib məsələlər öz əksini tapmışdır [4].

Digər tərəfdən Ölkə Prezidenti 06 noyabr 2020-ci il tarixdə cari ilin sentyabr

ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə xüsusi Dövlət Komissiyası yaratmış və ona tapşırılmışdır ki, dəymiş ziyanı qiymətləndirərək onların aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitləri barədə təkliflərini Ölkə Prezidentinə təqdim etsin və xərclərə dair vahid məlumat bazasının yaradılması təmin olunsun.

İşğaldan azad edilən rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan kompleks xarakterli hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və həyata keçirilməsi tələb olunur.

2010-cu ildə Qafqaz Strateji Tədqiqatlar İnstitutunun dəstəyi ilə ölkəmizin tanınmış iqtisadçı alimləri Nazim Müzəffərli və Eldar İsmayılov tərəfindən hazırlanıb çap edilən "Azərbaycanın postkonflikt ərazilərinin bərpası (konseptual əsaslar)" adlı fundamental monoqrafiya işğaldan azad edilən ərazilərin bərpası üçün normativ-hüquqi bazanı və müvafiq dövlət proqramlarının işlənilməsi üçün təkmil tədqiqatın nəticələri kimi çıxış edə bilər. Azərbaycan, rus və ingilis dilində nəşr edilən və zəruri ünvanlara göndərilən həmin monoqrafiyaya ön söz yazan ABŞ-dakı C. Horkins adına Universitetinin nəzdindəki Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru, professor Frederik Starr əsərdə öz həllini tapan məsələlərə yüksək qiymət vermiş, onun ölkəmizin işğaldan azad ediləcək əraziləri üçün mühüm konseptual əsaslara söykəndiyini qeyd etmişdir.

İşğaldan azad edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı qismində - dövlət büdcəsindən və Dövlət Neft Fondundan birbaşa ayrılan vəsaitlər, xarici investisiyalar, beynəlxalq təşkilatların birdəfəlik təmənnasız ianələri, aşağı faizli bank kreditləri, sığorta təşkilatlarının vəsaiti, əhalinin öz pul vəsaitləri və qanunvericilikdə qadağan edilməyən digər mənbələr çıxış edə bilər.

İşğaldan azad olan şəhər və kəndlərdə mikro, kiçik və orta sahibkarlar tərəfindən müasir mağazalar, məişət və iaşə xidmətləri, bazar və digər sosial infrastruktur obyektləri tikilib istifadəyə veriləcəkdir.

Ağdam, Cəbrayıl və Qubadlı rayonlarında "Azərxalça" ASC-nin filiallarının yaradılması, həmin və digər əlverişli şəraiti olan rayonlarda baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına təkan verəcəkdir.

Kəlbəcər, Laçın və Şuşada böyük həcmdə mineral su ehtiyatının olduğunu nəzərə alaraq orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verəcəkdir.

Qarabağ regionunda qısa və orta müddət perspektivində iqtisadi inkişaf və sahibkarlıq fəaliyyətinin bərpa edilməsi istiqamətində dövlət tərəfindən həyata keçiriləcək genişhəcmli tədbirlər nəticəsində Qarabağ regionun yenidən dirçəlməsinə, regionun iqtisadi potensialının ölkənin iqtisadi güçündə özünəməxsus yerini tutmasına və dünyada tanınacaq yeni Qarabağ brendinin formalaşdırılmasına imkan yaradacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Qarabağ Dirçəliş Fondunun Nizamnaməsi.
2. https://www.virtualkarabakh.az/
3. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi.
4. Ölkə Prezidentinin 29 oktyabr 2020-ci il tarixli "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" imzaladığı Fərman.

Nəsirova Nərgiz Məhəmməd qızı, doktorant,
Sumqayıt Dövlət Universiteti
Email: nargiz917@gmail.com

"BÖYÜK QAYIDIŞ" PROQRAMININ HƏDƏFLƏRİ VƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsi ölkəmizin şanlı qələbəsi ilə nəticələndi, işğal altında olan Azərbaycan ərazilərinə son qoyuldu və ölkəmizin ərazi bütövlüyü təmin edildi. İndi ölkəmizlə yanaşı, hər birimizin qarşısında işğaldan azad edilmiş torpaqlarımızda təhlükəsiz həyatın bərpası və keçmiş məcburi köçkünlərin öz yurdlarına ləyaqətlə qayıdışının təmin edilməsi kimi olduqca çətin, lakin hamı üçün müqəddəs olan bir vəzifə durur.

Artıq atılan ilkin addımlar onu deməyə əsas verir ki, keçmiş məcburi köçkünlərin sistemli, ardıcıl, vahid mərkəzdən elmi əsaslarla idarə olunmaqla geriyə dönüşünün təmin edilməsi xüsusi dövlət proqramı – "Böyük Qayıdış" Proqramı ilə həyata keçiriləcəkdir.

"Böyük Qayıdış" Proqramı Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində daimi yaşayış yerlərini tərk etmiş məcburi köçkünlərin öz doğma yurdlarına ləyaqətlə qayıdış prosesinə hazırlanması, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin insan həyatı üçün təhlükəli olan vasitələrdən təmizlənməsi, orada insanların təhlükəsiz yaşayışının təmin edilməsi, normal həyat üçün tələb olunan bütün bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi, işğal və sonrakı dövrdə yaranmış yeni nəsil də daxil olmaqla, məcburi köçkünlərin öz doğma yurdlarına ləyaqətlə qayıdış hüququnun, həmçinin onların məşğulluğunun təmin edilməsi ilə bağlı məsələləri özündə ehtiva edən konseptual sənəddir.

Proqramın obyekti və hədəfi Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından məhrum olan və ötən müddət ərzində respublikanın müxtəlif bölgələrində ağır şəraitdə müvəqqəti məskunlaşan 700 min nəfərədək məcburi köçkün və onların işğal və sonrakı dövrdə yaranmış yeni nəslinin nümayəndələridir.

Proqramın əsas məqsədi məcburi köçkünlərin geriyə qayıdış prosesinə hazırlanması, məcburi köçkünlərin öz ata-baba torpaqlarına ləyaqətlə qayıdış hüququnun, təhlükəsiz yaşamalarının təmin edilməsi və bununla bağlı tələb olunan bütün zəruri

tədbirlərin sistemli şəkildə, ardıcıl olaraq həyata keçirilməsindən ibarətdir.

Proqramda aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış prosesinə hazırlanması;
- işğaldan azad olunan ərazilərin insan həyatı üçün təhlükəli hesab edilən bütün vasitələrdən təmizlənməsi;
- ərazilərdə sosial-texniki infrastrukturun və yaşayış məntəqələrinin bərpası və insanların yaşayışı üçün normal şəraitin yaradılması;
- beynəlxalq və milli qanunvericiliyin tələbləri nəzərə alınmaqla, məcburi köçkünlərin ləyaqətlə geriyə qayıdış hüququnun təmin edilməsi;
- əvvəlki yaşayış yerinə qayıdan məcburi köçkünlərə təhlükəsiz həyat şəraitinin yaradılması;
- öz doğma yurdlarına qayıdan məcburi köçkünlərin, xüsusən gənclərin məşğulluğunun təmin edilməsi;
- Proqramın həyata keçirilməsində şəffaflığın təmin edilməsi, bu işə beynəlxalq maliyyə qurumları və təşkilatların cəlb edilməsi və görülən işlər barədə ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması.

Məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı ilə əlaqədar beynəlxalq təcrübənin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının vasitəsilə öyrənilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına könüllü qayıdışı ilə bağlı milli qanunvericilik aktlarının beynəlxalq qanunlara uyğun olaraq təkmilləşdirilməsi və bu işdə beynəlxalq təşkilatların, xüsusən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının iştirakının təmin edilməsi, geriyə qayıdışa hazırlıq və icra prosesində iştirak edəcək subyektlərin treninq, seminar və digər tədbirlər vasitəsilə təlimatlandırılması, məcburi köçkünlərin geriyə qayıdışa hazırlanması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi, işğaldan azad olunan ərazilərin insan həyatı üçün təhlükəli olan vasitələrdən təmizlənməsi, işğaldan azad olunan ərazilərdə bərpa və quruculuq işləri ilə bağlı xüsusi proqramların hazırlanması və həyata keçirilməsi, xalqımızın milli mənəvi sərvəti hesab edilən tarixi mədəniyyət abidələrinin bərpası, qorunması və beynəlxalq səviyyədə tanıdılması ilə bağlı tədbirlərin görülməsi, ərazilərdə torpaq münasibətlərinin tənzimlənməsi, məcburi köçkünlərin öz doğma yurdlarına ləyaqətlə qayıdış hüquqlarının təmin edilməsi Böyük Qayıdışın əsas fəaliyyət istiqamətləridir.

Məcburi köçkünlərin geri qayıdışa hazırlanması tədbirlərinə:

- işğaldan azad olunan ərazilərdə bərpa olunacaq təhsil, səhiyyə, mədəniyyət, idman, rabitə, infrastruktur və sosial obyektlərdə çalışacaq işçi heyətin hazırlanması, formalaşdırılması və komplektləşdirilməsi;
- əraziləri işğal olunmuş rayonların tarixi, onların tanınmış görkəmli şəxsləri haqqında məlumat xarakterli təbliğat vasitələrinin hazırlanması və xarici ölkələrdə yayılması;
- işğaldan azad olunan ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə, əsas infrastrukturun yaradılması və s. kimi işlərə məcburi köçkünlərin cəlb edilməsi;
- öz doğma yurdlarına qayıdacaq məcburi köçkünlərin ehtimal olunan fövqəladə hallarla qarşılaşarkən davranış qaydaları üzrə maarifləndirilməsi,
- məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı ilə bağlı peşə təlimi və

bacarıqlarının artırılması üçün xüsusi kursların təşkili;

- məcburi köçkünlər arasında icma ruhunun qorunub saxlanılması və möhkəmləndirilməsi;
- məcburi köçkünlərin öz doğma yurdları ilə bağlı tarixi, mənəvi-psixoloji bağlılığının qorunub saxlanılması;
- hərbi vətənpərvərlik;
- məcburi köçkünlər arasında öz doğma yurdlarına qayıdışla bağlı həvəsləndirici maarifləndirmə işlərinin həyata keçirilməsi;
- məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı ilə bağlı görülməsi nəzərdə tutulan bütün işlərin məhz məcburi köçkün icmalarının iştirakı ilə icra ediləcəyini nəzərə alaraq, sıx məskunlaşma yerlərində xüsusi icmaların inkişafı layihələrinin və icma rəhbərləri üçün təlim proqramlarının həyata keçirilməsi;
- məcburi köçkünlər arasında müvafiq izahat işlərinin aparılması, onların hüquqi maarifləndirilməsi və bu işə aidiyyəti dövlət orqanlarının, beynəlxalq və yerli humanitar təşkilatların cəlb edilməsi aiddir.

Yaşayış məntəqələrinin hüdudlarının müəyyənləşdirilməsinə və ya dəyişdirilməsinə dair sənədlərin tərtibatı, ərazilərdə torpaqların keyfiyyəti və kəmiyyəti üzrə inventarlaşdırmanın aparılması, hər bir şəhər, rayon və yaşayış məntəqəsi üzrə xəritələrin hazırlanması, təbii və antropogen proseslər nəticəsində korlanmış torpaqların kökündən və səthi yaxşılaşdırılması, rekultivasiyası, torpaqlarda mədəni-texniki tədbirlərin görülməsi, torpaqların münbitliyinin artırılması, onların istifadəsi və mühafizəsi üzrə regional proqramların və proqnozların, habelə kompleks və təsərrüfatdaxili yerquruluşu layihələrinin hazırlanması, xüsusi təyinatlı geodeziya və topoqrafiya işlərinin aparılması, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, işğaldan azad olunan torpaqların mülkiyyət formalarının müəyyənləşdirilməsi və torpaq islahatının aparılmasına hazırlıq işlərinin təşkili ərazilərdə torpaq münasibətlərinin tənzimlənməsi işlərinə aiddir [1].

Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı və Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılmışdır [2].

Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmış, onun Nizamnaməsi və Müşahidə Şurası təsdiq edilmişdir[3].

Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, həmçinin onların müvəqqəti saxlanılması, daşınması, zərərsizləşdirilməsi sahəsində fəaliyyət göstərən, habelə bu sahədə digər zəruri işlərin təşkilini, fəaliyyətin planlaşdırılmasını, əlaqələndirilməsini və idarə edilməsini həyata keçmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2021-ci il tarixli Sərən-

camı ilə Minatəmizləmə Agentliyi yaradılmışdır [4].

Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidən-qurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri təsis edilmişdir. Artıq Şuşa şəhərində Prezident tərəfindən təyin edilmiş nümayəndə fəaliyyət göstərir [5].

Dövlət başçısının Sərəncamı ilə yaradılmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı" nəzdindəki İdarələrarası Mərkəzin "Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupu" yerli və xarici mütəxəssisləri cəlb etməklə sistemli araşdırmalar aparır. Həmin araşdırmalardan biri də ADA Universitetində aparılan "Azərbaycanın post-konflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" adlı tədqiqat işidir. Bu tədqiqat çərçivəsində bir neçə sosioloji sorğu keçiriləcəkdir və birincisi – internet vasitəsilə keçirilən onlayn-sorğudur. Bu sorğu dövlət sifarişi əsasında, müstəqil qrup kimi fəaliyyət göstərən və bir neçə elmi-tədqiqat və təhsil müəssisəsinin mütəxəssislərindən ibarət olan alimlər tərəfindən keçirilir. Sorğu iştirakçılarının şəxsi məlumatlarının və verdikləri cavabların konfidensiallığına tam zəmanət verilir[6].

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş Qarabağ bölgəsi tezliklə respublikamızın ən inkişaf etmiş regionuna, ölkə iqtisadiyyatının vacib sahəsinə çevriləcəkdir. Bu da dünya üçün nümunə ola biləcək daha bir Azərbaycan modelinin yaranması ilə nəticələnəcək.

İstifadə olunmuş ədəbiyyat:

1. Torpaq haqqında Qanun http://www.e-qanun.az/framework/4207
2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/articles/47738/print
3. Dirçəliş fondu // https://ibar.az/az/dirchelish-fondu
4. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://president.az/articles/50204
5. Işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // https://president.az/articles/50281
6. https://apa.az/az/dagliq_qarabag/Mcburi-kockunlr-arasinda-qayidis-haqqinda-onlayn-sorgu-baslayib-630545

Şükürova Aytən Akif qızı, dissertant,
Azərbaycan Kooperasiya Universiteti
Email: shukürovaayten@ mail.ru.

İŞĞALDAN AZAD OLUNMUŞ QARABAĞ REGİONUNDA KİÇİK AQROBİZNESİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Qarabağ regionunun bərpası və onun yenidən qurulmasında aqrar sferanın inkişaf strategiyası, sosal-inkişaf problemlərinin həlli və regionun bərpası respublikamızda iqtisadi inkişafın sürətlənməsini təmin edəcəkdir. Bunun üçün Yuxarı Qarabağ və Kəlbəcər – Laçın İqtisadi Rayonlarının kənd təsərrüfatı müasir tələblər əsasında yenidən qurulmalıdır. Əlbəttə ki, regionda aqrar sferaya dəymiş ziyanın qiymətləndirilməsi zərərin nəticələri, ərazilərin minalardan təmizlənməsi və infrastruktur layihələrin həyata keçirilməsi qarşıda duran mühüm məsələlərdir.

Məlum olduğu kimi, işğaldan azad olunmuş Yuxarı Qarabağ İqtisadi Rayonunu (YQİR) əsasən Cəbrayıl, Füzuli, Ağdam, Tərtər, Xocalı, Şuşa və Xocavənd rayonları, Kəlbəcər – Laçın İqtisadi Rayonunu (KLİR) isə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları təşkil edir. Bu rayonlarıda aqrar sferada kiçik və orta sahibkarlığın – aqrobiznesin inkişafı prioritet məsələ kimi dövlətin qarşısında durur. Odur ki, sahibkarlıq fəaliyyəti – xüsusilə fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları, həmçinin kooperativ birliklərinə diqqət artırlmalıdır. Praktik iqtisadçı – alim, prof. İ.İbrahimov özünün "Aqrar sahənin iqyisadiyyatı" adlı elmi əsərində aqrar sferada sahibkarlığın və aqrobiznesin inkişafının zəruriliyini əsaslandıraraq qeyd etmişdir ki, "Aqrar sahədə sahibkarlıq fəaliyyətinin aşağıdakı növləri-İstehsal sahibkarlığı - kommersiya, maliyyə və digər sahə və xidmət sahibkarlığı fərqləndirilir" [2, s.31]. Mütəxəssis alimin araşdırmalarından göründüyü kimi, aqrar sferada sahibkarlığın inkişaf istiqamətlərinin formalaşması xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, regionda kənd təsərrüfatının mühüm istiqaməti olan bitkiçilik və heyvandarlıq üzrə aqrobiznes-sahibkarlıq müasir tələblər baxımından inkişaf etdirilməlidir.

İlkin olaraq işğaldan azad olunmuş ərazilərimizdə aqrobiznesin – sahibkarlıq fəaliyyətinin zəruriliyi və formalaşması barədə qısaca məlumat vermək lazımdır. Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən 2019-cu ildə fərdi sahibkarlıq təsərrüfatlarının (FST) sayı Yuxarı Qarabağ İqtisadi Rayonunda (YQİR) 41, Kəlbəcər – Laçın İqtisadi Rayonunda (KLİR) isə 5 vahid təşkil etmişdir. İşğaldan azad olunmuş ərazilərdə - xüsusilə YQİR-in FST-da kənd təsərrüfatına yararlı torpaq sahələri 1051 ha, KLİR-nun FST-da isə 420 hektar olmuşdur. YQİR-da bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi fərdi sahibkarlıq, ailə kəndli və ev təsərrüfatlarında 232,7 ha, KLİR-da isə 70 hektar təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş YQİR-un kənd təsərrüfatı məhsullarının fizki həcm indeksi 2019-cu ildə bitkiçilik məhsulları üzrə 106,2%, heyvandarlıq məhsulları üzrə isə 104,2 faiz olmuşdur. Bu göstəricilər KLİR-da uyğun olaraq 84,2 və 97,8 faiz təşkil etmişdir. DSK-nın məlumatına əsasən 2019-cu ildə YQİR-nun kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 122,9 min ha, KLİR-un əkin sahəsi isə 3 min hektara bərabər olmuşdur.

Ümumiyyətlə, ölkəmizdə fərdi sahibkarlıq təsərrüfatlarının xüsusi çəkisi 90

faizdən yuxarıdır və ölkənin aqrar sahəsinin inkişafında mühüm rol oynayır. Belə ki, fərdi sahibkarlıq təsərrüfatlarında dənli bitkilərin 1 sentnerinin maya dəyəri 2017-ci ildəki 12,40 manatdan 2019-cu ildə 15,58 manata yüksəlsə də, onların satış qiyməti (31,83 man) və satış renabelliyi 80,2 faizə yüksəlmişdir. Təkcə onu qeyd etmək lazımdır ki, uzun illər Qarabağda ərazimizin işğal altında olması, həmçinin daha məhsuldar cins mal-qaradan istifadə edilməməsi səbəbindən ölkədə ət və süd məhsullarına tələbat yerli istehsal hesabına tam ödənilmir. Bütün bunlarla yanaşı, ölkənin fərdi sahibkarlıq təsərrüfatlarının sayı 2019-cu ildə 2015-ci illə müqayisədə 40,7 faiz azalsa da, mənfəətin məbləği bir faizdən çox artmış, zərərin məbləği isə 24,3 faiz azalmışdır. Fərdi sahibkarlıq təsərrüfatlarında ümumi mənfəət müqayisə edilən dövrdə 4,4 faiz artmış və bu təsərrüfatlarda satışdan əldə edilən gəlirlər 24,2 faiz yüksəlmişdir.

Ölkədə kiçik və orta aqrobiznesin inkişafı həm də onunla izah edilə bilər ki, son illərdə həmin təsərrüfatların iqtisadi səmərəliliyi xeyli yüksəlmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, müqayisə edilən 2015-2019-cu illərdə həmin təsərrüfatlarda kənd təsərrüfatının ümumi məhsulunun həcmi 15,3 faiz artsa da, kənd təsərrüfatına yararlı torpaq sahəsi 58,5 faiz azalmışdır. Məhz bu səbəbdən əkin yeri və bir nəfərə düşən kənd təsərrüfatında yararlı torpaq sahəsi də nisbətən az olmuşdur.

Beləliklə, aparılan təhlillərin nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, işğaldan azad olunmuş ərazilərdə aqrar sahibkarlığın inkişafının sürətləndirilməsi və dövlətin dəstəyi gücləndirilməlidir. Bu baxımdan aqrobiznesin və kiçik sahibkarlığın həmin regionda inkişafı mühüm əhəmiyyət kəsb edir. İqtisadçı alim, prof. B.Ataşov "Aqrar sahədə struktur və səmərəlilik problemləri" adlı elmi əsərində qeyd edir ki, "Kiçik biznes əhalinin əvvəllər istifadə edilməyən xeyli maliyyə və istehsal, o cümlədən əmək və xammal ehtyatlarını səfərbər etmək qabiliyyətini, rəqabətə davamlılıq, səmərəli təsərrüfatçılıq fəaliyyətini əyani reallığa çevirir" [1, s.332-333]. Beləliklə, qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ölkədə bazar iqtisadiyyatının inkişafının başlıca hərəkətverici qüvvəsi sahikarlıq fəaliyyətindən ibarətdir. Respublikamızda aqrar sferada şəxsi sahibkarlığın əsas forması kəndli (fermer) – fərdi sahibkarlıq, ailə, kəndli və ev təsərrüfatlarıdır. Azərbaycanda fermer təsərrüfatlarının fərqli xüsusiyyətlərinə ilk növbədə kiçik kənd sahibkarlığını, torpaq üzərində fermerlərin yüksək sosial-iqtisadi motivasiyası, öz fəaliyyətinin nəticələrinə tam iqtisadi və hüquqi məsuliyyət, istehsal resurslarının təminatında sərbəstlik, muzdlu iş qüvvəsindən məhdud istifadəni aid etmək olar.

Aqrar sektorda mürəkkəb iqtisadi vəziyyətə, müəyyən qədər dövlət dəstəyinə və fermerlərin sosial müdafiəsinə baxmayaraq, bütünlükdə fermer təsərrüfatlarında hələ də sosial-iqtisadi inkişafda nöqsanlar vardır. Bununla belə təsdiq etmək olar ki, fermer təsərrüfatlarının səmərəli inkişafı üçün şərait yaradılmışdır.

Aparılmış tədqiqatlara əsasən, sorğu aparılmış fermerlərin təqribən dörddən üçünün fikrincə, aqrar sferada kiçik aqrobiznesin inkişafını təmin edən mühüm amillər pul vəsaitlərinin azlığı və büdcə vəsaitlərindən səmərəli istifadədən ibarətdir.

Kiçik və orta aqrobiznes subyektlərinin, fermer təsərrüfatları daxil olmaqla maliyyə dəstəyinin perspektiv forması tədbirləri kənd kredit kooperasiyasının yaradılması və inkişafını stimullaşdırmaqdan ibarətdir. Fikrimizcə, müasir iqtisadi şəraitdə fermer təsərrüfat quruluşunun formalaşması və inkişafı yalnız kəndli (fermer) təsərrüfatlarının kooperasiyası və inteqrasiyası əsasında müvəffəqiyyətli fəaliyət göstərə bilər.

Bununla yanaşı, apardığımız tədqiqatların nəticəsi təsdiq edir ki, ölkəmizdə, xüsusilə Qarabağ regionunda fermerlərarası kooperasiyanın genişləndirilməsi nəticəsində seleksya, kənd kredit, satış və xidmət kooperativlərinin, həmçinin bazar infrastrukturunun inkişafına nail olmaq mümkündür. Eyni zamanda, qeyd etmək lazımdır ki, kooperasiya bir tərəfdən texniki-texnoloji inkişaf əsasında iri miqyaslı məhsul istehsalını təmin edir, digər tərəfdən istehsal, tədavül və istehlak sisteminin təkmilləşdirilməsində ayrı-ayrı kooperativ üzlərinin fərdi maraqlarının və məsuliyyətinin qorunmasına imkan verir.

İqtisadçı-alim, prof E.Quliyev "Aqrar iqtisadiyyat" adlı kitabında fermer təsərrüfatlarının yaradılmasının zəruriliyini qeyd edərək göstərir ki, "Fermer təsərrüfatı kollektiv müəssisələrin yenidən təşkili, şəxsi həyətyanı təsərrüfatı fermer təsərrüfatına keçirməklə və yeni ayrılmış torpaqlarda yaradıla bilər" [3, s.78].

Hal-hazırda əsasən çoxsahəli kooperativlər formalaşır ki, bu da nəticədə azsaylı və inkişaf etməmiş kooperativ münasibətləri sisteminə səbəb olur. Nəzərə almaq lazımdır ki, fermer təsərrüfatları adətən müxtəlif fəaliyyət xarakterinə malk bir neçə kooperativ üzvündən ibarət olur. Fikrimizcə, fermer təsərrüfatlarının iqtisadi inkişafı üçün məhsulların satışı və emalı üzrə kooperativlər, təchizat, kredit, istehsal, həmçinin müxtəlif xidmətlər göstərən kooperativlər daha tipikdir.

Aparılmış tədqiqatlar göstərir ki, günəbaxan, şəkər çuğunduru, tərəvəz və s. kimi kənd təsərrüfatı məhsulları növlərinin kütləvi istehsalı aparılan rayonlarda və iri emal müəssisələrinin olmadığı zonalarda fermerlərarası emal kooperativlərinin yaradılması məqsədəuyğundur. Bu əlaqə məhsul emalının artımına, resursların saxlanmasına qənaət etməyə və məhsulların reallaşdırılmasına imkan verər.

Son illər hüquqi şəxs statusa malik müxtəlif hüquqi formalı müəssisələr və təsərrüfat vahidləri ilə yanaşı, hüquqi şəxs yaratmadan kəndli (fermer) təsərrüfatların forması inkişaf etmişdir. Onlar bir qayda olaraq 2-3 ailə təsərrüfatndan ibarətdir. Kooperasiyanın bu forması rayonlarımızda geniş yayılmaqdadır. Bu təcrübə işğaldan azad olunmuş Qarabağ regionunun mümkün ərazilərində də geniş tətbiq olunmalıdır.

Apardığımız tədqiqatların nəticəsi olaraq, belə qənaətə gəlmək olar ki, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının – fermer təsərrüfatlarının və emal sferası müəssisələrinin kooperasiyanın müxtəlif formalarında birləşməsi kəndin real dirçəlməsinə səbəb ola bilər. Sahənin mütəxəssis alimlərinin fikrini ümumiləşdirərək, deyə bilərik ki, kiçik aqrobiznes üçün aqroservisin kooperativ sisteminin yaradılması və daha da inkişafı dövlət dəstəyi olmadan mümkün deyil. Hesab edirik ki, burada dövlətin dəstəyi iki istiqamətdə həyata keçirilə bilər:

- kooperativlərin təşkili və fəaliyyəti üçün etibarlı hüquqi bazanın yaradılması;
- koopeativlərin və onların birliklərinin, xüsusilə bərpa dövründə maliyyə-iqtisadi dəstəyi.

Kiçik aqrobiznesə kəndli fermer təsərrüfatı daxil olmaqla dəstəyin daha səmərəli yolu aqroservisin kooperativ strukturunun ilkin müdafiəsindən ibarətdir. Kiçik aqrobiznes üçün aqroservisin kooperativ sisteminin yaradılması prosesinə hüquqi və maliyyə dövlət dəstəyi şaquli inteqrasiya əsasında aqroservislə müqayisədə daha tez həyata keçir. Bu istiqamətlərin yerinə yetirilməsi kəndli (fermer) təsərrüfatlarının inkişafını təmin edir.

Qeyd edilənləri ümumiləşdirərək ölkənin işğaldan azad olunmuş regionunda aqrar sferada kiçik sahibkarlığın inkişafında aşağıdakı təkliflərin nəzərə alınması və zəruriliyi məqsədəuyğun ola bilər:

- işğaldan azad olunmuş ərazilərdə aqrar sahibkarlığın inkişafı sürətləndirilməli və onlara dövlət dəstəyi gücləndirilməlidir;
- fermer təsərrüfatlarının sürətli inkişafı üçün münbit şərait yaradılmalıdır;
- aqrar sferada kiçik aqrobiznesin inkişafını təmin edən mühüm amillər pul vəsaitlərinin azlığı və büdcə vəsaitlərindən səmərəsiz istifadədən ibarətdir;
- kiçik və orta aqrobiznes subyektlərinin maliyyə dəstəyinin perspektiv forması kənd kredit kooperasiyasının yaradılması və inkişafının stimullaşdırılmasıdır;
- fermer təsərrüfat quruluşunun formalaşması və inkişafı yalnız kəndli təsərrüfatlarının kooperasiyası və inteqrasiyası əsasında müvəffəqiyyətlə fəaliyyət göstərə bilər;
- fermerlərarası kooperasiyanın genişlənməsi nəticəsində seleksiya, kənd kredit, satış və xidmət kooperatilərinin, həmçinin bazar infrastrukturunun inkişafına nail olmaq mümkündür;
- işğaldan azad olunmuş regionda fermer təsərrüfatlarının iqtisadi inkişafi üçün məhsulların satişi və emali üzrə kooperativlər, təchizat, kredit, istehsal və müxtəlif xidmətlər göstərən kooperativlər yaradılması məqsədəuyğundur;
- günəbaxan, şəkər çuğunduru, tərəvəz və digər oxşar bitkilər kimi kənd təsərrüfat məhsulları növlərinin kütləvi istehsalı aparılan rayonlarda və iri emal müəssisələrinin olmadığı zonalarda fermerlərarası emal kooperativlərinin yaradılması məqsədəuyğundur. Bu əlavə məhsul emalının artımına, resursların saxlanmasına qənaət etməyə və onların reallaşdırılmasına imkan verər.
- işğaldan azad olunmuş ərazilərimizdə hüquqi şəxs yaratmadan kəndli (fermer) təsərrüfatlarının kooperasiyasının nizamnaməsiz forması inkişaf etdirilməlidir. Bu bir qayda olaraq, 2-3 ailə təsərrüfatından ibarətdir.
- fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının – fermerlərin və emal sferası müəssisələrinin kooperasiyanın müxtəlif formalarında birləşməsi kəndin real dirçəlişinə səbəb ola bilər;
- aqrobiznes kooperativlərinin yaradılması zəruridir. Burada dövlətin dəstəyi kooperativlərin təşkili və fəaliyyəti üçün etibarlı hüquqi bazanın yaradılması və kooperativlərin, onların birliklərinin, xüsusilə bərpa dövründə maliyyə-iqtsadi dəstəyi istiqamətləri təmin edilməlidir;
- kiçik aqrobiznesə kəndli fermer təsərrüfatı daxil olmaqla dəstəyin daha səmərəli yolu aqroservisin kooperativ strukturunun ilkin müdafiəsindən ibarətdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika).// Bakı, “Kooperasiya” nəşriyyatı, - 2017, 536 s.
2. İbrahimov, İ. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya)// Bakı, 2016, 655 s.
3. Quliyev, E.A. Aqrar iqtisadiyyat // Bakı 2015 “Kooperasiya ”nəşriyyatı 320 s.

Hacıyev B.Q., dissertant
Azərbaycan Milli Elmlər Akademiyasının
İqtisadiyyat İnstitutu
Email: bashirg@mail.ru

AZƏRBAYCANDA EKOTURİZMİN CARİ VƏZİYYƏTİ

Azərbaycanda mövcud olan ekoturizm müəyyən, kifayət qədər sərt qaydaların mövcud olmasını nəzərdə tutur, və onlara riayət olunma bu sahənin özünün uğurlu inkişafının əsas şərtlərindən biridir. Ekoturizm təbii mühitə nisbətən zəif mənfi təsir ilə xarakterizə olunur və buna görə də o, xüsusi mühafizə olunan təbiət ərazilərində təbii ehtiyatlardan istifadənin demək olar ki, yeganə növünə çevrilmişdir [1].

Lakin, fikrimizcə, hələ də müxtəlif səviyyələrdə dövlət tənzimləmə mexanizmlərinin təkmilləşdirilməməsi, ekoturizm bazarlarına özəl investisiya qoyuluşu üçün kifayət qədər motivasiyanın olmaması, elmi baxımdan ekoturizmin kifayət qədər öyrənilməməsi, həmçinin, ölkə regionlarının ekoturizm komplekslərinin iqtisadi təhlilində səmərəli metodların olmaması Azərbaycanda ekoturizmin daha da effektiv inkişafına mane olur.

Ekoturizm təklif və tələb amilləri şəklində bir sistem kimi çıxış edir. Buna görə də ekoturizmdə müxtəlif strategiyaların reallaşdırılması bu iqtisadi parametrlər əsasında həyata keçirilməlidir. Tələblə əlaqəli siyasətlərə daxili və beynəlxalq turizm bazarları, turistik məkanlardan, obyektlərdən və xidmətlərdən istifadə edən yerli icmalar daxildir

Tələb amili ilə əlaqəli siyasət, beynəlxalq və daxili turizm bazarlarını, turizm məkanlarını, obyektlərindən və xidmətlərindən bəhrələnən yerli lokal icmaları özündə ehtiva edir. Digər bir tərəfdən, təklif amilləri ilə əlaqəli olan siyasət investisiyaları, turizm fəaliyyətinin və turizm məkanlarının inkişafını və idarə edilməsini, təşkilati elementləri, digər obyekt və xidmətləri özündə birləşdirir. Turizm məkanlarına təbii və mədəni gəzməli yerlər (əyləncə parkları, vəhşi təbiət, botanika bağları, akvariumlar, şəlalələr, bataqlıqlar, mənzərə və landşaftlar, düzənliklər, isti bulaqlar, adətlər və ənənələr, məskunlaşma xarakteri və s.) daxildir. Yaşayış və qəbul yerlərinə otellər, motellər, qonaq evləri, restoran və xidmət mərkəzləri, o cümlədən ticarət, bank mərkəzləri, banklar və valyutadəyişmə məntəqələri, poçt xidmətləri və tibb müəssisələri və s. daxildir. Bundan başqa, təklif amillərinə turizm infrastrukturu qurğularını (nəqliyyat şəbəkəsi, hava nəqliyyatı, dəmir yolu, dəniz nəqliyyatı və s.), içməli su obyektlərini, elektrik şəbəkəsini, kanalizasiyanı, tullantıların utilizasiyasını, telekommunikasiya şəbəkəsini də aid etmək olar. Bütün bunlar, təklif sektorunun əlavə amillərinin bir hissəsi hesab olunur [3]. Bu elementlər və komponentlər tələb və təklif siyasətini özündə ehtiva edən iki mühitdə yerləşirlər və onlar, ekoloji turizm üzrə siyasət və strategiyaların reallaşması zamanı nəzərə alınmalıdırlar.

Digər bir tərəfdən, ekoturizm sahəsində aparılan siyasət elə ifadə edilməlidir ki, ətraf mühitin və təbii resursların qorunması diqqət mərkəzində saxlanılsın. Belə bir siyasətin işlənib hazırlanması planlaşdırma, investisiya qoyuluşu, turist məkanlarının inkişafı, infrastrukturun qurulması və ümumilikdə ekoturizmin idarə edilməsi fəaliyyətlərinin yüksək səviyyədə qorunmasının reallaşdırılmasını təmin edir. Belə siyasət

ekoturizm sektoru ilə əlaqəli bütün elementləri, o cümlədən tələb və təklif amillərini, təşkilati və maddi elementləri kompleks yanaşma və inteqrasiya olunmuş sistem əsasında, əlaqələndirilmiş formada əhatə etməlidir. Digər tərəfdən, ekoturizm üzrə siyasət makroiqtisadi, sosial və mədəni inkişaf siyasətinə inteqrasiya olunmalıdır. Belə yanaşma, ekoturizm və inkişaf siyasətindəki mümkün olan potensial ziddiyyətlərin aradan qaldırılmasına kömək edə bilər, baxmayaraq ki, siyasətdə elastiklik elementi daim yeni dəyişikliklər və yeni ehtiyaclarla qarşılaşmaq üçün bir prinsip kimi nəzərdən keçirilməlidir. Bütün postsovet məkanında və dünyanın bir çox başqa ölkələrində olduğu kimi, Azərbaycanda da ekoturizmin effektiv inkişafı üçün ən vacib şərt - mühüm dövlət dəstəyinin olmasıdır. Hesab edirik ki, bu vəziyyətdə dövlət dəstəyi yalnız müvafiq tənzimləmə bazasının yaradılması ilə məhdudlaşmamalıdır. Ekoturizmə dövlət dəstəyi tədbirləri arasında xüsusi regional proqramlar, vergi güzəştləri, subsidiyalar və regional turizmin inkişafı kontekstində İlk dövrlərdə xüsusilə vacib olan dövlət sifarişi öz yerini tapmalıdır.

Digər tərəfdən, Azərbaycanda ekoturizmin potensialı o qədər müxtəlifdir və böyükdür ki, dünyanın bir çox regionlarında bu istirahət növü sərbəst, lokal və adi dövlət dəstəyi olmadan inkişaf edir. Bu halda, passiv inkişaf ssenarisindən söhbət gedir. Belə olduqda, ekoloji turizm məhsulu da daxil olmaqla, ekoloji mallara artan dünya tələbinə bazar reaksiyası kimi turizmin ənənəvi formalarının təbii təkamülü başa düşülməlidir. Bu vəziyyətdə ekoturizm əsasən landşaft (çöl, dağ, interzonal və s.) və etno-ekoloji turizm formasında inkişaf edir.

Apardığımız sorğunun nəticələrinə əsasən deyə bilərik ki, Azərbaycanda istirahət edən turistlərin əsas hissəsi yerli turistlərdir [2]. Lakin inkişaf bu istiqamətdə getsə də, ekoturizm iqtisadiyyatın yüksək gəlirli bir sektoru ola bilər və müxtəlif səviyyələrdə büdcələrə əhəmiyyətli gəlir daxilolmalarını təmin edə bilər. Müvafiq institusional mexanizmlərin və inzibati öhdəliklərin olmaması səbəbindən, effektiv idarəetmə olmadan ekoturizmin inkişafının çox real olmadığını başa düşmək lazımdır. İnsanlar, resurslar və turizm arasında müsbət əlaqənin inkişafı siyasi və strateji idarəetmə və bu işdə maraqlı olan çoxlu sayda biznes təşkilatının iştirakı olmadan mümkün deyil. Ekoloji turizm sahəsində uğur əldə etmək üçün aşağıdakılar vacibdir:

– ekoloji turizmin inkişafı üzrə layihənin regiona mümkün təsiri qiymətləndirilməlidir;

– turizmin sistematik inkişafı planlaşdırılmalıdır;

– yerli icmaların iştirakı planlaşdırılmalıdır;

– regionda ekoturizmin inkişafı proqramlarının həyata keçirilməsi, turizm infrastrukturunun inkişafı təşəbbüsləri və təşəbbüslərdə müxtəlif maraqlı təşkilatların (xüsusən ekoloji qurumların) iştirakını dəstəkləmək və təşviq etmək;

– regionda ekoturizmin inkişaf proqramlarının reallaşdırılması prosesinə nəzarəti və onun daimi monitorinqini təşkil etmək lazımdır.

Qeyd edək ki, bu gün ekoloji turizmə ənənəvi turizmdən daha çox diqqət yetirmək lazımdır, çünki bu turizm növü resursları qorumaq və yerli inkişaf hədəflərini birləşdirmək vasitəsidir. Turizmin inkişafında maraqlı olan bütün tərəflər normal, davamlı və sabit iqtisadi artıma nail olmaq üçün təbii ətraf mühiti qorumalıdır. Beləliklə, Azərbaycanda ekoturizmin müxtəlif formaları ilə məşğul olan müxtəlif qurum və təşkilatların olduğunu nəzərə alsaq, turizm və ekoturizm sektorlarında investor, QHT,

turoperator, yerli icma, turizm agentlikləri və s. kimi qurumların əsas olması vacibdir. Onlar ekoturizm sahəsində əsas benefisiar (faydalanan şəxs) olaraq, milli və regional səviyyələrdə qərarların qəbul edilməsi prosesinə cəlb olunaraq, fəal rol oynayırdılar.

Strateji Yol Xəritəsində qeyd edilir ki, 2025-ci ilə kimi Azərbaycan artıq qış, sağlamlıq, mədəni və ekoloji turizm kimi bir sıra ixtisaslaşmış turizm sahələri üzrə yetərincə tanınmış olacaqdır. Bundan əlavə, milli parkların, dini və görməli yerlərin dünya səviyyəsində tanınmasına, həmçinin Azərbaycanın yerli və xarici turistlər arasında tanınmış bir turizm mərkəzinə çevrilməsi üçün səy göstəriləcəkdir. Şimaldan və Şərqdən Qərbə tərəf uzanan "Böyük İpək Yolu" və digər önəmli marşrutlar Azərbaycanın mədəni irsini özündə əks etdirən tarixi məntəqələri də əhatə edərək məşhur ekoloji turizm mərkəzi olacaqdır [6].

Yol Xəritəsində göstərilən məqsədlərə müvafiq olaraq, sağlamlıq, mədəni, qış, ekoturizm, işgüzar və kənd turizmi kimi turizm növləri əsas götürülərək, regional turizmin daha da inkişaf etdirilməsilə, Azərbaycanın turizm sahəsi üzrə təkliflərinin diversifikasiya edilməsi və uzunmüddətli perspektivdə ölkəyə daha çox sayda turistlərin cəlb edilməsinə nail olmaq olar [6]. Strateji Yol xəritəsində göstərilir ki, prioritetlər çərçivəsində yerləşdirilmə vasitələrinin, eləcə də ekoturizmin və mədəni turizmin inkişaf etdirilməsi, həmçinin marşrutlar üzərində təşviqat və təbliğat qurğularının və turistlər üçün dayanacaqların yenidən qurulması məqsədilə birdəfəlik 95 milyon manat həcmində investisiya qoyuluşları tələb olunur [6].

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, ekoturizm üzrə siyasət Azərbaycanda ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir, təkmilləşdirilir və uğurla inkişaf etdirilir. Bu siyasətin tərkibinə daxil olan elementlər ətraf mühitə müvafiq olmalı və ona təsir elementlərini özündə ehtiva etməlidirlər.

Ekoturizmin inkişaf səbəbləri onun siyasətində əks olunmalıdır. Bu səbəblər aşağıdakı məsələlərin birləşməsi şəklində təzahür edir:

1. İqtisadi səbəblər: gəlirlərin artması, iş yerlərinin yaradılması, xarici valyutanın daxil olması, dövlət gəlirlərinin artması və ekoturizmdən digər sektorların inkişafı üçün bir alət kimi istifadə edilməsi;

2. Sosial səbəblər: mədəni mübadilə və xarici vətəndaşların ölkənin görkəmli yerləri ilə tanışlığı, insanların maarifləndirilməsi və daxili ekoturistlərə istirahət üçün imkanların yaradılması;

3. Ekoloji səbəblər: gəlir əldə etmək üçün ekoturistlərdən istifadə, ətraf mühitin qorunmasında dəstək və təbii potensialdan davamlı istifadə.

Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili məqsədlərinə müvafiq olaraq, Strateji Yol Xəritəsində göstərilir ki, Mədəniyyət və Turizm Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ölkənin ekoturizm imkanlarının tədqiqatını həyata keçirəcək və əldə edilən nəticələr əsasında milli parklarda müxtəlif növ turizm fəaliyyətlərinin təşkil edilməsi ilə bağlı olan tədbirlər planını işləyib hazırlayacaqdır. Bundan əlavə, yuxarıda qeyd edilən 3-cü prioritetə uyğun olaraq, milli parklar istiqamətində günlük və həftəlik nəqliyyat əlaqələrinin eskizləri hazırlanacaqdır. Milli parklar üzrə alternativ gündəlik və həftəlik gəzinti marşrutlarının təşkili və bu marşrutlarda səmərəli fəaliyyət cədvəllərinin tərtib edilməsi işləri təşkil ediləcəkdir. Bu fəaliyyətlərə milli parklarda potensial turizmin kampinq yerlərinin müəyyənləşdirilməsi və işlənilərək hazırlanması

üzrə təkliflər paketinin irəli sürülməsi də daxildir. Araşdırmalar nəticəsində məqsədəuyğun hesab edilərsə, həmin kampinq yerlərinin fəaliyyəti özəl operatorlara da həvalə edilə bilər. Bundan əlavə, milli parklarda məlumatlandırıcı, informativ işarələrin yerləşdirilməsi, eləcə də Azərbaycan, rus, ingilis, fransız və alman dillərində milli parkların xəritələrinin hazırlanması üçün imkanlar araşdırılacaqdır. "Azərbaycanda ekoloji turizm" albomu tərtib edilərək nəşr olunacaq və onlayn platformalarda yerləşdiriləcəkdir, bununla yanaşı, ekoloji turizm üzrə internet portalının istifadəyə verilməsi məsələsi nəzərdən keçiriləcəkdir [6].

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı: problemlər və perspektivlər, Monoqrafiya, Bakı, AMEA İqtisadiyyat İnstitutu, 2011, 238 səh.
2. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı-2019.
3. Грушев П.О. Экологический туризм в странах Европы // Экономика, 2017. — № 1. – С. 56-63.
4. Дроздов А.В. Экотуризм: определения, принципы, признаки, форм // Актуальные проблемы туризма, 1999. - 34с.
5. Храбовченко В.В. Экологический туризм. - М.: Финансы и статистика, 2003. - 103с.
6. https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf %C4%B1na_dair_strateji_yol_xeritesi.pdf[Elektron resurs] -Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.
7. https://ru.sputnik.az/azerbaijan/20161207/407988873/utverjdeni-strategiceskie-dorojnie-karti-nasionalnoy-ekonomiki.html[Elektron resurs] - Sputnik, 2019. Утверждены стратегические дорожные карты национальной экономики АР.

Məsimova İradə Səid qızı, dissertant
Qərbi Kaspi Universiteti
Email: iradeehmedzade@yahoo.com

İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARDA TURİZMİN İNKİŞAFINA NƏQLİYYAT AMİLİNİN TƏSİRİ

Müasir turizmi nəqliyyatsız təsəvvür etmək mümkün deyildir. Məhz bu səbəbdən turizm peşəkərları öz gündəlik fəaliyyətlərində daşıyıcılarla təmasda olur. Bu məqsədlə hər bir peşəkar turizm mütəxəssisi daşıyıcılarla münasibətlərini hüquqi müstəvidə qurmağı bacarmalıdır. Öz spesifik məzmununa görə beynəlxalq nəqliyyat hüququ yüklərin və sərnişinlərin müxtəlif nəqliyyat növləri vasitəsilə beynəlxalq daşınması zamanı əmələ gələn münasibətləri, nəqliyyat təşkilatları və fərdi daşıyıcılar, həmçinin daşıma prosesi bir neçə daşıyıcı tərəfindən həyata keçirildikdə onların özləri arasında yaranan müxtəlif münasibətləri tənzimləyən hüququ normalar məcmusuna malikdir. Beynəlxalq daşımalar dedikdə, yüklərin və sərnişinlərin iki və daha artıq dövlət arasında həmin dövlətlər tərəfindən bağlanmış beynəlxalq sazişlərlə müəyyən edilən şərt-

lər əsasında daşınması (nəql edilməsi) başa düşülür. Sərnişinlərin və yüklərin beynəlxalq daşınması əsasən hava, dəniz və avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Bu nəqliyyat növləri arasında daşımanın sürətlə aparılması baxımından avianəqliyyat xüsusi rol oynayır.

Nəqliyyat vasitələri turizmin maddi-texniki bazasının əsas fondlarına daxildir. Respublikanın turizm bazarında ən mühüm amillərdən biri bazarın nəqliyyat xidmətləri ilə təmin olunmasıdır. Turizm bazarında avtomobil, dəniz, dəmiryol, çay və hava nəqliyyatının xidmətlərindən istifadə olunur. Bunlardan ən geniş yayılan avtomobil nəqliyyatıdır.

Azərbaycanın kurort mərkəzlərini paytaxtla birləşdirən mühüm avtomobil yolları aşağıdakılardır: Bakı-Sumqayıt-Şabran-Xaçmaz; Bakı-Siyəzən-Məşrif-Qalaaltı; Bakı-Ələt-Yevlax-Gəncə-Qazax;Bakı-Şamaxı-Ağsu-İsmayıllı-Göyçay; Bakı-Yevlax-Gəncə-Qazax; Bakı-Yevlax-Şuşa; Bakı-Salyan-Astara və s. Respublikada ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 16347 km-dir (2014) [1. səh 113].

Nəqliyyat vasitələrinin növləri. Səyahətin komfortlu olması hər bir turistin düşündüyü ilkin mərhələdir. Komfortun səviyyəsi nəqliyyatın növündən və səyahətin uzunluğundan asılıdır. Bir halda məsələn, yatacaq yerləri, digərində isə oturacaq (bərk və ya yumşaq) təklif olunur. Bəzən bir nəqliyyat növündə yerdəyişmə rahatlığı üzrə yerlərin differensasiyası mövcuddur.

Hava nəqliyyatı. Azərbaycan Respublikasının ən böyük hava limanı Heydər Əliyev adına Beynəlxalq Hava Limanıdır. Hava limanının aerodromu 2 uçuş-enmə zolağı və 3 hərəkət zolağından ibarətdir. Bununla yanaşı, respublikamızda Naxçıvan, Gəncə, Zaqatala, Qəbələ, Yevlax, Zabrat və s. kiçik hava limanları da fəaliyyət göstərir.

2015-ci ildə respublikamızda hava nəqliyyatı ilə 129 min ton yük və 0,9 mln. sərnişin daşınmışdır. Vahid nəqliyyat şəbəkəsinin formalaşması nəqliyyat qovşaqlarını yaradır.

Hava nəqliyyatında bəzi təyyarələrdə açılıb-yığılan söykənəcəkli yumşaq oturacaq yeri sərnişinlərə təklif olunduğu halda, eyni model təyyarələrdə yerdəyişmə şəraiti ilə fərqlənirlər. Təyyarələrdə oturacaq yerlərinin artırılması komfort səviyyəsini adatən aşağı salır. Bunun da səbəbi oturacaq yerinin eninin daralması, cərgələrarası məsafənin və keçid cığırının eninin azalması, oturacaq yerinin açılma bucağının məhdudlaşması olur ki, uçuşdan əvvəl və enmə zamanı daha çox sərnişin olan salonlarda hava mübadiləsi pisləşir. Beynəlxalq avia xətlərdə qeyd olunmuş fərqlənmələrə görə yerləri "lüks", birinci dərəcəli, turist və ekonom dərəcələrə bölünürlər. Hava nəqliyyatında qidalanma biletin dəyərinə daxildir. Səyahətin uzaqlığından aslı olaraq sərnişinə soyuq və ya qaynar qəlyanaltı təklif olunur. Belə ki, təklif olunan nümunəvi kompleks qidalanma rasionuna ikra, bulyon, təzə tərəvəzdən hazırlanmış müxtəlif salatlar, qarnir, limonlu kofe, çörək, bulka, duz, karamel, meneral sular və şirələr və s. daxildir, iri aeroportlarda sərnişinlərin qidalanması üçün lazımı ərzaqla təyyarələri təmin edən xüsusi bort qidalanma sexləri fəaliyyət göstərir.

Avtomobil nəqliyyatı. Avtomobil nəqliyyatının iqtisadi əhəmiyyəti böyükdür. Bu nəqliyyat növü məhsuldar qüvvələrin ərazi üzrə səmərəli yerləşdirilməsində, iqtisadi-coğrafi rayonların bir-biri ilə və xarici iqtisadi əlaqələrin qurulmasında müstəsna rol oynayır. Sərnişin avtomobil nəqliyyatında iki növ oturacaq yerləri nəzərdə tutulur:

adi (bərk oturacaq yeri) və yumşaq (açılib-yığılan söykənəcəkli oturacaq yeri)

Avtomobil dedikdə, fərdi istifadədə olan və ya icarəyə götürülmüş avtomobillərdə gəzintilər başa düşülür. Avtomobil turizmi zamanı səyyah hər hansı bir növ ictimai nəqliyyatın təklif etdiyi nəqliyyat xidmətlərindən istifadə etmir. Lakin bu o demək deyil ki, avtoturistin kompleks xidmətlərə tələbatı duyulmur. Avtoturizm geniş inkişafını xüsusən də son dövrlərdə almağa başlamışdır. Bu avtomobilqayırmanın son nəaliyyətləri liə bərabər "İpək yolu" marşrutunun dirçəldilməsidir. Azərbaycan Respublikasında inkişafını gözləyən turizm sənayesinin ən mühüm ehtiyatı-müxtəlif təbii landşaft, çimərliklər, çimmək üçün davamlı yüksək əlverişli şəraitə malik Xəzər dənizinin narın qumlu sahilləridir. Azərbaycanda mövcud mineral sular və müalicəvi palçıqlar turizmin təkcə istirahət üçün deyil, həm də müalicəvi əhəmiyyətli təşkili üçün əlavə imkanlar açır.

Dəmiryolu nəqliyyatı. Dəmiryolu nəqliyyatı uzaq məsafələrə ucuz başa gələn fasiləsiz yük və sərnişindaşıma ilə fərqlənir. Azərbaycanda ilk dəmir yolu 1878-ci ildə 20 km uzunluğunda Bakı-Sabunçu-Suraxanı dəmir yolu xətti olmuşdur.

Dəmiryolu nəqliyyatında turist qatarları bir qayda olaraq mərkəzi istilik, məcburi ventilyasiya və elektrik işiqlandırma sistemi olan tam metal konstruksiyalı kupe vaqonlarından formalaşdırılır. Dəmiryolu nəqliyyatı elm və texnikanın ən yeni nailiyyətlərinə çox həssas olan bir sahədir. Bu gün dünya nəqliyyat sistemində daşıma prosesi, yüksək texnologiya, informatika və rabitənin ən müasir səviyyəsinə istinad edir, onlardan istifadə inkişaf etmiş dövlətlərdə dəmiryolu nəqliyyatının simasını tamamilə dəyişir. Bu gün dünyanın ən sürətli qatarları İtaliyada Pendolina, Fransada TGV, İspaniyada AVE, Yaponiyada Shenkansen, Almaniyada İCE, İsveçdə X 2000 və s. 220...335 km/saat sürətlərinə malikdirlər. Dəmiryolu və su nəqliyyatında səyahətçi üzun müddət yolda olur və bilavasitə yol boyu qidalanmaya ehtiyacı vardır. Bir istiqamətdə 24 saat və daha çox müddət yolda olan bütün sərnişinləri qatarlarda vaqon-restoranda 24 saata qədər 75 davamiyyəti olan reyslərdə-kupe-bufet nəzərdə tutulur.

Su nəqliyyatı. Dəniz nəqliyyatı ən ucuz nəqliyyat növü olub sərnişin və yüklərin daşınmasında digər nəqliyyat növlərindən kəskin surətdə fərqlənir.

Azərbaycanın nəqliyyat-iqtisadi əlaqələrində Xəzər dənizinin çox böyük əhəmiyyəti var. Gəmiçilik kanalları və su hövzələri Azərbaycana Dünya okeanına çıxmaq imkanı verir. Müasir çay və dəniz sərnişin donanması turistlərin tələblərinə hələlik, tam şəkildə cavab vermir. Belə ki, bəzi gəmilərdə yüksək kateqoriyalı azyerli kayutların miqdarı kifayət qədər deyil. Bəzi hallarda, bu çatışmazlığı gəmilərdə müəyyən dəyişiklər etməklə, hissə-hissə aradan qaldırmaq olar. Gəmiçiliyin yeni gəmilərlə təchiz edilməsi nəticəsində köhnə donanma istismardan çıxarılır, silinir və doğranaraq təkrar emal müəssisələrinə təhvil verilir.

İşğaldan azad edilən ərazilər Azərbaycanın Cənub-Qərbində yerləşir. Bunlara Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan, Şuşa, Cəbrayıl, Ağdam, Tərtər, Xocavənd, Xocalı, Füzuli rayonları və Xankəndi rayonları daxildir. Bu ərazilər mənfur düşmənimiz olan ermənilərin işğalı altında idi. Lakin ölkə başçımızın uğurlu siyasəti nəticəsində bu torpaqlar işğaldan azad edilmişdir. İndiyə kimi bu ərazilərimizin torpaqlarını, coğrafiyasını, turizmini və s. öyrənmək mümkün olmamışdır. Eyni zamanda bu ərazilərdə turistləri yerləşdirmə obyektləri, xidmətlə təminat səviyyəsi, eskursiya və əyləncə xidməti haqqında məlumat vermək təbii ki, mümkün deyildir. Lakin artıq doğma torpaqları-

mızda gedən abadlaşmalarla yanaşı, bu torpaqların öyrənilməsinə də başlanılmışdır. Bu torpaqların öyrənilməsi daima alimlərin diqqətini cəlb etmişdir. Hal-hazırda Prezidentimiz İlham Heydər oğlu Əliyevin göstərişi ilə işğal altında olan torpaqlarımızda müxtəlif işlər həyata keçirilir. İlkin olaraq yol infrastrukturu bərpa edilir. Yeni beton örtüklü yolların çəkilməsi, var olan yollarda həyata keçirilən təmir işləri çox vacib hesab edilir. Eynilə, yaxın gələcəkdə artıq bu ərazilər qiymətli turizm zonalarına çevriləcək və bu zamanda turistlərin rahat gediş-gəlişi üçün yol vacib amilə çevriləcəkdir. Dağlıq ərazilər olduğundan burada əsasən avtomobil nəqliyyatının inkişaf etdirilməsi məqsədəuygun hesab edilir.

Dağlıq Qarabağ Azərbaycanın ən zəngin turizm potensialına malik bölgəsidir. Burada incəsənət, qədim tarix və mədəniyyət abidələri, füsunkar təbiət nümunələri turizm kompleksinin yaradılması üçün yararlıdır. Lakin ərazinin işğal altında olması bu imkanlardan istifadəni mümkünsüz etmişdir. Dağlıq Qarabağ iqtisadi rayonunda işğal olunmuş ərazilər azad edildikdən sonra həmin ərazilərin bütövlükdə sosial-iqtisadi inkişafı məqsədilə, o cümlədən turizmlə bağlı xüsusi layihələr həyata keçiriləcəkdir.

Azərbaycanın nəqliyyat yolları xəritəsi

İqtisadi inkişafın istiqamətləri

İstifadə olunmuş ədəbiyyat:

1. Soltanova H. B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: "AzTU-nun mətbəəsi." 2015.
2. Məmmədov C.A., Rəhimov S.H. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı: Qanun - 2000
3. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. «Beynəlxalq turizmin coğrafiyası». Bakı: - 2002
4. Məmmədov Q.Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: «Elm» - 1998
5. Müseyibov M. A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, «Maarif», 1998.

Haqverdiyeva Kəmalə Əziz qızı, dissertant
Azərbaycan Kooperasiya Universiteti

AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ƏRZAQ İSTEHLAKÇILARI BAZARININ İDARƏ EDİLMƏSİNİN TƏŞKİLATİ STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

İdarəetmə mexanizmlərinin işinin səmərəlilik kriteriyaları bazar iqtisadiyyatı münasibətlərinin bütün iştirakçılarının maraqlarının razılaşdırılması və uzlaşdırılma-sına nail olunması, həmçinin sözügedən ticarət formatı çərçivəsində investisiya cəlbedi-ciliyinə nail olunmasıdır.

Şəhərin ərzaq bazarlarının idarə olunmasın təşkilati iqtisadi mexanizminin əsas elementlərinə nəzəri yanaşmaları daha ətraflı nəzərdən keçirək. Burada xüsusi olaraq xarici mühit faktorunun xüsusiyyətləri və təsiri nəzərə alınır.

Qloballaşma şəraitində ərzaq bazarları və ərzaq mağazaları arasında rəqabət daha da güclənir. Yuxarıda da qeyd olunduğu kimi, bizim tədqiqatlarımızın məqsədi idarə-etmənin elmi-metodiki əsaslarının işlənilib hazırlanmasıdır. Burada əsas məqsəd müasir ticarət formatı kimi ərzaq bazarının inkişafına nail olunmasıdır, yəni söhbət ticarət müəssisəsinin subyektlərlə olan iqtisadi münasibətlərin saxlanılması və inkişafına nail olunmaısndan gedir. Yuxarıda da qeyd olunduğu kimi, eyni zamanda mağazaların yeni formatına xas olan şəbəkə ticarətinin təcrübəsindən də istifadə olunur.

Ərzaq bazarının idarə olunması ilə əlaqədar aparılan araşdırmalar göstərdi ki, onun iştirakçıları arasında iqtisadi əlaqələrin formalaşdırılması və tənzimlənməsinin mühüm əhəmiyyəti vardır. Bazar iqtisadiyyatında bazarlar özünün ən mühüm özəlliyi və əhəmiyyətlərini hələ də saxlmaqdadırlar-şəhər və kənd arasında mübadilə, lakin bir məsələnin xüsusi olaraq qeyd edilməsi lazımdır ki, qarşılıqlı əlaqələr daha mürəkkəb və çoxölçülü olmuşdur.

Ərzaq bazarlarının fəaliyyətində əmtəələrin (təklif) və alıcılıq qabiliyyətinin (tələb) hərəkəti müşahidə olunur. Ərzaq bazarının müasir ticarət formatında səmərəli fəaliyyət göstərməsi üçün hər iki prosesin idarə olunması tələb olunur: tələb və təklifin formalaşdırılması və tənzimlənməsi (bax şəkil 1). Bazar iqtisadiyyatı münasibətlərinin bu subyektləri bazarın əsas elementlərini özündə əks etdirir, daxili və xarici mühitə təsir faktorlarının seçilməsi imkanlarını müəyyən etməyə imkan yaradır.



Şəkil 1. Ərzaq bazarlarında tələb və təklifin qarşılıqlı əlaqəsi.

Müəllif tərəfindən ikinci fəsildə təqdim edilən araşdırmalarda müvafiq üsullarla ərzaq bazarlarının fəaliyyəti araşdırılmış, obyektiv olaraq həmin ticarət formatının daxili mühitinin qiymətləndirilməsi onun səmərəli fəaliyyət göstərməsinə, həmçinin mövcud şəraitlərdə özünü qoruyub saxlaya bilmək imkanı da tədqiq olunmuşdur.

Deyilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, müasir ticarət formatı kimi aşağıdakı istiqamətlər üzrə ərzaq bazarının idarə olunmasını ləngidən bir sıra səbəblər də vardır. Bunlar aşağıdakılardır:

– mövcud informasiya təminatı bazarların fəaliyyəti və iqtisadi göstəricilər sistemi barəsində, həmçinin lokal bazarların fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı məhdud informasiya təqdim edir;

– bazar bir tərəfli olaraq nəzərdən keçirilir və bu yanaşmada hesab olunur ki, bazarın fəaliyyətinin əsas istiqaməti alıcıların zəruri məhsullarla təmin olunmasıdır, lakin yaddan çıxarılır ki, satıcılar eyni zamanda potensial istehlakçılardır;

– müasir nəzəriyyədə iqtisadiyyatın idarə olunması məsələləri araşdırılarkən ərzaq məhsulları bazarının müasir ticarət formatı kimi araşdırılmasına kifayət qədər diqqət yetirilməmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, əmtəə təklifləri bazarının formalaşmasında ən böyük çatışmazlıq ondan ibarətdir ki, onun məhsullarla təmin edən bütün subyektlərinin heç də hamısı praktiki fəaliyyətdə iştirak etmirlər.

Əksər hallarda ərzaq bazarları iri istehsalçılarla və kənd təsərrüfatı məhsulları çeşidlərinin iri partiyalarla alıcıları ilə işləməkdə maraqlıdırlar.

Bazara şəxsi yardımçı təsərrüfatlarının, həmçinin istehlak kooperasiyalarının cəlb olunması proqramı yoxdur, halbuki sözügedən tədarükçülərdən də məhsulların alınmasının müasir ticarət formatında təşkil olunması tələb olunur.

Hesab edirik ki, ərzaq bazarının idarə olunmasının təşkilati-iqtisadi strukturu iqtisadi və təşkilati bölmələrin məcmusundan ibarətdir, həmin struktur bölmələri məqsədyönlü şəkildə fəaliyyət göstərərək bazarın bütün subyektlərinin maraqlarının uzlaşdırılmasına xidmət edirlər.

Adı çəkilən formatda bazarın idarə olunması mexanizmi yaradılmalıdır və hesab edirik ki, müasir dövrdə , ticarətin qloballaşması şəraitində əsas elementlərin qarşılıqlı əlaqələri də müasir tələblərə uyğun olmalıdır (bax şəkil 2-ə).



Şəkil 2. Ərzaq bazarlarının idarə olunması mexanizmi.

İdarəetmə elementlərinin qarşılıqlı əlaqələri idarəetmə təsirini formalaşdırmağa imkan yaradır, müasir ticarət formatı kimi milli bazarın davamlı, artan, mütərəqqi inkişafına səbəb olur. Ərzaq bazarının fəaliyyətində məqsədli başlanğıc amili müxtəlif subyektlərin məqsəd və maraqlarının əksi kimi yaranır və bütün bunlar bu və ya digər dərəcədə onun fəaliyyəti və iş prosesində də cəlb olunması ilə özünü büruzə verir. Yuxarıda da göstərildiyi kimi bazarın əsas subyektləri vardır. Beləliklə, əmtəə və alıcı axını formalaşdırılmalıdır, onlar ərzaq bazarlarına doğru yönləndirilməlidir, yəni burada söhbət ərzaq bazarının idarə olunmasının adekvat mexanizmlərinin hazırlanmasından gedir. Əsas məqsəd isə bazarın bütün iştirakçılarının iqtisadi maraqlarının uzlaşdırılması, bazarın fəaliyyətinin iqtisadi və sosial səmərəliliyinin yüksəldilməsinə nail olunmasıdır.

Cəfərova Məhsəti Sabir qızı, dissertant,
AMEA-nın Fəlsəfə İnstitutu
Email: mehseti.ceferova@inbox.ru

MİLLİ MƏDƏNİYYƏT, İNTEQRASİYA VƏ ELİTA

Müasir dövr tədqiqatçıları milli mədəniyyətlərin bəşər mədəniyyətini zənginləşdirməsi proseslərini, qanunauyğunluqlarını araşdırmaqda davam etməkdədirlər. Azərbaycan mədəniyyəti də inkişafını uğurla davam etdirməklə, bəşər mədəniyyətini zənginləşdirməkdədir. Təbiidir ki, bu proseslərdə milli elmi-yaradıcı elitanın gücü danılmazdır. Belə ki, milli elita:

– mövcud şəraitdəki informasiya seçimini və qiymətləndirilməsini vacib amil hesab edir;

– baş verən elmi, bədii, yaradıcı, ziddiyyətli və aktual problemləri dərk edir, dəyərləndirir, müqayisə edir, təhlillər aparır, nəticə çıxarır, lazımi yanaşma bacarığına, yanaşma qabiliyyətinə malik olur;

– mədəniyyətimizin "dünən"i və "bu gün"ünü düzgün müqayisə edir, dəyərləndirir, gələcək perspektivinin təyinində düzgün strategiya seçməyi bacarır.

Lakin təəssüflə qeyd edirik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarbağ münaqişəsinin süni şəkildə yaradılması Azərbaycan mədəniyyəti nümunələrinin mənfur ermənilər tərəfindən məhv edilməsi, xalqımızın bir hissəsinin zaman-zaman soyqırıma məruz qalması isə paralel şəkildə aparılması tarix və mədəniyyətimiz üçün manelər törətmişdir. Lakin bütün bunlara baxmayaraq, digər sahələrlə yanaşı, milli mədəniyyətimizin inkişafı, milli yaradıcı elitaya yüksək dəyər verilməsi həmişə diqqət mərkəzində olmuşdur. Bu baxımdan ölkəmizdə keçirilən bir sıra beynəlxalq forumlar, dialoqlar mühüm əhəmiyyət kəsb etmişdir. Bakıda "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu ölkələrə davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfrans, 2011-ci ildə Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakıda təşkil edilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumu, Birinci Bakı Beynəlxalq Humanitar Forumu, İkinci Bakı Beynəlxalq Humanitar Forumu, Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu, Dördüncü Bakı Beynəlxalq Humanitar Forumu, Beşinci Bakı Beynəlxalq Humanitar Forumu, "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda Altıncı Bakı Beynəlxalq Humanitar Forumunda müzakirə edilən məsələlər aktuallığı ilə seçilmişdir. Ümumiyyətlə, keçirilən bütün forumlarda dünyanın nüfuzlu elitası iştirak etmiş, müxtəlif milli-bəşəri əhəmiyyət kəsb edən aktual məsələlər müzakirə edilmiş, iqtisadi, humanitar və mədəni inkişaf modellərinin aspektləri araşdırılmış, sivilizasiyalaşma meylləri və digər məsələlər ətrafında qərarlar qəbul edilmişdir.

Bakıda keçirilən I Cənubi Qafqaz Forumu, II Qlobal Açıq Cəmiyyətlər Forumu, "Yeni dünya düzənində etimadın bərpa olunması" mövzusunda keçirilən III Qlobal Bakı Forumu və "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunda Dağlıq Qarabağ münaqişəsi, müxtəlif vəziyyətlərdə münaqişələrin həlli yolları, milli təhlükəsizlik, terrorların qarşısının alınması, elm, təhsil, mədəniyyət, ekologiya, enerji təhlükəsizliyi, dinlərarası dialoq, multikulturalizm və inteqrasiya kimi məsələlərin həlli yolları barədə müzakirələr aparılmışdır (1). Əlbəttə, belə mötəbər beynəlxalq Forum və Dialoqların Bakıda keçirilməsi Azərbaycanın dinamik inkişafını, qədim və zəngin

tarixə, mədəniyyətə malik olmasını, həm də öz tarix və mədəniyyətini qorumasını, nümayiş etdirməsini, gələcək nəsillərə ötürmə bacarığına malik olmasını sübut edir.

Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlər sırasında göstərmək olar:

– Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dəfələrlə toxunuldu və bu münaqişənin həllinin vacibliyi qeyd edildi;

– Azərbaycanın 20% ərazisinin Ermənistanın işğalı altında olması beynəlxalq hüququnun pozulmasıdır;

– Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir;

– Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır;

– Azərbaycanın işğalda olan torpaqları Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır (2).

Bakıda keçirilən Dünya Dini Liderlərinin 2-ci zirvə görüşü Azərbaycanın dinlərarası dialoqunun inkişafında önəmli rola malik olduğunu bir daha təsdiqlədi (3).

Bakı sammitinin əhəmiyyətini aşağıdakı kimi təsnifləşdirmək olar:

– sammit Azərbaycanın dünyada və regionda bir dini mərkəzə çevrildiyini nümayiş etdirdi;

– Türkiyənin və Rusiyanın dövlət başçıları səviyyəsində sammitdə olan diqqəti mühüm əhəmiyyət kəsb etmişdir və Bakının bölgədə nüfuz sahibi olduğunu bir daha təsdiqlədi;

– sammit iştirakçıları Qarabağla bağlı öz mövqelərini bəyan etdilər;

– dünyanın nüfuzlu dini və ictimai xadimləri, dövlət rəsmiləri Azərbaycanın işğal edilmiş ərazilərində mədəni və dini abidələrinin dağıdılmasından öz dərin narahatlıqlarını ifadə etdilər, dünya ictimaiyyətini bu münaqişənin həll olunmasına dəstək verməyə çağırış etdilər;

– terror aktlarının və digər xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün tədbirlərin görülməsi vurğulandı;

– Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin, multikulturalizm ənənələrinin qorunub saxlanılmasına önəm verildiyi təsdiqlənərək qarşılıqlı etimad mühitinin yaradılmasına töhfə verdiyi qeyd edildi;

– Bakı sammiti Azərbaycanı qlobal təhlükəyə qarşı birgə mübarizədə vacib tərəfdaş kimi təqdim edə bildi.

Ölkəmizdə ənənəvi olaraq milli mədəniyyətimizin dünya mədəniyyətinə inteqrasiyası prosesində milli-mənəvi dəyərlərimizin də təbliği və yüksək şəkildə təmsil edilməsində dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı gənclərimizi də ürəkdən sevindirir. Bundan bəhrələnən gənc nəslimizin milli mədəniyyətimizin daha dərindən öyrənilməsi və təbliği sahəsindəki fəaliyyət arenası daha da genişlənməkdədir. Xalqımız gənclər arasında dəyərlərin aşınmasının qarşısının alınması üçün cənab Prezident İlham Əliyev tərəfindən yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətini dəstəkləyir və dəyərlərin qorunmasını aktual məsələ kimi qəbul edir.

Beləliklə, elitar və kütləvi mədəniyyətlərin tədqiqində sosioloji, sosial-psixoloji və estetik yanaşmaların müqayisəsində elitar və kütləvi mədəniyyətlərin aparıcı gücü olan elitar və kütləvi şüurun qarşılıqlı fəaliyyətləri məzmununda yaranan ziddiyyətlər vasitəsilə müxtəlif mərhələlər tədqiq edilir. Bu prosesdə həm nəzəri, həm də təcrübi

qarşılıqlı əlaqə ümumiləşdirilir.

Milli mədəniyyətlərin özünəməxsus xüsusiyyətləri vardır. Bu fərq ayrı-ayrı etnosların müxtəlif corğrafi və sosial-iqtisadi tarixi şəraitdə yaşaması nəticəsində meydana gəlmişdir və milli mədəniyyətlərin nisbi müxtəlifliyi ölkələrin və xalqların birbirindən təcrid halda yaşamasının nəticəsidir. Ümumiyyətlə, mədəniyyət hər bir millətin mənəvi duyğularından yaranan məfhumların toplusudur. Bu anlayışlar mənəvi dəyərlər, əxlaqi normalar və stereotiplər, insəcənət, adət-ənənələr, dil, musiqi, davranış nümunələri, düşüncə üslubu və hərəkətlər sayəsində təzahür edir. Ümumiyyətlə, milli mədəniyyət bir millətin maddi və mənəvi məhsuludur. Əgər hər hansısa bir millətin mədəniyyəti digər millətlərin mədəniyyətləri tərəfindən aşınmaya məruz qalarsa, bu zaman milli mədəniyyət öz mahiyyətini itirmiş olar.

Milli mədəniyyətin formalaşmasında milli elitanın üzərinə böyük yük düşür, çünki, milli elita cəmiyyətin savadlı hissəsini təşkil edir. Ümumiyyətlə, milli elita dedikdə həmin etnosun içərisindən çıxan yazıçılar, alimlər, filosoflar, sənətkarlar nəzərdə tutulur. Milli elita öz xalqının, dövlətinin mənəvi, iqtisadi, mədəni inkişafını təmin edən bütün məsuliyyəti öz üzərinə götürməlidir. Elitar xarakterli milli mədəniyyətin yaradılması məsələsində də milli elita önəmli bir amil kimi çıxış edir. Bu baxımdan da milli mədəniyyətin özünəməxsus xüsusiyyətlərini inkişaf etdirməklə onu beynəlxalq müstəvidə təmsil etmək milli elitanın gərgin və məhsuldar yaradıcılığı sayəsində bərqərar ola bilər.

Milli elita millətin ictimai həyatının bütün tərəflərinə, o cümlədən də milli mədəniyyətin yaranmasına və inkişafına fəal təsir göstərir. Milli mədəniyyət nümunə-lərinin yaradılması prosesində birbaşa olaraq özünü büruzə verən milli elitanın yara-dıcılığı təqliddən və köçürmədən uzaq olmalıdır, bu elita tərəfindən yaradılan mədə-niyyət millətin özünəməxsusluğunun əsas təzahür formasıdır. Elitar təbəqənin yarat-dığı milli mədəniyyət nümunələri özünəməxsusluğunu qorumaqla yanaşı, beynəlxalq standartlara da cavab verməlidir. Yalnız bu halda milli mədəniyyətin çiçəklənməsi və inkişafı prosesi baş verə bilər, milli mədəniyyətin çiçəklənməsi və inkişafı sayəsində də dünya sivilizasiyası zənginləşir.

Təbiidir ki, milli elitanın inkişafında digər amillərlə bərabər, milli xarakterin də rolu vacibdir. Bu da öz növbəsində milli-etnik proseslər, etnik şüurla bilavasitə bağlıdır (4, s. 42).

Əlbəttə, xalqımızın tarixlər boyu əldə etdiyi maddi və mənəvi mədəniyyət nümunələrinin qorunması, bərpası, təbliği, gələcək nəsillərə ötürülməsi, həmçinin bəşər mədəniyyətindəki layiqli yerini qorumaq missiyasının həyata keçirilməsi zərurəti üzərimizə böyük məsuliyyət qoyur (5, s. 54).

İstifadə olunmuş ədəbiyyat:

1. http://www.mct.gov.az/az/umumi-xeberler/forum-acilis
2. https://az.wikipedia.org/wiki/Qlobal_Bakı_Forumu
3. https://modern.az/az/news/217789
4. *Tağıyev Ə. Milli kimlik fəlsəfəsi. Bakı,2013.*
5. Təkləli Minəxanım. Kulturoloji irsin mühafizəsi probleminə dair. “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” mövzusunda beynəlxalq konfrans. Bakı: Təknur MMC, 2012.

Aydəmirov Mübarək Mübariz oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: mubarekmubarizoglu@gmail.ru

RƏQƏMSAL TEXNOLOGİYANIN FORMALAŞMASI VƏ AUDİT FƏALİYYƏTİNDƏ TƏTBİQİ

1983-cü ildə audit sahəsini daha dərin öyrənməni təmin etmək üçün aparılan bir işdə, daha az nəzəriyyəyə və daha çox praktikaya əsaslanan kurs təklif edilmişdir. Bu kursda tətbiq edilmək üçün Ümumi İdarəetmə Proqramının istifadəsi planlaşdırılır. İstifadə olunan proqramın sayəsində tələbənin nəzarəti daha real şəkildə həyata keçirməsi və yönləndirməsinin mümkün olduğu düşünülürdü.

2001-ci ildə aparılmış başqa bir işdə, audit kursunun tətbiqi təcrübəsini qazanmaq üçün Ümumi İdarəetmə Proqramının istifadəsini təklif edən bir dərs planı hazırlanmışdır. Orda göstərilirdi ki, kompüter mühitindən nəzarət artıqdır, kompüter nəzarəti edilməməlidir. Başqa sözlə, kompüter tərəfindən hazırlanan hesabatlar araşdırılmır və kompüterdəki verilənlər bazası araşdırılmalıdır.

2007-ci ildə bir araşdırmada Cənubi Afrikadakı universitetlərin İT ilə əlaqəli tədris proqramları məhsullarının mövcudluğu araşdırılmışdır. Bu tədqiqatın nəticələrinə görə, əməliyyat sistemi və elektron tablo məhsulları 100%, söz işləmə, təqdimat proqramı və mühasibat və daha çox proqram məhsulları 80%, verilənlər bazası və axtarışı, proqramlaşdırma proqramı və audit proqramı 25% aşkar edildi. Bu da bir daha audit fəaliyyətində rəqəmsallaşmanın hələ də tam dərk edilməməsinin göstəricisi idi.

2009-cu ildə ABŞ-da aparılan bir araşdırmada tələbələrin 36%-nin özlərini Ümumi İdarəetmə Proqramında kifayət qədər gördükləri ortaya çıxdı. Bununla birlikdə tələbələrin 78,5%-i bu bacarığı öyrənəməli olduğu müddətin və məkanın bir Universitet olduğunu ifadə etdi.

Qeyd etmək lazımdır ki, rəqəmsallaşma və ya rəqəmsal çevrilmə məsələsi ölkəmizdə tam başa düşülməyib. Rəqəmsal çevrilmənin üstün ERP proqramına keçid və ya aparata yatırım kimi qəbul edildiyini görürük. Bununla birlikdə, rəqəmsal çevrilmə çox fərqli və əhatəli bir mövzudur. Bir az daha uzaqgörən olanlar rəqəmsal çevrilməni şirkətlərin rəqəmsal dünyaya ayaqlaşmaq üçün bütün proseslərində texnologiyadan istifadə etməsi kimi qəbul edirlər. Əlbətdə bu da son dərəcə dar bir perspektivdir. Rəqəmsal çevrilmə yalnız yeni texnologiyaların istifadəyə verilməsi demək deyil. Əksinə, yeni bir şirkət, təşkilat və proses idarəetmə quruluşunu dizayn etmək deməkdir. Digər korporativ yenidənqurma modellərindən fərqli olaraq mərkəzdə "rəqəmsallaşdırma" olur. Buna görə də, rəqəmsallaşma texnologiya tərəfindən idarə olunan, lakin texnologiyadan daha geniş bir fenomendir və audit fəaliyyətində də zəruri faktora çevrilməkdədir.

Audit işində söz, əməliyyat, elektron cədvəllər və verilənlər bazası idarəetməsi ümumi təyinatlı kompüter proqramı kimi proqram təminatı, həmçinin audit məqsədləri üçün istifadə olunan Ümumiləşdirilmiş Nəzarət Proqramı da geniş yayılmışdır. Bu proqrama mütəmadi istifadə edilən ümumi formalar və yazışmalarla kompüterləşdirilmiş nəzarət-texnika daxildir. Bu proqramlardakı standart şablonlarla, əlaqəli əsas hesablamalar və təhlillər qısa müddətdə həyata keçirilə bilər. Elmin bir çox sahələrində iş-məlumat sistemlərinin yayılması ilə istifadə edilən məlumat analiz üsulları auditdə də istifadə edilmişdir. Fəaliyyəti, ölçüsü, müəssisənin riski, auditorun bilik təcrübəsi

və s. məlumat analiz üsulları olan bir çox amillər həyata keçiriləcəyini müəyyənləşdirir. Bununla birlikdə, yoxlamada ən çox istifadə edilən məlumatlar analiz üsulları aşağıdakı kimidir:

1) Yenidən hesablama - İnformasiya sisteminin çıxışı olan hesabatların material dəqiqliyini yoxlamaq üçün kompüter proqramından istifadə edərək məlumatların yenidən hesablanmasıdır.

2) Pillələrə ayırma və Ümumiləşdirmə - Böyük həcmli verilənlərin anlaşıqlı hala gəlməsi üçün müəyyən ədilən alt mövzular bazasında qruplar şəklində dəyərləndirilməsidir. Səhv faktura məbləğini təyin etmək üçün, bütün fakturalar daxilində ediləcək bir araşdırmada ardıcıl orta satış fakturası, müştəri, tarix, məhsul və s. aşağı meyarlarla ümumiləşdirilir.

3) Nümunə götürmə - Nümunə seçiminin ümumi kompüter proqramı və Ümumiləşdirilmiş İdarəetmə Proqramının ilə müəyyən edilməsidir. Ümumiyyətlə istifadə olunan seçmə metodları aşağıdakılardır:

a) Valyuta əsaslı nümunə götürmə;

b) Pilləvari seçim nümunəsi;

c) Təsadüfi nümunə;

d) Sistematik nümunə.

4) Təkrar Qeyd Qeydləri- məlumat mənbəyi olan sənədlər və əməliyyatların sistemdə bir dəfədən çox olub-olmadığını yoxlamaq.

5) Boşluq Təyini və Sıra Nəzarətləri - seriya nömrəli resurs sənədlərin silsiləsi arasında istifadə olunmayan boşluqların olub-olmaması.

İstifadə etdiyimiz məlumatlardan belə nəticəyə gələ bilərik ki, rəqəmsal texnologiyanin təkcə audit fəaliyyətində deyil, digər fəaliyyətlər üzrə də hələ kompleks şəkildə tətbiqi aparılmamışdır. Hal-hazırkı dövrdə isə rəqəmsal texnologiyanın audit fəaliyyəti də daxil olmaqla bir çox istiqamətlərdə tətbiqinə xüsusi zəruriyyət yaranıb. Rəqəmsal transformasiya planı çərçivəsində şirkətin mövcud idarəetmə və təşkilati quruluşunun araşdırılması, korporativ mədəniyyətin təhlili və bunların təkmilləşdirilməsi, rəqəmsal transformasiya şüurunun yaradılmasına töhfə vermək audit mütəxəssislərinin başlıca məqsədinə çevrilmişdir. Audit fəaliyyəti üzrə mütəxəssislər maliyyə-mənfəət analizi edərək öz şirkətlərində xüsusi texnologiyalar, xüsusilə sensor texnologiyalarını, iş-analitik tətbiqetmələrini möhkəm bir daxili nəzarət-risk audit proqramı ilə birləşdirərək, planlaşdırma, istehsal, təmir, keyfiyyətə nəzarət və logistik proseslərində inanılmaz töhfələr verə bilərlər.

İstifadə olunmuş ədəbiyyat:

1. Yılmaz G. Kompüter Dəstəkli Audit Texnikalarının Araşdırılması və Mühasibat Auditində Tətbiq. Marmara Universiteti Sosial Elmlər İnstitutu, 2007.

2. SHIH K. (2010). “Kompüter sistemləri üçün maliyyə göstəricilərinə görə risk göstəriciləri İmtahan ”, Kompüter İnformasiya Sistemləri Jurnalı.

3. Bierstaker J., Janvrin D., Lowed J., "Auditorların Kompüter Dəstəkli Audit Texnikalarını İstifadə etməsinə Hansı Faktlar Təsir göstərir?"., Mühasibatdakı İnkişaf, 2014.

4. Ertaş C.F., P.Güven. "İnformasiya Texnologiyalarının Audit Prosesi üzərində təsiri, Mühasibat və Maliyyə Jurnalı, 2008.

Aydınlı Aydan Aslan qızı, magistrant,
Azərbaycan Universiteti
Email: aaidann92@mail.ru

KOMMERSİYA BANKLARINDA MALİYYƏ MENECMENTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Bildiyimiz kimi, Azərbaycan Respublikasının bank sistemi iki pilləli bank sistemidir. Hansı ki, kommersiya bankları da həmin sistemin ikinci pilləsini təşkil edir və müştərilərlə işləyir, onlara xidmət göstərirlər. Kommersiya bankları borc almaq və borc vermək kimi funksiyaları yerinə yetirir. Borc almaq dedikdə buraya müştərilərdən cəlb edilən depozitlər, borc vermək dedikdə isə müştərilərə verilən kreditlər nəzərdə tutulur. Maliyyə menecmenti isə kommersiya banklarında pul münasibətlərinin idarəedilməsidir.

Kommersiya banklarında maliyyə menecmenti sistemini qurmaq üçün istiqamətlər qeyd olunur:

- bank siyasətinin işlənib hazırlanması;
- bank marketinqi;
- bankın aktiv və passivlərinin idarə olunması;
- bankın xüsusi kapitalının idarə olunması;
- bankın kredit portfelinin idarə olunması;
- bank risklərinin idarə olunması.

Hər bir müəssisə öz fəaliyyətini həyata keçirərkən qarşısına əsas bir məqsəd qoyur ki, bu da daha çox mənfəət əldə etməkdir. Bunun üçündə maliyyə münasibətlərinin baş verməsi vacib bir məsələ halına çevrilir. Müəssisələrdə baş verən bu maliyyə münasibətləri əsasən pul formasında təzahür edir. Maliyyə münasibətləri 2 formada olur: müəssisədaxili və müəssisəxarici. Müəssisədaxili maliyyə münasibətləri dedikdə, əsasən buraya işçilərin əmək haqqlarının verilməsi, layiq olan işçiyə maddi yardım göstərmək və pul mükafatları verilməsi aiddir. Müəssisəxarici maliyyə münasibətləri dedikdə isə, buraya alıcılarlarla və satıcılarla, kontragentlərlə, siğorta şirkətləri ilə, kredit təşkilatları ilə, dövlət büdcəsi və büdcədənkənar fondlarla həyata keçirilən maliyyə münasibətləri daxildir.

Maliyyə menecmentinin məqsədlərini 2 qrupa bölmək olar:

1. Strateji məqsədlər.
2. Taktiki məqsədlər.

Strateji məqsədlər dedikdə, biz burada mənfəətin maksimumlaşdırmasını, adi səhmlərin qiymətinin artmasını və s. göstərə bilərik. Strateji məqsədlər müəssisənin rəbərləri, baş direktorları tərəfindən müəyyənləşdirilir.Taktiki məqsədlər dedikdə isə, buraya risklər, xərclərin minimum həddə salınması, müflisəşmənin qarşısının alınmasını qeyd edə bilərik.

Maliyyə menecmentini səmərəli şəkildə həyata keçirmək üçün idarəetmə strategiyası və taktikasından geniş istifadə olunur. Maliyyə menecmentinin strategiyası dedikdə, qarşıya qoyulmuş məqsədə çatmaq üçün maliyyə resurslarının düzgün istiqamətlənməsi və onlardan istifadə olunması üsulları nəzərdə tutulur.

Maliyyə menecmentinin taktikası dedikdə, həmin strategiyanı həyata keçirmək

üçün istifadə olunan müxtəlif üsullar başa düşülür.

Kommersiya banklarında maliyyə menecmenti işini təkmilləşdirmək üçün aşağıdakıları etmək lazmdır:

– maliyyə fəaliyyətinin planlaşdırılması və nəzarət prosesinin təkmilləşdirilməsi;
– müəssisənin daxili və xarici hesabatlıq sistemini təkmilləşdirmək;
– məhsul və xidmətlərin maya dəyərlərinin hesablanması.

Maliyyə planlaşdırılması, müəssisənin səmərəli fəaliyyət göstərməsi üçün vacib amillərdən biridir. Maliyyə planlaşdırılmasının həyata keçirilməsi üçün müəssisə öz hədəflərini və məqsədlərini düzgün seçməlidir ki, həmin proses maliyyə planlaşdırılmasının taktikalarına uyğun olsun.

Müəssisələrdə maliyyə planlaşdırılmasının əsas istiqamətləri kimi aşağıdakıları göstərə bilərik:

– müəssisəni lazımi maliyyə ehtiyatları ilə təmin etmək və artıq istifadə edilməyən sərmayə mənbələrini aşkara çıxarmaq;
– cəlb edilmiş maliyyə kapitalını düzgün istiqamətləndirmək;
– istehsal və satış prosesindən gələn gəlirin və nağd pul vəsaitlərinin artırılması üzrə bir sıra tədbirlər həyata keçirtmək və onları təkmilləşdirmək.

Bank nəzarətinin məqsədi:

– bank əmanətçilərinin baş verə biləcək itkilərdən qorunması;
– maliyyə sabitliyinin qorunmasını təmin etmək;
– ödəniş sistemlərinin fəaliyyətinə nəzarəti həyata keçirmək və s.

Banklarda həyata keçirilən mühasibat uçotu-bankın bütün aktivlərinin (uzunmüddətli və qısamüddətli), öhdəliklərinin (uzunmüddətli və qısamüddətli), kapitalının, gəlir və xərclərinin mühasibat hesablarında ikili yazılış üsulu ilə qeyd olunmasıdır. Aktiv dedikdə, müəssisənin sərəncamında olan və ona gələcəkdə fayda, səmərə gətirə biləcək resursrlar başa düşülür. Bankın passiv hissəsinə isə kapital və öhdəlik aiddir.

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, maliyyə menecmenti kommersiya banklarının uğurlu fəaliyyət göstərməsi və öz mənfəətini artırması üçün çox vacib nüansdır. Onu da qeyd edək ki, maliyyə menecmenti ilə mühasibat uçotu bir-birilə sıx əlaqədədirlər. Maliyyə menecmenti müəssisələrdə maliyyə aktivlərini qiymətləndirir, uçota alır, maliyyə fəaliyyətinin planlaşdırılmasını həyata keçirir, maliyyə hesabatlarını hazırlayır. Kommersiya banklarında idarəetmə qərarlarını qəbul etmək üçün dolğun düzgün informasiyaya ehtiyac duyulur. Məhz bu informasiyalar mühasibat uçotu əsasında toplanılır. Düzgün aparılmayan uçot müəssisə üçün mənfi nəticələrə gətirib çıxarır. Ona görədə uçotu aparan mühasib diqqətcil və öz işində təcrübəli olmalıdır. Mühasib qədər müəssisənin rəhbəri də diqqətli olmalıdır. Çünki ən sonda mühasibin apardığı hesabatı müəssisə rəhbəri yoxlayır və imzalıyır.

İstifadə olunmuş ədəbiyyat:

1. 1.İ.M.Abbasov., R.F.Sadiqov. Menecment, Bakı-2013, səh. 196-198.
2. www.mühasib.az
3. www.old.525.az i.e.d. Elnur Sadıqov Məhəmmədoğlu.
4. www.günaybank.com
5. www.prezi.com
6. www.wikipedia.org

Hüseynova Aysel Tərlan qızı, magistrant,
Bakı Biznes Universiteti
Email:ays0102@list.ru

GƏNCƏ-QAZAX BÖLGƏSİNDƏ TURİZM BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Dünyada ən gəlirli sahələrdən biri olan turizm bu gün ölkədə prioritet sahələrdən birinə çevrilib. Turizm sektoru ilə bağlı ardıcıl tədbirlər həyata keçirilsə də, bu sahənin daha da inkişaf etməsi istiqamətində hələ bir sıra tədbirlərin reallaşmasına ehtiyac var.

Turizm sahəsinin hərtərəfli təhlili,nəticələrinin tətbiqi ilə bağlı verilən təkliflər və proqnozlar bu sahənin inkişaf strategiyasının və bazar iqtisadiyyatı şəraitində onun davamlı inkişafının müəyyənləşdirilməsinin əsasını təşkil edir.

Tədqiqatlar göstərir ki,mədəni-tarixi və əlverişli təbii şəraitə malik olan Azərbaycanda turizm sənayesi böyük inkişaf perspektivlərinə malikdir. Burada demək olar ki,turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. O cümlədən Gəncə-Qazax ərazisində inkişaf perspektivləri mövcuddur və bu bölgənin də turizm bazarının inkişafı ölkəmizin inkişafı üçün əsasdır.Burada turizm bazarının inkişafını təmin etmək üçün bazara yüksək keyfiyyətli, tələbata uyğun məhsul və xidmətlərin təklifi şərtdir. Yeni turizm obyektlərinin tikintisi və yerli həmçinin xarici əhaliyə münasib qiymətlərlə təqdim olunması vacibdir. Cunki, inkişaf edən cəmiyyətin tələbatı zaman keçdikcə artır və köhnə turizm obyektləri öz keyfiyyətini və əvvəlki adını itirir. Tələbat yüksək olduqda təbii ki, təklif də yüksək olmalıdır və ən əsası yeniliyin olması çox vacib amillərdəndir. Ümumiyyətlə, hər hansı bir bölgənin turizm bazarının inkişafı üçün daim həm milli, həm də beynəlxalq turizm bazar araşdırmalarının aparılması məqsədəuyğundur. Buradan da marketinq və menecment fəaliyyətinin hansı səviyyədə olmasının ne qədər önəmli faktor olduğunu dərk edirik. Əgər Bakı qədər Gəncə-Qazax bölgəsinin beynəlxalq turizm bazarında brendə çevrilməsini istəyiriksə, orada olan turizm obyektlərinin çox güclü reklam strategiyasını həyata keçirmək, eləcə də yeni obyektləri müasir standartlara cavab verən şəkildə reallaşdırmaq lazımdır. Bütün bunlardan əlavə kadrların inkişafı üçün tədbirlər həyata keçirilməlidir.

Bunları nəzərə alaraq turizm sahəsində dövlət siyasətinin əsas məqsədi Azərbaycanda turizmin daha da inkişaf etdirilməsinə şərait yaratmaq,millətlərarası əlaqələrin genişlənməsi və möhkəmlənməsinə kömək etmək, beynəlxalq turizm bazarına inteqrasiya olunmaq, milli turizm kompleksinin rəqabətə davamlığını yüksəltmək, dünyada ölkənin milli-tarixi və mənəvi irsini təbliğ etmək və turistlərə göstərilən xidmətlərin keyfiyyətini dünya standartları səviyyəsinə qaldırmaqdan ibarətdir.

Turizmin inkişaf strategiyasında mövcud olan problemlər nəzərə alınmalıdır ki, ölkədə rəqabətqabiliyyətli turizm məhsulu və xidmətləri yaradılsın.

Bu problemlərin həll olunması və ölkədə turizm sənayesinin dinamik inkişafının təmin edilməsi üçün, ilk dövrlərdə böyük investisiyalar tələb edən bu sektorun dövlət tərəfindən köməyə ehtiyacı vardır. Bir tərəfdən dünya təcrübəsinə, digər tərəfdən isə məhsulun dövrü nəzəriyyəsinə əsaslanaraq, iki istiqamətli fəaliyyət konsepsiyası hazırlamaq olar. Birinci istiqamət daxili turizmin inkişafı, ikinci isə xaricdən gəlmə turizmin inkişafı əsas götürülür.

Bu istiqamətdə müəyyən işlər aparılsa da turizm sahəsinin hüquqi və institusional bazasının təkmilləşdirilməsi, iqtisadi mexanizmlərin həyata keçirilməsi məsələlərində bir sıra tədbirlərin reallaşdırılmasını zəruri hesab edilir.

Turizm xidmətlərinin keyfiyyətinin artırılması sahəsində:

- turoperatorlar, turagentliklər, yerləşdirmə müəssisələri, iaşə obyektləri və digər əlaqədar müəssisə və şəxslər üçün yüksək keyfiyyət standartlarının hazırlanması, bu subyektlərin akkreditasiyası sisteminin təkmilləşdirilməsi;
- turizm sənayesində rəqabətin gücləndirilməsi, inhisar meyllərinə qarşı tədbirlərin həyata keçirilməsi;
- istehlakçıların hüquqlarının qorunması məqsədilə turistlərlə agentliklər arasında bağlanan müqavilələrin və onların icrasının müntəzəm monitorinqinin keçirilməsi;
- turizm zonalarında milli kulinariya mərkəzlərinin yaradılması.

Turizm sahəsində sahibkarlığın dəstəkləndirilməsi:

- turizm sahəsində sahibkarlığın, ilk növbədə, kiçik və orta sahibkarlığın inkişafı üçün müvafiq şəraitin yaradılması;
- mülkiyyət formasından asılı olmayaraq turizm məqsədilə ölkəyə gətirilən texnoloji, mehmanxana avadanlığı və nəqliyyat vasitələri üçün üç il müddətinə gömrük rüsumlarının tətbiqinin dayandırılması;
- yeni yaradılmış turizm təşkilatı və müəssisələrinə vergi güzəşlərini tətbiq olunması;
- turistlərin tələbatının ödənilməsi üçün kiçik şəxsi mehmanxanalar şəbəkəsinin və başqa yerləşdirmə obyektlərinin formalaşması üçün şəraitin yaradılması;
- turizm sənayesinə daxil olan şirkətlərin iş birliyin dəstəklənməsi.

Turizm əhəmiyyətli obyektlərin fəaliyyətinin tənzimlənməsi sahəsində:

- belə obyektlərin vahid reyestrinin təkmilləşdirilməsi;
- turist yerləşdirən obyektlərin vahid uçotunun təşkili, onların müxtəlif göstəricilərə görə təsnifatı və fəaliyyətlərinə nəzarətin aparılması;
- müxtəlif yaşayış məntəqələrində turizm əhəmiyyətli yerlərdə mehmanxana və motellərin tikilməsi, onların rasional parametrlərinin müəyyənləşdirilməsi;
- muzeylərin və digər turizm əhəmiyyətli obyektlərin yerli xalq sənəti ustaları ilə əməkdaşlığın təşkili, əl işlərindən ibarət məhsulların muzeylər vasitəsilə satışı sisteminin yaradılması.

Turizm bazarının tədqiqatı sahəsində:

- turizm sahəsində milli marketinq strategiyasının hazırlanması və bu strategiyaya uyğun olaraq illik marketinq planlarının tərtib edilib həyata keçirilməsi; yeni yaradılmış turizm təşkilatı və müəssisələrinə vergi güzəşlərinin tətbiq olunması;
- turizm zonalarının qiymətləndirilməsi, şəhərlərin və rayonların bu sahədə inkişaf planlarının reallaşdırılması, sosial-iqtisadi və ekoloji faktorlarla sıx bağlı olan ümumi turist siyasətinin strateji istiqamətinin müəyyənləşdirilməsi;
- milli turizm sektorunun təhlili və proqnozlaşdırılmasının iqtisadi-riyazi modellərinin işlənib hazırlanması;
- turizmin proqnozlaşdırılması və planlaşdırılmasında statistik uçot sisteminin əsaslı surətdə təkmilləşdirilməsi, istatistik mənbə və formaların beynəlxalq standartlara uyğunlaşdırılması;

- turizmin milli iqtisadiyyata təsirini və ÜDM-in formalaşdırılmasında turizm sənayesinin payını hesablamaq iqtidarında olan statistik göstəricilər sisteminin işlənib hazırlanması;

- turizm klasterinin iqtisadiyyata təsirinin təhlil edilməsi.

Təəssüf ki turizm bazarında mövcud problemlər az deyil. Zənnimcə, qeyd olunan problemlərin həlli Azərbaycanı, eləcə də Gəncə-Qazax bölgəsini dünyanın qabaqcıl turizm mərkəzlərindən birinə çevirməklə, ölkənin iqtisadi inkişafına güclü təkan verə bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. S.T.Yeganlı, E.M.Hacıyev. "Turizm ". Dərs vəsaiti. Bak, 2006.
2. I.Huseynov, N.Əfəndiyeva. "Turizmin əsasları". Dərslik. Bakı, 2007.
3. Ə.Q.Əlirzayev ."Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı, 2010.
4. E.Q.Məmmədov. "Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. Bakı, 2013.
5. R.Kasumov. "Beynəlxalq turizm bazarı". Bakı, 2012.

Babayeva Səkinə, magistrant,
Bakı Biznes Universiteti
Email: sakinagasimsoy@gmail.com

NƏQLİYYAT VƏ LOQİSTİKA İSTƏKLƏRİ

Nəqliyyat və logistika sahəsindəki problemlər kompüterlər icad olunmazdan, Əməliyyat Tədqiqatları (OR) qərar qəbul etməyi dəstəkləyən modellər və üsullar inkişaf etdirməyə yönəlmiş bir intizama çevrilmədən çox əvvəl həll edilməli idi. İlk optimallaşdırma modelləri inkişaf etdirildikdən sonra, OR nəqliyyat sistemlərinin səmərəliliyi, nəqliyyatın mürəkkəbliyi və logistika problemləri olan şirkətlərin rəqabətçi olmasına əhəmiyyətli dərəcədə kömək etmişdir. Bu sistem elmi olaraq, problemlərin mürəkkəbliyini və qərar qəbuletmə keyfiyyətini artırmaq üçün sistemin hissələri arasında qarşılıqlı təsirləri ələ aldı. OR metodları məlumatların mövcudluğundan asılı olmuş və əksər hallarda kompüterlərə etibar etmişdir. Daha çox məlumatın və daha çox hesablama qabiliyyətinin olması OR metodlarını daha güclü etmişdir.

İllər keçdikcə texnologiya və həmçinin OR metodikasıda bunula birlikdə paralel inkişaf hərəkətinə dəvam etdi. İnternet, texnoloji inkişaflar, informasiya və kommunikasiya cihazlarının fərdi istifadəsi, kütləvi məlumatların geniş yayılması nəqliyyat, logistik sistemlər (OR) tədqiqatçıları üçün yeni problemlər və imkanlar yaratdı. Bu araşdırmanın məqsədi, zaman keçdikcə (OR) nəqliyyat və logistikaya verdiyi töhfələrin, texnologiyadakı problemlərin təkamülündən sonra inkişaf etdiyini və son trendlərin həyəcanverici imkanlar yaratdığını göstərməkdir.

Nəqliyyat və loqistika tarixi bəşəriyyətin tarixi qədər uzun müddətdir, lakin son mərhələlərlə qeyd olunur. Dəmir yolu XIX əsrin əvvəllərində, təyyarə isə 1903-cü ildə kəşf edilmişdir. Dəniz nəqliyyatında dəniz konteynerinin ixtirası 1956-cı ilə aiddir və

dəniz nəqliyyatına da təsir göstərmişdir. Günümüzdə logistika və daha geniş təchizat zənciri rəhbərliyi konsepsiyası əsasən malların lazım olduğu yerlərdə və ehtiyac düyülan miqdarda satışa təqdim edilməsi imkanlarına malik olan bir iş funksiyası kimi nəzərdə tutulmuşdur. Nəqliyyat prosesləri, iş proseslərinə istinad edildikdə, logistikanın bir hissəsi kimi qəbul edilə bilər. Bununla birlikdə yalnız malların deyil, insanların da daşınması lazımdır. Köhnə dövrlərdə insanlar at və ya vaqon ya da gəmi ilə səyahət etməkdə idilər.Hazırda müxtəlif nəqliyyat və nəqliyyat vasitələri fərqli səviyyələrdə maliyyət və rahatlıqla mövcuddur. Ənənəvi olaraq, yük daşınması problemləri insanların nəqliyyat problemlərindən asılı olmayıb. Üstəlik, yük daşımaları özəl sektorda aktual bir problem olduğu halda, insanların nəqliyyat problemləri daha çox - hava yolları istisna olmaqla - ictimai nəqliyyat (kütləvi tranzit) sistemi və dizaynı üçün məsuliyyət daşıyan dövlət sektoru ilə qarşılaşmışdır. Əsasən avtobuslar və qatarlar olan nəqliyyat vasitələrinin parkları baxımından koordinasiya edilməli idi, marşrutlar, cədvəllər, heyət və (OR) bu sistemlərin optimallaşdırılmasına əsas qatqı olmuşdur.

Ən son texnoloji inkişaflar, böyük məlumatlar adlanan rəqəmsal məlumatların mövcudluğu və internet anlayışının obyektlərin interneti olaraq da adlandırılan Şeylər İnterneti (IoT) ilə genişlənməsi ilə əlaqədardır. Google-da "böyük məlumat" axtarma sayı, 2013-cü ildə "təchizat zənciri idarəetməsi" üzrə axtarış sayını keçdi. Məlumatların yaradılması sürəti bir çox tətbiqetmə üçün son dərəcə vacibdir. Böyük məlumatlar mesajlardan şəkillərə, mobil telefonlardan gələn qlobal yerləşdirmə sistemi (GPS) siqnallarına, sensorlardan oxunuşa qədər müxtəlif formalarda olur. Sosial şəbəkələr, smartfonlar və mobil cihazlar böyük məlumat mənbəyidir və insanlara fəaliyyətlər, yerlər ilə əlaqəli çox sayda məlumat verir. Böyük məlumatlar sayəsində menecerlər və qərar qəbul edənlər daha çox məlumat əldə edə və bu məlumatları inkişaf etmiş qərar qəbuletmə və performansa çevirə bilərlər. Bununla birlikdə, böyük məlumatlar, xüsusilə nəqliyyat və logistika sahəsində əməliyyat tədqiqatçıları üçün yeni geniş imkanlar yaradır.

Şəxsi avtomobillər insanların böyük əksəriyyəti üçün üstünlük təşkil edən nəqliyyat rejimi olaraq qalsa da, hərəkətlilik variantları artmaqdadır. Bu sektorda fəaliyyət göstərən startapçılar qısa müddət ərzində özlərini təsdiqləyirlər. Uber, Grabtaxi, BlaBlaCar, Zipcar, insanlara alternativ nəqliyyat rejimi təklif edən şirkətlərə uyğun adlardan yalnız bəziləri qısaca, bəziləri uzun məsafələrdir. Gənclər bu yeni seçimlərdən istifadə etməyə, avtomobil alqı-satqısını və sürücülük vəsiqəsini almağı təxirə salmağa meyllidirlər. Aşağıda nəqliyyatda hərəkət tərzini dəyişdirəcək altı əsas tendensiya təqdim olunur:

– şəxsi nəqliyyat vasitələri: əllər sərbəst və ayaqsız sürücülük yaxın gələcəkdə tamamilə həqiqət olacaqdır;

– elektrikli nəqliyyat vasitələri: əsasən tranzit avtobuslar və qısa mənzilli nəqliyyat vasitələri hazırda elektrik, elektrikli nəqliyyat vasitələri daha qənaətcil və pulsuz yüklənmədən daha uzun səyahət edə bilər;

– bağlı nəqliyyat vasitələri: trafik məlumatları nəqliyyat vasitələrində mövcud olur, nəqliyyat vasitələri İnternet bağlantısı ilə təchiz edilmişdir;

– birgə istehlak: istəyə uyğun mobillik variantları artmaqdadır, əməkdaşlıq variantları əsasən istifadə olunmayan fərdi avtomobillər olmadan hərəkətliliyi təmin edir;

– effektiv çox modal şəbəkələr: Crowdsourcing tranzit məlumatları cədvəlləri səyyahların ehtiyaclarına uyğunlaşdıracaq, səyahətçilərə çoxsaylı səyahət variantları təklif ediləcək;

– yeni materiallar: elektrikli nəqliyyat vasitələrinin qət etdiyi məsafəni artırmaq üçün daha yüngül avtomobillər dizayn ediləcəkdir.

Yol infrastrukturuna, İnternetə və daha geniş bir ictimai nəqliyyat variantları şəbəkəsinə qoşulmuş şəxsi avtomobil, ortaq bir nəqliyyat vasitəsi parkını görmək çox vaxt çəkə bilməz.

Son texnoloji və avtomobil inkişafları təchizat zəncirlərinin idarə edilməsi, malların və insanların daşınması yollarını sürətlə dəyişir. İqtisadi təzyiq şirkətləri texnoloji inkişafdan da istifadə edərək daha səmərəli və təsirli olmağa məcbur edir. Eyni zamanda, qurumlar gələcək nəsillərin ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən bu günün ehtiyaclarını ödəmək bacarığı kimi nəzərdə tutulan davamlılıq məqsədi ilə idarə olunur. Logistik xərclərin şirkətlər və nəqliyyat üçün ətraf mühitə olan böyük iqtisadi təsiri, yeni yaranan iş imkanları ilə birlikdə nəqliyyat və logistikanı sürətlə dəyişəcəyi gözlənilir. Əməliyyat tədqiqatları təchizat zənciri idarəçiliyi, nəqliyyat problemlərinə əsaslı töhfələr verdi və yeni tədqiqat problemlərinə cavab olaraq daha vacib töhvələr gözlənilir. Bu məqalədə bəzi əsas meyllər ümumiləşdirilmişdir.

Babayeva Türkan Əlyar qızı, magistrant,
Sumqayıt Dövlət Universiteti
Email: babayevaturkan1@gmail.com

ŞƏKİ ONOMASTİK LEKSİKASINDA URBANONİMLƏRİN YERİ

Azərbaycan toponimləri içərisində urbanonimlər mühüm yer tutur. “Urban” sözü latın sözü olub, “şəhərli” deməkdir. “Onim” sözü “ad” mənasını ifadə edir. Urbanonimlər məhəllə, meydan, küçə, döngə və s. adlarını ifadə edir. Urbanonimlərin müxtəlif növləri vardır. Bunlara aqoronim, hadonim, ekklezionim, oykodomonimi misal göstərə bilərik. Meydan adları, bazar adları aqoronimlərə aiddir. Prospekt, döngə, küçə adları hadonimlərə aiddir. Məscid, müqəddəs sayılan yerlər, müqəddəs sayılan daşlar, ağac adları ekklezionimlərə aiddir. Bina adları, tikili adları da oykodomonimlərə aid edilir. Urbanonimlər həm də şəhərin topoqrafik adları da adlanır. Hamam, bağ, park, qala, karvansalar da urbanonimlərə aid edilir. Urbanonimlərdə tarixilik çoxdur. Onlara diqqət etsək görərik ki, tariximizlə bağlı bir çox məlumatları özündə əks etdirir. Azərbaycan dilinə nəzər salsaq görərik ki, urbanonimlərin hamısı hələ tam olaraq tədqiq edilməmişdir. Onomastikada həllini gözləyən əsas məsələlərdən biri də urbanonimlərin tədqiqi məsələsidir. Son dövrlərdə salınan bir çox şəhərlərdə urbanonimlər yaranmışdır. Şəki rayonuna aid olan urbanonimlər hələ tam olaraq öyrənilməmişdir. Bu tezisdə ilk dəfə olaraq Şəkiyə aid edilən urbanonimlər təsnif edilmişdir.

Şəki urbanonimlərinin bir qismi qədimdən bəri mövcuddur. Məsələn, Ağvanlar məhəlləsi, Dırrar məhəlləsi, Topqarağaclar məhəlləsi, Çökək məhəllə, Südlülər məhəlləsi, Qurdlar məhəlləsi, Gəncəli məhəlləsi və.s. Urbanonimlər əslində 2 vəzifəni yerinə yetirir. İlk olaraq bir küçəni, məhəlləni başqa birindən fərqləndirir. İkinci vəzi-

fəsi isə tayfaya, nəsilə aid olan tarixi hadisələri, əlamətdar hadisələri qoruyub özündə saxlayır. Urbanonimlər müxtəlif topoformatlarda olur. Şəxs adı+topoformant, şəxs adı+soyad+topoformat və.s. Məsələn, Heydər Əliyev prospekti, M.F.Axundzadə küçəsi, Məhəmməd Hadi küçəsi və.s. Urbanonimlərin meydana gəlməsində antropo-nimlər, etnonimlər mühüm rol oynayırlar.

Sintaktik xüsusiyyətlərini nəzərə alaraq qeyd edə bilərik ki, urbanonimlər söz birləşməsi formasında da olurlar. Üçüncü növ təyini söz birləşməsi formasında olan urbanonimlər mövcud deyildir. Birinci növ təyini söz birləşməsi formasında olan urbanonimlərə: Yuxarı məhəllə, Aşağı məhəllə, Orta məhəllə, Çökək məhəllə və sairəni misal göstərmək olar.

İkinci növ təyini söz birləşməsi formasında olar urbanonimlərə Yuxarıbaş məhəlləsi, Südlülər məhəlləsi, Otaqeşiyi məhəlləsi, Mədolar məhəlləsi, Körpüqulağı məhəlləsi, Sarıtorpaq məhəlləsi, Dodu məhəlləsi, Şərbablar məhəlləsi və.s

Urbanonimlərin əsasını təşkil edən məhəllə və meydan adları mühüm əhəmiyyətə malikdirlər. Məhəllə şəhərin, qəsəbənin bölündüyü hissələrdən biridir. Məhəllə və meydan adları birdən-birə yaranmamışdır. Tarixin müxtəlif dövrlərində mərhələli şəkildə yaranmışdır.

Qurdlar məhəlləsi Şəki şəhərində ən qədim məhəllələrdən biridir. Bu məhəllə yarandığı gündən adını qoruyub saxlamışdır. Bu məhəllənin adı türklərin müqəddəs saydığı, əcdadı, xilaskarı olan qurdun (Boz qurdun) adından götürülmüşdür. Qurd termini mifologiyada da özünü göstərir. Qurd türklərin dini əqidələrində əsaslı yer tutur. Biz “Kitabi-Dədə Qorqud” dastanına fikir versək görərik ki, Qazan xan öz soy kökünü qurdla bağlayır. Göytürklərin bayraqlarının başında qurd heykəli vardır. Eyni zamanda qurdlar qədim türk qəbilələrindən biri olmuşdur. Bəzi alimlər onun etnonim xarakterli olduğunu qeyd edirdi.

Qadiroğlunun tiki məhəllə xarakterli ərazidir. Dərəli-təpəli, enişli-yoxuşlu ərazini əhatə edir. Qədiroğlu haqqında, onun kim olması haqqında isə məlumat əldə edə bilmədik. Sadəcə Yusif Qədiroğlu adında dükançı olduğuna görə buranın belə adlandırıldığını söyləyirlər.

Çökək məhəllə XlX əsrdə Şəkinin yeni salınmış məhəllələrindən biridir. İpək Kombinatının sağ tərəfini əhatə edir. Burada yaşayan əhalinin çoxu sənətkarlardan ibarət idi. Əvvəllər burada kiçik evlər, daxmalar tikilirdi. Burada ipəkçiliklə məşğul olan insanlar çox idi. Bu məhəllədə ilk yurd salanlardan biri Çopur Məhəmməd idi.

Şəkinin qədim məhəllələrindən biri də Şərbaflar idi. Qonaqpərvər, təmizliyi çox sevən sakinlər idilər. Şəkidə ipəkçilik inkişaf etdikcə yeni sahələr meydana çıxırdı. Bunlar içərisində şərbaflıq xüsusi yer tuturdu.Tədqiqatçı Arif Mustafayev Şərbaflıq sənətinin tarixini öyrənməyə başlamışdır. O qeyd edir ki, xam ipəkdən zərif parça istehsalı bu sahənin əsasını təşkil edir. Artıq Şəkidə bu bir dəb halını alımışdı. Onlar yığışaraq birgə fəaliyyət göstərirdilər.

Şəki Cümə məscidinin 1905-ci ildə inşa edildiyi deyilir. 1927-ci ildə ruslar tərəfindən minarə dağıdılmışdır. Hətta, onlar minaräni sökmək istəsələr də bu mümkün olmamışdır.

Tarixi memarlıq abidələrindən biri Giləhli məscididir. Bu məscid 1749-cu ildə tikilmişdir. Şəki xanı Hacı Çələbi xan tikdirmişdir. "Hacı Şəmsəddin bəy məscidi" kimi də adlandırılmışıdır. Bu məscidin yaxınlığında qəbirstanlıq olmuşdur. Məscid

Qurçana çayın yaxınlığında yerləşir. Məscidin minarəsi bu günə kimi saxlanılmışdır.

Qışlaqda tanınan məhəllələrdən biri Sarılar məhəlləsidir. Bu məhəllənin adı Hacı Abdulənlinin adı ilə bağlıdır. İslama bağlı olan biri olmuşdur. Öz həyətində məscid tikdirmiş və həmin məsciddə onu dəfn etmələrini istəmişdir. Onun kimi bir neçə hacını da orada dəfn etmişlər.

Gumburla məhəlləsi Dəyirmanarxı çayının sol sahilini əhatə edir.Burada yaşayan insanlar dabbağlıqla məşğul olurdular.

Urbanonimlərə aid edilən tarixi-memarlıq abidələri içərisində qalalar da mühüm yer tutur. “Gələrsən-Görərsən” qalası haqqında müxtəlif məlumatlar mövcuddur. Ona gah Qız, gah da Qızlar qalası deyilir. Bu ad ona birdən-birə verilməmişdir. Qız sözü alınmazlıq, məğlubedilməzlik mənasını ifadə edir. Bu qala haqqında mənbələr çox deyildir. Kərim ağa Fatehin "Şəki xanlarının müxtəsər tarixi" və Hacı Seyid Əbdülhəmid Əfəndinin "Şəki xanları və onların nəsilləri" əsərlərində bu qala haqqında məlumat verilmişdir. Ancaq həmin mənbələrdə bu qala "Qız", "Qızlar" adı ilə deyil, "Gələrsən-görərsən" adı ilə qeyd edilir. Bu qalanın adı əvvəl "Qız", "Qızlar" olmuşdur. "Gələrsən-görərsən" adı sonralar verilmişdir. 1743-cü ildə baş verən hadisələrlə əlaqədar olaraq bu ad sonralar bu qalaya verilmişdir. 1551-ci ildə Şah Təhmasibin hücumları zamanı əhalinin bir hissəsi Kişdə yerləşən Kiş qalasında, bir hissəsi də bu qalada müdafiə olunmuşlar.

Bu qala yüksək təpə üzərində yerləşir. Kiş kəndinin Şimal-Şərqində yerlərşir. Arxa və ön hissədən bu qalaya hücum etmək mümkün deyil. Bu qala ilə Kiş kəndi arasındaı ərazi Qala düzü adlanır. Bəzi mənbələrdə qeyd edilmişdir ki, Şəki xanı olan Dərviş Məhəmməd xan Qız(lar) qalasında müdafiə olunmuşdur. Kiş qalası alındıqdan sonra qaçmağa cəhd etmişdir. Ancaq qaça bilməmişdir. Onu qətlə yetirmişlər. Onun kəsilmiş başı Şah Təhmasibin ayaqları altına atılmışdır. Bundan sonra Şəki xanlığı ləğv edilmişdir. 1743-cü ilə Hacı Çələbi xan Şəkini müstəqil xanlığa çevirdi.

"Gələrsən-görərsən" qalası ilə bağlı maraqlı məlumatlar vardır. Belə rəvayət edirlər ki, üzbəüz duran qoşunlar həmişə qışqıra-qışqıra uzaqdan-uzağa danışırdırlar və bir dəfə Nadir şah özü də onların içərisində olur. Nadir şah soruşur ki, "O hansı qaladır ki, alınmazdır? Bu suala cavab olaraq deyirlər ki, "Gələrsən-görərsən". Elə həmin vaxtdan bu qalanın adı belə qalmışdır. Həmin vaxtdan qalanın iki adı vardır.

“Şəki qalası- 1969-cu ilə qədər Şəki "Nuxa" adlandırıldığına görə bu qala da " Nuxa qalası" adlandırılmışdır. Azərbaycan Respublikası ərazisində orta əsrlərə aid olan və sağ qalmış bu abidə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Qala divarları" adı altında inventarlaşdırılmışdır. Bəzi məlumatlara görə bu qalanın tarixi 1765-ci ilə aiddir. Qalanın divarları, darvazaları möhkəm infrastrukturlarla təchiz olunmuşdur. 1825-ci ilə aid olan mənbələrdə bu qalanın bişmiş kərpiclə tikildiyi göstərilmişdir. Ancaq divarlar hal-hazırda çay daşlarından ibarətdir. Bu qala haqqında Firudun bəy Köçərli qeyd edirdi ki, qalaya yuxarıdan baxan zaman adı ərəb hərfləri ilə "Məhəmməd (xan)" kimi oxunur. Burada xan və onun ailə üzvləri yaşayırdılar. "Şəki xan sarayı" isə həmin vaxtda "Divanxana" kimi fəaliyyət göstərirdi. Ruslara buraya hücum etdikdən sonra Divanxana Şəhər məhkəməsi adlandırılmağa başladı. Qalada hal-hazırda mövcud olan "Dairəvi məbəd" mövcuddur. Bu Şəkidə yerləşən yeganə provoslav kilsəsi idi. Nuxa qalası haqqında Lev Tolstoyun məşhur əsəri olan "Hacı Murad" povestində məlumat verilmişdir. Şeyx Şamilin silahdaşlarından biri olan Hacı Murad

burada saxlanılmışdır (1851-1852).

Şəki Narınca qalası Hacı Çələbi xanın dövründə tikilmişdir.

Dünyada mövcud olan möhtəşəm abidələrin içərisində özünəməxsus yer tutan Şəki xanlarının yay sarayı olan bina Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə ərsəyə gəlmişdir. Saray 1761-1762-ci illərdən başlayaraq istifadə olunmağa başlamışdır. Bəzi mənbələrdə bu bina " Müştaq imarəti" adlanmışdır. Hüseyn xan öz şeirlərini "Müştaq" təxəllüsü ilə yazdığına görə bu qalanın bəzi mənbələrdə belə adına rast gələ bilərik. Bina ikimərtəbəlidir.Binada altı otaq, iki dəhliz, iki güzgülü eyvan mövcuddur. Nazim Hikmət bu saray haqqında qeyd edirdi ki, "Azərbaycanda başqa qədim tikililər olmasaydı, təkcə Şəki Xan sarayını bütün dünyaya nümayiş etdirmək mümkün olardı".

Bağırov Vüsal Mahir oğlu, magistrant
Bakı Biznes Universiteti
Email: bagirovvusal14@gmail.ru

"TURAN BANK" ASC-də QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ ƏMƏLİYYATLAR

"Turan Bank"-ın qiymətli kağızlarla investisiya əməliyyatları birbaşa və dolayı gəlir əldə edilməsi üçün ehtiyatların qiymətli kağızlara qoyuluşunu xarakterizə edir. Qiymətli kağızların qoyuluşundan əldə olunan birbaşa gəliri bank divident, faiz və likvidlik gəliri şəklində alır. Dolayı gəlirlər bankların qiymətli kağızlarının nəzarət paketi vasitəsilə müştərilərə təsiri nəticəsində əmələ gəlir.

Qiymətli kağızlara qoyuluşların uçotu «Qiymətli kağızllarla əməliyyatlar» mühasibat balansının aktiv hesab bölməsində aşağıdakı qaydada aparılır:

1. Borc öhdəliklərinə qoyuluşlar;
2. Səhmlərə qoyuluşlar;
3. Hesaba alınmış veksellər.

"Turan Bank"-ın qiymətli kağızlara qoyuluşlarının tədqiqi zamanı birbaşa və portfel investisiyalarını ayırmaq lazımdır.

Birbaşa investisiyalar (kapital qoyuluşlara) – bu investisiya obyektlərinin idarə olunması məqsədilə yönəldilən qoyuluşlardır. Bank bu və ya digər kompaniyanın səhmlərinin nəzarət paketini əldə edərsə, o zaman investisiyaların qiymətli kağızlara qoyulduğu aşkarlana bilər. Bank daimi müştərilərinin ticarət və sənaye müəssisələrinin səhmlərinin nəzarət paketinin sahibi ola bilər. Bu zaman bank müəssisənin istehsal və maliyyə fəaliyyətinə tam nəzarət edir və nəticə etibarilə by müəssisələrdə aparılan kredit əməliyyatlarının təhlükəliliyini azaldır. Mədaxil bazasını və fəaliyyətini genişləndirmək üçün bank qeyri-bank maliyyə kompaniyaları kimi iştirak edir (investisiya və sığorta kompaniyaları, qeyri-dövlət təqaüd fondları, lizinq kompaniyaları və s.). Bu kompaniyalar bankdan asılı olur və onların səhmlərinə kapital qoyuluşları birbaşa investisiyaların forması kimi ifadə olunur.

Portfel investisiyaları vahid şəkildə idarə olunan müxtəlif emitentli qiymət kağızların portfelinin yaranması ilə həyata keçirilir.

Portfel inventisiyalarının məqsədi portfeldə yerləşən qiymətli kağızların kurs məbləğinin artmasından əldə olunan mədaxilin alınmasıdır.

Qiymətli kağızların portfeli bu tiplərə ayrılır:

– Artım portfeli – inventisiya kapitalının artırılmasına yönəldilir. Onun əsasını məbləği artan qiymətli kağızlar təşkil edir. Bu portfeldəki cari mədaxilin səviyyəsi yüksək deyil.

– Mədaxil portfeli – yüksək cari mədaxillərin alınmasını təmin edir. Faiz ödənişləri və dividentlərin məbləği bazar qiymətlərindən yüksək olur.

– Riskli kapital portfeli - buraya sürətlə inkişaf edən kompaniyaların gələcəkdə yüksək gəlir gətirəcək qiymətli kağızları daxildir. Bu portfel təhlükəli olmağına görə fərqlənir, çünki aktivlərin məbləğinin sürətlə artımı həyata keçməyə də bilər.

– Tarazlaşdırılmış portfel – buraya sürətlə artan yüksək gəlirli və təhlükəli kağızlar daxil olur. Bu portfeldə kapitalın və cari mədaxilin artımı bir-birinə uyğunlaşır. Bu portfeldə ümumi təhlükə tarazlaşdırılır.

– Xüsusiləşmiş portfel – müəyyən növlü qiymətli kağızlardan təşkil olunur (xarici qiymətli kağızların portfeli, qısamüddətli qiymətli kağızların portfeli).

Adətən qiymətli kağızlar bazarının əməliyyatlarında iştirak edən banklarda, aktiv payların və qiymətli kağızlarla bağlı əməliyyatların mədaxillərinin səviyyəsini müəyyən edən investisiya sənədi işlənib hazırlanır.

Bir qayda olaraq iri banklarda qiymətli kağızların sərbəst idarəsi və analitik şöbələr yaradılır.

Sərbəst bölmələr kimi qiymətli kağızlar üzrə dilinq şöbələri, uçot-əməliyyat, depozit saxlamaları və qiymətli kağızların qeydiyyat şöbələri yaradılır.

Müasir dövrdə qiymətli kağızlar bazarında banklar maliyyə brokerləri kimi müştərinin göstərişi ilə qiymətli kağızların alış-likvidlik funksiyasını vasitəçiliklə yerinə yetirirlər. Kommisioner kimi iştirak edən banklar qiymətli kağızların alış-satışı üzrə əməliyyatlarının müştərilərinin hesabına həyata keçirirlər. Belə hallarda bank komissiya müqaviləsi əsasında fəaliyyət göstərir. Burada bank öz adından, lakin müştərinin hesabına bir neçə müqavilənin bağlanmasını öhdəsinə götürür. Komissiyanın müqaviləsi müəyyən müddətə bağlanır. Qiymətli kağızların alış-satışı üzrə sazişləri banklar öz müştəriləri üçün, müqavilənin əsasında bağlaya bilərlər. Tapşırma sazişi ilə əsasən bank, müştərilərin (vəkalətçi) hesabına müəyyən hüquqi fəaliyyəti həyata keçirə bilər. Sazişin yerinə yetirilməsinə görə bank sazişdə müəyyən olunmuş şərtlərə əsasən mükafat alır. Banklar qiymətli kağızların alış-satışı üzrə sazişləri birja və ya birjadankənar bazarlarda tətbiq edə bilər. Əməliyyatların yerinə yetirilməsi zamanı banklar dilerlər kimi iştirak edirlər.

Diler istiqrazlar üzrə sazişləri şəxsən və şəxsi hesabı vasitəsilə bağlamalıdır. Sonra isə o, istiqrazları investorlara satır, investorlar şəxsi mülkiyyət hüququna malik hüquqi və ya fiziki şəxslərdir. İnvestor diler ilə xidmət barəsində müqavilə imzalayır.

İstiqraz bazarının bütün dillerləri, Mərkəzi Bankla müqaviləyə əsasən subdepozitor funksiyasını yerinə yetirirlər.

Trast (trust-etibarlı idarəetmə) – müştəri vəsaitləri (əmlakı, pulu. qiymətdi kağızları) və müqavilə göstərişi üzrə əməliyyatlardır. Etibarli idarəetmənin müqavilə şərtlərinə əsasən, bir tərəf (idarəetmənin təşkilatına) digər tərəfə (etibarlı idarəetmənin rəhbərinə) müəyyən müddətə mülkiyyətinin idarə edilməsi səlahiyyətini verir. Etibarli idarəetmənin rəhbəri isə bu mülkiyyətin təşkilatların maraqlarına uyğun idarə olunmasını öhdəçiliyinə götürür. İdarəetmənin rəhbəri bu mülkiyyət üzərində müxtəlif hüquqi və fiziki fəaliyyəti həyata keçirmə hüququna malikdir. Lakin, bu zaman o yalnız öz adından çıxış edə bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. Sadıqov M.M. Maliyyə potensialının formalaşması problemləri. Bakı, Elm, 2002.
2. Учебные планы и рабочие программы по специальностям “Финансы и кредит”, “Мировая экономика”. СПб: Издво СПГУЭФ, 2001.
3. Никофорова В.Д., Садыгов Э.М. Операции с ценными бумагами. Баку, 2002.

Mirişov Baqil, magistrant
Bakı Biznes Universiteti
Email: bmirisov@gmail.com

SIĞORTA MÜNASİBƏTLƏRİNİN TƏŞKİLİ FORMALARI

Sığorta haqqında Azərbaycan Respublikası Qanununa uyğun olaraq yalnız hüquqi şəxslər sığortaçı ola bilər. Beləliklə, sığortaçı fiziki şəxslər ola bilməz və bir vətəndaş tərəfindən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti qaydasında sığorta fəaliyyətinin həyata keçirilməsinə icazə verilmir. Sığorta münasibətlərinin meydana gəlməsi üçün sığortaçının aşağıdakı təşkilati xüsusiyyətləri olmalıdır:

- Sığorta fəaliyyətini həyata keçirmək üçün xüsusi yaradılmış bir təşkilat şəklində hüquqi şəxs olmaq;
- sığorta fəaliyyətini həyata keçirmək üçün lisenziya almaq;
- bank hesablarının açılması üçün müraciət etmək.

Sığorta təşkilatının nizamnaməsi aşağıdakıları müəyyənləşdirir:

- təşkilatın növü, adı, yeri, rəhbəri, təsisçilər, nizamnamə kapitalı;
- idarəetmə orqanlarının səlahiyyətləri;
- formalaşma qaydası və səlahiyyətləri.

Sığortalı hər hansı əmlakını sığortalayan və sığortaçının onları sığortası ilə təmin etdiyi üçün sığorta haqqı ödəyən bir şəxsdir, yəni sığortalı, sığortaçının göstərdiyi sığorta xidmətlərinin müştərisidir. Sığortalı həmişə sığorta hüquq münasibətlərinin mövzusudur. Sığorta müqavilə şəklində aparılır və sığortaçı sığorta müqaviləsinin tərəfidir. İkitərəfli bir öhdəlik olan sığorta öhdəliyində sığortaçı, sığorta təzminatını ödəyərkən borclu və sığorta ödənişi almaq hüququ meydana gəldikdə, kreditor kimi çıxış edir. Beləliklə, sığortaçı sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya sığorta təzminatının ödənilməsində və qarşılıqlı mənafeləri üçün sığorta müdafiəsini təmin etməli olan şəxsdir. Həm hüquqi şəxslər, həm də fiziki şəxslər sığortalana bilər.

Sığorta hüquqi münasibətləri - iştirakçıları sığorta sahəsində hüquq və vəzifələrin daşıyıcısı olan sığorta qanunu normaları ilə tənzimlənən ictimai münasibətdir. Sığorta hüquqi münasibətlərinin məzmunu mülki hüquq və vəzifələrin məcmusu olacaqdır. Mülki münasibətlərdə səlahiyyətlər və öhdəliklər bir-biri ilə forma və məzmun olaraq əlaqəlidir və bir-birindən asılıdır. Sığorta hüquq münasibətləri sığorta münasibətlərinin və ya sığorta işinin təşkili münasibətlərinin dövlət tənzimlənməsi nəticəsində yaranır və onların hüquqi forması kimi çıxış edir.

Sığorta hüquq münasibətlərinin məzmunu hüquqi münasibət subyektlərinin hüquq və vəzifələridir. Beləliklə, maddi sığorta hüquqi münasibətlərində sığortalı sığorta haqqını ödəmək məcburiyyətindədir və sığorta hadisəsi baş verdikdə ona sığorta təzminatı ödənilməsini tələb etmək hüququna malikdir. Sığortaçının sığortalıdan bağlanmış sığorta müqaviləsi üzrə sığorta haqlarının ödənilməsini tələb etmək hüququ vardır. Sığorta hüquq münasibətləri dövlət tərəfindən qorunan bir münasibətdir. Bu müddəa, ilk növbədə sığorta qanunvericiliyinin tələblərinə uyğunluğunu təmin etməyə çalışması ilə müəyyən edilir. Sığorta qanunvericiliyi qaydalarına riayət olunmasını təmin etməklə, dövlət bu qaydalarla tənzimlənən sığorta münasibətlərini də qoruyur. Məqsədinə görə sığorta münasibətləri maddi və təşkilati olaraq 2 yerə bölünür.

Maddi sığorta hüquqi münasibətləri sığortaçı ilə sığortalı arasında münasibətləri ifadə edir və vəsaitlərin hərəkətinə vasitəçilik edir (sığortalıdan sığortaçıya sığorta ödənişi şəklində və sığorta hadisəsi baş verdikdə, sığortaçıdan sığortalıya sığorta təzminatı şəklində). Bir iş fəaliyyəti kimi həyata keçirilən sığorta üçün maddi münasibətlər həmişə tərəflərin hüquqi bərabərliyinə əsaslanır və üfüqi xarakter daşıyır.

Təşkilati sığorta münasibətləri üçün subyektlərin hüquqi bərabərsizliyi xarakterikdir. Bu münasibətlər şaquli və "güc və tabeçilik" düsturunu ifadə edir. Bu düstur bir subyektin yalnız hüquqa, digərinin isə yalnız məsuliyyətə malik olduğu mənasında başa düşülə bilməz. Həm birinin, həm də digərinin həm hüququ, həm də öhdəliyi var. Təşkilati sığorta münasibətlərinin hakim subyekti dövlət orqanıdır. Təşkilati sığorta münasibətlərində tabe olan subyekt bir sığorta təşkilatıdır.

Sığorta münasibətləri mülki məsuliyyət növüdür. Sığorta öhdəliyinə görə, sığortaçı sığortalının müəyyən edilmiş ödənişlərini, sığorta təzminatını ödəməyi öhdəsinə götürür. Sığorta münasibətlərinin məzmunu onların iştirakçılarının hüquq və vəzifələridir. Hər şeydən əvvəl sığorta hüquq münasibətlərinin əsas iştirakçıları sığortaçı və sığortalıdır. Sığorta hüquq münasibətlərinin subyektləri bunlardır:

- sığortaçılar;
- sığortalılar;
- digər faydalanan vasitəçi qurumlar.

Sığorta müqaviləsində sığortalı ilə sığortaçı arasındakı sığorta münasibətləri rəsmiləşdirilir. Bu vəziyyətdə sığorta münasibətləri sığortaçının və sığortalının müqavilə şərtlərinə görə əsaslanır. Beləliklə, sığortaçı borcludur:

- sığorta olunanı sığorta qaydaları ilə tanış etmək;
- sığortalı tərəfindən sığorta hadisəsi riskini və sığortalanmış əmlaka mümkün zərərin miqdarını azaltmaq üçün tədbirlər görməsi və ya faktiki dəyərində artım olması halında, bu şərtləri nəzərə alaraq sığortaçının tələbi ilə sığorta müqaviləsini yenidən müzakirə etmək;
- sığorta hadisəsi baş verdikdə müqavilə ilə və ya qanunla müəyyən edilmiş müddətlərdə sığorta ödənişi etmək. Sığorta ödənişləri vaxtında həyata keçirilmədikdə, sığortaçı sığortalıya hər gecikmə günü üçün sığorta ödənişi məbləğinin 1%-i miqdarında cərimə ödəməlidir;
- sığorta hadisəsi baş verdikdə sığortaçı tərəfindən əmlaka dəyən zərərin qarşısını almaq və ya azaltmaq üçün xərcləri ödəmək (əgər bu xərclərin ödənilməsi sığorta müqaviləsində nəzərdə tutulmuşdursa). Bu xərclər yalnız sığorta müqaviləsində əks olunmuş zərərin məbləğinə qədər ödənilir. Zərərin məbləğini aşan xərclərin məbləği ödənilmir;

- Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta şirkəti sığortalıya bir sıra məlumatları açıqlamamaq hüququna malikdir.

Sığortalı borcludur:

- sığorta haqlarını vaxtında ödəmək;
- sığorta müqaviləsi bağlayarkən, sığorta riskini qiymətləndirmək üçün sığortalıya məlum olan bütün hallar barədə sığortaçını məlumatlandırmaq;
- sığorta obyekti ilə əlaqəli bütün bağlanmış sığorta müqavilələri barədə sığortaçını məlumatlandırmaq;
- sığorta hadisəsi baş verdikdə sığortalı əmlaka dəyən zərərin qarşısını almaq və azaltmaq üçün lazımi tədbirləri görmək;
- siğorta müqaviləsi ilə müəyyən edilmiş müddətdə sığorta hadisəsinin baş verməsi barədə sığortaçını məlumatlandırmaq.

Sığorta iqtisadi münasibətlər sistemi olaraq sığorta məsuliyyətinin müxtəlif obyektlərini və subyektlərini, fəaliyyət normaları və qanunlarının təriflərinə uyğun fəaliyyətin təşkili formalarını əhatə edir. Sığorta münasibətlərinin müxtəlifliyini asanlaşdırmaq, vahid və bir-biri ilə əlaqəli bir sistem yaratmaq üçün sığortanı təsnif etmək lazımdır. Sığortanın təsnifatı – sığortaları fəaliyyət sahələrinə, alt sektorlara və növlərə bölmək üçün elmi əlaqəli sistemdir ki, bu əlaqələr hər bir sonrakı əlaqənin əvvəlkinin bir hissəsi olmasıdır. Sığortanın təsnifatı iki meyara əsaslanır: sığorta obyektlərindəki fərqlər və sığorta məsuliyyətinin məbləğindəki fərqlər. Bu bölgüyə uyğun olaraq iki təsnifat sistemi istifadə olunur: sığorta obyektlərinə və təhlükə növünə görə. Daha geniş və spesifik bir mənada sığortanın təsnifatı sığortaçılar və onların fəaliyyət sahələri, sığorta obyektləri, sığortalılar kateqoriyası, sığorta məsuliyyətinin məbləği və sığorta forması arasındakı fərqlərin ifadə formasıdır. Bazarda mülkiyyət formasına görə dövlət və qeyri-dövlət olaraq bölünən, icbari və könüllü sığorta şəklində sığorta risklərinin əhatə dairəsinə görə bir sığorta məhsulu satan ixtisaslaşmış sığorta təşkilatları mövcuddur. Təşkilat formasına görə sığorta dövlət, səhmdar, qarşılıqlı, kooperativ kimi fəaliyyət göstərir. Xüsusi təşkilati formalar tibbi sığorta və təkrarsığortadır.

Beləliklə, sığorta münasibətlərinin təşkili formaları sosial təkrar istehsalın davamlılığını təmin etmək və cəmiyyətin sosial sabitliyini təmin etmək üçün idarə edilməli olan risklərin xüsusiyyətlərindən və nəticələrindən irəli gəlir. Milli iqtisadiyyatda sığorta münasibətlərinin aşağıdakı formada təşkili sistemi əsaslandırıla bilər: fərdi sığorta, həyat sığortası, əmlak sığortası, yük sığortası, maliyyə riski sığortası, məsuliyyət sığortası.

İstifadə olunmuş ədəbiyyat:

1. Xudiyev N.N. “Sığorta işi; müasir kurs”. Dərslik. ADİU. Bakı-2015.
2. İbrahimov E.R. Hüseynov M.C. “Sığorta işi. Dərslik. Bakı-2017.
3. B.A.Xankişiyev.“Sığorta fəaliyyətinin əsasları”. Bakı-2006.
4. Sığorta bələdçisi. AR Maliyyə Nazirliyi. Bakı-2009.
5. https://azersigorta.az/
6. https://azre.az/
7.http://cesd.az/new/wp-content/uploads/2011/05/insurance_system_in_ Azerbaijan_in_Azeri.pdf
8.http://anl.az/el/Kitab/2018/05/cd/Azf-302894.pdf

Qəmbərov Cəbrayıl Rafael oğlu, magistrant
Bakı Biznes Universiteti
Email: cebrayil.qemberov@yahoo.com

AZƏRBAYCANIN SOSİAL İNFRASTUKTURUNDA MƏŞĞULLUQ MƏSƏLƏLƏRİ

Azərbaycan Respublikasının müstəqilliyinin ilk dövrlərində üzləşdiyi bir sıra ağır siyasi və sosial problemlər əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilərin də kəskin şəkildə pisləşməsinə səbəb olmuşdur. Belə bir şəraitdə məqsədyönlü sosial siyasətin hazırlanması və sosialyönümlü bazar iqtisadiyyatının yaradılmasına üstünlük verilməsi ölkədə aparılan sosial-iqtisadi siyasətin aktual vəzifələrdən birinə çevrilmişdir. Həmin dövrdə ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin, həmçinin iqtisadi islahatların əsas məqsədi mövcud imkanların obyektiv qiymətləndirilməsi əsasında ağır sosial sarsıntılara səbəb olan problemlərin aradan qaldırılmasını, o cümlədən inflyasiyanın alovlanmasının qarşısını almaqdan ibarət olmuşdur. Ölkədə bəyata keçirilən məqsədyönlü tədbirlər qısa bir müddətdə öz müsbət nəticəsini göstərdi. Artıq 1996-cı ildən etibarən ölkədə makroiqtisadi sabitlik bərqərar edilmiş və sonrakı illərdə dinamik inkişafa nail olunmuşdur. Azərbaycanda bərqərar olmuş iqtisadi və siyasi stabillik xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasına, özəl sektorun dinamik inkişafına və eləcə də ölkəmizin iqtisadi potensialının tam şəkildə hərəkətə gətirilməsinə əlverişli şərait yaratmışdır. Məhz, ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsində ÜDM-in artım tempi ildən ilə artmaqdadır və bu isə onu göstərir ki, Azərbaycan Respublikası sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Yeni mərhələdə sosial-iqtisadi inkişaf siyasətinin, o cümlədən iqtisadi islahatların əsas məqsədi ölkədə mövcud olan bütün resurslardan, həmçinin əmək resurslarından səmərəli istifadə etməklə, iqtisadi cəhətdən güclü və yüksək sosial standartlara malik cəmiyyətin qurulmasına nail olmaqdan ibarətdir. Ölkədə makroiqtisadi sabitliyin təmin olunması, sosial yönümlü tədbirlərin həyata keçirilməsi imkanları, xüsusilə də müasir dövrün tələblərinə cavab verən çevik və işlək mexanizmlərin yaradılmasını, məşğulluğun təmin olunmasını və əhalinin gəlirlərinin artırılmasını, cəmiyyətin bütün üzvləri üçün sosial sığortanın təmin edilməsini təmin edən tam ədalətli hüquqi, iqtisadi və sosial təminat sisteminin yaradılması imkanlarını xeyli genişləndirmişdir. Məhz bu dövrdən başlayaraq əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaranmışdır. Nəzərə almaq lazımdır ki, Azərbaycanda əhalinin sayı sabit artımla davam etməkdədir. Bütün bunlar isə onu göstərir ki, gələcəkdə də ölkə əhalisinin artım dinamikasına uyğun olaraq, həm ayrı-ayrı sosial-demoqrafik qruplar və iqtisadi rayonlar, həm də bütövlükdə ölkə üzrə əhalinin məşğulluğunun təmin edilməsi qarşıda duran ən aktual problemlərdən biri olacaqdır. Ölkədə əhalinin işsizlik səviyyəsinin yüksək olması bu istiqamətdə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini labüd edir. Bu baxımdan, Azərbaycan hökuməti tərəfindən 2006-2015-ci illəri əhatə edən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının hazırlanması və qəbul edilməsi, "2020-2025-ci illər üçün Məşğulluq strategiyasının həyata keçirilməsinə dair tədbirlər planı"nın qəbul edilməsi, "2019-2030-cu illər üçün Məşğulluq strategiyasının qəbul

edilməsi” təqdirəlayiq hal kimi qiymətləndirilir. Məşğulluq Strategiyasının əsas məqsədi ölkənin əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunu təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığun, əhalinin özünüməşğulluğun inkişafı üçün zəruri şərait yaratmaq;
- məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığını dəstəkləmək;
- işaxtaran və işsiz vətandaşların sosial müdafiəsini gücləndirmək, qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirmək;
- əmək bazarında tələb və təküf arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional infrastrukturu təkmilləşdirmək;
- kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkəsinin fəaliyyətini dinamik inkişaf etdirən əmək bazarının tələblərinə uyğunlaşdırmaq.

Qeyd etmək lazımdır ki, ölkəmizdə həyata keçirilən məşğulluq strategiyası birbirini tamamlayan iki mərhələni əhatə edəcəkdir. 2006-2010-cu illəri əhatə edən birinci mərhələdə əsas hədəf olaraq hazırda mövcud olan işsizliyin nəzərə çarpacaq dərəcədə azaldılması, işsizlərin, sosial cəhətdən həssas olan əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının təkmilləşdirilməsinə yönəldilmiş addımların atılması nəzərdə tutulur. Bununla yanaşı, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşmanı, onun rəqabət güçünün artırılması, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması daim diqqət mərkəzində olacaqdır. 2011-2015-ci illəri əhatə edən ikinci mərhələdə fəaliyyət istiqaməti, əsasən, işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını təmin edən, yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq muhitinin formalaşmasına, struktur islahatlarının dərinləşdirilməsinə, investisiya fəallığının daha da artırılmasına və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsinə yönəldiləcəkdir.

Araşdırmalar göstərir ki, cəmiyyətin sosial inkişafı,uğurlu sosial siyasətin həyata keçirilməsi ölkənin iqtisadi imkanlarından birbaşa asılıdır.İqtisadi cəhətdən gücü olmayan dövlət əhalinin hərtərəfli sosial müdafiəsini təmin və təşkil edə bilməz. Ölkənin iqtisadi qüdrətinin artması əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır. İqtisadiyyat sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün bir vasitədir. Çünki iqtisadi inkişaf olmadan, yüksək iqtisadi göstəricilərə, nailiyyətlərə malik olmadan cəmiyyətin sosial siyasətini lazımi səviyyədə həyata keçirmək, bu sahədə istənilən nailiyyəti əldə etmək mümkün deyil. İqtisadiyyatın yüksək inkişafı sosial siyasət sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmağın əsasını təşkil edir. Beləliklə, sosial siyasət iqtisadi artımı həm ləngidə, həm də stimullaşdıra bilər. Bundan əlavə əminliklə demək olar ki, sosial rifaha nail olmadan iqtisadi artıma nail olmaq mümkün deyil. Sosial siyasət özünün məqsədyönlü məzmunu, tənzimlənən sosial münasibətlərin təşkili, dövlətin fəaliyyətinin funksional əhəmiyyəti, həyata keçirilmə mexanizmi, sosial strukturların balanslaşdırılması və möhkəmləndirilməsi və s. bu kimi funksiyaları həyata keçirir. Bəşəriyyətin mütərəqqi inkişafı insanların sosial problemlərinin həllindən çox dərəcədə asılıdır. Belə ki, cəmiyyətin sosial durumu iqtisadi inkişafın nəticəsindən çox onun inkişafına təkan verən və ya ləngidən amilə çevrilmişdir. Bu bir daha göstərir ki, bu gün sosial problemlərin düzgün və səmərəli

həll edilməsi aktual olmaqla yanaşı, həm də gələcək inkişaf üçün də əhəmiyyətlidir. Keçid iqtisadiyyatını nəzərə almaqla dövlətin sosial siyasətini müəyyənləşdirən amillər aşağıdakılardır:

- əhalinin həyat səviyyəsinin təmin edilməsi və yüksəldilməsi;
- gəlirlərin əhalinin təminatında yaratdığı fərqlərin dərinləşməsinin qarşısının alınması;
- aztəminatlılıq və kasıblıqla mübarizə;
- inflyasiyanın məqbul səviyyəsinin saxlanılması;
- büdcə təminatı sosial sahələrin iqtisadi səmərəliliyinin yüksəldilməsi;
- istehlak malları və xidmətlər sahəsində milli istehsalçıların qorunması və onlara dövlət köməyi;
- istehlak malları və xidmətlər istehsalına elmi-texniki dəstək və innovasiyanın təmin edilməsi.

Qeyd etmək lazımdır ki, ailə gəlirlərindən asılı olmayaraq cəmiyyət üzvlərinə bərabər imkanların yaradılması, pulsuz təhsil, səhiyyə xidmətindən istifadə olunması, vətəndaşların hüquqlarının qorunması, əmək bazarının tənzimlənməsi, məşğulluq və işsizlik probleminin həlli və nəhayət ölkədə yoxsulluq səviyyəsinin həll edilməsi sosial yönümlü bazar iqtisadi sistemində sosial siyasətin əsasını təşkil edir. Çevik sosial siyasətin həyata keçirilməsində ən mühüm addımlardan biri də sosial siyasətin prinsiplərinin işlənilməsi və həyata keçirilməsi ola bilər. Bunlara ölkənin səhiyyə sisteminin möhkəmləndirilməsi, təhsilin səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin edilməsi və s. aiddir. Qeyd etmək lazımdır ki, məşğulluq problemi ümumi məşğulluq siyasətinin tərkib hissəsidir və bazar iqtisadiyyatı şəraitində əmək sferasında yaranan disbalansların həlli ilə əlaqədar olaraq xüsusi məsələləri həll etməyə yönəldilmişdir. Onun əsas məqsədi işsizliyin sosial-iqtisadi xərclərinin minimuma endirilməsi və iş qüvvəsinin çevikliyinin və rəqabətə davamlılığının yüksəldilməsidir.

Çəmənli Pərviz Ənvər oğlu, magistrant,
Qərbi Kaspi Universiteti
Email: cemenliperviz@gmail.com

”FORMULA 1” YARIŞLARININ ÖLKƏ İQTİSADİYYATINA MÜSBƏT TƏSİRİ

Qlobal miqyasda çoxlu sayda iştirakçı və izləyiciyə sahib, böyük investisiyalar tələb edən beynəlxalq idman yarışlarının populyarlığının əsas səbəbi kimi onun ev sahibi ölkələrə verdiyi faydalardır. Kütləvi idman yarışlarının təşkil olunduğu ölkələrə və ya regionlara bu yarışların iqtisadi, sosial, texnoloji və ekoloji kimi bir çox müsbət və mənfi təsirləri özünü göstərməkdədir. Təşkil olunan idman yarışlarına gələn aktiv və passiv turistlər özləri ilə bərabər pul vəsaiti, fərqli mədəniyyətlər və yeniliklər gətirərkən, ev sahibi ölkədən də keyfiyyətli qidalanma, qonaqlama və əyləncə xidmətləri gözləməkdədir. Kütləvi idman yarışlarının formalaşdırdığı xidmətlərdə müxtəlif iş imkanlarının ortaya çıxması yerli əhali üçün müsbət amildir. Yarışların insanların sosial həyatına, ətraf mühitə vurmuş olduğu zərərləri əsas gətirən bir qism yerli əhali

isə bu kimi tədbirlərin əleyhinədir. Ümumilikdə, bütün mənfi amillərlə müsbət amilləri qarşılaşdırsaq, kütləvi idman yarışlarının ev sahibi olan ölkəyə verdiyi xeyir daha çoxdur [3, səh 110].

Sosial həyatın gərginliyindən qurtarmaq və şəxsi sağlamlığı qorumaq üçün idman insanların həyatında əhəmiyyətlidir. İnsanlar həm idman etməklə, həm də idman tədbirlərini izləməklə sosial həyatlarına məna qatmaq istəyirlər. Kütləvi idman tədbirlərinə qatılaraq insanlar bu istiqamətdə ölkələrə iqtisadi qazanc bəxş edirlər. İqtisadi qloballaşma təcrübələrinin idman iqtisadiyyatı ilə əlaqəli bütün bazarlara yayılması ilə kütləvi idman tədbirləri xüsusi qlobal anlam qazanmağa başlamışdır [1, səh 84].

2014-cü ildə dünyada ümumi həcmi 1,2 trilyon dollara çatan turizm sektorundakı idman sənayesinin payı 180 milyard dollar civarında olmuşdur. Son 10 ildə dünyada 100 milyona yaxın insan "Olimpiya Oyunları və "Futbol Mundial"ları kimi böyük idman tədbirlərinə getmiş və bu tədbirləri yerində izləmişdir. Bunlardan 13 milyonu idman tədbirlərini izləmək üçün xaricə səyahət edənlərdir. Kütləvi idman yarışlarını izləmək üçün xaricə gedənlər bu ölkələrdə 10 milyarddan çox dollar pul xərcləmişlər.

Kütləvi idman növlərindən biri də "Formula 1" yarışlarıdır. "Formula 1" dünyaca məşhur, nüfuzlu avtomobil idman yarışıdır. Yarışlar ayrı-ayrı mərhələlərdən (Qran-Pri) ibarət olmaqla, hər il keçirilməkdədir. Bu yarışlarda həm komandalar, həm də sürücülər mübarizə aparırlar. Komandalar "Mühəndislər Kuboku", sürücülər isə "Dünya Çempionu" mükafatı uğrunda yarışırlar. İlk yarışlar 1950-ci ildə Böyük Britaniyada keçirilmişdir. Hazırda yarışlar Melburnda (Avstraliya), Saxirdə (Bəhreyn), Şanxayda (Çin), Barselonada (İspaniya), Monakoda (Monako), Bakıda (Azərbaycan), Monrealda (Kanada), Le Kastelletdə (Fransa), Spielberqdə (Avstriya), Silverstonda (Birləşmiş Krallıq), Budapeştdə (Macarıstan), Spada (Belçika), Zandvoortda (Niderland), Monzada (İtaliya), Soçidə (Rusiya), Sinqapurda (Sinqapur), Suzukada (Yaponiya), Austində (ABŞ), Mexikoda (Meksika), Sao Pauloda (Braziliya), Ciddədə (Səudiyyə Ərəbistanı) və Əbu-Dabidə (BƏƏ) keçirilməkdədir.

"Formula 1" ən populyar avtomobil idmanı yarışı olmaqla bərabər, "FIFA Dünya Kuboku" və "Yay Olimpiya Oyunları"ndan sonra dünyanın ən çox izlənilən idman yarışıdır. İl ərzində beş qitədə 19-20 yarışın keçirildiyi idman tədbirini televiziya kanallarından ortalama 1 milyard insan izləyir. 2008-ci ildə 132 ölkədə yarışlarla bağlı ümumilikdə təxminən 30.000 saatlıq televiziya yayımı edilmişdir. Bundan əlavə gündəlik media kanallarında yarışlar və idmançılar haqqında məqalələr yazılmaqdadır. "Formula 1" idman, sənaye və əyləncə olmaqla yanaşı, ev sahibi ölkələri üçün böyük bir tanıtım fürsətidir. Müasir dövrümüzdə "Formula 1" ildə təxminən 5 milyard dollar xərclənən bir sahəyə çevrilmişdir. Bu baxımdan "Formula 1" artıq bir idman yarışından daha artığını ifadə edir. "F1" yarışlarının keçirildiyi şəhərlərə böyük bir iqtisadi töhfəsi də vardır. Araşdırmalara görə, yerli müəssisələrdə yarış dövründə artan tələbat səbəbindən əlavə məşğulluq imkanları yaranır. Mövsümi əmək tələbatı formalaşaraq ümumi iqtisadi fəaliyyət əhəmiyyətli dərəcədə artır.

Ümumiləşdirməli olsaq, "Formula 1" kimi kütləvi idman tədbirlərinin əsas faydaları aşağıdakılardan ibarətdir:

- turizm sənayesinə olan yatırımların miqdarını artırır;
- mehmanxanalari, restoranları və pərakəndə satış sektorunu hərəkətləndirərək

ölkədə iqtisadi böyüməyə səbəb olur;

– yarışların keçirildiyi ölkə və şəhərlərin qlobal miqyasda müsbət imiclərinin formalaşmasında mühümdür;

– yeni turizm məhsulları və turizm destinasiyalarının formalaşmasını təmin edə bilir;

– sosial münasibətlər yaradaraq sosial dəstəyi gücləndirir;

– gənclər üçün yeni fürsətlər və əyləncə imkanları yarada bilir;

– destinasiyaya təkrar turist ziyarətlərini artırır;

– yeni infrastruktur imkanlarını dəstəkləyir və inkişaf etdirir;

– turizmin böyümə sürətinə təsir göstərir;

– cəmiyyətin təşkilati və satış bacarıqlarının inkişafına kömək edir;

– idmana yönələn sosial dəstəyi artırır [2, səh 114].

"Formula1"in turizmə faydalılığını İstanbul nümunəsində daha aydın görə bilərik. 2000-2004-cü illər arasında İstanbula ildə 2,5 milyon turist gəlmiş və bu rəqəm 2005-2008-ci illər dövründə 6 milyona yüksəlmişdir. Təbii ki, bu artımı yalnız "Formula 1" ilə əlaqələndirmək düzgün olmazdı. Ancaq yarış müddətində turizmlə əlaqəli xidmətlərdə baş qaldıran canlanma yarışların turizmə çox böyük təsir etdiyinin göstəricisidir.

Sevindirici haldır ki, Azərbaycan da "F1"-dən ən çox faydalanan ölkələrdən biridir. "PriceWaterhouseCoopers" tərəfindən nəşr olunan bir araşdırma hesabatında, 2016-cı ildən Azərbaycanda təşkil olunmağa başlayan "Formula 1" yarışlarının son dörd ildə ölkə iqtisadiyyatına 506,3 milyon dollar xeyir verdiyi bildirilir. Bununla yanaşı, ölkəmizin tanıtımı və bunun fonunda turist sayının artması kütləvi idman tədbirlərinin turizmə töhfəsinin bariz nümunəsidir.

Məlum olmuşdur ki, ölkəyə gələn turist sayının artımı məhz 2016-cı ildə Bakıda keçirilən ilk yarışdan sonra başlamışdır. Birinci yarışdan sonrakı ildə gələn turistlərin sayı 24%, ikinci yarışdan sonra isə 26% artmışdır. "F1" yarışları Azərbaycana çoxlu dividendlərin gətirilməsində, ölkənin tanınmasında və maliyyə gəlirlərinin artmasında mühüm əhəmiyyət kəsb etməkdədir.

"PwC" audit şirkətinin tədqiqatına əsasən, 2016-cı və 2017-ci il yarışlarından Azərbaycan iqtisadiyyatı ümumilikdə 277,3 milyon dollar gəlir qazanıb. Hesabat yarışları ərəfəsində Bakıya gələn qonaqların xərclərinə əsasən yaranan dolayı və birbaşa gəlirlər əsasında hazırlanmışdır. Bu rəqəm iqtisadiyyatın fərqli sahələrindən, o cümlədən hotel və mehmanxanalar, nəqliyyat xidmətləri, restoran və kafelər, sosial və mədəni xidmətlər, poçt və telekommunikasiya, kənd təsərrüfatı, topdan ticarət, su, elektrik, qaz və başqa sektorlardan əldə edilmiş gəlirlər əsasında formalaşmışdır.

Ümumilikdə, "F1"-in birbaşa gəlirləri 164,2 milyon olmuşdur ki, bunun da 22,7 milyon dollarlıq hissəsi turizm sektorunun payına düşmüşdür. 113,1 milyon dollara çatan ümumi dolayı gəlirlərin 14,9 milyon dollarını turizm qazandırıb ki, digər sektorlardan heç biri turizm qədər gəlir əldə edə bilməmişdir [5].

2019-cu il "F1" yarışları kommersiya baxımından digər illərlə müqayisədə daha sərfəli olmuşdur. Keçən illərlə müqayisədə sponsorlardan əldə edilmiş vəsaitin ümumi məbləği 50% civarında artmışdır. Həmin ildə yarışın müxtəlif sessiyaları və həftəsonu axşam konsertlərini dünya üzrə 74 ölkədən təxminən 85 min tamaşaçı izləmişdir. Bu ölkələrdən Gürcüstan, Niderland, Avstriya, Böyük Britaniya və Rusiya xüsusən fərq-

lənmişdir. Tribuna biletlərinin hamısı çox qısa müddət içində satılmışdır [4].

"Formula 1" Azərbaycanın qlobal miqyasda tanıdılması işində çox mühümdür. 2019-cu ildə Bakıdakı yarışı dünya üzrə 90 milyon nəfərin izləməsi, "Formula 1" yarışlarının bu istiqamətdəki əhəmiyyətinin göstəricisidir. Dünya üzrə Bakıda keçirilmiş yarışlar barədə 37 mindən artıq xəbər dərc olunmuşdur ki, bu məlumatların mediada olan dəyəri 131 milyon dollarla ölçülür.

"Formula 1" in rəsmi "Twitter" səhifəsinin 2018-ci illə bağlı keçirdiyi sorğu nəticəsində izləyicilər "Bakı treki" ni birinci edib. Bundan əlavə müxtəlif illərdə "ViaSat", "Bild", "The Times", "Sky Sports", "Daily Mail" nəşrləri Paddok klubunun təmsilçiləri, media nümayəndələri və avtoidman azarkeşləri arasında apardıqları sorğular ilə Bakıdakı yarış ən maraqlı yarış seçilib. "Washington Times" Azərbaycana səyahət etmək üçün "Formula 1"i beş əsas səbəblərdən biri kimi göstərmişdir. "Forbes" isə "Formula 1" və Bakını ideal cütlük olaraq qələmə vermişdir. "Bakı treki"ni cəlbedici edən amillərdən biri də onun qəzalarla bol olmasıdır. 2018-ci il yarışında Luis Hemiltonla Sebastyan Fettel arasında olan insident, Maks Ferstappenlə Daniel Rikkardonun toqquşması və başqa məqamlar sosial mediada geniş müzakirə olunmuş və günü bu gün də xatırlanmaqdadır. Bu isə "Formula 1"ə marağı olmayan şəxslərin də "Bakı treki"ni izləmələrinə onları vadar edir. Həmçinin, "Formula 1" çərçivəsində Tarkan, Kristina Agilera, Dua Lipa, Meraya Keri, Nikol Şerzinger kimi ulduzların konsert çıxışları qlobal miqyasda Bakının tanınmasına səbəb olur.

"Formula 1" yarışlarının iqtisadi faydalılığından əlavə müsbət sosial təsirləri də vardır. "Azərbaycan Qran-prisi" üzrə yarış təşkilatçıları sosial məsuliyyət çərçivəsində bir sıra proqramlar işləyib icra edirlər. Məsələn, "Sülh naminə yarış" şüarı ilə məcburi köçkün uşaqları üçün əyləncə zonalarına və yarış öncəsi pit yoluna gəzintilər təşkil edilmişdir. Bundan əlavə ekologiyaya töhfə verilməsi məqsədilə "Yaşıl strategiya" çərçivəsində toplanmış tullantılar çeşidlənmiş və Bakı Autizm Mərkəzinə göndərilmişdir. Tullantılardan əldə edilən vəsait autizmli şəxslərin reabilitasiyasına yönəldilmişdir. 2019-cu il yarışında 13 min işçi qüvvəsinin müxtəlif təşkilatçılıq işlərinə cəlb edilməsi bu yarışların yerli insanların sosial rifahında necə əhəmiyyətli olmasını göstərir.

2020-ci il "Azərbaycan Qran-prisi" koronavirus pandemiyası ilə əlaqəli baş tutmamışdır. 2021-ci il yarışı isə 4-6 iyun tarixlərində keçiriləcəkdir. Şübhəsizdir ki, bu və bundan sonrakı yarışlarda da "Formula 1" Azərbaycan iqtisadiyyatının inkişafına kömək edəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Getz D. "Event Tourism: Definition, Evolution, and Research". Tourism Management. 2008.

2. Kurtzman J., Zauhar J. Virtual Sport Tourism, Hudson, S. (Ed.). Sport and Adventure Tourism, Haworth Press, Binghamton: 2001.

3. Mules R., Faulkner B. "An Economic Perspective on Special Events". Tourism Economics. 1996.

4. https://iqtisadiislahat.org/ - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəsmi vebsaytı.

5. https://www.pwc.com/ - PriceWaterhouseCoopers" in rəsmi vebsaytı.

Sədrəddinova Günay Kamran qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: gunaysadraddinova@mail.ru

MALİYYƏ ALƏTLƏRİNİN BEYNƏLXALQ STANDARTLARDA YERİ VƏ TƏHLİLİ

Ölkəmizdə iqtisadi inkişafın müasir dövründə müəssisə və təşkilatların idarə edilməsində mühasibat uçotu və maliyyə hesabatının rolu get-gedə artmaqdadır. Mühasibat uçotu və maliyyə hesabatı sahəsində beynəlxalq standartların ölkəmizdə tətbiq olunması və onların əsasında Azərbaycan iqtisadiyyatının özəlliklərinə uyğunlaşdırılmış milli standartların yaradılması ölkə iqtisadiyyatının dünyanın inkişaf etmiş iqtisadi qurumlarına müvəffəqiyyətlə və əlverişli şəkildə inteqrasiyasına və yüksələn templə inkişaf etdirilməsinə hesablanmışdır. Bununla əlaqədar olaraq, son onillikdə mühasibat uçotu və maliyyə hesabatının bir çox məsələlərində ciddi dəyişikliklər meydana gəlmişdir. Demək olar ki, mühasibat uçotu və maliyyə hesabatı nəzəri və praktiki cəhətdən dəyişikliyə uğramış və müasir bazar iqtisadiyyatının tələblərinə tamamilə uyğun olan yeni iqtisadi əsaslar üzərində formalaşdırılmışdır. Maliyyə hesabatı müəssisənin mühasibat uçotu prosesinin son məhsulu və uçot informasiyalarının işlənməsinin son mərhələsidir. Maliyyə hesabatında müəssisənin kənar istifadəçilər üçün təqdim etdiyi standart informasiyalar əks olunur. Ona görə də mühasibat uçotunun tələbələrə öyrədilməsi prosesində maliyyə hesabatı özünəməxsus şəkildə mühüm yer tutur.

7 №-li Maliyyə Hesabatının Beynəlxalq Standartının məqsədi, maliyyə hesabatlarının istifadəçilərinə maliyyə alətlərinin hesabat dövrü ərzində, eyni zamanda hesabat dövrünün sonunda müəssisənin məruz qaldığı maliyyə alətləri ilə əlaqədar yaranan risklərin xarakteri və dərəcəsini, həmçinin, müəssisənin həmin riskləri necə idarə etməsini fəaliyyət nəticələri baxımından əhəmiyyətliliyini qiymətləndirməkdə yardım edəcək təqdimatların edilməsini müvafiq müəssisələrdən tələb etməkdir. Standartda göstərilir ki, müəssisə, maliyyə hesabatlarının istifadəçilərinə maliyyə alətlərinin müəssisənin maliyyə vəziyyəti və fəaliyyət nəticələri baxımından əhəmiyyətliliyini qiymətləndirməkdə yardım edəcək məlumatları açıqlamalıdır. Lakin, nəzərdən keçirdiyimiz standartda bəzi istisnalar da yer alır. Belə ki, standartın aşağıda sadalayacaqlarımızdan başqa, bütün müəssisələr tərəfindən maliyyə alətlərinin ayrı-ayrı növlərinə tətbiq edilməsi zəruri hesab edilir:

1. Birləşdirilmiş, yəni konsolidə edilmiş maliyyə hesabatları" adlı 10 №-li, "Fərdi maliyyə hesabatları" adlı 27 №-li, "Asılı və birgə müəssisələrə investisiyaların uçotu" adlı 28 №-li standartlara əsasən uçota alınan törəmə və asılı müəssisələrdəki və birgə fəaliyyətlərdəki iştirak payları mövcuddur. Müəssisələr bu standartı həmçinin, törəmə və asılı müəssisələrdəki, eyni zamanda birgə fəaliyyətlərdəki iştirak payları üzrə bütün törəmə alətləri üzrə tətbiq etməlidirlər. 2-ci istisna "İşçilərin mükafatlandırılması" adlı 19 №-li MUBS-un tətbiq olunduğu işçilərin mükafatlandırılması planları üzrə işəgötürənin hüquqları və öhdəlikləridir. Növbəti, yəni 3-cü istisna "Sığorta müqavilələri" adlı 4 №-li MHBS-da müəyyən olunan sığorta müqavilələridir. Lakin bu Standart, 9 №-li MHBS müəssisənin bu alətləri ayrıca uçota almasını tələb etdiyi təqdirdə, sığorta müqavilələrinə daxil olmuş törəmə alətlərə tətbiq olunur.

Bu Standartda göstərilən prinsiplər "Maliyyə alətləri: Təqdimat" adlı 32 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı və "Maliyyə alətləri" adlı 9 №-li Maliyyə

Hesabatlarının Beynəlxalq Standartında göstərilən maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin tanınması, qiymətləndirilməsi və təqdimatı üzrə prinsiplərini tam şəkildə tamamlayır. Həmçinin, emitent maliyyə təminatı müqavilələrinin tanınması və qiymətləndirilməsi üçün 9 №-li MHBS-u tətbiq etdiyi halda, həmin müqavilələrə bu standartı, 4 №-li MHBS-nın 4-cü maddəsinin müvafiq bəndində göstərildiyi kimi 4 №-li MHBS-nı tətbiq etdiyi halda isə həmin standartı tətbiq etməlidir.

Tədqiq etdiyimiz Standart tanınmış və tanınmamış maliyyə alətlərinə tətbiq olunur. Tanınmış maliyyə alətlərinə 9 №-li MHBS-in tətbiqi sahəsində olan maliyyə aktivləri və maliyyə öhdəlikləri aiddir. Tanınmamış maliyyə alətlərinə isə, 9 №-li MHBS-in tətbiqi sahəsindən kənarda olsalar da, bu standartın tətbiqi sahəsində olan bəzi maliyyə alətləri daxildir. Bu standart 9 №-li MHBS-in tətbiqi sahəsində olan qeyri-maliyyə maddələrinin alışı və ya satışı üzrə müqavilələrə tətbiq olunur.

Müəssisə, maliyyə hesabatlarının istifadəçilərinə hesabat tarixinin sonuna müəssisənin məruz qaldığı maliyyə alətləri ilə əlaqədar yaranan risklərin xarakteri və dərəcəsini qiymətləndirməkdə yardım edəcək məlumatları açıqlamalıdır. Maliyyə alətləri ilə əlaqədar yaranan risklər və müəssisənin həmin riskləri necə idarə etməsinə yönəlmişdir. Bununla bağlı ətraflı açıqlamalar maliyyə alətlərinin rolu üzrə nəzərdən keçirdiyimiz standartın tələblərində özünü göstərir. Həmin risklər adətən kredit riskini, likvidlik riskini, bazar riskini daxil edir və yalnız bunlarla məhdudlaşmır. Kəmiyyət açıqlamaları kontekstində keyfiyyət açıqlamalarını təqdim etmək istifadəçilərə aidiyyəti açıqlamaları əlaqələndirmək, həmçinin, xarakterin ümumi mənzərəsini və maliyyə alətlərindən irəli gələn risklərin dərəcəsini yaratmaq imkanı verir. Belə ki, kəmiyyət və keyfiyyət açıqlamaları arasında qarşılıqlı əlaqə istifadəçiyə müəssisənin riskə məruz qalmasını qiymətləndirmək üçün daha yaxşı imkan yaradan məlumatın açıqlanmasına şərait yaradır.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gələ bilərik ki, maliyyə alətləri ilə bağlı olan "Maliyyə alətləri: Məlumatın açıqlanması" adlı 7 №-li Maliyyə Hesabatının Beynəlxalq Standartının tətbiqində xüsusi istisnalar var və bu istisnalara beynəlxalq standartların maddələri üzrə diqqət etmək lazımdır. Eyni zamanda müəssisə hesabat təqdim edərkən qarşısına qoyulan maddələr üzrə hazırlamalı və əsas (kafi) məlumatları təqdim etməlidir. Eyni zamanda maliyyə alətləri üzrə risklərin qiymətləndirilməsi və həmin risklərin idarəsi də standart maddələrinə uyğun şəkildə aparılır. Aydın məsələdir ki, risklərin qiymətləndirilməsinin asanlaşması da kəmiyyət və keyfiyyət açıqlamaları arasındakı əlaqə ilə bağlıdır. Nəticə etibarı ilə belə xülasəyə gələ bilərik ki, maliyyə alətlərinin maliyyə hesabatlarında düzgün göstərilməsi və risklərin düzgün qiymətləndirilməsi, təhlilini apardığımız maliyyə alətlərinin beynəlxalq standartlardakı yerini ifadə edir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://www.muhasib.az/ifrs.php?n=1044
2. A.Bağırov, M.X.Həsənli "Maliyyə" ,dərs vəsaiti, Bakı, 2011.
3. N.R.Quliyev. "Beynəlxalq maliyyə kredit və valyuta münasibətləri", Bakı, 2010.
4. A.M.Aslanov. Maliyyə və bank statistikası. Bakı, 2002.
5. D.Vəliyev. Beynəlxalq Maliyyə. Bakı, 2000.

Ədilzadə Türkay Rövşən qızı, magistrant
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Email: edilzadeturkay641@gmail.com

VB -nın SAXLANILAN PROSEDURALARININ FUNKSİYALARI VƏ SQL/PSM STANDARTI

Saxlanılan prosedura (stored procedure) – VB-də yerləşən proseduraların xüsusi növüdür. Belə proseduralar hər bir VBİS üçün spesifik olan prosedur dilində yazılmalıdır. Yerinə yetirilən zaman saxlanılan proseduralar VB-də olan məlumatları oxumağa və ya dəyişməyə imkan verir. Bu proseduralar bir-birinə müraciət edə, həmçinin müştəri əlavələrindən çağırıla bilərlər. Saxlanılan proseduralar adətən ümumi məsələlərin həlli üçün istifadə olunurlar. Onlar parametrləri, səhvlərin kodlarını, sətir və sütunların çoxluqlarını qaytara bilərlər. Bəzi spesifik məsələlərin həlli zamanı system prosedur yığımı da tətbiq oluna bilər. Məsələn, SQL Serverdə adları SP_ və XP_ ilə başlayan belə qorunan prosedur yığımları var**.**

Seçmənin tipik (tez-tez təkrarlanan) məsələlərinin həlli üçün və ya verilənlərin yenilənməsi üçün, həmçinin verilənlərə girişin idarə edilməsinin əksər hissəsində və verilənlərin tamlığının təmin olunmasında proseduralardan istifadə məqsədəuyğundur. Digər üstünlük isə administrasiya sahəsində ondan ibarətdir ki, istifadəçiyə xüsusi olaraq prosedura istifadə olunan cədvəl və göstərişlərə giriş hüququ təyin etmək lazım deyil, yalnız proseduranın yerinə yetirilməsinə icazəni təyin etmək lazımdır.

Saxlanılan proseduraların tətbiqi məhsuldarlığı artırır, məsələn, onda if və while şərt opera-torlarını istifadə etdikdə şərt bilavasitə serverdə yerinə yetirildiyindən, serverə şərtin yoxlanmasının aralıq nəticələrini müştəri proqramlara qaytarmaq tələb olunmur.

Saxlanılan proseduralar həmçinin məsələnin mərkəzləşmiş nəzarətini həyata keçirməyə imkan verir, bu da biznes-qaydaların gözlənməsinə zəmanət verir. Müxtəlif VBİS-lərdə onlar qorunan (stored), qoşulmuş, bölünmüş və s. kimi adlandırılır və aşağıdakı məqsədlə istifadə olunurlar:

- VB-nin administratoru tərəfindən həyata keçirilən verilənlərə girişə mərkəzləşmiş nəzarət;
- Sistemin hesablama resurslarına qənaət (bir prosedura bir neçə tətbiqi proqramda istifadə oluna bilər, bu da onların ümumi hissəsini VB-nin proseduru şəklində yazmaqla proqramın yazılma vaxtını azaldır);
- Administratora VB-nin tamlığını saxlamaq üçün güclü vasitə vermək;
- Müştəri-server arxitekturalı sistemlərdə şəbəkənin trafikini kifayət dərəcədə aşağı salmaq.

Qeyd edək ki, proseduranı çağıran tətbiqi proqram serverə yalnız onun adını və parametr-ləri ötürür (şəkil 1).

Relyasiyalı VB hal-hazırda praktik olaraq bütün əlavələrdə, mobil telefonlardan,Web-əlavələrdən başlayaraq, müəssisələrin idarəetmə sistemlərinə qədər tətbiq olunur. VB-nin bütün növ əlavələrə daxil olması artan templə gedir, istifadəçilər də istifadə zamanı daha rahat alətlər və yanaşmalar əldə edirlər.

VB-nin tətbiqlərinin işlənməsi prosesini ləngidən ən vacib problem tətbiqin

kodunun və VB-də SQL kodun işlənməsi üçün müxtəlif vasitələrin istifadəsinin zəruriliyidir. Məsələn, tutaq ki, Delphi platformasında tətbiq emal olunur, hansı ki, Oracle VBİS-də saxlanan prosedura çağırır. Delphi mühitindən istifadə etməklə, əlavənin yaradıcısı sazlanma rejimində addım-addım SQL sorğunun çağırılması anına qədər gələ bilər və saxlanan prosedurada onun qaytardığı ötürülən parametrləri və nəticəni görə bilər.

a)

b)



Şəkil 1. Saxlanılan proseduraların istifadəsi.

a) Proseduralar istifadə olunmur, b) tətbiqi proqram fraqmentinin VB- nin proseduru şəklində ayrılması

VB -nin serverində yerinə yetirilən zaman proseduranın daxilində nə baş verir? Əlavənin işlənməsi mühitindən bunu təyin etmək mümkün deyil, bunun üçün qorunan proseduraların sazlanması imkanına malik olan SQL-in işlənməsi üçün əlavələr yükləmək lazımdır.

Saxlanılan proseduraların dili olaraq Amerika Milli Standartlar İnstitutu (ANSİ) 1996-cı ildə SQL/PSM dilini qəbul etdi. Saxlanılan proseduraların sazlanması üçün VB-nin ilk yaradıcılarından tutmuş kənar istehsalçılara qədər çoxlu sayda proqram məhsulu lazımdır. Bu vasitələrin əsas xüsusiyyəti onun konkret VBİS-ə istiqamətlən-

məsidir.

Saxlanılan proseduraların texnologiyasının inkişafı əhəmiyyətli dərəcədə VBİS bazarındakı rəqabətlə bağlıdır.İlk dəfə olaraq qorunan proseduralar və triggerlər Sybase SQL Server VBİS-də meydana gəldi və 90-cı illərin ortalarına qədər bir çox müəssisələrin sistemlərində xüsusən SQL prosedur genişlənmələri əlavə olundu.

SQL/ PSM standartı ilə təyin olunan qorunan proseduraların imkanları müasir VBIS-lərdə olanlara oxşardır. Procedure SQL- qiymət qaytarmayan altproqramdır və CALL ADD_CUST kimi cağrılır. SQL funksiyası qiymət qaytaran altproqramdır,o da SQL prosedurası kimi çağrılır. SQL altproqramı VB-nin tərkibinə daxil olan obyektlər olur. Əksər aparıcı VBİS-lərə əsaslana-raq SQL/ PSM standartı təyin edilir ki, qorunan prosedura və funksiyalar CREATE ROCEDURE və CREATE FUNCTION instruksi-yalarının köməyilə yaradılır:

```
CREATE ROCEDURE <namer> (<parameter list>)
    <optional local declarations>
    <body> ;
CREATE FUNCTION <namer> (<parameter list>)
RETURNS <type>
    <optional local declarations>
    <body> ;
```

Qeyd edək ki, standart həmçinin xarici qorunan proseduraların elanını da mümkün edir.

İstifadə olunmuş ədəbiyyat:

1.Bell C.A. Expert MySQL.-Apress.2007.-598 c.

2. ISO/IEC 9075-4:1996, Information Technology - Database Language - SQL - Part 4: Persistent Stored Modules.

Gülməmmədov Xəlil Hidayət oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: xelil.gulmammadov@mail.ru

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİNDƏ İQTİSADİ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Keçid iqtisadiyyatı xüsusiyyətlərinə görə dörd qrupa bölünür. Bunlar Orta və Şərqi Avropa (MDA) ölkələri, Baltikyanı Respublikalar, Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri və Asiyadakı keçid iqtisadiyyatıdır. Keçid dövrünün ilk illərində MDB ölkələrində artım nisbətləri keçid iqtisadiyyatı ilə müqayisədə çox aşağıdır.

Dünya Bankının hesablamalarına görə, keçid dövrünün əvvəlində MDB-nin keçid iqtisadiyyatında ÜDM-də davamlı azalma dövrü orta hesabla 6,5 il, istehsalın məcmu azalması isə orta hesabla 50% olmuşdur. 2008-ci ildən sonra MDB ölkələrində artım tempi digər keçid iqtisadiyyatları ilə müqayisədə daha yüksəkdir. Bu tədqiqatın

məqsədi MDB-nin keçid iqtisadiyyatı ölkələrinin panel məlumat dəstindən istifadə edərək, bazar iqtisadiyyatı, bu ölkələrin beynəlxalq cəmiyyətə iqtisadi inteqrasiyası və demokratikləşmə səyləri üçün struktur çevriliş islahatlarının təsirini yoxlamaqdır. MDB-nin keçid iqtisadiyyatında fəal iştirakçıları Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan və Ukraynadır.

İqtisadi artımın müəyyənediciləri. Ölkələrin uzunmüddətli inkişaf nisbətlərindəki fərqlər iqtisadi inkişafın determinantları ilə izah olunur. İnkişafın determinantları beş qrupda izah edilə bilər. Bu amillərə nəzər yetirmək məqsədyönlü olardı.

A. İqtisadi amillər. Makroiqtisadi sabitlik, kapital yığımı, xarici ticarət inkişafı və struktur çevriliş islahatları inkişafın iqtisadi determinantları adı altında toplana bilər. İqtisadi xüsusiyyətləri olan bu determinantlar müvafiq olaraq aşağıdakı kimi izah olunur.

Büdcə kəsiri, inflyasiya və pul təklifi kimi dəyişənlər inkişaf analizlərində istifadə olunan makroiqtisadi sabitlik göstəriciləridir. Dövlət xərclərinin inkişafa birbaşa və özəl sektorun investisiyalarına dolayı təsirləri vardır. Dövlət gəlirləri ümumiyyətlə vergilərin mənbəyidir.

Dövlət xərclərini ödəmək üçün özəl sektor vergilərinin artırılması özəl sektor investisiyalarına da mənfi təsir göstərir. İstisna olaraq da bilinən bu vəziyyət, iqtisadiyyatda səmərəliliyin itirilməsinə səbəb olur və inkişafa mənfi təsir göstərir [2, 28 s.]. Büdcə kəsirinin emissiyalar hesabına ödənilməsi qiymətlərin ümumi səviyyəsinin artmasına səbəb olur. İnflyasiya mühiti özəl sektorun məhsuldar investisiyalarına və ya fiziki kapital yığımının artmasına və bununla da iqtisadi inkişafa mənfi təsir göstərir.

• ***Kapitalın yığılması və investisiyalar.***İstənilən iqtisadiyyatda müəyyən bir dövrdə qazanılan milli gəlirin bir hissəsi saxlanılır. Təkcə yüksək qənaət nisbəti iqtisadi inkişaf üçün kifayət deyil. Edilən qənaət məhsuldar investisiyalara çevrilmə-lidir. Yeni investisiyalar istehsalata maşın və avadanlıq əlavə etmək və ya yeni bir fabrik qurmaq şəklində fiziki kapital yığımında bir artım deməkdir [1, 67 s.]. Yeni investisiyalar iqtisadiyyatda istehsal gücünün və istehsal səviyyəsinin artmasına səbəb olur.

• ***Beynəlxalq Ticarət, Açıqlıq və Xarici Borc.*** İqtisadi nəzəriyyəyə görə beynəlxalq ticarət ölkələrin müqayisəli üstünlüklərindən faydalanmasına səbəb olur. Bundan əlavə, xarici ticarət sərbəst olduqda, müəssisələrin həyatda qalması xarici şirkətlərlə rəqabət etmələrini tələb edir. Artan rəqabət iqtisadiyyatda səmərəliliyin və məhsuldarlığın artmasına səbəb olur.

Eyni zamanda, ölkələr arasında ticarət azadlığı texnologiya ötürülməsini və istehsal məlumatlarının yayılmasını asanlaşdırır [3, 44 s.]. Bu səbəbdən xarici ticarət həcmindəki artımın və ya ölkələrin açıqlığının iqtisadi inkişafa müsbət təsir edəcəyi gözlənilir. Xarici ticarət kəsirindəki artımın və ya açıqlıq nisbətinin artım təsiri müsbət və ya mənfi ola bilər.

Xarici ticarət kəsiri texnoloji və ya investisiya mallarının idxalından qaynaqlandıqda, inkişafa mənfi təsir göstərə bilməz. İstehsalın artmasına nail olmaq üçün borc almaqla təmin olunan mənbələri məhsuldar investisiyalara çevirmək lazımdır. Bu səbəbdən xarici borclanmanın iqtisadi inkişafa təsiri müsbət ola bilər [4]. Bundan əlavə, verilən xarici mənbələr xarici borcun miqdarını artıracaqdır. Bu da öz növbəsində qarşıdakı dövrlərdə iqtisadi artıma mənfi təsir göstərəcəkdir.

• ***Struktur transformasiya islahatları.*** Struktur transformasiya islahatları, xüsusən keçid iqtisadiyyatları ilə bağlı empirik tədqiqatlarda iqtisadi inkişafın ən vacib şərtlərindən biri kimi istifadə edilmişdir. Səmərəsiz dövlət müəssisələrinin özəlləşdirilməsi, qiymətlərin sərbəstləşdirilməsi, xarici ticarət və valyuta rejiminin liberallaşdırılması, rəqabət siyasəti, bank islahatı və faiz dərəcələrinin liberallaşdırılması struktur çevriliş islahatlarına bir növ nümunədir.

B. Demoqrafik amillər (əhali). Əhali dəyişikliyi səbəbindən aktiv işçi qüvvəsindəki dəyişiklik iqtisadi inkişafın əsas amillərindən biridir. Əhalinin savadlı, sağlam olması və sənayenin tələb etdiyi texniki bilik və bacarıqlara sahib olması da istehsalın səmərəliliyini artıran amildir [3, 78 s.]. Buna görə də iqtisadi artıma nail olmaq üçün əhalinin artım sürətindən əlavə təhsil səviyyəsi, səhiyyə və sosial standartlar da mühüm rol oynayır.

C. Texnoloji inkişaf.

İqtisadi inkişafa nail olmaq üçün kapital yığımının artmasına və ya yeni investisiyalara ehtiyac olduğu aydındır. Bu şəkildə istehsal artımı iqtisadiyyatın istehsal gücünün artırılması və ya istehsalın səmərəliliyinin və ya məhsuldarlığının artırılması yolu ilə əldə edilə bilər. İstehsalda səmərəliliyin artırılması texnoloji inkişaf deməkdir.

D. Təbii sərvətlər, coğrafiya və iqlim. Təbii ehtiyatların zənginliyi, ölkənin coğrafiyası və iqlim şəraitinin müxtəlif istehsal fəaliyyətləri üçün uyğunluğu iqtisadi inkişafın vacib şərtlərindəndir. Zəngin təbii ehtiyatlara, əlverişli coğrafiyaya və iqlim şəraitinə sahib ölkələrin daha yüksək inkişaf sürətinə sahib olacağı gözlənilir [4]. Bununla birlikdə, yalnız təbii sərvət zənginliyi iqtisadi inkişaf üçün kifayət deyil. Zəngin təbii ehtiyatlara sahib ölkələrin qənaət çatışmazlığını aradan qaldırması üçün xarici ölkələrə nisbətən daha asan xarici kapital cəlb etmələri mümkündür.

E. Siyasi, sosial və mədəni amillər. Ölkələrin siyasi, sosial və mədəni xüsusiyyətləri də iqtisadi artımın determinatlarındandır. Siyasi qeyri-sabitliklərin, etnik qarşıdurmaların və müharibələrin iqtisadi artıma mənfi təsir göstərməsi təbiidir. Bundan əlavə, ölkədəki siyasi qurum və mexanizmlərin, yəni statizm ənənəsinin, qanunun aliliyi və demokratiyanın işləməsi də mühüm siyasi xüsusiyyətlərdir.

İnkişaf modelindəki bir başqa determinant, siyasi hüquqlardakı qadağalar və ya məhdudiyyətlərdir. Bu dəyişən demokratikləşmə səylərinin və ya siyasi azadlıqların iqtisadi inkişafa təsirini əks etdirir.

Bütün MDB keçid iqtisadiyyatının və İslam altqrupunun sabit təsir modelinin nəticəsinə görə, siyasi qadağalar və məhdudiyyətlər əmsalının gözlənilən istiqamətdə mənfi, lakin statistik baxımdan əhəmiyyətsiz olduğu təsbit edildi. Xristian ölkələr qrupu üçün tapılan siyasi qadağanların əmsalı gözləntilərə cavab vermir və statistik baxımdan əhəmiyyətsizdir. Bu nəticələrə görə demokratikləşmə səylərinin və ya siyasi azadlıqların iqtisadi inkişafa təsiri müəyyən deyil.

Tədqiqatın nəticələrinə görə, MDB-nin keçid iqtisadiyyatında iqtisadi inkişafa nail olmaq üçün bazar iqtisadiyyatına keçidin tələb etdiyi struktur transformasiya islahatları həyata keçirilməli, makroiqtisadi sabitlik və xarici ticarətin artırılması siyasətinə dəstək verilməlidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan və Müstəqil Dövlətlər Birliyi ölkələri. Statistik məcmuə. Azərb. Resp. döv. statistika komitəsi. Bakı: [Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi], 2013. 227 s
2. Mirabdullayev A.M. Müstəqil Dövlətlər Birliyi müasir beynəlxalq münasibətlərdə. Bakı: Elm, 2012. 195 s.
3. Zeynalov İ. Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyi ilə münasibətləri. Bakı: RENESSANS, 2005. 164 s.
4. https://dergipark.org.tr/tr/download/article-file/29728 - Bağımsız Devletler Topluluğu'nda Ekonomik Büyüme Deneyimleri 2021.

Əhmədova Günay Namiq qızı, magistrant
Bakı Biznes Universiteti
Email: ahmedovagunayy@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BİZNES FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Azərbaycan xalqı tarixinin ən şanlı və yadda qalan dönəmlərindən birinə şahid olur. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin strateji başçılığı ilə Azərbaycan ordusu vaxtilə uzaq görünən həqiqətləri günbəgün bərqərar etmiş və işğal edilmiş ərazilərdən didərgin düşmüş əhalinin uzun illər çəkən həsrətinə son qoymuşdur.

30 ilə yaxın bir müddət ərzində xalqı üçün qəribsəmiş, adları hər bir azərbaycanlının yaddaşında əzbər olan bu ərazilərin iqtisadi mahiyyəti barədə yazmaq zamanı artıq yetişmişdir. Əlbəttə, bu müqəddəs torpaqların azərbaycanlılar üçün tarixi-mədəni əhəmiyyəti hər hansı bir iqtisadi dəyərdən qat-qat yüksəkdir. Son yaşanan vətənpərvərlik nümunələri də məhz buna dəlalət edir.

Hər kəsə məlumdur ki, 2020-ci il bütün dünya ölkələri üçün çətin keçmişdir. Əksər ölkələrin iqtisadi durumu pandemiya bərabərliyində dünya iqtisadi böhranı ilə üz-üzə gəlmişdir. Dünya dövlətləri xərclərini tarazlamaq, planlaşdırdıqları irimiqyaslı siyasətləri təxirə salmaq məcburiyyətində qalmışlar. Lakin, Azərbaycan dövləti və xalqı hər hansı sosial, iqtisadi və səhiyyə çətinliklərinə, müharibənin gətirdiyi maddi tələfata, çoxsaylı və çoxçeşidli maliyyə xərclərinə baxmayaraq, düşmən tərəfindən edilmiş təcavüzə sipər gəlmiş və torpaqların işğaldan azad olunması üçün əks hücum əməliyyatlarına başlamışdır.

Bu, bir daha Azərbaycan xalqı üçün tarixi-mədəni dəyərlərin ali olduğunu nümayiş etdirir. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərin tarixi-mədəni dəyəri ilə bərabər zəngin iqtisadi potensialı da vardır. Bu ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası ilə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da tərəddüdsüz və xüsusi fiskal gərginlik yaşamadan çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəyi gözlənilən dir.

İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının əsas parametrlərinə diqqət

yetirsək görərik ki, Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Zəngilan, Cəbrayıl, Qubadlı, Ağdam (rayon mərkəzi və ərazisinin böyük hissəsi), Füzuli (rayon mərkəzi və ərazisinin böyük hissəsi) inzibati rayonları 1989-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunmuş və işğal tarixindən bugünədək qeyri-səmərəli istismar və talançılıq nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilmişdir. Bu səbəbdən gələcək bərpa işləri ümumi infrastrukturu təmin edərək yüksək həyat səviyyəsinə nail olmaqdan ibarət olmalıdır. Bununla bağlı olaraq, gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, elektrik enerjisi, qaz, su, rabitə) və ilkin yaşayış şəraitinin qurulmasından başlamalı və növbəti mərhələlərdə isə iqtisadi inkişaf layihələrinə başlanılmalıdır.

İşğaldan azad olunmuş ərazilərdə biznes mühitinin formalaşdırılması ilə bağlı müraciətlərin qəbulu, təhlili, biznes sahiblərinin məlumatlandırılması, müvafiq tövsiyələrin verilməsi və müraciətlərin aidiyyəti olaraq yönləndirilməsi İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən həyata keçirilir. Agentliyə təqdim olunan investisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyən olunur və informasiya bazasına daxil edilir.

İşğaldan azad olunmuş ərazilərdə biznes fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən indiyədək Agentliyə 409 müraciət daxil olmuşdur. Bu müraciətlərin 93-ü (23 %) sənaye, 104-ü (25 %) ticarət və xidmət, 70-i (17 %) tikinti, 69-u (17 %) kənd təsərrüfatı, 34-ü (8 %) turizm, 5-i (1,2 %) təhsil, 1-i (0,2 %) nəqliyyat və logistika və 33-ü (8,5 %) isə digər sahələri əhatə edir. Daxil olan müraciətlərdən 53-ü 12 xarici ölkəni (əsasən Türkiyə, Rusiya, Macarıstan, Pakistan və Qazaxıstandan olmaqla) təmsil edən şirkətlər tərəfindən təqdim edilmişdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi (MÜSİAD) arasında İstanbulda keçirilən "MÜSİAD Expo 2020" beynəlxalq sərgisi çərçivəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Anlaşma Memorandumunda tərəflərin ticarət, investisiya, sənaye, sahələrində əməkdaşlığı, birgə biznes tədbirlərinin təşkili, iş adamlarının hər iki ölkədə keçirilən sərgilərdə və digər tədbirlərdə iştirakının təşviq edilməsi, qarşılıqlı missiyaların təşkili və s. nəzərdə tutulur.

MÜSİAD prezidentinin müavini Mehmet Akif Özyurt imzalanma çərçivəsində aparılmış müzakirələr zamanı "MÜSİAD Expo 2020" Sərgisində Azərbaycanın "Qarabağ Azərbaycandır" stendi ilə təmsil olunmasından və stenddə işğaldan azad olunmuş ərazilərin iqtisadi və investisiya potensialının təqdim olunmasından məmnunluqlarını ifadə edib, Azərbaycanın stendinin sərgi ziyarətçiləri və iş adamları tərəfindən maraqla qarşılandığını bildirmişdir.

Müraciət edən xarici şirkətlər işğaldan azad edilmiş ərazilərin bərpa və yenidənqurma işlərində investor və ya podratçı kimi iştirak etmək niyyətində olduqlarını bildirmişlər. Xarici şirkətlərin seçilməsində ixtisaslaşma, təcrübə, yüksək keyfiyyət və münasib qiymət amilləri nəzərə alınmaqla, yeni texnologiya gətirən və yerli resurslardan (maddi və əmək resurslarından) istifadə edən şirkətlərə üstünlük verilməsi məqsədəuyğundur.

İnvestisiya cəlbediciliyinin artırılması üçün İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin 2021-

2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramında investisiya təşviqi mexanizmi nəzərdə tutulur.

Biznes fəaliyyəti iqtisadi inkişafın bütün inkişaf mərhələlərində əsas həlqə kimi çıxış edir və məhz bu sahənin inkişafı son nəticədə iqtisadiyyatın ümumi inkişafına töhfə verir. Ölkənin iqtisadiyyatı ayrı – ayrı təsərrüfat sahələrinin məcmusu şəklində formalaşır. Bununla əlaqədar olaraq, ölkə iqtisadiyyatının formalaşması və inkişafı son nəticədə onların inkişaf səviyyəsindən, müəssisələrin bazar fəaliyyətindən birbaşa asılıdır. Deməli, dövlətin iqtisadi siyasəti birinci növbədə müəssisələrin təsis edilməsi və inkişafına, onların normal inkişaf fəaliyyətini təmin edən müvafiq bazar şəraitinin formalaşdırılmasına yönəldilməsi zəruri haldır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikasının qanunvericilik toplusu.
2. Biznesdə Kontrollinq. Təşkilatlarda kontrollinqin qurulmasının metodoloji və praktiki əsasları. /A.M. Karminski, N.İ.Olenov, A.Q.Primak, S.Q.Falko - 2-ci nəşr/rus dilindən tərcümə. Bakı "İqtisad Universiteti" nəşriyyatı, 2008.
3. İ.H.İbrahimov, E.R.İbrahimov "Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi".
4. Q.N.Manafov "Sahibkarlığın nəzəri və praktiki məsələləri". Bakı,1997.
5. "Müəssisə haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1994.
6. "Maliyyə nəzarəti" Bəybala Xankişiyev, Bakı, 2002.
7. "Sosial-iqtisadi inkişafın sürətləndirilməsində maliyyə nəzarətinin rolu". (Beynəlxalq elmi-praktik konfransın materialları). – Bakı, "İqtisadiyyat və audit" jurnalının nəşri 2006.
8. https://smb.gov.az/

Dəmirçiyev Elçin Hacıbala oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: elçin.demirciyev.1997@mail.ru

BANKLARDA AKTİV ƏMƏLİYYATLARIN MALİYYƏ RİSKLƏRİ İLƏ QARŞILAŞMASI VƏ QARŞISININ ALINMASI TƏDBİRLƏRİ

Bank sektorunda risklər aşağıdakı kimi 3 kateqoriyaya ayrılır :

1) Funksional olan risklər;
2) Maliyyə riskləri;
3) Xarici risklər.

Təsərrüfat və maliyyə sistemlərinə vaxtlı-vaxtında nəzarət edilməməsi və informasiyaların vaxtı-vaxtında çatdırılmaması, zəif təhlil funksional riskin meydana çıxmasına səbəb olur. Kommersiya bankları funksional risklərə çox meyllidirlər. Funksional risk bir məhsulun yaradılması, xidmətlərin göstərilməsi prosesinə daxildir. Funksional risklər bir neçə yarım kateqoriyaya ayrılır. Bankın aktivləri ilə bağlı risklər aşağıdakılardır:

– kredit riski;

– bazar riski;
– valyuta riski;
– kassa riski.

Banklar fiziki və ya hüquqi şəxslərdə istifadəsiz qalan pul vəsaitlərini cəlb etməklə yanaşı, həm də borc pul verilər. Bankların verdiyi borclar zamanı borcalan şəxs tərəfindən alınan vəsaitin və onun faizinin qaytarılmaması riski mövcuddur ki, bu risk kredit riski adlanır. Kredit riski borcalanın borcu geri ödəmək imkanının itirməsi və ya gecikdirməsi riskidir. Bu halların hər ikisi bankın likvidliyinə və səmərəliliyinə mənfi təsir göstərir. Bankar üçün kredit riskinin önəmi çox böyükdür. Ödəmələrdə baş verən gecikmələr banka olan pul axınlarına mənfi təsir göstərə bilər.

Kredit bankçılığın ən önəmli fəaliyyət sahələrindən biri olduğu üçün kredit riskinə də daha da önəm verilməyə başlanıb. Bunun başlıca səbəbləri aşağıdakılardır :

1. Dünyadakı kapital bazarının inkişafından aslı olmayaraq kredit alan hüquqi şəxslərin aldıqları kreditlərin dərəcəsinin aşağı olması bu sahədə bir inkişafın olmasına səbəb olmuşdur.

2. İqtisadi tənəzzüllər olarkən iflas hallarının yüksəlməsi bankların kredit əməliyyatları zamanı daha diqqətli olmasına səbəbiyyət verir. Həmçinin rəqabətin yüksək olduğu bazarlarda da iflas hallarının sayının artması kredit riskinin düzgün qiymətləndirilməsini vacib edir.

3. Həmçinin mərkəzi banklar ölkənin kommersiya banklarının kreditləşmə əməliyyatlarını nizamlamaq üçün kredit riski modelini yaratmaq və bu sahədə standartlar tətbiq edir.

Banklarda kredit riski kredit alanın maliyyə vəziyyətinin pisləşməsi nəticəsində bankın aktivlərinin dəyər itirməsi ilə yaranan ziyanın ehtimlıdır. Banklar belə ziyanla qarşı-qarşıya gəlməmək üçün kredit risklərini idarə etməlidirlər. Baş verə biləcək kredit risklərini daha yaxşı idarə etmək üçün həmin riskləri əvvəlcədən qiymətləndirmək, riskin səbəblərini araşdırmaq və qarşısını almaq metodlarını müəyyənləşdirmək lazımdır. Ölkəmizdə olan banklar kredit risklərindən qorunmaq üçün həm daxildə olan digər bankların həm də xarici ölkələrin kommersiya banklarının təcrübələrindən faydalanırlar. Bütün bu təcrübələrə baxmayaraq, ən ideal kredit siyasətində də müəyyən itkilər yaranır. Kredit verərkən banklar diqqətli olmalı və heç vaxt alıcıda mənfi fikir doğurmamalıdır. Bu zaman bankın imicinə zərər gələ bilər. Kommersiya bankları üçün kredit risklərinin idarə edilməsində daim problemlər ortaya çıxır və bu bankların idarə etmə strukturunda çətinliklər yaradır. Əksər Avropa ölkələrində, eləcə də Amerikada ümumi kreditlərin ortalama 6%-ni problemli kreditlər teşkil edir. 90-cı illərdə ölkəmizdə bu göstərici 30-35 % olub. Ölkədə makroiqtisadi və mikroiqtisadi amillər kredit risklərinə birbaşa təsir göstərir və hər zaman banklar müştərilər tərəfindən inamsızlıqlarla qarşılaşır. Təcrübəli bank əməkdaşlarının və işgüzar müştərilərin çatışmamazlığı inamsızlığa zəmin yaradır. Kommersiya bankları kredit riskini idarə etmək üçün ziddiyyətli, qeyrı-sabit qanunvericiliyin mövcud olduğu bir şəraitdə də olsa mütləq kredit riskinin idarə edilməsinin elastik sistemini hazırlayıb, istifadəyə verməlidir. Kredit riskinin idarəedilməsi sistemının əsas elementləri aşağıdakılardır:

1) limitləri təyin etmək; 2) kredit işini təmin etmək; 3) borcalanın borcu ödəmə qabiliyyətini təhlil etmək; 4) risk səviyyəsinə görə kredit reytinqini təyin etmək, təyin olunmuş limitlər ilə qarşılaşdırmaq; 5) mümkün itkilərin qeydiyyatı vasitəsi ilə faiz dərəcələrini təyin etmək; 6) verilmiş kreditlərin monitorinqi; 7) krediti idarə etmək və

problemləri aradan qaldırmaq; 8) kreditin verilməsi qərarı verilərkən səlahiyyət bölgüsü. Banklar kredit risklərini daha səmərəli idarə etmək üçün borcalan şəxslərin münasibətlərinə baxmaq və onu dəyərləndirmək, həmçinin kredit portfelini daha diqqətli idarəetmək lazımdır. Bu idarəetməyə kreditləşməyə konserv yanaşma deyilir. Bazar iqtisadiyyatına keçid zamanı banklarda olan qeyri-sabitliyə görə kreditləni belə adlandırmaq lazımsızdır. Banklar kredit riskinin daha əlverişli və effektıv idarə etmək üçün vahid model standartlarını tətbiq etməlidirlər. Vahid model aşağıdakı müddəalara əasaslanır:

– vahid kredit siyasətinin tərtibi və realizəsi;
– kreditləşmə standartlarının tərtibi;
– veriləcək bütün kreditlər üçün analitik prosedurların icrası;
– keçiriləcək monitorinq-yoxlamaya qarşı əsas tələblər müəyyənləşdirilir.

Maliyyə risklərinin tərkib hissəsinə kredit riski ilə yanaşı likvidlik riski, valyuta riski və faiz dərəcələrinin dəyişməsi riski də daxildir. Bankın öz öhdəliklərini vaxtında yerinə yetirə bilməməsi və aktivlərində müşahidə olunan yüksəlişi maliyyələşdirə bilməməsi zamanı ortaya çıxan risk likvidlik riski adlanır. Həmçinin əmanətçilərin də öz vəsaitlərini anidən çəkmək tələbləri zamanı yaranan risk də likvidlik riskidir. Gündəlik olaraq banklar ehtiyacı olacaq miqdarda vəsaiti əvvəlcədən təxmin edə bilər. Lakin anidən olacaq böyük həcimli pul çəkilişləri zamanı banklar ya əllərində olan aktivləri likvid aktivlərə çevirməli, ya da borc vəsait cəlb etməlidir. Bankda likvid aktivlərindəki əldə edəcəyi faiz gəlirlərin əngəllənməsi ümumi gəlir balansına mənfi təsir göstərir. Bankların hamısı anidən vəsaitin geri çəkilməsi halı ilə rastlaşarsa, bu zaman bəzi bankların əllərində likvidlik qalmayacaq və onlar borc axtarsalar da belə vəziyyətdə borc tapmaq çətinləşəcək. Borc tapa bilməyən banklar məcburən qiymətli kağızlar şəklindəki aktivlərini satışa çıxaracaq və aktivlərini daha ucuza satmalı olacaq. Beləcə banklar zərərlə qarşılaşacaqlar. Zərərin qarşısını ala bilmədikdə isə iflas halları da qaçılmaz olur. Banklara təsir göstərəcək likvidlik riskləri bunlardır:

- qisamüddətli tələblərin icrası üçün lazımı qədər vəsaiti və qiymətli kağızları öz istifadəsində saxlaya bilməməsi;
- hər hansı bir əlavə maliyyələşdirmə imkanlarına sahib ola bilməməsi;
- bazardakı mövqeyini qoruya bilməməsi.

Bütün banklar fövqaladə vəziyyətlərdə likvidlik problemi ilə bağlı dəqiq və düzgün ifadə olunmuş prosedurlara malik olmalıdır. Həmin prosedurlara həmçinin banklarda yarana biləcək risklərin aradan qaldırılmasına dair qaydalar da daxil edilməlidir. Gələcəyə aid maliyyələşdirmə tələbini müəyyənləşdirmək, vəsaitlərin axınını dəyərləndirmək, həmçinin diqqət mərkəzində saxlamaq «Risklərin idarə edilməsi Departamenti»nin öhdəliyindədir. Əgər, banklar bazar likvidliyindən məhrum olarsa, bu ehtiyaclarını qarşılamaq məqsədilə yaradılan strategiyalardan istifadə etməli, likvidliyin planlaşdırılması prosesinə uyğun əməliyyatları yerinə yetirməlidir.

İstifadə olunmuş ədəbiyyat:

1) S.M.Məmmədov – “Bank işi.” Bakı, 1997.
2) M.Bağırov – “Banklar və bank əməliyyatları”. Bakı, 2003.
3) Z.Məmmədov – “Pul, kredit və banklar”. (Dərslik). Bakı, 2006.
4) Ş.Ə.Abdullayev – “Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması”. Bakı, 2001.

Əliyev Turqut, magistrant,
Bakı Biznes Universiteti
Email: turqut.97@inbox.ru

MÜƏSSİSƏNİN MALİYYƏ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

Hal-hazırda bazar iqtisadiyyatı şəraitində, təşkilati və hüquqi quruluşundan asılı olmayaraq, hər bir müəssisə və ya təşkilat, davamlı, dayanıqlı və etibarlı bir şəkildə fəaliyyətini həyata keçirmək üçün lazımi maliyyə mənbələrinə və ya resurslarına sahib olmalıdır. Yəni, istənilən müəssisə öz sərəncamında olan maliyyə resurslarını istədiyi hər hansı bir fəaliyyət sahəsinə yönəldə bilər. Amma, maliyyə mənbələri və ya resursları hər hansı bir fəaliyyət sahəsnə yönəldildikdə, müəyyən bir müsbət nəticəyə, xüsusən də maliyyə resurslarında artıma səbəb olmaq üçün səmərəlilik və qənaət prinsipi nəzərə alınmalıdır.

Hər bir fəaliyyət göstərən müəssisənin və ya təşkilatın maliyyə mənbələri əsasən iş göstəricilərindən, həyata keçirdiyi xidmətlərdən və məhsul satışından əldə olunan qazanclardan, əsas vəsaitlərin köhnəlməsindən (amortizasiya) və kənardan cəlb olnan vəsaitlərdən ibarətdir.

Təbii ki, burada əsas üstünlüyü ilk olaraq müəssisənin mənfəəti təşkil edir. Hər bir müəssisə öz mənfəətini bir sıra istiqamətlərə yönəldə bilər. Bunlara aşağıdaklar daxil ola bilər:

- istehlaka;
- müxtəlif layihələrin inkişafına;
- müəssisənin inkişafına.

Məlumdur ki, bir müəssisənin və ya təşkilatın formalaşmasında əsas halqa nizamnamə kapitalıdır. Müəsisənin fondları və kapitalı nizamnamə kapitalı əsasnda yaranır. Yəni, nizamnamə kapitalı müəssisənin fəaliyyətini həyata keçirmək üçün vacib rol oyanyır. Növbəti müddətdə müəssisə normal fəaliyyət göstərdiyi müddətdə iş göstəricilərindən, həyata keçirdiyi xidmətlərdən və məhsul satışından gəlir əldə etməyə başlayır. Müəssisənin maliyyə mənbələrinin əsasını nağd pul axını formalaşdırır. Nağd pul axınının 3 əsas mənbəyi vardır:

- əsas fəaliyyətdən daxilolma;
- investisiya fəaliyyətindən daxilolma;
- maliyyə fəaliyyətindən daxilolma.

Əməliyyat fəaliyyətindən (əsas fəaliyəət) əldə olunan gəlirlər, işlərin xidmətlərin göstərilməsindən və məhsul istehsalından əldə olunan gəlir kimi özünü təmsil edir. Qeyd etmək lazımdır ki, bu üç komponentdən ən əsası işin icrası, xidmətlərin göstərilməsi və istehsaldan daxilolmalardır. Bu səbəbdən satış gəlirlərinin vaxtında alınması, ən əsası, istehsal dövrünün ahəngdarlığını qorumaq və onu daha da gücləndirmək üçün bir zəmanətdir. Satışların vaxtında alınmaması müqavilə öhdəliklərinin ləngiməsinə, işçilərin əmək haqlarının gecikməsinə gətirib çıxarır ki, bu da ümumiyyətlə ahəngdarlığın pozuntusuna səbəb olur.

Aktivlərin həmçinin, qiymətli kağızların satışından əldə olunan pul vəsaitləri investisya fəaliyyətindən əldə olunan gəlirlər kimi özünü təccəssüm etdirir.

Maliyyə fəaliyyətindən əldə olunan gəlir, müəssisə sahibləri arasında səhmlərin və istiqrazların satışından və mübadiləsindən əldə olunan pul şəklində özünü büruzə verir.

Aşağıda göstərilən cədvəldə olduğu kimi, pul daxilolmasını göstərə bilərik:

Cədvəl.

Pul vəsaitlərinin mədaxil və məxaric olması istiqamətləri.



Satış və satışdankənar gəlirlərin xərcləri üstələyən hissəsinə mənfəət deyilir. Başqa formada desək, mənfəət müəssisənin və ya təşkilatın ümumi gəlirlərinin xərclərdən çox olan hissəsidir. Mənfəət sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyinin göstəricisidir. Məlumdur ki, istənilən təsərrüfat subyektinin əsas məqsədi daha çox mənfəət əldə etməkdir. Vurğulamaq lazımdır ki, maliyyə mənbələrinin əsasını istehsal və təsərrüfat fəaliyyəti nəticəsində yaranan ümumi gəlir deyil, xərclər, vergilər və digər büdcə ayırmalarının ödənilməsindən sonra qalan xalis mənfəət təşkil edir. Müəs-

sisələr mənfəətini aşağıdakı yollar və vasitələrlə artıra bilərlər:

- dəyişən xərclərin normalarını aşağı endirməklə istehsal xərclərini azaltmaq;
- daha səmərəli avadanlıq almaq, yeni texnologiyaların inkişafı və istehsalın genişləndirilməsi üçün kapital qoyuluşları ilə idarə oluna bilən satış artımına nail olma;
- hesabat dövrünün əvvəlində və sonunda həyata keçirilməmiş qalıqların həcminin azalması.

Maliyyə mənbələrinin və ya resurslarının formalaşmasında ikinci ən vacib amil amortizasiyadır. Müəssisəyə məxsus aktivlərin faydalı istifadə müddəti məhduddursa, istifadə olunan aktivin dəyəri onun istifadəsindən əldə olunan gəlirə düz mütənasb formada bölünməlidir. Bir aktivin faydalı istifadə müddəti bir hesabat dövrünü keçərsə, daha uzun müddətə gəlir gətirir.

Uzunmüddətli aktiv dəyərə və məhdud istifadə müddəti olduğuna və onun dəyəri zaman keçdikcə azaldığı üçün aktivin müəssisə tərəfindən istifadə olunmasını əks etdirmək üçün həmin xərci uçota almaq lazımdır. Buna xərc amortizasiyası deyilir. Amortizasiya, aktivin dəyərinin faydalı istifadə müddəti ərzində bölüşdürülməsi və beləliklə, aktiv üçün çəkilən xərcləri bu aktivin müəssisəyə mənfəət gətirdiyi tam dövrlərlə müqayisə edir. Bunu da vurğulamaq lazımdır ki, bir çox inkişaf etmiş ölkələrdə amortizasiya təkrar istehsalın 50-60%-ni təşkil edir.

Mövcud bazar iqtisadiyyatının rəqabət çağında satışdan əldə olunan gəlir və xarici gəlirlər müəssisə və ya təşkilat üçün mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, heç bir başlanğıc nizamnamə kapitalı, müəssisənin uğurlu idarə olunması və fəaliyyətinin həyata keçirməsində gözlənilən nəticələri vermədi. Bu səbəbdən borc vəsaitləri bir növ yardımçı mövqe rolunu oynasa da, normal iqtisadi şəraitdə böyük əhəmiyyətə malikdirlər. Cəlb olunan maliyyə mənbələrinə kreditləri və onlarn növlərini, lizinqi, faktorinqi və s. cəlb edilmiş mənbələri göstərmək mümkündür. Ümumiyyətlə, çox sayda borc götürülmüş kapital kanalı, xüsusən böhran və tənəzzül dövründə müəssisələrin vəziyyətdən çıxması və fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır.

İstifadə olunmuş ədəbiyyat:

1. Ataşov B., Novruzov N., İbrahimov E., “Müəssisələrin maliyyəsi” Dərslik, Bakı, 2009.

2. Ələkbərov Ə. “Müasir mərhələdə maliyyə ehtiyyatları və onların istifadəsinin bəzi məsələləri”. Məqalə. AMEA-nın Xəbərləri,humanitar və ictimai elmlər seriyası (İqtisadiyyat) № 1, Bakı, 2006.

3. Hüseynov T. “Firmanın iqtisadiyyatı” . Dərslik, Bakı, 2008.

4. İsmaylov N., Zeynalov T., Mahmudov İ., “İqtisadi təhlil”. Dərslik, Bakı, 2010.

Mehdiyev Elvin Ramiz oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: emehdiyev@yahoo.com

AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN XARİCİ İNVESTİSİYAYA TƏSİRİ

İnvestisiya (ing. investment) — gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Bunlara pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar və s. aiddir. İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur. Maliyyə aktivlərinə investisiya qoyuluşu qiymətli kağızlara və digər maliyyə aktivlərinə (ssudalara, digər müəssisələrin nizamnamə fondlarına və s.) qoyuluşları əks etdirir. Onlar ölkə və xarici maliyyə aktivlərinə investisiyaları birləşdirir.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son dövrlər ölkədəki siyasi sabitlik və iqtisadi inkişaf xarici dövlətlərin Azərbaycan iqtisadiyyatına uzunmüddətli sərmayə qoymaq üçün marağını daha da artırmışdır. İndiyə qədər respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılmışdır. Hazırda Azərbaycan Respublikasında investisiya fəaliyyətini tənzimləyən iki qanun mövcuddur: Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu" və Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1992-ci il tarixli 57 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikasının Qanunu". Bundan başqa, Azərbaycan hökuməti bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalamışdır. Mənfəətin başqa valyutalara konvertasiya edilməsi, xarici ölkələrə köçürülməsi, yaxud reinvestisiya edilməsi ilə bağlı bütün məhdudiyyətlər ləğv edilmiş, bazar iqtisadiyyatı prinsipləri əsasında vahid valyuta məzənnəsi formalaşmışdır. Bu tədbirlər xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artırmışdır. Hazırda ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Son illərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır. 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş 119 milyard dollar investisiyanın 60%-dən çoxu, yəni 63

milyard dollara yaxını xarici investisiyalar olmuşdur. 1995-2002-ci illərdə xarici investisiyaların həcmi 9 milyard dollar olmuşdursa, 2003-2011-ci illərdə bu rəqəm 6 dəfə artaraq 54 milyard dollar olmuşdur. 1995-2011-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 25,5 milyard dolları qeyri-neft sektorunun, 37,5 milyard dolları isə neft sektorunun inkişafına yönəldilmişdir. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir. Tam xarici investisiyalı və birgə müəssisələrin yaradılmasında Türkiyədən olan sahibkarların payı 27,6% təşkil edir. Bu göstərici Böyük Britaniya üzrə 11,7%, Rusiya üzrə 6,8%, İran üzrə 6,2%, ABŞ üzrə 5,9%, Almaniya üzrə isə 2,9%-dir.

Ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görülməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 2007-ci il 25 oktyabr tarixli, 2458 saylı Sərəncam imzalamışdır. Sərəncama əsasən "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmişdir. "Bir pəncərə" sisteminin tətbiqindən sonra biznesini qeydiyyatdan keçirmək istəyən sahibkar əvvəllər olduğu kimi uzun müddət deyil, 3 gün gözləyir və tələb olunan prosedurların sayı 15-dən 5-ə qədər azaldılmışdır. «Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2008-ci il tarixli, 12 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin 22 dekabr 2009-cu il tarixli 136 saylı əmri ilə Azərbaycan Respublikasına gətirilən mallar üzərində dövlət sərhədinin buraxılış məntəqələrindəki nəzarət orqanlarında müvafiq nəzarətin həyata keçirilməsi məqsədi ilə qanunvericilikdə müəyyən olunmuş qaydada sənədlər gömrük orqanına təqdim olunur. Bununla əlaqədar, «Dövlət sərhədinin buraxılış məntəqələrində «bir pəncərə» prinsipinin tətbiqi ilə bağlı mal və nəqliyyat vasitələri üzərində gömrük, baytarlıq, fitosanitar və sanitariya-karantin nəzarətinin həyata keçirilməsinin və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə «icazə» blanklarının verilməsinin ardıcıllığını müəyyən edən müvəqqəti Texnoloji sxem» təsdiq edilmişdir. Texnoloji sxemdə dövlət sərhədinin buraxılış məntəqələrində qanunvericilikdə müəyyən olunmuş qaydada gömrük, baytarlıq, fitosanitar və sanitariya karantin nəzarəti və beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə «İcazə» blanklarının verilməsi işlərinin bu məsələlər üzrə məsul olan gömrük əməkdaşları tərəfindən həyata keçirilməsi göstərilmişdir.

"Xarici investisiya üçün müsbət tərəfləri". Xarici investorlar üçün Azərbaycanın üstünlükləri:

1. Xarici investisiyalar üçün münbit şərait:

- Regionda adambaşına düşən ən yüksək Birbaşa Xarici İnvestisiya göstəricisi;
- İnvestorlar üçün hüquqi təminatlar.

2. Sürətlə inkişaf edən və açıq iqtisadiyyat:

- ÜDM-in 26,4 % illik artımı;
- xarici ticarət dövriyyəsinin 19,8 % illik artımı;
- orta idxal tarif dərəcəsi: 5,7% .

3. Qeyri-neft sektorunda geniş imkanlar:

- Son 5 ildə əksər iqtisadi fəaliyyət sahələrində yüksək artım: sənaye – 7,5 dəfə, tikinti – 3,8 dəfə, ticarət – 3,5 dəfə, nəqliyyat və rabitə – 2,9 dəfə, sosial xidmətlər – 2,8 dəfə, kənd təsərrüfatı – 2,1 dəfə. - Kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştləri.

4. Təbii ehtiyatlar: faydalı qazıntılar və münbit torpaq.

5. Əlverişli strateji mövqe: - Mərkəzi Asiya və Xəzər regionuna birbaşa çıxış. - Beynəlxalq ticarət təşəbbüslərində iştirak (İpək Yolu, Şimal–Cənub koridoru).

- Genişlənən Avropa faktoru və Yeni Qonşuluq Siyasətinə qoşulma.

6. Rəqabətqabiliyyətli yerli işçi qüvvəsi:

“Xarici investisiya üçün mənfi tərəfləri”. Xarici investorlar üçün Azərbaycanın disavantajları:

1. Müharibə şəraitində olan ölkə imici:

- Xarici investor Azərbaycana qoyacağı kapitalın müəyyən müddət sonra canlanmasını, gəlir əldə etməsini fikirləşir, lakin müharibə vəziyyətində olduğu üçün ölkəyə investisiya qoymaqdan imtina edir.
- Hər an ölkənin müharibəyə başlayacağını və kapitalını itirmək təhlükəsi ilə yaşaması haqqında fikirləşir.

2. Əhalinin əsasən vahid mərkəzdə cəmlənməsi

- Biznes mühiti üçün hər nə qədər yaxşı olsa da, beynəlxalq hava yollarının yalnız Bakıda cəmlənməsi investorlar üçün lazımi alətlərin bölgələrə daşınması problem yaradır.

3. İnternet qanunvericiliyi ilə bağlı problemlər:

- İnternet modern dövrdə bir çox məsələlərin həllində mühüm yer tutur, bu səbəbdən bəzi boşluqlar bu sahədə qalması investisiya problemlərinə gətirib çıxarır.

İnvestisiya hər bir ölkə üçün mühüm rol oyanayır, bu səbəbdən də investisiya mühiti yaxşılaşdırılmalı, xarici investorlar üçün münbit şərait yaradılmalıdır. Bu problemləri həll etmək üçün xarici və qonşu ölkələrin təcrübələrdən istifadə etmək olar.

İstifadə olunmuş ədəbiyyat:

1. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 13 yanvar 1995-ci il.
2. Atakişiyev M., Süleymanov Q., “İnnovasiya menecmenti”. Bakı-2004.
3. Allahverdiyev H.B “İnvestisiya proseslərinin tənzimlənməsi”. Bakı-2003.
4. https://bit.ly/39ZS915
5. https://bit.ly/377nwoo

Əzizova Aysel, magistrant
Bakı Biznes Universiteti

SLA GROUP MMC-nin MALİYYƏ MÖHKƏMLİYİNİN TƏHLİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Maliyyə hesabatlarının təhlilinin əsas rolu maliyyə hesabatlarındakı məlumatlardan istifadə etmək, iqtisadi qərarlar qəbul etməkdir. Predmeti – şirkətin maliyyə vəziyyəti və maliyyə nəticələridir. Başqa sözlə desək, maliyyə hesabatlarının təhlilinin predmeti təhlil edilən maliyyə münasibətlərinin, maliyyə resurslarının və axınlarının məcmusu, həmçinin səbəb-nəticə əlaqələridir. Onlara müəssisənin maliyyə-iqtisadi fəaliyyəti nəticəsində yaranan maliyyə münasibətləri, şirkətin maliyə-təsərrüfat fəaliyyətində səbəb – nəticə əlaqələrinin aşkar edilməsi və müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında formalaşan səbəb - nəticə əlaqələrinin təsnifatlaşdırılması, sistemləşdirilməsi, modelləşdirilməsi və qiymətləndirilməsi daxildir.

SLA GROUP MMC-nin maliyyə təhlili müxtəlif əlamətlər, o çümlədən idarəetmədə roluna və aparılmasının təşkili formasına, tədqiqatın məzmunu və tamlığına, təhlil obyektinin xarakterinə, həyata keçirilmə dövrünə görə təsnifatlaşdırılır. İdarəetmədə roluna və aparılmasının təşkili formasına görə daxili və xarici maliyyə təhlili formalarını bir - birindən fərqləndirilir. “SLA GROUP” şirkətinin xarici maliyyə təhlili yalnız mühasibat hesabatlarının məlumatlarına əsaslanır və özündə müəssisənin fəaliyyəti haqqında çox məhdud informasiyanı əks etdirir ki, bu da firmanın əldə etdiyi nəticələrin bütün sirrini aşkar etməyə imkan vermir. O, adətən müəssisənin daxili informasiya bazasına girişi olmayan (əlçatan olmayan) istifadəçilər üçün həyata keçirilir. Xarici maliyyə təhlilinin xüsusiyyətlərinə şirkətin fəaliyyəti haqqında informasiya istifadəçilərinin və təhlil subyektlərinin çoxluğu, təhlil subyektlərinin maraqlarının və məqsədlərinin müxtəlifliyi, uçot və hesabat standartların, tipik metodikanın olması və s. aiddir. “SLA GROUP” şirkətinin açıq maliyyə hesabatlarının məlumatları əsasında həyata keçirilən xarici maliyyə təhlili mənfəətin mütləq göstəricisinin, rentabelliyin nisbi göstəricilərinin, müəssisənin maliyyə vəziyyətinin və bazar sabitliyinin, ödəmə qabliyyətliyinin, balansın likvidliyinin, borc kapitalından istifadənin səmərəliliyinin, dövriyyə vəsaitlərinin dövriyyəsinin təhlilini və firmanın reyting qiymətləndirmələrini və s. nəzərdə tutur. Daxili maliyyə təhlili firmanın daxili xidmət bölmələri tərəfindən həyata keçirilir. Bu cür təhlilin informasiya bazası olduqca genişdir. Onu da qeyd edək ki, bu cür təhlil idarəetməni optimallaşdırmaq üçün mühüm əhəmiyyəti olan digər məsələlərlə (avans edilmiş kapitalın səmərəliliyinin, xərclər, gəlir və mənfəətin qarşılıqlı əlaqəsinin təhlili və s.) aydınlaşdırıla bilər. Daxili maliyyə təhlilinin əsas məqsədi müəssisənin normal fəaliyyətini, maksimum mənfəət əldə etməsini və müflisləşmə riskini minimumlaşdırmağa zəruri şərait yaradan planauyğun pul vəsaitlərinin daxil olmasını, xüsusi və borc kapitalının yerləşdirilməsini təmin etməkdir. Daxili maliyyə təhlilinin xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- təhlil subyektlərinin məhdud dairəsinin olması - təhlilin nəticələrinin daxili istifadəyə (bir qayda olaraq müəssisə rəhbəri) istiqamətlənməsi, maksimum qapalılıq, məzmunlu və dərin təhlili həyata keçirmək üçün mövcud bütün məlumat mənbələrindən istifadə edilməsi, idarəetmə tələbatları ilə əlaqədar olaraq zəruri olduqca təhlilin

aparılması və s.

SLA GROUP MMC-nin maliyyə təhlili məzmununa və tamlılığına görə tam və tematik, obyektin xarakterinə görə bütövlükdə təsarrüfat fəaliyyətinin, onun ayrı-ayrı struktur bölmələrinin, ayrı-ayrı maliyyə əməliyyatlarının həyata keçirilmə dövrülüyünə görə əvvəlcədən, cari və ardıcıl fərqləndirilir.

Şirkətin maliyyə vəziyyəti haqqındakı məlumatlarını əks etdirən mühasibat balansından fərqli olaraq "Mənfəət və zərərlər haqqında hesabat" hesabat dövründə onun fəaliyyətinin maliyyə nəticələrini xarakterizə edir. Bu hesabat şirkətin aktivlərinin, satılmış məhsulunun rentabelliyinin təhlili, şirkətin sərəncamında qalan xalis mənfəətin həcmini və digər göstəriciləri müəyyən etmək üçün mühüm informasiya mənbəyidir. "Kapital dəyişiklikləri haqqında hesabat" şirkətin xüsusi kapitalının quruluşunu göstərir. Onun əsasında firmanın xüsusi kapitalının tərkibi və hərəkəti təhlil edilir.

İstifadə olunmuş ədəbiyyat:

1. D.A.Bağırov, M.X.Həsənli ."Maliyyə" .Dərs vəsaiti, Bakı, 2011.
2. M.M.Sadıqov, E.Ə.Balayeva, Ş.Ü.Həmişəyeva. "Beynəlxalq valyuta".
3. Qısa izahlı iqtisadi terminlər lüğəti. Bakı, 2005.
4. M.C.Atakişiyev, R.N.Nurəliyeva. "Maliyyə menecmenti". Bakı, 2010.
5. N.Qriqori Mənkyu. "Ekonomiksin əsasları". Bakı, 2010.

Cavadova Faiqə Məstalı qızı, magistrant
Bakı Biznes Universiteti
Email: faiqa.cavadova2017@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ İNVESTİSİYA QOYULUŞU İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalçı silahlı qüvvələrinə qarşı əks hücumda qazandığı böyük qələbələrdən bəhs edən kitablar yazılacaq və filmlər çəkiləcəkdir. Ancaq indi tam əminliklə deyə bilərik ki, cəbhədə qazandığımız uğurların əsas səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən güclü dövlət siyasəti, güclü hərbi strategiya, milli birlik və ordumuzun qətiyyətidir [1].

İ.ğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üçün həyata keçirilən tədbirlər, eləcə də bu bölgələrin iqtisadi potensialı Azərbaycana, xüsusən də qeyri-neft sektoruna yeni yerli və xarici sərmayələrin cəlb olunmasına zəmin yaradacaqdır. Azad edilmiş ərazilərin bərpasına və inkişafına vahid yanaşmanı təmin etmək üçün tədbirlərin dörd mərhələdə həyata keçirilməsi planlaşdırılır. İlkin mərhələ idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərini əhatə edir, növbəti mərhələ sosial xidmətlərin inkişafı, iqtisadi canlanma və inkişafdır. Yol nəqliyyatı, mühəndis infrastrukturu, suvarma və meliorasiya sistemlərinin inşası, ənənəvi və alternativ enerji istehsalı üçün investisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl tərəfdaşlığından istifadə edilməsi təklif olunur. İqtisadi fəaliyyəti stimullaşdırmaq üçün azad edilmiş ərazilərdə

xüsusi bir güzəştli iqtisadi rejim tətbiq etmək vacibdir.

Dövlət sərmayələri ilə yanaşı, yerli və xarici investisiyaların cəlb edilməsi ilə azad edilmiş ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, məşğulluğun təmin olunması üçün işlərin həyata keçirilməsinin də prioritet olduğu aydındır. Mütəxəssislər, azad edilmiş ərazilərin böyük iqtisadi potensiala və təbii ehtiyatlara sahib olduğunu qeyd edirlər. Bu sahələrə yerli və xarici investisiyaların cəlb edilməsi, həm də bu əhalinin məşğulluğunun təmin edilməsi baxımından vacibdir. Qeyd etmək lazımdır ki, azad edilmiş ərazilərin yüksək iqtisadi potensialı bütün dünyada tanınır. Məsələn, işğaldan əvvəl azad edilmiş bölgələr üzümçülük, pambıqçılıq, taxılçılıq və heyvandarlıqda xüsusi paya sahib idilər. Bu ərazilərin kənd təsərrüfatı istehsalı və ixrac potensialı olduqca böyükdür. Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan bölgələri xüsusilə böyük turizm potensialına malikdir [3].

Yaxın gələcəkdə Araz çayında iki su elektrik stansiyasının - "Xudafərin" və "Qız qalası" nın tikilməsi planlaşdırılır ki, bu da azad edilmiş ərazilərin fasiləsiz enerji təchizatı ilə təmin edəcəkdir. Hər iki mənbə yerli enerji ehtiyaclarının ödənilməsində və ölkənin ixrac potensialının artırılmasında mühüm rol oynayacaqdır. Təbii ehtiyatların və faydalı qazıntıların inkişafı investisiya baxımından böyük perspektivlər vəd edir.

Önümüzdəki 4 il ərzində azad edilmiş ərazilərin bərpası layihələrinə ayrılacaq vəsaitin miqdarı açıqlanmışdır. 2021-ci il büdcə paketində 2021-2024-cü illər üçün dövlət investisiya proqramının əsas istiqamətləri layihəsinə əsasən, 2022-ci ildən başlayaraq, kapital qoyuluşları hesabına əsaslı təmir layihələrinə hər il 1,5 milyard manat ayrılacağı planlaşdırılır.

"Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsinə əsasən, azad edilmiş ərazilərə böyük bir qayıdış təmin etmək üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, bu ərazilərdə müasir infrastrukturun yaradılması, elektrik, təbii qaz, su, rabitə, yollar, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal təsərrüfatlarının və digər zəruri infrastrukturun, mədəniyyət və tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış binalarının tikintisi üçün 2,2 milyard manat ayrılacaq [2].

Son illərdə qızıl Azərbaycanın qeyri-neft ixracatında mühüm rol oynamışdır. Həm dünya bazarlarında qızılın bahalaşması, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması, azad edilmiş ərazilərdəki qızıl yataqlarının işlənməsinin yaxın illərdə Azərbaycan iqtisadiyyatına əhəmiyyətli töhfə verəcəyini göstərir. Azərbaycanın ÜDM-də kənd təsərrüfatı və turizm sektorunun payı az olsa da, bu iki sektor məşğulluğa əhəmiyyətli dərəcədə təsir göstərən sahələrdir. Bu baxımdan əmək qabiliyyətli insanların məşğulluğu üçün böyük perspektivlər var. Genişmiqyaslı bərpa tədbirləri və yeni infrastrukturun inşası tikinti sektoru üçün yeni imkanlar açır. Bütün bunlar xarici investorlar üçün maraqlıdır

Bir sözlə, azad edilmiş torpaqlarda tikinti işlərinə artıq başlanılıb. Gələcək illərdə bu ərazilərdə daha böyük infrastruktur layihələrinin həyata keçirilməsi gözlənilir [4]. Yerli və xarici şirkətlərin layihələrində iştiraka gəlincə, bu, Azərbaycan şirkətləri üçün vacib bir təcrübə və xarici şirkətlər üçün əla bir fürsət olacaqdır. Bu mənada, Azərbaycanın azad edilmiş ərazilərinin təhlükəsizliyinin təmin olunması mərhələsindən sonra yerli və xarici şirkətlərin bölgədəki əsas maraqlarından birinə çevriləcəyi şübhəsizdir.

İstifadə olunmuş ədəbiyyat:

1. http://www.anl.az/down/meqale/xal qqazeti/2020/noyabr/728070(meqale).pdf.
2. https://apa.az/az/infrastruktur/2021-2024-cu-illrd-isgaldan-azad-olunmus-razilrin-brpasi-ucun-ayrilacaq-vsaitin-hcmi-mlum-olub-620880
3. https://www.baki-xeber.com/siyaset/116274.html
4. https://ikisahil.az/post/180559-ishgaldan-azad-olunmush-eraziler-iqtisadi-potensialin-reallashdirilmasinin-yolu-infrastrukturun-yaradilmasindan-kechir.

Əhmədova Gülnar Tahir qızı, magistrant,
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universiteti
Email: gulnar93@gmail.com

DAĞLIQ QARABAĞ MUZEYLƏRİNİN TURİZM İNKİŞAFINDAKI ROLU

Qarabağ bölgəsi nəinki Azərbaycanın, həmçinin dünyada qədim tarixə malik olan bir ərazidir. Qarabağ bölgəsi özünün əlverişli iqtisadi-coğrafi mövqeyi, nadir təbii-iqlim xüsusiyyətləri, tarixi, maddi-mədəniyyət abidələri, ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Dünya alimləri Azərbaycanı təbii muzey adlandırmışlar və əlbəttdə ki, buna bariz nümunə Qarabağdır. Qarabağ dünya mədəniyyətinə nadir incilər bəxş etmiş diyardır. Unikallığı ilə seçilən Ağdamda olan "Çörək muzeyi" dünyada bu tipli ikinci, MDB ölkələri arasında isə birinci muzeydir. Bu muzeydə toplanan eksponatlar arasında daşlaşmış qədim taxıl nümunələri, nadir dənli bitki növləri, taxılçılığın inkişafına aid çoxsaylı qiymətli kitablar, əlyazmalar və başqa materiallar, qədim əkinçilik alətləri: xış, adi və dişli oraq, taxıl döyən vərdənə, əl dəyirmanı və başqa alətlər mövcud olub. Muzeyə bitişik ərazidə təndirxanası olan "Sünbül" kafesi ziyarətçilərə açıq idi. Həmçinin burada karvansara da ziyarətçilərin istifadəsində idi. 1982-1987-cil illərdə muzeyin ən məhsuldar illəri hesab olunurdu. Çünki Ağdamda keçirilən "Natəvan" Qızlar Bayramı, "Xarı Bülbül" Beynəlxalq Festivalı məhz muzeyə baxışla başlamışdır. Bütün bunlar yerli və xarici turistlərin böyük marağına səbəb olmuşdur. Hal-hazırda isə muzeyin yalnız divarları qalmışdır.

Şuşa şəhəri tarixin və mədəniyyətin incisidir. Şuşa təbiəti və saf havası və müalicəvi əhəmiyyət baxımından Sovet İttifaqı illərində turizm şəhəri hesab olunurdu. Təkcə Şuşa şəhərində 8 muzey fəaliyyət göstərirdi. Onlardan Dövlət Qarabağ Tarixi Muzeyi, Qarabağ Ədəbiyyat muzeyi, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun ev-muzeyi, vokal sənətimizin əsasını qoyan Bülbülün memorial muzeyi, görkəmli musiqiçi və rəssam Mir Mövsün Nəvvabın xatirə muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyinin Şuşa filialı, Şuşa Tarix muzeyi fəaliyyət göstərirdi. Şuşa tarixi memarlıq qoruğunun ərazisində işğalçı vandallar Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli, cümə məscidlərini, dahi bəstəkar Üzeyir

Hacıbəyovun, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərini, Xurşid Banu Natəvanın saray kompleksini, Firudin bəy Köçərlinin, Zöhrabbəyovların malikanələrini, şair, rəssam, alim Mir Mövsüm Nəvvabın evini, ümumiyyətlə qoruq şəhərin şərq memarlığı xüsusiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, buradakı qədim qəbiristanlığı, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri M. P. Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini, cümə məscidini, Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını dağıtmış və daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistan ərazisinə aparılmışdır. Erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar olmuşdur. Qarabağ Dövlət Tarix muzeyi 500-dək əşya, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, Ağdam Tarix Diyarşünaslıq muzeyi 2000-ə qədər eksponat, Ağdam Çörək muzeyi 694, Qurban Pirimovun xatirə muzeyi 700, Zəngilan Daş Heykəllər muzeyi 50-dək eksponat fondları qarət edilmişdir. Dahi bəstəkar Üzeyir Hacıbəyovun ev-muzeyi 1959-cu ildən yaradılmış, 1992-ci ilə kimi fəaliyyətini davam etdirmişdir. Şuşaya yolu düşən turistlər böyük bəstəkarın bu ev-muzeyinə baş çəkməmiş geri dönməzdilər. Muzeydə Hacıbəyovlar ailəsinin ev əşyaları qorunub saxlanılırdı. Bundan başqa, eksponatlar arasında Üzeyir bəyin şəxsi əşyaları, şəkilləri, kitabları, ona həsr olunmuş və muzeyə bağışlanmış kitablar xüsusi önəm daşıyırdı. Şəhərin işğalı zamanı Ü.Hacıbəyova məxsus əşyalar Bakıya köçürülmüşdür. Həmin eksponatlar hal-hazırda bəstəkarın Bakıdakı ev-muzeyinin fondlarında saxlanılır.

Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə əsası qoyulan Şuşa Xalça muzeyində xovlu və xovsuz xalçalar, xalça məmulatları, bədii tikmə, milli geyim, zərgərlik və bədii metal nümunələri nümayiş olunurdu. Xalça muzeyi Şuşa filialı xalça nümunələrinin məhz xarici ölkələrdə təbliği məqsədilə ABŞ-da fəaliyyət göstərən "Qarabağ Fondu" ilə əməkdaşlıq edir. Halhazırda Şuşa xalça muzeyi öz fəaliyyətini Azərbaycan Xalça Muzeyində davam etdirir.

Muzeylər bütün dünyada turizmin çox böyük bir hissəsini təşkil edir. Ölkəmizdə mədəniyyət və turizmin inkişaf etdirilməsi üçün bir sıra layihələr, təbliğat işləri həyata keçirilir. Tarixi torpaqlarımıza həm yerli turistlərin, həm də xarici turistlərin cəlb olunması milli-mədəni irsimizi təbliğ etməklə yanaşı, qorumaq və gələcək nəsillərə çatdırmaq əsas prioritetlərdən biridir. Bu gün Azərbaycan ordusu döyüş meydanında tarixi ədaləti bərpa edib və yaşayış məntəqələrimizi düşməndən azad edib. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Tapdaq altında olan, vaxtilə zənginliyi ilə diqqət mərkəzində olan muzeylərinmizin yenidən fəaliyyətinin bərpası, gənc nəsillərə çatdırılması və tariximizin qorunub saxlanılması böyük bir addımdır. Azərbaycan xalqının məhv edilmiş qədim, əvəzolunmaz qiymətli mədəni sərvətləri və abidələri yenidən Dağlıq Qarabağ ərazisində canlandırılması turizmin inkişafına birbaşa müsbət rol oynayır. Heç şübhəsiz ki, Qarabağ Azərbaycanda turizmin inkişafına yeni töhfələr verəcək.

İstifadə olunmuş ədəbiyyat:

1. H.Sultanova. “Azərbaycan Respublikasında turizm və onun inkişafı” – Bakı-2015.
2. Q.Hacıyev. “Qarabağın maddi və mənəvi mədəniyyəti”.-Bakı-2010.
3. Y.Araplı. “Azərbaycanda muzey quruculuğu və muzeyşunaslığın inkişafı” — Bakı-2013.
4. Ə.Cabbarov. “Turizmin iqtisadi əsasları” – Bakı-2015.
5. Ə.Cabbarov. “Turizmin inkişafının regional problemləri”- Naxçıvan-2008.

Hüseynov Rafiq İlkin oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: rafiq.huseynov.2017@mail.ru

GƏNCƏ ŞƏHƏRİ İLƏ MÜQAYİSƏ OLUNAN SƏMƏRƏLİ ŞƏHƏR YERLİ ÖZÜNÜİDARƏEDİLMƏ MODELLƏRİ

Gəncə şəhərini digər şəhərlərlə müqayisəli təhlil edərkən həm daxili, həm də xarici modellərə nəzər yetirmək lazımdır. Daxili modellərdən örnək olaraq Sumqayıt və Bakı şəhərlərini qeyd etmək mümkündür. Çünki bu şəhərlərin gəlir səviyyəsi və əhalinin iş imkanları digər şəhərlər ilə müqayisədə çox yüksəkdir. Adı çəkilən şəhərlər artıq uzun müddətdir öz xərclərini gəlirləri hesabına qarşılaya bilir. Həm Sumqayıt, həm də Bakı şəhərində bir çox istehsal və emal müəssisələri yaradılmışdır. Məhz buna görə də Bakı sənaye həcminə görə Cənubi Qafqazda birinci, Sumqayıt isə ikinci şəhərdir. Şübhəsiz ki əsas təbii sərvətlərimiz olan neft və qazın hasilat mərkəzinə yaxın olmaları belə nəticələrin əldə olunmasına səbəb olmuşdur. Sumqayıt hazırda Bakı üçün yardım rolunu yerinə yetirir və ekoloji tarazlığın pozulmaması üçün də bəzi emal müəssisələri məhz burada yaradılır. 2019-cu il büdcə təqdimatında Gəncə şəhərinin gəlirləri 47.9 mln. manat proqnozlaşdırılmışsa, Sumqayıt üçün bu məbləğ 89.9 mln. manat, Bakı üçün isə 6 milyard manatdan çoxdur. Gəncə şəhərində neft-qaz sənayesi ilə bağlı hər hansı müəssisələrin olmasını gözləmək heç doğru olmaz. Əvəzində bu bölgədə daha öncə vurğulandığı kimi, qara və əlvan metallurgiya sahəsi üzrə emal müəssisələrinin qurulması daha real və mümkündür. Gəncə şəhərinin mövcud iqtisadi vəziyyəti haqqında olan bölmədə, şəhərdə sənaye müəssisələri sayının 2017-ci ilin sonu üçün qeydə alınan göstəricidə olduğu qeyd edilmişdir. Sumqayıt şəhəri üçün bu göstərici 116, Bakı şəhəri üçün isə ətraf qəsəbələri ilə birgə 1253 olmuşdur. Ancaq 2017-ci ildən sonrakı dövr ərzində də Sumqayıt və Bakı ərazisində sənaye müəssisələrinin sayında artım olsa da, Gəncə üçün bunu söyləmək yanlış olardı. Üç şəhər üzrə sənaye müəssisələri sayı ilə bağlı statistik göstəricilər ilə aşağıdakı cədvəldə tanış olmaq olar:

Qrafik 1.

Gəncə və Sumqayıt üzrə sənaye müəssisələrinin say dinamikası.



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/) İqtisadi statistika/Sənaye/Regionların sənayesi/Regionlar üzrə fəaliyyət göstərən müəssisələrin sayı.

Böyük sənaye müəssisələri kimi, kiçik sahibkarlıq subyekləri də regionların və ümumi olaraq ölkə iqtisadiyyatının təməlini təşkil edirlər. Böyük sənaye müəssisələrinin normalda məhdud sayda olmasına baxmayaraq, kiçik sahibkarlıq müəssisələri daha çox sayda olur və "güc birlikdədir" prinsipi ilə yanaşıldığı zaman onların fəaliyyəti iqtisadiyyata böyük təkan və töhfə verir. Məhz buna görə də bütün ölkələrdə kiçik və orta sahibkarlığına diqqət və qayğıya xüsusi önəm verilir. Bu tip müəssisələr ölkənin ÜDM-nə, işçi qüvvəsinin sayının artımına güclü təsir göstərir. Bu məlumatları statistik faktlarla təsdiqləmək üçün aşağıdakı qeydlərə nəzər yetirək: 2017-ci ilin statistik göstəricilərində turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində çalışan insanların sayında kiçik və orta sahibkarlıq subyektlərinin payı 39.5%, ticarət sahəsində 37.5% olmuşdur. Turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində məhsul buraxılışında kiçik və orta sahibkarlıq subyektlərinin payı isə 2017-ci il üzrə 48.5% olmuşdur.

Gəncə şəhəri bu istiqamət üzrə Sumqayıtdan geri qalır. Məhsul buraxılışının da həcmi təbii ki, bölgədə olan kiçik, orta və böyük həcmli olmaqla bütün sahibkarlıq, istehsal müəssisələrinin sayından asılıdır. Yeni istehsal və xidmət yaradan bütün subyektlər məhsul buraxılışında rol oynayır. 2015-ci ildə ümumi məhsulun 28.0 faizi sənayedə, 0.3 faizi kənd təsərrüfatında, 37.1 faizi tikintidə, 8.5 faizi nəqliyyatda, 0.6 faizi informasiya və rabitə sahəsində, 25.5 faizi ticarət və xidmət sahələrində istehsal olunmuşdur. Ümumi daxili məhsul buraxılışının 65.4 faizi iqtisadiyyatın istehsal, 34.6 faizi isə xidmət sahələrinin payına düşmüşdür (6).

2015-ci il göstəricilərinə əsasən "Gəncə Avtomobil zavodu" İstehsalat Birliyi, "Cihazqayırma zavodu" ASC, "ELBA" MMC, "Gəncə Dəyirman" MMC, "Azeri-Arapoğlu", "Gəncə Qənnadı" ASC, "DE-TAL Alüminium" MMC, "Sem-San" şirkətlərində iqtisadi artım müşahidə olunmuş və öncəki il ilə müqayisədə bu müəssisələrdə 47.0 milyon manatdan çox məhsul istehsalı reallaşdırılmışdır. Adı çəkilən müəssisələr həm də şəhərdə fəaliyyət göstərən böyük sənaye müəssisələri hesab olunur. İstehsal olunan məhsulun 63.7 faizi ölkə daxilində, 36.3 faizi Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrə ixrac edilmişdir. Bu faiz göstəricisinin ilk mərhələdə ən azından bərabərləşməsi lazımdır ki, istehsal olunmuş məhsullar üçün əlavə bazarlar tapılsın və

istehsal həcmi də buna müvafiq olaraq daha da artsın.

Ümumi məhsul buraxılışı 2017-ci ildə 977,4 mln. manat, kənd təsərrüfatı məhsulları 2,7 mln. manat, sənaye məhsulu 381,8 mln. manat olmuşdur.(Qrafik). Əsas kapitala yönəldilmiş investisiyalar 294,0 mln. manat, tikinti-quraşdırma işlərinin həcmi 262,6 mln. manat olmuşdur. 2003-2017-cı illər ərzində Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə 490 sahibkara 67,7 mln manat güzəştli kredit verilmiş, 2007-2015-ci illərdə kənd təsərrüfatı istehsalçılarına 32,7 min manat subsidiya ayrılmış, 2003-2017-ci illər ərzində 52 min 404-ü daimi olmaqla, 60 min 141 yeni iş yeri açılmışdır (3).

Qrafik 2.

Gəncə və Sumqayıt şəhərləri üzrə məhsul buraxılışı dinamikası, cari qiymətlərlə, min manatla



Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/)/İqtisadi statistika/Milli Hesablar Sistemi/ Regionlarda ümumi məhsul buraxılışı və əhalinin gəlirləri.

Tədqiqat zamanı müqayisə olaraq daha çox qardaş ölkə Türkiyə modellərindən bəhs olunur. Müqayisə olunacaq şəhər modelindən biri də Türkiyə nümunəsindən seçilən Elazığ şəhəridir. Bu şəhər eyni zamanda Gəncə ilə qardaşlaşmış şəhərlər sırasındadır. Əhalisinin sayının 600 min nəfərə yaxın olması, ölkənin daxili hissəsində yerləşməsi, dəniz sahilinə yaxınlığının olmaması və həmçinin Gəncə ilə qardaşlaşmış şəhər olması müqayisə üçün bu şəhərin seçilməsinə səbəb oldu.

Şəhərin iqtisadiyyatı əsas olaraq xidmət, sənaye və kənd təsərrüfatı sektorla-rında aparılan fəaliyyətlər ilə inkişaf etməkdədir. Gəncə şəhərində də hazırda xidmət və sənaye sahələrinin, xüsusilə də xidmət sektorunun daha ön plana çıxdığı müşahidə edilməkdədir. Elə bu tədqiqatın məqsədi də xidmət və sənaye sektoru üçün araşdırma

və analizlərə əsaslanan yeni istiqamətlər, layihələrin təklif edilməsidir. Müqayisə modeli olaraq seçilən Elazığ da yüksək səviyyədə təşkil edilmiş sənaye zonaları ilə önəmli bir sənaye infrastrukturuna sahibdir. Yeraltı sərvətləri ilə də Türkiyənin ən önəmli şəhərlərindən olan Elazığ 2014-cü ildə həyata keçirdiyi ixracatın 92%-ni məhz bu sektorda reallaşdırmışdır. Bundan başqa, balıqçılıq, qida məhsulları və içki istehsalı, maşın, tekstil və mebel kimi müxtəlif sektorlar, bölgədəki rəqabət ilə şəhərin iqtisadiyyatının təməlini təşkil edir. Balıqçılıq sektorunda 14400 ton alabalıq istehsalı ölkədə birinci olan Elazığ, bu sektorda potensial imkanları ilə dünyanın əhəmiyyətli bir mərkəzidir.

Cədvəl 1.

Elazığ şəhərinin 2020-ci il üzrə ixracat reallaşdıran sektorları

Sektor	İxracat həcmi ($)
Ağac məhsulları	2.387.000
Polad	763.000
Mədən məhsulları, dəmir və digər metallar	207.101.000
Dəri və dəri məhsulları	5.000
Elektrik məhsulları	3.000
Fındıq və fındıq məhsulları	2.000
Xalça	5.000
Geyim malları	133.000
Taxıl, paxlalı, yağlı toxum və məhsulları	821.000
Kondisioner sənayesi məhsulları	904.000
Kimyəvi maddələr və məhsullar	2.944.000
Quru meyvə məhsulları	35.000
Maşın və maşın avadanlıqları	1.044.000
Meyvə-tərəvəz məhsulları	94.000
Dəniz və heyvandarlıq məhsulları	11.495.000
Avtomobil sənayesi	15.000
Digər	30.000
TOPLAM	227.893.000

Mənbə: TİM, 2014 (http://www.elazigyatirim.gov.tr/tr/Sitecontents/page/40)

Elazığ ölkə ərazisində yerləşdiyi bölgənin iqtisadi olaraq ən inkişaf etmiş şəhərlərindəndir. Şərqi Anadolu bölgəsinin Qərbə açıldığı nöqtədə yerləşən şəhərdə ticarət və sənayenin inkişafı sürətlə davam edir. 2014-cü ildə toplam ixracı 227.9 mln. ABŞ dolları həcmində olmuşdur. Bununla da yerləşdiyi Şərqi Anadolu bölgəsinin ən çox ixrac edən ikinci şəhəridir.Cədvəldən göründüyü kimi, xidmət sektoru daxilindəki tikinti və ticarət sahələri, eyni zamanda sənayeləşmə və şəhərləşmə istiqamətləri ilə yaratdığı gəlir və məşğulluq səviyyəsinə görə şəhər iqtisadiyyatının önəmli sahələrindəndir. 40 illik bir tarixə sahib olan Fırat universiteti xüsusilə mühəndislik sahəsində ölkənin öndə gedən universitetlərindəndir və universitet-sənaye iş birliyi üzrə önəmli addımlar atmışdır. Elazığ ixtisaslı kadrları ilə investorlar üçün əlverişli şərait yaradır. Ankaranın Şərqində tək texniki təhsil verən fakültənin burada yerləşməsi iş dünyasının ehtiyacı olduğu kadr bazasını yaradır. Burada da Gəncə şəhəri ilə müəyyən yaxınlıq mövcuddur. Azərbaycanda da aqrar sahədə ixtisaslı kadrlar yetişdirən tək ali təhsil müəssisəsi ADAU-dur ki, bu universitet də Gəncə şəhərində yerləşir. Buradan

məzun olan ixtisaslı kadrların formalaşması ilə şəhərdə fərqli istiqamətlərdə qida emalı zavodları yaradıla bilər ki, bu da yeni ixrac istiqamətləri yaradar. Elazığ modelinə nəzər saldığımız zaman görürük ki, cədvəl fərqli istiqamətli qida məhsullarının ixracı statistikaları göstərilmişdir. Bu tip qida məhsullarını və hətta daha fərqli növlərini mövcud kadr bazası ilə formalaşdırmaq mümkündür. Aqrar Universiteti nəzdində aqrotexnologiya, aqrar iqtisadiyyat, aqrobiznes və idarəetmə kimi fakültələr mövcuddur ki, aqrotexnologiya fakültəsi daxilində də qida məhsulları mühəndisliyi və ekspertizası, onların dizaynı kimi kafedralar vardır, burada yetişən ixtisaslı kadr bazası hesabına şəhərdə fərqli istiqamətlər üzrə qida məhsulları istehsalı müəssisələrinin yaradılması üçün əlverişli şərait mövcuddur.

İstifadə olunmuş ədəbiyyat:

1. Atakişiyev Müşfiq. “Regionların inkişafı iqtisadi siyasətdə prioritet istiqamət olaraq qalır”, Azərbaycan-2009-3 mart.
2. Gəncə Şəhər İcra Hakimiyyəti 2018-ci il yerli gəlir və xərclər üzrə hesabatı
3. Gəncə şəhərinin statistik göstəriciləri, statistik məcmuə, Gəncə Şəhər Statistika İdarəsi, 2015, 117 səh.
4. Mahmudov M.M., Mahmudova İ.M./Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi/“İqtisad Universiteti” Nəşriyyatı, 2011, 370 səh.
5. Nigar M., Palitra.-2011.- 19 avqust.- S.7.
6. Qasımov H., “Gəncənin səsi” qəzeti, 15 mart 2016.
7. Səlimzadə M, Xəlilov Q., Yerli özünüidarəetmə:anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsaslar, Bakı – 2010, 132 səh.

Hüseynzadə Duxu, magistrant,
Bakı Biznes Universiteti
Email: duxuhuseynzade@gmail.com

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İDARƏTMƏNİN TƏNZİMLƏNMƏ FORMALARI

İdarəçilik, müəyyən bir idarəetmə növü kimi ümumi və spesifik xüsusiyyətlərə malikdir. Müasir idarəçiliyin xüsusiyyətlərini müəyyən edən əsas amillər elmi ədəbiyyatda fərqli şəkildə nəzərdən keçirilir. Birinci yanaşma, xalqın antropoloji xüsusiyyətlərin, milli təfəkkürün və sosial dəyərlərin öyrənilməsindən, tarixən formalaşmış və insanlar arasındakı münasibətlərdə öz təzahürlərini tapmaqdan, milli hökumət sisteminin formalaşması prosesində nəzərə alınmayan nəticələrdən qaynaqlanır. A.P.Butenko, Y.V.Kolesniçenko və L.S.Viqotskinin araşdırmasına əsaslanaraq genetik, tarixi, təbii iqlim amillərini müəyyənləşdirir və zehniyyəti bir insanın və bütün millətin sosial davranışını təyin edən "kod" olaraq təyin edirlər. M.A.Kartavy və A.N.Nekhamkin zehniyyət tərəfindən insanların, şüurda və praktik fəaliyyətlərdə özünü büruzə verən bir şəxsin, bütövlükdə millətin hərəkət və davranışlarının şüuraltı bir sosial-psixoloji "proqramı" başa düşür və buna görə də zehniyyət milli idarəetmənin ən vacib elemen-

tidir. Beləliklə, ilk yanaşmaya əməl edən alimlərin əksəriyyəti rus idarəetmə modelinin zehniyyətin milli xüsusiyyətlərinə uyğun özünəməxsus məzmununa malik olması ilə nəticələnirlər.

Azərbaycan idarəetməsinin xüsusiyyətlərini xarakterizə edən əsas amillərin müəyyən edilməsinə başqa bir baxış - Azərbaycanda effektiv idarəetmənin inkişafına spesifik xüsusiyyətlərin müsbət və ya mənfi təsiri baxımından balanslı qiymətləndirilməsini əhatə edir. Azərbaycan idarəetməsinin xüsusiyyətlərinin öyrənilməsi bir tərəfdən, milli idarəetmə sistemində mövcud olan məhdudiyyətləri dərk etməyə kömək edən, digər tərəfdən yerli, müəssisələrin qlobal dünya iqtisadiyyatına inteqrasiyasında həqiqi rəqabət üstünlükləri kimi xidmət edə biləcək fərqli xüsusiyyətləri müəyyənləşdirməyə yönəlmişdir. Effektiv idarəetmə modeli də daxil olmaqla milli idarəetmə dəyişməz və sabit bir şey kimi qəbul edilə bilməz. Bu idarəetmə modeli dinamik inkişaf edən bir sistemdir. Onun mahiyyətini yalnız daxili idarəetmənin effektiv modelini tərtib edərkən nəzərə alınmalı olan milli zehniyyətin və əsas dəyərlərinin təkamül inkişafının təhlili əsasında anlamaq mümkündür [5, s.67].

Fikrimizcə, müasir zehniyyət alimlərinin milli zehniyyətin və idarəetmə modelinin fərqli xüsusiyyətlərinin məzmunu ilə bağlı fikirlərinin araşdırılması müəyyən elmi və praktik maraq doğurur. A.S.Azikher əmindir ki, insanların milli xarakterində müəyyən dəyişikliklər olsa da, müasir arxetipin sosial münasibətləri az dəyişmişdir, bunlar aşağıdakılardır:

– səbr etmək qabiliyyəti;
– mənəviyyat və maddənin mənəvi üstünlüyü;
– dövlətçilik və atalıq;
– sosial utopiyaya meyli, həyatın möcüzəvi və yerdənkənar çevrilməsini gözləmək;
– ekstroversiya, ünsiyyətdə açıqlıq;
– qərbi olmayan adaptiv fərdiyyətçilik və qrup maraqları adına ağlabatan özünütəsdiq üçün aşağı qabiliyyət;
– necə getməyinizi təklif edən bir növ xarici "nümunə" üçün daimi ehtiyac.

E.A.Neretina'nın vurğuladığı kimi, “Asiya və Avropa prinsipləri arasındakı bu ziddiyyət sırf xarici deyil, ərazi deyil, daxili, cəmiyyətin hər hücrəsinə xasdır. Bunun aradan qaldırılmasının yeganə yolu bu iki prinsipin vahid bir bütöv çərçivəsində üzvi bərpası və ahəngdar birləşməsidir .

Fikrimizcə işğaldan azad edilmiş ərazilərdə idarəetmənin tənzimlənməsi üçün milli dəyər sisteminin bu bənzərsiz xüsusiyyəti, Avropanın fərdi düşüncə ideyasını Asiya kollektivizmi ideyası ilə məharətlə birləşdirmək bacarığı idarəetmə sisteminin qurulması prosesində istifadə edilməlidir. Yaponiyada idarəetmə sisteminin formalaşmasında milli dəyər sisteminin xüsusiyyətlərindən istifadə birinci dərəcəli nəticələr verdiyi tarixən sübut edilmişdir. Bu arxetipinin bir çox xüsusiyyətlərinin potensialı Yaponiyada olduğu kimi, ölkənin iqtisadi inkişafının mühərrikinə çevrilə bilər, buna əsaslanaraq həmin ərazilərdə daxili idarəetmənin müəyyən xüsusiyyətlərinə hədəfli təsir göstərərək sonuncunun effektivliyini artırmaq mümkündür.

Beləliklə, inkişafın bu mərhələsində milli təfəkkürün bütün xüsusiyyətlərini özündə cəmləşdirən mövcud idarəetmə sisteminin hələ minilliyin başlanğıcında qarşılaşdığı tarixi çətinliklərə uyğun olmadığını iddia edən elm adamları ilə razılaşmaq

olar. Yeni iqtisadiyyatın şərtlərinə uyğun olan effektiv idarəetmə modelini qurmaq üçün nəinki əsrlər boyu mövcud olmuş milli zehniyyət və idarəetmə sisteminin xarakterik xüsusiyyətlərini müəyyənləşdirmək məqsədəuyğundur. "Zəng siqnalları" na əsaslanaraq, işğaldan azad olunmuş ərazilərdə əhəmiyyətli nəticələrin əldə olunmasını təmin edən idarəetmə modelinin inkişafının əsas istiqamətlərini - yerli müəssisələri "mükəmməl" idarəetməyə yaxınlaşdırmağı müəyyən etmək lazımdır.

Beləliklə, gələcəkdə işğaldan azad olunmuş ərazilərdə yaradılacaq müəssisələrdə idarəetmənin səmərəliliyininin artırılması müəssisənin gələcək fəaliyyəti ilə əlaqədar daha dəqiq proqnozların verilməsinə şərait yaradacaq.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
2. Quliyev T. "Menecmentin (idarəetmənin) əsasları". Bakı, 2006, 591 s.
3. Məmmədova Ş.R. Sənaye müəssisəsinin istehsal planının optimallığında strateji analiz və planlaşdırmanın müasir aspektləri // "Geostrategiya" ictimai-siyasi, elmi-populyar jurnalı. İyul-avqust 2017 № 04(40), S.58-60.
4. Sadıqov R. "İstehsal müəssisələrində strateji idarəetmənin təkmilləşdirilməsi", Bakı, 2018, 261s.
5. https://president.az

Məcidli İbrahim, magistrant,
Bakı Biznes Universiteti
Email: *ibrahimmajidli96@gmail.com*

ÜMUMİ KEYFİYYƏT MENECMENTİNDƏ MÜŞTƏRİLƏRİN ROLU

Ümumi keyfiyyət menecmenti, məhsul və xidmətlərin keyfiyyətini artırmaq üçün müəyyən bir təşkilatın işçiləri ilə birlikdə rəhbərliyin davamlı səyini ifadə edir. Şiddətli rəqabətdən xilas olmaq üçün müəssisələr kəmiyyətdən çox məhsulun keyfiyyətini üzərində dayanmalıdırlar. Bugünkü ssenaridə bazarda rəqib qıtlığı yoxdur. Əvvəlcədən müştəriyə vəd etdiyinizi çatdırmırsınızsa, niyə müştəri yenidən sizinlə işləmək üçün geri dönsün? Bir dəfə aldatmaq olar, amma iki dəfə deyil. Keyfiyyət hər bir müəssisə üçün vacib bir parametrdir və nəyin bahasına olursa-olsun laqeydlik göstərilməməlidir.

Müştərilərə keyfiyyətli məhsul və xidmətlərin çatdırılması məsuliyyəti təşkilatla ən uzaqdan belə əlaqəsi olan hər bir fərdin çiyinlərindədir. Yalnız rəhbərlik deyil, həm də təyinatlarından asılı olmayaraq işçilər, tədarükçülər, ara müştərilər, son istifadəçilərin gözləntilərinə cavab verən və hətta daha yaxşı keyfiyyətli məhsullar təqdim etmək üçün qüsursuz sistemlər və proseslər hazırlanmasına tövhə verəcək fikirlər irəli sürməlidirlər.

Uğurlu və uğursuz iş arasındakı əsas fərq nədir?

Bir müəssisə yalnız məhsul və xidmətlərinin bazarda kifayət qədər alıcısı olduq-

da uğur qazanır. Bəli, bir neçə başqa parametr də var, lakin müştərilər bir təşkilatın uğur və uğursuzluğuna qərar verməkdə həlledici rol oynayırlar. Ticarət marketoloqları son istifadəçilərinə və təşkilatından tam olaraq nə gözlədiklərinə diqqət yetirməlidirlər. Müştərilərin rəyləri hər hansı bir böyük iş strategiyası hazırlamadan əvvəl mütəmadi və diqqətlə izlənilməlidir.

Ümumi keyfiyyət menecmenti daha yaxşı müştəri məmuniyyəti və yüksək keyfiyyət təqdim etmək üçün işçilərin bu proseslərdə və sistemlərdə hər hansı bir dəyişiklik etməmişdən öncə hədəf müştərilərini yaxşı başa düşməsini təmin edir. Əslində təşkilatlar müştəri bazalarını və müştəri məmnuniyyət səviyyələrini artırmaq üçün ümumi keyfiyyət idarəçiliyinə və ya hər hansı digər keyfiyyət idarəetmə prosesinə başlayırlar. Ümumi keyfiyyət menecmenti, bir təşkilatın nə olursa olsun heç yerə getməyən sadiq müştərilər bazasını artırır.

Məhsulun keyfiyyəti yalnız davamlılığı, qablaşdırılması, etibarlılığı, vaxtında çatdırılması və s. baxımından deyil, həm də müştərinin təşkilatla ümumi təcrübəsi ilə müəyyən edilir. Müştərilərin narazılığının işin itirilməsinə səbəb olduğunu unutmayaq. Xidmət sahəsində işçilər xoşbəxt və sadiq müştərilərə sahib olmaq istəyirlərsə həssaslıq, diqqət və peşəkarlıqla müştərilərlə qarşılıqlı əlaqə qurmalıdırlar. Müştərilərə məhsul və xidmətlər haqqında hiss etdiklərini bölüşmələri üçün müxtəlif rəy formaları hazırlanmalıdır. Sözsüz, bəzən geribildirimlə təşkilatın xeyrinə olsa da, işçinin xeyrinə olmaya bilər. Müştərilərin mənfi şərhləri və rəylərinə laqeyd yanaşılmamalıdır. Ümumi keyfiyyət menecmentinin bir hissəsi olaraq, işçilər ortaq bir platformada oturmalı, fikirləri mübadilə etməli və müştərinin gözlədiyi nəticəyə çatmaq üçün sistemləri və prosesləri inkişaf etdirəcək konkret həllərə gəlməlidirlər. Müştərilər görməməzlikdən gəlindiyi təqdirdə heç bir ümumi keyfiyyət idarəetməsindən danışıla bilməz.

Məmnuniyyət, qavranılan performans (keyfiyyət və gözləntilər) gözləntilər arasındakı fərq kimi izah edilə bilər. Müştərinin məmnuniyyətlə əlaqəli üç vəziyyəti ola bilər. Performans keyfiyyət gözləntilərdən aşağıdırsa, müştəridə narazılıq yaranır. Performans gözləntilərə uyğun olarsa, müştəri məmnun qalır. Performans gözləntiləri aşarsa, müştəri yüksək səviyyədə razı qalır və hətta ləzzət alır. Müştərilərin məhsulla bağlı gözləntilərini formalaşdıran bir çox amillər var. Müştərilərin keçmiş alış təcrübələri, yaxın ətraf mühitin fikirləri, rəqiblərin vədləri, satış sonrası xidmət bu amillərdən yalnız bir neçəsidir.

Bu gün baş verən dəyişikliklər müəssisələrin strategiyalarında bəzi dəyişikliklərə səbəb olur. Bu istiqamətdə iki növ strategiyadan- aqressiv strategiyadan və müdafiə strategiyasından danışmaq mümkündür. Bugünkü şəraitdə, aqressiv strategiyalar tətbiq edən, davamlı olaraq yeni müştəri qazanan, rəqiblərin əlində olan müştəriləri tutmağa çalışan o müəssisələrdir ki ciddi bir maliyyə yükü altına girirlər. Müdafiə strategiyalarının tətbiqi müştəri məmnuniyyətinin təmin edilməsi və müştərilərin mövcud olması baxımından vacibdir.

Məmnun müştərilərin müəssisəyə gətirdiyi bir çox üstünlüklər vardır. Məmnun müştəri:

– sadiq müştəri olma yolunda addım atır və daha çox məhsul alır;

– müəssisənin istehsal etdiyi digər məhsullardan alır;

– iş və müəssisənin istehsal etdiyi məhsullar haqqında müsbət düşüncələr bəslədiyi üçün müəssisənin müsbət imic qazamasına kömək edir;

– rəqiblərin markalarına və məhsullarına daha az həssasdır.

Əgər məhsul fizikidirsə, aşağıdakı göstəricilərə cavab verdikdə müştərilər razı qalırlar:

– davamlılıq;
– etibarlılıq;
– istifadəsi asan;
– uyğunlaşdırıla bilər;
– münasib.

Xidmət sahəsində müştərilər yalnız aşağıdakı hallarda məmnun qalırlar:

– işçilərin mehriban və nəzakətli davranması;
– işçilər dürüstdürlər və saxta vədlər vermirlər;
– işçilər asanlıqla əlçatandır;
– işçilər müştərilərin şikayətlərini dinləməyə və həll etməyə hazırdırlar.

Təşkilatlar müştəri müraciətlərinə vaxtında cavab verirlər.

İstifadə olunmuş ədəbiyyat:

1. D.R.Kiran - Total Quality management.
2. ISO 1002.
3. Arzu Mirheydərova - Keyfiyyətə nəzarət
4. Robert B. Woodruff, Sarah F. Gardial - Know your customer.
5. David L. Goetsch, Stanley B. Davis - Introduction to Total Quality.
6. Mirheydərova A.İ., Məmmədova E.H. - Keyfiyyətə nəzarət.
7. Kalite Kontrol ve Kalite Güvence Sistemleri - Orhan küçük
8. Drago Dubrovski - The role of customer satisfaction in achieving business excellence.

Atayev Kənan Nüsrət oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: *kenan.atayev.1998@mai.ru*

BANK SEKTORU VƏ RƏQƏMSALLAŞMA MEYLLƏRİ

Çağdaş dövrümüzdə dünyanın bir sıra ölkələrində iqtisadiyyatın bütün sahələrində rəqəmsallaşma inkişaf etməkdədir.İnkişaf etmiş ölkələrdə, həmçinin inkişaf etməkdə olan ölkələrin bəzilərində artıq heç bir coğrafi məkanda şöbəsi olmayan banklar fəaliyyət göstərir. Bankçılıq sahəsində qərarvermənin kompüterlərə tətbiq edilmiş təhlil mexanizmləri, alqoritmlər tərəfindən həyata keçirilməsi də kifayət qədər yayılmışdır. Rəqəmsallaşmanın üstünlükləri sahibkarlıq subyektlərinə, fiziki şəxslərə, banklara və ümumiyyətlə, bütün iqtisadiyyata gətirilən üstünlüklər nəzərdə tutulur. Ölkəmizdə isə bank sektorunda rəqəmsallaşma meyllərinin güclənməsinin iki əsas səbəbi vardır ki, onlardan biri rəqəbət mühiti, digəri isə dövlət tərəfindən rəqəmsallaşma üzrə dəstək və tələblərin artmasıdır. Müasir dövrümüzdə həm dövlət, həm də özəl sektorun elektronlaşmanın zəruriliyini qəbul etməsi və bu istiqamətdə müvafiq

addımların atılması əsas məqsədlərdən biridir. Lakin sürətin artması ilə bərabər, risklərində daim nəzarət altında olması, eləcə də rəqəmsallaşma yolundakı müəyyən maneələrin aradan qaldırılması çox önəmlidir. Cari dövrdə əksər banklarda ödəniş tapşırıqlarının icrası birbaşa deyil, yalnız bank daxilində manual, yaxud yarımavtomat rejimdə yoxlamalar həyata keçirildikdən sonra icra edilir. Bunun əsas səbəblərindən biri həmçinin köçürmələr üzrə bir sıra yoxlamaların, xüsusilə də çirkli pulların yuyulmasına nəzarət tədbirlərinin həyata keçirilməsi və ödəniş tapşırığının yalnız bundan sonra həyata keçirilməsidir. Sürətli rəqəmsallaşmanın özünəməxsus digər riskli tərəfləri də vardır. Bu sahədə sərt rəqabət bank sektorunda yeni elektron məhsullar tətbiq etməyi təşviq edəcəkdir.Həm rəqəbət, həm də digər tələblərdən qaynaqlanan sürətli rəqəmsallaşma bank sektorunda daha riskli məhsullar təqdim edilməsinə gətirib çıxara bilər. Bu isə bankları çox sərt informasiya təhlükəsizliyilə qarşı-qarşıya qoya bilər. Bank sektorunda kibertəhlükələrin qarşısının alınması üçün lazimi tədbirlərin görülməsi reallıqda qısa müddət ərzində həll oluna bilən məsələ deyildir.

Azərbaycan Respublikasında da son dövrlərdə, xüsusilə də 2018-ci ildən başlayaraq, elektronlaşma, rəqəmsal inkişaf meylləri sürətlə güclənməyə başlamışdır. Ölkəmizdə fəaliyyət göstərən bankların böyük bir hissəsi internet və mobil bankçılığa sürətlə keçid etmişdir. Ölkəmizdə rəqəmsal ödənişlərdən istifadənin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə 2018-ci il 26 sentyabr tarixli Prezident Sərəncamı ilə "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib və bu sənəddə müəyyən edilmiş tədbirlər Mərkəzi Bank və aidiyyəti dövlət qurumları tərəfindən icra olunur.Bunun nəticəsidir ki, 2018-ci ildə ölkəmizdə fəaliyyət göstərən 30 kommersiya bankından 27-sində internet bankçılıq, 25-ində isə mobil bankçılıq xidmətləri təklif edilməyə başlamışdır.

Rəqəmsal ödəniş sistemlərinin əhatə və təsir dairəsi artıqca bank xidmətlərində bir sıra dəyişikliklər baş verməkdədir. Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı dərinləşdikcə, elektronlaşma və onun üstünlüklərinin iqtisadiyyatın müxtəlif sahələrilə yanaşı, bank sisteminə də transformasiya qaçılmazdır. Rəqəmsallaşmanın bank sistemində tətbiqinin genişlənməsi bankları ənənəvi bankçılq yanaşmasını dəyişməyə və yeni əməliyyat modellərini formalaşdırmağa sövq edir. Rəqəmsallaşma bank sistemində iştirakçılar arasında rəqabəti yeni müstəviyə keçirərək bank xidmətlərinin innovativ ödəniş texnologiyaları və həlləri arasında tətbiq edilməsinə, yeni müştəri seqmentinin formalaşmasına səbəb olur. Beynəlxalq təcrübədə rəqəmsallaşmanın tətbiqi nəticəsində son on illə müqayisədə bank sektorunda daha az filialların və bank əməkdaşlarının olmasını, informasiya texnologiyalarının tətbiqi və inkişafına daha iri həcimli vəsaitlərin ayrılmasını, iş saatlarının müddətinin uzadılmasını əməliyyat müddətlərinin qısalmasını, həmçinin bir sıra bankların xidmətlərini məsafədən təqdim etməyə üstünlük verməsini müşahidə etmək olar.

2019-cu il iyulun 1-nə olan məlumata əsasən ölkə üzrə ödəniş kartlarının sayı 2018-ci ilin müvafiq dövrünə nisbətən 14,7% artaraq 7 milyon ədədi ötüb.2019-cu ilin birinci yarısı üzrə bankların quraşdırdığı POS-terminalların sayı 63 min 396 ədəd olub ki, bunun da 25 min 747 ədədi təmassız POS-terminallardır.2018-ci ilin eyni dövrü ilə müqayisədə təmassız POS-terminalların sayı 23,5% (4.904 ədəd) artıb. Qeyd edilən dövrdə ödəniş kartları ilə aparılan əməliyyatların həcmi 9 milyard 532 milyon manat təşkil edib. 2019-cu ilin ilk yarısında ödəniş kartları ilə aparılan əməliyyatlarda nağd-

sız hesablaşmaların çəkisi 20% təşkil edib ki, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 59% artım olub.

Tədqiqat apardığım ölkənin ən böyük kommersiya bankı olan Azərbaycan Beynəlxalq Bankı elektron bankçılıq xidmətləri üzrə liderdir. Belə ki, Azərbaycan Beynəlxalq Bankı elektron bankçılq xidmətlərini mütəmadi olaraq inkişaf etdirir, həmçinin ölkədə nağdsız ödəniş infrastrukturunun inkişafına davamlı dəstək verir. Bankın aktiv plastik kartlarının sayı 1 milyon 300 mindən çoxdur. 762 ATM-i ilə Azərbaycan Beynəlxalq Bankı ölkədə ən geniş ATM şəbəkəsinə malik bankdır. Hal-hazırda müxtəlif ticarət və xidmət mərkəzlərində bankın 12 min 250 POS-terminalı fəaliyyətdədir. Eyni zamanda Azərbaycan Beynəlxalq bankı ən çox sayda beynəlxalq ödəniş sistemlərilə əməkdaşlıq edən kommersiya bankıdır.

Sonda belə bir nəticəyə gəlmək olar ki, bu gün ölkənin bank sektorunun rəqəmsallaşmada sürətli inkişafın baş verməsi təqdirəlayiqdir. Lakin növbəti dövr üçün risklər və maneələr mütləq olaraq mövcud reallıqları qəbul etməklə diqqətə alınmalıdır. Bu cür yanaşma zamanı yaxın gələcəkdə rəqəmsal inkişaf daha müsbət nəticələr verəcək və bank sektorunda əksər xidmətlər insanaların deyil, texnologiyanın tənzimlədiyi və kompüterlərdə alqoritmlərin idarə etdiyi bir xidmətə çevrilmə yolunu daha sürətlə davam etdirəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. AR Mərkəzi Bankının 2015-ci il üçün pul və maliyyə sabitliyi siyasətin əsas istiqamətləri barədə.
2. Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı .2018-ci il 26 sentyabr tarixli Prezident Sərəncamı.
3. Z.F.Məmmədov “Bank fəaliyyətinin əsasları” .Bakı, 2011.
4. Elnur Sadıqov. “Bank əməliyyatları”. Bakı, 2010.
5. R.A.Bəşirov .“Bank İşi”. Bakı, 2007.
6. www.banco.az
7. banker.az

Həsənova Könül Dilqəm qızı, magistrant,
Bakı Bines Universiteti
Email: konul.hesenova.1999@gmail.com

BÖHRAN VƏZİYYƏTİNİN YARANMASININ SƏBƏBLƏRİ

Böhranın səbəbləri müxtəlif ola bilər. Bunlara misal olaraq obyektiv tələbatların ödənilməsi dövri modernləşdirilməsi və restrukturizasiyasının dəyişməsi, subyektiv səhvlər və həmçinin iqlimin təbii xarakterizə edən hallar, zəlzələ və s. vəziyyətləri xarakterizə edən hadisələri göstərmək olar.Böhranın səbəbi xarici və daxili ola bilər. Xarici səbəblər dünya iqtisadiyyatının inkişaf tendensiyaları ilə makroiqtisadi inkişaf strategiyası hətta, ölkədə rəqabət mühiti, siyasi vəziyyətlə bağlıdır. Daxili səbəblərə isə marketinqin təhlükəli strategiyası, daxili münaqişələr, istehsalın təşkilində çatışmaz-

lıqlar, idarəetmənin natamamlığı, innovasiya və investisiya siyasəti aiddir.Böhranın təhlükəsi həmişə mövcuddur və onu qabaqcadan görmək və proqnozlaşdırmaq lazımdır. Böhranın nəticələri təşkilatın inkişafında kəskin dəyişikliklərə, o cümlədən uzunmüddətli və qısamüddətli proseslərin yeni fürsət almasına kəmiyyət və keyfiyyət baxımından fərqli vəziyyətlər də dönən və dönməz xarakter alırlar. Böhranın müxtəlif nəticələri yalnız onun xarakterilə təyin edilmir, həm də antiböhranlı idarəetmə prosesinin təşkilində peşəkarlıq, məsuliyyət, motivasiyanın xüsusiyyətləri baxımından adekvat addımların hansı formada olmasından asılıdır. Böhranın səbəbi – böhran simptomlarının meydana gəlməsində hadisə və ya hadisələr, onların əlamətləri və böhran amillər kimi əks olunur. Təşkilatın inkişaf fəaliyyətini əks etdirən göstəricilərin dəyişilməsi tendensiyaları böhranın yaranma simptomları hesab edilir. Belə ki, əmək məhsuldarlığının göstəricilərinin analizi, fəaliyyətin effektivliyi, maliyyə sistemi, gəlirlər, heyətin axıcılığı kimi, intizam, əmək prosesi ilə məmnunluq, mübahisəlik və başqaları böhranın gəlməsi ilə bağlı istehsal təşkilatının vəziyyətini xarakterizə edə bilərlər. Böhran inkişafının simptomuna göstəricilərin dəyişməsinin qanunauyğunlugunun pozulmasını göstərmək olar. Bu zaman adətən göstəricilər enmə istiqamətində dövr edirlər. Ancaq həmişə təşkilatın vəziyyətinin pisləşməsinin simptomları onun böhranına gətirmir. Simptom yalnız xarici təşkilatı "xəstəliyin" təzahür formasıdır, həmçinin "xəstəlik"də böhran səbəblərini üzə çıxarır. Böhranın amili — müəyyən tendensiya böhranının yaxınlaşmasına dəlalət edən, yaxud obyektin vəziyyətində qeydə alınan hadisədir. Beləliklə, böhranın yaranma mərhələlərinin aşağıdakı zəncirini təsəvvür etmək olar: 1) simptomlar 2) səbəbləri 3) amilləri.

Təşkilatda böhranın səbəblərinə iqtisadiyyatın ümumi vəziyyəti, personalın ixtisas dərəcəsi aşağı olması, iqtisadi nöqsanları, maliyyə çatışmazlıqları sistemini əsaslandırmaq olar. Simptomlar - böhranın ilk əlamətlərinin yaranmasıdır. Bu tendensiyaların sabitliyi, işgüzar münaqişələr, maliyyə problemlərinin artması və məhsulun keyfiyyətinin, texnologiya intizamının pozulması, kreditlər üzrə böyük borcun artması böhranın amili olacaqlar və s. Təşkilatda böhranların yaranması probleminə sistemli mövqe ilə yanaşmaq lazımdır. İstənilən təşkilat bütöv sistemdir, qarşılıqlı əlaqəli elementlərdən, hissələrdən, komponetlərdən ibarətdir. Öz həyat fəaliyyətinin prosesində sistem möhkəm və ya daimi olmayan vəziyyətdə ola bilər. Təşkilatda sistem daxili göstəriciləri statik və dinamik sabitliyi ayırırlar. Müəssisənin həyatında böhranlar və ya böhranların təhlükəsi daimi hadisədir. Buna birinci səbəbi qtisadi böhranların yaranmasının imkanı, istehsalın və malların istehlakının arasında uyğunluğun qırılması olur. İqtisadi böhranın mahiyyəti ödəmə qabiliyyətli olan ümumi tələbatla bağlı malların təkrar istehsalında görünür. İctimai kapitalın təkrar istehsal şərtlərinin pozulmasında, firmaların kütləvi müflisliklərində, işsizliyin artmasında və başqa ictimai-iqtisadi sarsıntılarda özünü göstərir. İlk iqtisadi böhran 1825-ci ildə İngiltərədə baş vermişdir ki, həmin vaxtadək kapitalizm quruluşu hakim olub. Növbəti böhran 1836-ci ildə ABŞ və Böyük Britaniyanı bürüdü. Böhran demək olar ki, bütün Avropa ölkələrinə 1847-ci ildə toxunub.Birinci dünya iqtisadi böhranı 1857-ci ilə aiddir.Həmin dövrdə inkişaf etmiş kapitalist sisteminin ən dərin vaxtları idi. Böhran 1873-1878-ci illərdə Avropa ölkələ-rinin və ABŞ-ın əksəriyyətini tutdu və bütünlüklə öz müddəti

ərzində əvvəlkiləri üstə-lədi. Neoklassik və liberal məktəblərin nümayəndələri iqtisadi böhranların səbəblərini kapitalizmin təbiəti ilə əlaqələndirməyərək müxtəlif fikrlər irəli sürürlər. Onların çoxu böhranların səbəbini əhalinin təkrar istehsalından meydana gələn yarımçıq istifadə etmə hesab edirlər. Amma ödəmə qabiliyyətlərində yaranan çatışmazlıq böhranların səbəbi ilə nəticə ola bilər. Neoklassiklər deyirdilər ki, yığımın yüksək səviyyəsi iqtisadi artımın mühüm şərtidir, çünki o, müəssisələri investisiya resursları ilə təmin edir. Lakin C.M.Keyns göstərdi ki, yığımın artımı istehsalın ümumi həcminə və məşğulluğa neqativ təsirinə görə ziyanlı ola bilər. İstehlak artımının sürətinin azalması məcmu tələbin daha ləng artması deməkdir, bu da sahibkarların məhsul yaratmaq və əlavə investisiyalar qoymaq istiqamətində maraqlarına mənfi təsir göstərir. Belə vəziyyəti Keyns «qənaətcillik paradoksu» adlandırmışdı ki, bu da o deməkdir ki, yığımın artması iqtisadiyyatın inkişafına deyil, artıq istehsal böhranına və tənəzzülə səbəb ola bilər. Marksist mövqedə olan iqtisadçılar böhranların səbəbini uyğunsuzluq və ya natarazlıq kimi hesab edirdilər. Böhranlar, təbii hərəkətləri ilə iş sahələri arasında düzgün nisbətlərin olmaması ilə şərtlənir. Böhranların psixoloji nəzəriyyəsi var. Bu nəzəriyyəyə görə psixoloji mənzərə hər bir fazasına xas tələş və pozğunluq böhran vəziyyəti yaradan münasibət investisiya, kapital qoyuluşunu durğunluğa doğru aparırlar, yüksək əhval-ruhiyyə yüksəlişi şəraitində həyəcanı stimullaşdırır. Dəyişən vəziyyət qeyri-müntəzəmlik investisiya mərhələni formalaşdırır. İqtisad elmində indiyədək iqtisadi böhranların səbəbini izah edən müxtəlif nəzəriyyələr hazırlanıb. Böhranlara və onların səbəblərinə baxışların qiymətləndirilməsi zamanı qeyd etmək lazımdır ki, onlar ictimai-iqtisadi mühitin dəyişikliyi ilə birlikdə müxtəlif formaya çevrilirlər. Bunu nəzərə alaraq bir sıra iqtisadçılar böhran hadisələrində dövriliyə baxışların dəyişikliyində üç mərhələ ayırırlar. Birinci mərhələ XVIII əvvəlindən XX əsrin 30-ci illərin ortalarına qədər dövrü əhatə edir ki, mülahizələr üstünlük təşkil edib ki, iqtisadi böhranlar kapita-lizmdə mümkün deyil (C.Mill, D.Rikardo) və ya onlar yalnız təsadüfi xarakter kəsb edərək azad rəqabət sisteminin öhdəsindən gəlməyi müstəqil bacarıqlıdır. (J.Ş.Sismondi, P.Rodbertus, K. Kautskiy). İkinci mərhələ 30-cu illərin ortalarından 60-cı illərə qədər dövrü əhatə edir. Bu dövrün ayrılması Maynard Keynesin əsərləri ilə bağlıdır. İlk növbədə o göstərir ki, iqtisadi böhranlar (daha doğrusu depressiya, durğunluq) klassik kapitalizm şəraitində qaçılmazdır və özünə-məxsus təbiətə malik bazarları mövcuddur. Keyns böhrandan çıxış üçün işsizlik problemlərinin səmərəli məcmu tələbin stimullaşdırılması məqsədilə iqtisadiyyata dövlət müdaxiləsi kimi prinsipcə lazımi vəsaitləri təmin edilməsi ideyasını irəli sürüb. Üçüncü mərhələ 60-cı illərin ortalarından indiyədək olan dövrü əhatə edir. Bu etapda iqtisadi mərhələlər dövründə səbəblərini araşdırılrmış, birinci növbədə, ekzogen (daxili) və endogen (xarici) səbəblərdən bazar iqtisadiyyatı dövriliyini yerinə yetirilməyə xüsusi diqqət ayırmış, ən məxsus endogen amillərə əsas diqqət göstərilibdir. İkincisi, bir sıra mütəxəssislərin mövqeyi belə görünürdü ki, inkişaf etmiş ölkələrdə dövlət uzaqdan həmişə antiböhranlı situasiyaların nizama salmasına cəhd etmir, dövlət dövri tərəddüdlərin hamarlanmasına və iqtisadi tarazlığın sabitləşməsinə, amma tez-tez belə adlandırılan bərabərlik siyasətini həyata keçirir. Firmanın böhran vəziyyətinin ilkin əlamətləri arasında xüsusi yeri maliyyə göstəricilərinin dəyişməsi tutur. Böhranın yara-

da biləcəyi mənfi fəsadları aşağıdakı formasında başa düşmək olar: 1. Vaxtaşırı yaranan iqtisadi həyatın nasazlığı. 2. Çətin, ağır vəziyyət, nəsə çatışmazlığı, kəskin çatışmazlığı. İqtisadiyyatın yarana biləcək böhran vəziyyətində, yəni maliyyə siste-minin müxtəlif həlqələrinin pul vəsaiti baxımından gərginliyi gücləndikdə istiqrazların əhəmiyyəti xüsusilə artır. Bir qayda olaraq, maliyyə gərginliyinin artımı yüksək hərbi xərclərlə, əvvəllər götürülmüş dövlət istiqrazları üzrə iri ödəmələrlə, iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi və artan sosial proqramların maliyyələşdirilməsi ilə sıx əlaqədardır. İqtisadi böhranlar zamanı istiqrazların artımı hətta vergilərdə üstələyə bilər. Belə ki, vergilər bu zaman kifayət qədər qeyri-elastikliyi ucbatından irihəcmli maliyyə resurslarını tez bir zamanda səfərbərliyə ala bilmir. Böhran istənilən sosial-iqtisadi sistemin də ictimai formasiyada, firma, təşkilat və müəssisə səviyyəsində bu ziddiyyətlərin kəskinləşməsi, ətraf mühitdə onun həyat tərzinə təhlükəlidir. Ziddiyyət iki tendensiyanın sosial-iqtisadi sistemində mövcud olması ilə şərtlənir: Fəaliyyəti və inkişafı. Fəaliyyəti – məşğuliyyətin saxlanması, qorunması funksiyalarını müəyyənləşdirən, onun dəyəri keyfiyyətli müəyyənlik olan əsas xarakteristikasıdır. İnkişaf – bu dəyişən mühit şəraitində həyat fəaliyyətini sürətli inkişaf etdirən yeni keyfiyyətin əldə edilməsidir. Fəaliyyətin və inkişafın əlaqəsi dialektik xarakter daşıyır, hücum və qanunauyğun böhranların həlli imkanını əks etdirir. Böhran iqtisadi sistemlərin inkişafı dövrünün dörd mərhələsindən biridir və növbəti, əlamətlərlə səciyyələnir: antiböhranlı idarəetmə: müflisləşmə, iflas və sanasiya. Istehsalın həcmlərinin ixtisarı; əhalinin məşğulluğunun düşməsi; inflyasiya, əhalinin rifahının səviyyənin düşməsi. Böhrandan sonra depressiya fazası başlayır: minimal istehsalın həcmi azalır, qiymətlərin artması dayanır, insanların həyatının aşağı səviyyəsi müşahidə olunur. Sonra canlanma başlayır: istehsalın həcmlərinin artması, əhalinin və onun gəlirlərinin məşğulluğunun artması. Dövrün son mərhələsi – qalxmasıdır. işsizliyin azalması; istehsal güclərinin tam yüklənməsi ümumi məhsulun yüksək səviyyəli buraxılışı; həyat səviyyəsinin yüksəldilməsi. Beləliklə, dövri inkişaf tendensiyasının böhranların gəlişini əks etdirən müxtəlif dərəcədə gərginliyi yaranır. Onların hücumu subyektiv deyil, həm də obyektiv səbəblərlə də əlaqədardır. Obyektiv səbəblər dövri tələbatın restrukturizasiyası və modernləşdirilməsi ilə bağlıdır. Subyektiv isə insanın idarəetmədə əsasən, təhsilin səviyyəsi və peşəkarlıq təcrübəsindən asılı olan səhvləri əks etdirir. Böhranlı vəziyyətlərdə dövlətin tənzimləyici rolunun güclənməsinin zəruriliyi, totalitarizm və azadlığın qarışıqlığının sosial qanunu əsaslandırılmış, Pitirimom Sorokin tərəfindən açılmışdı: "Hər dəfə, nə vaxt ki, müəyyən cəmiyyətdə müharibə və ya müharibə təhlükəsi, böyük aclıq, böyük iqtisadi depressiya, məhvedici epidemiya, zəlzələ və ya daşqın, anarxiya, iğtişaş və inqilablar formasında və ya hansısa bir digər böhranlı vəziyyət şəklində nəzərəçarpacaq böhran baş verirsə, onda hökümət reqlamentliyinin miqyası və sərtliyi artır və cəmiyyətin iqtisadiyyatı, siyasi rejim, həyat tərzi və ideologiya totalitar transformasiyanın acısını çəkirlər; böhran nə qədər güclüdürsə, bu transformasiya bir o qədər çox olur. Böhranın səbəbi xarici və daxili ola bilər. Xarici səbəbləri ölkədə rəqabət, siyasi vəziyyətdən və hətta dünya iqtisadiyyatının inkişaf tendensiyası və makroiqtisadi inkişaf strategiyası ilə bağlıdır. Daxili səbəblərə isə istehsalın təşkilində riskli marketinq strategiyası, daxili münaqişələr, qüsurlu, yarımçıq idarəetmə, inno-

vasiya və investisiya siyasəti aiddir. Daxili səbəblər müəssisənin özünün fəaliyyətinin nəticəsidir. Böhranın səbəbləri təsadüfi və qanunauyğun, süni və təbii ola bilər. Belə olan zaman böhran təhlükəsi həmişə mövcuddur və onu qabaqcadan görmək və proqnozlaşdırmaq lazımdır. Böhranın anlamaq üçün böyük əhəmiyyət yalnız onun səbəblərini bilmək deyil, bununla yanaşı, həm də vacibli olan böhran nəticələrini hiss etməkdir ki, müəssisənin yenilənməsi və ya onun ləğvi bu prosesin gedişindən asılı olur. Müəssisənin inkişafında böhran sorası dəyişikliklər uzunmüddətli və qısamüddətli, keyfiyyət və kəmiyyət dəyişiklikləri baxımından dönən ya dönməz olur.Böhranın müxtəlif nəticələri yalnız onun xarakterilə təyin edilmir, həm də antiböhranlı idarəetmənin təşkilindən asılı olaraq böhranı azaltmağa və ya gərginləşdirməyə istiqamətləndirmək olar. Böhranlar öz səbəbləri və nəticələri ilə eyni deyil, həm də mahiyyətcə fərqlidirlər. Xaraktercə yüngül və dərin, qısamüddətli və uzunsürən, lokal və ümumi, gizli və aşkar böhranlara bölünürlər. Bundan əlavə iqtisadi, sosial, psixoloji, təşkilati, texnoloji böhranları ayrı-ayrı qruplara ayırmaq olar. İqtisadi böhranların yaranmasının əsas səbəbləri arasında fərq istehsal və istehlak malları və xidmətlərinin nəticəsidir. İqtisadi böhran zamanı müəssisənin borcunu ödəyə bilməməsinin ümumi səbəbləri əsasən aşağıdakılardır:

1. Məhsulların aşağı rəqabət qabiliyyəti;
2. Məhsulun satışı zamanı gəlirin vaxtında daxil olmaması;
3. Sifariş edilmiş, amma ödənilməmiş məhsul üçün borc, təchizatçılar, personal və s. qarşısında müəssisənin borclarının artmasına gətirib çıxarır;
4. Müəssisədə enerjidaşıyıcısıları və kommunal xidmətlər üçün yaşayış fondunun saxlaması xərcləri;
5. İstifadə olunmayan əmlaka vergilərin ödənişilə bağlı maliyyə yüklənməsi, istifadə olunmayan avadanlığın və sahələrin amortizasiyası üzrə xərclər, istilik sis-teminin və sahələrin işıqlandırılmasının ödənişi;
6. Vergi yükünün həddindən artıq olması;

İstifadə olunmuş ədəbiyyat:

1. Жарковская, Б.Е. Бродский, Антикризисное управление. Е.П. И.Б. Бродский, Учебник, Москва, 2011. Səh.10.
2. К.В.Бал дни, О.Ф.Быстрое, А.В.Рукосуев Антикризисное управление: макро и микроуровень, , Москва, 2005, səh 9.
3. İqtisadi nəzəriyyə, dərslik (tərcümə) Moskva, 2008, səh 141.
4. K.A.Şahbazov, M.H.Həsənov, H.S.Həsənov.Antiböhranlı idarəetmə: müflisləşmə, iflas və sanasiya. Bakı 1997, səh 20.
5. D.Bağırov, prof. M.Həsənli, Maliyyə (dərs vəsaiti) prof. Bakı, 2011, səh 180.
6. Сорокин. П.А. Главные тенденции нашего времени. М; Наука, 1997, səh.124.

Mahmudov Fuad Fazil oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: *mahmudovfuad1997@gmail.com*

AB-də VERGİDƏN YAYINMA HALLARININ QARŞISININ ALINMASI SİYASƏTİ

Transmilli şirkətlərin vergisi və daxili bazarın işinə təsir göstərən aqressiv vergi planlaşdırma strategiyaları son illərdə Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən araşdırmaya cəlb edilmişdir. Vergiyə qarşı aparılan bu mübarizə nəticəsində iki direktiv sənəd qəbul edildi

Bunlardan birincisi, vergidən yayınmağın qarşısını almaq üçün şəffaflığı artıran, xüsusən faydalı mülkiyyətin şəffaflığını təmin edən 4-cü Qara Pulların Yuyulması ilə mübarizə Direktivdir ('4Anti-Money Laundering Directive'). Direktiv şirkətlərin faydalı mülkiyyəti və bu məlumatların toplanması, saxlanılması və təmin edilməsinə dair tələbləri müəyyənləşdirir. Bundan əlavə, faydalı mülkiyyətin milli qeydlərinin yaradılması müxtəlif üzv dövlətlərin səlahiyyətliləri arasında əməkdaşlığı və məlumat mübadiləsini asanlaşdırır.

İkincisi, vergidən yayınma əleyhinə direktivdir (ATAD – Anti-tax avoidance directive) hansı ki, vergi ödəyicilərinin milli vergi sistemləri arasındakı fərqlərdən istifadə edərək qanunun məqsədinə zidd hərəkətləri kimi vahid bazarın fəaliyyətinə mənfi təsir göstərən vergidən yayınma praktikalarına qarşı qaydaları müəyyən edir.

Vergidən yayınma əleyhinə direktiv: İqtisadiyyatın qloballaşması və rəqəmsallaşmasına reaksiya olaraq korporativ gəlir vergisində islahatlar üçün müraciət yeni vergidən yayınma əleyhinə direktivdə reallaşdırıldı. ATAD, müqavilənin 115-ci maddəsinə uyğun olaraq daxili bazarın yaradılması və ya işləməsi ilə birbaşa əlaqəlidir. Direktivin əsası minimum qorumanı təmin etmək və eyni zamanda milli qanunvericiliyə daha yüksək səviyyədə qorunmanı təmin etməsinə imkan verir. Vergidən yayınma əleyhinə direktiv, vergidən yayınma və daxili bazarda sui-istifadə hallarına qarşı tədbirləri özündə cəmləşdirən vergidən yayınma əleyhinə hazırlanan paketin bir hissəsi idi. Direktivin təsdiqlənməsi çox uzun çəkmədi, səbəb isə üzv dövlətlər arasında BEPS (Baza eroziyası və dəyişən mənfəət) qaydalarını tətbiq etmək və ümumi aqressiv vergi planlaşdırmasına qarşı sui-istifadə əleyhinə tədbirlər görmək zərurəti idi. ATAD-a daxil olan BEPS-in prioriteti mənfəət və dəyərin yarandığı yerdə vergi ödəmələrini təmin etməkdir. ATAD, AB daxilində vergidən yayınmaya qarşı tədbirləri olan müəssisələr üçün daha ədalətli bir mühit təmin etməlidir. Eyni zamanda, ATAD AB vergi qanununun əsasını milli vergi suverenliyi və sərhədlərarası vergi rəqabəti olduğunu sübut edir. Aqressiv vergi planlaşdırma və milli korporativ vergi sistemləri üçün vergidən yayınmaya qarşı minimum qorunma səviyyəsi 28 ayrı korporativ vergi sistemində tətbiq edilməsi lazım olan ATAD-da mövcuddur.

4-cü Qara Pulların Yuyulması ilə mübarizə Direktivi: Beynəlxalq bazarların qloballaşması və kapitalın artan hərəkətliliyi mütəşəkkil cinayətkarlığın beynəlxalq səviyyədə olmasına təkan verdi. Qloballaşmanın mənfi nəticəsi olaraq beynəlxalq mütəşəkkil cinayətlər, xüsusən də çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi maliyyə sektoruna və cəmiyyətə yönələn təhlükə yaratdı. Verilən şərtlər daxilində maliyyə bazarlarının sabitliyini, bütövlüyünü və nüfuzunu dəstəkləmək üçün çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirlərinin hazırlanması zəruri idi. Qara

Pulların Yuyulmasına Qarşı Mübarizə (Anti-Money Laundering) tədbirlər, səlahiyyətli təşkilatlarla maliyyə qurumları arasında illər ərzində əlaqəli digər şəxslər üçün genişlənən əməkdaşlığa əsaslanırdı. Effektivlik maliyyə bazarlarının qloballaşması, ödəmə sistemlərindəki texnoloji irəliləyişlər və beynəlxalq mütəşəkkil cinayətkarlığın uyğunlaşa bilməsi səbəbindən müntəzəm düzəlişlərdən və uyğunlaşmadan asılıdır. Qara pulların yuyulmasına qarşı mübarizə yalnız beynəlxalq maliyyə bazarındakı qeyri-sabitliyin qarşısını almaq üçün deyil, həm də AB-də daxili bazarın və maliyyə sisteminin bütövlüyünü təmin etmək üçün Avropa Birliyində vacib bir prioritetdir. Beynəlxalq antimoney yuma ilə mübarizə səyləri üzv dövlətlərin hökumətlərini, bank tənzimləyici qurumlarını və hüquq-mühafizə orqanlarını əhatə edir. Qara pulların yuyulması təkamülünün əsas həqiqəti, zaman keçdikcə inkişaf edən təhlükə ilə əlaqəli olaraq müəyyən edilmiş cinayətlər siyahısının genişləndirilməsidir. İlk Qara Pulların Yuyulmasına Qarşı Direktiv113 (‘1AMLD’) 1991-ci ildə Avropa Şurası tərəfindən qara pulların yuyulması məqsədi ilə maliyyə sistemindən istifadənin qarşısının alınmasına dair qəbul edilmişdir. Narkotik ticarətin və əlaqəli cinayətlərin məhdudlaşdırılması üçün kredit və maliyyə qurumlarına müraciət edilmişdir. 2005-ci ildə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi məqsədi ilə maliyyə sistemindən istifadənin qarşısının alınmasına dair Üçüncü Qara Pulların Yuyulmasına Dair Direktiv117 (3AMLD) tamamilə yenidən qurulmuş və yeni bir kompleks qaydalarla qəbul edilmişdir.

AB-də vergidən yayınma hallarına qarşı mübarizə aparan üzv dövlətlərin qəbul etdiyi islahatlara daxildir :

1)Daha çox əməkdaşlıq və daha güclü bir idarəetmə qabiliyyəti və hüquqi baza üçün: inkişaf etmiş şəffaflıqdan maksimum istifadə xüsusən də hüquqi şəxslərin faydalı mülkiyyətində və hüquqi tənzimləmələrdə və sərhədyanı əməkdaşlıq alətlərində, məsələn, avtomatik məlumat mübadiləsi, ölkələr arasında məlumat analizinin bölüşdürülməsi, çoxtərəfli nəzarət və birgə yoxlamaların həyata keçirilməsi; vergi uyğunluğunu asanlaşdırmaq və vergi istismarının qarşısını almaq üçün vergi orqanlarının modernləşdirilməsi və rəqəmsallaşdırılması; hüquqi bazanın gücləndirilməsi.

2)Etimadı, şəffaflığı və vergi uyğunluğu mədəniyyətini artırmaq: vergi ödəyicilərinin vergi gəlirləri hesabına təmin olunan dəyər barədə məlumatlılığının artırılması; vergi idarələrinin fəaliyyətinin monitorinqi və nəticələrinin göstərilməsi; məlumat kompaniyaları vasitəsilə vergi intizamının gücləndirilməsi; vergi ödəyicilərini doğru zamanda lazımi iş görmək üçün davranışsal iqtisadi anlayışlardan istifadə edərkən vergi uyğunluğunu yaxşılaşdırmaq üçün müəssisələrlə əməkdaşlıq etmək.

İstifadə olunmuş ədəbiyyat:

1. https://ec.europa.eu/taxation_customs/sites/taxation/files/docs/body/c_2012_8806_en.pd f> accessed 1 August 2017.
2. EU Focus, ‘Commission strengthens transparency rules to tackle terrorism financing, tax avoidance and money laundering’ (2016) accessed 1 August 2017.
3. Gravelle J.G., ‘Tax Havens: International Tax Avoidance and Evasion’ (Congressional Research Service, 2015) accessed 9 August 2017.
4. Merks P, ‘Tax Evasion, Tax Avoidance and Tax Planning’ (2006).
5. Richardson M, ‘Fighting Tax Fraud and Tax Evasion in the EU (2015).

Cəfərli Hacı Faiq oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: ceferli.haci@mail.ru

MÜASİR BAZAR İQTİSADİYYATINDA BANK OLMAYAN KREDİT TƏŞKİLATLARININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Hazırkı dövr rəqəmsallaşma, informasiya mübadiləsinin geniş yayıldığı, qloballaşma və inteqrasiya prroseslərinin geniş yayıldığı bir dövrdür. Belə bir dövrdə xarici bazara inteqrasiyanın genişlənməsi, xarici iqtisadi əlaqələrin qurulması və genişlənməsi, beynəlxalq bazara çıxış, qlobal iqtisadi məkanda cərəyan edən hadisələrin fəal iştirakçısına çevrilmək zəruridir.

Qloballaşma və inteqrasiya dünyada rəqabət mübarizəsini də kəskinləşdirir ki, bu da hər bir milli təsərrüfat, hər bir elm sahəsi, o cümlədən iqtisad elmi qarşısında müəyyən vəzifələr qoyur. Bu vəzifələrin öhdəsindən layiqincə və vaxtında gəlmək baxımından ölkə başçısı cənab İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiqi haqqında Fərmanı yeni dövrün tələblərindən irəli gələn bir çox məqamlara aydınlıq gətirmiş, problemlərin uyğun həlli yollarını göstərmişdir.

Mikrokreditlər Azərbaycanın iqtisadi inkişafındakı regional disbalansın aradan qaldırılmasına kömək edir, çünki bu kreditlərin əksəriyyəti regionlarda investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Məhz bütün bunları nəzərə alaraq hökumət Azərbaycanda mikromaliyyənin inkişafı üçün daha əlverişli şərait yaratmağa çalışmalıdır. Hökumət eyni zamanda makroiqtisadi sabitliyin qorunmasını diqqət mərkəzində saxlamalıdır, çünki bu mikromaliyyənin yoxsulluğun azaldılması effektivliyi üçün vacibdir.

Bazar iqtisadiyyatında bankların, o cümlədən bank olmayan kredit təşkilatlarının rəqabətliliyinin qiymətləndirilməsi vacib anlayışdır. Çünki bazarda çoxlu sayda banklar və bank olmayan kredit təşkilatları var, hansı ki, onlar öhdəçilik və vəsaitləri hesabına rəqabət aparırlar. Bu şəraitdə kredit təşkilatlarının effektivliyi rəqabət mövqeyindən və rəqabət qabiliyyətindən asılıdır. Kredit təşkilatlarının rəqabətliliyini təhlil etsək görərik ki, bu rəqabət mühitində kredit təşkilatlarının bütün iştirakçıları rol oynayır. Həmin iştirakçılara misal olaraq bankın müştərilərini, potensial investorları, bankın səhmdarlarını, tənzimləyici orqanları, beynəlxalq maliyyə qurumlarını, kredit təşkilatlarının əməkdaşlarını, bankın və bank olmayan kredit təşkilatlarının rəqiblərini göstərmək olar

Müasir dövrdə bank olmayan kredit təşkilatlarında rəqabət aşağıdakı tendensiyalarla xarakterizə olunur:

1. Müxtəlif bazar iştirakçıları arasında rəqabətin sürətli artımı;
2. Xidmət keyfiyyətinin artırılması;
3. Müştərilərin istəklərini nəzərə alması;
4. Müştəriləri əldə saxlamaq və onlrın sayını artırmaq;
5. Regional siyasətin gücləndirilməsi;

6. Kadrların idarə sisteminin təkmilləşdirilməsi və ixtisasa olan tələblər;
7. Müştərilərinin pul vəsaitlərinin idarə edilməsi ilə bağlı konsultasiyaların təşkili;
8. Faiz dərəcələrinin tətbiqi fonunda qiymətlə bağlı olmayan rəqabətin güclən-dirilməsi;
9. Xidmət haqlarını azaltmaq və müştərilərdən pul vəsaitlərinin daxil olmasını artırmaq istiqamətində tədbirlər görmək;
10. Müasir texnologiyalardan istifadə;
11. Hesablaşma əməliyyatlarının idarəsi və inkişafına yönələn tədbirlər;
12. Bank xidmətlərinin rəqabət bacarığı və onun idarə edilməsi üçün yeni üsul-lardan irəli sürülməsi;
13. İnkişaf etmiş ölkələrin bazarlarına nüfuz etmək və daha çox ucuz pul vəsait-lərinin əldə etmək istəyi;
14. Qeyri-bank və qeyri-maliyyə təşkilatları ilə rəqabətin güclənməsi.

A.V.Panteleyev tərəfindən rəqabət qabiliyyəti məfhumunun verilmiş anlayışı – müasir yüksək inkişaf bazarın rəqabət subyektlərinin fəaliyyətlərinin aramsız təkmil-ləşdirməsidir.

Azərbaycan hökumətinin əməkdaşlıq etdiyi Beynəlxalq Valyuta Fondunun qiy-mətləndirilməsinə görə Azərbaycan kredit bazarında rəqabət məhdudiyyətinin olması kiçik və orta sahibkarların maliyyə qaynaqlarına çıxış imkanlarını azaldır. Beynəlxalq miqyasda bank rəqabətinin ən yüksək əmsalı 1 bal olduğu halda, qurum Azərbaycanda bu əmsalı 0.4 bal kimi qiymətləndirmişdir.BVF bildirir ki, girov tələblərinin maksi-mum olduğu ölkələrdə girovun kəmiyyətinə orta tələblər kreditin dəyərinin 250%-nə çata bilər, kredit məlumatlarının yaxşılaşdırılması bu cür məhdudiyyətləri yumşalda və KOS-ların maliyyə qaynaqlarına çıxışını təmin edə bilər.

Azərbaycanda fəaliyyət göstərən BOKT-ların kredit məhsulları da məhdud saydadır. BOKT-lar bir-birinlərinə yaxın şərtlərlə,eyni kredit məhsulları təklif edir. Faiz dərəcələrində də elə böyük bir fərq yoxdur. Fərdi şəxsi kreditləri 18-30 faizlə, ən çox 3 ilədək verilir. Biznes kreditlərində isə faizlər digərinə nisbətdə aşağıdır. Biznes kreditlərində borcun manat və ya xarici valyuta ilə alınması kredit faizlərinə təsir edir. Ekspert rəylərinə görə kredit bazarında yeknəsəkliyin olması, məhsulların növlərinin az olması kredit bazarında rəqabət səviyyəsinin aşağı olması ilə bağlıdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Abbasov Ə.M.,Məmmədov Z.F-“Bank işi və bankçılıq”, Bakı, 2003.
2. Abbasov İ.M. – “Audit”, Bakı-2007.
3. Abdullayev Ş.Ə. –“Azərbaycanda bank sistemi və bank resurslarının idarə olunması”, Bakı, 2001.
4. Abdullayev Ş.Ə.,Əsgərova R.V-“Bank İşi”, Bakı, 2009.
5. Bağırov M.M –“Banklar və bank əməliyyatları” Bakı, 2003.
6. Bəşirov R.A.-“Bank işi”.Qısa kurs. 2007.
7. Məmmədov Z.F.-“Bank fəaliyyətinin əsasları”, Bakı, 2013.

Əbdülhüseynova Xəyalə Mais qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: *ebdulhuseynova@mail.ru*

MEDİ CLUB MMC-də ÇƏKİLƏN BƏZİ XƏRCLƏRİN UÇOTU

Maddələr üzrə xərc prinsiplərinin təsnifatından tibbi xidmətlərin müxtəlif növlərinin maya dəyərinin kalkulyasiyası üçün istifadə edilir.

Pullu tibbi xidmətlərin iki növü mövcuddur:

1) birdəfəlik xidmətlər (ambulatoriya müalicə);

2) uzun müddət ərzində göstərilən xidmətlər (stasionar müalicə).

Tibbi xidmətin fəaliyyətini müşahidə etmək üçün lazım olan bütün göstəricilər mühasibat uçotunda hesablar əsasında əks etdirilir. Hesablar xidmət vəsaitlərinin vəziyyəti və hərəkətləri, onların əmələgəlmə mənbələrinin miqdarı və dəyişmələri haqqında, təsərrüfat proseslərinin gedişi və nəticələri haqqında məlumatları özündə əks etdirir. Tibb müəssisəsinin balansında xidmətlər haqqında hesabat bilavasitə mühasibat hesablarının məlumatları əsasında tərtib edilir. Bir qayda olaraq, hesablar planına təkcə sintetik hesablar deyil, həm də onları hissələrə ayıran subhesablar daxil edilir. Mühasibat uçotunda dərəcələrinə görə müxtəlif dəqiq göstəricilər əldə etmək üçün iki növ hesablar mövcuddur:

1) sintetik hesablar;

2) analitik hesablar.

Sintetik hesabları tibbdə vəsaitlər və əməliyyatlar haqqında ümumiləşdirilmiş göstəricilərdə verirlər. Onlar ancaq pul ölçüsündə aparılır. Analitik hesablar mühasibat uçotu obyektlərini aydın müəyyən etmək üçün xidmət edir. Analitik hesabların vasitəsi ilə sintetik hesablarda olan məlumat dəqiqləşdirilir və konkretləşdirilir.

Əsas və köməkçi istehsalatlarda xərclərin uçotu üçün yeni hesablar planında 202 "İstehsalat məsrəfləri" adlı hesab nəzərdə tutulmuşdur. Hesabın aşağıdakı subhesabları var:

202-1 "İstehsalalatda istifadə olunan əsas xammal";

202-2 "İstehsalalatda istifadə olunan əsas materiallar";

202-3 "Əsas istehsalatla məşğul olan işçi heyətinə məsrəflər";

202-4 "İstehsalat aktivlərinin amortizasiyası məsrəfləri";

202-5 "İstehsalalatda istifadə olunmuş köməkçi xammal";

202-6 "İstehsalalatda istifadə olunmuş köməkçi materiallar".

202-7 "Köməkçi istehsalatla məşğul olan işçi heyətinə məsrəflər"

Bu zaman xərcləri baş verdikləri yerlər üzrə ayrılıqda uçota almaq lazımdır. Müstəqim xərclər baş verdiyi anda ilkin sənədlər əsasında 202 "istehsal məsrəfləri" adlı kalkulyasiya hesabının müxtəlif subhesablarının debetində 201 "Material ehtiyatalrı", 533 " Əməyin ödənişi üzrə işçi heyətinə olan qısamüddətli krditor borclar"və 522 "Sosial sığorta və təminat üzrə öhdəliklər" adlı hesabların kreditində əks etdirilir. Dolayı üstəlik xərclər əvvəlcədən 721 "İnzibati xərclər" hesabının aşağıdakı subhesablarının debetində cəmlənir:

721-1 "İnzibati -işçi heyəti üzrə xərclər";

721-2 "İnzibati məqsədlər üçün istifadə edilən aktivlərin amortizasiyası xərci";

721-3 “Digər inzibati xərclər”.

İcarə haqlarına çəkilən xərclər, reklam xərcləri, vergilərin bəzi növləri, müvafiq lisenziyaların alınmasına çəkilən xərclər belə xərclərə aiddir. Qeyd etmək istəyirəm ki, kommersiya tibb özəl təşkilatlarında müvafiq lisenziyaların alınması ilə əlaqədar xərclər əvvəlcə 542 “Gələcək hesabat dövrünün gəlirləri” adlı hesabda əks etdirilir və daha sonra alınmış lisenziyanın fəaliyyəti müddəti ərzində bərabər hissələrlə xərclərin tərkibinə daxil edilir.

Xərclərin tamlığı və tərkibi - nəzərə alınması zəruri vacib olan ilk başlıca tələbdir.

Özəl müalicə profilaktika müəssisəsində 202 “İstehsalat məsrəfləri” adlı balans hesabının tərkibində aşağıdakı subhesabların açılması tövsiyə olunur:

202-8 “Terapevtik xidmətlərin göstərilməsinə çəkilən xərclər”, 202-9 “Cərrahiyyə xidmətlərinin göstərilməsinə çəkilən xərclər” 202-10 “Stomotoloji xidmətlərin göstərilməsinə çəkilən xərclər”, 202-11 “Funksional diaqnostikanın aparılmassına çəkilən xərclər”, 202-12 “Labaratoriya analizlərinə çəkilən xərclər”, 202-13 “Köməkçi bölmələrə çəkilən xərclər”.

İstifadə olunmuş ədəbiyyat:

1. Abbasov İ.M., Məmmədov İ.A., Cabbarov A.S. Mühasibat uçotu (sahələr üzrə) Dərslik.

2. Sadıqov Ə.A. Mühasibat (maliyyə) uçotu. I hissə, Bakı, 2002.

3. Sadıqov Ə.A. Mühasibat (maliyyə) uçotu. II hissə, Bakı, 2002.

4. Əliyev B.S., Babayev Ə.Ə. Mühasibat uçotu. // Mühasibat uçotu redaksiyası//. Bakı, 2000.

5. Prof., İ.M. Abbasov, dos., M.M.Rəsulov, “Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tədrisinə dair metodik vəsait, BBU, Bakı-2011.

6. Sadıqov Ə.A. və b. “Mühasibat uçotu”, Dərslik, Bakı, 2012.

Əlizadə Xuraman Mətləb qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: *elizadex6@gmail.com*

İŞĞALDAN AZAD OLAN BÖLGƏDƏ TURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azərbaycanın qədim tarixə malik olan bölgələrindən biri də Qarabağdır. Özünün tarixi, mədəni-dini abidələri, qədim qala və körpüləri, flora və faunası, meşələri, bulaqları, mətbəxi və s. görməli məkanları ilə turizm potensialına malikdir.

Dəniz səviyyəsindən 1400 metr hündürlükdə yerləşən Azərbaycan mədəniyyətinin incisi Şuşanın tarixi abidələri, özünə xas olan arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Şuşa mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətləri özündə birləşdirir. Turizmin inkişafı üçün bunlar turizm üçün çox yararlı istiqamətlərdir. Şuşada tanınmış bəstəkarlar, incəsənət xadimləri, muğam ustadları yetişib. Bütün bunlar burada turistlərimizə maraqlı olan marşrutlar yaradaraq

onları təqdim etməyə imkan verir. Qeyd edim ki, işğaldan azad olunmuş ərazilərə vətəndaşlarımızın geri qayıtması, yaşayışın və infrastrukturun bərpası, orada təhlükəsizliyin təmin olunması vacibdir. Yalnız bundan sonra Qarabağa istirahət məqsədli səfərlər təşkil oluna bilər.

Təəssüf hissilə bunu da bildirmək lazımdır ki, düşmənlərimiz bu illər ərzində işğal altında olan ərazilərin əksər yerlərində mədəniyyət abidələrimizi dağıdaraq, infrastrukturu məhv etmişlər. Lakin yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm istiqamətinə çevriləcəkdir.

Ordumuzun erməni işğalından azad etdiyi Qarabağ bölgəsinin Kəlbəcər və Laçın rayonları turizm potensialına görə xüsusi qeyd etmək lazımdır. Kəlbəcər rayonu əsasən dağlıq ərazidə yerləşir, ən yüksək zirvələri Camışdağ (3 724 m) və Dəlidağdır (3 616 m). Burada meşə-çöl bitkiləri, flora aləmindən enliyarpaq meşələr, yüksək və qismən orta dağlıqda isə alp və subalp çəmənlikləri, fauna aləmindən isə qartal, dağ keçisi, cüyür, qonur ayı, daşlıq dələsi, çöl donuzu, ular, toğlugötürən kimi heyvan növləri yayılıb. Eyni zamanda Kəlbəcər ibtidai insanın yaşadığı məkanlardan biri olmuşdur. Burada çoxsaylı qayaüstü rəsmlər, mağaralar, qazıntılar zamanı tapılmış müxtəlif ov və məişət alətləri buna sübutdur. Bunların tarixi eramızdan əvvəl IV-III minilliklərə aiddir. Kəlbəcər qədim türk mədəniyyətinin beşiyidir. Rayonda qədim Tünc dövrünə aid Kür-Araz mədəniyyətinin nümunələri də aşkar edilib. Bunlarla yanaşı, Kəlbəcər termal su mənbələri ilə də olduqca zəngindir.

Laçın rayonu şimaldan Kəlbəcər rayonu ilə sərhəddə yerləşir. Rayonun ərazisində 3 mindən çox tarixi memarlıq abidələri mövcuddur. Bunlara qala tipli abidələr, qəbirüstü abidələr, kurqanlar, at və qoç fiqurları, süjetli daşlar və sairlərini aid etmək olar.

Laçının ən yüksək zirvəsi Qızılboğaz dağıdır və hündürlüyü 3 594 metrdir. Rayonun subalp və alp çəmənlikləri, meşələrlə zəngin relyefi var. Laçında zəngin və qədim xalçaçılıq ənənələri var. Laçına aid dünya şöhrətli "Qasımuşağı" xalçaçılıq məktəbinin adını çəkmək mümkündür. Laçında da termal bulaqlar, zəngin su mənbələri var. Hər iki rayonun ərazisində Alban mədəniyyətinə aid abidələr mövcud olmuşdur. Bütün bunları nəzərə alaraq əminliklə demək olar ki, işğaldan azad edilmiş bölgədə geniş turizm imkanları var. Bu rayonlar təbii və antropogen resurslarla zəngindirlər.

Yuxarıda göstərdiklərimizə istinadən əminliklə demək olar ki, biz yaxın gələcəkdə bu rayonların ərazisində ekoturizm, o cümlədən dağa dırmanma və alpinizm, yaşıl turizm, dərketmə turizmi, arxeoloji turizm, müalicəvi turizm, rekreasiya kimi fəaliyyətləri inkişaf etdirə biləcəyik. İlk növbədə, Qarabağda yenidənqurma və bərpa işləri aparılmalı, infrastruktur məsələləri həll edilməlidir. Bunlar olmadan turizm haqqında danışa bilmərik. Hazırda minalardan təmizlənmə prosesi aparılır. Eyni zamanda infrastruktur işləri aparılmalıdır. Bu gün ora hər hansı bir turun təşkil edilməsi ilə bağlı danışmaq tezdir. Ən əsası tarixi memarlıq abidələrinin vəziyyəti araşdırılmalıdır. Yenidən nəzərdən keçirilməlidir. Bir sıra alimlər Qarabağda yerləşən tarixi abidələri araşdırıblar, lakin 30 il keçib. Təbii ki, bunları yenidən nəzərdən keçirmək lazımdır. Hansı abidələr dövlət tərəfindən mühafizəyə götürülməlidir? Onların bərpa işləri aparılmalıdır. Turizm marşrutlarının qurulması, turizm cığırlarının çəkilməsi və nişanlanması aparılmalıdır. Turistik xəritələrin hazırlanması və başqa işlər görülməlidir. Yaxın illər ərzində biz bunların öhdəsindən gələ biləcəyik. Burda bir sıra idarələr, nazirliklər

və institutlar bu işi görməlidirlər. Burda müxtəlif institutların və institusional qurumların üzərinə düşən məsələlər var. Ümumiyyətlə, Qarabağ bizim üçün yeni turizm destnasiyası olacaq. Təkcə iki rayonun deyil, Qarabağın ərazisində yeni bir turizm məkanı olacaq. Bu destnasiyaların təhlükəsizliyini təmin etmək lazımdır. Turist üçün ora gedib-gəlmək təhlükəsiz olmalıdır.

Qarabağın işğaldan əvvəlki dövrdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərini yenidən dirçəltmək də bu mənada önəmlidir. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa sanatoriyası", "Gülablı sanatoriyası", Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr və bu kimi turizm məskənləri ayrıca seçilirdi. Bu turizm və müalicə obyektləri Azərbaycan xalqının milli-tarixi dəyərlərini dünyaya tanıtmaqla yanaşı, dövlət büdcəsinə külli miqdarda gəlir gətirirdi. Ölkəmizin hər yerində olduğu kimi, burada da Böyük Zəfərimizin imkanlarından istifadə edərək bu ərazilərdə möhtəşəm turizm obyektləri inşa etmək olar. Yaxın perspektivdə bu istiqamətdə böyük irəliləyişə nail olmaq tamamilə mümkündür. Bununla da Qarabağda turizmin inkişafı özü ilə bərabər otelçilik sektorunu da irəli aparmağa imkanlar yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, Qarabağda turizmin inkişafı üçün bir sıra kadrların əməyindən istifadə edilməlidir. Dövlət, özəl sektor, alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalıdır. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Turizmçilər bu fikirdədirlər ki, təbiətinin zənginliyinə görə Qarabağın gələcəyi daha çox ekoturizmə bağlı olacaq. Bundan məharətlə istifadə etsək, Qarabağı dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevirəcəyik. Dövlətimizin bu istiqamətdə xüsusi proqram da qəbul etməsi gözlənilən dir.

Qarabağda turizmin inkişafı, həm də bu istiqamətdə yeni marşrutların açılması, yol infrastrukturunun genişləndirilməsi deməkdir. Xudafərin körpüsü və başqa tarixi abidələrə də gələcəkdə turist marşrutu ola bilər. Mədəni-tarixi incilərimizin əksəriyyəti dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili mümkündür. Sahə mütəxəssisləri ümid edirlər ki, qonşu İran İslam Respublikası ilə bu sahədə əməkdaşlıq olacaq.

Məlumdur ki, Türk birliyinin müasir İpək yolu layihəsi mövcuddur. Azərbaycana daxil olmaq üçün Qars-İğdır-Naxçıvan marşrutu, İran ərazisindən dəmir yolu xəttinin çəkilməsi mümkün görünür. Bundan yalnız ölkəmizin vətəndaşının yox, bütün mədəni sivilizasiyanın qazanacağı şəksizdir. İşğaldan azad etdiyimiz ərazilərin çoxu dağlıq ərazi olduğundan, bu bölgəyə nəzər yetirsək, həmin ərazilərdə dağçılıq və alpinizm turizminin inkişafı üçün təbii şəraitin olduğunu görərik.

Bununla bərabər, Qarabağın gəzməli-görməli yerlərinə gəzintilər təşkil etmək, həmin ərazilərdə aktiv və ekstremal turizmi inkişaf etdirmək də turizmin inkişafına töhfə verə bilər. Qarabağda turizmin müxtəlif növlərinin yaradılması və inkişafı üçün unikal imkanlar olduğunu beynəlxalq sərgilərdə nümayiş etdirsək, onun reklamını dünya səviyyəsində təşkil edə bilsək, həmin sahənin bölgədə daha da irəli getməsinə böyük təkan vermiş olarıq. Məsələn, təkcə Zəngilanda çoxlu sayda termal su mənbəyinin mövcudluğu, həm də Qarabağda müxtəlif istiqamətli turizm xidmətlərinin yaradılması üçün münbit şərait deməkdir. Təqdirəlayiq haldır ki, Qarabağın turizm potensialı ilə bağlı dövlət əhəmiyyətli tədbirlərin coğrafiyası sürətlə genişlənir. 2020-ci il 23-24

noyabr tarixində Azərbaycan Turizm Bürosu (ATB) Dubayda keçirilən "Gulf Travel Show" sərgisində iştirak edib. Bu Beynəlxalq sərgidə Qarabağ və onun turizm potensialı tanıdılıb. Pandemiya səbəbilə virtual formada təşkil olunan sərgiyə Yaxın Şərq, Afrika, Asiya, Avropa və Amerikadan olan 1000-dən çox iştirakçı qatılıb. Sərgi çərçivəsində ATB əməkdaşları 35-dən çox görüş keçiriblər.

Ümid edirəm ki, bütün alimlər birgə Qarabağın ərazisini yenidən təhlil edib, yeni turizm marşrutları, turizm məhsulları yaradacaqlar. Turizm sahəsində böhran aradan qalxdıqdan sonra bu məhsulları satıb, çoxsaylı turist cəlb edəcəyik. Xüsusi yeni turizm növləri meydana gələcək. Əminəm ki, Qarabağ ekoloji turizm məkanına çevriləcək, regional ekoloji turizm məkanı kimi tanınacaq. Vaxt gələcək, İsveçrənin Alp dağlarında yerləşən kurortlardan, Fransanın, İtaliyanın, Almaniyanın istirahət mərkəzlərindən daha gözəl yerləri Qarabağ və ətraf ərazilərdə yaradacağıq.

İstifadə olunmuş ədəbiyyat:

1. Məmmədov C.A., Soltanova H.B, Rəhimov C.H. Beynəlxalq turizmin coğrafiyası.
2. Əmir Əliyev Elnur Aslanov - Beynəlxalq Turizm Hüququ.
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva- Turizmin əsasları - 2007.
4. Aydın Mirzəzadə - Qarabağ düyünü - 2012.

Mayilov Fariz Əkrəm oğlu, magistrant,
Bakı Biznes Uiversiteti
Email: mayilovfariz@gmail.com

ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİ XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏR SİSTEMİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Həyat səviyyəsi insanların tələbatlarının maksimum ödənilmə səviyyəsi kimi xarakterizə olunur. “Həyat səviyyəsi” anlayışı ilə sıx surətdə bağlı olan və onunla qarşılıqlı əlaqədə fəaliyyət göstərən digər bir anlayış isə “həyat tərzi” anlayışlarıdır. Bu iki anlayış bir-biri ilə nə qədər yaxın olsa da, əslində bir-biri ilə kəskin fərqlənir. Həyat tərzi əhalinin əmək prosesində, ailədə və məişətdə, ictimai-siyasi və sosial həyatda fəaliyyətlərinin məcmusudur. Həyat səviyyəsi isə bu fəaliyyətlərdən irəli gələn tələbatların ödənilməsi formasıdır

Cəmiyyətin sosial-iqtisadi inkişafının ən vacib və əsas elementlərindən biri də həyat səviyyəsi və onun yüksək səviyyəsinin təmin olunmasıdır. Həyat səviyyəsi dedikdə, əhalinin və yaxud da insanların mənəvi, sosial və maddi tələbatlarının ödənilməsi məqsədilə maddi nemətlər, eləcə də xidmətlərlə təmin olunma səviyyəsi başa düşülür. Cəmiyyətin və əhalinin həyat səviyyəsi onun tələbatlarının ödənilməsinə sərf

edəcəyi gəirlərinin səviyyəsi ilə ölçülür. Başqa sözlə desək, həyat səviyyəsinin kifayət qədər yüksək olması üçün əhali yüksək gəlirlilik səviyyəsinə malik olmalıdır və əhali özlüyündə əldə etmiş olduğu bu gəlirləri digər zəruri tələbatlarının ödənilməsi istiqamətində sərf edir. Əhali gəlirləri arasında qeyri-bərabərliyin olması, heç şübhəsiz ki, insanlar arasındakı həyat səviyyəsinin dəyişilməsi deməkdir ki, bunun da nəticəsində cəmiyyətdə sosial təbəqələşmə, daha dəqiq desək, "varlılar" və "kasıblar" kateqoriyaları yaranmış olur.

Əhali gəlirlərinin həcmi əhalinin maddi rifah halının əsas göstəricisidir. Əhalinin gəlirlərinin səviyyəsi cəmiyyətin hər bir üzvünün təhsil alma, istirahət, gündəlik zəruri tələbatlarının ödənilməsi, sağlamlığının möhkəmləndirilməsi kimi imkanlarını müəyyən edir. Eləcə də, ailənin gəlirləri üzrə məlumatın ümumiləşdirilməsi ölkə iqtisadiyyatında mövcud vəziyyəti haqqında zəruri məlumat verir, həmçinin də onun gələcəkdə sosial və iqtisadi siyasətinin formalaşdırmasında mühim rol oynayır. Bu səbəbdən də əhalinin gəlirlərinin formalaşması və istifadəsi prosesləri müntəzəm olaraq tədqiq olunur.

Həyat səviyyəsinin mahiyyəti hər şeydən öncə istehlakla xarakterizə olunur. Belə ki, əhali gəlirlərinin düzgün bölüşdürülməsi, istifadəsi, eləcə də həcmi və quruluşu onların istehlakında mühim rol oynayan amilə çevrilir.

İqtisadi ədəbiyyatlarda həyat səviyyəsi anlayışına müxtəlif səpkilərdə münasibət formalaşdırılmışdır. Bəzi nəzəriyyəçilərin fikrinə əsasən, həyat səviyyəsi əhalinin gəlirlilik səviyyəsi və istehlak səviyyəsi ilə müəyyən olunur. Bu kateqoriyaya aid olan nəzəriyyəçilər belə hesab edirlər ki, həyat səviyyəsi insanlar qrupunun öz zəruri tələbatlarının təmin olunması üçün əldə etdikləri maddi nemətlərdir.

Lakin qeyd etməliyik ki, həyat səviyyəsi yalnız əhalinin gəlirlilik və istehlak səviyyəsi ilə ölçülən anlayış deyildir. Əhalinin həyat səviyyəsini təmin edən əsas faktorlar qrupu mövcuddur. Həmin faktorlar qrupu aşağıdakılardan təşkil olunmuşdur [2]:

- məişət və əmək şəraiti;
- asudə və iş vaxtının həcmi, eləcə də quruluşu;
- əhalinin təhsil səviyyəsi başda olmaqla digər mədəni göstəriciləri;
- əhali sağlamlığı və demoqrafik vəziyyəti.

"Həyat səviyyəsi" anlayışını iqtisadi kateqoriya kimi ilk dəfə olaraq Karl Marks müəyyən etmişdir. K.Marks iş qüvvəsinin dəyərindən danışarkən, xüsusi olaraq vurğulayırdı ki, iş qüvvəsinin dəyərini hər bir ölkədə, cəmiyyətdə mövcud olan həyat səviyyəsi müəyyən edir. K.Marks öz nəzəriyyəsində dəfələrlə vurğulayırdı ki, həyat səviyyəsi yalnız insanların gəlirlilik və zəruri istehlakının ödənilməsi ilə ölçülə bilməz. Eyni zamanda həyat səviyyəsi yuxarıda qeyd etdiyimiz bəzi faktorları, o cümlədən də əhalinin təhsil səviyyəsi və digər mədəni davranışlarını, əhali sağlamlığı və demoqrafik vəziyyətini, asudə və iş vaxtlarının həcmi və quruluşunu, həmçinin də iş və əmək şəraiti kimi faktorları da əhatə edən bir iqtisadi kateqoriyadır. Belə ki, qeyd olunan faktorların hər biri ilə təmin olunma səviyyəsi əhalinin maddi rifah halının yüksək

səviyyədə olduğunu müəyyən edir. Deməli, K.Marks belə qənaətə gəlirdi ki, həyat səviyyəsi yalnız fiziki tələbatların ödənilməsinin təmin olunma səviyyəsi deyildir, həmçinin də insanlar qrupunun, eləcə də əhalinin maddi rifah halının yüksək səviyyədə olmasıdır

Hal-hazırda həyat səviyyəsini xarakterizə edən vahid ümumiləşdirilmiş bir göstəricilər sistemi yoxdur. Lakin 1990-cı ildən etibarən beynəlxalq miqyasda həyat səviyyəsinin müqayisə edilmə qabiliyyətinin formalaşdırılması məqsədilə Birləşmiş Millətlər Təşkilatlarında yeni, lakin xüsusi bir göstəricidən istifadə edirlər. Sözügedən göstərici "insanın inkişaf indeksi" kimi qəbul etdiyimiz "insan potensialının inkişaf indeksi"dir.

"İnsanın inkişaf indeksi" əhalinin maddi və sosial rifahını ümumi daxili məhsuldan daha geniş şəkildə özündə əks etdirir. "İnsanın inkişaf indeksi" insanın inkişafının üç əsas xarakterik xüsusiyyətinə görə fərqləndirilir. Həmin xarakterik xüsusiyyətlər aşağıdakılardan təşkil olunmuşdur:

– orta ömür uzunluğu əsasında müəyyənləşən uzun və sağlam ömür;

– böyüklər arasında təhsillilik, eləcə də ibtidai, orta və ali məktəblərdə, habelə orta-ixtisas məktəblərində təhsil alanların ümumi sayı əsasında müəyyən olunan təhsil səviyyəsi;

– əhalinin gəlirləri və alıcılıq qabiliyyəti əsasında formalaşan layiqli yaşayış standartları.

"İnsanın inkişaf indeksi" kifayət qədər müfəssəl, hərtərəfli ölçü vahidi deyildir. Belə ki, bu indeksə bəzi göstəricilər daxil edilmir. Həmin göstəricilər aşağıda verilmişdir [6, s.44]:

– gender bərabərliyi;

– gəlir bərabərsizliyi;

– insan hüquqları və eləcə də siyasi azadlıqların təmin olunması.

2009-cu ilə kimi "İnsanın inkişaf indeksi" göstəricilərinə əsasən dünya ölkələri 3 əsas kateqoriyaya bölünürdü. Belə ki, "İnsanın inkişaf indeksi" göstəricisi reytinqində ilk 64 yeri tutan ölkələrdə həyat səviyyəsi yüksək, 64-cü sıradan 149-cu pilləyə qədər olan ölkələrdə orta, 150-dən aşağı yerləri tutan ölkələrdə isə həyat səviyyəsi aşağı olaraq dəyərləndirilirdi. Lakin 2014-cü ildən başlayaraq bu kateqoriya dünya ölkələrini dörd əsas qrupa böldü və birinci kateqoriyaya həyat səviyyəsi çox yüksək olan ölkələr qrupu əlavə olundu. Qeyd edək ki, Azərbaycan Respublikası "İnsan inkişafı indeksi" göstəricisində 78-ci pillədə qərarlaşmaqla həyat səviyyəsinin orta olduğu ölkələr reytinqindədir [7., s.49].

"İnsanın inkişaf indeksi" göstəricisinə əsasən, dünya ölkələri arasında həyat səviyyəsinin çox yüksək, yüksək, orta və zəif olduğu ölkələrin xəritəsi aşağıdakı şəkil vasitəsilə əhatəli şəkildə təhlil olunmuşdur. Qeyd edək ki, aşağıda verilmiş şəkil 2014-cü ilin "İnsanın inkişaf indeksi" göstəricisi əsasında müəyyən olunmuş siyahıya əsaslanır [8].



Şəkil 1. "İnsanın inkişaf indeksi"nin dünya ölkələri üzrə bölgüsü
***Mənbə:* World Bank, World Development Report 2019.**

"İnsanın İnkişaf İndeksi" 0-1 intervalında qiymət alır. "İnsanın inkişaf indeksi"nin hesablanma metodu aşağıdakı düsturla öz əksini tapmışdır:

Düstur 1.

$$x\ (indeks) = \frac{x - \max(x)}{\max(x) - \min(x)}$$

Burada: min(x) və max(x) təhlil aparılan ölkələr üzrə x indeksinin minimum və maksimum qiymətləridir.

Hər bir ölkənin "İnsanın İnkişaf İndeksi" üç əsas kateqoriya üzrə müəyyən olunur. Həmin kateqoriyalara aiddir: [7., s.69]:

– gözlənilən ömür müddəti indeksi (LEİ);
– təhsil indeksi (Eİ)
– gəlir indeksi (İİ);

İndi isə yuxarıda qeyd olunan indekslərin tapılma qaydasını müəyyən edək. Gözlənilən ömür indeksinin müəyyən edilməsi ilə tədqiqatımızı davam etdirək:

Düstur 2.

$$LE\text{İ} = \frac{LE - 20}{85 - 20}$$

Xüsusilə qeyd etməliyik ki, gözlənilən ömür müddəti (LE) 85 olarsa, "İnsanın inkişaf indeksi" özünün ən maksimal həddinə-1-ə bərabər olar. Gözlənilən ömür müddəti 20 il olarsa, isə ən aşağı həyat səviyyəsi müəyyən olunmuş olar ki, bu da 0 (sıfır) deməkdir.

Təhsil indeksinin hesablanması qaydası ilə tanış olaq:

Düstur 3.

$$E\dot{I} = \frac{MYS\dot{I} + EYS\dot{I}}{2}$$

Burada MYSİ- orta təhsil indeksidir və $MYS\dot{I} = \frac{MYS-0}{15}$ düsturu ilə hesablanır.

EYSİ isə gözlənilən təhsil müddəti indeksidir və $EYS\dot{I} = \frac{EYS-0}{18}$ düsturu ilə hesablanır.

Sonuncu göstəricimiz isə gəlir indeksidir. Gəlir indeksi isə aşağıdakı düsturun köməkliyi ilə müəyyən olunur:

Düstur 4.

$$\dot{I}\dot{I} = \frac{\ln(GN\dot{I}pc) - \ln(100)}{\ln(75000) - \ln(100)}$$

"İnsanın inkişaf indeksi" isə qeyd etdiyimiz bu üç indeksin həndəsi ortası kimi müəyyən olunur və aşağıdakı düsturun köməkliyi ilə müəyyən edilir:

Düstur 5.

$$HD\dot{I} = \sqrt[3]{LE\dot{I} \times E\dot{I} \times \dot{I}\dot{I}}$$

Xüsusi qeyd: düsturlarda istifadə edilən LE- gözlənilən ömür müddəti, MYS- əhalinin orta təhsil müddəti, EYS-təhsili davam edənlərin, yəni oxuyan şagird və ya tələbələrin gözlənilən təhsil müddəti, GNİpc- alıcılıq qabiliyyəti paritetinə əsasən adam başına düşən ümumi milli məhsulun ABŞ dolları ilə həcmidir.

Sosial təbəqələrinin yaşayış səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarır. Eyni zamanda da bunun məntiqi nəticəsi olaraq, əhalinin bütün təbəqələrinin və sosial qruplarının pulsuz təhsil alması və həmçinin də pulsuz səhiyyə xidmətlərindən istifadə etməsində müəyyən problemlər yaranmış olur. Beləliklə, bazar iqtisadiyyatı şəraitində əhalinin yalnız yoxsul təbəqələri deyil, eyni zamanda da digər təbəqələrinin də zəruri ehtiyacları artmış olur.

İstifadə olunmuş ədəbiyyat:

1. Abbasov A.F. Yoxsulluğun qarşısının alınması dövlətin sosial təhlükəsizliyinin təmin edilməsinin faktoru kimi: «Çoxmülkiyyətçilik şəraitində koopeorasiyanın inkişafının sosial-iqtisadi problemləri» elmi-praktik konfransın materialları. Bakı, 2002, «Kooperasiya» nəşriyyatı.

2. Abbasov B. Azərbaycanın vergi sistemi və onun təkmilləşdirilməsinin əsas istiqamətləri. AMEA İqtisadiyyat İnstitutu, «Milli iqtisadiyyatın problemləri» məqalələr toplusu II Buraxılış, Bakı «Elm», 2005.

3. Əliyev A.Ə., Qasımov N. Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəlməsinin aktual problemləri. Bakı, 2000.

4. Əşrəfova. R.S «Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasında sosial yardım sisteminin rolu», Himayədar jurnalı. Oktyabr, 2005.

5. Quliyev C.B. «Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin dəyişilməsi meylləri və ona təsir edən amillərin qiymətləndirilməsi». İqtisadiyyat, Humanitar və ictimai elmlər seriyası, Xəbərlər 1- 2004.

Məcidli Fəxrəndə Valeh qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: fmecidli@mail.ru

TİKİNTİ SEKTORUNDA SƏMƏRƏLİ İNVESTİSİYA MÜHİTİNİN PERSPEKTİVLƏRİ

İnvestisiya fəaliyyəti milli iqtisadiyyatımızın bütün sahələrinə, o cümlədən tikintiyə, energetikaya və s. fiziki və hüquqi şəxslər tərəfindən investisiyaların yönəldilməsidir. Tikintidə investisiya qoyuluşları bir sıra (pul vəsaiti, səhm, veksel və digər qiymətli kağızlar, istiqraz vərəqələri, bank depozit qoyuluşları, daşınan və daşınmaz əmlak, maddi sərvət, intellektual sərvət, ixtira, layihə və konstruksiya işləri, torpaq sahələri və digər təbii sərvətlər və s.) formalarda həyata keçirilir.

Hal-hazırda Azərbaycan Respublikasında tikintiyə qoyulan investisiyalar pul vəsaiti və bank depozit qoyuluşları formasında həyata keçirilir.

Dövlət tərəfindən investisiya fəaliyyətinin tənzimlənməsi və əlverişli investisiya mühitinin yaradılması aşağıdakı vasitələrlə həyata keçirilir:

- vergitutma subyektləri və obyektlərində güzəştli vergi dərəcələrinin və stimullaşdırıcı vergi sisteminin tətbiqi;
- kredit və amartizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən əsas fondların sürətli amartizasiya yolu ilə amortizasiya üzrə güzəştlər ayrı-ayrı iqtisadi sahələr, əsas fondların və avadanlığın müxtəlif növləri və elementləri üçün dəyişkən və fərqli müəyyən edilə bilər;
- ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya, subsidiya, büdcə borclarının verilməsi;
- dövlət norma və standartlarının müəyyənləşdirilməsi;
- antiinhisar tədbirlərin görülməsi;
- torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyən-ləşdirilməsi;
- investisiya layihələrinin ekspertizasının keçirilməsi və s.

Göstərilən problemlərin aradan qaldırılması ölkə daxilində əlverişli investisiya mühitinin yaradılmasına və iqtisadi inkişafa təkan verəcəkdir.

Tikinti kompleksində mühüm məsələlərdən biri maşın və avadanlıqlarla təchizat məsələsidir. Belə ki, texnikanın son nailiyyətlərindən istifadə mühüm əhəmiyyətə malikdir. Bu kimi məsələlərin aradan qaldırılmasında dövlət də lazımi tədbirlər görür. Müxtəlif lizinq kompaniyalarının fəaliyyəti və müəyyən güzəştli kreditlərin verilməsinə baxmayaraq, mühüm məsələlərdən biri əlverişli vergi siyasətidir.

Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanununda kiçik müəssisələrin bilavasitə özəlləşdirilməsi, orta və iri müəssisələrin isə əvvəlcə səhmdar cəmiyyətlərə çevrilməsi və sonra özəlləşdirilməsi nəzərdə tutulmuşdur. Bu proqram özünü tikinti sektorunda daha açıq biruzə verdi. Belə ki, hələ

SSRİ dövründə respublikada fəaliyyət göstərən tikinti TREST-ləri, tikinti kooperativləri və s. ləğv olunaraq Səhmdar Cəmiyyətlər və MMC-lər şəklində fəaliyyət göstərməyə başladılar. Sonradan isə rəqabətqabiliyyətli digər xarici və yerli tikinti təşkilatları meydana gəldi. Həmin tikinti təşkilatlarından aşağıdakıları göstərmək olar:

1. Gilan MTK.
2. Akkord.
3. «A+A» MTK
4. «ANT» MTK və s.

Hal-hazırda bu təşkilatlar inkişaf edərək tikinti kompleksinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, tikinti kompleksinin inkişafı istiqamətində investisiya qoyuluşlarının artırılmasında dövlət qanunlarının rolu əvəzsizdir. Dövlət tərəfindən bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilmişdir. Lakin, ən vacib məsələ isə dövlət tərəfindən T.K.-ə uzunmüddətli kreditlərin ayrılmasıdır. Bu kreditlər ayrılandan sonra dövlətin müvafiq orqanları tərəfindən, kreditin təyinatı üzrə istifadəsinə nəzarət olunmalıdır.

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi əsas etibarilə vergiqoyma mexanizmi, amortizasiya siyasəti, investisiyaların maliyyələşdirilməsinə büdcə ayırmalarından istifadə edilməsi və digər iqtisadi metodların vasitəsilə həyata keçirilməlidir.

Bakıda tikinti sektorunda sadələşdirilmiş verginin tətbiq olunması müsbət istiqamətdə öz bəhrəsini vermişdir. Bu baxımdan da bu cür iqtisadi islahatların regionlarda aparılması da daha məqsədəuyğun olardı.

Məlum olduğu kimi, 11 fevral 2004-cü il tarixində Azərbaycan Respublika Prezidenti İlham Əliyev tərəfindən «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər üçün təsdiqlənib)» imzalandıqdan sonra, regionlarda tikinti sektorunda köklü dəyişikliklər müşahidə olundu. Qoyulan investisiyaların daha çoxu dövlətin payına düşsə də, podrat işlərini yerli Tikinti-İnvestisiya Kompleksləri həyata keçirdi. Bu da öz-özlüyündə yeni iş yerlərinin açılmasına, vergi daxilolmalarının artmasına təkan verir.

Prezidentin imzaladığı bu Fərmandan sonra, xarici investorlar da maddi istehsalın digər sahələri ilə yanaşı, tikinti sektoruna da yatırımlar və kreditlər ayırmışlar. Bu baxımdan Azərbaycan Respublikasına ayrılan kreditlər arasında ən böyük paya sahib olan Dünya Bankı ilə ümumi dəyəri 108,8 milyon ABŞ dolları olan beş layihə imzalanmışdır.

Hal-hazırda Respublikada əlverişli investisiya mühitinin təmin edilməsi istiqamətində yerli qanunvericilikdə əsaslı dəyişikliklər istiqamətində lazımi tədbirlər həyata keçirilir. Müasir qanunvericilik 95 faiz Avropa standartlarına uyğun istiqamətdə aparılır. Əlverişli investisiya mühiti yaratmaqdan ötrü hər gün yenilik və islahatların aparılması dövlətin qarşısında duran ən zəruri məsələdir. Qeyd edək ki, tam investisiya mühiti yaratmaq mümkünsüzdür. Ancaq dövlət bu yenilikləri izləməyə çalışır. Buna misal olaraq Azərbaycan Respublikası Prezidentinin Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilatın təmin edilməsi tədbirləri haqqında 25 oktyabr 2007-ci il tarixli imzaladığı Fərmanı göstərmək olar. Bu qərara

əsasən yerli və xarici investorlar hansısa sahəyə investisiya yatırmaq üçün bir neçə yox, bir quruma müraciət edirlər. Yeni qəbul olunmuş sərəncama əsasən artıq investisiya yatırılması üçün lisenziya və digər icazələri yalnız bir qurum verir. Bu proqramm artıq dünyanın bir neçə inkişaf etmiş ölkəsində tətbiq edilir və öz səmərəli nəticəsini verir.

Son illər iqtisadi sahədə böyük uğurlar qazanan ölkəmizdə tikinti sahəsində də mühüm nailiyyətlər əldə edilmişdir. Azərbaycanda sosial-iqtisadi sahədə həyata keçirilən çoxsaylı proqramlar sırasında əsaslı tikinti üzrə layihələr xüsusi yer tutur. Hazırda iqtisadiyyatın mühüm tərkib hissəsini təşkil edən əsaslı tikinti sahəsinin ümumi daxili məhsulda payı 7%-dən çoxdur. Azərbaycanda hal-hazırda fəaliyyət göstərən 1700-dən çox podratçı tikinti gücü ilə cari ildə 5 milyard dollardan artıq tikinti işlərinin həyata keçirilməsi planlaşdırılır.

Bildiyimiz kimi, tikintinin həyata keçirilməsi uzun bir prosesdir. İnvestor bu zaman müəyyən risklərlə üzləşir. Əsas risk kimi inflyasiyanı göstərmək olar. Belə ki, mövsümi dünyada maliyyə böhranın tikintiyə böyük təsirini görmək olar. Yay fəslində tikinti kütləvi şəkildə həyata keçirilir. Soyuqlar düşdükdə isə tikintinin tempi aşağı düşür. İnşaat materiallarının qiyməti ucuzlaşır ki, bu da investorun yayla müqayisədə çəkdiyi xərclərin 10-15%-i ucuz başa gəlir. Bu cür təhlükələrin qarşısını almaqdan ötrü dövlətin aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- inflyasiya nəticəsində tikinti komplekslərinə dəyən ziyanın müqabilində dövlət tərəfindən subsidiyaların ayrılması;
- əsaslı tikinti sahəsində azad bərabər hüquqlu sahibkarlıq fəaliyyətini yaratmaq;
- hazır tikinti məhsulunun keyfiyyətini və istehlak xüsusiyyətini tamamilə yüksəltmək;
- dövlət əhəmiyyətli tikinti layihələri həyata keçirilən yerli tikinti investisiya komplekslərinə üstünlük verilməsi;
- investorlarla kredit verənlər arasında iqtisadi münasibətləri dəyişdirmək əsasında səmərəli kredit siyasətini həyata keçirilməsi;
- fond bazası, qiymətli kağızlar bazarı təşkil etmək.

İstifadə olunmuş ədəbiyyat:

1. Qeybullayev Q.R. “İnşaat Kompleksi. Bakı, 1998.
2. Rəhimov E.M. “Tikinti sənayesi müəssisələrinin iqtisadiyyatı ”. Bakı, 2002.
3. Şirəliyev V., Həsənov İ. “Əsaslı tikintidə investisiya siyasəti”. Bakı,“Elm”, 2000.
4. Eyniyev T.T., Məlikov Ə.C. “Tikintidə texniki normalaşdırma və əməyin ödənilməsi ”. Bakı, 2000.
5. Mehdiyev İ.Ə., Şirəliyev V.M. “Tikintinin İqtisadiyyatı” (ali məktəblər üçün dərslik). Çaşıoğlu, 2005.

Nəbizadə Xanış, magistrant,
Bakı Biznes Universiteti
Email: xanisnebizade@gmail.com

"XALQ SIĞORTA" ASC-də QISAMÜDDƏTLİ AKTİVLƏRİN UÇOTU VƏ TƏHLİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Sığorta əməliyyatları və nəticələri haqqında informasiyanın formalaşması metodikasının təkmilləşdirilməsi sığorta təşkilatlarının təsərrüfat-maliyyə fəaliyyətinə, qismən də maliyyə hesabatlarının etibarlılığına təsir edən sahibkarlıq risklərinin aşkarlanması və tanınması ilə əlaqədardır. Bundan başqa sığorta ehtiyatları üzrə informasiyanın formalaşmasında daxili və xarici amillər də nəzərə alınmalıdır. Bu baxımdan risklərin və amilli təhlilin aparılması ilə sığorta ehtiyatları və sığorta əməliyyatları haqqında informasiyanın hazırlanması mexanizminin işlənib hazırlanması aktual məsələlərdəndir.

Sığorta əməliyyatlarının uçotunda xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də gəlirlərin və xərclərin xüsusən də sığorta müqaviləsi üzrə daxil olmaların və sığorta ödəmələrinin vaxtında uçota alınması və maliyyə hesabatlarında etibarlı tanınmasıdır. Bütün bu kimi əməliyyatların uçot sistemində qeydiyyatını təmin etmək üçün ilkin sənədlərin olması vacibdir.

Sənədləşdirmə sığorta təşkilatının fəaliyyətinin tam əks olunmasına təminat verən ilkin sənədlər və ya informasiya daşıyıcılarıdır. Sığorta təşkilatının təsərrüfat–maliyyə fəaliyyətinin spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmış ilkin sənədləşdirmə uçot sisteminin əsas informasiya təminatıdır.

Səmərəli təşkil olunan sənədləşmə prosesi ilkin uçotun təşkilinə kompleks yanaşmanı təmin etməklə operativ planlaşdırmanın təkmilləşdirilməsini, sığorta fəaliyyətinə operativ nəzarəti, uçotun məqsədlərinin işlənib hazırlanması və bu məqsədlərin operativ uçot və operativ planlaşdırma ilə əlaqələndirilməsini, resursların düzgün istifadəsini təmin edir. Təşkilatda istifadə olunan ilkin sənədlərin tənzimlənməsi və unifikasiyası, maliyyə və idarəetmə uçotu üçün ortaq sənəd dövriyyəsinin hazırlanması və tətbiqinə, sığorta əməliyyatları üzərində ciddi nəzarətin aparılmasına, uçot informasiyalarının toplanması və işlənməsində iştirak edən şəxslərin məsuliyyətlərinin artmasına münbit şərait yaradır. Sənəd dövriyyəsinin düzgün təşkili ilkin sənədlərdə əks olunan informasiyanın etibarlılığının və dürüstlüyünün artırılmasını təmin edir.

İlkin sənədlər mühasibat uçotunda baş verən təsərrüfat əməliyyatlarının iqtisadi məzmun və hüquqi baxımdan düzgünlüyünə nəzarət vasitəsi olmaqla analitik təhlilin etibarlı informasiya mənbəyi kimi çıxış edir. Bütövlükdə sənədləşdirmə sığorta təşkilatının maliyyə - təsərrüfat fəaliyyətinə operativ nəzarəti təmin edir.

Beləliklə sığorta əməliyyatlarının sənədləşdirilməsi elə təkmilləşdirilməli və sənəd dövriyyəsi elə təşkil edilməlidir ki, səmərəli uçot sisteminin və nəzarətin təmin olunmasına münbit şərait yaratsın.

Sığorta ehtiyatlarının mühasibat uçotunun məqsədi sığorta ehtiyatları haqqında etibarlı analitik informasiyanı təmin etmək və bu informasiyanı vaxtında istifadəçilərə çatdırmaqdan ibarətdir. Əsas informasiya istifadəçilərinə investorlar, sığortalılar, sığorta təşkilatlarının idarəedici orqanları və s. aiddir.

Fikrimizcə sığorta ehtiyatlarının uçotu qarşısında əsas məqsəd aşağıdakılardan ibarət olmalıdır:

– siğorta ehtiyatlarının qanunvericiliklə tələb olunan səviyyədə formalaşması və uçotu;

– siğorta ehtiyatları üzrə rasional uçot siyasətinin formalaşdırılması;

– hər bir sığorta ehtiyatı üzrə analitik uçotun təmin edilməsi;

– siğorta ehtiyatları üzrə informasiyanın maliyyə hesabatlarında düzgün əks etdirilməsi.

Sığorta ehtiyatlarının uçotunun təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərdə aparılmasını məqsədəuyğun hesab edirik:

– hər bir sığorta növü üzrə analitik uçotun təşkili;

– birbaşa və təkrarsığorta üzrə analitik uçotun təşkili;

– sığorta fəaliyyəti ilə sair fəaliyyət üzrə xərclərin ayrı-ayrılıqda uçotunun təşkili.

Sığorta təşikilatlarında debitor borcların etibarlı qiymətləndirilməsi problemi şübhəli borclar üzrə ehtiyatların formalaşması və uçotu ilə bağlıdır. Burada əsas məqam hər bir şübhəli borc üzrə ehtiyatların yaradılması və uçotunun aparılmasıdır. Bu isə öz növbəsində əməktutumli bir prosesdir. Bu baxımdan sığorta təşkilatlarında şübhəli borclar üzrə uçotun yaradılması və aparılması təkmilləşdirilməlidir. Bu, əsasən kreditor risklərinin azaldılması və debitor borcların səmərəli idarə edilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Belə ki, debitor borclar haqqında şəffaf və dəqiq informasiyanın olmaması təhlil prosesini də çətinləşdirir və nəticələri hədəfdən yayındırır.

Qısamüddətli aktivlərin strukturunda xüsusi çəkiyə malik olan əsas maddələrdən biri debitor borclardır. Bu baxımdan həm debitor borcların düzgün uçotu, həm onlar üzrə ehtiyatların yaradılması, həm də ümidsiz borcların silinməsinin uçotunun təkmilləşdirilməsi zəruridir. Fikrimizcə debitor borcların elə analitik uçotu təşkil olunmalıdır ki, onların idarə edilməsi və əməliyyat tsiklinin azaldılmasının təhlili üçün zəruri informasiyanı təmin etsin.

Demək olar ki, bütün növ maliyyə əməliyyatlarının həyata keçirilməsi, onların daxilolmaları və xərcləri şəklində nağd pul axını yaradır. Sığorta şirkətinin nağd pul hərəkəti pul ifadəsində qiymətləndirilən maliyyə mənbələrinin hərəkətini təmsil edir. Sığorta təşkilatının maliyyə mənbələri müqavilələr bağlandığı andan etibarən sığorta ödəyiciləri şəklində öhdəliklərin yerinə yetirilməsinə qədər sığorta və təkrarsığorta əməliyyatlarının həyata keçirilməsi üçün istifadə olunan pul gəlirləri və daxilolmalar, habelə sığorta müqavilələrinin qorunmasını təmin edən investisiya və digər xərclər, işçilər üçün iqtisadi stimullar və sığorta məhsullarının keyfiyyətidir.

Sığorta təşkilatının nağd pul axınının formalaşması digər maliyyə qurumları və bazarları ilə müqayisədə özəlliklərə malikdir və sığorta fondunun vəsaitlərinin formalaşması və istifadəsi, fəaliyyət xərclərinin maliyyələşdirilməsi öz vəsaitini və sığorta fondlarının investisiya qoyuluşlarını əhatə edir.

Bu baxımdan sığorta təşkilatlarında pul vəsaitlərinin uçotuna xüsusi önəm verilməlidir. Belə ki, sığorta şirkətlərində nağd pul vəsaitlərin həcmi böyükdür. Onların səmərəli istifadəsi ən ümdə məsələdir. Bu, bir tərəfdən likvidliyin təmin edilməsi, digər tərəfdən sərbəst pul vəsaitlərinin investisiya imkanlarından istifadəsi baxımından əhəmiyyətlidir. Fikrimizcə “Xalq Sığorta” sığorta təşkilatında nağd pul vəsaitlərin

hərəkətinin operativ uçotu və strateji proqnozlaşdırılması həyata keçirilməlidir. Gündəlik və ya həftəlik daxilolma və xaricolmaların idarə edilməsi müəssisədə nə nağd pul vəsaitlərinin çatışmazlığına, nə də artığlığına səbəb ola bilər.

Müasir informasiya texnologiyaları təşkilatın gündəlik fəaliyyətinə fəal şəkildə təsir göstərir və təşkilatın informasiya infrastrukturunun ayrılmaz hissəsinə çevrilib. Hazırda informasiya texnologiyaları təşkilatın fəaliyyətini araşdırmağa və onun struktur bölmələrini bir-biri ilə qarşılıqlı əlaqələndirməyə imkan verir. İnformasiya texnologiyalarının tətbiqi son dərəcə sürətli bir tempdə inkişaf edir və daha geniş fəaliyyət sahələrini əhatə edir. Gələcəkdə informasiya texnologiyalarından istifadə etməklə analitik təhlil olmadan hər hansı bir rəqabətqabiliyyətli fəaliyyət sahəsi formalaşa bilməz. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər hansı bir idarəetmə fəaliyyətinin vacib hissələrindən biri informasiya resursları və proqram təminat ilə dəstəklənən informasiya infrastrukturu olmalıdır. İstənilən müasir informasiya sistemi müəyyən informasiya və əşya texnologiyaları əsasında fəaliyyət göstərir.

Qeyd olunanları nəzərə alaraq fikrimizcə "Xalq Sığorta" sığorta təşkilatında sığorta əməliyyatları və bütövlükdə mühasibat uçotu sisteminin avtomatlaşdırılması, bu əməliyyatların uçotuna imkan verən xüsusi proqram təminatlarının tətbiqi səmərəliliyin yüksəldilməsi ilə nəticələnə bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. "Sığorta fəaliyyəti haqında" Azərbaycan Respublikasının Qanunu. 25 dekabr 2007-ci il.
2. "Maliyyə hesabatlarının təqdimatı" adlı 1№-li Mühasibat Uçotunun Beynəlxalq Standartı.
3. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunun, 29 iyun 2004-cü il.
4. Abbasov İ. M, Məmmədov İ.A, Cabbarov A.S. "Mühasibat uçotu (sahələr üzrə)", Dərslik, Bakı, BBU, 2017.
5. www.maliyye.gov.az

Mirqavanov Novruz Tofiq oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: mirqavanov22@gmail.com

"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI"nın STRATEJİ TƏDBİRLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ istiqamətləri

Azərbaycan Beynəlxalq Bankının İnkişaf strategiyasının formalaşması mərhələləri daxili və xarici təhlil metodlarından istifadə edərək planlaşdırma və idarəetmə sistemlərindən ibarətdir. Bank strateji planlaşdırma, təhlil və monitorinq sistemini yaradır və daim təkmilləşdirir. Strategiyanın hədəfləri təyin edilmiş, şöbələr və ayrı-ayrı icraçılar səviyyəsinə çatdırılmışdır. Bütün bunlar bankı etibarlı rəqabət üstünlükləri ilə təmin etmək üçün zəruridir. Buna görə müasir idarəetmə metodlarına, onların

təkmilləşdirilməsinə diqqət yetirmək vacibdir, strategiyanı inkişaf etdirmək önəmlidir.

Bankın bütün əməliyyat planları, idarəetmə orqanlarının və struktur bölmələrinin fəaliyyəti Strategiyada göstərilən məqsədlər, vəzifələr və prioritetlər nəzərə alınmaqla qurulur. Kommersiya bankının məqsədlər sistemində rəqabət strategiyası vacib bir elementdir. Biznesə dəstəyin səmərəliliyinin artırılması tənzimləmə və idarəetmə hesabat sistemlərinin təkmilləşdirilməsi, geniş spektrli statistik məlumatların təhlili, modelləşdirmə və bankın maliyyə vəziyyətinə təsirinin proqnozlaşdırılması əsasında müxtəlif risklərin (kredit, əməliyyat, maliyyə) idarə olunması üçün həllərin həyata keçirilməsi qarşıya qoyulmuşdur.

Bankın strategiyası, irəlidə bir neçə il üçün hazırlanmış, bankın hədəflərini, gedəcəyi yolu müəyyənləşdirən inkişaf planıdır. Başqa sözlə, strategiya tapşırıqların yerinə yetirilməsi üçün bankın vəsaitlərinin necə xərclənəcəyini və hansı idarəetmə qərarlarının veriləcəyini müəyyənləşdirir.

Hər hansı bir bank öz strategiyasını qarşısına qoyduğu məqsədlərə dair planlaşdırır. Bu məqsədə çatdıqdan sonra növbəti yeni bir bank strategiyası həyata keçirilir.

2022-ci ilə qədər İnkişaf Konsepsiyası ilə əlaqədar olaraq "Azərbaycan Beynəlxalq Bankı" Azərbaycan iqtisadiyyatında orta artım templərini və ölkənin makroiqtisadi göstəricilərinin tədricən yaxşılaşmasını gözləyir. Eyni zamanda, Bank gəlirlilik artımını, kredit portfelinin keyfiyyətinin yüksəldilməsini, pərakəndə müştərilərin sayının əhəmiyyətli dərəcədə artmasını və sənayenin dövlət dəstəyini qəbul edir. "Azərbaycan Beynəlxalq Bankı" mərhələli bir təkamül inkişafını planlaşdırdı. Birinci mərhələ 2013-2014-cü illərdə keçirilib. Bu dövrdə bank aqrosənaye kompleksindəki mövqeyini möhkəmləndirməyə, faizsiz gəlir hesabına gəlir bazasını şaxələndirməyə, müştəri fondlarını artırmağa, pərakəndə və kiçik biznesi aktiv inkişaf etdirməyə, sığorta şirkəti, idarəetmə şirkəti və s daxil olmaqla bank qrupu yaratmağa davam etməyi planlaşdırdı. Bank bu dövrü işlərini bitirməyə çalışır. Regional şəbəkənin idarə olunmasını yaxşı-laşdırmaq, məhsul çeşidini genişləndirmək, əlavə olaraq bank öz məhsul xəttini Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırmağı planlaşdırır və kredit portfelinin keyfiyyətinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirir.

İnkişafın ikinci mərhələsi 2015-2018-ci illəri əhatə etmişdir. Bu dövrdə bank tərəfdaşlıq və agent satış və xidmət sxemlərini, ATM şəbəkəsini və bank qrupunu inkişaf etdirmişdir.

Üçüncü mərhələdə (2019-2022) yeni strategiyanın əsas hədəfləri stabil artım, sağlam maliyyə vəziyyəti, yüksək əməliyyat səmərəliliyi və ən yaxşı təcrübəyə uyğun olan korporativ idarəetmənin qurulmasıdır. Bütün mərhələlərdə bank planlaşdırılan bütün nəticələrə nail olarsa, 2022ci ilə qədər "Azərbaycan Beynəlxalq Bankı" aşağıdakı hədəf dəyərlərinə çatacaqdır:

- sənaye sahələrinin və ərazilərin inkişafı üçün dövlət proqramlarına kredit verilməsinin əhəmiyyətli həcmləri və şərtləri;
- kredit portfelinin yüksək həcmi və keyfiyyəti;
- fəaliyyət göstəricilərinin zəruri dəyərləri.

Bankın missiyasını yerinə yetirmək üçün aşağıdakı strateji hədəflər tələb olunur:

- aqro-sənaye kompleksinin və əlaqəli sahələrin kreditləşdirilməsi və onlara xidmət göstərilməsində, o cümlədən mövsümi kreditləşmə və layihə maliyyələşdirməsində bazar payının artması ilə lider mövqeyinin təmin edilməsi;

- Azərbaycan Respublikasının və əhalinin iqtisadiyyatın prioritet sektorlarını və seqmentlərini kreditləşdirmə və xidmət göstərməkdə Bankın mövqeyini gücləndirməklə gəlir mənbələrini şaxələndirmək;

- Effektiv, etibarlı və yüksək texnoloji maliyyə institutu kimi Bankın mövqeyinin möhkəmləndirilməsi.

Strateji hədəflərə çatmaq üçün Bank aşağıdakı vəzifələr qrupunu müəyyənləşdirir.

Aqro-sənaye kompleksi və əlaqəli sahələrin kreditləşməsində xidmət göstərilməsində, o cümlədən mövsümi kreditləşmə və layihə maliyyələşdirməsində bazar payının artması üçün:

- müştərilərin kreditlərə ödəmə tələbi hissəsi kimi aqrosanoat kompleksinin dövlət proqramının göstəriciləri nəzərə alınmaqla kreditləşmə həcmini artırmaq;

- rəqabətli idxal əvəzediciliyinin həyata keçirilməsinə kömək etmək və iqtisadiyyatın ixrac potensialını artırmaq;

- Satışda standart məhsulların və konveyer texnologiyalarının payını artırmaq, fərdi əməliyyatların strukturlaşdırılması mexanizmini təkmilləşdirmək;

- Kredit portfelinin keyfiyyətini və gəlirlilik səviyyəsini, o cümlədən problemli və vaxtı keçmiş borclarla işləmə vasitələrinin təkmilləşdirilməsi yolu ilə təmin etmək;

- bir müştəriyə düşən məhsulların sayını, eləcə də aktiv müştərilərin bütün seqmentlərində payını artırmaq.

Bank tərəfindən həyata keçirilən universal bir kommersiya bankının biznes modeli, Banka aqrobiznes, əlaqəli və iqtisadiyyatın digər sahələri, seqmentlər və dövlət üçün prioritet olan sahələrdə dövlət siyasətinin həyata keçirilməsi üçün bazar aləti olmağa imkan verir, Bankın davamlı inkişafını və rəqabət qabiliyyətini təmin edir, tənzimləmə tələblərinə uyğundur və hədəf səviyyəsinə çatır, gəlirlilik və səmərəlilik əldə edir.

Strateji hədəflərə çatmaq üçün ən vacib şərtlər həm Bankın planlı şəkildə vaxtında yenidən kapitallaşdırılması, həm də hədəf həcmində uzunmüddətli maliyyələşmənin təmin edilməsi baxımından, habelə iqtisadiyyatın prioritet sektorlarının və seqmentlərinin subyektləri olan borcalanlara dövlət dəstəyi tədbirləri baxımından dövlət yardımıdır.

Kredit portfelinin keyfiyyətini yaxşılaşdırmaq üçün Bank aktivlərin keyfiyyətinin aşağı düşməsinin qarşısını almağa davam edəcək, qurulmuş, yenidən qurulma və vaxtı keçmiş borcların ödənilməsi sistemi çərçivəsində problemli borcalanlarla işləməyi davam etdirəcəkdir.

Bank inkişaf etmiş hesablama strategiyası və texnologiyalarını təkrarlamaqla problemli aktivlərin mərhələli şəkildə azaldılmasına diqqət yetirəcək və problemli borcların aradan qaldırılması tədbirləri nəticəsində əldə edilmiş əsas olmayan aktivlərin satışı üzərində işləməyə davam edəcəkdir. Xarici maliyyələşdirmənin dəyişdirilməsini nəzərə alaraq, Bankın əsas vəzifəsi həm müştəri öhdəliklərini artırmaqla, həm də daxili maliyyə bazarında əməliyyatları inkişaf etdirməklə büdcəyə vəsait cəlb etməkdir.

Maliyyə planlarının tərtib edilməsi maliyyə menecmentinin funksiyalarından biridir. Maliyyə planı, müəssisənin və ya bankın maliyyə fəaliyyətini tam şəkildə əks etdirir. Bankın maliyyə planı əsasən üç sənəddən ibarətdir:

1) bankın balansı;
2) pul fondlarının fəaliyyət planı;
3) mənfəət planı.

Hesabat sənədlərindən məlumat vacibdir.

Maliyyə planlarını işləyərkən, bankın gündəlik maliyyə vəziyyətini təhlil etmək lazımdır

Maliyyə nəticəsi baxımından Bankın gəlirli fəaliyyətinin əsas amilləri dəyəri və aktuallığı, risklərin şaxələndirilməsi, komisyon gəlirlərinin artım tempi, uzunmüddətli maliyyələşmənin mövcudluğu, hədəf həcmində və məqsədli tarixlərdə əlavə kapitallaşma, habelə pis borcların ödənilməsi baxımından aktiv və öhdəliklərin balanslaşdırılmış quruluşu olaraq qalır.

Bankın sabitliyini təmin etmək üçün öz vəsaitlərinin (kapitalın) adekvatlığı tələb olunan səviyyədə saxlanılacaqdır.

Bankın kəmiyyət göstəricilərinin tərkibi və dəyərləri kənd təsərrüfatına və əlaqəli sahələrə kredit verməkdə bazar payının verilməsi də daxil olmaqla, vəzifəsi, məqsəd və vəzifələri əsasında müəyyənləşdirilir. Göstəricilərin dəyərləri müştərilərin Bankın kredit və xidmətlərinə effektiv tələb potensialını, borcalanların borc yükünün mövcud və proqnozlaşdırılan səviyyəsinin qiymətləndirilməsini, habelə kredit borclarına keyfiyyətli xidmət göstərmək imkanlarını nəzərə alaraq 3.2-cədvəldə verilmişdir [2].

Cədvəl 3.2.

Bankın 2020-ci il inkişafına dair əsas kəmiyyət qaydaları

Göstərici	Dəyər
30.06.2020	
Səhm kapitalı, min manat	1,241,287
Kredit portfeli (cəmi), min Azn	777,983
Kənd təsərrüfatının, əlaqəli sahələrin və istiqamətlərin inkişafı üçün verilən kreditlər üzrə kredit borcunun qalığı, manatla	3,610,000
Müştəri öhdəlikləri (cəmi), manatla	4,576,757
Kənd təsərrüfatı kreditləşməsində bazar payı (kənd təsərrüfatı, meşə təsərrüfatı, qida sənayesi, kənd təsərrüfatı texnikası),%	>30
Mövsümi maliyyələşdirmədə bazar payı,%	>75
Giriş nöqtələrinin sayı, min	12,5

**** Baza ssenarisi çərçivəsində və hesabat ilinin birinci rübündən gec olmayaraq Bankın kapitalına planlı şəkildə daxilolma şərtləri daxilində.***

18.06.2019 tarixinə, Azərbaycan Beynəlxalq Bankın nizamnamə kapitalı 1.224.447 min manat, 08.09.2020 tarixinə isə nizamnamə kapitalı 1,241,287 min manat olmuşdur. Beləliklə 2019 və 2020-ci illəri təhlil etsək, 2020-ci ildə Bankın nizamnamə kapitalında 16,840 min manat artım olmuşdur. Bundan əlavə, Bank kapital mənbələrini zəruri diversifikasiyanı təmin edərək resursları cəlb etmək üçün bazar əsaslı vasitələrdən istifadə edəcəkdir.

"Aqrosənaye kompleksinin, əlaqəli sahələrin və istiqamətlərin inkişafı üçün verilmiş kreditlər üzrə kredit borcunun qalığı, milyard rubl". Göstəricinin aralıqlarına dair Bankın 2020-ci ilədək inkişafına dair kəmiyyət qaydalarının dəyərləri. və federal büdcə hesabına Bankın nizamnamə kapitalına müvafiq illik töhfələr kənd təsərrüfatı sektorunun dövlət proqramının "Kənd təsərrüfatının maliyyə-kredit sisteminin inkişafı" alt proqramının göstəriciləri ilə sinxronlaşdırılır.

İstifadə olunmuş ədəbiyyat:

1. İ.M.Abbasov, R.F.Sadıqov. Managment, Bakı-2015.
2.Beynəlxalq Bankın 2020-ci il üçün hesabatı.
3.Банки и банковские операции [Текст]: Учебник / В.А. Челнокова - М.: Экономика, 2017. – 463с.
4.T.T.Əliyeva. Beynəlxalq valyuta kredit münasibətləri. Bakı-2016.

Ağayev Orxan, maqistrant,
Bakı Biznes Universiteti
Email: orxan6277@ gmail.com

AQRAR SAHƏDƏ MÜƏSSİSƏLƏRİN İXTİSASLAŞMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Dövlət müstəqilliyi dövründə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının aqrar sahəsinin inkişaf modelini qurmuş, onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev isə bu sahənin inkişaf strategiyasını müəyyənləşdirmiş və uğurla həyata keçirməkdədir. Aqrar sektor Azərbaycan iqtisadiyyatının çox mühüm sferası kimi ÜDM-in təxminən 5 faizini, məşğulluğun isə təxminən 45 faizini formalaşdırır. Hər bir ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının proporsional inkişafından asılıdır. Dünya əhalisinin sürətlə artdığı, qlobal istiləşmənin intensivləşdiyi hazırkı mərhələdə dövlətlərin səmərəli fəaliyyət göstərən aqrar sektora ehtiyacı daha çox hiss olunur. Aqrar sektorun səmərəli inkişafı yeni iqtisadiyyatın az resurslar sərf etməklə daha yüksək kənd təsərrüfatı məhsulları istehsalına nail olmağı nəzərdə tutur.

Radikal islahatların dərinləşdirilməsi şəraitində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində ixtisaslaşmış aqrar müəssisələrin rəqabət qabiliyyətinə təsirinin idarə olunması və sərmayə qoyuluşlarının prioritetlərinin reallaşdırılması proseslərinin tənzimlənməsi məsələləri vahid müstəvidə həll edilməlidir. Aqrar müəssisələrin səmərəlilik səviyyəsini xarakterizə edən göstəricilər, həlledici dərəcədə kənd təssərüfatı məhsullarının texniki-iqtisadi parametrləri ilə şərtlənir. İxtisaslaşmış iri aqrar müəssisələrinin sahibi kimi fermer intellektual potensialın inkişafına vəsait qoyuluşunu artırmaqdan əvvəl, bütün mümkün variantları araşdırır, həmin vəsaitlərin istifadə prioritetlərini yenidən nəzərdən keçirir. Bu məqsədlə iri fermerlər hərtərəfli təhlilin və investisiya modelləşdirilməsinin nəticələrindən istifadə imkanına malikdir. Kiçik aqrar müəssisələr və ailə təsərrüfatları isə yaxşı halda analitik müqayisəli təhlilin

nəticələri ilə kifayətlənməli olurlar. Bu amillərin nəticəsidir ki, aqrar sahədə müəssisələrin ixtisaslaşması sahibkarlıq fəaliyyətinin təşviqində metodiki təminatın rolunun əhəmiyyətli dərəcədə artması müşahidə olunur.

Aqrar sahədə müəssisələrin ixtisaslaşmasının stimullaşdırılması prioritetləri qismində, hazırda ilk növbədə aşağıdakıların nəzərə alınması məqsədyönlüdür:

- regionun iqtisadi inkişafı məqsədilə ixtisaslaşmış emal müəssisələrinin yaradılması və xidmətlərin dəstəklənməsi;
- aqrar müəssisələrə güzəştli kreditlərin verilməsi və vergi güzəştlərinin davam etdirilməsi;
- orqanik, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və son istehlakçıya çatdırılması imkanlarının genişləndirilməsi;
- tullantısız aqroemal texnologiyalarının tətbiqinin, texnoloji və iqtisadi mühitin yaxşılaşdırılması, bu istiqamətdə kompleks yanaşmaların prioritetliyinin təmin olunması;
- alternativ enerji mənbələrindən istifadənin texnoloji, iqtisadi və digər imkanlarının genişləndirilməsi;
- mövcud istixanaların modernləşdirilməsi və genişləndirilməsi;
- aqromarketinq və tədarük şəbəkələrinin dəstəklənməsi;
- baramaçılığın inkişaf etdirilməsi;
- ərzaq təhlükəsizliyinin təmin edilməsində qida rasionunun və ayrı-ayrı qida komponentlərinin elmi əsaslarla idarə olunması;
- aqroparkların yaradılması və inkişaf etdirilməsi.
- aqrar bölmənin müxtəlif sahələrini əhatə edən digər regional təcrübənin (Naxçıvan MR) və layihələrin tətbiqinin genişləndirilməsi;

Mükəmməl loqistik sistemlər olmadan müasir aqrar-ərzaq təsərrüfatının səmərəli fəaliyyəti olduqca problematikdir. Məsələ ondadır ki, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması, emalı və daşınmasında kəmiyyət və keyfiyyət itkilərinin minimumlaşdırılması imkanlarının gerçəkləşdirilməsi səviyyəsi, həmin məhsulların maya dəyərinə və qiymətinə təsirsiz qalmır. 2015-ci ildən başlayaraq Azərbaycanda kənd təsərrüfatı, xüsusilə bitkiçilik məhsulları istehsalçılarının stimullaşdırılması üçün gorulən tədbirlər sayəsində innovasiya fəallığında qismən yüksəliş müşahidə olunmağa başlamışdır.

Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı təbiətə münasibətdə uyğunlaşma kontekstində innovasiyalı fəallığın yeni səviyyəsinin əldə olunmasını tələb edir. Bu fəallıq təkcə istehsal, emal, daşıma, saxlama və satışda deyil, eyni zamanda istehlakda da özünü göstərməlidir. Kəndli təsərrüfatları ilə emal, tədarük və ticarət sahələri arasında səmərəli təsərrüfat əlaqələrinin formalaşması üçün ixtisaslaşmış aqrar-sənaye firmaları, aqrar-sənaye kombinatları, elmi-istehsal müəssisələri kimi təşkilati-idarəetmə modellərindən istifadə olunur. Son illərdə istehsal sahələrinə dövlətin birbaşa maliyyə dəstəyi nəticəsində pambıq, tütün, ipək və digər məhsulların istehsalında və ixracında əhəmiyyətli artımlara nail olunmuşdur. Aqrar sahibkarlıq infrastrukturunun formalaşması və inkişafı məqsədilə konkret regionun kənd təsərrüfatının ixtisaslaşmasına müvafiq aqroservislərin və aqroparkların nümunəvi layihələrinin hazırlanaraq sahibkarlara təqdim olunması əlamətdar məsələdir. Həmin layihələrin reallaşdırılması, böyük məbləğdə maliyyə vəsaiti tələb edir və bu məqsədlə artıq davamlı olaraq

Sahibkarlığa Kömək Milli Fondundan güzəştli kreditlər verilir.

Ölkə prezidenti yanında fəaliyyət göstərən Sahibkarlar Şurası sahibkarlığa dövlət himayəsi tədbirlərinin səmərəliliyinin və özəl bölmədə iqtisadi fəallığın yüksəldilməsində mühüm rol oynamaqdadır. Dünya aqrar-ərzaq bazarında qiymətlərin yüksəlməsi, xammal, material və yanacağın bahalaşması, nəticə etibarı ilə aqrar sahibkarların da xərclərini artırmaqla onların gəlirlərinin azalması ilə müşahidə olunur. Kənd təsərrüfatı müəssisələrinin gəlirlərinin azalması probleminin qarşısının alınmasının mühüm istiqamətlərindən biri kənd təsərrüfatında xərclərin aşağı salınmasıdır. Bu məqsədlə yeniləşmiş təcrübədə aşağıdakı məsələlər zəruridir:

- aqrar müəssisələrə birbaşa və ya dolayı maddi yardım;
- istehsal infrastrukturunun inkişafına vəsait ayırmaları;
- güzəştli kreditlərin verilməsi;
- vergi güzəştləri və tətilləri;
- yerli xammala əsaslanan emal müəssisələrinin yaradılması. Bu istiqamətdə emal müəssisələrin formalaşması aşağıdakı tələblərə cavab verməlidir:
- bu və ya digər xammalın, yarımfabrikatın istehsal olunduğu sahədə fəal rəqabət mühiti olmalıdır. Əks təqdirdə xammalın subsidiyalşdırılması onun qiymətinin yüksəlməsinə, kənd təsərrüfatı istehsalçılarına ödənilən subsidiyanın xammalın istehsal olunduğu sahəyə transferinə gətirib çıxara bilər. Odur ki, subsidiyalaşdırılan xammal və yarımfabrikatlar məhz kənd təsərrüfatı sahəsində ixtisaslaşan müəssisələrdə istifadə edilməlidir ki, onun təkrar satılması üçün motiv olmasın;

Aqrar sahədə ixtisaslaşmış müəssisələrdə əmək məhsuldarlığının yüksəldilməsi, mütərəqqi texnologiyaların yüksək rentabelliyi, yeni məhsullar hesabına ümumi rəqabət qabliyyətinin yüksəldilməsi və bazarın az mənimsənilmiş seqmentlərinə çıxış imkanının yaranması qeyd olunmalıdır.

Osmanov Kənan, magistrant,
Bakı Biznes Universiteti
Email: kənan.osmanov.2019.@inbox.ru

XAMMAL VƏ MATERİAL EHTİYATLARININ UÇOTU VƏ AUDİTİ

Mal-material ehtiyatları müəssisənin elə aktivləridir ki: a) biznesin adi gedişində satış üçün saxlanılır; b) bu cür satış üçün istehsal prosesindədir, yaxud istehsal və ya xidmət göstərilməsi prosesində istehlak ediləcək material və ya təchizatın formasına malikdir. Mal-material ehtiyatları KTMMUS sistemində mühasibat uçotunun 201-208 yığım hesablarında əks olunur və “xammal və materiallar”, “istehsalat məsrəfləri” və “hazır məhsul”, həmçinin, “təkrar satış üçün mallar” uçot kateqoriyaları üzrə bölüşdürülürlər.

Mal və material ehtiyatlarının qiymətləndirilməsi müəssisənin KTMMUS 8 standartı üzrə aparılan hesabatında iki ölçüdən ən kiçiyi üzrə ölçülməlidir: satışın maya dəyəri və ya xalis dəyəri ilə. Bir qayda olaraq mal-material ehtiyatları kateqoriyalarının uçotu maya dəyəri üzrə aparılır, lakin müəssisənin istehsal etdiyi məhsulların qiymətdən düşməsini sübut edən hallar baş verdikdə, yaxud onun bəzi məhsul və

ya xidmətlərinin buraxılışı ümumiyyətlə dayandırıldıqda, mal-material ehtiyatlarının balansında olan müvafiq kateqoriyalar (gələcək istehsal dövriyyəsindən çıxaraq qeyri-likvidə çevrilən kateqoriyalar) maya dəyərinin xalis satış dəyəri səviyyəsinədək azalmaqla qiymətdən düşməyə məruz qalırlar. Mal-material ehtiyatları obyektlərinin (xüsusilə də hazır məhsulların) mühasibat maya dəyərinə xammal, material və yarımfabrikatların alınmasına sərf olunan məsrəflər, həmçinin istehsal prosesi məsrəfləri daxil olmalıdır. Xammal və materialların alınmasına sərf edilən məsrəflərə (mal-material ehtiyatlarının — xammal və materiallar kateqoriyası) daxil olmalıdır: satınalmanın xalis qiyməti (yəni, təqdim edilən bütün ticarət güzəştləri və konsessiyaları çıxmaqla), idxal rüsumları və digər vergilər (ƏDV kimi əvəzi ödənilən vergilərdən savayı), həmçinin, xammal, xidmət materialları və ya hazır məhsullarla bilavasitə əlaqəli, nəqliyyat və çatdırılma üçün yükləmə-boşaltma məsrəfləri. İstehsal prosesi məsrəflərinə bilavasitə istehsal obyektləri ilə əlaqəli xərclər, ilk növbədə, istehsalatla məşğul olan işçi heyətinin əmək haqlarının ödənilməsi üçün məsrəflər (əmək haqlarının ödənilməsinə sərf edilən birbaşa xərclər) daxildir. Bura həmçinin, xammal və material kateqoriyasını hazır məhsul kateqoriyasına çevirmək üçün sərf edilməli olan sabit və dəyişən ümumi məsrəflər də daxildir. Əmək haqlarının ödənilməsinə sərf edilən birbaşa xərclər və istehsal obyekti vahidləri üzrə dolayı ümumi əmək məsrəfləri bölgüsü müəssisənin normativ yüklənmə səviyyəsi əsasında həyata keçirilir ki, bu zaman bu cür yüklənmə səviyyəsini müəyyən etmək üçün müəssisənin istehsal güclərinin son dövrlər üzrə orta yüklənmə səviyyəsindən istifadə edilə bilər.

Likvidliyin vacib xüsusiyyəti müəssisənin müxtəlif mal-material ehtiyatlarının müxtəlif ticarət şəraitlərində satış sürətidir. Mal-material ehtiyatlarının ədalətli dəyəri mal-material ehtiyatlarının nizamlanmış realizə etmə xüsusiyyətinə və satış zamanı adətən qəbul edilmiş mal-material ehtiyatlarının marketinq dövrünə əsaslanır. Nəzərə almaq lazımdır ki, cərimələrin gələcəkdə satılması üçün müəssisənin mal-material ehtiyatlarının girov qalıqlarına yönəldilməsi zamanı bu cür qalıqlar böyük həcmdə təqdim edilə bilər və bu səbəbdən, müəssisə üçün səciyyəvi olan kommersiya satış sövdələşməsinin həcmi çərçivəsində qeyri-likvid, yaxud yalnız digər mal-material ehtiyatları kateqoriyaları üzrə qalıqlarla birlikdə realizə edilə bilər.

Yoxlama zamanı ilk növbədə anbar uçotu məlumatlarının 201 saylı "Material ehtiyatları" (10 "Materiallar") hesabı üzrə sintetik uçot məlumatlarına uyğunluğu müəyyən edilir. Bunun üçün hər ayın sonuna qalıqlar cədvəlinin ümumi yekunu material qiymətlilərinin, malların və taraların uçotu cədvəlində əks etdirilmiş qalıqlarla müqayisə edilir. Belə müqayisə yoxlanılan dövr üzrə ayın 1-nə hər bir anbar üzrə aparılır. Bu zaman auditor aşağıdakı köməkçi cədvəli tərtib edir. Auditor ilkin sənədlərin qarşılıqlı üzləşməsini aparır. Ilkin sənədlərin məlumatları məhsul və materialların hərəkəti haqqında hesabatlarla, istehsal hesabatları ilə, analitik uçot məlumatları isə 10 saylı jurnal-orderlə üzləşdirilir. 10 saylı jurnal-orderin məlumatları Baş kitabın və müəssisə balansının məlumatları ilə müqayisə edilir. Material resurslarından istifadənin auditinin əsas mənbələrinə materialların istifadəsi üzrə toplama cədvəlləri, 201 saylı "Material ehtiyatları" (10 "Materiallar") hesabının krediti üzrə jurnal-order, materialların hərəkəti haqqında qalıq və ya dövriyyə cədvəlləri, materialların anbar uçotu kitabları və ya kartoçkaları və s. ilkin sənədlər aiddir.

Təsərrüfat əməliyatlarının icrası dövründə müəssisədə əvvəllər istehsal fəaliyyə-

tində istifadə edilməsi üçün alınmış materiallardan müəyyən hissəsinin satılması vacibliyi əmələ gəlir. Bu kimi vəziyyət istehsal proqramının dəyişməsi ilə əlaqadar olaraq lazım olmayan materilların satılması, keyfiyyəti aşagı olan və istehsal tələblərinə yararsız olduğu üçün materialların silinməsi və sairə hallarda yarana bilər. Materialların satışı və xaricolması mənfəət-zərər haqqında hesabatda qeyd olunur.

Məhsulun yüklənməsi və buraxılışı təşkilatın təchizat şöbəsi vasitəsilə yerinə yetirilir. Bu xidmətin işçiləri alıcılarla müqavilə bağlayır, yüklənəsi məhsullar üçün sənəd rəsmiyyətə salır, onların anbarda operativ uçotunu aparır, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə, vəsaitin alıcıdan vaxtında və tam daxil olması üzərində nəzarəti təşkil edir. Məhsulun yüklənməsi satıcı və alıcı arasında başlanmış alqı-satqı (tədarük) müqaviləsinə müvafiq yerinə yetirilir. Tədarük müqaviləsinə əsasən satıcı məhsulu alıcının mülkiyyətinə verməyə, alıcı isə onu ödəməyə götürməyi öz üzərinə götürür. Müqavilədə məhsulun adı, miqdarı, çeşidi, keyfiyyəti, qiyməti, hesablaşma qaydası, malsatan və ödəyicinin poçt və ödəmə rekvizitləri, yükləmə sənədləri, müqavilə şərtlərinin pozulmasına görə görüləcək tədbirlər və i.a. göstərilir. Mühasibat uçotunun aparılması məqsədilə tədarük müqaviləsinin ən mühüm şərti məhsul, xidmətdə mülkiyyət hüququnun satıcıdan alıcıya keçməsi hesab edilir. Məhsul bir qayda olaraq, bunun yaxud müşayətedici sənədin (qaimənin, dəmir yolu qaiməsinin, konosomentin və s.) alındığı andan alıcının mülkiyyəti sayılır. Tədarük müqaviləsində alınmış məhsulun mülkiyyət hüququna keçməsinin başqa qaydası, yəni bunun ödənişindən sonra keçilməsi də nəzərdə tutula bilər. Yüklənmiş məhsullara, verilmiş işlərə və göstərilən xidmətlərə görə yazılan bütöv sənədlər (əmr-qaimə, təmir yolu qaiməsi, akt və i.a.) hesablaşma sənədi (ödəmə tələbnaməsi, hesabnamə) yazmaq üçün maliyyə şöbəsinə, yaxud mühasibatlığa verilir.

Qasımov Elman Rüstəm oğlu, magistrant,
Azərbaycan Universiteti
Email: qasimovelman09@gmail.com

BANK SİSTEMİNİN DAYANIQLI İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ROLU

Dünya təcrübəsi göstərir ki, istənilən bir sistemin normal fəaliyyət göstərməsində dövlət mühüm rol oynayır. Buna görə də dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin və dövlətin iqtisadiyyata olan müdaxiləsinin optimal nisbətinin müəyyən edilməsi iqtisadiyyatın başlıca problemlərindən biridir. Müasir dövrdə həyata keçirilən bazar iqtisadiyyatı sisteminin əsas məqsədi ictimai tərəqqi və iqtisadiyyatın səmərəli inkişafına nail olmaqdan ibarətdir.Ümumiyyətlə, bütün iqtisadi sistemlərdə dövlət iqtisadiyyata öz müdaxiləsini göstərir və bu müdaxilə inzibati amirlik sisteminə nisbətən daha az olur. Dövlət maliyyə nəzarəti dövlətin idarə olunmasının əsas meyarlarından, maliyyə-kredit sisteminin normal fəaliyyətini təşkil edən vacib şərtlərindən biri kimi nəzarətin başlıca istiqamətindən biri hesab olunur.

Dövlət maliyyə nəzarətinin əsas məqsədi dövlət büdcəsinin və qeyri-büdcə fondlarının kəsirsiz olaraq yerinə yetirilməsinə, kredit resurslarının istifadəsinə, ölkənin

daxili və xarici borclarının ümumi vəziyyətinə, dövlət ehtiyatlarına nəzarətdir. Dövlət nəzarətinin bu növündə qarşıya bütün növ dövlət gəlirlərinin vaxtında və tam olaraq daxil olması, büdcə defisitinin aradan qaldırılması məqsədilə cəlb edilmiş vəsait və kreditdən düzgün istifadə, sosial sahəyə xərclərin vaxtında maliyyələşdirilməsi məsələləri qoyulmuşdur.

Hal-hazırda Azərbaycan bank sistemində xeyli irəliləyişlər diqqəti cəlb edir. Bu inkişaf, dinamika özünü bütün bank xidməti sahələrində, bank məhsullarının istehsalında, bank xidmətlərindən istifadədə, ETT-nin yüksək səviyyədə olan tətbiqində, müştəri rahatlığının daim təmin edilməsi üçün internet-banking xidmətinin mövcudluğunda, hesablaşma-köçürmə əməliyyatlarının təcili olaraq həyata keçirilməsində və s. kimi sahələrdə göstərir.

Bank sistemi ölkənin kredit sisteminin tərkib hissələrindən biridir. Kredit sistemi isə iqtisadi sistemin ayrılmaz hissəsidir.Yəni, bankların fəaliyyəti, inkişafı maddi və qeyri-maddi nemətlərin istehsalı, dövriyyəsi və istehlakı ilə bilavasitə bağlı olmuşdur. Büdcə və vergi sistemləri ilə, qiymət qoyma sistemi ilə, xarici iqtisadi fəaliyyət şəraiti ilə bağlı olan banklar öz ümumi fəaliyyətində təsərrüfat həyatının tənzimlənməsi mexanizminin ayrılmaz hissəsinə çevrilmişdir. Ölkədə fəaliyyət göstərən banklar birsəviyyəli və ikisəviyyəli təşkil etməyə malikdir. Birsəviyyəli təşkil etmə ölkədə mərkəzi bank olmadığı halda və ya yalnız mərkəzi bank mövcud olduğu halda qüvvədə qalır.

Bank sistemində pərakəndəlik kommersiya banklarının müstəqillik səviyyəsinin uyğun olaraq artmasına gətirib çıxarmışdır. Bununla yanaşı, dövlət bank fəaliyyətinin hüquqi tənzimlənməsini həyata keçirir. Bank nəzarətinin əsas məqsədi bank sisteminin sabitliyinin qorunub saxlanması, səhmdarlar və kreditorların maraqlarının müdafiə olunmasından ibarətdir. Maliyyə nəzarətinin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, onun obyeкti istənilən zaman pul vəsaitlərinin səfərbər edilməsi, daha doğrusu, maliyyə ehtiyatlarının istifadəsi ilə əlaqədar olan münasibətlər sistemindən ibarətdir. Müasir bazar iqtisadiyyatı şəraitində bankların maliyyə sabitliyinin qorunması istiqamətində aşağıdakı bir sıra addımların atılması mühüm əhəmiyyət kəsb edir:

- kredit faizlərinin endirilməsi;
- banklarin kifayət qədər uzun müddətli depozit cəlbi;
- kiçik və orta sahibkarlığa marağın çoxaldılması və onların inkişafı üçün tədbirlərin görülməsi;
- trast, françayzinq, faktorinq kimi bir sıra bank əməliyyatlarının reallaşdırılması və s.

Bank sisteminin fəaliyyətinin tənzimlənməsində, ona nəzarət prosesində bir çox modellərdən istifadə olunur. Bu modellər içərisində ən əsas model bank sektorunun fəaliyyətinin Mərkəzi Bank tərəfindən idarə olunması prosesidir.

Dövlət banklarının fəaliyyətinin tənzimlənməsində iqtisadi alət rolunu məhz Mərkəzi Bank vasitəsi ilə həyata keçirdiyi pul siyasəti təşkil edir. Hər bir ölkənin kommersiya bankının fəaliyyətinin ümumi tənzimləmə funksiyasının hansı səviyyədə olması həmin ölkənin Mərkəzi Bankı tərəfindən aparılan pul-kredit siyasətindən,onun uyğun istiqamətlərinin seçilməsindən asılıdır. Bu halda müxtəlif növ pul-kredit siyasəti alətlərindən istifadə olunması daha məqsədəuyğundur.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, banklar tərəfindən strateji inkişaf planı hazırlanarkən aşağıdakı bir sıra amillər nəzərə alınmalıdır:

- ölkə iqtisadiyyatlnın sosial-iqtisadi inkişaf vəziyyəti;
- əhalinin gəlirlilik səviyyəsi;
- maliyyə bazarındakı dəyişikliklər.

İstifadə olunmuş ədəbiyyat:

1. "Banklar haqqında Azərbaycan Respublikasının Qanunu" (4 mart 2005-ci il tarixli, 6 mart və 19 oktyabr 2007-ci il tarixli əlavə və dəyişikliklərlə).
2. Z.F.Məmmədov. "Pul, kredit və banklar". Bakı-2006.
3. Z.F.Məmmədov. "Bank fəaliyyətinin əsasları". Bakı-2011.
4. R.A.Bəşirov. "Bank işi". Bakı-2007.
5. Bank işi. Dərslik. 2 Cilddə. I cild. Bakı, Təknur, 2016, 456 səh.

Qasımova Şəbnəm Şərafət qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: gasimovas39@gmail.com

"ATƏŞGAH SIĞORTA" ASC SŞ-nin TİMSALINDA MENECERLİK VƏ KADRLARIN MÜŞTƏRİLƏRLƏ DAVRANIŞ ÜSULLARI

Öz məsulliyyətini hiss edən menecer heç vaxt qarşıya qoyulmuş məqsədə uyğun olmayan qərarlar qəbul etmir. Bazarda uğura nail olmaq üçün şirkət menecerləri başqa müəssisələrə nisbətən daha yaxşı rəqabət üsulu seçməlidir. Bu üsul məhsul və ya xidmətin hansısa bir aspekti ola bilər, hansı ki, hal-hazırda aktualdır və alıcılar tərəfindən yüksək dəyərləndirilirlər. Buna misal olaraq şirkət məhsulun ən geniş çeşidini təklif etməklə rəqabət üstünlüyü əldə edə bilər, yüksək keyfiyyət nümayiş etdirərək eyni zamanda həmin məhsulun qiymətini aşağı sala bilər, yaxud da əla xidmətlə önə çıxa bilər. Müştəriyönümlü müəssisələr və xidmət sahəsinə üstunluk verən menecerlər kadrlarını elə yetişdirməlidilər ki, həmin kadrlar müştərilərlə davranış və ünsiyyət zamanı hər hansı bir boşluğa yol verməsinlər. Menecerlər üçün işgüzar ünsiyyətə nail olmaq son dərəcə vacibdir. Uğursuz ünsiyyət şəraitində rəhbər və ya işçi yersiz ifadələr işlətməklə və müştərilərə hörmətsiz münasibət bəsləməklə zaman itirərək öz məqsədinə nail ola bilməz. İşgüzar ünsiyyət zamanı bəzi nüanslara əməl etmək lazımdır. Müştərilərlə söhbətlərin aparılması zamanı həmsöhbətə qarşı diqqətli və nəzakətli olmaq bu nuanslardan sadəcə biridir. Lakin hər zaman çalışmaq lazımdır ki, nəzakət ölçü daxilində olsun. Müştəriyə xidmət göstərən şirkət işçisi həmin müştəri üçün elə şirkətin özünə bərabərdir. Ola bilər ki, şirkətin güclü idarəetmə sistemi, kapitalı və digər resursları var. Lakin bir müştəri üçün bunların heç bir əhəmiyyəti yoxdur. Müştəri üçün şirkətin bütün strategiyası, işi, resursları birbaşa müştəri ilə işləyən kadrdan ibarətdir. Şirkət haqqında imici müştəri ilə təmasda olan işçilər formalaşdırır. Müştəri ilə münasibətlərin formalaşması zamanı özünə daim "bu müştəri bizə bir daha müraciət edəcəkmi?" sualını verməlisən. Özünü müştərinin yerinə qoymağı bacarmalısan. Çünki, bir müəssisə üçün potensial müştərini itirmək hər dəfəsində bir addım geri getmək deməkdir. Bununla yanaşı, bütün müştəriləri razı sala bilməmək reallığı da mövcuddur. Bu reallıq işçini həvəsdən salmamalı, əksinə bu istiqamətdəki səyləri

qətiyyətli şəkildə artırmalıdır. Müştərilərin rəyi daim öyrənilməli, nəzərə alınmalıdır. Müştəri hiss etsə ki, onun rəyi hansısa şirkətdə nəzərə alınır, bu, həmin şirkətə qarşı inamın artmasına səbəb olar. Digər tərəfdən, qazanılmış müştəri şirkətin ən yaxşı reklam vasitəsi deməkdir. Müştərinin məssisəyə gətirdiyi başqa bir müştərini heç bir reklam vasitəsi gətirə bilmir. Bu, o zaman mövcud olur ki, müştəri özü xidmətdən məmnun qalıb. Qeyd etməli olduğum digər məsələ isə müştəri siyasətinin kompleks olmasıdır. Misal üçün, əgər rəhbərlik müştəriləri mağazaya cəlb etmək üçün tədbirlər görürsə və bunun üçün müəyyən miqdarda vəsait xərcləyirsə, mağazada işləyən işçilər bunu başa düşməli, həmin müştəriləri mağazadan qaçırmamalıdılar. Nəzərə almaq lazımdır ki, şirkətlər arasındakı rəqabət dolayısı ilə müştərilər uğrunda rəqabət deməkdir. Bazarda qalacaq müəssisə o müəssisədir ki, onlar müştərilərlə münasibətləri daha düzgün şəkildə qurmağı bacarırlar. İş yerlərində müştərilərlə ünsiyyətin iş dünyasında imtina edilməz bir parçası halına gəlməsi bir neçə on illiyi əhatə edir. İşgüzar ünsiyyət elə bir ünsiyyət növüdür ki, bu zaman qarşılıqlı əlaqələrin məqsədi hansısa müqavilənin bağlanması, mövcud problemin həlli, yeni əməkdaşlığın qurulması və ya münaqişəli söhbətin həllini nəzərdə tutur.

Ünsiyyət çağını yaşadığımız hazırki zamanda müəssisə baxımından ən vacib problem, müştərilərlə uğurlu əlaqə yaradaraq, ünsiyyəti doğru idarə edə bilməkdir. Ünsiyyətin doğru idarə olunması dedikdə, təşkilatın haqqında hədəf kütlədə yaratmaq istədiyiniz təsirin sizin istədiyiniz kimi müsbət istiqamətdə yaradılması, uzun müddət ərzində əməkdaşı olduğunuz şirkətin imicinə və nüfuzuna təsir edən bir prosesin başlanması nəzərdə tutulur. Əgər bir müəssisədə işgüzar ünsiyyət yalnızca strateji qərarlar və onların tətbiqini nəzərdə tutan bir yanaşmanı əsas götürürsə, bu müddətdə istənilən nəticələri əldə edə bilər. Düşünürəm ki, menecerlər bu sahədə kadrlara güvənsə və beləliklə də inam üzərinə inşa edilən təşkilat sadəcə bu səbəbdən rəqabət bazarında dərin kök sala bilər. Yaratmaq, idarə etmək və davamlılığı təmin etmək ancaq təsirli ünsiyyət strategiyası və fəaliyyətləri ilə təmin edilə bilər. Effektiv bir təşkilati ünsiyyət ilə şirkətin məqsəd və hədəflərinin işçilərə doğru bir şəkildə çatdırılması ilə bu istiqamətdə uğurların əldə edilməsi mümkündür.

Tədqiqat nəticəsində əldə olunan üsullar “Atəşgah Sığorta” ASC şirkətində menecer-kadr və işçi-müştəri münasibətlərində işgüzar ünsiyyətin etik qaydalarına əməl etməyin nə qədər mühim olduğu və müəssisədə müştərilərlə bağlı yaranan problemlərin həllində praktiki əhəmiyyət kəsb edə bilər.

Müəssisələrdə işçi-müştəri münasibətlərində əsas problem kimi işçilərin təlimləndirilməsi zamanı müştərinin bir şirkət əməkdaşından hansı münasibəti görmək istədiyinin nəzərə alınmamasında və eyni zamanda yeni kadrların bu sahədə yetərincə təcrübələrinin olmamasında görürəm. Təlimlərdə işçinin müştərini öz ünsiyyət qabiliyyətilə müəssisəyə cəlb etməsilə yanaşı menecerlərin öz tabeçiliyində olan işçilərinə onlara bu işdə güvəndiklərini hiss etdirmək vacib şərtlərdən biridir. Belə ki, işçilərə iş həvalə edilərkən onlara lazımi səlahiyyətlər verilməli, işlərin onların özlərinə uyğun şəkildə reallaşdırılmasına şərait yaradılmalıdır. Əməkdaşlara səlahiyyət verilməsi öz növbəsində məsuliyyətin artmasına gətirib çıxarır. İşçilərə işin məqsədi və tələb olunan nəticə izah olunmalıdır. Bu nəticəyə necə nail olunması prioritet kimi qoyulmamalıdır. İşçi özü məsləhət istəyərsə, kömək edilməlidir. İşə mütəmadi olaraq lazımsız müdaxilələrin olunması, tez-tez "nə işlə məşğulsan" sualının verilməsi işçinin həvəsdən düşməsinə səbəb olur, bu isə işə yaramayan liderliyin göstəricisidir.

İstifadə olunmuş ədəbiyyat:

1. Tofiq Quliyev. - ”İnsan Resurslarının idarə edilməsi”. Bakı. “Nağıl evi” şirkəti 2013.
2. Məhəmməd Əliyev, Həmidov Həmidov. - “Biznesdə insan resurslarının idarə edilməsi” (dərslik). Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2013.
3. Teyyub Qəni oğlu Əliyev, Şəms Teyyub qızı Əliyeva, Ramil Teyyub oğlu Əliyev. “İnsan resurslarının idarə edilməsi”. Bakı. ADNA. 2012.
4. Quliyev T.Ə. “Menecmentin əsasları.” Bakı-2000.
5. www.google.az
6. www.kayzen.az
7. www.stat.gov.az
8. www.banker.az
9. www.dejure.az

Qədirli Gözəl Əziz qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: gozel.qaffarova.97@gmail.com

OĞUZ RAYONUNDA SAHİBKARLIĞIN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

Ölkəmizdə qarşıya qoyulmuş iqtisadi siyasətin əsas prioritetlərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir. Bu sahədə mütamadi olaraq tədbirlər həyata keçirilir. Qeyd edək ki, Respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafının artırılmasında əsas yük regionların üzərindədir. Regionların inkişafının artırılması sahibkarların fəaliyətini stimullaşdırır, onların rahat fəaliyyət göstərmələrinə imkan yaradır. Müasir dövrdə ölkəmizdə regionların sosial, həm də iqtisadi inkişafına nail olmaq ölkə qarşısında dayanan ən mühüm vəzifələrdən biridir. Regionlarda inkişafın təmin olunmasında sahibkarlıq subyektlərinin mühüm rolu vardır. Belə ki, sahibkarlığın inkişafı ölkə iqtisadiyyatına müsbət təsir göstərir, beləliklə ölkəni idxaldan asılı olmaqdan azad edir, ixracı artırır. Bu məqsədlə də regionlarda sahibkarlıq fəaliyyətinin inkişafının yüksəldilməsi dövlətin əsas vəzifələrindən birinə çevrilmişdir.

Oğuz rayonunun zəngin və əlverişli iqlim şəraiti kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına imkan verir. Əhalinin əsas məşğuliyyətini əkinçilik, heyvandarlıq və meyvəçilik (fındıqçılıq) təşkil edir. Oğuz rayonunda əkinçiliyin ənənəvi növlərindən biri kimi taxılçılığı göstərə bilərik. Taxılçılığın inkişaf etdirilməsi üçün rayonda əlverişli iqlim şəraiti və emalın təşkili üçün un dəyirmanları mövcuddur. Rayon əhalisi həmçinin qarğıdalı istehsalı ilə məşğul olur. Əhalinin bu növ məhsul istehsalı ilə məşğul olmasına səbəb Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası ilə əlaqədar rayonda yeni tikilib istifadəyə verilmiş Qlükoza zavodudur. Zavodun rayonda fəaliyyətə başlaması qarğıdalı istehsalının artırılmasına təkan vermişdir.

Rayonda qoz, fındıq, şabalıd, alma, armud və sair meyvələr istehsal olunur. Xü-

susilə də fındıq istehsalı əhali gəlirlərində mühüm yer tutur. Həmçinin rayonda Fındıq emalı zavodu fəaliyyət göstərir və müxtəlif növ keyfiyyətli məhsullar hazırlanır. Dövlət başçısının fındıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrasını təmin etmək məqsədilə son illər Oğuz rayonunda da davamlı işlər aparılır. Belə ki, rayon ərazisində 2 min hektarda yeni fındıq bağları salınaraq mövcud bağların ümumi sahəsi 3 min 695,5 hektara çatdırılıb. Builki mövsümdə Oğuz rayonunda fındıq bağlarından 491 ton məhsul tədarük olunub.

Əhalinin məşğuliyyət sahələrindən biri də heyvandarlıqdır. Rayonda iri buynuzlu mal-qara 20464 başdır. Bunun da 10443 baş inək və camışlardır. Qoyun-keçilərin sayı 43971 baş, arı ailələrinin sayı 6505dir.

Azərbaycan Respublikasında son dövrlərdə həyata keçirilən uğurlu iqtisadi islahatlar Oğuz rayonundan da yan keçməmişdir və bu islahatlar rayonun iqtisadi güçünün artırılmasında mühüm rol oynamışdır. Oğuz rayonunun iqtisadi güçünün formalaşmasına dövlət dəstəyi nəticəsində bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyətində əhəmiyyətli dərəcədə irəliləyişlər baş vermişdir.

Hazırda Oğuz rayonunda iqtisadiyyatın bir neçə sahəsi üzrə sahibkarlıq fəaliyyəti göstərilməkdədir. Bu isə öz növbəsində rayonda məhsul istehsalının həcminin artırılmasına müsbət təsir göstərmişdir.

Oğuz rayonunda sahibkarlıq fəaliyyətinin inkişafının təmin olunması sahəsində Azərbaycan Respublikası dövlət səviyyəsində müxtəlif dövlət proqramları işləyib hazırlamışdır və nəticədə sahibkarlıq fəaliyyətinin daha da inkişafı üçün müvafiq tədbirlər görmüşdür. Belə dövlət proqramlarına misal olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 aprel 2009-cu il tarixli "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Fərmanını göstərə bilərik. Bu Fərmanın əsas məqsədi 2009-2013-cü illərdə Azərbaycanın müxtəlif regionlarında sosial-iqtisadi rifahı təmin etmək, həmçinin sahibkarlıq subyektlərinin köməkliyin göstərilməsidir. Bu Dövlət Proqramının Tədbirlər Planında Oğuz rayonunda 2009-2013-cü illərdə həyata keçirilməsi nəzərdə tutulmuş iqtisadi islahatlar da qeyd olunmuşdur. Həyata keçirilməsi nəzərdə tutulan həmin tədbirlərə Oğuz rayonunda Sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, yol təsərrüfatı və nəqliyyat tədbirləri, səhiyyə, mədəniyyət, idman və təhsil müəssisələrinin inşası və yenidənqurulması, əhalinin təhlükəsizliyi tədbirləri, meliorasiya və irriqasiya tədbirləri, su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması tədbirləri, elektrik enerjisi, istilik və qaz təchizatının təmin edilməsi sahəsində müvafiq tədbirləri misal göstərə bilərik.

2014-2018-ci illər ərzində Azərbaycan regiolarının iqtisadi inkişafını təmin edən ikinci bir Dövlət Proqramı işlənib hazırlanmış və uğurla icra olunmuşdur.

Bu Tədbirlər Planından da aydın olduğu kimi, Oğuz rayonunda 2009-2013-cü illərdə sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətliyinin təmin olunması əsas prioritet olaraq qəbul olunmuşdur.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında Oğuz rayonu üzrə nəzərdə tutulmuş tədbirlərə uyğun olaraq burada sahibkarlar üçün imkanlar yaradılmış, investisiyalar cəlb olunması sahəsində müəyyən işlər görülmüşdür.

Rayonun iqtisadi güçünün artması nəticəsində sahibkarlıq subyektlərinin sayında

artım müşahidə olunmuşdur. Bu da öz növbəsində Oğuz rayonunda güclü rəqabət qabiliyyətinin formalaşmasına şərait yaratmışdır. 2015-2019-cu illərin təhlilinə nəzər yetirsək görərik ki, Oğuz rayonunda təsərrüfat subyektlərinin sayı artan templə çoxalmışdır

Sahibkarlara xüsusi qayğı və diqqət göstərilir. Məhz onlara göstərilən qayğı nəticəsində rayonda kənd təsərrüfatı məhsulları istehsalı və emalı, südlük və ətlik növ malqara yetişdirilməsi sahəsində işlər uğurla həyata keçirilir. Mal-qara və quşların sayı artırılır. Aqrar sektor müasir texnika ilə təmin olunur.

İstifadə olunmuş ədəbiyyat:

1. "Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inikişafı dövlət Proqramı" .14 aprel 2009-cu il.
2. "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inikişafı dövlət Proqramı". 27 fevral 2014-cü il.
3. www.stat.gov.az
4. http://www.oguz-ih.gov.az/

Qəmbərova Aysun Seymur qızı, magistrant,
Azərbaycan Dövlət İqtisad Universiteti
Email:aysunqemberova@gmail.com

«SOCAR»da YENİ İQTİSADİ MÜNASİBƏTLƏR ŞƏRAİTİNDƏ İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Müasir bazar iqtisadiyyatı şəraitində müəssisələrin, firma və şirkətlərin fəaliyyətində insan resurslarının rolunun artması insan amilinin onun intellektual yaradıcı funksiyasına olan zəruri tələbatından irəli gəlir. İnsan resurslarının idarə edilməsi, bir şirkətdə və ya təşkilatda işçilərin effektiv şəkildə idarə olunması ilə həmin şirkət və ya təşkilata rəqabət üstünlüyü əldə etməklərinə şərait yaradan strateji yanaşmadır. İnsan resursları (əmək) kapital və xammal kimi istehsalın həyata keçirilməsində istifadə olunan vasitələrdən biridir. Lakin digər istehsal vasitələrinin təmin edilməsi və istifadəsi insan amilindən asılıdır. Əməyin səmərəli məşğulluğu rəqabətdə üstün olmağın əsas şərtidir.

İnsan resurslarını istehsalda istifadə olunan digər vasitələrdən fərqləndirən digər bir amil də onun mühitini düşünən və təsirlənən bir sosial varlıq olmasıdır. İnsanları böyük bir həvəslə işə cəlb etmək həmişə asan olmur. Çox sayda insan müəssisələrin sahəsinə və ölçüsünə görə müxtəlif vəzifələrdə işləyir. İnsan resursları rəhbərliyi işə qəbuldan tutmuş təaqüdə qədər səviyyəsindən və vəzifəsindən asılı olmayaraq bütün işçilərin hər mərhələsində mühüm funksiyaları yerinə yetirir və onların səmərəli işləmələrinin yollarını və metodlarını göstərir.

İnsan resursları idarəçiliyi qanunlara uyğun olaraq təşkilat, fərd və ətraf mühit üçün faydalı şəkildə istənilən təşkilati və ekoloji mühitdə insan resurslarının səmərəli idarə olunmasını təmin edən bütün funksiyalar və fəaliyyətlər kimi müəyyən edilə

bilər. İnsan resurslarının idarə olunması işçilərin səmərəliliyini və effektivliyini təmin etmək üçün aşağıdakı iki əsas hədəfi qəbul edə bilər:

- bilik, bacarıq və vərdişlərdən səmərəli istifadə edərək işdə çalışan insanların töhfələrini maksimum dərəcədə artırmaq;
- təşkilatda çalışan insanların işlərindən məmnun qalmalarını təmin etmək.

İnsan resursları idarəetməsinin iki əsas məqsədi var. Bu məqsədlərdən birincisi, mövcud işin gücündən təşkilatın məqsədlərinə uyğun olaraq səmərəli istifadə etməkdir. İkincisi, təşkilatdakı işçilərin gözləntilərini qarşılamaq və inkişaflarını təmin etməkdir. Başqa sözlə, insan resurslarının idarə edilməsinin məqsədi sosial və mənəvi məsuliyyət yanaşması ilə çalışan işçilərin quruma yaradıcılıq səviyyəsində qatqısının artdığı və dörd əsas başlıq altında qruplaşdırıldığı ifadə edilir.

Neft-qaz strategiyasında müvəffəqiyyəti sayəsində investisiyalar cəlb edən SOCAR qlobal rəqabət şəraitində fəaliyyət göstərmək üçün çevik idarəetmə sisteminə, yüksək ixtisaslı və güclü motivasiyaya malik insan resurslarının idarə edilməsi sisteminin tətbiqini zəruri edir. SOCAR-da insan resurslarının idarə edilməsi dedikdə şirkətin və işçinin inkişafına xidmət edən, işçinin xidməti və fərdi keyfiyyət göstəricilərinə əsasən xidməti irəliləyiş sisteminin planlaşdırılması və yerinə yetirilməsi üzrə kompleks tədbirlər başa düşülür.

SOCAR insan kapitalını özünün dəyərli aktivi kimi görür və heyətin inkişafına qoyulan investisiyaları öz gələcəyinə qoyulan investisiyalar kimi qəbul edir. Şirkət işçilərin sosial rifahının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayır, kadrların peşəkar inkişafı imkanlarını və karyera yüksəlişini öz fəaliyyətinin prioritet istiqamətləri kimi hesab edir. Şirkətin əsas məqsədi isə müasir əmək bazarının tələblərinə cavab verərək istedadlı kadrların cəlb olunması, işçilər üçün əlverişli iş şəraitinin yaradılması və davamlı karyera inkişafının təmin edilməsi ilə ixtisaslı işçi qüvvəsinin saxlanılmasıdır. Məhz buna görə də SOCAR insan resursları siyasətinin şirkətin missiya və strategiyası ilə uzlaşmasına daim səy göstərməkdədir.

Yüksək ixtisaslı mütəxəssislərin strateji əhəmiyyətini anlayaraq Socar 2011-ci ildə öz səyini personalın seçilməsi sisteminin modernləşdirilməsi və şəffaflığının yüksəldilməsi üzərində cəmləmişdir. Fəaliyyəti təhlükəli istehsalat obyektlərinin istismarı ilə bağlı olan işçilərin səhhəti və təhlükəsizliyi şirkətin əsas dəyərlərindəndir. Bu səbəbdən SOCAR əməyin təhlükəsizliyi və mühafizəsi üzrə idarəetmə sistemini təkmilləşdirərək, onu beynəlxalq standartlara və aparıcı təcrübələrə uyğunlaşdırmağa çalışır.

İnsan resurslarının idarə edilməsi mərkəzləşdirilmiş şəkildə SOCAR-ın baş ofisi səviyyəsində həyata keçirilir. SOCAR-ın 22 aprel 2013-cü il tarixli 57 nömrəli əmri ilə təsdiq edilmiş kadr siyasəti kadr ehtiyat bazasının formalaşdırılmasını, əmək məhsuldarlığının yüksəldilməsi üçün müəyyən ixtisas və peşələr üzrə peşəkar personalin işə cəlb edilməsini, onların inkişafı üçün zəruri şəraitin yaradılmasını və insan resurslarının daha məhsuldar şəkildə idarə edilməsini müəyyən edir. SOCAR-da insan resurslarının idarə edilməsi üzrə tətbiq olunan funksiyalar aşağıdakılardır:

- təlim və inkişaf məqsədilə qulluqçu heyət üçün təlimlər, fəhlə peşələri üzrə kadr hazırlığı; nüfuzlu xarici universitetlərdə təhsil üçün gənc mütəxəssislərin seçilməsi; müxtəlif təcrübə mübadiləsi proqramları, yerli tələbələr üçün təqaüd proqramları təşkil edilir və ya həyata keçirilir.

- test imtahanları işə qəbul və yerləşdirmə, kadrların attestasiyası, təqaüd proqramlarının qaliblərinin seçilməsi zamanı məntiqi, ixtisas və şirkət ilə bağlı biliklərin yoxlanması məqsədi ilə elektron formada keçirilir.

- kadr xidmətləri hesabatlar. SOCAR üzrə işçilərlə bağlı müxtəlif kadr əməliyyatları SAP sistemi vasitəsi ilə tənzimlənir və müxtəlif kadr hesabatları sistem vasitəsilə hazırlanır.

- işçilərlə effektiv elektron ünsiyyətin təmin edilməsi məqsədi ilə İnsan Resursları Portalı istifadəyə verilmişdir.

- işə qəbul və yerləşdirmə SOCAR üzrə mərkəzləşdirilmiş, müsabiqə əsasında bir çox mərhələləri avtomatlaşdırılmış, obyektiv və şəffaf işə qəbul prosesi hazırlanaraq tətbiqinə başlanmışdır.

- xidməti fəaliyyətin qiymətləndirilməsi məqsdilə səriştəliklər və effektivliyin idarə edilməsi ilə bağlı metodikalar işlənmişdir. Şirkətin ən böyük strukturu olan "Azneft" İstehsalat Birliyi üzrə səriştəliklərin idarə edilməsi layihəsi tətbiq edilmişdir.

SOCAR-da həyata keçirilən kadr siyasəti şirkətin mövcud kadrlarının saxlanılmasına, onların inkişaf etdirilməsinə, insan resursları imkanlarından daha məhsuldar şəkildə istifadə edilməsinə, eyni zamanda beynəlxalq standartlara, bazar iqtisadiyyatında daim dəyişən tələblərə cavab verən və SOCAR-ın inkişafı strategiyasına uyğun personalın idarəedilməsinin təkmilləşdirilməsinə yönəlmişdir.

Personalın təlim proqramlarına cəlb edilməsi-SOCAR-ın əsas vəzifələrindən biri neft sənayesinin qarşısında duran məsələləri həll etmək və şirkəti sənaye obyektlərində yaranan ştatdan kənar vəziyyətlərə operativ cavab vermək qabiliyyəti olan yüksək ixtisaslı kadrlarla təmin etməkdir. Əlavə təlim proqramlarının tətbiqi bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsinə kömək edir. Bu gün SOCAR-da işçilərin fasiləsiz təlimi və inkişafı üçün sabit sistem formalaşmışdır. İşçilər öz peşə biliklərini artırmaq və yeni bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif kurslar seçmək imkanına malikdirlər. SOCAR-ın İnsan Resursları Departamenti hər il şirkətin strateji vəzifələrini və əlavə təkmilləşdirmə tələb edən sahələri nəzərə almaqla işçi heyətinin təlimləndirilməsi və peşəkar inkişaf planını hazırlayır. Bu planı isə 2011-ci ildən Təlim, Tədris və Sertifi- katlaşdırma İdarəsi (TTSİ) yerinə yetirir. TTSİ fəaliyyətini 4 struktur bölmənin - Kadr Hazırlığının Təşkili Mərkəzi, Dənizdə insan həyatının mühafi zəsi üzrə Təlim Mərkəzi, "Qala" Təlim-Tədris Mərkəzi və SumqayıtdaTəlimTədris Mərkəzi və Qaynaq işlərinin sertifikatlaşdırılması şöbəsinin maddi-texniki bazasında təşkil edilir.

Peşəkar təcrübənin və qabaqcıl təlim proqramlarının mübadiləsi üçün TTSİ Türkiyə, ABŞ, Böyük Britaniya, Yaponiya və Ukrayna kimi ölkələrdə müxtəlif peşə təhsili idarələri ilə qarşılıqlı əlaqələr qurmuşdur. TTSİ Şirkətin işçilərinin aşağıdakılar da daxil olmaqla aparıcı beynəlxalq standartlara uyğun olaraq təlim proqramları üzrə kompleks şəkildə işlər həyata keçirir:

– neft və digər sənaye sahələri üçün ixtisaslı kadrların hazırlanması və inkişafı

– Şirkətdə tələb olunan ixtisaslar üzrə işçilərin beynəlxalq standartlara uyğun olaraq təlim proqramlarına cəlb edilməsi;

– peşəkar kurs və təlimlərin keçirilməsi;

– sertifikatlaşdırmanın nəzəri əsasları və beynəlxalq standartlaşdırma üzrə meto-

diki və texniki dəstək;

– yeni işçilərə təhlükəsizlik texnikası və əməyin mühafizəsi qaydalarının öyrədilməsi;

– kurslara cəlb edilmiş mühəndis-texniki işçilərin, dalğıcların, matrosların və dəniz neftçilərinin sertifikatlaşdırılması.

SOCAR-ın bütün səviyyələrində davamlılıq məramının və missiyasının yayılmasında insan resurslarının idarəedilməsi aparıcı rol oynayır. Şirkətin insan resursları ilə əlaqədar fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyində əsas olan əmək qanunvericiliyi və Əmək Məcəlləsinə uyğun həyata keçirilir. Beynəlxalq siyasətə gəldikdə, hazırda SOCAR-da SAP HR transformasiya proqramı həyata keçirilir ki, bu proqram çərçivəsində insan resurslarının səriştəliliklərin, effektivliyin, təlim və inkişafın, işə qəbul, yerləşdirmə və adaptasiyanın idarə edilməsi kimi funksiyaların tətbiqinə başlanılmışdır.

2013-cü ilə qədər Şirkətin bir sıra tabeli təşkilatları, İSG–OHSAS TS 18001 beynəlxalq standartının Sertifkatına layiq görülmüş və aşağıda adları sadalanan müəssisələr müxtəlif illərdən başlayaraq öz işlərini bu beynəlxalq standartın tələblərinə uyğun qurmuşlar: Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu (2003), "Neftqaztikinti" tresti (2005), Təlim, tədris və sertifikatlaşdırma idarəsi (2006), Ekologiya idarəsi (2007), İnformasiya texnologiyaları və rabitə idarəsi (2008), Xəzər Dəniz Neft Donanması (2008), "Qaz ixrac" idarəsi (2009), Marketinq və iqtisadi əməliyyatlar idarəsi (2010), "Azneft" İB-nin "Dalma qurğularının təmiri və kirayəsi üzrə eksperimental istehsalat müəssisəsi" (2012). Yuxarıda qeyd olunan müəssisələrdə sertifikatın təqdim olunduğu tarixdən başlayaraq hər il qrafikə uyğun olaraq daxili auditlər keçirilmiş, "Türk Standartları İnstitutu" tərəfindən ildə bir dəfə olmaqla OHSAS-18001 Əməyin mühafizəsi və təhlükəsizlik idarəetmə sistemi üzrə beynəlxalq sertifikatların idarə edilməsinin standartların tələblərinə uyğun olub-olmamasının yoxlanılmsı və üç ildən bir həmin sertifikatların yenilənməsi məqsədilə üçüncü tərəf auditlər keçirilmişdir.

Transmilli bir şirkət olmaqla SOCAR öz insan resurslarını mövcud və gələcəkdə nəzərdə tutulan böyük miqyaslı layihələrin uğurunun təməli hesab edir. 2019-cu ildə İRFT proqramı çərçivəsində proseslər nəzərdə tutulmuş plan qrafikə əsasən davam etdirilmişdir. 2019-cu il ərzində "İnsan resurslarının idarə edilməsi proseslərinin transfermasiyası" proqramının tərkib hissəsi olan "Səriştəliliklərinin idarə edilməsi" lahiyəsi istiqaməti üzrə SOCAR-ın "Azneft" İstehsalat Birliyinin bütün təşkilatlarında tətbiq edilməsinə başlanmışdır.

Nəticə etibarilə deməliyik ki, müəssisələrdə kadr potensialının düzgün qiymətləndirilməsi ilk növbədə işin keyfiyyətinin artırılmasına, xidmət səviyyəsinin yüksəldilməsinə və nəticədə məhsuldarlığın artmasına xidmət edir. Məhz bu qeyd edilən faktlar sözügedən sahənin nə qədər əhəmiyyətli olduğunu bir daha vurğulayır. İnsan resurslarının idarə edilməsi hal-hazırkı şəraitdə biznesin idarə edilməsi prosesində aparıcı və ya prioritet sahələrdən biridir və davamlı şəkildə akademik araşdırmaların mövzusuna çevrilmişdir. Bu sahədə özünü təsdiqləmiş şirkətlərdən olan SOCAR-da kadr potensialının tənzimlənməsi ən müasir texnologiyalar, innovativ idarəetmə və yenilikçi yanaşmalara əsasən aparıldığı məlum olmuşdur.

Qubadzadə Xədicə Xaqani qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: xedice.adiu@gmail.com

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İNNOVASİYA LAYİHƏLƏRİNİN TƏTBİQİ

«Ağıllı kənd» layihəsində mühüm amil olan «Ağıllı dövlət idarəçiliyi»nin kökündə vətəndaşların vaxtına və resurslarına qənaət dayanır. «Ağıllı şəhər və ya kənd» sistemi aşağıdakı prinsiplər üzərində qurulur:

– şəhər tamamilə avtonom rejimdə fəaliyyət göstərməlidir, yəni bütün resurslar şəhər tərəfindən təmin olunmalıdır:

– şəhər bütün ekoloji standartlara cavab verməlidir:

– vahid kompüterləşdirilmiş sistemdə ən son informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmalıdır:

– vaxta və resursa qənaət.

İşğaldan azad edilmiş hər bir kənddə yerləşdirilən ATM tipli apteklərdə əczaçı olmadan dərman satışını həyata keçirmək olar. ATM tipli apteklər ATM-lərin sadəsi olan, yəni yalnız bank xidməti üçün istifadə edilən bankomatın qiyməti 30-40 min manatdır. Amma əgər burada dərman da satılsa, gərək burada dərmanları saxlamaq üçün şərait, soyu-ducu və sair də olmalıdır.

Məktəblərdə elektron tədris və təlim mərkəzləri, onlayn təlim platforması qurulur. Ağıllı biznes və təsərrüfatın qurulması məqsədilə layihə bazara rahat çıxış platformaları, təchizatçılar, istehsalçılar üçün daxili və xarici bazara rəqəmsal çıxış, onlayn bank xidmətləri və digər xidmətlər təqdim edir.Layihə "Ağıllı Dövlət İdarəçiliyi" istiqamətində elektron kənd təsərrüfatı, elektron xidmətlər, "bir pəncərə" sistemini, nəzərdə tutur.

Qarabağda ASAN xidmətlərin fəaliyyəti planlaşdırılır, rayonların əhalisinə xidmət göstərəcək. Mərkəzdə vətəndaşların qəbulu elektron növbə əsasında həyata keçiriləcək. Bunun üçün ən müasir avadanlıq quraşdırılıb. Elektron lövhələr və işarələr vətəndaşların məlumat əldə etməsini asanlaşdırır. Bu mərkəzdə də elektron ərizə doldurma aparatı qoyulub.

"ASAN xidmət" mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Mərkəz daim internetə açıq olan kompüterlərlə təchiz edilib. Burada vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb. Mərkəzdə əlillər üçün də hər cür imkan var. Gözdən əlillərin sərbəst hərəkəti üçün "ASAN xidmət" mərkəzində vətəndaşların gözləyərkən vaxtlarını səmərəli keçirmələri üçün funksional-yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya fəaliyyət göstər. Azərbaycanın işğaldan azad edilmiş rayonlarında külək enerjisi və günəş enerjisinin potensialı çox yüksəkdir.

Ağıllı kənd layihəsinin əsas prinsiplərindən biri külək enerjisindən istifadədir. Qarabağın dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd

ərazilərində küləyin orta illik sürəti 10 m/s-ə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavatt kimi qiymətləndirilir.

Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, Günəş qurğuları işləyən zaman parnik effekti yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır.

Yer səthinə düşən günəş radiasiyasının miqdarı çox olan ərazilər Qarabağın cənub düzənlik hissəsi – Füzuli, Cəbrayıl, Zəngilan rayonlarıdır. Burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVtst təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavattdır. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarının ərazisində yüksək günəş enerjisi potensialına malik ümumi sahəsi 14 427 ha olan 8 potensial ərazi seçilib. Mütəxəssislərin fikrincə bu ərazilərdə günəş enerjisi istehsalı üçün ümumi potensial səkkiz müxtəlif ərazidə 14,4 min hektardan çox sahədə 7200 meqavatdan çox qiymətləndirilir.

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, Azərbaycanda günəş şüalanmasının davamiyyəti 2400-3200 saata qədər müşahidə olunur. Həmçinin Azərbaycanda ildə 300 günəşli günün olmasını nəzərə alsaq, qeyd etmək olar ki, bu regionda Günəş energetikasının inkişafı daha perspektivlidir. Bir günəş paneli 1 kilovat-saat enerji istehsal edir. Azərbaycanda isə nəzərə alsaq ki, bir ev gündə ortalama 8-10 kilovat-saat enerji sərf edir, azı 5 ədəd 250 vattlıq günəş paneli lazımdır. Bir evin günəş enerjisini istehsal edən avadanlıqla təhciz olunması evin enerji işlətmə gücündən asılıdır. Avtobuslarda olduğu kimi, qatarların damlarında günəş panelləri quraşdırıla bilər. Burada lazımi sayda batareyanı yerləşdirmək üçün kifayət qədər yer var. İkincisi, alternativ mənbələrdən istifadə edərək dəmiryol xətlərinin elektrik enerjisi ilə təmin edilməsi məsələsi də hazırda aktuallaşır. Elektrik enerjisinin verilişi qismən və ya bütövlüklə dəmir yolu xətləri boyunca günəş panellərinin quraşdırılması ilə mümkün olur. Yollarda işıqlanma sisteminin və buzlu yollardakı istilik sisteminin günəş enerjisi vasitəsilə olması məqsədyönlüdür. Yollara nəzarət isə yollarda yerləşən radioelektron detektorlar buradakı vəziyyət barədə məlumat toplayıb mərkəzi serverə göndərməsi ilə həyata keçirilir. Detektorlar hər dəqiqə yollardaki 3 parametri ölçür: Həmçinin avtomobillərin sayını, hərəkət sürətini və hərəkət intensivliyini də nizamlayır. Ölkəmizdə kənd təsərrüfatı tədricən ekstensiv inkişafdan uzaqlaşaraq intensiv inkişafa keçib. Aqrar sahənin mövcud potensialı və ixrac imkanları nəzərə alınaraq son illər bu sahənin inkişafına dövlət dəstəyi xeyli artmış, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin gücləndirilməsi istiqamətində bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir.Belə ki, fermerlərə güzəştli kreditlər ayrılır, “Aqrolizinq” tərəfindən gətirilən texnika əlverişli şərtlərlə sahibkarlara icarəyə verilir, aqrar sahədə istehsalçı marağını artırmaq məqsədilə gübrələr və yanacaq da son dərəcə əlverişli şərtlərlə fermerlərə paylanılır. Bununla yanaşı, uzun illərdir ki, fermerlər torpaq vergisi istisna olmaqla bütün digər vergilərdən azad olunublar. Eyni zamanda, taxıl və dənli bitkilərin yığım anında və ya yığımdan sonra keyfiyyətini ölçən və nəticələrə uyğun olaraq dənli bitkilərin hansı təyinat üzrə istifadə olunacağını əvvəlcədən müəyyən edən avadanlıqların istehsalçısı olan “Perten Instruments” (İsveç) və “Wile” (Finlandiya) şirkətləri ilə uğurlu əməkdaşlıq davam edir. Həmçinin müxtəlif ölçüyə və gücə malik taxıl və dənli bitki əkən, torpağı əkinə hazır edən aqreqatlar (Özduman), tarla və bağlar üçün dərman çiləyici

qoşqular (Öntar), gübrə daşıma tutumu fərqli olan tək və cüt diskli gübrəsəpənlər (Axano), kartof yatağını hazırlayan, kartof əkən, kartofun alaq otlarını təmizləyən və toxa vuran, kartof yığan aqreqatlar (Yığıtsan), sarımsaq əkənlər (SeCa), yem qarışdıran, yem doğrayan, qatı və maye gübrə səpən qoşqular (Kenmaks), heç bir qoşquya və elektrik təminatına ehtiyac olmadan sulama aparan hərəkət edən sulama sistemləri (Yüzüak), torpaq üstü damcılama-sulama sistemləri (İrritec), müxtəlif ölçü və təyinatlı kotanlardan (Aktaş Makina) və sairədən istifadə edilir.

İstifadə olunmuş ədəbiyyat:

1. Atakişiyev M.C., Süleymanov Q.S. "İnnovasiya menecmenti", Bakı, 2004.
2. Biznesin əsasları. Dərslik. Prof. A.B.Abbasovun ümumi redaktəsi ilə. Bakı, "Nurlan", 2005, 656s.
3. Cəbiyev R.M. Azərbaycan bazar infrastrukturunun formalaşması və inkişafı (Monoqrafiya). Bakı, 2000, 23.s.
4. Əliyev İ.İ., Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində, Bakı, Azərbaycan, 2007, s.862.
5. Əlirzayev Ə.Q. Azərbaycanın iqtisadi inkişafının konsepsiyası. Bakı, 1999, "Odlaryurdu", 104s.
6. Əliyev F.B. İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi. Bakı, "Azər" nəşriyyatı, 2003.
7. Əliyev N.C., Daşdəmirov M.Ə, Mirzəyev V.S. İnvestisiya layihələrinin təhlili. Bakı, 003, 182s.
8. Əliyev R.B., Novruzov N.A., Məmmədov M.A. İnvestisiyanın maliyyələşdirilmə kreditləşdirilməsi. Bakı: 2003, 432s.

Quliyev Mikayıl Seymur oğlu, magistrant,
Bakı Biznes Univeristeti
Email: mikayil.quliyev.97@mail.ru

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SEKTORUN İNKİŞAF XƏTTİ

Müzəffər Ali Baş Komandan Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın yenidən əvvəlki vəziyyətə qaytarılması üçün tədbirlər planı hazırlanmışdır. Bu strateji plan nəticəsində işğaldan azad olunmuş ərazilərin bütün sektorlarında dirçəliş proqnozlaşdırılır.

Hal -hazırda işğaldan azad olunan torpaqlarda aqrar sektorun inkişaf etdirilməsi üçün işlərə başlanılmışdır. 2020-ci ilin iqtisadiyyatın yekunlarına həsr edilmiş müşavirədə bildirilib ki, Azərkosmos ASC ilə birlikdə göstərilən fəaliyyət nəticəsində işğaldan azad edilmiş torpaqların peyk təsvirləri nəzərə alınaraq xəritələr hazırlanacaqdır. Bu xəritələr vasitəsilə hazırda həmin ərazilərdə aqrar sektorun inkişafı üçün yararlı torpaqların istifadə olunması üçün işə başlanılmışdır. Qarşıya qoyulan əsas məqsədlərdən biri də fermer təsərrüfatlarının inkişafı üçün informasiya birlikləri

yaradılmışdır.

İşğaldan azad edilmiş torpaqlarda aqrar sektorun inkişaf etməsi üçün bir sıra məsələlər öz həllini tapmalıdır ki, bu məsələlərə aşağıdakılar aiddir:

1. Torpaqların aqrar istehsalın inkişafı üçün münbit hala gətirilməsi.
2. Bu torpaqlarda fermerlərin davamlı məhsul istehsalını təmin etməsi üçün zəruri köməklərin göstərilməsi.
3. Şoran torpaqların istifadə üçün yuyulmasında dövlət dəstəyinin göstərilməsi.
4. Ərazilərin məhsuldarlığının təmin edilməsi üçün istifadəsiz hala gətirilmiş torpaqların gübrələrlə təmin edilməsi.

Beləliklə, uzun müddət işğal altında qalmış bu torpaqların aqrar istehsalının təmin edilməsi üçün ciddi texniki tələblər həyata keçirilməlidir.

İşğaldan azad olunmuş rayonlarda aqrar sektorun inkişaf proqnozu rayonlar üzrə aşağıdakı kimidir.

Laçın rayonunda aqrar sektora ciddi zərbələr vurulsa da, işğaldan azad olunduqdan sonra investisiya tutumlu sahələr inkişaf etdirilməyə başlamışdır. Laçın rayonu əhalisinin yüksək hissəsini kənd əhalisi təşkil etdiyi üçün ərazidə bitkiçilik və heyvandarlığın inkişafı daha sürətlə baş verir.

Dövlət Statistika Komitəsinin proqnozuna əsasən 2025-ci il üçün heyvandarlıq məhsullarının istehsalı aşağıdakı kimidir:

İribuynuzlu heyvanlar – 66000 baş nəzərdə tutulub. Bu göstəricini işğaldan əvvəlki illərlə müqayisə etsək, işğaldan əvvəl iribuynuzlu heyvandarlıq 45000 baş təşkil edirdi. Bu isə müqayisədə iribuynuzlu heyvandarlığın artımının göstəricisidir.

Xırdabuynuzlu heyvandarlıq işğaldan əvvəlki dövrdə 241537 baş təşkil edirdi. Proqnozlar nəticəsində 300000 baş nəzərdə tutulub.

İşğaldan azad olunan Qubadlı rayonunda göstəricilər aşağıdakı kimidir. İşğal-dan öncəki illərdə iribuynuzlu heyvandarlıq 20500 baş, xırdabuynuzlu heyvandarlıq 30304 təşkil edirdisə, proqnozlara görə 2025–ci ildə Qubadlı rayonunda 34100 baş iribuynuzlu heyvan, 51700 baş xırdabuynuzlu heyvan təşkil edəcəkdir. Statiskika Komitəsinin verdiyi göstəriciyə əsasən bitkilərin göstəriciləri Qubadlı rayonu üzrə aşağıdakı qrafikdəki kimi nəzərdə tutulub.(Cədvəl 1) .

Cədvəl 1.

Məhsulun adı	**Əkin üçün nəzərdə tutulan torpaq ha-la**	**Məhsuldarlıq sent/ha**
Taxıl	11867	27.4
Tütün	500.1	40.1
Kartof	396.5	40.1
Tərəvəz	245.9	21.1
Bostan bitkiləri	242.1	118.0
Meyvələr	3002.1	19.8
Üzüm	500.1	53.6
Cəmi:	**16753.8**	-

İşğaldan azad olunmuş Zəngilan rayonunda iqlim resurslarının zənginliyi nəticəsində məhsuldar torpaqların inkişafı üçün şərait yaradır. Respublikada əkilən torpaq sahələrinin 0.4%-i Zəngilan rayonunun payına düşür. İşğaldan azad olunmuş Ağdam rayonunda işğalda olduğu müddətdə işğal altında olan ərazilərdə 2019-cu il üçün göstəricilər aşağıdakı kimidir. (Cədvəl 2).

Cədvəl 2.

Məhsulun adı	**Faiz göstəricisi**
Taxıl	65.5%
Tərəvəz	20.4%
Kartof	1.7%
Pambıq	11.8%

İşğaldan azad olunan Kəlbəcər rayonu faydalı qazıntılarla zəngin olduğu kimi aqrar sektorun da inkişafı üçün səmərəli mövqedə yerləşir.

İşğaldan əvvəlki dövrdə iribuynuzlu heyvandarlıq 35700, xırdabuynuzlu heyvandarlıq 91428 baş təşkil edirdisə, Statistika Komitəsinin verdiyi proqnoza əsasən iribuynuzlu heyvandarlıq 57800 baş, xırdabuynuzlu heyvandarlıq isə 164674 baş nəzərdə tutulub.

İşğaldan azad olunan Füzuli rayonu öz məhsuldar torpaqları ilə fərqlənməkdədir. Bitkiçilik heyvandarlığa nisbətən daha çox inkişaf etmişdir. Taxıl sahələri əkin sahələrinin 77.5 %-ni təşkil edir. Əkin sahələrinin 21,1%-ni isə pambıq sahələri təşkil edir. Bununla yanaşı, şəkər çuğunduru və kartof əkilməsi proqnozlaşdırılıb.

İşğaldan azda olunduqdan sonra Cəbrayıl rayonunda da bitkiçilik aşağıdakı cədvəldəki kimi proqnozlaşdırılmışdır (Cədvəl 3).

Cədvəl 3.

Bitkilər	**Əkin üçün nəzərdə tutulan torpaq ha-la**	**Məhsuldarlıq ton-la**
Yazlıq buğda	6468	5542
Payızlıq arpa	9383	9404
Üzümçülük	6420	6335
Tərəvəzçilik	1997	2100
Meyvəçilik	1700	1947

Cəbrayıl rayonunda bitkiçiliklə yanaşı heyvandarlığın da inkişaf ettirilməsi nəzərdə tutlmuşdur.

Aqrar sektorun inkişafı üçün bu sektorun işğal olunmuş ərazilərdə inkişaf etdirilməsinə başlanılmışdır. İşğaldan azad olunmuş torpaqlarda aqrar sektorun inkişafı vasitəsilə bu ərazilərdə insanların fəaliyyəti üçün şərait yaradılır. Bununla yanaşı, işğal olunmuş ərazilərdə aqrar sektorun inkişafı ilə investisiyaların cəlbi ilə artacaqdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Mehdi Babayev. "Aqrar sektorda vergi güzəştləri". Bakı, 2012.
2. E. Hacıyev. "Aqrar islahatlarda yeni mərhələ". Bakı, 2014.
3. Azərbaycan Respublikası Vergi Məcəlləsi.
4. Z. Səmədzadə. "Ensiklopediya, III cild, Bakı: Şərq-Qərb, 606 səh.
5. İslam İbrahimov ."Aqrar sahənin iqtisadiyyatı". Bakı, 2016, 655 səh.
6. Dövlət Statistika Komitəsi.
7. www.wikipedia.az
8. http://vergiler.az/art-view/2137/
9. http://az/apa.az/print/285017/
10. azertag.az
11. www.iqtisadiislahat.org

Qurbanov Elnur Elçin oğlu, magistrant,
Bakı Biznes Universiteti
Email: elnurq1998@gmail.com

SIĞORTA BAZARININ MALİYYƏ AXINLARINA DÖVLƏT NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Bildiyimiz kimi digər təsərrüfat fəaliyyətindən kəskin şəkildə fərqlənən sığortaçının fəaliyyəti, istehsal prosesinin fasiləsizliyini təmin edən və müxtəlif təsadüflər nəticəsində dəyən zərərlərin ödənilməsinə yönəlmiş fəaliyyətdir. Təbiətin dağıdıcı qüvvələrinin təsiri bir sıra hallarda faciəli xüsusiyyətlərə malik olur ki, bu da maddı ehtiyatların və insan həyatının itkiləri ilə nəticələnir. Belə şəraitdə fəaliyyət göstərən sığorta təşkilatlarının əhəmiyyəti artır. Bu, hər şeydən əlavə mürəkkəb təsərrüfat əlaqələri ilə əhatə olunmuş elmi-texniki inqilab dövründə risklərin həcmi və miqyasının artması ilə əlaqədardır. Fəaliyyətinin sosial məsuliyyətli olması sığortaçının dövlət tərəfindən nəzarətə alınmasını zəruri edir. Sığorta nəzarəti orqanı yalnız sığortaçıların deyil, təkrarsığortaçıların və sığorta vasitəçilərinin də fəaliyyətinə nəzarəti həyata keçirir. Sığorta nəzarəti orqanı eyni zamanda sığorta fəaliyyətini tənzimləmək üçün normativ hüquqi bazanın, yəni qanun layihələrinin hazırlanmasında, qaydaların və digər tənzimləyici sənədlərin qəbul edilməsində, daha ümumi forma kimi sığortaçının maliyyə vəziyyətinin tədqiq olunmasında və onun sığorta etdirən şəxs qarşısındakı, müqavilə öhdəçiliyinin qəbul edilməsi üçün ödəniş qabiliyyətinə malik olmasında öz əksini tapmış və ixtisaslaşmış bir orqandır.

Dövlət sığorta nəzarətinin əsas və tənzimləyici rolu sığorta etdirən şəxslərin etibarlı müdafiəsini təmin edən 3 əsas funksiyanın yerinə yetirilməsini nəzərdə tutur. Sığorta müqavilələrinin bağlanması ilə əlaqədar olan fəaliyyətin həyata keçirilməsinə razılıq verən qeydiyyatın aparılması - dövlət nəzarətinin birinci və əsas funksiyasıdır. Sığortaçılar fəaliyyət göstərmək üçün qeydiyyatdan keçməlidirlər ki, qeydiyyat sığortaçının peşəkarlıq səviyyəsini və onun maliyyə vəziyyətini müəyyən edir. Qeydiyyat aktı, dövlətin sığorta nəzarəti orqanları tərəfindən müvafiq icazə və yaxud lisenziyanın

sığortaçıya verilməsi ilə rəsmiləşdirilir. Sığorta təşkilatının qeydiyyatdan keçməsi onun lisenziyalaşdırılmasını zəruri edir. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 25 dekabr 2007-ci il tarixli Qanununun maddələrinə əsasən Azərbaycan Respublikasında sığorta, təkrarsığorta, sığorta agenti və ya sığorta brokeri fəaliyyəti ilə məşğul olmaq istəyən şəxs sığorta nəzarəti orqanından müvafiq lisenziya almalıdır. Ikinci funksiya aşkarlığın təmin olunmasıdır. Dövlət nəzarəti orqanı sığorta fəaliyyəti ilə peşəkar səviyyədə məşğul olan hər bir sığorta təşkilatının maliyyə vəziyyəti haqqında tam və dolğun informasiyanın nəşr etdirilməsinə nəzarəti həyata keçirməsidir. Aşkarlığın təmin olunması sığorta fəaliyyəti haqqında qanunvericilik aktları vasitəsilə həyata keçirilir. Üçüncü funksiya-hüquq qaydalarına riayət etməkdən ibarətdir. Dövlət sığorta nəzarəti orqanı qanun pozuntularına görə istintaqa başlamaq, sığortaçıların maraqlarına zidd fəaliyyət ilə məşğul olan şəxslərə qarşı inzibati ölçülər tətbiq etmək və ya istintaq işini məhkəməyə təqdim etmək hüququna malikdir. Dövlətin sığorta nəzarəti orqanı, sığortaçıların operativ-maliyyə fəaliyyətinin yoxlanılması üzrə bir sıra səlahiyyətlərə malikdir. Lisenziyanın verilməsilə və yuxarıda qeyd olunanlarla bərabər, dövlət orqanın nəzarətində olan sığorta təşkilatı öz fəaliyyətini həyata keçirmək üçün ilk növbədə maliyyə sabitliyinə malik olmalıdır. Bu o deməkdir ki, müştərilərinə qarşı olan bütün öhdəliklərini vaxtı-vaxtında yerinə yetirmək üçün sığorta şirkətləinin sərəncamında daim lazımi məbləğdə maliyyə vəsaiti olmalıdır. Əks halda hər hansı sığorta təşkilatının iflasa uğraması nəticəsində çoxlu sayda insanların, habelə müəssisələrin hüquqları pozula bilər. Bunun qarşısının alınması üçün qanunvericilikdə sığortaçının maliyyə sabitliyinin və ödəmə qabiliyyətinin qorunub saxlanılması ilə bağlı normativlər, kapitalların minimum məbləğinə qoyulan tələblər, habelə sığortalılardan toplanan sığorta haqlarının etibarlı investitsiya edilməsi qaydaları və s. müəyyən edilir ki, bütün bunlara riayət edilməsi sığorta nəzarəti orqanının nəzarəti altındadır.

İstifadə olunmuş ədəbiyyat:

1. B.X.Ataşov, N.A.Novruzov, E.Ə.İbrahimov. Maliyyə nəzəriyyəsi. Bakı: "Kooperasiya" nəşriyyatı, 2014.- 648 s
2. B.X.Ataşov. Maliyyə bazarları. Bakı: "Kooperasiya" nəşriyyatı, 2016.-456.
3. D.A.Bağırov. Maliyyə. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011.- 384 s.
4. F.X.Abdullayev. Maliyyə menecmentinin əsasları. Bakı: Çaşıoğlu, 2011- 262 s.
5. İ.M.Abbasov, İ.X.Həsənov. "Sığorta işinin təşkili". Bakı: "Bakı Biznes Universiteti" nəşriyyatı, 2013.- 272 s.
6. İ.M.Mahmudov, T.Ş.Zeynalov, N.M.İsmayılov. İqtisadi təhlil. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010.- 810 s.
7. Q.Ə.Səfərov, N.M.Əliyev, S.C.Cəlilova. Maliyyə menecmenti. Bakı: "MSA", 2012.- 325 s.
8. L.Əliyeva. "Azərbaycanın sığorta sistemi: iqtisadi və sosial prosesə multiplikator təsiri kimi". Bakı: "Qanun" Nəşriyyatı, 2011.- 108 s.

Qurbanova Lalə Alışan qızı, magistrant,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Email: laalequrban25@gmail.com

TARİX FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ İLK PEŞƏ İXTİSAS MƏKTƏBLƏRİNİN ŞAGİRDLƏRİNDƏ ESTETİK TƏRBİYƏNİN FORMALAŞDIRILMASI

Təhsil müəssisələrində həyata keçirilən tərbiyə prosesi insan şəxsiyyətinin *hərtərəfli və məqsədyönlü* formalaşmasına xidmət edir. Tərbiyənin məqsədinə uyğun olaraq həyata keçirilən tərkib hissələrindən biri də estetik tərbiyədir. Estetik tərbiyə təlim-tərbiyə müəssisələrinin daim diqqət mərkəzində dayanır. Tərbiyənin başlıca amillərindən biri onun həm bəşəri, həm də milli hadisə olmasıdır. Yəni bu proses zamanı hər bir xalq, millət, bəşəri dəyərləri mənimsəməklə bərabər, həm də özünəməxsus milli xüsusiyyətləri, əxlaqı, milli mentaliteti qoruyub saxlamalıdır. Estetik tərbiyə ilə biz, təhsil-alanlarda həm bəşəri, həm milli ideyalar formalaşdırmalı, onlara gözəlliyin, incəsənətin həm ölkəmizə, həm dünyamıza necə fayda verəcəyinə dair fikirlər aşılamalıyıq.

Estetik tərbiyə dedikdə gözəlliklərin qavranmasına, estetik zövq və qabiliyyətlərin inkişafına yönələn təsirlərin cəmi nəzərdə tutulur. “Estetika” sözü yunanca “estezis” sözündən olub, mənası hiss etmək, qavramaq deməkdir. Bir sözlə, estetika gözəllik, hislər haqqında elmdir. Gözəlliyin başlıca mənbələrini təbiət, ədəbiyyat, incəsənət və insan gözəlliyi təşkil edir. Təbii ki, insan gözəlliyi dedikdə yalnız zahiri yox, həm də daxili gözəlliyin vəhdəti nəzərdə tutulur.

Estetik tərbiyə insanın əxlaqına güclü təsir göstərir. Estetik tərbiyəni əxlaq tərbiyəsindən ayrı təsəvvür etmək olmaz. Əxlaq insanın özünə, başqalarına, əməyə, hadisələrə, cəmiyyətə, xalqın milli-mənəvi dəyərlərinə münasibətini əks etdirir. Gözəl fikrə və qəlbə malik insan pisliyə, bədxahlığa, qəddarlığa yol verməz. Estetik tərbiyə zamanı aşılanan gözəllik hissi insan qəlbini təmizləyir, saflaşdırır, onu yaxşı əməllərə yönəldir, onda əxlaqi keyfiyyətlər formalaşdırır. Estetik tərbiyə əmək tərbiyəsi ilə də sıx bağlıdır. Yaradıcı fəaliyyət ən gözəl zövq mənbəyidir. İnsanın xoşbəxtliyi həm də, yaradıcı əməklə, əmək sevinci ilə bağlıdır. İnsan əli ilə yaradılmış möhəşəm incəsənət nümunələrini buna misal gətirmək olar. Məsələn, insan tərəfindən inşa edilmiş, insana olan sevgini təcəssüm etdirən Tac Mahal, Möminə Xatun sarayı və s.

Tarix təlimində şagirdlərdə estetik tərbiyənin formalaşdırılmasında ilk növbədə estetik şüur yaradılmalı, estetik hisslər inkişaf etdirilməli, sonda isə estetik davranışa nail olmaq lazımdır.

Gənc nəsildə estetik baxış, estetik hisslər və təsəvvürlər formalaşdırmaq, böyüyən nəsildə bədii yaradıcılıq bacarıqları, bədii-estetik qabiliyyətləri inkişaf etdirmək, onlarda estetik zövq və mühakimə bacarığı formalaşdırmaq, onlara estetik tərbiyənin yerinə yetirdiyi vəzifələrdir. Şagirdlər incəsənətin müxtəlif sahəsində müəyyən bacarıqlara yiyələnməli həyata, cəmiyyətə gözəllik ünsürləri bəxş etməlidirlər.

Təhsil müəssisələrində estetik tərbiyə geniş məzmunda aparılır. Estetik tərbiyədə məktəb, ailə, məktəbdənkənar müəssisələr, mədəniyyət ocaqları, bədii yaradıcılıq təşkilatları bir-birilə sıx əməkdaşlıq etməli, vahid xətt üzrə əlbir işləməlidirlər. Estetik

tərbiyədə uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Estetik tərbiyənin müvəffəqiyyəti onun planlı, məqsədyönlü təşkilindən, bu sahədə məktəb, ailə və ictimaiyyətin sıx əməkdaşlığını təmin etməkdən asılıdır.

Şagirdlər məktəbdə, ailədə, şəxsi həyatda gözəllik qanunları ilə yaşamağa, hər yerdə estetik mühit yaratmağa çalışmalıdırlar: gözəl danışmalı, gözəl geyinməli, gözəl yeriməli, gözəl davranmalıdırlar. Burada müəllimin, valideynlərin nümunəsi, emosional mədəniyyəti böyük rol oynayır. Müəllimin daxili gözəlliyi, uşaqlarla ədalətli münasibəti, həssaslığı, pedaqoji məharəti, hər işdə ölçü hissini gözləməsi, düzgünlüyü davranış estetikasının çox təsirli vasitəsidir. Əgər uşaq ədalətsizliklə, təhqirlə qarşılaşmışsa, təşviş, qorxu, sıxıntı, ümidsizlik keçirirsə, bu hisslər onun ürəyinə gözəllik yolunu sanki bağlayır. Bunu nəzərə alaraq, məktəbdə yüksək mənəvi-psixoloji iqlim, həssaslıq və humanizm mühitinin yaranmasına nail olmaq lazımdır.

Dərslərdə aparılan estetik tərbiyə *sinifdənxaric və məktəbdənkənar* işlərdə daha da dərinləşdirilir və genişləndirilir. Bu işlər şagirdlərin maraqlarının və fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir. Bədii yaradıcılıq və incəsənət dərnəkləri estetik tərbiyə üzrə sinifdənxaric işlərin geniş yayılmış formalarındandır. Belə dərnəklərə musiqi, xor, rəsm, rəqs, ədəbiyyat, dram, bədii oxu, bədii tikiş və b. dərnəklər daxildir. Məktəbdənkənar tərbiyə tədbirlərini əsasən məktəbdənkənar təhsil müəssisələri keçirir. Məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir.

Doğma diyara gəzintilərin və ekskursiyaların təşkili kimi tədbirlər zamanı şagirdlər doğma təbiətin gözəlliyini daha dərindən qavrayırlar. Vətənin zəngin təbiəti, adamlarının əmək xariqələri, doğma Yurdun tarixi ilə tanış olurlar. Respublikamızda məktəbdənkənar ekskursiyaların təhsilalanlara müsbət təsiri vardır. Belə ki, şagirdlərimizə diyarşünaslıq mərkəzləri respublikamızın tarixini, flora və faunasını, mədəniyyət abidələrini tanıtmaq, onlara sevdirmək məqsədilə ekskursiya, yürüş və gəzintilər təşkil edir, şagirdlərə milli dəyərlərimizin qorunması, torpağa sevgi, Vətənə məhəbbət hissinin aşılanması istiqamətində mütəmadi iş aparır.

Təlim prosesi estetik tərbiyənin çox mühüm vasitəsi olub, şagirdlərin estetik zövq və bacarıqlarının formalaşmasında böyük rol oynayır. Estetik tərbiyə prosesində müxtəlif fənlərin imkanlarından istifadə edilməlidir. Tədris etdiyi fəndən asılı olmayaraq, müəllim öz gözəl nitqi, davranışı, münasibəti, geyimi ilə şagirdlərin zövqünü tərbiyə edir. İxtisasından asılı olmayaraq hər bir fənn müəllimi estetik tərbiyə müəllimi olmalıdır. Dərsdə istifadə olunan əyani vəsaitlər, sinfin estetik tərtibi, dərsdə yaradılan mənəvi-emosional mühit də estetik zövqün mühüm mənbəyini təşkil edir. Məktəbdə tədris edilən fənlərin hər biri estetik tərbiyənin vəzifələrini həll etmək baxımından müəyyən əhəmiyyətə mailkdir. Bütün fənlərin tədrisində estetik tərbiyə imkanları var. Estetik tərbiyə ilə bağlı tədris edilən fənlərdən musiqi, təsviri incəsənət, texnologiya daha əsas yer tutur.

Tarix dərslərində də təcrübəli müəllimlər mövzulara uyğun ədəbi parçalardan, təsviri sənət əsərlərindən və incəsənətin başqa nümunələrindən yeri gəldikcə istifadə etməklə, uşaqları maraqlandırır və onlarda müsbət tarixi hadisələrə rəğbət, mənfi hadisələrə qarşı isə nifrət hissi aşılayır.

Estetik tərbiyə zamanı tarix fənninin digər fənlərlə inteqrasiyasına nəzər salaq. Musiqi dərsləri şagirdlərin estetik tərbiyəsində mühüm rol oynayan fənlərdən biridir. Bu dərslərdə olan mövzular şagirdlərin daxili mənəvi tərbiyəsini zənginləşdirir, onlarda Vətənə, gözəliyə sevgi hisslərini formalaşdırır. Biz təhsilverənlər həm tarix həm musiqi fənlərinin tədrisi zamanı Vətənə, Vətənin nemətlərinə, hər bir qarışına sevgi, Vətənin gözəlliklərinə vurğunluq hislərini formalaşdırarkən, estetik tərbiyə zamanı onların mənəviyyatını zənginləşdirməliyik. Vətəni seviriksə, demək onu qorumalıyıq. Sevgidən doğan qorumaq hissini yəni vətənpərvərlik hissini, də aşılamalıyıq. Məktəblilərə musiqi dərsində mahnı öyrədilərkən onun mətni, müəllifi və bu mahının yaranma tarixi haqqında söhbətlər aparılır.

İkinci Qarabağ müharibəsinin getdiyi, şanlı tariximizin yenidən yazıldığı dövrdə də eyni igidlikləri, qəhrəmanlıqları göstərən şəhidlərimizə mahnılar bəstələnir, şeirlər yazılır. Xüsusilə tarix müəllimləri 90-cı illər və 2000-ci illər qəhrəmanlarından bəhs edərkən elə inteqrasiya etməlidirlər ki, gələcək nəsillərdə də bu milli ruh davam etsin.

Şagirdlərin estetik tərbiyəsini düzgün qurmaq üçün dram dərnəklərindən olan xor dərnəyi xüsusi əhəmiyyətlidir. Xor dərnəkləri şagirdlərin estetik hisslərinin, bədii zövqlərinin inkişafına qüvvətli təsir göstərir. Kollektiv oxu zamanı yaranan xor qədim tarixə malikdir. Xorla oxu tarix boyu ayrı-ayrı xalqların məişətinə daxil olmuş və əmək cəbhəsində, mübarizə meydanında, mərasim məclislərində insanların yaxın dostu olmuşdur. Azərbaycan Respublikasının Dövlət Himninin hər səhər şagirdlər tərəfindən xorla oxunması buna bir nümunədir.

Estetik tərbiyədə əmək dərslərinin böyük əhəmiyyəti vardır. Ümumiyyətlə, yaradıcı fəaliyyət ən gözəl zövq mənbəyidir. İnsanın xoşbəxtliyi yaradıcı əməklə, əmək sevinci ilə bağlıdır. Texnologiya dərslərində müəllim məktəblilərin hazırladıqları əşyaların xarici gözəlliyinə və səliqəli olmasına nail olmaqla onlarda estetik zövqün inkişafına kömək etməlidir. Qədim dövrdə əcdadlarımız öz yaşayış və müdafiələri üçün zəruri olan tikililəri yaratmaqla memarlıq sənətinin ilk nümunələrinin təməlini qoymuşlar. Onlar yaşayış üçün digər məqamları da unutmamış, hazırladıqları məişət və yaşayış nümunələrinə bədii görkəm və bəzək vermişlər. Zaman ötdükcə, memarlıq inkişaf etdikcə daha möhtəşəm abidələr yaradılmış və bu tikililər insana qarşı gözəlliyi, sevgini ifadə etmək üçün bir vasitəyə çevrilmişdi. Şagirdlərə belə bir cümlə ilə müraciət edək: Dünyada qadına qarşı sevgi və hörməti təcəssüm etdirmək üçün tikilmiş hansı abidələri tanıyırsız? Cavablardan biri mütləq bu olacaq: – Sədaqət rəmzi olan Möminə Xatun Sarayı.

Müxtəlif üsullardan istifadə edərək şagirdlərdə bu mövzu ilə bağlı estetik zövqlər formalaşdıra bilərik. Müəllim onlara bu türbə ilə bağlı geniş araşdırma aparmalarını tapşırıb, müzakirə aparır. Sonra müəllim şagirdlərə dərslikdən və ya internet resurslarından istifadə edib, Möminə Xatun Sarayı və bu qadın haqqında özlərinin məlumat verməsini tapşırır. Sonda şagirdlər abidəni dəyərləndirərək əldə etdikləri məlumatı tamamlayırlar.

Daha bir nümunə: X sinif Azərbaycan tarixi dərsliyindən Şəki Xan Sarayı ilə bağlı verilmiş məlumatlara diqqət yetirək. Şəki xanlarının yay sarayı Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə tikilmişdir. Qala divarları ilə əhatə olunan iki-

mərtəbəli Xan Sarayı altı otaqdan, dörd dəhlizdən, iki güzgülü eyvandan ibarətdir. Binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçaların aralarına müxtəlif rəngli şüşələr geydirilmiş şəbəkə pəncərə və qapılardan ibarətdir. Şəbəkələrin hər bir kvadrat metrində orta hesabla 5000, mürəkkəb yerləri 14000 ağac və şüşə şəbəkədən istifadə olunmuşdur. Binada mismar və yapışqandan istifadə edil-məmiş, ağac və şüşə parçaları bir-birinə geyindirilmişdir. Saray divarının ornamentləri, naxışlı şəbəkələr, müxtəlif naxışlar, gəc üzərində oymalar məharətlə işlənmişdir. Bina-nın daxilində həndəsi naxışlara, nəbatat rəsmlərinə, süjetli və quş rəsmlərinə, döyüş və ov səhnələrinə daha geniş yer verilmişdir. Zövqlə işlənmiş taxçalar, güzgülü buxarılar əsl sənət nümunəsidir.

Estetik zövqün şagirdlər tərəfindən dəyərləndirilməsindən sonra Nazim Hikmətin abidə haqqında dediklərini müzakirə edin. "Əgər Azərbaycanın başqa tikililəri olmasa idi, təkcə Şəki Xan sarayımı dünyaya göstərmək bəs edərdi". Artıq estetik zövqləri formalaşmış şagirdlərin, abidələri necə dəyərləndirməsinə də diqqət etməliyik. Bəlkə də şagirdlərinizin icindən bu abidələri şeirlə qiymətləndirəcək gələcəyin söz ustaları da çıxacaq.... Bu fənn müəllimlərinin birgə fəaliyyəti sayəsində olmalıdır. Şagirdlərin daha ətraflı məlumat əldə etmələri üçün belə tapşırıq verilə bilər: Şəki Xan Sarayının tarixi əhəmiyyətini dövr baxımından dəyərləndirin.

Ədəbiyyat dərslərinin estetik tərbiyə imkanları xüsusilə genişdir. Bədii ədəbiyyatın tərbiyəvi əhəmiyyəti çoxdur. O həm düşüncəyə, həm də hissiyyata güclü təsir edir. Bədii əsərləri öyrənən zaman şagirdlər qəhrəmanları təhlil edir, onlara münasibət bildirir. Bu əsərləri oxuyan zaman şagirdlər öz hərəkət və davranışlarına gözəllik əlamətləri daxil edir və düşüncələrində gözəlliyə dair münasibətlər formalaşdırırlar. Ədəbiyyat və tarix dərsinin qovuşmasına bir nümunə: İsmayıl Şıxlının Dəli Kür əsərində təbiət ayrıca bir obraz kimi verilmişdir. Hadisələr kiçik bir Azərbaycan kəndi olan Göytəpədə cərəyan edir. Şagirdlər əsəri oxuyanda həm gözəllikləri duyur, təsəvvürlərində formalaşdırır, həm də o dövrün Azərbaycan kəndində baş vermiş tarixi hadisələri qiymətləndirir. Cahandar ağanın ifasında yaradılmış XIX əsr Azərbaycan bəy obrazı, kəndli obrazları, XIX əsr Azərbaycanda təhsil sistemi və s. haqqında məlumat alırlar.

Rəsm çəkmək uşaqların ilk sevimli işlərindən biridir. Rəsm uşaqların görmə qavrayışını, bədii hisslərini, yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Gözəlliyi duymaq və qiy mətləndirməkdə onlarda həssaslığı artırır. Sənət var ki, ancaq duyğulandırır, sənət var ki, həm də düşündürür. Məsələn XV əsr Bakının mənəzərəsinə aid bir şəkil həm təbii gözəlliyi ifadə edir, həm də düşündürür.

Araşdırmanı tarix, ədəbiyyat və təsviri incəsənət fənninin qovuşmasına dair bir nümunə ilə yekunlaşdırmaq istəyirəm: 1918-ci il 9 noyabr Azərbaycan Xalq Cümhuriyyəti dövründə üç rəngli bayrağımızın qəbulu mövzusunu tədris edərkən, belə bir yarışma edə bilərik. Bayrağımızla bağlı ən gözəl şeiri deyən, bayrağımızın estetikası, gözəlliyinə dair ən duyğulu sözləri səsləndirən, ən gözəl rəsmi çəkən şagirdi mükafatlandıra bilərik. Üçrəngli bayrağımız milli birliyin, milli qeyrətin rəmzidir, dünyaya səpələnmiş milyonlarla azərbaycanlını birləşdirən gücdür.

İstifadə olunmuş ədəbiyyat:

1. Firədun Nadiroğlu İbrahimov, Rüfət Lətifoğlu Hüseynzadə. "Pedaqogika. Dərslik, II cild". Bakı, 2012 ,Mütərcim, səh 548.
2. Əmrulla Paşayev, Fərux Rüstəmov. "Pedaqogika". Bakı, 2010. Elm və təhsil. Səh. 464.
3. Mübariz Əmirov. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, 2011, Yeni nəşr. Səh. 707.
4. Rafiq Məmmədov, Kamran Əsədov. "X sinif Azərbaycan tarixi dərslik". Bakı ,2017 ,Şərq - Qərb. Səh. 204.
5. Elnur Hüseynov, Niyaməddin Quliyev. "Ümumtəhsil məktəblərinin X sinfi üçün Azərbaycan tarixi fənni üzrə metodik vəsait". Bakı, 2018 ,Şərq- Qərb. Səh. 196.
6. Rövşən Hətəmov, Asif Hüseynov, Elnur Hüseynov. "XI sinif Azərbaycan tarixi dərslik". Bakı, 2017, Şərq-Qərb. Səh 212.

Rəhimov Aslan İlham oğlu, magistrant
Bakı Biznes Universiteti
Email:aslanrehimov474@gmail.com

AZƏRBAYCANDA SƏNAYE MƏHSULLARININ İSTEHSALI VƏ İNKİŞAFINDA MİNGƏÇEVİR SƏNAYE PARKININ ROLU

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə etməklə sənaye sahələrinin yaradılması, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasında sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir. Belə sənaye parklarından biri də yeni yaradılan Mingəçevir Sənaye Parkıdır. 2016-cı il sentyabrın 21-də təməli qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması qərara alınımışdır. Hazırda Sənaye Parkında fəaliyyət göstərəcək müəssisələrin xammal təchizatının davamlılığını və etibarlılığını təmin etmək məqsədilə ardıcıl tədbirlər görülməkdədir. Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq imzalanmış fərman və sərəncamlar, pambıq-çılığın inkişafı məsələlərinə dair keçirilmiş respublika müşavirələri, qəbul olunmuş Dövlət Proqramı, bu sahə üzrə müxtəlif dəstək və təşviq mexanizmlərinin tətbiq edil-məsi pambıqçılığın inkişafı üçün əlverişli şərait yaradıb.

Prezident İlham Əliyevin ölkədə qeyri-neft sektorunu inkişaf etdirmək məqsədilə imzaladığı sənədlər, verdiyi tapşırıq və tövsiyələr, sahibkarlara böyük və davamlı dövlət qayğısı qazanılan uğurların əsas şərtidir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının üçüncüsünün də icrası başa çatmaq üzrədir. "Mingəçevir Tekstil"də istehsal edilən yüksək keyfiyyətli pambıq ipliyi "Made in Azerbaijan" markası

ilə artıq beynəlxalq bazara çıxarılır. Türkiyə, Rusiya şirkətləri ilə uğurlu ticarət əlaqələri qurulmuş, Çin sənayeçiləri ilə işgüzar danışıqlar aparılmış, yaxın günlərdə Çinə ilk iplik karvanının yola salınması proqnozlaşdırılmışdır.

Tədqiqat işinin təhlilində induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Belə ki, induksiya metodu vasitəsilə tədqiqat işi haqqında faktlar toplanmış, sistemləşdirilmiş və araşdırılmışdır. Sonra isə deduksiya metodu vasitəsilə isə həmin toplanmış faktlar əsasında nəzəri nəticələr, ümumi prinsiplər, əməli fəaliyyət üçün lazım olan zəruri tövsiyələr müəyyən edilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Mingəçevir Sənaye Parkının yaradılması haqqında" 26.02.2015-ci il tarixli, 1077 nömrəli Sərəncamı ilə Mingəçevir şəhərində Mingəçevir Sənaye Parkı yaradılmışdır [2].

Yuxarıda qeyd olunan Sərəncamın 3-cü hissəsi ilə müəyyən edilmişdir ki, Mingəçevir Sənaye Parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlər "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli, 548 nömrəli Fərmanının 4-cü hissəsi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən həyata keçirilir [6].

Eyni zamanda, Sərəncamın 5.1-ci bəndinə əsasən Mingəçevir Sənaye Parkının fəaliyyəti üçün "Mingəçevir-Toxucu" Açıq Səhmdar Cəmiyyətinin 14,8 hektar torpaq sahəsinin icarə hüququ ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin daimi istifadəsinə ayrılması müəyyən edilmişdir.

Mingəçevir Sənaye Parkının fəaliyyətinin təmin edilməsi məqsədi ilə inşaat pasportunun hazırlanması üçün Mingəçevir Şəhər İcra Hakimiyyətinə və ayrılmış torpaq sahəsinin plan və ölçüsünün hazırlanması və müvafiq çıxarışın verilməsi üçün Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə müraciət edilmiş, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 18 avqust 2015-ci il tarixli, 2015012212 nömrəli çıxarış və Mingəçevir Şəhər İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsi tərəfindən 12 noyabr 2015-ci il tarixli, 18-15 nömrəli inşaat pasportu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-yə təqdim edilmişdir [7].

Mingəçevir Sənaye Parkı ilk addımlarını çox inamla atır. 2018-ci ilin fevral ayında fəaliyyətə başlayan Mingəçevir Tekstil MMC-nin hələlik 2 iplik fabriki işə düşüb. Fabriklərin ümumi dəyəri 144 milyon manatdır [7]. İplik fabriklərinin qurulmasında İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kredit imkanlarından da istifadə edilmişdir. Müasir tələblərə cavab verən ən son texnologiyalar əsasında yaradılmış bu fabriklər Almaniya, İsveçə, Türkiyə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən gətirilən avadanlıqlarla təchiz olunmuşdur. Fabriklərdə 10 min ton "Rinq", 10 min ton isə "Open End" üsulu ilə müxtəlif cür iplik istehsalı nəzərdə tutulub.

Görülən işlərin nəticəsidir ki, 2017-ci ildə pambıq istehsalı 2016-cı ilə nisbətən 2,3 dəfə artaraq 207,5 min tona çatıb. Hazırda Respublikada illik istehsal gücü 24,6 min ton olan 6 iplik fabriki fəaliyyət göstərir. Lakin pambıqçılığın sürətlə inkişafı, inno-vativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qa-baqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilinə ehtiyac yaranıb. Mingəçevir Sənaye Parkının ərazisində 14,5 hektar sahədə yaradılmış "Min-

gəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı fabriki də belə müəssisələrdəndir. Məlumat üçün qeyd edək ki, ümumi dəyəri 144 milyon manat olan fabriklərin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit verilib [7].

Eyni zamanda Mingəçevirdə "Open End" üsulu ilə iplik istehsalı müəssisəsi fəaliyyətə başlayıb. Qeyd edək ki, "Open End" üsulu ilə alınan iplik daha kobud olduğundan əsasən cins və digər geyimlərin istehsalında istifadə olunur. Bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammal ilə təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan verəcək. Bunun da nəticəsində ölkəmizə əlavə valyuta daxil olacaq. Bu, həmçinin sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərin yaradılması, ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda parkda sənaye məhsulları istehsalı üzrə müxtəlif ixrac potensiallı və rentabelli fabrik və zavodların yaradılması istiqamətində araşdırmalar aparılır. Diqqətəlayiq haldır ki, müəssisələr layihələndirilərkən təkcə istehsal prosesi deyil, orada çalışanlar üçün yaradılan müxtəlif xidmət növlərinin təşkilinə də xüsusi önəm verilir. Qeyd edək ki, bu fabriklərdə 700-750 insan işlə təmin edilir və burada çalışanların böyük əksəriyyəti qadınlardır. Deməli, Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün bu fabriklərin çox böyük rolu olacaq.

Mingəçevir Sənaye Parkının rezidenti olan Mingəçevir Tekstil MMC-nin istehsal etdiyi məhsulların tərkibində “RİNG” və “OPEN END” üsulları ilə istehsal olunan iplik məhsullar xüsusilə fərqləndirilir [7].

“RİNG” üsulu vasitəsilə istehsal edilən ipliklərin əsas tətbiq sahələrinə misal olaraq denim, dəsmal, idman geyimləri üçün parçalar, yataq ağları, döşəmə örtükləri, ev tekstil məhsulları, texniki parçaları göstərmək olar.

Aşağıdakı cədvəldə “RİNG” üsulu ilə istehsal olunan iplik məhsulların əsas növləri qeyd olunmuşdur.(Cədvəl 1).

Cədvəl 1.

“RİNG” üsulu ilə istehsal olunan iplik məhsulların növləri

100% PAMBIQ KARDE TOXUMA İPLİK	100% PAMBIQ KARDE HÖRGÜ İPLİK
Ne 30/1	Ne 30/1
Ne 24/1	Ne 24/1
Ne 20/1	Ne 20/1
Ne 16/1	Ne 16/1

Mənbə: http://www.mingachevirtextile.az/m%c9%99hsullar/

Cədvəl 1-dən də məlum olur ki, "RİNG" üsulu ilə istehsal olunan iplik məhsullar toxuma və hörgü iplik məhsullarına bölünür. Müəssisədə Toxuma iplik məhsulun 4 növü- №30/1; №24/1; №20/1; №16/1 istehsal olunmaqdadır. Hörgü iplik məhsulun da 4 əsas növü- №30/1; №24/1; №20/1; №16/1 istehsal olunmaqdadır.

Aşağıdakı cədvəldə isə "OPEN END" üsulu ilə istehsal olunan iplik məhsulların əsas növləri qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, "OPEN END" üsulu ilə istehsal olunan iplik məhsullar bir qayda olaraq idman geyimləri üçün parçalar, uşaq geyimləri, ev tekstili, dekorativ parçalar və s. məqsədilə istehlak olunur.

Belə hesab edirik ki, sənaye parklarının fəaliyyətə başlaması Mingəçevirin və ümumiyyətlə, Azərbaycanın sənaye potensialını böyük dərəcədə gücləndirəcək. Nəzərə almaq lazımdır ki, ilkin olaraq Mingəçevir Sənaye Parkının ilk iki fabriki açılır. Bu, dövlət-özəl sektor tərəfdaşlığının gözəl təzahürüdür. Çünki, dövlət özəl sektorun inkişafı üçün əlindən gələni əsirgəmir, sahibkarlara güzəştli şərtlərlə kreditlər, metodik tövsiyələr verilir, iş yerlərinin yaradılması istiqamətində böyük işlər aparılır. Eyni zamanda, dövlət sənaye parklarının yaradılması ilə özəl sektora şərait yaradır. Əgər dövlət bu funksiyanı öz üzərinə götürməsəydi, sahibkarlar üçün belə nəhəng fabrikləri yaratmaq o qədər də asan olmayacaqdı. Özəl sektor isə öz növbəsində, həm dövlətin güzəştli şərtlərlə verilmiş kreditlərindən yararlanır, eyni zamanda, öz vəsaitini qoymaqla belə gözəl fabriklər yaradır. Ona görə Azərbaycanda son illər ərzində yaradılan sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları bu məqsədi güdür. Əldə olunan məlumata görə, sözügedən fabriklərdə Almaniya, İspaniya, İsveçrə, Yaponiyadan gətirilmiş ən müasir avadanlıqlar quraşdırılıb. Burada pambıq mahlıcından ildə 20 min ton müxtəlif ipliklərin hazırlanması nəzərdə tutulur. Bu ipliklər həm xarici bazara ixrac olunacaq, həm də Sənaye Parkının digər mərhə-ələrində yüngül sənaye məhsullarının istehsalında istifadə ediləcək. Sənaye Parkı tam gücü ilə işə düşəndən sonra isə şəhərin minlərlə sakini artıq burada daimi işlə təmin ediləcək. Bu müəssisələrin işə düşməsi Mingəçevirə bir daha şəhər əhval-ruhiyyəsi gətirəcək. Bu, həmçinin əhalinin işlə təmin olunmasına, onların sosial-rifahının yaxşılaşdırılmasına, həm də qeyri-neft sektorunun inkişafına və bölgə iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətinizin bariz bir nümunəsidir. Bildirək ki, qarşıya qoyulan məqsədlərdən biri də Mingəçevir Sənaye Parkın Cənubi Qafqazın ən böyük yüngül sənaye parkına çevrməkdən ibarətdir.

İstifadə olunmuş ədəbiyyat:

1. Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 8 oktyabr 2014 il.
2. Mingəçevir Sənaye Parkının yaradılması haqqında 26.02.2015-ci il tarixli, 1077 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.
3. www.senaye.gov.az
4. http://www.iasp.ws/statistics
5. http://www.azpromo.az/investments/industrial-parks
6. http://www.azpromo.az/investments/industrial-parks#tab-block-204
7. http://www.mingachevirtextile.az

Piriyeva Rübabə Məhəmməd qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: piriyevarubabe24@gmail.com

"ASAN XİDMƏT" LAYİHƏLƏRİNİN TƏHLİLİ VƏ BEYNƏLXALQ SƏVİYYƏDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Fəaliyyətə başladığı ilk gündən indiyə kimi müxtəlif xarici dövlətlərdən 550-ə yaxın nümayəndə "Asan Xidmət" mərkəzlərində qonaq olub. Avropa Birliyi, Avropa Parlamenti və başqa dövlətlərin də diqqətini "Asan Xidmət" mərkəzlərinin fəaliyyəti cəlb etmişdir. Brussel və Romada 2016-cı ilin aprel-may aylarında keçirilən konfransların mövzusu isə Asan nümunəsi " Elektron hökumət proqramlarının uğurlu inkişafı" olmuşdur. Bu konfranslarda Azərbaycanın və Avropa ölkələrinin nümayəndələri iştirak etmişlə, "Asan Xidmət" modelinin insanların tələblərinə uyğun olduğu qeyd olunmuşdur. Konfransda "Asan Xidmət"in insanların həyat səviyyəsini yaxşılaşdırdığı qeyd olunmuş və Avropa ölkələrində də belə modelin yaradılmasının zəruriliyindən danışılmışdır.

Bakıda 2015-ci ildə Avropa Şurası Nazirlər Komitəsi və Asan Xidmət tərəfindən "İnsan hüquqları və dövlət xidmətlərinin göstərilməsi" mövzusunda konfrans keçirilib. Konfransda 200-ə yaxın nümayəndə heyəti beynəlxalq təşkilatlardan və xarici ölkələrdən ölkəmizə gəlmişdir.

2016-cı ildə Gürcüstan Daxili İşlər Nazirinin Azərbaycana səfər zamanı o, 1 saylı "Asan xidmət" mərkəzində də qonaq olmuşdur. Nazir "Asan xidmət"in hüquqi əsasları haqqında məlumat almış, buradakı fəaliyyətlər, xidmət və gələcək inkişaf perspektivləri barədə bilgiləndirilmişdir və o,"Asan xidmət"in praktiki fəaliyyətindən razı qalmışdır.

"Asan Xidmət" nümayəndələri BƏƏ-də keçirilən toplantıda da iştirak etmiş və ölkəmizi təmsil etmişlər. Toplantıda müxtəlif ölkə prezidentləri, nazirləri iştirak etmişlər. Dövlət Agentliyinin sədri "Davamlı inkişaf məqsədləri" mövzusunda danışmış dövlət idarəçiliyi və dövlət xidmətlərinin həyata keçirilməsinin önəmindən bəhs etmişdir. Konfransa BMT və Dünya Bankının mütəxəssisləri, xarici ölkə nümayəndələri də qatılıblar.

Estoniyanın təşəbbüskarlığı ilə Brüsseldə "Avropaya rəqəmsal inteqrasiya" adlı konfrans həyata keçirilib. Konfransda "Asan İmza" layihəsinin faydasından danışılmış, e-dövlət quruculuğunda baş verən tədbirlər müzakirə olunub. Burada həmçinin "Asan"ın fəaliyyətinə məxsus video təqdim edilmiş və ölkəmizlə Avropa İttifaqı arasında əhəmiyyətli münasibətlərin qurulmasında "Asan imza"nın rolundan danışılmışdır.

Konfrans başa çatdıqdan sonra Estoniya Sertifikatlaşdırma Mərkəzi ilə Asan sertifikatlaşdırma Mərkəzi arasında Anlaşma Memarandumu imzalanmışdır.

Mərasimdə Asan imzadan istifadə qaydalarından, gələcəkdə bir çox sahələrdə istifadəsinin önəmindən danışılmış və "Asan imza" barəsində geniş müzakirələr aparılmışdır.

Daha sonra Mərakeşin Rabat şəhərində Afrika yerli idarəetmə orqanları tərəfindən Birinci Beynəlxalq Forumu keçirilmişdir. Forum Mərakeşin Daxili İşlər

Nazirliyi, Rabat Beynəlxalq Universiteti və Mərakeş Bələdiyyə Sədrlərinin Assosiyasiyasının başçılığı ilə həyata keçmişdir. Tədbirdə yüksək vəzifəli şəxslər, diplomatik nümayəndələr, iştirak etmişlər. Bu tədbirdə "Asan xidmət"in keyfiyyətindən danışılmış və göstərdiyi xidmətlər müzakirə olunmuşdur. Forumda həm də "Asan xidmət"in uğurlarından bəhs olunub. Yüksək ixtisaslı kadr hazırlanmasından, yeni texnologiyaların tətbiqindən danışılmış, vətəndaşlara xidmət göstərilməsində qazandığı uğurlar haqqında məlumat verilmişdir.

Londonun "Queen Elizabeth" konfrans mərkəzində keçirilən konfransda da həmçinin "Asan Xidmət"in qazandığı uğurlardan danışılmışdır, Bu tədbir isə Avropa Azərbaycan Cəmiyyəti'nin nəzarəti ilə həyata keçirilmişdir. Burada keçirilən sərginin təşkilatçısı isə " Civil Service World" jurnalı olub. 5000-ə yaxın dövlət işçiləri bu sərgidə iştirak etmişdir.

"Asan xidmət"in prinsiplərindən, "Effektivliyi yüksəltməyə yönəlmiş yeni iş metodlarından istifadə və iş atmosferinin yaradılması" mövzusunun müzakirə edildiyi konfransda müzakirə aparılmışdır.

"Asan xidmət" modeli hazırda Əfqanıstanda da geniş istifadə olunmaqdadır. Dövlət Agentliyi 2017-ci ildə Əfqanıstana səfər etmiş səfər zamanı Əfqanıstanın Maliyyə Nazirliyi ilə Anlaşma Memorandumu imzalamışdır.

Memorandumun əsas məqsədi Əfqanıstanda da "ASAN" kimi layihənin tətbiqi olmuşdur. Əfqanıstan Prezidentinin sarayında keçirilən bu mərasimdə nazirlər, yüksək vəzifəli şəxslər iştirak etmişlər və mərasim sonrası keçirilən mətbuat konfransında İnam Kərimov öz çıxışında "Asan xidmət"in önəmindən, Əfqanıstanla ölkəmiz arasındakı münasibətdən və belə bir modelin Əfqanıstanda da tətbiq olunmasının qazandıracağı uğurlardan bəhs etmişlər. Bu gün artıq Əfqanıstanda da "Asan"a oxşar modeldən istifadə olunmaqdadır.

Bundan əlavə, "Asan xidmət"lə Anlaşma Memorandumu imzalayan ölkələrə Fransa, İndoneziya, İtaliya, Koreya kimi ölkələrin aidiyyatı qurumları da daxildir.

Növbəti dəfə Parisdə keçirilən konfransda Dövlət Agentliyinin işçiləri Azərbaycanı təmsil etmişlər. "Dövlət xidmətlərinə çıxış və vətəndaşlıq" adlı konfransda "Asan xidmət"in təqdimatı olmuşdur.

Albaniya Respublikasına məxsus Birgə xidmətlərin Göstərilməsi Agentliyinin nümayəndələri 2017-ci il 3-8 may tarixlərində ölkəmizə səfər etmişdir. Bu səfərin əsas məqsədi Asan təcrübəsinin öyrənilməsi, həmçinin "Asan xidmət" və ADİSA arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsi idi. Onlar səfər müddətində, "Asan xidmət" mərkəzlərində qonaq olmuş və əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr etmişlər.

Romada "Asan nümunəsi" adlı konfrans keçirilmiş və bu konfrans İtaliyanın "Vision" təşkilatı, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının nəzarəti ilə həyata keçirilmişdir. Konfransda bir çox cəmiyyətlərin heyətləri, ekspertlər iştirak etmiş və müasir dövrdə e-dövlət quruculuğunda həyata keçirilən planlardan bəhs olunmuşdur. Əlavə olaraq, İtaliyada "Asan xidmət" təcrübəsinin tətbiqinin önəmi diqqətə çatdırılmış, İtaliyalılar tərəfindən bu modelin bəyənildiyi, hər ölkədə belə modelin istifadəsinin vacibliyi vurğulanmışdır.

Növbəti dəfə İsraildə baş tutan Qlobal Sammitdə iqtisadiyyatın fərqli sektor-

larından gənc sahibkarlar, ixtiraçılar iştirak edib və Sammit Amerikanın "Forbes" jurnalının təşkilatı ilə həyata keçirilmişdir. Bu Sammitdə ölkəmiz tərəfindən təqdim edilən layihə çox bəyənilib.

Küveyt dövlətinin nümayəndələri 2018-ci ilin may ayında "Asan xidmət" mərkəzlərində qonaq olmuş onlara "Asan xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti, prinsipləri barədə geniş məlumat verilmiş "Asan"ın yaranmasından sonra dövlət idarəçiliyinə göstərdiyi müsbət təsirlərdən danışılmışdır.

"Asan xidmət"in növbəti qonağı 2018-ci ilin iyun ayında Türkiyənin vəzifəli şəxsləri oldu. Qonaqlara "Asan xidmət"in yaranmasından sonra idarəçilikdə yaranan müsbət dəyişikliklər və "Asan xidmət"in uğurlu iş fəaliyyətindən bəhs olunmuşdur.

2019-cu il may ayında Rusiyanın vəzifəli şəxsləri "Asan xidmət"də qonaq olmuş, həm də "Abad" sənətkarlıq mərkəzi ilə tanış olmuşlar. Onlara "Asan xidmət"in iş prinsipləri haqqında məlumat verilmiş, burada baş verən müsbət dəyişikliklərdən danışılıb. Əlavə olaraq, "Asan"da təqdim olunan bütün xidmətlər barədə ətraflı məlumatlar verilmişdir. Səfər müddətində onlar həm də, "İnnovasiyalar Mərkəzi" ilə Anlaşma memorandumu imzalamışlar.

Növbəti dəfə 2019-cu il aprel ayında Əfqanıstanın vəzifəli şəxsləri "Asan xidmət"də qonaq olarkən, onlara "Asan xidmət"in yaranma səbəbləri, məqsədi, fəaliyyəti və bu günə qədər layiq görüldüyü sertifikatlar, mükafatlar haqqında geniş məlumat verilmişdir. Səfər müdətində qonaqlar həm də Quba "Asan həyat" kompleksi ilə tanış olmuşlar.

Daha sonra "Asan xidmət"in növbəti qonağı Dünya Bankının təcrübə mübadiləsi iştirakçıları olmuşdur. Qonaqlara "Asan xidmət"in dövlət idarəçiliyindəki rolundan, fəaliyyət və iş prinsiplərindən danışılmışdır.

İndoneziya Respublikasının vəzifəli şəxsləri may ayında "Asan xidmət" mərkəzində qonaq olmuşdur. Qonaqlara "Asan Viza" sistemi haqqında geniş məlimat verilmiş, "Asan xidmət"in uğurlu fəaliyyətindən danışılmışdır.

2017-ci ildə tərəflər arasında əməkdaşlıq barədə memorandum imzalanıb. Ona görə də, tərəflər arasında təlimlər təşkil olunur, treninqlər keçirilir.

2018-ci ildə "Asan xidmət"də bir sıra ölkələrdən qonaqlar qəbul edilmişdir. Onlardan biri də Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəsi olmuşdur. Ona "Asan xidmət"də e-dövlət quruculuğundakı yeniliklər haqqında məlumat verilmiş, mərkəzin fəaliyyətinə dair sualları cavablandırılmışdır.

Mövcud ildə Latviya Respunlikasınıdan nümayəndə "Asan xidmət"ə baş çəkmişdir. Qonağa e-dövlət quruculuğunda "Asan xidmət"in önəmindən bəhs olunmuş, "Asan xidmət" mərkəzlərinin iş prinsipləri, fəaliyyəti haqqında məlumat verilmişdir.

Smart Amerika şirkətinin nümayəndəsi 2019-cu ilin fevral ayında "Asan xidmət" mərkəzində qonaq olmuşdur. O, "Asan xidmət" mərkəzlərinin iş prinsipi, fəaliyyəti haqqında ətraflı məlumat almış, elektron-dövlət quruculuğunda "Asan xidmət"in önəmini öyrənmişdir.

Yanvar ayında Əlcəzair Respublikasının nümayəndəsi "Asan xidmət"də qonaq olmuşdur. Qonağa səfər müddətində Asan Radio Və "Asan xidmət"in fəaliyyətinə dair ətraflı məlumat verilmişdir.

Həmin ildə həm də Sudan və Niderlanddan da nümayəndələr "Asan xidmət"də qonaq olmuşdur.

“Asan xidmət”in fəaliyyəti barədə Yaponiyanın Azərbayandakı səfiri bəzi fikirlər irəli sürmüşdür. O, “Azərbaycanda “Asan xidmət” modelinin dövlətçilik quruculuğunu təmin edilməsi üçün yaradıldığını qeyd etmişdir. O, həmçinin başqa ölkələrdə də bunun kimi layihələrin həyata keçirildiyini, ancaq heç birinin “Asan xidmət” qədər unikal olmadığını söyləmişdir. Mərkəzlərdə göstərilən xidmətlərdən, şəffaf şəraitdən razı qaldığını” bildirmişdir.

Harvard və Stanford kimi dünyaca məşhur universitetlərin tələbələri də 2017- ci ildə “Asan xidmət”də qonaq olunmuşlar. Onlara Asan Radio, “Asan xidmət” mərkəzlərinin fəaliyyəti, dövlət idarəçiliyində əhəmiyyəti barədə məlumatlar verilmişdir.

Tafts və Harvard universitetlərinin rəhbərləri 2018-ci ilin aprel ayında “Asan xidmət”də qonaq olmuşdur. Bu müddətdə Belçika Krallığının Daxili İşlər Naziri də “Asan xidmət”də qonaq olmuşdur. Qonaqlar “Asan Viza”, “Asan Viza 2.0” layihələri ilə yaxından tanış olmuş, Asan Radio haqqında məlumat almışlar.

Həmin ilin iyun ayında Estoniyanın paytaxtı Tallində Elektron İdarəçilik Akademiyasının təşkilatçılığı ilə elektron hökumət mövzusunda konfrans keçirilib.

Tədbirdə bir çox ölkələrin elektron dövlət quruculuğu sahəsindəki siyasəti, bu sahədəki çatışmazlıqlar, onların aradan qaldırılması yolları müzakirə olunmuşdur.

Konfransda Elektron İdarəçilik Akademiyası ilə “Asan xidmət” arasında Anlaşma Memorandumu imzalanmış, Memorandumun səbəbi ikitərəfli əməkdaşlığın qurulmasıdır.

İstifadə olunmuş ədəbiyyat:

1. “Asan jurnalı” - Brand of Azerbaijan, 2014, ISSN 2518-1637.
2. “Asan jurnalı” - Brand Story, ISSN 2518-1637.
3. “Asan jurnalı”, 2016, ISSN 2518-1637.
4. “Asan jurnalı”, 2017, ISSN 2518-1637.
5. “Asan 2012-2017” jurnalı, ISSN 2518-1637.

Rüstəmov Sənan Arif oğlu, magistrant,
Qərbi Kaspi Universiteti
Email:rsnan@inbox.ru

AZƏRBAYCAN TURİZMİNİN İNKİŞAFINDA HAVA NƏQLİYYATININ ROLU

Müasir dövrümüzdə turizmin inkişafında nəqliyyatın rolu olduqaca vacibdir. Məlumdur ki, dünyada nəqliyyatın inkişafı ilə əlaqədar olaraq turizm də inkişaf etməyə başlamışdır. İlk növbədə nəqliyyatın inkişafı turistlərin zamana qənaət etməsi ilə uzaq məsafələrə səyahətlərini asanlaşdırdı. Daha sonra müxtəlif növ nəqliyyat vasitələrinin sürətli inkişafı, nəqliyyat vasitələrində təhlükəsizlik məsələlərinin son dərəcə təmin olunmasına, nəqliyyat vasitələrində təhlükəsizlik baxımından baş verə biləcək hər hansı bir neqativ halları minimuma endirdi.

Hal-hazırda dünyada turistlər arasında ən çox istifadə edilən nəqliyyat növü hava nəqliyyatıdır. Hava nəqliyyatları digər nəqliyyat növlərinə nisbətən daha təhlükəsiz və sürətlidir. Dünyada hava nəqliyyatı vasitələrinin hərəkətini tənzimləyən beynəlxalq müstəqil təşkilatlar, hökümət və qeyri-hökumət təşkilatları və onların imzaladığı müqavilələr, bəyanatlar və konvensiyalar mövcuddur. Bunlara misal olaraq "IATA" və "ICAO" kimi beynəlxalq hava nəqliyyatlarının hərəkətini tənzimləyən təşkilatların adlarını çəkə bilərik. Azərbaycan Respublikası 1992-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə "Beynəlxalq Mülki Aviasiya Təşkilatı" olan "ICAO"-ya üzv olmuşdur.

Azərbaycan Respublikasının ərazisində hal-hazırda 10 ədəd hava limanı mövcuddur. Bunlardan 6-sı beynəlxalq(Heydər Əliyev adına Beynəlxalq Hava Limanı, Gəncə Beynəlxalq Hava Limanı, Lənkəran Beynəlxalq Hava Limanı, Naxçıvan Beynəlxalq Hava Limanı, Qəbələ Beynəlxalq Hava Limanı və Zaqatala Beynəlxalq Hava Limanı) əhəmiyyətli, 4 hava limanı isə yerli əhəmiyyətlidir ki, bunlarada Ağstafa, Balakən, Xocalı, Yevlax hava limanları aiddir. Lakin Respublikamızın ərazisindəki digər hava limanı olan Xankəndi hava limanında qeyd edə bilərik ki, son dövrdə məlum səbəblərə görə öz fəaliyyətini dayandırmışdır. Məlum olan məsələ bundan ibarətdir ki, illərdir erməni tapdağı altında qalan 20%-dən çox torpaqlarımız Azərbaycan Respublikasının Prezidentinin əmri və rəşadətli ordumuzun sayəsində 2020-ci il sentyabrın 27-də başlanan əks-həmlə əməliyyatları nəticəsində işğaldan azad olundu. Bunun nəticəsində orada yerləşən hava limanları da yenidən dövlətimizin nəzarəti altına keçmişdi.

Ölkəmizdə prioritet sahələrdən olan hava nəqliyyatlarının inkişafı son zamanlar dövlətin diqqət və qayğısındadır. Məhz bu səbəbdən noyabrın 26-da Prezident İlham Əliyev tərəfindən imzalanan Qərara əsasən 2021-ci il yanvarın 14-də "Fizuli Beynəlxalq Hava Limanı"ın əsası qoyuldu. Azərbaycan Dövlət Statistika Komitəsinin 2013-2019-cu illlərə aid hava nəqliyyatları ilə ölkəmizə və ölkəmizdən xaricə səfər edən turistlərin statistikasına nəzər salsaq görərik ki, 2013-cü ildə hava nəqliyyatı vasitələrindən istifadə edən turistlərin sayı 1854,7 təşkil etmişdisə, 2019-cu ildə bu, təqribən iki dəfə artaraq 2215,2 nəfər olmuşdur. Azərbaycan Respublikasının Dövlət Turizm agentliyinin verdiyi statistikaya nəzərən 2019-cu ilin dekabr-yanvar ayları üçün gəlmə sayı 11,3%, getmə sayı isə 13,4% olmuşdur. Azərbaycan Respublikasında beynəlxalq əhəmiyyətli sərnişin daşımalarını həyata keçirən ən böyük dövlət şirkəti olan "Azərbaycan Hava Yolları" Qapalı Səhimdar Cəmiyyətidir(AZAL). Bu Şirkət beynəlxalq hava nəqliyyatı tənzimləmələri olan İCAO, İATA və ECAC kimi təşkilatlara üzvdür. Son dövrlərdə "Boeing" tipli sərnişin təyyarələrinin alınması ilə uzaq məsafələr, məsələn Şimali Amerika, Cənub Şərqi Asiya ölkələri kimi uzaq məsafələrdə yerləşən ölkələrə uçuşlar həyata keçirilməkdədir. "AZAL" MDB birliyinə üzv dövlətlər arasında avialaylerlərin sayında liderlərdən sayılır.

Turist daşımalarında hava nəqliyyatlarının inkişafı ölkəmizə xarici valyuta axınlarının artmasına, ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Turist daşımaları zamanı nəqliyyat vasitələri içərisində ölkəmizə ən çox gəlir gətirən nəqliyyat növü hava nəqliyyatıdır. Bununla yanaşı turizm kompleks sənaye sahəsi olduğu üçün, digər sənaye sahələrinində inkişafına təsir etmiş olur.

İstifadə olunmuş ədəbiyyat:

1. Bahadur Bilalov. Turizm Fəaliyyətinin Tənzimlənməsi. Bakı-2006.
2. Heydərov Ş.Ə. Turizmdə nəqliyyat xidmətlərinin təşkili. Mingəçevir-2011.
3. www.azerbaijans.com// Hava nəqliyyatı.
4. www.stat.gov.az// 2013-2019-cu illər üzrə nəqliyyatın statistikası.
5. www.tourism.gov.az// 2019-cu il yanvar-dekabr aylarının statistikası.

Rüstəmova Günel Mahmud qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: gunel_rustemzade@mail.ru

AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNDƏ BANK SEKTORU-MUĞAN BANK ASC-DƏ İDARƏETMƏ STRUKTURU VƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ BANK SEKTORUNUN YARADILMASI

Bank sistemi – Azərbaycan Respublikasının maliyyə sisteminin əsas institutlarından hesab olunur, həm də özünü təşkil edən, özünü tənzimləyən əsas sistemdir. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə görə, Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Mərkəzi Bankından, eyni zamanda kredit təşkilatlarından ibarətdir.

Azərbaycan müstəqillik baxımından gənc ölkə olmasına baxmayaraq, tez bir zamanda yüksək iqtisadi inkişaf və artım əldə etmişdir. Əldə edilmiş nailiyyətlərdə bank sisteminin rolu xüsusilə qeyd edilməlidir. Çünki, iqtisadi inkişaf səviyyəsinin necə olmasına baxmayaraq hər hansı ölkənin iqtisadiyyatının möhkəmliyində, dinamik və hərtərəfli inkişafında həmin ölkənin bank sisteminin böyük rolu vardır.

Respublikamızda müstəqillik bərpa edildikdən sonra inkişaf edən ölkələrin təcrübəsinə əsaslanaraq Milli bazar yaradıldı. Bu dövrdə bankların strukturları, eyni zamanda kredit münasibətlərində də əsaslı dəyişiklik olundu. Nəticədə bazar prinsiplərinə uyğun olan ikipilləli bank sistemi formalaşdı:

1. AR Mərkəzi Bankı (o dövrdə Milli Bank adlanırdı).
2. Kommersiya Bankları və digər bank olmayan kredit təşkilatları.

Hazırda bütün banklar öz müştərilərinə geniş çeşidli xidmətlər göstərir. Əhaliyə bank məhsulları sms-bank, avtomatlaşdırılmış bank, internet-bank, mobil-bank köşkləri kimi ən müasir texnoloji vasitələr təklif olunur. Azərbaycan Respublikasında 1 dövlət bankı, 25 kommersiya bankı fəaliyyət göstərir:

- Azərbaycan Respublikasının Mərkəzi Bankı;
- Dövlət Bankı olan – Azərbaycan Beynəlxalq Bankı;
- Access Bank;
- Azər Türk Bank;
- Bank Melli Iran;
- Bank of Baku;

– Bank Avrasiya;
– Expressbank;
– Günay Bank;
– Bank BTB;
– Kapital Bank;
– PAŞA Bank;
– Unibank;
– TuranBank;
– Naxçıvan Bank;
– National Bank of Pakistan;
– Rabitəbank;
– Yelo Bank;
– Ziraat Bank Azərbaycan;
– VTB Bank;
– Azərbaycan Sənaye Bank;
– AFB Bank;
– Xalq Bank;
– Premium Bank;
– Yapıkredi Bank Azərbaycan;
– Muğan Bank;
– Bank Respublika.

Adlarını sadaladığımız banklardan biri olan Muğan Bankın idarəetmə strukturuna sayı, iqtisadi məzmunu və fəaliyyətini həyata keçirmək üçün Lisenziyada əks olunan bank tərəfindən yerinə yetirilən əməliyyatların həcmi ilə təyin olunan funksional bölmələr və xidmətlər daxildir.

İqtisadiyyat şöbəsinin əsas fəaliyyət sahələrini əsasən aşağıdakı funksiyalar yerinə yetirir:

– bankın müəssisələrində bütün iqtisadi, tədqiqat, maliyyə və statistik işləri təşkil edir və əlaqələndirir;

– bank qurumlarının maliyyə-təsərrüfat fəaliyyətini təhlil edir, mənfəətə təsir edən səbəbləri müəyyənləşdirir və artırılması üçün təkliflər hazırlayır;

– kredit resurslarını idarə edir və istifadəsinin səmərəliliyini təhlil edir;

– təqdim olunan əməliyyatların və xidmətlərin səmərəliliyini öyrənir və digər xidmətlər ilə birlikdə yeni müştərilərin cəlb edilməsi məqsədi ilə yeni məhsulların tətbiqi və mövcud maliyyə məhsullarının və bank xidmətlərinin təkmilləşdirilməsi üçün təkliflər hazırlayır;

– əhalidən və hüquqi şəxslərdən vəsaitlərin əmanətlərə, qiymətli kağızlara cəlb edilməsinin iqtisadi təhlilini aparır;

– iqtisadiyyatı öyrənir, yerli idarələrin, maliyyə bazarının, bölgədəki rəqiblərin investisiya proqramları daxil olmaqla, bank qurumlarının işinin təşkili səviyyəsini və səmərəliliyini təhlil edir və optimal şəbəkə strukturunun yaradılması üçün təkliflər hazırlayır;

– bankın biznes planlarını və cari inkişaf planlarını hazırlayır;

– bankın hesabat verən qurumlarının əsas fəaliyyətlərinə dair bütün statistik hesabatların yoxlanılmasını, toplanmasını, ümumiləşdirilməsini təmin edir: fiziki və hüquqi şəxslərin depozitləri, qiymətli kağızlar, kreditlər, valyuta, gəlirlər, xərclər, mənfəət, işçi qüvvəsi, şəbəkələr və s.

Kredit Departamenti, hüquqi və fiziki şəxslərlə kredit əməliyyatlarının həyata keçirilməsindən əldə olunan gəlir bölgüsünü almaq üçün yaradılan Muğan bankın struktur bölməsidir.

Sxem 1.

Muğan bankın kredit şöbəsinin əsas vəzifələri.



Bank İdarə heyətinin səlahiyyətlərinə aşağıdakı vəzifələr daxildir:

– regional banklardan alınan hesabatların müzakirəsi;

– risklərin idarə edilməsi sahəsində bir siyasət formalaşdırılması;

– fiziki və hüquqi şəxslər üçün əmanət faizlərinin təsdiqlənməsi;

– işçilərin sayının təsdiqlənməsi, bölmələrin birləşməsi, ləğvi barədə qərar qəbul edilməsi;

– pərakəndə və korporativ blokun fəaliyyətinə mütərəqqi bankçılıq texnologiyalarının tətbiqi;

– bankın və digərlərinin fəaliyyətini tənzimləyən daxili sənədlərin hazırlanması və həyata keçirilməsi.

Bankın prezidenti-Səhmdarların ümumi yığıncağına illik yığıncaqda verilən vədlərdən məsuliyyəti üzərinə götürən özüdür.

Hüquqi şəxslərə xidmət şöbəsi struktur bölməsidir. Şöbənin məqsədi:

– istənilən mülkiyyət formasında olan müəssisə və təşkilatların bank hesablarını açaraq və saxlamaqla hüquqi şəxslərdən vəsait toplamaq;

– hüquqi şəxslər üçün hesablaşma və kassa xidmətləri göstərmək;

– xarici valyuta və qiymətli kağızlarla əməliyyatlar, digər bank əməliyyatları aparmaq;

– banka həvalə edilmiş vəsaitlərin təhlükəsizliyinin təmin edilməsi;

– həyata keçirilmiş əməliyyatlar üzrə məsləhət və məlumat xidmətlərinin göstərilməsi.

Şöbənin vəzifələri bunlardır: hüquqi şəxsləri cəlb etmək və hərtərəfli xidmətlər göstərmək üçün işin təşkili; korporativ müştərilər üçün bazar araşdırmalarının təşkili və aparılması; hüquqi şəxslərə xidmət şöbəsinin bölmələrinin inkişafı üzrə işlərin koordinasiyasıdır.

Bank Avtomatlaşdırma və İnformasiya şöbəsi bankın kompüter sistemlərini təşkil edir, elektron ödəmələri həyata keçirir, bank şöbələrinin ehtiyacları üçün proqram hazırlayır, bankın elektron kompüterlər və ofis avadanlığı ilə perspektiv və cari təchiz edilməsi üçün proqramlar hazırlayır və təşkilat şöbəsi ilə birlikdə bu proqramları həyata keçirir.

Hüquq şöbəsi Muğan bankın hüquq və mənafelərinin qorunması üçün hazırlanmışdır. Bura daxildir:

– bankın maliyyə vəziyyətini gücləndirmək və işinin iqtisadi göstəricilərini yaxşılaşdırmaq üçün qanuni vasitələrdən fəal şəkildə istifadə etmək;

– bankın fəaliyyətinin qanuniliyinin təmin edilməsində bankın idarəetmə orqanlarına kömək göstərmək;

– Rusiya Federasiyası qanunvericiliyinin, AR Mərkəzi Bankının, Muğan bankın Nizamnaməsinin, Şöbə haqqında Əsasnamənin və digər tənzimləyici sənədlərin tətbiq edilməsinin düzgünlüyünə nəzarət etmək Muğan bankın fəaliyyəti ilə əlaqəli aktlardır.

Xarici valyuta və qeyri-ticarət əməliyyatları şöbəsi həm hüquqi şəxslər, həm də əhali üçün valyuta xidmətləri üçün bütün növ xidmətlər təqdim edir. Müştərinin Valyuta şöbəsi təklif edir.

Hazırda xalqımız tarixinə iz buraxan, eyni zamanda şərəfli günlərini yaşayır. Ali Baş Komandan, Ölkə Prezidenti cənab İlham Əliyevin strateji rəhbərliyi və uzaqgörən siyasəti ilə Azərbaycan Ordusu otuz ilə yaxın dövrdə həsrətində olduğumuz, düşmənimiz, qonşumuz tərəfindən işğal edilmiş Qarabağdakı ərazilərimizi düşməndən azad edərək, bizə qələbə sevincini yaşatmışdır. Belə bir sevindirici məqamda ərazilərimizin iqtisadi potensialı haqqında yazmaq və ondan səmərəli istifadə edilməsi şərti ilə sahibkarlığın inkişafını müəyyənləşdirmək vaxtı yetişmişdir. Əlbəttə ki, ərazilərimizin xalqımız üçün tarixi-mədəni əhəmiyyəti iqtisadi dəyərlərindən olduqca üstündür. Fərəh hissi ilə qeyd etməlyəm ki, işğaldan azad olan ərazilərimiz zəngin iqtisadi potensiala malikdir və ərazilərimizin ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər ərazilərimizin bərpasına görə çəkdiyi maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Bu yenidənqurma tədbirlərinin həyata keçirilməsi ilə bank sektorunun da bu ərazilərdə yaradılması, fəaliyyət göstərməsi aktual mövzulardan biridir.

Bank sektorunun inkişaf dinamikası müsbət olaraq qalmaqda davam etməsi bizim bu ərazilərədə bank sektorunun yaratmağımıza və yüksək səviyyədə inkişaf etdirməyimizə imkan yaradır. Məsələn: banklar tərəfindən verilən kreditlərlə məktəblərin, yeni tikililərin, yolların salınması ölkənin infrastrukturunun inkişafına, müxtəlif müəssisələrin yaradılması isə əhalənin məşğulluğunun təmin olunmasına, istehsalın həcminin artmasına və nəticədə dövlət büdcəsinə vergilərin daxil olmasına böyük təsir

göstərir.

Strateji yol xəritələri Azərbaycanda iqtisadiyyatın dayanıqlığını, rəqabət qabiliyyətliliyini, sosial rifahın artırılmasını təmin etmək üçün investisiyalar cəlb etmək, bazarlara çıxış, azad rəqabət və insan kapitalının inkişafı nəticəsində Respublikamızın dünya iqtisadiyyatında mövqeyini gücləndirməsinə kömək olur. Bunların arasında bank-maliyyə sisteminin inkişaf etdirilməsi əsas yerdə durur. Bu sektorun başlıca məqsədi ölkə iqtisadiyyatının inkişaf etməsində aparıcı rolunun təmini ilə bağlıdır. Bu sahədə strukturun yenilənməsi biznes mühitinin yaxşılaşdırılmasına, maliyyə-bank sisteminin sağlamlaşdırılmasına, yeni siyasətin tətbiqinə, eləcə də xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə şərait yaradacaqdır.

Azərbaycanda bəzi bankların birləşdirilməsi, yeni maliyyə qurumlarının yaradılması, konsolidasiya edilməsi, eyni zamanda informasiya-kommunikasiya sahəsində insanların bu sektora çıxışının asanlaşdırılması vacib istiqamətlərdəndir. Strateji yol xəritələrinin qəbulundan sonra Azərbaycan Respublikasında kredit bürolarının yaradılması ilə əlaqədar qanun layihəsi hazırlanıbdır. Eyni anda, sahibkarlıq fəaliyyətinin gücləndirilməsi və inkişafı ilə əlaqədar olaraq elektron hökumətin tətbiqi müsbət təsirini göstərməkdə davam edir.

İstifadə olunmuş ədəbiyyat:

1. Abdullayev Ş. Azərbaycanın bank sistemi və ya bank resurslarının idarə olunması. Bakı- 2001.
2. “Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının RƏYİ”. Bakı -2016, 460 s.
3. Məmmədov Z.F. Pul, kredit və banklar. – Bakı, 2010. - 530 c.
4. Z.F.Məmmədov. Bank fəaliyyətinin əsasları. Bakı-2013.
5. https://www.muganbank.az/az/about/structure/
6. https://www.muganbank.az/az/about/riskmanagement/
7. Azərbaycan Banklar Assosiasoyası.
8. Modern.az

İsmayılova Samirə Mədət qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: samiraismailova0@gmail.com

APPLICATION OF BANKING INNOVATIONS FOR THE RAPID DEVELOPMENT AND SELF-FINANCING OF THE LIBERATED TERRITORIES

The banking system of Azerbaijan has chances to become one of the most advanced in the continent. On the horizon until 2030, the target vision of the banking sector in Azerbaijan is presented as follows:

– **Business**. Digitalization will help reduce banks' expenses by 10-15%; big data

technologies will make it possible to assess the client as accurately as possible when issuing a loan; a significant share of income will come from non-banking services.

– **Clients**. Within ecosystems, consumers will receive, in addition to financial, telecommunications, retail and other services; banking transactions will be carried out almost instantly; customers will only receive personalized offers.

– **The industry as a whole**. Banks as a locomotive for the implementation of innovations and a supplier of personnel for other industries; IT companies will become full-fledged providers of financial services and competitors of banks; large banks will become centers of ecosystems offering a wide range of services; small banks will become niche players.

There are sevral main trends in the development of bank's innovations. Now the banking sector of Azerbaijan is reviving after the devaluation of 2015-2016. At the same time, the emergence of new players - fintech companies, neobanks and non-banking companies - changes the structure of competition, reduces the profitability of traditional banking activities, and therefore forces them to look for new sources of income. The two most promising areas here are new digital banking products and non-banking products created in partnership with third-party firms.

The digital transformation of the banking industry in Azerbaijan has a good base. More and more local residents use remote service channels, while the level of their distribution lags behind the level of Internet penetration, which indicates the potential for growth. Mobile applications of Azerbaijani banks now have one and a half to two times more functions than similar applications of leading European banks. This is partly due to the fact that in Azerbaijan the industry was formed already in the digital era, immediately adopting the best practices. In 2020, Azerbaijan entered the top five CIS countries for the development of digital banking and online products.

Product innovation

The driver of product innovation in the banking industry is big data analysis, machine learning, advanced analytics, artificial intelligence, robo-advising, and blockchain, which allows transactions without intermediaries. On the basis of these technologies, fundamentally new products, services and opportunities are being created, for example, services that previously required the client's personal presence in the bank, and now have moved online.

The main incentive for banks to launch product innovations is the desire to retain customers and more closely meet their needs. One of the ways is to launch fundamentally new products based on digital technologies. For example, this is Pasha Bank's online service or user identification by video call when opening an account. In the future, biometric identification will gain popularity not only for identifying a client, but also, say, for remotely concluding a contract.

More and more banks are offering personalized cashback services with a choice of purchase categories, and some are using predictive analytics to create customized offers. The number of interactions with the customer is reduced, while they become more effective. In addition to personalizing offers, banks need to develop omni-channel service: not just through various channels, but the integration of these channels into a single system.

To launch product innovations, we need to continually generate new ideas.

Keeping track of trends and understanding customer needs are critical factors in generating hot ideas with commercial potential. The speed of bringing new products to the market is also important: the faster the bank launches new high-quality products, the more competitive advantages it gets.

Process innovation

The main benefits of digital transformation for traditional players are in the multiples of cost savings and faster banking operations. As McKinsey's experience shows, end-to-end digitalization of key processes in a traditional bank, be it sales of new products or service in branches, can reduce their cost by 40-60%. And if large players, having the necessary resources and competencies, can carry out a full-scale digital transformation, small banks need to find their own niche.

Large-scale financial investments in digital reforms for small banks are risky: skills may not be enough, and losses from an unsuccessful transformation threaten to bankrupt the company. Therefore, it is important to find a niche segment and develop in it. The lack of funds for digital transformation should not stop small players who would like to digitize the processes in their company: you can focus on the targeted development of key technological competencies or use third-party platforms to outsource certain functions.

Both large and small players can use big data technologies to create models for predicting credit risks. This will allow you to form individual offers to customers and efficiently allocate resources. As an example, we can cite a method for optimizing the coverage of a territory with a network of branches or ATMs based on dynamic modeling and analysis of customer flows.

Business-support model innovation

Speaking of business models, the main directions of transformation are as follows: creating an ecosystem, developing partnerships with other companies, providing banking services under someone else's brand, creating fundamentally new business areas.

The transition from a classic bank format to a financial ecosystem for servicing both private and corporate clients implies increased attention to the consumer and his needs, as well as building partnerships with other companies. The services provided by partners must meet a wide range of day-to-day customer needs, allowing the ecosystem owner to serve them on a one-stop-shop basis. The need to apply and develop new skills is fraught with risks, but in the long term, the owner of the ecosystem gets the right to a share of the partners' income.

An important factor in innovative development is the ability to interact with technology companies in the joint development and implementation of innovative solutions, innovation outsourcing and other forms of cooperation. Aggregators of user information (for example, social networks and telecom operators), which provide access to external customer data, are becoming strategic partners of banks.

Small financial organizations that are unable to afford the modernization of their own IT system can use outsourced services of companies - from cloud storage and data processing services to the use of in-depth analytics and analysis of large amounts of data. Banks with limited digital competencies may focus on providing basic services such as balance sheet management and transactions.

The above is a combination of conveniences and benefits that can be achieved with the introduction of digital innovations in banking. The world practice shows that the application of digitalization allows both business owners and private bank customers to gain many advantages. The speed of technological changes requires more flexibility from banks, and the success of innovations directly depends on the degree of cooperation between the Central Bank and market participants. Adequate regulation of the industry will protect the industry and companies from threats and a stable market environment will contribute to the development of innovations in the liberated territories of Azerbaijan.

Sədrəddinova Aynur Kamran qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: aynur.sedreddinova@mail.ru

KREDİTLƏŞMƏ ƏMƏLİYYATLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycanda mövcud iqtisadi vəziyyət kredit sistemin inkişafını və eləcə də bu istiqamətdə kreditləşmə ilə əlaqədar müxtəlif əməliyyatların tarixi dövr ərzində təkmilləşdirilməsini zəruri etmişdir. Məhz bu səbəbdən Azərbaycanda da bank sisteminin inkişaf etdirilməsi və müxtəlif dövrlərdə təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İstehsal münasibətlərinin davamlı inkişafı kredit sisteminin idarə olunmasına əsaslı təsir göstərir.

Sözsüz ki, iqtisadiyyatın müxtəlif sahələri üzrə kredit qoyuluşlarının artması kommersiya bankları ilə yanaşı, bank olmayan kredit təşkilatlarının da fəaliyyətinin genişlənməsinə səbəb olmuşdur. Bu da öz növbəsində bir sıra bankların böyüməsinə, həmçinin onların regionlar üzrə filiallarının daha da artmasına, eləcə də bank olmayan kredit təşkilatlarının da genişlənməsinə səbəb olmuşdur. Lakin rəqabətə tab gətirməyən, nisbətən zəif kapitallı banklar öz fəaliyyətlərini dayandırmışlar.

Belə ki, kredit sisteminin inkişaf etdirilməsi və kommersiya banklarında kreditləşmə əməliyyatlarının təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür və bu da öz növbəsində kredit əməliyyatlarının daha da artmasına gətirib çıxarmışdır. İqtisadiyyatın dayaq funksiyası rolunu oynayan bank sferasının davamlı formada inkişafı və ən son yeniliklərlə innovativ xidmətlərin təklif edilməsi ölkəmizin neft gəlirlərinin daha çox daxil olması, bu istiqamətdə xarici investisiya qoyuluşlarının artmasına səbəb olur.

Ölkəmizdə kredit əməliyyatları üzrə yaranan fəaliyyətin inkişafı və daha da təkmilləşdirilməsi əsasən bu istiqamətdə aparılan iqtisadi islahatlardan aslı olaraq dəyişir. Belə ki, bu sahədə bir sıra təkmilləşmə işlərinin yerinə yetirilməsi məqsədəuyğun hesab edilir və bunlara aşağıdakıları misal çəkə bilərik:

1. Kommersiya banklarının fəaliyyətinə nəzarətin təşkili və daha da təkmilləşdirilməsi;

2. Mərkəzi Bankın öz səlahiyyətlərini daha da genişləndirməsi və müstəqil formada fəaliyyət göstərən aparıcı bank kimi sərbəstliyini qoruyub saxlaması;

3. Müxtəlif kreditləşmə əməliyyatları üzrə kredit bazarlarının fəaliyyətinin daha

da sürətləndirilməsi və bu istiqamətdə dövlət nəzarət sisteminin formalaşdırılması;

4. Kredit ehtiyatlarından sərbəst istifadə olunması, uçot dərəcələrinin müəyyənləşdirilməsi və pul kredit siyasətinin formalaşdırılması, pulla əmtəə təklifi arasında düzgün nisbətin yaradılması və bu istiqamətdə inflyasiyanın qarşısının alınmasına nail olmaq.

Qeyd etdiyimiz bu istiqamətlər Azərbaycanda kredit sisteminin daha da inkişaf etməsi və kreditləşmə prosesi üzrə yerinə yetirilən əməliyyatların ölkəmizdəki iqtisadi artıma təsir göstərməsində mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə Azərbaycanda bank sisteminin daha da inkişaf etdirilməsi və bu sfera üzrə yerinə yetirilən əməliyyatların təkmilləşdirilməsi istiqamətində müxtəlif tədbirlər görülmüşdür. Bu fəaliyyətin ən mühüm tərkib hissələrindən biri də elektron ödəniş sistemlərinin yaradılmasıdır. Bu istiqamət elektron hesablaşma sisteminin formalaşmasına səbəb olmuşdur və bu da öz növbəsində bankomatların elektron hesablaşma sisteminin köməyi ilə plastik kart əməliyyatlarına və əhaliyə işdə, yaxud da evdə yerindəcə müxtəlif bank təminatlarının yerinə yetirilməsinə gətirib çıxarmışdır. Belə ki, elektron ödəniş sistemlərinin yaradılması və bu istiqamətdə bankların XÖHK və AZİPS sisteminə qoşulması bank fəaliyyəti və bank nəzarətinin avtomatlaşdırılması baxımından nəzarət sisteminin tətbiqi istiqamətində mühüm rola malikdir. Ümumilikdə bank sferası və bu istiqamətdə yerinə yetirilən müxtəlif əməliyyatlar müasir innovasiya sisteminin formalaşmasına və ölkəmizdə gedən bir sıra proseslərinin tərkib hissəsi kimi effektivliyin əldə edilməsində mühüm rol oynayır. Ölkəmizdə Mərkəzi Bank tərəfindən ödəniş sistemlərinin inkişaf etdirilməsi kreditləşmə əməliyyatlarının təkmilləşdirilməsində mühüm rol oynayır, eləcə də beynəlxalq təcrübənin mənimsənilməsi, beynəlxalq maliyyə qurumlarının maliyyə köməyindən istifadə edilməsi və bu istiqamətdə əhəmiyyətli hesab edilən komponentlərin yaradılmasında zəruri hesab edilir.

Kreditləşmə əməliyyatlarının təkmilləşdirilməsinə təsir göstərən amillərdən bəhs edərkən, bankın kredit portfelinin təsir göstərə biləcək elementlərinin təhlil edilməsi çox mühüm əhəmiyyətə malikdir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkəmizdə bazar münasibətlərinin formalaşması ilə iqtisadiyyatın müxtəlif sahələri üzrə inkişafı təmin etməsi məhz kredit sistemində əsaslı dəyişikliklərin yerinə yetirilməsini zəruri etmişdir. Onu da qeyd etməliyəm ki, bu istiqamətdə əmtəə-pul münasibətlərinin inkişafı, özəlləşdirmənin həyata keçirilməsi və eləcə də ölkədə baş verən bir sıra fəaliyyət növlərinin inkişafı öz növbəsində bank olmayan kredit təşkilatlarının və kommersiya bankları ilə yanaşı, bir sıra müəssisələrin də yaradılmasına gətirib çıxarmışdır. Aydındır ki, bu proseslər ölkəmizdə kreditləşmə əməliyyatları və kommersiya bankları tərəfindən yerinə yetirilən müxtəlif əməliyyatların səmərəliliyin yüksəldilməsini və genişləndirilməsini tələb edir. Ölkədə həyata keçirilən iqtisadi və ümumilikdə bütün sahələr üzrə islahatlar iqtisadiyyatın inkişafına, manatın məzənnəsinin sabitliyinin qorunub saxlanılması və kredit sistemində səmərəliliyin yüksəldilməsinə gətirib çıxardı. Bu sfera iqtisadiyyatda önəmli rola malikdir və onu da qeyd edə bilərik ki, burada baş verən hər hansı bir nöqsanlar ümumilikdə iqtisadiyyatın müxtəlif sahələrində öz əksini tapır. Elə bu səbəbdən kommersiya banklarında kredit sferasının və kredit sisteminin xüsusilə də beynəlxalq təcrübəyə əsasən qurulması və bu istiqamətdə fəaliyyətin artırılması önəmli əhəmiyyət

ifadə edir.

Bu sahədə düzgün qərarların qəbul edilməsi ölkəmizin pul-kredit sistemi üzrə səmərəliliyinin yüksəlməsinə səbəb olmuşdur. Belə olan halda bank sistemində sabitliyin əldə olunması kommersiya banklarında deyil, ölkədə fəaliyyət göstərən digər müəssisələr və kredit təşkilatları üzrə maliyyə vəsaitlərindən səmərəli formada istifadə edilməsi, milli iqtisadiyyatın formalaşması və inkişafı ilə nəticələnir.

Buna uyğun olaraq, Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələri üzrə islahatların daha da genişləndirilməsi və müxtəlif bank əməliyyatlarının təkmilləşdirilməsi üzrə kredit əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi baxımından aşağıdakı tədbirlərin icra edilməsi məqsədəmüvafiq hesab edilir və bunlar aşağıdakılardan ibarətdir:

1. Ümumilikdə ölkədə fəaliyyət göstərən kredit təşkilatlarında və eləcə də kommersiya banklarında rəqabət mühitinin və banklar tərəfindən müştərilərə təqdim edilən əməliyyatların rəqabət qabiliyyətliyinin təmin edilməsi;
2. Korporativ quruculuğun tamamlanması və Kommersiya banklarının maliyyə resursları ilə təminatının təşkil edilməsi;
3. Maliyyə fəaliyyətlərinin və komissiya banklarının region filiallarında bank xidmətlərinin genişləndirilməsi və digər regionlarda yaşayan əhalinin bu xidmətlərdən istifadə üçün çıxış imkanlarının inkişafı.

İstifadə olunmuş ədəbiyyat:

1. Bağırov M. Bank isi, Bakı, 2003.
2. Bəsirov R.A. Bank isi, Dərs vəsaiti. Bakı,2007.
3. İbrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.
4. Məmmədov Z.F. Pul , kredit və banklar. Dərslik . Bakı, 2010.
5.R.Əsgərova Pul , kredit və banklar. Bakı, 2007.

Səmədov Rəşad Volodya, magistrant
Bakı Biznes Universiteti
Email:rsamadov@mail.ru

QƏBƏLƏ ŞƏRAB ZAVODUNDA RİSKLƏRİN AŞAĞI SALINMASI YOLLARI VƏ ONLARIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Qəbələ şərab zavodunun cari fəaliyyətinin risk menecmentinin inkişafı məhz şirkətin həyatı və sabitliyi üçün şəraitin yaradılması, gələcək inkişaf imkanlarını formalaşdırmaq üçün müəyyən vəzifələr qoyur. Bir firmanın sabitlik riski, şirkətin böhran ehtimalı kimi cari fəaliyyətlərin ayrı-ayrı funksional sahələrində özəl riskləri toplayan ümumiləşdirici risk kimi qəbul edilə bilər. Müəssisədə risklərin qarşısının alınması sisteminin məqsədləri, vəzifələri, formalaşma mərhələləri əsaslandırılmışdır. Risklər ilk növbədə şirkətin strategiyasını, həyata keçirmə müddətini inkişaf etdirmək və həyata keçirmə prosesinə təsir göstərən xarici amillərin və şirkətin potensialını və bu anki vəziyyətini əks etdirən daxili amillərin təsiri altında əmələ gəlir və idarəetmə səviyyəsində təzahür edir. Risk şirkətin cari fəaliyyətinin xarici və daxili amillərinin

vəziyyətinin uyğunsuzluğuna, ziddiyyətinə əsaslanır. Bu ziddiyyətləri vaxtında müəyyənləşdirmək vacibdir. Müasir bir müəssisədə, bir risk qarşısının alınması sistemi qurulmalı, bunun üçün bir əsas olaraq, risk idarəetməsində qoruyucu bir yanaşma, xarici mühitin mövcud vəziyyətinin təhlili və şirkətdəki mövcud daxili vəziyyətin qiymətləndirilməsi istifadə edilməlidir. Risklərin qarşısının alınması sisteminin formalaşdırılması üç əsas vəzifənin həllini əhatə edir:

– mümkün risklərin, onların əhatə dairəsinin və təzahür sahəsinin müəyyənləşdirilməsi;

– real vaxtda risk təzahürü faktlarını izləmə yollarının seçilməsi;

– risk təzahürünün erkən əlamətləri olduqda adekvat əməliyyat tədbirlərinin müəyyənləşdirilməsi.

Riskin qarşısının alınması sisteminin məqsədi müəssisənin sabit mövqeyini, şirkətin cari fəaliyyətinin təhlili əsasında rəqabət qabiliyyətini təmin etmək, həyatına təsir göstərə biləcək hadisələrin dərhal müəyyənləşdirilməsi və böhran vəziyyətlərinin qarşısının alınmasıdır. Sistemli bir yanaşmadan istifadə edərək riski bir firmanın tica-rət, iqtisadi, sosial, maliyyə, istehsal, investisiya və digər fəaliyyət sahələrində səmərəliliyini və təsirini azalda bilən və böhran vəziyyətlərinə gətirib çıxara biləcək amillər və hadisələrin birləşməsi kimi qəbul etmək olar. Bu vəziyyətdə risk menecmenti, səhv qərarlar, mümkün mənfi nəticələrin təzahürləri riskini azaltmaq üçün risk faktorlarının təzahürünə operativ reaksiya üçün tədbirlərin hazırlanması və həyata keçirilməsidir;

Risk qarşısının alınması sisteminin əsas mərhələləri kimi aşağıdakıları ayırmaq olar:

– risk faktorlarının müəyyənləşdirilməsi;

– amillərin təsir səviyyəsinə görə təsnifatı və qruplaşdırılması, ən əhəmiyyətlilərinin müəyyənləşdirilməsi;

– müəyyən bir amilin əhəmiyyətinin qiymətləndirilməsi, aralarındakı əlaqənin təyin edilməsi;

– risk faktorları göstəriciləri sisteminin hazırlanması (göstəricilər sistemi);

– dəyişikliklərin monitorinqi;

– risk idarəetmə metodlarının əsaslandırılması;

– risk idarəetmə proqramının hazırlanması;

– proqramın həyata keçirilməsinin nəticələrinin təhlili və risklərin idarə edilməsi prosesinin təkmilləşdirilməsi [3, s. 50].

Risk faktorlarının müəyyənləşdirilməsi, təsnifatı və qruplaşdırılması, bütün risklərin qarşısının alınması sisteminin əsasını təşkil edən keyfiyyətli bir risk təhlili hesab edilə bilər. Belə bir analiz mövcud iş vəziyyəti ilə əlaqəli olaraq aparılır, risklərin səbəblərinin müəyyənləşdirilməsini, inkişafları üçün mümkün variantların proqnozlaşdırılmasını əhatə edir. Risklərin müəyyənləşdirilməsini Qəbələ şərab zavodunun fəaliyyətinə mənfi təsir göstərə biləcək amillərin müəyyənləşdirilməsi və təhlili, bu kimi amillərin həyata keçirilməsini və təzahürünü qiymətləndirmə prosesi kimi qəbul etməyi təklif edirik. Risk faktorlarının müəyyənləşdirilməsi və təsnifləşdirilməsi risklərin idarə edilməsinin vacib bir mərhələsidir, çünki bu mərhələnin nəticələrinə əsasən risklərin idarə olunması əsas götürülür.

Risklər, ilk növbədə şirkətin strategiyasını, həyata keçirmə müddətini inkişaf etdirmək və həyata keçirmə prosesinə təsir göstərən xarici amillərin və şirkətin poten-

sialını, və bu anki vəziyyətini əks etdirən daxili amillərin təsiri altında əmələ gəlir və idarəetmə səviyyəsində təzahür edir. Risk şirkətin cari fəaliyyətinin xarici və daxili amillərinin vəziyyətinin uyğunsuzluğuna, ziddiyyətinə əsaslanır. Bu ziddiyyətləri vaxtında müəyyənləşdirmək vacibdir. Müasir bir müəssisədə bir risk qarşısının alınması sistemi qurulmalı, bunun üçün bir əsas olaraq, risk idarəetməsində qoruyucu bir yanaşma, xarici mühitin mövcud vəziyyətinin təhlili və şirkətdəki mövcud daxili vəziyyətin qiymətləndirilməsi istifadə edilməlidir. Risk qarşısının alınması sisteminin formalaşdırılması üç əsas vəzifənin həllini əhatə edir:

– mümkün risklərin, onların əhatə dairəsinin və təzahür sahəsinin müəyyənləşdirilməsi;

– real vaxtda risk təzahürü faktlarını izləmə yollarının seçilməsi;

– risk təzahürünün erkən əlamətləri olduqda adekvat əməliyyat tədbirlərinin müəyyənləşdirilməsi.

Riskin qarşısının alınması sisteminin məqsədi müəssisənin sabit mövqeyini, şirkətin cari fəaliyyətinin təhlili əsasında rəqabət qabiliyyətini təmin etmək, həyatına təsir göstərə biləcək hadisələrin dərhal müəyyənləşdirilməsi və böhran vəziyyətlərinin qarşısının alınmasıdır. Sistemli bir yanaşmadan istifadə edərək riski bir firmanın ticarət, iqtisadi, sosial, maliyyə, istehsal, investisiya və digər fəaliyyət sahələrində səmərəliliyini və təsirini azalda bilən və böhran vəziyyətlərinə gətirib çıxara biləcək amillər və hadisələrin birləşməsi kimi qəbul etmək olar. Bu vəziyyətdə risk menecmenti səhv qərarlar, mümkün mənfi nəticələrin təzahürləri riskini azaltmaq üçün risk faktorlarının təzahürünə operativ reaksiya üçün tədbirlərin hazırlanması və həyata keçirilməsidir.

Risk qarşısının alınması sisteminin əsas mərhələləri kimi aşağıdakıları ayırmaq olar:

– risk faktorlarının müəyyənləşdirilməsi;

– amillərin təsir səviyyəsinə görə təsnifatı və qruplaşdırılması, ən əhəmiyyətlilərinin müəyyənləşdirilməsi;

– müəyyən bir amilin əhəmiyyətinin qiymətləndirilməsi, aralarındakı əlaqənin təyin edilməsi;

– risk faktorları göstəriciləri sisteminin hazırlanması (göstəricilər sistemi);

– dəyişikliklərin monitorinqi;

– risk idarəetmə metodlarının əsaslandırılması;

– risk idarəetmə proqramının hazırlanması;

– proqramın həyata keçirilməsinin nəticələrinin təhlili və risklərin idarə edilməsi prosesinin təkmilləşdirilməsi. Hal-hazırda riskləri aşkar etdikdən sonra idarə etmək (böhran idarəçiliyi deyilən) bir firmaya sabitlik və dayanıqlıq təmin etmir. Davam edən dəyişikliklərə sürətli reaksiya göstərilməklə proaktiv bir yanaşma istifadə edərək riskləri aktiv şəkildə idarə etmək lazımdır. Davamlı işləyən və bütün fəaliyyət sahələrini əhatə edən bir riskin qarşısının alınması sistemi yaratmaq üçün şirkətin bütün struktur bölmələrini birləşdirmək, ümumi prinsipləri, idarəetmə mədəniyyətini dəyişdirmək lazımdır .

İstifadə olunmuş ədəbiyyat:

1. Аньшин В.М. Инвестиционный анализ – М.: Дело, 2000. – 280с.
2. Бланк И.А. Инновационный менеджмент. К.: Ника-Центр, 2003. – 592с.
3. Броило В. Система оценки рисков инвестиционно-инновационной деятельности организаций // Проблемы теории и практики управления – 2008. - №4. – с.61 – 71.
4. Крюкова О.Г. Предупреждение рисков – условие стабильного развития фирмы. *Стратегические решения и риск-менеджмент*. 2011;(3):74-78

Tahirzadə Rəmzi, magistrant
Bakı Biznes Universiteti

BANK VƏ PROBLEMLİ KREDİTLƏRİN İDARƏ EDİLMƏSİ VƏ TƏKMİNLƏŞDİRİLMƏSİ

Bir çox dövlətlərdə banklar milli hökumət və Mərkəzi bank tərəfindən tənzimlənir. Banklar iqtisadiyyatımız üçün çox vacib faktordur. Bankların əsas vəzifəsi hesab sahiblərinin pullarını ev, avtomobil, müəssisə almaq və s. üçün istifadə üçün başqalarına borc verməkdən ibarətdir.

Pulunuzu banka qoyduğunuzda, pulunuz hər kəsin pulu ilə birlikdə böyük bir pula girir və hesabınıza depozit məbləği daxil edilir. Qəbz yazarkən və ya geri çəkildikdə, bu məbləğ hesabınızdakı qalıqdan çıxılır. Balansınızda qazandığınız faizlər də hesabınıza əlavə olunur.

Banklar kredit verməklə iqtisadiyyatda pul yaradır. Bankların borc verə biləcəyi pul miqdarına birbaşa Mərkəzi Bankın təyin etdiyi ehtiyat tələbi təsir edir. Ehtiyat şərtləri hazırda bir bankın ümumi əmanətlərinin yüzdə 3 ilə yüzdə 10 arasındadır. Bu məbləğ ya nağd, həm də Mərkəzi Bankın ehtiyat hesabında saxlanıla bilər. Bunun iqtisadiyyata necə təsir etdiyini görmək üçün bu şəkildə düşünmək olar. Bir bank yüzdə 10 ehtiyat borc götürərək 100 manat depozit aldıqda, bank 90 manat borc verə bilər. Bu 90 manat, mal və ya xidmət alaraq iqtisadiyyata qayıdır və ümumiyyətlə başqa bir banka qoyulur. Bu bank daha sonra bu 90 manatlıq depozitin 81 manatını borc verə bilər və bu 81 manat mal və ya xidmət almaq üçün iqtisadiyyata daxil olur və nəticədə onun faizini verməyə davam edən başqa bir banka yatırılır.

Bankirlər sahibkar olduqlarından onların əsas məqsədləri maksimum gəlir əldə etməkdən ibarətdir. Bu isə onları bəzən ictimai maraqlara zidd hərəkət etməyə sövq edir. Odur ki, burada neqativ nəticələrin aradan qaldırılması üçün bank sisteminin fəaliyyəti dəqiq şəkildə tənzimlənməli və ona ciddi nəzarət olunmalıdır.

Banklarda hazrda əsas gəlir mənbəyi kreditdir və gəlir olduğu kimi risklər də mövcuddur. İstər-istəməz, əksər bankların borc vermə proqramını təmin etməsinə baxmayaraq, bir bankın kitablarındakı bəzi kreditlər problemli kreditlərə çevriləcəkdir.

Bank likvidlik böhranı ilə üzləşir, çünki planlaşdırılmış pul axınları təyin olunduğu kimi gəlmir və bu əmanətçinin düşüncəsində şübhə yarada bilər. Beləliklə, prob-

lemli kreditləri ən erkən müəyyənləşdirmək və lazımi tədbirləri görmək vacibdir. Problemli kreditlər, borcalanların təkrar xatırlatmasına baxmayaraq tələb olunduğu kimi geri qaytarmadığı və bu cür uğursuzluq üçün məqbul səbəbləri göstərə bilmədikləri kreditlərə aiddir.

Borcalanın borc ödəyə bilməməsi üçün uyğun bir səbəbi olduğu təqdirdə kreditin problemli kredit adlandırılıb-edilməməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Borcalanın həm borcu ödəmək qabiliyyətinə və həm də istəyinə sahib olduğu və borcalanın bir və ya daha çox vəd etdiyi ödənişi qaçırdığına baxmayaraq, borc alanın borc ödəmək qabiliyyəti və istəyi olduğu təqdirdə borcu çətin vəziyyətdə adlandırmaq olmaz. Bununla birlikdə, yaxın gələcəkdə borc səbəbinin aradan qaldırılması ehtimalı yoxdursa, borc problemli və ya problemli kredit adlandırılacaqdır. Borcalan həm borcunu ödəmək qabiliyyətinə, həm də həvəsinə sahibdirsə, buna yaxşı kredit deyilir. Ümumiyyətlə, bu, borcalanın bir və ya daha çox vəd edilmiş ödənişi qaçırdığı və ya borc verdiyi girovun dəyərində əhəmiyyətli dərəcədə azaldığı anlamına gəlir. Problemli kreditlər kredit müddətini uzadır və bank bir çox potensial müştəriyə kredit vermək imkanlarını əldən verir. Problemli kreditlər ciddi nəzarət tələb edir və bəzi hallarda qanuni fəaliyyət tələb olunur.

Risklər ən sonda problemli və ya gecikmədə olan kredit yaradır. Problemli kreditlər bank mailiyyə itkisinə səbəb olur ki, bank sonda iflasa məruz qalır. Bunun qarşısını almaq üçün banklar öz prosedurlarında müəyyən yeniliklər və riskləri minimuma salmaq üçün müəyyən tədbirlər görürlər. Bu tədbirlər bankların gəlirinin orta hesabla 20-25% aşağı düşməsinə gətirib çəxarır. Son 5 il ərzində kredit verilişi və bankların kredit portfeli 30% və daha çox geriləmişdir, bunun əsas səbəbi 2015-ci ildə baş vermiş devalvasiya və işsizlik hallarının artması ilə əlaqədardır.

Problemli kreditlərin xüsusiyyətləri onun müddəti və məbləğindən aslıdır. Bir çox kreditorlar kreditin qaytarılmasında məbləğin üzərində duraraq hərəkətə keçir. Biznes və istehlak kreditlərin fərqli üslublarda problemi həll olunur. Biznes kreditləri adından göründüyü kimi, hər hansısa biznes fəaliyyəti üçün nəzərdə tutulur, nəticədə verilən kreditdə biznesin hansı formada inkişaf etməsindən aparılan araşdırmanın nəticəsində məbləğ təyin olunur. Son dövrlərdə kredit anlayışı sığortasız mümkün deyil, bu məbləğin stabil olaraq 0.5% -1% miqdarında təşkil edir. Bu da öz növbəsində gələcəkdə yarana biləcək müxtəlif risklərin qarşısını alamağa kömək edir. Problemli kredit nisbəti, bank sənayesində problemli kreditlərin faizini sağlam kreditlərin nisbətilə müqayisə edən nisbətdir. Bank və kredit bazarlarında problemli kredit iki şeydən biridir: ən azı 90 gün keçmiş ticarət krediti və ya ən azı 180 gün keçmiş istehlak kreditir. Bir bankın 500 krediti varsa və bunlardan 15-i problemli kreditdirsə - gecikmiş ticarət kreditlərinin (ödəmə tarixindən 90 gün keçmiş) və ya gecikmiş istehlak kreditləri (vaxtından 180 gün keçmiş) - bu bank üçün problemli kredit nisbəti 1.5:50 olardı. Problemli bir kreditə həm də yerinə yetirilməyən bir aktiv deyilir. Problemli kredit nisbəti, nəticədə bank və kredit sənayesinin və bütövlükdə iqtisadiyyatın sağlamlığının bir ölçüsüdür. Daha yüksək nisbət daha çox problemli kredit deməkdir və əksinə. Problemli kreditlər borc verənlərin sonrakı kreditlər üçün sahib olduqları kapital miqdarını azaldır. Problemli kreditlərin balanslarında qalması, borc verənlərin nağd pul axınını azalda bilər, büdcələri pozur və potensial qazancları azaldır. Bu kimi zərərlərin ödənilməsi, sonrakı kreditlər üçün mövcud olan borc verənlərin azalmasına səbəb ola bilər. Borc verənlər zərərlərini müxtəlif yollarla ödəməyə çalışacaqlar. Bir

şirkət borcuna xidmət göstərməkdə çətinlik çəkirsə, bu borc verən pul vəsaitlərinin hərəkəti üçün kreditini yenidən qura bilər və krediti problemli bir kredit kimi təsnif etmək məcburiyyətində qalmaz.

Beynəlxalq tənzimləmə orqanı (Basel Komitəsi) tərəfindən təyin edilmiş Kapital adekvatlığı normaları banklarda kredit riskinin idarə edilməsini əhatə edir. Bundan əlavə, bank borcalan (xalqdan depozit götürür) və borc verən (kredit verir) kimi ikili rol oynadığından, risklərin idarə olunması üçün lazımi kapitala sahib olmaları lazımdır. İqtisadi inkişafda bank sektorunun əhəmiyyətini nəzərə alaraq və bankların borc vermə qabiliyyətində qeyri-maliyyə borcunun, bank böhranı ilə əlaqəli təsiri və hətta bankların uğursuzluğu ilə əlaqədar olaraq da menecerin uğursuzluğu, tənzimləmə çatışmazlığı və problemli kreditlərin səbəblərini izah etmək üçün makroiqtisadi məsələlər ətrafında bir sıra nəzəriyyələr irəli sürülmüşdür.

İstifadə olunmuş ədəbiyyat:

1. Тхакушинок Э.К. Организация системы управления инвестиционными рисками в экономике региона. Ростов, ЮФУ.

2. Царев В.В. Оценка экономической эффективности инвестиций. -Спб. Литер.

3. Экономическая и национальная безопасность: Учебник / Под ред. Е.А.Олейникова - М.: Изд-во, «Экзамен», Dahlman C. and Nelson R.R. (1995). Social Absorption.

4. K.A.Şahbazov, Məmmədov M.A. Menecment. Bakı , Təhsil nəşriyyatı.

5. Əliyev İ.İ., Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində, Bakı, Azərbaycan.

Ələsgərli Tural Rəsul oğlu, magistrant,
Qərbi Kaspi Universiteti
Email:turaleleskerli3437@mail.ru

BEYNƏLXALQ TİCARƏTİN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ FAKTORİNGİN ROLU

XXI əsrdə bir tərəfdən beynəlxalq sistem yeni keyfiyyətlər qazanmış,digər tərəfdən isə ölkələrarası ticarət fərqlixarakter almışdır. 1980-ci illərdə bank və kredit münasibətlərində baş verən hadisələr bu prosesi sürətləndirdi və pul məhdudiyyətlərini aradan qaldırılması sistemin inkişafında mühüm əhəmiyyət kəsb etdi. Beynəlxalq ticarətin inkişaf etməsi ilə birlikdə,xarici ticarətin maliyyələşdirilməsi alətləri də inkişaf etməyə başladı. Dünyada maliyyələşmə tələb edən sahələrdə resurs imkanlarından maksimum dərəcədə yararlanmağa və buna sistemin icazə verdiyi dərəcədə nail ola bilən şirkət və korporativ strukturlar meydana gəlmişdir. Bu zaman beynəlxalq və ya yerli təşkilatlar tərəfindən nəzarət edilən faktoring əməliyyatlarının rolu mühüm ölçüdə artmağa başladı.

Dünyada bankçılıqdan sonra ən məşhur maliyyə idarə forması olan faktorinq, istər iqtisadi inkişaf mərhələsindəki bütün irili-xırdalı müəssisələr, istərsə də şirkətlər

və sahibkarlar üçün uğurlu maliyyə vasitəsidir. Faktorinqin mahiyyəti bundan ibarətdir ki, faktor firma öz müştərisindən borcları almaq hüququnu alır, öz müştərilərinin borclarını hissə-hissə ödəyir. Daha doğrusu, borcların 70-90%-ə qədərini ödəmə müddəti çatana kimi ödəyir. Borcun qalan hissəsini isə müştəriyə onun borclusunun bütün məbləği qaytardıqdan sonra müəyyən edilmiş faizlər çıxılmaq şərtilə qaytarır [1, səh.95]. Nəticədə faktor-firmanın müştərisi borcları tez qaytarmaq imkanı əldə edir və buna görə də faktor firmaya faizlər ödəyir. Faktorinq əməliyyatlarının icra olunduğu şəraitdə müştəri öz borclusundan borcunu alma hüququnu faktor-firmaya verir. Bu əməliyyatların əsasını məhz elə bu amil təşkil edir. Əhatə dairəsinə görə faktoringin 2 növü vardır:

1) Ölkədaxili faktoring;

2) Beynəlxalq factoring.

Ölkədaxili faktoring əməliyyatlarında 3 tərəf iştirak edir: satıcı (borc verən) firma, alıcı (borc alan) firma,faktor şirkəti. Beynəlxalq faktoring əməliyyatlarında isə 4 tərəf iştirak edir: borc verən firma,borcları üzərinə götürən faktoring şirkəti, borc alan firma, idxalatçı tərəfin və ya borc alan firmanın öz ölkəsində yerləşən müxbir bank və qurumu [1, səh107].

Beynəlxalq faktoring-alıcı firma,satıcı firma və faktoring şirkəti arasındakı faktoring əməliyyatının ayrı-ayrı ölkələrdə fəaliyyət göstərməsi halında gerçəkləşən faktoringdir. Beynəlxalq faktorinq əməliyyatları ölkədaxili faktorinq əməliyyatları ilə eynidir. Sadəcə beynəlxalq faktorinq əməliyyatlarında ixracatçı, idxalçı, daxili faktorinq şirkəti və müxbir faktorinq şirkəti də daxil olmaqla dörd tərəf vardır. Faktoring əməliyyatlarında bu dörd tərəfin ortaq hərəkət etməsi ilə birlikdə tələb olunan iş prosesi işləməyə başlayır. Beynəlxalq faktorinq əməliyyatlarında proses aşağıdakı kimi irəliləyir: [3, səh532].

- ixracatçı öz ölkəsində faktorinq şirkəti ilə müqavilə bağlayır;
- idxalatçı tərəfindən ixracatçıya sifarişlər verilir;
- ixracatçı xaricdən gələn mal müraciətlərini öz ölkəsindəki faktorinq şirkətinə bildirir və idxalçı haqqında məlumat istəyir;
- ölkədəki faktoring şirkəti idxalçı haqqında olan məlumatları müxbir faktoring şirkətinə göndərir və limit təyin etməsini istəyir;
- müxbir faktorinq şirkəti idxalatçı ilə bağlı lazımi araşdırmalar aparır və idxalatçının kreditə olan yüksək həddini təsdiq edir [3, səh536].
- faktorinq şirkəti ixracatçını öz xidmət və xərcləri barədə məlumatlandırır və limit icazəsi verir;
- ixracatçı malları idxalçıya göndərir;
- borclar faktoring şirkətinə ötürülür;
- ixracatçının nəğd pula ehtiyacı yaranarsa faktoring şirkətindən avans ala bilmə ixtiyarına sahib olur;
- fakturaların vaxtı çatdıqca ödənişlər idxalçı tərəfindən müxbir faktoring şirkətinə ödənilir;
- müxbir faktoring şirkəti öz komission faizini idaxlçıdan aldığı ödənişlərdən çıxaraq ger qalan məbləği ölkədəki faktorinq şirkətinə göndərir;
- ixracatçının ölkəsindəki faktoring şirkəti öz faizini aldıqdan sonra geri qala məbləği ixracatçıya ödəyəcəkdir [3, səh 541].

Faktorinqin üstünlüklərini satıcılar, müştərilər, faktorinq şirkətləri və ixracatçılar baxımından araşdırmaq olar.

1. Satıcı firma üçün avantajlar bunlardır:

- satıcının borclarını toplaya bilməmək riskini faktorinq şirkətinə ötürməklə daxili və beynəlxalq bazarlarını genişləndirir;

- satıcı öz alıcılarına uzunmüddətli ödəmə verə biləcəyi üçün rəqabət qabiliyyətliliyini artırmaq imkanına malikdir;

- satıcı firmanın alacaqları,stokları və ticarət borcları azaldığından həm kapitalı həmdə likvidliyi artar;

- açıq hesab səbəbiylə satışlar daha asan və güvənli olur.

2. Müştərilər üçün avantajları:

- müştərilər faktorinq şirkətinin məlumat potensialından yararlanırlar;

- müştərilər özlərini zərərli satışlardan qorumaq imkanına sahib olurlar [6, səh.78];

3. Faktoring şirkəti üçün avantajları:

- faktorinq şirkətləri faktorinq üzrə ixtisaslaşır və rəqabət üstünlüyü qazanırlar;

- faktoring şirkətlərinin verdiyi xidmətlər bir çox firmaların özləri ilə iş biliyi etmələrinə səbəb olur və faktoring şirkətlərinin mənfəəti artır;

- faktoring şirkəti müştəriləri ilə uzunmüddətli əlaqələr içində olur. Faktoring şirkətinin müştərilərdən daha az rəsmiyyət istəməsi və daha uyğun şərtlər təklif etməsi faktoring şirkətlərinə üstünlük verilməsinə səbəb olur.

4. İxracatçılar üçün avantajları.

- müştərilərin xarici dil problemi müştərinin müvafiq müxbir faktorinq şirkəti ilə əlaqə qurması nəticəsində həll olunur;

- müxbir faktorinq şirkəti idxalatçının kredit üçün uyğunluğunu daim nəzarətdə saxlayır;

- fakturaların xarici valyuta ilə ödənməsi ixracatçını valyuta riskindən azad edir;

- ixracatçilar faktorinq şirkəti ilə əlaqəli olduqları halda, daxili faktorinqdə satıcı müəssisələrə verilən bütün avantajlar ixracatçılara da şamil edilir [6, səh81];

Faktoringin avantajlarının dezavantajları da mövcuddur. Bunlar açağıdakılardır:

- müştəri özünə təklif edilən xidmətlər qarşılığında faktoring şirkətinə əlavə ödəniş etməlidir. Əlavə olaraq əgər hər bir müştəriyə edilən satışların dəyəri kiçik lakin fakturaların sayı çoxdursa faktura şirkətinə edilən ödəniş dahada artacaqdır;

- faktoring bizneslər üçün təhlükəli maliyyə aləti olaraq düşünülür. Çünki şirkət faktoringə girdiyi zaman likvid olan alacaqlarından imtina edir və bu da şirkətin likvidlik əmsalının aşağı düşməsinə səbəb olur;

- müvafiq reportyor faktoring şirkətlərinin tapılmaması.Uyğun olmayan reportyor faktoring şirkəti kredit limitlərinin təyin edilməsində, alacaqların təmin edilməsində və onlara nəzarət edilməsində effektiv fəaliyyət göstərə bilmir [6, səh 83].

Beynəlxalq ticarət bazarlarındakı inkişaf qısa bir zamanda daxili və xarici satışların maliyyələşdirilməsini təmin edən faktoring şirkətlərinin özlərini yenidən təşkil etmələrinə (işçi saylarının dəyişdirilməsinə, şirkət strategiyasının yenidən qurulmasına və s.) səbəb olmuşdur.İstər daxili istər xarici ticarət zamanı faktoring şirkətləri ilə

birlikdə çalışdıqda mənfi görünən bir vəziyyət dəqiq qiymətləndirmə ilə müsbət və ya avantajlı bir vəziyyətə çevrilə bilər.Eyni zamanda çox avantajlı bir vəziyyətin zamanla dezavantaja çevrilməsi də ola bilər.

Hər növdə mal və xidmət satışlarından qaynaqlanan qısamüddətli borcların faktoring şirkətlərinə ötürülməsi prosesi günümüzdə geniş yayılmaqdadır. Borclara nəzarətin edilməsi, geri alınması, bazar araştırması, maliyyə resursları ilə təmin etmə, kredit analizlərinin edilməsi, ticari riskləri öz üzərinə götürməsi, mühasibatlıq qeydlərinin aparılması xidmətlərini özündə cəmləşdirən faktoring şirkətləri firmaların qısamüddətli kapital ehtiyaclarını qarşılamaqdadır. Günümüzdə faktoring şirkətləri dünyanın ən ucqar bölgələrinə asanlıqla çıxış əldə edir və mənəvi anlayışlardan tutmuş sosial qaydalara qədər hər şeydə inqilabi dəyişikliklər edə bilmək imkanına sahibdir. Satıcının ölkə xaricində olan alıcıları akkreditiv açmaqdan və akkreditif açmaq üçün tələb olunan xərclərdən azad olur. Eyni zamanda alıcılar ödənişləri öz ölkəsindəki reportyor faktoring şirkətinə edərək zaman qazanmış olurlar. Beynəlxalq ticarət zamanı faktoringdən istifadə etdikdə ölkə xaricindəki idxalatçının alım gücü artır və ixracatçının bazar payının genişlənməsinə səbəb olur.

İstifadə olunmuş ədəbiyyat:

1. Alfaro L., Chanda A., & Kalemli-Ozcan, S. (2004). FDI and economic growth: the role of local financial markets. Journal of International Economics, 64, 89–112. https://doi.org/10.1016/S0022-1996(03)00081-3
2. Arena Faktoring, http//www.arenafaktoring.com.tr.
3. Bengoa M., & Sanchez-robles, B. (2003). Foreign direct investment, economic freedom and growth: new evidence from Latin America. European Journal of Political Economy, 19, 529–545. https://doi.org/10.1016/S0176-2680(03)00011-9
4. Chang S.C. (2010). Estimating Relationships Among FDI Inflow, Domestic Capital, and Economic Growth Using the Threshold Error Correction Approach. Emerging Markets Finance and Trade, 46(1), 6–15. https://doi.org/10.2753/REE1540-496X460101
5. De Matteis A. (2004). International trade and economic growth in a global environment. Journal of International Development, 16(4), 575–588. https://doi.org/10.1002/jid.1094
6. Kodalak O., Topal B., & Dizkırıcı A.S. (2015). Dış Ticarette Akreditifli Ödemeler: UCP 600'e Göre Bankalarda Güncel Örnek Uygulamalar. Journal of Accounting, Finance and Auditing Studies, 1 (3), 68-90.
7. Göleç N. (2015). Uluslararası Finansta İnovasyon Örneği Olarak Banka Ödeme Yükümlülüğü (BPO). Journal of Accounting. Finance and Auditing Studies.
8. Yennu A.T. (2018). International Trade and Economic Growth in Ghana - Benefits, Constraints and Impacts. International Journal of Economics & Management Sciences, 07(04). https://doi.org/10.4172/2162-6359.1000541

Heydərov Xəyal Şahmurad oğlu, magistrant,
Bakı Biznes Universiteti

PUL AXINLARININ HƏRƏKƏTİ HAQQINDA HESABATLARA MALİYYƏ NƏZARƏTİNİN TƏŞKİLİ

Müasir bazar iqtisadiyyatında pul vəsaitləri ən defisit resurslardan biridir, müəssisə və təşkilatların maliyyə fəaliyyətinin uğurları onlardan daha səmərəli istifadədən çox asılıdır. Pul vəsaitlərinin hərəkətini xarakterizə edən göstəricilərin köməyilə şirkət əlavə gəlirin alınması və özünümaliyyələşdirmənin təmin edilməsi imkanlarını aşkara çıxara bilər. Hətta qlobal maliyyə böhranı şəraitində də istənilən şirkət özünun inkişafı ilə əlaqədar strategiya və taktikasının seçimində müstəqildir, özünümaliyyələşdirməni əsas hədəf kimi qarşına məqsəd qoyur. Təsərrüfat subyeklərində mütəmadi şəkildə pul axinlarının yerdəyişməsi baş verir. Səmərəli investisiya qoyuluşu ilə əlaqəli olan texnoloji təkmilləşdirmələr, inflyasiya, faiz dərəcəsinin dəyişməsi, vergi orqanlarında tətbiq olunan yeniliklər şirkətdə pul vəsaitlərinin dövriyyəsinə bilabasitə öz təsirini göstərir.

Pul axınları şirkətin inkişafının dəyər göstəricilərinə aiddir, belə ki, onlar rəqabətə davamlı məhsul istehsalı, innovativ texnologiyaların tətbiqi və yeni bazarlara çıxış üçün şirkətin sərəncamında olan pul vəsaitlərinin həcmini göstərirlər. Beləliklə, pul axınları şirkətin sərbəst investisiyalaşdırmaq, ehtiyat fondları yaratmaq və mənfəətdən investisiya şəklində istifadə etmək qabiliyyətini əks etdirir. Pul vəsaitlərinin fasiləsiz hərəkətinin daima həyata keçirilməsi şirkətin bazar mövqeyinin möhkəmləndirilməsinin vacib şərtidir. Bununla əlaqədar şirkətin pul axınlarının idarə edilməsi metodlarının təzələnməsi və təşkilati-funksional mexanizmlərinin təkmilləşdirilməsi tələb olunur.

Pul vəsaitlərinin vəziyyəti haqqında hesabat geniş informasiya əhəmiyyətinə malikdir. Belə ki, bu məlumatlardan investorlar və maliyyə menecerləri lazımınca faydalanırlar, bıznesmenlər isə əlavə aktivlərin yaradırılması, borcların vaxtında ödənilməsi və yeni gəlirli kapital qoyuluşu baglı olan məsələlərin həllində faydalı olur. Müəssisələrdə pul vəsaitləri əsas fondlara yiyələnməkdə, əmtəə ehtiyatlarının formalaşması, debitor borclarının yaradırılması və başqa təyinatlar üzrə istifadə edilə bilər. Pul vəsaitlərinin dövriyyəsi nəticəsində istehsal-kommersiya tsikli cərəyan edir və sonda onunla da yekunlaşır. Şirkətin bütün maliyyə fəaliyyətinin tsikli nəticəsində pul ehtiyatları müxtəlif aktivlərə, məhsulun satışı dövrundə debitor borclarına çevrilir.

Beləliklə, pul vəsaitlərinin səmərəli idarə edilməsi dedikdə elə maliyyə aləti başa düşülür ki, onun sayəsində firmanın maliyyə-təsərrüfat fəaliyyətinin ali son nəicələrinə əldə etmək, yəni daha çox gəlirə nail olmaq mümkündür. Bütün bu sadaladığlarımız səviyyəsində pul vəsaitlərinin idarə edilməsi mexanizmini bilavasitə təkmilləşdirilməsini labüd edir.

Pul axınlarının proqnozlaşdırılması nəticəsində vəsait azlığının və yaxud əksinə artıqlığının cərəyan etməmişdən qabaq duyub və müəyyən vaxt kəsiyində sirkətin fəaliyyətinə uygun adekvat qabaqlayıcı tədbirlər görməyə imkan yaradır. Pul axınlarının proqnozlaşdırılması büdcəsinə düz gəlməlidir. Pul vəsaitləri büdcəsi özlüyündə istehsal, alqı-satqı, satış sahəsində fəaliyyət proqramının dəyər göstəricilərini tam əks etdir-

məlidir. Fəaliyyət proqramına gəldikdə isə müxtəlif tədbirlərin vaxtaşırı və funk-sional koordinasiyasının sintezini nəzərə almalıdır.

İqtisadiyyatın transformasiyası şəraitində pul tədavülünün iqtisadiyyatın bütün strukturları ilə inteqrasiya qaydalı əlaqələrinin dövlətin fiskal siyasəti üçün prinsipial əhəmiyyətı vardır. Lakin belə nəticə çıxarmaq münkündür ki, yerli-yersiz pul qıtlıgı yaratmaq, pul emissiyasında məhdudlaşdırıcı mövqe tutmaq pul kütləsi,investisiya sferalarında düzgün olmayan, şərhi siyasət yeritmək demək olardı. Bu kimi maliyyə sabitliyini təmin etmək pul tədavülü sferasında deformasiya səbəb ola bilər, makroiqtisadi göstəricilərə, əhalinin həyat səviyyəsinə, nagd və qeyri-nagd pul arasındakı nisbətlərə, nagdsiz hesablaşmalar isə özlüyündə vergiyə mənfi təsir göstərər. Maliyyə menecerinin fəaliyyətinin əsas istiqamətlərindən pul ehtiyatları ilə güzgün idarəetmə məharətidir. Buraya pul vəsaitlərinin maliyyə tsiklinin güzgün hesablanması, pul axınlarının kompleks təhlili,pul axınlarının dəqiq proqnozlaşdırılması daxildir.

Pul vəsaitlərinin dövriyyədən kənarlaşdığı vaxt maliyyə tsikli adlanır və buraya istehsalı üçün lazim olanları və başqa aktivlərə pul vəsaitlərinin investisiyalaşdırılması, məhsulun satışı, həmin əməliyytalardan mənfəətin əldə edilməsini aid etmək məqsədəuygun olardı. Məhsulun reallaşdırılması, pul vəsaitlərinin daxil olması və xərclənməsi eyni vaxtda baş vermir və nəticədə ya böyük həcmdə pul axınına, ya da müəssisənin likvidliyini qoruyub saxlamaq üçün digər mənbələrdən vəsaitin cəlb edilməsinə ehtiyac yaranır.

Dövlət sektorunda aparılan qlobal iqtisadi islahatlar maliyyə sektorunda da ciddi islahatların həyata keçirilməsini tələb edirdi. Bu isə öz növbəsində bazar münasibətlərinin formalaşması zamanı dövlətin iqtisadiyyata əsas təsir mexanizmi və əsas maliyyə bazası kimi istifadə etdiyi büdcə sisteminin təkmilləşdirilməsini, səmərəli və tarazlaşdırılmış büdcə siyasətinin hazırlanmasını sürətləndirdi. Maliyyə sektorunda aparılan islahatlar zamanı alternativi olmayan icra mexanizminin – büdcənin kassa icrasının xəzinədarlıq vasitəsilə həyata keçirilməsinin zəruriliyini təsdiq etmişdir.

Bir çox ölkələrdə bu, nisbətən gec duyulsa da, beynəlxalq maliyyə institutlarının təkidilə artıq həmin dövlətlərdə xəzinədarlıq sisteminin yaradılması maliyyə sektorunda həyata keçirilən islahatların aparıcı həlqəsinə çevrilmiş, zəruri təşkilati, maliyyə və struktur dəyişiklikləri aparılmış və demək olar ki, bir sıra inkişaf etməkdə olan, o cümlədən keçid iqtisadiyyatına malik olan ölkələrdə xəzinədarlıq sisteminin yaradılması uğurla başa çatdırılmışdır.

Xəzinədarlıq sisteminin yaradılması ilə əlaqədar olaraq Respublika büdcəsinin, büdcədənkənar fondların, büdcədən maliyyələşdirilən idarə və təşkilatların vəsaitlərinin xəzinədarlığın hesablarında cəmləşdirilməsi qərara alındı və bununla da xəzinədarlıq sənədləşmələrinin həyata keçirilməsinin əsası qoyuldu.

Hal-hazırda valyuta bazarında proqnozlaşdırılan iri həcmli valyuta təzyiqi şəraitində manatın məzənnəsinə və ölkənin strateji xarici ticarət şəraitində neqativ təsirini neytrallaşdırmaq üçün valyuta bazarında aktiv sterilizasiya siyasəti həyata keçirilməlidir. Məhz buna görə qiymətli kağızlar bazarının effektliyi ondan ibarətdir ki, əhalinin əlində olan sərbəst pul kütləsi qiymətli kağızlara investisiya edilməklə inflyasiyanın qarşısı xeyli dərəcədə alına bilər. Digər tərəfdən, əsas amillərdən biri də odur ki, ölkəyə daxil olan pul vəsaitlərinin qonşu ölkələrin qiymətli kağızlar bazarına yerləşdirilməsi həyata keçirilsin.

Təcrübə göstərir ki, hər hansı bir ölkədə yüksək işsizlik şəraitində məcmu xərclərin dəyişməsi qiymətlərin ümumi səviyyəsinə çox cüzi təsir göstərdiyi bir şəraitdə məhsul istehsalına isə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məşğulluğun səviyyəsi yüksək olan şəraitdə isə məcmu məsrəflərin artması qiymətlərin ümumi artımına səbəb olur. Belə halda inflyasiyanı nəzarətdə saxlamaq üçün məcmu xərcləri daimi nəzarətdə saxlamaq lazımdır.

Fikrimizcə rasionallaşdırma və qiymətlər üzərində nəzarət tədbirləri digər əmtəələrə nisbətən ərzaq məhsullarının qiymətlərinin kəskin artmasının qarşısını qismən də olsa ala bilər. Pul axınlarının keyfiyyət xarakteristikası şirkətdə həyata keçirilən təsərrüfat proseslərinin tsikli ardıcıllığı ilə qiymətləndirilə və şirkətin pul axınlarının hərəkət sxemi şəklində təqdim oluna bilər.

Şıxəliyeva Röya Natiq qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: roya_adu@mail.ru

XARİCİ ÖLKƏLƏRDƏ KADRLARIN HAZIRLANMASININ XÜSUSİYYƏTLƏRİ

Xarici müəssisə və şirkətlərin təcrübəsi göstərir ki, müəssisələrdə insan resurslarından istifadə və heyətin idarə edilməsi ümumilikdə müəssisələrin idarə olunmasında sosial-iqtisadi səmərəliliyin artırılmasını, kadr strategiyası ilə firmaların inkişaf strategiyasının və ümumi məqsədlərinin inteqrasiyasını nəzərdə tutur.

Ötən əsrin ikinci yarısından etibarən xarici ölkələrdə idarəetmə kadrlarının hazırlanması və ya onların yenidən hazırlığının miqyası əhəmiyyətli dərəcədə genişlənmişdir. İndiki zamanda effektiv və optimal kadr hazırlığının yerinə yetirilməsi mürəkkəb və çoxcəhətli problemdir. Bundan əlavə, bəzi inkişaf etmiş ölkələrdə müəssisə miqyasında fəaliyyət göstərən, magistr və doktorluq dərəcələrinə sahib idarəetmə kadrlarının sayında da nəzərə çarpacaq dərəcədə artım olmuş və hazırlıq çərçivəsində ən böyük artım yüksək səviyyəli idarəçilik kadrları qrupunda olmuşdur. Məşhur Fransız publisisti J.Servan-Schreiber "Amerikanın Çağırışı" kitabında Birləşmiş Ştatlarda idarəetmə kadrlarının yükək peşəkarlığı sayəsində hər bir təşkilat və müəssisələrdə yerinə yetirilən işlər üçün əldə olunan məhsuldarlıq göstəricisi İsveçə nisbətən 40%, Almaniyaya nisbətən 60%, Fransaya 70% və Böyük Britaniyaya nisbətən 80% yüksək olmuşdur [2, s.31]. Buna misal olaraq təxminən 2.5 milyard dollarlıq gəlir etmək üçün Avropanın 30 böyük şirkəti və ya Yaponiyanın 10 şirkəti, təxminən 300 min nəfərə yaxın işçiyə ehtiyac duyduğu halda, Amerika şirkəti "General Motors" yalnız 75 min işçi qəbul etməklə buna nail olmuşdur, demək olar ki,bu göstərici təxminən beş dəfə aşağıdır. Beləliklə, kitabın müəllifi təqdiqatın nəticəsinə görə istehsalın səmərəliliyinin artırılmasında ən vacib amil kapital və ya işçi qüvvəsində kəmiyyətcə artmasında deyil, bilavasitə idarəetmənin fəaliyyətinin inkişafını vurğulamışdır. Müəllifin təhlil aparmasında əsas məqsəd odur ki, istehsalın səmərəliliyinin artırılmasında ən effektiv yol idarəetmə sisteminin və idarəetmə sahəsində peşəkar mütəxəssislərin inkişaf etdirilməsinin vacibliyini göstərməkdir [5].

Nəticdə keçən əsrin 70-ci illərindən başlayaraq xarici dövlətlərin əksəriyyətində idarəetmə kadrlarının hazırlanmasının təşkilati formaları, məzmunu və metodlarında əhəmiyyətli dərəcdə inqilabi dəyişikliklər baş vermişdir. İdarəetmə kadrlarının hazırlanması konsepsiyasında baş verən innovativ yeniliklərin əsas məqsədi, daha sürətli inkişaf edən, elmi-texnoloji inqilaba və dəyişən idarəetmə sisteminə həmçinin istehsalın şərtlərinə uyğunlaşmaqdır [6]. Buna görədə sənaye müəssisələri və ya digər təşkilatlar istehsalın səmərəliliyinin daha da yaxşılaşdırılmasının effektili və ən vacib mənbəyi kimi yüksək səviyyəli idarəetmə kadrlarının hazırlanması problemini həll etməkdə görürdülər.

Beynəlxalq təcrübədə bir sıra tarixi, iqtisadi və sosial şərtlərə görə,idarəetmə kadr-ların hazırlanmasıda üç formada hazırlıq modeli daha çox nəzərə çarpır: Amerika, Yapon və Avropa modeli [3, s.5].

Avropada, ABŞ, Yaponiya və hətta Rusiya ali təhsil müəssisələrində, korporasiya və ya idarəetmə məktəblərində idarəetmə üzrə kadrların ilkin hazırlıq sisteminin mahiyyətcə oxşar olsa da, hər bir ölkədə idarəetmə üzrə kadrların hazırlığı bir sıra fərqli xüsusiyyətlərlə xarakterizə olunur. Hal-hazırda ABŞ, Yaponiya və Qərbi Avropa kimi ölkələrdə idarəetmə mütəxəssislərinin hazırlanmasının geniş bir sistemi formalaşmışdır. İstər hökumət, istərsə də biznes assosiasiyaları müəssisə və təşkilat səviyyəsində idarəetmə kadrlarının hazırlanması və inkişafı sahəsində, o cümlədən onların təhsili üçün ayrılan investisiyalardakı artım açıq-aydın görünür [1, s.12].

Amerika modelində idarəetmə kadrlarının təhsili və hazırlanması biznes məktəbləri və idarəetmə məktəblərinin bazasında, böyük əksəriyyəti isə daha böyük təhsil müəssisələrinin (adətən universitetlərdə) struktur bölmələrində yerinə yetirilir. Bu funksiyanın icrası əsasən dolayı və ya birbaşa olaraq dövlətin nəzarəti altında yerinə yetirilir.

Qeyd etdiyimiz kimi, hər bir müəssisənin idarəedilməsində əsas məsələlərdən biri də kadrların düzgün seçilməsi, peşə ixtisas səviyyəsindən, təhsilindən, həmçinin də potensialından asılı olaraq onların düzgün yerləşdirilməsinin təmin olunmasıdır. Bu fəaliyyətin həyata keçirilməsində isə hər bir müəssisə, idarə və yaxud da təşkilat özünün kadr siyasətini əlində rəhbər tutur. İdarəetmə sistemində hər bir müəssisə özünün kadr siyasətini həyata keçirərkən müəyyən istiqamətləri əlində rəhbər tutur.

Beləliklə kadrların hazırlanması, düzgün yerləşdirilməsi və idarə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, bu gün uğurlu fəaliyyət göstərən müəssisələrin hər biri kadr siyasətini uğurla həyata keçirmiş olan təşkilatlardır.

İstifadə olunmuş ədəbiyyat:

1. Kadr hazırlığının müasir formaları və metodları / Nosyreva, I.G. // Personal inkişafı idarə edilməsi.– 2010.
2. Mick Marchington. “Human Resources Management at Work” ,2016.
3. R.Ə.İsgəndərov,elmi red.İ.M.Abbasov. “Heyətin idarə edilməsi dərslik”. Bakı 2003.
4. T.Ə.Quliyev. “İnsan resurslarının idarə edilməsi” Bakı-2013.
5. www.markadvice.ru/lmans-21-1.html
6. http://econom-lib.ru/4-10.php
7. http://www.hr-portal.ru/article/koncepcii-i-vidy-obucheniya-personala

Kazımova Xəyalə Ədalət qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: k.xeyale353@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASINDA SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Bildiyimiz kimi, sığorta bazarının inkişafında onun əsas rolu peşakar iştirakçısı olan sığorta şirkətləri oynayır. İstər sığorta çeşidlərinin bazara çıxarılması, müştərilərə təqdim edilməsi, istərsə də bazarda tələb və təklifin balansı və sərbəst bazar qiymətinin formalaşması baxımından sığorta şirkətləri proseslərin əsas təşkiledicisi rolunu oynayır. Hal-hazırda Azərbaycanda fəaliyyət göstərən 22 sığorta və 1 təkrarsığorta şirkəti tərəfindən 40-dan çox sığorta xidmətləri təklif edilir. Sığorta bazarı ölkə iqtisadiyyatının inkişafında vacib rol oynayır.

Maliyyə sabitliyinə nail olmaq bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən sığorta şirkətlərinin əsas məqsədlərindən biridir. Sığorta şirkətinin maliyyə sabitliyi onun maliyyə ehtiyatı, bölüşdürülməsi və həmin ehtiyatların istifadəsi hər hansı bir baş verə biləcək risk şəraitində şirkətin kapital və mənfəətin artırılması ilə sığorta şirkətinin inkişafını təmin edə bilər.

Azərbaycan Respublikası sığorta bazarında fəaliyyətdə olan sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin olunması məsələsi son dövrlərin aktual məsələsi olmuşdur. Əsas səbəb kimi keçmiş dövrlərdə sığortanın iqtisadiyyatda çəkisinin artımını göstərə bilərik. Bazar münasibətləri şəraitində sığortanın iqtisadiyyatda rolunun böyüdüyü hər hansı bir sığorta təşkilatı maliyyə sabitliyinin təmin edilməsinə xüsusi olaraq diqqət göstərməsi əsas məsələdir. Sığorta təşkilatlarının maliyyə sabitliyi dedikdə, maliyyə ehtiyatının bölüşdürülməsi və istifadə edilməsinin elə bir vəziyyəti başa düşülür ki, bu zaman mövcud riskin səviyyəsi halında kapital və mənfəətin artımı şəraitində sığorta şirkətinin inkişafı təmin olunmuş olsun.

Hal-hazırda fəaliyyət göstərən sığorta şirkətlərinin maliyyə sabitliyini daha da yaxşı-laşdırması onun həm müştəri bazasına, mənfəətinə, həm də reytinqinə müsbət təsir göstərəcəkdir. Buna görə də hər bir sığorta şirkəti fəaliyyət göstərdiyi sığorta bazarını ümumilikdə araşdırmalı, fəaliyyət göstərən digər sığorta şirkətləri barəsində ətraflı şəkildə informasiya əldə etməli, maliyyə sabitliyinə təsir göstərə biləcək daxili və xarici amilləri həmişə nəzarətdə saxlamalıdır. Mövcud maliyyə sabitliyi əmsallarından istifadə edərək öz maliyyə sabitliyinin səviyyəsini qaldırmaq məqsədi üçün çalışmalıdır. Bu amillərlə yanaşı maliyyə sabitliyinə nail olmaq üçün dünya təcrübəsini araşdırılmalı və bunu öz fəaliyyətində səmərəli şəkildə tətbiq etməlidir.

Ötən il Azərbaycanda 22 sığorta şirkəti xətti ilə 728.634 milyon manat məbləğində sığorta haqqı toplanılıb. Həmçinin 150 minə yaxın əmlak sığortalanıb. Bu əvvəlki illərin dövrü ilə müqayisədə 7% çoxdur.

2020-ci ilin dekabr ayında Azərbaycanda toplanılmış 160 milyon 445 min manat sığorta haqqının 125 milyon 441 min manatı və yaxud 78,2%-i 5 sığorta şirkətinin payına düşüb.

İl	2020	
Sığortaçının adı	*dekabr*	
	Sığorta haqqları	Sığorta ödənişləri
“A-Qroup Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti	17 054	8 475
“AtaSığorta” Açıq Səhmdar Cəmiyyəti	13 889	8 710
“Atəşgah Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	41 498	55 971
“Atəşgah” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	25 358	14 306
Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti	49 122	33 351
“Azərbaycan Sənaye Sığorta” Açıq Səhmdar Cəmiyyəti	9 042	2 136
“AzSığorta” Açıq Səhmdar Cəmiyyəti	15 913	5 952
“Bakı Sığorta” Açıq Səhmdar Cəmiyyəti	2 062	371
“Günay Sığorta” Açıq Səhmdar Cəmiyyəti	9 045	2 443
“İpək Yolu Sığorta” ASC	17 320	2 590
“Meqa Sığorta” Açıq Səhmdar Cəmiyyəti	28 615	4 861
"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyəti	1 671	49
“Paşa Həyat Sığorta” Açıq Səhmdar Cəmiyyəti	242 632	222 977
“Paşa Sığorta” Açıq Səhmdar Cəmiyyəti	163 453	71 452
“Qala Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	15 942	4 052
“Qala Sığorta” Açıq Səhmdar Cəmiyyəti	32 838	3 361
“Rəvan Sığorta” Açıq Səhmdar Cəmiyyəti	1 078	332
"Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	3 672	-
“Xalq Sığorta” Açıq Səhmdar Cəmiyyəti	31 182	17 608
"Aqrar Sığorta" Açıq Səhmdar Cəmiyyəti	18	-
Lisenziyası ləğv edilmiş sığortaçılar	**7 229**	**6 156**
“Amrah Sığorta” Açıq Səhmdar Cəmiyyəti	1 982	877
“AXA MBASK” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti	5	628
“Standard Insurance” Açıq Səhmdar Cəmiyyəti	5 242	4 651
“Başak İnam Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti	-	-
“Beynəlxalq Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti	-	-
“Buta Sığorta” Açıq Səhmdar Cəmiyyəti	-	-
“Azərqarant Sığorta” Açıq Səhmdar Cəmiyyəti	-	-
“Alfa Sığorta” Açıq Səhmdar Cəmiyyəti	-	-
YEKUN	**728 634**	**465 153**

Mənbə: AMB

Sığorta şirkətinin təkrarsığorta fəaliyyəti zamanı sığortaçı öz üzərinə götürdüyü risklərin bir hissəsini digər sığorta şirkətləri ilə bölüşdürür və gələcəkdə baş verə biləcək itkiləri azaltmış olur. Bu da nəticədə sığortaçının ödəmə qabiliyyətinə müəyyən dərəcədə müsbət təsir göstərmiş olur.

Sığorta şirkətinin ödəmə qabiliyyətinə onun həyata keçirdiyi investisiya siyasəti və kapital qoyuluşlarının da təsiri çoxdur. Sığorta şirkətinin vəsaitlərinin investisiyaya yönləndirilməsi zamanı mövcud riskləri minimallaşdırmaq məqsədi ilə qanunvericiliyə əsasən sığorta nəzarət orqanı tərəfindən investisiyanın xüsusi qaydaları müəyyənləşdirilib. Müəyyən olunmuş qaydalara əsasən investisiyanın ayrı-ayrı növləri rəsmi şəkildə qadağan olunub. Sığorta şirkəti investisiya fəaliyyəti zamanı vəsaitlərini bank əmanətlərinə, səhmlərə, qiymətli kağızlara, daşınmaz əmlaka yönəldə və bu istiqamətlər üzrə gəlirlər götürə bilərlər.

İstifadə olunmuş ədəbiyyat:

1. "İcbari Sığortalar Haqqında" Azərbaycan Respublikasının Qanunu (2011).
2. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (2007).
3. Abbasbəyli M. (2011) "Sığorta terminləri lüğəti", Bakı – 109 səh.
4. Ataşov B., Ələkbərov Ə. və Xudiyev N. (2018) "Sığorta işi". Bakı, "Kooperasiya" – 415 səh.
5. Əliyeva L. (2011) "Azərbaycanda sığorta sistemi: İqtisadi və sosial proseslərə multiplikator təsiri kimi". Bakı, "Qanun" – 108 səh.

Məmmədkərimova Xəyalə, magistrant,
Bakı Biznes Universiteti

QLOBAL ŞƏRAİTDƏ AZƏRBAYCANDA İQTİSADİYYATIN MODERNLƏŞDİRİLMƏSİNDƏ TEXNOPARKLARDAN İSTİFADƏNİN STRATEJİ ASPEKTLƏRİ

Müasir dövrdə milli iqtisadiyyatın qlobal transformasiyalar kontekstində modernləşdirilməsi hədəfləri Azərbaycanda strateji yol xəritəsi çərçivəsində müəyyənləşdirilmişdir. Ölkə iqtisadiyyatının neftdən asıllığının minimuma endirilməsi üçün qeyri-neft sektoru sahələrinin innovasiyalaşdırılmasının sürətləndirilməsi və bu sahələrin mödernləşdirilməsi edilməsi hədəfləri əsasında strateji səviyyədə prioritetlik təşkil edir. Qeyd olunan hədəflərə çatmaq üçün ölkəmizdə texnoparklardan istifadə edilməsi məsələləri dövlət siyasətində əsas yer alır, həmçinin dünya təcrübəsinə uyğun şəkildə səmərəli iqtisadi vasitələrdən istifadə edilir. Belə ki, innovativ inkişafın genişləndirilməsində və milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində texnoparklardan istifadə edilməsinə üstünlük verilməlidir. Bu istiqamətdə davamlı tədbirlər görülməyə başlanılmışdır və 2009-cu ildən ölkənin ilk iri texnoparkı olan Sumqayıt Texnologiyalar Parkı fəaliyyət göstərir [5]. STP-də rəqabətqabiliyyətli çoxlu çeşiddə sənaye məhsulları, əsasən də elektrik kabelləri və elektronika məmulatları yüksək texnologiyalar əsasında istehsal olunur.

Bu parkda istehsal olunan innovativ məhsullar yerli bazarların tələbatını ödəməklə yanaşı, xarici ölkələrə də ixrac edilir. Digər bir park-Pirallahıda Yüksək Texnologiyalar Parkı yaradıldı və müəssisələrinin tikintisi davam etdirilməkdədir. Əlbəttə ki, dövlət dəstəyi olmadan bu proseslərin təşkilinə nail olmaq qeyri-mümkündür. Dövlət siyasətinə uyğun olaraq texnoparkların rezidentləri 7 il müddətinə gömrük rüsumlarından və vergilərdən azad edilir[3].

Həmçinin bu texnoparkların təşkil edilməsində dövlət tərəfindən əsaslı kapital qoyuluşlari ilə yanaşı, xarici və yerli investorların fəaliyyət göstərməsi üçün də əlverişli şərait yaradılmışdır.

İnnovasiyaların yaradılması, inkişaf prespektivləri və inkişafı üzrə konseptual səviyyə artıq formalaşmağa başlamışdır [4].

Əvvəldə qeyd etdiyimiz kimi, Strateji Yol Xəritəsində milli iqtisadiyyatın innovasiyalaşdırılması baxımından prioritet vəzifələr öz əksini tapmışdır [2]. Bununla yanaşı İKT-nin inkişafına dair Strateji Yol Xəritəsi də diqqət mərkəzindədir [1]. Sumqayıtda yerləşən ölkənin ən iri texnoparkı olan Sumqatıt Texnologiyalar Parkında və Pirallahıda yaradılan yüksək texnologiyalar parkında iqtisadiyyatın sahələrinin modern inkişafına imkan verən sənaye müəssisələri yaradılmaqdadır və inkişaf etmiş ölkələrdən texnologiyalar transfer olunur və avadanlıqlar alınır.

Qlobal dünyada Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində texnoparklardan istifadənin strateji aspektlərinə aşağıdakıları daxil etmək olar:

- qlobal şəraitdə Azərbaycan iqtisadiyyatının əsas mexanizmlərinin innovasiyalaşdırılmasına güclü zərurət vardır;
- qlobal transformasiyalar konteksində Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində texnoparklar xüsusi əhəmiyyətə malikdir;
- Sumqayıt sənaye mərkəzində, həmçinin ölkənin digər yerlərində yaradılan sənaye parkları və texnoparklar artıq səmərəli fəaliyyət göstərməyə başlamışdır;
- ölkə iqtisadiyyatının neftdən asıllığının aradan qaldırılmasında texnoparklar və bu qəlibdən olan müasir müəssisələr şəbəkəsi strateji əhəmiyyət kəsb edir;
- texnoparklar ölkənin qeyri-neft sektorunun inkişafına multiplikativ təsir göstərir və ixracyönümlü məhsulların çeşidini və həcmini artırır;
- texnoparklar qlobal şəraitdə rəqabətqabiliyyətli müəssisələrin yaradılmasında və məhsulların istehsalında böyük rol oynayır;
- texnoparklar ayrı-ayrı iqtisadiyyat sahələrinin modernləşdirilməsində mühüm əhəmiyyət kəsb edir;
- texnoparklar ölkəyə yüksək texnologiyalar gətirir, xarici investisiyalar cəlb edir və ölkədə texnoloji inkişafa təkan verir;
- texnoparklar yerləşdirkləri regionun və ərazinin sosial-iqtisadi inkişafına güclü təsir edir, yeni iş yerləri yaradır, intellektual inkişafı təmin edir;
- texnoparklar iqtisadiyyatın diversifikasiyalaşdırılmasında strateji funksiyaları yerinə yetirir;
- texnoparklar ölkədə texnologiyalar və innovasiyalar bazarlarının formalaşdırılmasına və inkişafına müsbət təsir göstərir.

Qeyd etdiyimiz strateji aspektləri təhlil etsək bu nəticəyə gəlmək olar ki, müasir şəraitdə Azərbaycan iqtisadiyyatının başlıca mexanizmlərinin innovasiyalaşdırılması vacibdir, həmçinin iqtisadiyyatın ayrı-ayrı sahələrinin modernləşdirilməsində texno-

parkların yüksək potensialının olduğunu görmək mümkündür, belə ki, texnoparklar ixrac və istehsal potensialının artırılmasına, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə əlverişli şərait yaradır, eyni zamanda, qlobal şəraitdə texnoparklar xarici investisiyaların cəlb edilməsi üçün əlverişli investisiya-innovasiya mühiti yaradır, texnologiyalar və innovasiyalar bazarının inkişafını sürətləndirir, rəqabətqabiliyyətli müəssisələr şəbəkəsini formalaşdırır.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. AR Prezidentinin 6 dekabr 2016-cı ilk tarixli Fərmanı ilə təsdiq olunmuşdur.
2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.
3. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.
4. Qasımov F.N., Nəcəfov Z.M. İnnovasiyalar: yaradılması, yayılması və inkişaf prespektivləri. Bakı, Elm,2009. -415s.
5. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. –https://stp.az

Nağıyev Camal, magistrant,
Bakı Biznes Univeristeti
Email: camalnaghiyev@gmail.com

SÜNİ ZƏKANIN İŞSİZLİK SƏVİYYƏSİNİN ARTIMINA TƏSİRİ

Süni zəka dünyada hər gün təsir güçünü artırmağa davam edir. Süni intellektin iş həyatında, məktəb həyatında və sosial həyatda artan təsir güçünü görmək mümkündür. Yəni süni zəka, həqiqətən, bir gün işimizi əlimizdən alacaqmı?

Süni intellekt uzun müddətdir həyatımızda bənzərsiz bir mövqe əldə etmişdir. Bir növ yeni "sənaye inqilabı" ərəfəsində olan dünyanın yeni təcrübəsi ilə qarşı-qarşıyayıq. Uğurlu olsaq, nəyi itirəcəyimizi və nə qazanacağımızı tam təxmin edə bilmirik. Bununla birlikdə, süni zəkanı iş həyatına inteqrasiya edən sektor və şirkətlərin sayı günü-gündən artır. Əlavə və əskik cəhətləri ilə bu yeni dünyaya alışmalıyıq. Bunu necə edəcəyimizi birlikdə görəcəyik.

Süni intellekt (AI), robotlar və Nəsnələrin İnterneti (IoT) haqqında danışanda ilk sual haqqında düşünürük:"İşimizi ələ keçirən robotlar haqqında nə düşünürsünüz?" Də-qiq cavabı bilmirik, amma, mövcud məlumatları təhlil edərək nəticəyə yaxınlaşa bilərik.

Dünyamız o qədər yaşlanır ki, 2020-ci ildə bəşər tarixində ilk dəfə 65 yaşdan yuxarı əhali 5 yaşınadək uşaqların sayını keçmişdir. 2100-cü ilə qədər vəziyyət daha da ağırlaşacaq. Bəşəriyyətin sağ qalması üçün lazımi işçi qüvvəsini təmin etmək, 65 yaşdan yuxarı insanların ən azı 25% -i işə davam edərsə, mümkün olacaqdır. Hər gün

daha çox insan şəhərlərdə yaşamağa başlayır. 2050-ci ilədək dünyadakı insanların 70 faizinin şəhərlərdə yaşaması gözlənilir. Bu, istehsal edən bir cəmiyyətdən daha çox istehlak edən bir cəmiyyətə çevriləcəyimizi göstərir.



Dünya Bankının araşdırmalarına görə, 2000-ci ildən başlayaraq işləyən əhali sürətlə azalmağa başlamış, digər tərəfdən məhsuldarlıq təhlil edilərkən ciddi bir azalma görülməkdədir. Sanki bu azmış kimi, inkişaf etmiş ölkələrin əhalisi araşdırıldıqda inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrin əhalisi ilə müqayisədə həftəlik iş saatlarının daha aşağı olmasına baxmayaraq, çılğın bir istehlak içində olması geriləməni sürətləndirir.

Nə edək ki, bu dəyişiklikdən qazanaclı çıxaq?

Dünyada istehsal olunan məlumatlar çox sürətlə artır, məlumatların 90% -i son 3 ildə istehsal edilmişdir. Xüsusilə, ağıllı cihazların həyatın bütün sahələrində istifadəsi, Nəsnələrin İnterneti (IoT) texnologiyasının geniş yayılması, İnternetə qoşulan cihazların sayının artması və məlumatlara girişin çox asanlaşması istehsal olunan məlumatları inanılmaz bir sürətlə artırdı, lakin, bu gün istehsal olunan məlumatların yalnız 1% -i təhlil edilir. Süni Zəka (AI) texnologiyaları sayəsində istehsal olunan məlumatları analiz etmək və əlavə dəyər halına gətirmək mümkündür. Araşdırmalara görə, 2050-ci ilədək istehsal olunan məlumatların 40%-i Süni İntellekt (AI) ilə analiz ediləcək, 2100-cü ilə qədər bu rəqəm 85%-ə çatacaq. Beləliklə, bu sahədə özümüzü inkişaf etdirməyin vacib olduğunu bilməliyik.

Süni zəkanın iş dünyasındakı başqa bir təsiri, daha az yeni iş fürsətləri yaradacağı proqnozudur. Süni zəkanın hakim olduğu bir dünyada hansı istedadlara ehtiyac ola biləcəyini və o dövr üçün gələcəyin peşələrini öyrənmək üçün bir nəsil ötüb keçməsi lazım ola bilər.

Texnologiyanın idarə edə biləcəyimizdən çox daha sürətli inkişaf etməsi və bununla ayaqlaşa bilib-bilməyəcəyimizi bilməməyimiz, əslində böyük bir problemdir. Çünki AI, işlərin yerini bizim o işləri dəyişdirib, idarə edə biləcəyimizdən çox daha

sürətli ələ ala bilməsi kimi görünür. Ancaq yenə də AI-nin 'hər işi' əlimizdən alacağını düşünmək çox tezdir və bunun tam olaraq belə olmayacağına dair bir fikir birliyi vardır.

"The Guardian"-da dərc olunan PwC-nin proqnozlarına görə AI təkcə Böyük Britaniyada belə 7,2 milyondan çox yeni iş yeri yaradacaqdır. Digər tərəfdən, McKinseyə görə, ABŞ və Avropadakı şirkətlərin yüzdə 77-si yaxın 10-20 ildə süni zəka və avtomatlaşdırma sistemləri səbəbindən işçi sayında azalmaya gedəcəklərini düşünmürlər.

Bir nöqtədə insanların "insan olduqları" üçün sahib olduqları bilik, bacarıq və qabiliyyətlər də bizi süni zəkaya qarşı güclü edir. Düzdür, süni zəka analitik zəkasına görə təbii ki, bir şahmat oyununda sizi məğlub edə bilər. Bununla birlikdə, onun idrak zəkası sizinki qədər güclü ola bilməz.

Aşağıdakı qabiliyyətlər süni zəkaya əlavə olunmağa çalışılsa da, süni zəka da bu qabiliyyətlərin insanlarda olduğu qədər ustalıqla olması gözlənilmir:

Yaradıcı qabiliyyətlər: Bəli, süni zəka populyar mahnılar yazmağınıza və ya bəstələməyinizə kömək edə bilər. Ancaq, tək başına bu cür yaradıcılıq işini edə bilərmi? Görünüşə görə mümkün olmayacaqdır. Bu səbəbdən sahibkarlıq məsələn əvəzolunmaz işlərdən biri olacaqdır. Fikirlər yaratmaq insanın işidir!

Sosial bacarıqlar: Maşınların şəxsiyyətlərarası ünsiyyətdə uğursuz olduğu qəbul edilməlidir. Bir lider olaraq və ya beyin fırtınasının bir hissəsi olaraq, süni zəkanın çox uğurlu olmayacağı proqnozlaşdırılır.

İdrak qabiliyyətləri: Financial Times-a görə, "Süni zəka, müəyyən məlumatların mühakiməsi və qiymətləndirilməsinə əsaslanan işlərdə daha az təsirli olur."

Emosional qabiliyyətlər: AI-də emosional qabiliyyət yoxdur. Empatiya kimi hissləri özünə "aid etmək" də mümkün deyil. Həkimlərə və tibb bacılarına fərqli tapşırıqları yerinə yetirməkdə dəstək ola bilər, lakin, həmişə xəstələr və onların yaxınları ilə ünsiyyət qura bilməyəcəkdir.

Texnoloji imkanlar: Bəs süni intellekti kim "edəcək"? Bu böyük bir paradoksdur. Çünki süni zəkanın mövcud olması üçün insanların texniki təchizatı və yaradıcılığına ehtiyac var.

Süni intellektin əvəzlənməsinin çətin olduğu peşə qrupları arasında aşağıdakı 10-luq diqqət çəkir:

- İnsan Resursları menecerləri;
- Satış menecerləri;
- Marketinq menecerləri;
- İctimaiyyətlə əlaqələr menecerləri;
- Baş icraçılar;
- Tədbir mütəxəssisləri;
- Yazıçılar;
- Proqram təminatçıları;
- Redaktorlar;
- Qrafik dizaynerlər.

Yuxarıdakı qabiliyyətləri nəzərə alsaq, aralarında niyə belə bir əlaqənin olduğunu asanlıqla anlaya bilərik.

Risk altında olan 10 iş:

Bəs risk altında olan peşə qrupları hansılardır? Mütəxəssislərin fikrincə, bunlar aşağıdakılardır:

- Telefon marketinqi;
- Mühasiblər;
- Müavinət və yan haqqlar menecerləri;
- Resepşenlər;
- Kuryerlər;
- Redaktorlar (Düzəldicilər);
- Kompüter dəstək mütəxəssisləri;
- Bazar araşdırmaları analitikləri;
- Reklam satış mütəxəssisləri;
- Ticarət satış mütəxəssisləri.

Süni zəka yaxın 10-20 ildə həyatımızda özünü daha çox göstərəcək və təsirlərini daha sərt şəkildə hiss etməyə başlayacağıq. Bu müddətdə bəşəriyyət sənaye inqilabını bir daha sınayacaq və gəlin görək, hansı nəticələr ortaya çıxa bilər.

Başqa sözlə, süni zəkaya qarşı bəşəriyyətin bir nömrəli amil olan "insan toxunuşu" işimizi davam etdirməyimizi də təmin edə bilər, həmçinin, itirməyimizə də səbəb ola bilər. Bu texnologiyanın peşə həyatımıza təsiri, hələlik sadəcə proqnozlardan ibarətdir. Gələcəkdə milyonlarla peşənin robotlara köçürülmə ehtimalı vardır. Buna baxmayaraq, bu məlumatların yalnız proqnozlar olduğunu xatırlamağa dəyər. Çox güman ki, süni intellektin nə qədər irəliləyəcəyini yaşamaqla görə biləcəyik!

Nəticə etibarilə, robotların bəzi işlərin öhdəsindən gələcəyi şübhəsizdir. Bizim bununla əlaqəli edəcək bir işimiz yoxdur və olmamalıdır da, çünki bəşəriyyət texnologiyada irəlilədikcə bu həmişə belə olub. Əhəmiyyətli olan yeni imkanları müşahidə etmək və bu sahələrdə inkişaf edə bilməkdir. Süni İntellektin (AI) gələcəyi nöqtəni və müvəffəqiyyətini təyin etmək bizim əlimizdədir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://www.britishcouncil.org.tr/programmes/education/cubed/AI
2. https://gq.com.tr/dergi-konulari/kim-kazanacak-insan-mi-yapay-zeka-mi
3. https://new.siemens.com/tr/tr/sirket/is-kariyer/siemenste-yasam/robotlar-isinizi-elinizden-mi-alacak.html
4. İnternet of Things e-jurnalı. https://ioturkiye.com/2019/10/yapay-zeka-ve-robotlar-isimizi-elimizden-alirlar-mi/
5. Thinktech teknoloji düçünce merkezi: https://thinktech.stm.com.tr/uploads/raporlar/pdf/1752018154154538_stm_blog_robotlar_isimizi_elimizden_alabilirler_mi.pdf
6. Time e-jorunal https://time.com/5876604/machines-jobs-coronavirus/
7. PWC Türkiye https://www.pwc.com.tr/tr/basin-odasi/2018-basin-bulteni/robotlar-isimizi-elimizden-alacak-mi.html
8. https://willrobotstakemyjob.com/
9. CNNTürk:

https://www.cnnturk.com/yazarlar/guncel/ozan-onat/yapay-zeka-insandan-daha-ustun-olabilir-mi
10. https://builtin.com/artificial-intelligence/ai-replacing-jobs-creating-jobs
11. https://blog.adgager.com/yapay-zeka-isimizi-elimizden-mi-alacak/
12. https://www.webtekno.com/isiniz-ne-zaman-yapay-zeka-ele-gecirilecek-h100662.html
https://baslangicnoktasi.org/yapay-zeka-vs-i%CC%87nsan/

Babishov Sanan, Master Student,
Baku Business University
Email: sinansohrab7@gmail.com

THE WAYS OF ELIMINATING MARKET RISKS THAT WILL EMERGE IN THE LIBERATED KARABAKH TERRITORIES

Before starting my research I want to get your attention by noticing about the conflict between two states for Karabakh briefly. The conflict between the South Caucasus countries began in 1988 when Armenia made territorial claims against Azerbaijan. As a result of the ensuring war Armenian armed forces occupied 20 percent of Azerbaijan, including the Nagorno Karabakh region and 7 surrounding districts. The 1994 ceafire agreement was followed by peace negotiations then further conflict not a single civilian armenian was killed and not a single school, house, hospital or educational center was put under fire from Azerbaijan.

At the same time, villagers from outside of Nagorno – Karabakh in the Kalbajar, Lachin and Aghdam districts set fire to their homes and forests, killed their cattle and cut down trees and power lines before fleeing to Armenia ahead of a deadline that would see territories handed over to Azerbaijan, as a part of peace agreement.

As I mentioned above that after agreement between two states through the mediation of Russia Armenian should leave our territories safe and sound and they didn't have to harm there but it's a pity that they didn't do as we waited. Despite being on the rocks the main policy of the country is the rapid restoration of the liberated territories and ensuring economic development there. One of the rapid restorations is how to keep the trade risk normally in the market. Let's get information about the risks in business field briefly and then what kinds of risks we will face and how to eliminate them when we establish a market in the liberated Karabakh territory.

Risk management is the process of identfying, assessing and controlling threats to an organization's capital and earnings. The threats or risks could stem from a wide variety of sources, including financial uncertainty legal liabilities, strategic management, errors, accidents and natural disasters.

Every business and organization faces the risk of unexpected, harmful events that can cost the company money or cause it to permanently close. Risk management allows organizations to attempt to prepare for the unexpected by minimizing risks and extra costs before they happen.

There are some types of market risks such as:

- **strategic**, for example a competitor coming on to the market
- **compliance**, for example the introduction of new health and safety legislation
- **financial**, for example non-payment by a customer or increased interest charges on a business loan
- **operational**, for example the breakdown or theft of key equipment

Financial Risk

As the name implies, financial risk refers to anything that threatens an organization's financial growth and profitability. More often than not, these business risks originate from sources outside the company, such as customers, suppliers, and legal regulations. For most companies, financial risks are inherent and widely accepted a just another part of doing business, but that doesn't mean they shouldn't be avoided. Here are a few types of financial risk to look out for:

– **Credit:** Having too much debt – whether from bank loans, credit cards, or other sources – can put companies in a very precarious position and quickly lead to ruin.

– **Regulatory:** Changing financial regulations can affect how lenders and creditors collect credit and calculate their bad debt reserves.

– **Profitability:** Without properly managing cash flow and carefully balancing revenue with operational costs, a company's profitability can be at risk. A recent study by Dun & Bradstreet found that growing profitably is a top concern for finance leaders facing business risk.

Operational Risk

Operational risks include anything that disrupts a company's ability to function, either temporarily or indefinitely. The risk can be as unpredictable as a natural disaster, or as sinister as theft. While most of these threats are beyond your control, your business can still take steps to prepare. Operational risks take many forms, including:

– **Fire, Theft, and Vandalism:** Accidental fires, arson, and property crimes can destroy inventory, equipment, and structures, and leave businesses with hefty repair costs and lost productivity.

– **Natural Disasters:** Without warning, hurricanes, tornadoes, and earthquakes can cause devastating damages, not just to physical structures and equipment, but they can also slow or completely halt operations.

– **Technology:** Businesses rely on technology to continually improve productivity and quality of service, so a system failure of any kind can cause lasting damage. Furthermore, cybersecurity threats are always something to take seriously.

– **Labor:** While your employees are your company's greatest asset, they can also become a liability. Labor disputes might slow or stop work, and insider theft and embezzlement can cause significant financial pain.

Compliance Risk

While certain industries, such as finance or pharmaceuticals, are more heavily regulated than others, nearly every business still faces some level of compliance risks. Here are some examples of compliance issues can threaten certain sectors.

– **Finance:** Banks, credit unions, and other lenders face some of the most complicated and strict regulations due to the fact that they hold money and facilitate

transactions across borders. Even one small misstep can have devastating consequences.

– **Healthcare:** Patient privacy and protection are the reason there are such laws as the Health Insurance Portability and Accountability Act (HIPAA). If providers do not adhere to regulations, penalties can be harsh.

– **Manufacturing:** There are several health, safety and environmental risks associated with manufacturing, and these can affect both employees and consumers alike. Manufacturers are expected to comply with strict government safety guidelines for workers and products.

– **Technology:** Any web-based financial technology (fintech) businesses may also have to comply with additional regulations.

Global Risk

Regardless of what industry we're in, conducting business with other countries or on foreign territory comes with its own unique set of risks. Some global risks to be aware of include:

– **Economic**: Doing business abroad can be risky, especially in countries whose economies are threatened by changing geopolitical environments.

– **Third-Party:** Working with foreign, third-party vendors and suppliers can pose a risk of tainted by bribery and corruption issues.

– **Cross-Border Compliance:** This means that any business that wants to have a presence in the country needs to comply with these regulations.

We have got some data about market risks and their types, now let's make an imaginary company that will be called like Araz and what kinds of risks we will be able to face.

What risks will be able to emerge I have mentioned before that we are to be attentive if we face and we should know all the steps and do them in the right way. To be destroyed the territories has been noticed that it will make difficulties if we establish our imaginary market there. If we want not to face those risks we should follow the following risks:

There are four ways of dealing with, or managing, each risk that you have identified. You can:

1. Accept it;
2. Transfer it;
3. Reduce it;
4. Eliminate it.

For example, we may decide to accept a risk because the cost of eliminating it completely is too high. we might decide to transfer the risk, which is typically done with insurance. Or we may be able to reduce the risk by introducing new safety measures or eliminate it completely by changing the way we produce our product. When we have evaluated and agreed on the actions and procedures to reduce the risk, these measures need to be put in place.

We should choose the right insurance to protect against losses. This means that in the event of a loss you will have some financial compensation. This can be crucial for your business' survival in the event of, say, a fire which destroys a factory.

References:

1. Frank Night. Risk, Uncertainty and profit.
2. Geoff Kates. Risk management systems 2000. Risk Professional, #2/1 February 2000. London Informa Group, 2000.
3. Richard A.Brealey, Stewart C. Myers, Franklin Allen. Principles of Corporate Finance, McGraw Hill International Edition, 2008.
4. Robert S.Pinlyck. Microeconomics 7th ed. US, 2006
5. http://www.businessdictionary.com
6. https://www.stakeholdermap.com/risk/risk-management.html
7. https://www.infoentrepreneurs.org/en/guides/manage-risk/

Çələbizadə Leyla İlham qızı, magistrant,
Bakı Biznes Universiteti
Email: l.calabizade@gmail.com

İŞĞALDAN AZAD OLUNMUŞ YERLƏRDƏ İSTEHSAL, XİDMƏT VƏ KOOPERATİV BİRLİKLƏRİN FORMALAŞMASI

Azərbaycanın işğaldan azad edilən bölgələri böyük iqtisadi gücə və investisiya potensialına sahibdir. İşğaldan azad edilən yerlərdə düzgün sahibkarlıq fəaliyyətinin təşkil edilməsi, lakin bundan öncə istehsalat imkanlarının bərpa edilməsi, xidmət və kooperativ birliklərin formalaşdırılması, yerli və xarici investorlar tərəfindən sərmayələrin cəlb edilməsinə dəstək, ölkənin gələcək strateji hədəflərinin prioritetlərindən hesab edilir.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun şəkildə Azərbaycan Respublikasının işğaldan azad edilmiş yerlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri vasitəsilə tarix və mədəniyyət (abidə və müəssisələr), eləcə də xidmət obyektlərinin inventarlaşdırılması və qorunması istiqamətində müxtəlif ərazilərdə yerləşən abidələr və mədəniyyət yerlərinin təhlili və qiymətləndirilməsinə başlanmışdır (1).

Bu günəcən araşdırmalar nəticəsində dövlət qeydiyyatında qeydə alınan 312-yə yaxın tarix-mədəniyyət memorialının monitorinqi prosesi icra edilmişdir. Bundan başqa, həmin ərazilərdə mövcud olan, lakin dövlət qeydiyyatına alınmayan tarixi, arxeoloji önəm kəsb edən 105-dən çox obyekt müəyyən edilmişdir.

Qeyd edilən qiymətləndirmələr zamanı 571-ə yaxın mədəniyyət qurumu və xidmət müəssisələri aşkar olunmuşdur ki, onların 286 qurumu kitabxana, 237-mədəniyyət evləri, klub yerləri, 19 ədədi muzey, 24 ədədi uşaqlar üçün musiqi məktəbi, 2-si qalereya, 1-i kinoteatr və 2-si isə teatrdır. Müəssisələrin hər biri demək mümkündür ki, erməni təcavüzkarları tərəfindən dağıdılmış vəziyyətdədir.

Hazırkı təhlil və qiymətləndirmə prosesi Ermənistanın 30 illik təcavüzkarlığı ilə həmin bölgələrdə olan istehsalat müəssisələri, tarixi mədəniyyət abidələri, xidməti qurumlara qarşı reallaşdırdıqları qanunsuz meylləri bu ərazilərin necə halda geri aldığını proqnozlaşdırmağa imkan verməkdədir.

Böyük təəssüf hissi ilə qeyd edilməlidir ki, işğaldan azad edilmiş yerlərdə bütün tikililər, məbədlər, məscidlər, eləcə də keçid vasitələri olan körpülər dağıdılmaqla yanaşı, həm də əksər vaxtlarda təyinatına qeyri-uyğun formada istifadə edilməklə, əhalinin milli-mənəvi önəm daşıyan dəyərləri gözardı edilərək təhqir olunmuşdur.

Ermənistan silahlı qüvvələrinin daha çox dağıdılmış daşınmaz mədəniyyət nümunələri - dini məbədlər, türbələr, mədrəsələr və əhalinin digər gündəlik istifadə etdiyi yerlər olmuşdur (3, s. 21). İşğal edilmiş yerlərdə mövcud olan geniş mədəni irsə, həmçinin xüsusi önəm daşıyan unikal məbədlərə belə göstərilən münasibət həm də dünya irsinə qarşı törədilmiş terror hadisəsidir.

Ermənistan Respublikası tərəfindən dağıdılan digər ərazilər isə əhali üçün xidməti fəaliyyət göstərən bağlar, parklar, xəstəxanalar və digər dövlət qurumları olmuşdur. Ermənistanın ölkənin mədəni, tarixi, xidməti obyektlərinə bu cür vandalizm tətbiq etməsi beynəlxalq sənədlərə, həmçinin 1954-cü il tarixində Haaqada qəbul olunmuş "Silahlı münaqişə ərzində mədəni sərvətlərin mühafizəsi haqqında Konvensiya", "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyası, bunun kimi digər hüquqi aktları kobud formada pozmuşdur.

Bütün bu səbəblərlə əlaqədar olaraq, Azərbaycanın işğaldan azad olunmuş yerlərində xidməti, kooperativ birliklərin formalaşdırılması mühüm xarakter daşıyır. Bu ərazilərin yenidən dirçəldilməsi üçün güclü yerli idarəetmə strukturlarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Ölkədə fəaliyyət göstərməkdə olan 1606 bələdiyyə sırasında Ağdam və Füzulini aid edən bələdiyyələri görmək mümkündür. Bu rayonların müəyyən yerləri işğal edilməməsi ilə bağlı olaraq, həmin yaşayış yerlərində yerli özünüidarəetmə strukturları vardır.

Bu gün Ağdam ərazisində 11 qəsəbə, 79 kəndi özündə birləşdirən 14 bələdiyyə, Füzuli ərazisində 1 şəhər, 16 qəsəbə və 18 kəndi ehtiva edən 21 bələdiyyə mövcud olmaqdadır.

Qeyd edilməlidir ki, işğaldan azad edilən yerlərdə əhalinin yenidən məskunlaşması reallaşdırıldığı zaman digər institutlara bənzər olaraq, yerli özünüidarə institutlarının da formalaşdırılmasına başlanılacaqdır. Həyata keçirilən təhlillər göstərir ki, işğaldan azad edilən ərazilərdə təqribi olaraq 259 bələdiyyənin formalaşdırılması mümkündür.

Azad edilmiş ərazilərdə bələdiyyələr formalaşdırıldıqdan bir qədər sonra- ilkin müddətdə bu qurumlara görə büdcə gəlirlərini yaratmaq və davamlılığını təmin etmək mümkünsüzdür. Belə ki, sözügedən ərazilərdə yaşayış prosesinin hələ yeni başlaması, eləcə də əhalinin tam oturuşmaması onların dövlət vergilərini ödəmə potensialında olmadığını göstərməkdədir. Eləcə də, sözügedən yerlər torpaq islahatları keçirilmədiyindən bələdiyyə mülkiyyətində olacaq əmlaklar və torpaq sahələri də müəyyənləşdirilməmişdir. Bu kimi vəziyyətdə bələdiyyələr tərəfindən torpaq və əmlakların satışı,

icarəyə və istifadəyə təqdim edilməsi mümkün deyildir.

Həmçinin, bələdiyyə mülkiyyətinin hələ ki bu qısa vaxt ərzində qeyri-müəyyənliyi həmin mülkiyyəti ifadə edən əmlaklara və torpaq sahələrinə *reklam şirkətləri, ticarət obyektləri, ictimai iaşə və digər xidməti birliklərə edilən ödənişləri, dayanacaqlar və parklanma sahələri üzrə vəsaitlər*in ödənilməsini büdcəyə çəkməyi qeyri-mümkün edir. Bu səbəbdən yeni xidməti strukturların yaradılması da vacib xarakter daşıyır.

Həmçinin, Vətən müharibəsi ərzində işğaldan azad edilmiş torpaqların geniş iqtisadi potensialı və imkanları kooperativ birliklər, biznes, xüsusən isə KOB-lar üçün yeni fürsətlər və imkanlar yaradır, ayrı-ayrı sahibkarlar da bu yerlərdə kooperativ əlaqələrin və biznesin imkanlarının formalaşdırılmasında aktiv formada iştirak etməlidir.

KOBİA yanında İctimai Şura öz fəaliyyətini yeni dövrün ehtiyaclarına, tələb və təkliflərinə uyğun şəkildə formalaşdırmalıdır. Agentliyin spesifik fəaliyyətində hərtərəfli iştirakçılığın və aktivliyin təmin edilməsi, KOBİA ilə əhali, həmçinin biznes cəmiyyəti arasında kommunikativ əlaqələrin formalaşdırılması, daha da artırılması, KOBİA-nın gələcəkyönümlü siyasəti nəticəsində dəstək mexanizmlərinin ayrı-ayri sahibkarlara təqdim edilməsi və bu kimi alətlərdən istifadə edilməsinin təşviq edilməsi, dövlət-özəl sahə əlaqələrinin müxtəlif istiqamətlərdə böyük tədbirlərin təşkil edilməsi ilə davamlılığının təmin edilməsi bu İctimai Şuradan gözlənilən fəaliyyətlər sırasındadır.

Azərbaycanın ümumi inkişaf strategiyası daxilində davamlı inkişafın təmin edilməsinin məqsədləri və 4-cü sənaye inqilabı şərtlərinə uyğun şəkildə, işğaldan azad olunmuş ərazilər yerli spesifik tərəflər, mənbələr və eləcə də perspektivlər gözə alınmaqla ölkənin iqtisadiyyatına inteqrasiya olunmaqdadır. Beləliklə, Qarabağın yenidən dirçəlməsi və inkişafı prosesinə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) öz töhfəsini vermək istəyən başlıca qurumlar sırasındadır (4). İşğaldan azad edilmiş torpaqlarda xidməti, kooperativ birliklərin təşkil edilməsi ilə ölkənin müəyyən edəcəyi gələcək strategiyaya uyğun şəkildə qısa, orta və uzunmüddəti əhatə edən gələcək hədəflərində dəyişiklik edilməsində KOBİA kimi digər qurumlar da mühüm əhəmiyyət kəsb edəcəkdir.

İstifadə olunmuş ədəbiyyat:

1. “İtki və tələfatların qiymətləndirilməsi üzrə Avropa Qiymətləndiricilər Birlikləri Assosasiyasının Standartları”, Bakı, 2015.

2. Qasımov M. “Azərbaycan Xarici Siyasəti”, Bakı 1997

3. Aslanlı A. “Karabağ Sorunu ve Türkiye Ermenistan İlişkileri” Ankara, Berikan, 2015.

4. https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pd https://bakuresearchinstitute.org/az/

Сафаров Ниджат Вусал оглы, магистрант,
Бакинский Университет Бизнеса
Email: nijatsafarov07@gmail.com

СТИМУЛИРОВАНИЕ ПЕРСОНАЛА В «ZEYTUN PHARMACEUTICALS MMC" СОСТОЯНИЕ РАЗРАБОТКИ ПРОЕКТА ПО СТИМУЛИРОВАНИЮ ПЕРСОНАЛА

От эффективности и производительности сотрудников зависит функционирование любой компании. Задача руководства состоит в том, чтобы максимально раскрыть возможности персонала и эффективно их использовать. Решение только тогда будет эффективным, когда оно достоверно воплощается в жизнь сотрудниками организации. В том случае, если работники заинтересованы в результатах своего труда, можно достичь эффективного взаимодействия. Для создания заинтересованности работника необходимо подобрать верную мотивацию, и системы вознаграждения, соответствующие ей. Проблемная ситуация заключается в том, что в компании «Zeytun Pharmaceuticals MMC» предоставляет разнообразные социальные стимулы и материальные выплаты персоналу предприятия, заработная плата соответствует среднему уровню. В то же время наблюдается высокая текучесть кадров, проявляются трудности формирования резерва для замещения руководящих кадров в связи с низкими показателями постоянства в группе молодых специалистов. Проблема, исследуемая в работе, заключается в противоречии между высокой степенью затрат, реализуемых на предприятии «Zeytun Pharmaceuticals MMC» и низким воздействием их на процесс мотивации коллектива. Рациональная организация трудовой деятельности невозможна без научного подхода к управлению системами мотивации персонала предприятия. С данной целью необходимо применить методики, доказавшие свою эффективность на практике. А понимание таких основ управления человеческими ресурсами, как физиология и психология труда, поможет специалистам кадровой службы в решении задач управления персоналом. Актуальность выбранной темы исследования обусловлена тем, что совершенствование процесса мотивации персонала, и повышение кадрового потенциала организации, неразрывно связаны. Применение на практике различных методик повышения мотивации персонала на предприятии повышает его социально-экономическую эффективность.

Компания "Zeytun Pharmaceuticals MMC" была создана 9 октября 2014-го года под лозунгом «Сеть аптек, которая заботиться о вашем здоровье» (Sağlamlığınızı düşünən apteklər şəbəkəsi). За очень короткое время, данная компания собрала достаточно опытный персонал и заработала большую репутацию на рынке. На сегодняшний день компания заняла передовые места в рынке лекарственных препаратов и снаряжений. Компания славится своим качественным това-

ром, коротким временем работы, вниманием в потребителю и постоянным развитием.

Следовательно, объектом исследования стала именно компания «Zeytun Pharmaceuticals MMC”

Предметом исследования является совершенствование систем мотивации персонала предприятия “Zeytun Pharmaceuticals MMC”.

Целью работы является разработка комплекса мер, нацеленных на совершенствование систем мотивации для работников предприятия “Zeytun Pharmaceuticals MMC” .

Исходя из цели исследования, сформулированы следующие задачи:

– Изучить основные аспекты формирования мотивации персонала;

– Обобщить методы управления мотивацией и стимулированием персонала;

– Провести анализ основных экономических показателей и кадрового состава предприятия;

– Разработать рекомендации по совершенствованию систем мотивации персонала.

Эффективное управление предприятием предполагает максимально полное использование всех имеющихся ресурсов, главным из которых являются работники, целенаправленная трудовая деятельность которых способна обеспечить достижение краткосрочных и долгосрочных целей предприятия. В связи с этим производственно-социальный характер экономки предприятия малого бизнеса, имеющей как экономические, так и поведенческие предпосылки, обуславливает необходимость изучения проблемы трудовой мотивации.

Стимулирование персонала предприятия к эффективному труду может рассматриваться как управленческий процесс, направленный на формирование определенной системы стимулов, обеспечивающих рост эффективности трудовой деятельности.

Таким образом, в результате проведенного исследования можно сделать следующие выводы:

Сложившаяся финансовая ситуация отражает в целом положительную динамику функционирования “Zeytun Pharmaceuticals MMC”. Однако наличие растущих статей затрат способны негативно повлиять на результаты деятельности предприятия.

По данным анализа существующей системы мотивации труда в “Zeytun Pharmaceuticals MMC” можно выявить следующие проблемы:

